



**YANARDAĞ (SABİR MUSTAFA)**

# İSTİBDAD
# və
# İSTİLA,

## Yaxud Xeyirlə Şər arasında– Bəşər Aqibəti

(M.S.Ordubadinin romanları, Homerin "İliada" və "Odisseya" əsərləri əsasında)

Bakı-2014

**Tərtibçisi, redaktoru və ön sözün yazarı: Soylu Atalı**

**Bilgisayar işi: Göylü Atalı**
**Düzəldicisi: Nurtəkin Atalı**

**Yanardağ (Sabir Mustafa)**
**İstibdad və İstila, yaxud Xeyirlə Şər arasında – Bəşər Aqibəti. 538 səh. Bakı.**

Yanardağın bu kitabı sənət vasitəsilə insanın, bütövlükdə bəşəriyyətin sosial, mədəni, mənəvi sorunlarını, bu sorunların qaynaqlandığı nədənləri incələmişdir. Buradakı doğruçu və ədalətli axtarışlara dayanıb ağlın, düşüncənin genişlənməsinə zəmin tapmaq mümkündür. Milli-insani ərdəmliklə başa gələn bu kitab kütləvi oxucu üçün təqdim olunur.

# SƏNƏT MÖMİNİ

Dilimizdə, sənətdə, ədəbiyyatda şərti anlayışlar işlədilir. Məsələn, filankəs natiqlikdə dahidir, filankəs muğam oxumaqda dahidir, filankəs səbrdə və b.k. Burada biz “sənət mömini” ifadəmizi şərti xarakterlə demirik. Doğrudan da Yanardağ Sabir sənətdə möminlik zirvəsinə qalxdı və bunu da biz həqiqi anlamda sunmaq istəyərdik.

Mömin sözü dini anlayışdır, ancaq möminlik eləmək sadə yaşamın nizamıdır. Sənətdə möminlik də Yanardağın yaşam quruluşuna aiddir. Biz bunu onun “İstibdad və İstila, yaxud Xeyirlə Şər arasında Bəşər Aqibəti” əsərində aydın müşahidə edirik. Onun, ictimai həyatı sənət vasitəsilə izahı çoxcəhətlidir. Yanaşma üslubu aydındır, tez anlaşılandır, məntiqi qabiliyyəti cazibəlidir. Ədəbi dastanlardan götürdüyü örnəklərlə özünün təhlili elə bir ahəngdar biçimə düşür ki, adamda oxuculuq qabiliyyətini yeniləyir. Həm də hadisələrin təhlilində bəşər həyatının bütün dramatizmi – ziddiyyətləri, ülviyyətləri, geriliyi, inkişafı dərk olunan bir şəklə düşür. Əsər boyu Yanardağın bəşər həyatına münasibəti iki cəbhədə inkişaf edir. Biri şərin “şıltağı” və bəşər övladının bu şıltağın qarşısında çaşbaş düşməsidir. O biri isə Xeyirin səbirdən qoparaq kükrəməsi və dünyanın, həyatın mayasında məhz özünün (xeyirin) yaşamasını sübut eləməsidir. Yanardağ əsər boyu bir çox yerdə vurğu edir ki: “bəşər Xeyirə nisbətən Şəri daha asan həzm edir”. Ancaq həm də bütün mərhələlərdə Şərin fəsadlarına qarşı Xeyirin ülviyyətini qabardır. Sübut etməyə çalışır ki, Şər nə qədər tarixi aşamaları zədələmiş görünsə də, heç vaxt Xeyirə qalib ola bilməyib. Çünki varlığın mahiyyətində Xeyir var. Şər gedişatdadır, Mənada deyil.

Sabir Yanardağın təhlilləri M.S.Ordubadinin əsərləri ilə başlayır. Bu əsərlərin leytmotivi üzərində o, Şərin genişlənmə səbəblərini və yaşama qanunauyğunluqlarını çox ustalıqla izah edir. İstibdad özünə daim yeni keşikçilər hazırlayır, onlara özü mühit düzəldir və bu mühiti ifadə eləmək üçün xarakter aşılayır. Kitaba üz tutub fikrimizi bir misalla möhkəmlətməyə çalışaq:

***"İstila gedişinin özü hələ lap başlanğıcda qırğın və dağıntı hesabına başa gəlir. Sonra o, əsarət durumunu saxlamaq, ictimai qüvvələri öz məqsədinə tabe etmək üçün güclü və sağlam qüvvələri məhv edir. Lakin o, tora salmaq və hipnoz etmək naminə canavar təbiətini gizləmək üçün mələk tülünə bürünməlidir. Bu zaman məhv etməyin mürəkkəb və daha amansız üsulları başlayır. Bunun ilkini və başlıcası parçalamaq yolu ilə məhv etməkdir. O bu iş üçün millətin öz içərisindən satqınlar, laqeydlər zümrəsi yaradır. Bu gedişat əvvəlcə milli cılızlaşmanın əsasını qoyur. Sonra o, xalqı məhv etməlidir...***

***Bu İstila ilə İstibdadın vəhdət təşkil elədiyi nöqtədir. İstibdad üçün gücsüz düşdüyü nöqtələr münbit bir mühit rolu oynayırdı. O bu mühitdən istifadə edərək gücsüz nöqtələri daha da artırır, şiddətləndirir, pərakəndəliyə, satqınlığa, xaraktersizliyə, şərəfsizliyə, bayağılığa, tənbəlliyə, bekarçılığa, qəbahətlərə, cinayətlərə, səfilliyə yeni tonlar verərək, qəddarlığın meydanını başdan-başa sulayır" (S.Y. "İstibdad və İstila").***

Buradan elə görünər ki, şər qarşısıalınmaz bir gedişatın, prosesin doğurduğu həyat tələbidir. İstibdad xarakterdə yaşayır, ancaq xarakterə sığmır, daha mürəkkəb biçim alır və ümumbəşər həyatına hakim olana qədər böyüyür. Minillik bəşər tarixini izlədikdə də biz bunun şahidi oluruq. Sanki tarix də bu deyilənlərə dayaq durub şərin yenilməz olduğunu sübuta çalışır. Ancaq Asif Ata deyir ki, bəşər tarixi qaralamadır. İnsan əsil tarixi oxumayıb, çünki o, yazılmayıb. Əsil tarix İnsanlığın tarixidir. İnsanlığın tarixində şər yoxdur, yaxud çox epizodik və cılız görünür. Bunu biz Sabir Yanardağın öz əsərində Şərin qarşısına keçərək cəsarətlə söyləmələrində də görürük. O deyir ki, şər danışanda üzdən gözəl görünür və inandırıcı təsir bağışlayır: ***"amma bu gözəl inamlar və bu gözəl danışıq məntiqsizliklər seylabından ibarətdir. Kim şahidlik verə bilər ki, doğrudan da çarizmin boynuna belə bir vəzifə düşmüşdür? Əgər ilk hökmün varlığı şübhə doğurursa, ondan doğan bütün hökmlərin özülü məntiqsizliklərə əsaslanmalıdır. Bir halda ki, biz hər cür istilanı***

***cinayətlər və qəbahətlər dağarcığı hesab edirik. O nə qədər parlaq şüarlarla müşayiət olunsa da..."(S.Y. İstibdad və İstila).***

Bəli, Şəri güclü sayanlar və yenilməz görənlər özlərinin cılızlığına bəraət qazandırırlar. Şər bu qədər güclü isə, əbədi məğlubedilməz isə nə üçün Xeyirin libasına bürünür, nə üçün Xeyirin mülahizələrini dilə gətirir, sözdə Xeyirin tələblərini ortaya çəkir?! Şər mahiyyətə dayanmır, dayansaydı, öz adından danışardı, hər yerdə açıq şəkildə öz yenilməzliyinin sübutuna çalışardı. Şər bilir ki, açıq əməllərdə öz xislətini üzə çıxaran kimi məğlub olacaqdır. Şər əməllər törədənlər həmişə bu əməllərin Xeyir xislətli olduğunu təbliğ edirlər. Həm də Şər xisləti ilə yaşayanlar özlərini qorumaq üçün daim bir araya gəlirlər. Məhz Şərin güclü görünməsi də onu təmsil edənlərin üzdə bir araya gəlməsinə görədir. Ac, vəhşi qurdlar ovun üzərinə birlikdə gedirlər. Ancaq öz aralarında ovu bölmək uğrunda bir-birini həm də gəmirirlər. İctimai həyatda da belədir, – Xəlqi ada, mahiyyətə uyğun yaşamayanlar ictimai təbəqə əmələ gətirirlər və Şər xisləti ilə dolanlar sürətlə bir araya gəlib güclənirlər. Toplumun sadə əməklə öz həyatını yaşayan kəsimini talamaqla dağınıq duruma salırlar. Bununla da güclü-gücsüz təbəqələr yaranır. Dövlət də ən çox bu təbəqələrin münasibətini tənzimləyir. Ancaq güclünün xeyrinə. Bu səbəbdən də dövlət daim özündə Şər xisləti daşıyır. Yənu dövlət Şər xislətli təbəqənin aparatı rolunu oynayır. Bu aparat – istila yaradan istibdadçı güclərin birindən o birinə ötürülməklə xarakterini qoruyub saxlayır. İstibdad aşırı həddə çatanda toplumun, yəni məzlum təbəqənin içərisindən əks qüvvə səfərbər olunur. İdarəetmə ələ keçirilir. Zülm görmüş toplum sevinir, rahat nəfəs almaq istəyir. Bu dəfə taleyini öz içərisindən çıxmışlara tapşırır. Ancaq istibdad aradan qalxmır, yeni biçimdə həyata, münasibətlərə qayıdır. Gündən-günə artır, böyüyür və öncəki səviyyəsini bərpa edir. Bu dəfə yeni nəsildə yeni əks qüvvə dirçəlməyə başlayır və i.a.

Nəsillər bir-birini əvəz edir, ancaq bir nəsil özündən öncəkinin fəlakətlərinin səbəblərini əsaslı şəkildə dərk eləmir. Bu səbəbdən də ictimai faciə öz ahəngini qoruyub saxlayır. Ancaq bu faciələri tədqiq edən, öyrənən, öyrədən sənət örnəkləri də hər zaman ortaya çıxır və

Xeyiri ölməzliyini sübuta yetirən "SÖZ"ü ortaya qoyur. İndi haqqında bəhs etdiyimiz Yanardağ sənəti həmin örnəklərdən biridir və birincilərdəndir. Ona görə birincilərdən deyirik ki, biz Asif Atanın Mütləqə İnam Dünyabaxışının daşıyıcılarıyıq. Yanardağın bu əsərinin ərsəyə gəlməsi də Asif Atanın İnsanlaşma ideyasına uğurlu bir qulluq göstərməkdir. Asif Atanın təlimi Şərin niyə yaşaya bilməsini göstərməklə necə aradan qaldırılmasını yetirir. Bu cür möhtəşəm sənət örnəkləri isə şərin ikiüzlülüyünü, dağıdıcılığını, qanlılığını, aldadıcılıq xislətlərini açıb göstərir. Biz də peyğəmbər işi ilə, bu işə qulluq göstərməni bir arada götürür və təqdim edirik.

Bayaq dedik ki, nəsillər dəyişir və təbəqələr arasında mübarizə də dəyişir, yenilənir. Ancaq əsaslı fərq ortaya çıxmır. Niyyətlər dəyişir, planlar dəyişir, mübarizə üsulları dəyişir, ancaq ədalət bərqərar olunmur, çünki insan dəyişmir. Ona görə Asif Atanın ideya-baxışı insan üzərində qurulub və insanın dəyişməsi uğrunda mübarizə aparır. O, vurğu edir ki, hər cür sənət, ədəbiyyat, mədəniyyət örnəkləri insanın dəyişməsinə, onun öz mahiyyətinə uyğun yaşamasına qulluq göstərməlidir...

S.Yanardağın araşdırmaları çoxcəhətlidir. O, insanın fərdi aqibətini ictimai kontekstdə özünəməxsus bir uğurla qiymətləndirərək, millətin varlığına bağlayır. Fərd-millət əlaqəsi həm fəlakətlərin, həm də quruculuğun zəmini kimi dərk olunanda bütün ziddiyyətlər qarşımızda işıqlanır və tərəqqi üçün yeni yön görünür. Fərd öz mahiyyətini itirəndə millətin gücü sarsılır və "Cəmiyyətçilik" səviyyəsinə enir. Şər də bu nöqtədə doğulur və həyatın ahəngini tədricən təlatümə gətirir. Bu məntiq daha geniş – ümumbəşər səviyyəsində də doğrudur.

Bu əsərdə S.Yanardağ Şərqi dəyərlərin təsir gücünə və sıradan çıxarılmasına da diqqət ayırıb. Dinin, mifologiyanın, sənətin, elmin insan həyatında yeri, rolu gerçək hadisələrə, yaşamın prinsiplərinə dayanılaraq mənfi və müsbət çalarlarıyla izah edilmişdir. O bu məsələdə "İliada"nın rəvayətlərinə üz tutmuş və bütün hadisələrin incəliklərini diqqətdən keçirmişdir.

Burada Şər və Xeyir qarşıdurması, döyüşü, xarakterlərdəki tələbi o qədər aydın, doğru ifadə olunmuşdur ki, daha geniş izahatlara ehtiyac duymuruq və birbaşa oxucunun əsərə başlamasını zəruri sayırıq. Söz yox, əsərdə müəyyən qırağa çıxmalar da yox deyil. Bəzən istedadlı aydınımız S.Yanardağ hadisələrin mənasını dastanın dediyi səviyyədən qırağa çıxarıb idealizə edir. Bu, ən çox "Axilles ülviyyəti" dediyi məsələdə özünü göstərir. Biz burada məsələnin üzərinə getmirik, çünki niyyət sağlamdır və yanaşma Xeyirə ziyan gətirmir.

Başqa bir cəhət, əsərdə S.Yanardağın dili ərəbcə, farsca sözlərlə çox yüklüdür. Təbii ki, bunun səbəbi dilimizin sovet dönəmində daha çox qarışıq duruma gətirilməsi ilə bağlıdır. Ancaq bununla belə, əlbəttə, biz, dilçi, ədəbiyyatçı alimlərimizə qarşı güzəştli mövqenin yanlısı da deyilik. Dili qorumaq daha çox dilçilərin üzərinə düşür. Hər bir aydın öz yaşadığı çağda bacardığı qədər dilin saflaşmasına – özümləşməsinə çalışmalıdır.

Biz də Sabir Yanardağın "İstibdad və İstila, yaxud Xeyirlə Şər arasında Bəşər Aqibəti" əsərini redaktə və düzəliş edərkən, əsərin dilini bacardığımız qədər türkləşdirməyə çalışdıq. Dilimizin aydın və sadə sözlərini ərəb və fars sözlərinin yerinə qoymaqla onun (dilimizin) qarşısındakı sorumluluğumuzu az və ya çox ölçüdə yerinə yetirdik.

İstəkli oxucu! Sənə təqdim olunan bu kitab İnsançılıq baxımından və milli şüurun inkişafı baxımından çox önəmlidir. Eləcə də ədəbi tənqidin az qala sıradan çıxdığı bir çağda bu əsər ədəbi mühit üçün bir mayak rolu oynaya bilər. Biz belə düşünürük, inanırıq ki, gələcək nəsillər də müsbət yöndən əsərin dəyərini biləcəkdir.

Atamız Var olsun!

***Soylu Atalı***
***Mütləqə İnam Ocağının Yükümlüsü***

İstibdadın müşahidə edildiyi yerlər insanın zəifliyinə, tarixin də naqisliyinə işarədir. Bütövsüzlük, dağınıqlıq zəif və güclü nöqtələrdən ibarət ictimai qütblər yaradır. Burada güclü qütb aman verməyən çoxrəngli, çoxcəhətli üsullarla zəif tərəfi əzir, təhqir edir, əqidəsini də korlayır. Zəif cəhətin dirənişi əsasında zülmün taleyində metomorfozlar – dolanbaclar alınırsa, bu tamamilə başqa şeydir. Ürəyin hökmləri, idrakın qüvvəsi – vicdan və ağıl yolu ilə durumun öhdəsindən gəlmək mümkün idimi?

Öncəliklə, zülm heç vaxt vicdanın səsini, ağlın hökmlərini dinləmək istəməmişdir. İctimai qüvvəni əlində topladığına görə çox vaxt həyat məsələlərini zülm həll etmiş, zahirən də belə görünmüşdür ki, tarixə yönü istibdad baltası vermişdir. Hətta ictimai qütbün zülmə düşən hissəsində ağıl müşahidə edildikdə belə, bu da, əsasən istənilən sonucu verməmişdir. Tarix metomorfoz edir, şər meydan sulayır. Burada ümumi rifah, vicdan və idrak – ülviyyət inildəyə-inildəyə, orada-burada işıldayıb-sönərək, sönüb yenidən işıqlandıraraq özünə yol açır. İstibdada meydan verən insanın zəifliyi, tarixin naqisliyi də bu gedişatda üzə çıxır.

İnsanın zəifliyi, tarixin naqisliyi ayrı-ayrı vilayətlərdə istibdad yaradırsa, bu, dünya içində, bəşər həyatında istilaya və imperiyaya meydan verir. Zəif və güclü nöqtələr vilayətdən ötüb dünya çərçivəsində qütbləşir. Daha doğrusu, zülm lokallaşır, zəiflik isə diffuziya edir. Əgər düyanı bütöv bir cəmdəyə bənzətsək, diffuz sahə bədənə, zülmün lokallaşdığı səmt isə başa oxşayır. Baş bədəni idarə etməlidir. Burada isə baş idarə adı ilə, ünsürləri əsasında, bədəni əzir, didir, parçalayır, tökür. İstilaçı burada mütləq – əbədi hakim rolu oynayır. Tarix isə istehza edib, öz yekununu başqa cür vurursa, bu tamamilə ayrı bir məsələdir...

Burada bizi maraqlandıran odur ki, istibdadın, deməli, istilanın da müşahidə edildiyi yerlər insanın zəifliyinə, tarixin də naqisliyinə işarədir.

İstibdada qədər dağınıqlıq, dərəbəylik, istibdaddan sonra isə diktatura və cılız bir demokratiya müşahidə olunur. Bu, tarixin qarışıqlıqdan – xaotiklikdən nizama – ahəngdar aləmə gəlib çatana qədər keçdiyi yoldur. Lakin əsil ictimai intizama cəmiyyət həyatında bəşəri ahəngin bərpasına qədər istibdad və istila tarixdə müşahidə edilən ən ümumi haldır.

İstibdad yaradıcılığa deyil, soyğuna əsaslanan amansız zülm aparatıdır. İstibdad idarəetmədə yırtıcı qəddarlıq törədirsə, əxlaqda

ifrat heyvanlaşma ümumi şəkil alır. İdarəetmə sistemində ürək və ağlın tələblərini nəfs və şıltaq əvəz edərək, cinayət və qəbahət bataqlığı yaradır.

İstibdad xalqın zəifliyidir. İstibdad zülm edərkən ona dirəniş göstərən önəmli bir qüvvə tapılmır. İstibdad ortaqsız surətdə meydan sulayır. İstibdad əzir, tökür, məhv və tarac edir, şaqqalayır, təhqir, göz yaşları, irin, qan aləmi basır. Xalq isə arxalanmaq, dərdini söyləmək üçün ictimai özül tapmır.

İstila zamanı istibdadın əli-qolu uzanır, caynaqları və dişləri daha amansız şəkil alır.

İstibdadın "fəaliyyətində" bir sövq-təbiilik, bir kütbeyinlik var. İstila isə sanki nəzəri-sosioloji bir sistemə əsaslanır. İstibdadın hərəkətverici qüvvəsi nadanlıq, kütbeyinlik, dağınıqlıq əsasında nəfsi və şıltağıdır.

İstilanın isə nəzəri surətdə əsaslandırıb həyata keçirtdiyi şey soyğun və xalqları assimilyasiya etməkdir. Burada könüllər, idrak, yaradıcılıq aləmi, fəaliyyət sahələrinin hamısı bu işə qurban verilir. İstilanın törətdiyi istibdad ağlın, mənqitin qanunları ilə hesablaşmır, onun üçün heç bir müqəddəs şey yoxdur. Xalqlar onun qarşısında əli-qolu bağlı, boynu bükük qoyun sürüsü timsalındadır. Fərdlər, elə bil nərə balığının ağzında güzəran keçirir. Bu yırtıcı nəinki ağzını qapasa, adicə çənəsini tərpətsə belə, qan seli dəniz yaradar. Leş yeyib harınlaşan bu yırtıcının dişinin dibi elə üfunətlidir ki, hər yeri murdar kökə salmışdır. Orada hər şey dadsız və solğundur.

Bu başlanğıc, hələ işlərin gümrah addımlarla irəli getdiyi durumdur. Lakin irəliləyiş harınlıq həddinə çatdıqda tədriclə ölüm başlayır.

İmperiya – istila maşını (xüsusən, dərinlərdəki duruma görə, özündən xəbərsiz şəkildə məhvə sürüklənərkən) ifrata vararaq elə bil ki, xalqları dərin bir quyuya salır, orada onlarla istədiyi kimi davranır. Bu dərin quyunun dünyadan təcrid olunmuş sakinləri ya taleyə boyun əyərək, ya da simasızlaşdığına görə dağınıqlıqları üzündən susur, ya da öz başları hayına qalaraq istila maşınının xeyrinə yaşayışın ilkin tələblərinin ardınca qoşaraq xudbin arzuları naminə bir-birini və xalqı satıb "fərasət" göstərərək bir şey əldə etməyə çalışırlar. Halbuki istila maşınının son məqsədi çox rəngli, çalarlı, pərdəli hiyləgər, siyasətbaz yollarla xalqları bütün təbəqələri ilə birlikdə, küll halında məhv etməkdir. İstər-istəməz, könüllü və məcburiyyət üzündən satılanlar bunu hesablamalıdırlar. Bilməlidirlər

ki, onlar xalqı satıb güzərana can atarkən özlərinin də taleyini xərcləyir, həyata yox, daha çox qəbrə doğru hərəkət edirlər.

İstila maşını çox vaxt xalqları amansız, ağır şərtlər qarşısında qoyur. Onlar vilayətləri yerli şərtləri və beynəlxalq istehsal şəbəkəsinin təbii şərtlərini nəzərə almadan sümürmək məqsədi ilə özlərinin istehsal sahələrinə çevirərkən xalqları vətəndən, vətənləri də xalqlardan məhrum edirlər. Üzərində yeridiyi, yaşadığı, güzəran keçirdiyi, sevdiyi, yüzillərlə bağlandığı vətən mülkiyyətə çevrilərək istila maşınının sərəncamına keçir. Vətənlər istila maşınının torpaq sahəsidir, xalqlar isə işlək əllər. Çox vaxt buna qul halına düşmüş dünya deyilir. Lakin belə duruma məhkum edilmiş xalqla – işlək malla, heyvan sürüləri arasında nə fərq var?! Burada xalqları məhvə aparan birinci amil var. Bu cəhət gözlə görünən, üzdə olandır. Amma xalqları sıradan çıxarmaq üçün caninin görünən və görünməyən sonsuz planları olur. Bu planlar birdəfəlik tərtib edilib qurtarmır. Amansız planlar teyflər təkin rəqs edir, durumla bağlı variasiyalaşır. Bu zaman xalqın əti, qanı yem, göz yaşları isə şərab şəklində süfrəyə gəlir. Zahirən süfrənin üstü zəngin, dadlı, ətirli görünür – mənimki və düşmənin süfrəsi. Lakin o mənim xalqımın göz yaşlarıdır. Şəhərlərdə və kəndlərdə zay və ya gözəl binalar ucalır, qəsəbələri avara və ya ayna küçələr, xiyabanlar, şəhərlər arasını kələ-kötür, ya düz küçələr, çılpaq yaxud yaşıl xiyabanlar birləşdirir. Bütün bunlar yaradıcı əməyin məhsulu olmaqdan, ehtiyacı ödəməkdən çox mənim xalqımın göz yaşlarıdır. İnsanlar abırını gözləmək, isti-soyuqdan qorunmaq üçün bədənlərini örtməyə, paltar geyməyə məcburdurlar. Geyinmədə ehtiyacdan başqa zövq, gözəl görünmək və bəzək də iştirak edir. Bəzi yerlərdə adamlara libasla qiymət verilir. Ona görə də adamlar gözəl, rəngarəng geyinməyə, bu paltarların hər növündən, dəst-dəst əldə etməyə çalışırlar. Geyimdə yarış və dəblər başlayır. Lakin ağır şərtlər qarşısında qalan xalqlar üçün bu geyim vasitələri göz yaşlarıdır. Bu gözəl paltarlar, bu dəb yarışları, sümürülüb caninin ehtiyacına və xəzinəsinə daşınılan sərvət mənim xalqımın göz yaşlarıdır.

Hamı yaxşı yaşamağa, sərvətli olmağa can atır. Ağır şərtlər qarşısında qalan xalqın övladları da. Bu xəbərsizlər bilmirlər ki, onlar da sərvət forması almış xalqın daha artıq göz yaşlarına sahib olmağa çalışırlar. Bu yarış xeyir işlərdə, toy məsələlərində, oğlan-qız seçilməsində də iştirak edir. Bu binəvalar başa düşmürlər ki, onlar

bununla da xeyir işlərini sərvət və zinət şəklində mənim xalqımın göz yaşlarına bürüməyə cəhd göstərirlər...

İmperiya – istila maşını xalqları dərin bir quyuya salır, orada onlarla istədiyi kimi rəftar edir. Lakin dərin quyunun dibində çabalayanların, haray qoparanların iniltisi, səsi, qışqırtısı, harayı heç bir yana gedib çatmır. Quyunun dibində gedən işlərdən dünyanın xəbəri yoxdur.

Zahirən belə görünür ki, imperiyanı yaradan yelbeyin, cinayətkar dəstə öz xalqının əzəmətini nümayişə və təsdiqə çalışır; buna ayı xidməti də deyirlər. Əlbəttə, burada tarixin oz sövq-təbiisi də iştirak edir. Amma imperiya yolu ilə ”xalqına xidmətə” çalışanlar daha çox milləti dunyanın nifrət hədəfinə çevirirlər.

Əsarətə düsən xalqlar zərərçəkən olurlar. Ölkələr qırğınla istila olunur, xalqlar qan gölü vasitəsi ilə əsarətə salınır; İstilanı və əsarəti saxlamaq üçün də ağır qanunlar tətbiq edilir və həyata keçirilir. Sonra soyğun vasitəsi ilə bircins istehsal başlayır, bunun ardınca həyasız yollarla – assimilyasiya ilə xalqları əzib-əritmə tədbirləri gedir. Şəxsiyyətlərin, ağıllı adamların, istedadların, mərdlərin, üsyançıların, qəhrəmanların təqibi, işgəncə, açıq və ya ficətən ölümlər, kütləvi hərakatların qan gölündə boğulması, bəhanə ilə ələ keçən təki xalqların ora-bura sürülməsi, millətin beyindən məhrum edilməsi, yerli mədəniyyətlərin məcradan çıxarılması, cılızlaşdırılması, onlara yad təsirlərin hopdurulması, əxlaqın pozulmasının təşkili, qırğınlar törətmək, intriqa salmaq və s. işlər bura daxildir.

Lakin tarixən yaşayıb qədim olan xalqların mayasında bəşəri özül vardır. Əsarət nə qədər xoşagəlməz olsa da, müsbət impulslar da verir.

İmperiya fe”lən xalqlar arasında könüllü assosasiyanı əvəz edərək tərəqqini planetin hər yanına yayır. Bu başlıca amildir. Eyni zamanda, əsarət xalqların yaşamağa qabiliyyətinin sınagı rolunu oynayır. Əsarətə düşən xalqın taleyi tarix qarşısında problemli durumda qalır. Bu problemin öhdəsindən gəlməyə cəhd göstərirkən bərkdən-boşdan çıxır, dağınıqlığa qarşı mübarizədə bərkiyir, mütəşəkkillik məktəbi keçir. Durum sənətə təsir göstərir, ədəbiyyat bir xalqın taleyi timsalında bəşəri problemlər qaldırır, döyüş meydanında insanın – şəxsiyyətin mahiyyətindəki gizli laylar üzə çıxır, elmi-nəzəri fikir ictimai müşküllərlə məşğul olarkən, kiçik bir xalq dünyanın fəlsəfi mərkəzinə çevrilə bilər.

Tarixin gedişində imperiyanın xalqlar üçün tərtib etdiyi "gedişlər" əks sonuclar verərək son nəticədə müşkülləri tərəqqinin, xalqların, bəşəriyyətin xeyrinə həll edir.

İlk insan gözünü açarkən dünyanı gözəl görür. O, işıqlı bir aləmlə, doğmalarla, sonsuz gözəlliklərlə bərq vuran təbiətlə, qayğılarla, nəvazişlərlə, təbəssümlərlə əhatə olunur. Lakin o, bu həyatda boy atdıqca hər gün yeni nemətlər, yeni əyləncələr daha sonra əlavə edilir. Sən yetişirsən. Sənə olan məhəbbətə qarşı qəlbində məhəbbət bas qaldırır. Sənin ruhun məhəbbət duygularının havasına qərq olur. Valideyinə, bacı-qardaşa, qohum-qonşuya, doğmaya-yada, təbiətə, vətənə, insana, millətə, bəşəriyyətə, yaradıcılığa – incəsənətə, elmə, tərəqqiyə məhəbbətə!!!

Təbiət, musiqi, nağıl, insan, ünsiyyət, hadisələr, – gənclik – məhəbbət! Hər gün sənin aləmin və gözəllik böyüyür. Aylı gecələr, güllü-çiçəkli bahar, tər bənövşələr, oyanan təbiət, çiçəkləyən, tumurcuqlayan ağaclar, çəmənlik, dağlar, daşlar, sıldırımlı dərələr, təbiətin tufanları, küləklər, ağ və qara buludların bir-birinə qarışması, şimşək çaxması, göy gurultusu, selləmə yağış, yaşıllıqlar, meşəliklər, tufandan sonra Günəşin işıldaması, laciverd təbiət, aydın səma! Eşqə düşmək, eşqin layları, xəyal, məhəbbət macəraları! Sevgi həyəcanları, götür-qoylar, hicran, həsrət, vüsal arzusu, daxili nitqlər, vüsalın özü, səadət, məstlik, qərq olmaq, dünyadan xəbərsizlik, xəyal, uyumaq, röyalar görmək, sevinmək, gülmək, fərəh, ailə, qohumluqlar, yoldaşlıq, dostluq, vətəndaşlıq əlaqələri, ictimai amalın qoynuna yaslanmaq, hörmətli sayılmaq, sərvətə, təltifə aldanmaq, uğurlar iqlimində təbəssümlərə qərq olmaq və b.k.

Həyat gözəldir, qardaş, gözəl!

Antihəyat onu üstələməsə!

Həyatın gözəlliyinə ilk kölgəni salan şey ehtiyacdır.

Ehtiyac içində qalan adam özünü ictimai burulğanın çalarlarından xilas edə bilməz. O, heç cür işlərini səhmanlayıb, öz həyatını qurmaq imkanına malik olmur. O, səhmanlayır, götür-qoylar baş alıb gedir, planlaşdırır, tədbirlər, müraciət edir, çırpınır, vurnuxur, ümid bəsləyir. Lakin günlər ötdükcə, həyat boy atdıqca müşküllər müşküllərin üstə qalanır, həll olunmur, daim artır.

Ehtiyac içərisində qalan adam üzü qara başı aşağıdı. O, həm əzab çəkməli, həm də tə'nə oxlarını qəbul etməli, ictimai e'tinasızlığa, təhqirə, həqarətə uğramalıdır. Bu adam ətrafın təzyiqindən yaxa qurtara bilməz. Hələ bu harasıdır? Ehtiyac içərisində qalan adam

qidasızlıq üzündən zəif düşür, yanaqları solur, ordları batır, üzü qansızlaşır. Bu adamın gözəlliyinin hiss edilməsi mümkünsüzləşir. Qidasızlıq müxtəlif rəngli xəstəliklərə meydan verir, ağ günü qara edir, ömrü qısaldır, hər cür məhəbbətin, insani sifətlərinin üstünə daş basır.

Qidasız qalan adamın ilkin və başqa ali ehtiyaclarından söhbət belə gedə bilməz.

Ehtiyacı ödəmək üçün iki şey lazımdır: məhsuldar əmək qabiliyyətinə çatmaq – mütəxəssis olmaq; işləməyi bacarmaq və qabiliyyəti tətbiq etmək yolu ilə ictimai qütbün məhrumiyyətlər səmtinə düşməmək. Lakin insanın əllərinin və ağlının yetişməsi, ictimai məhrumiyyətin pəncəsindən xilas olması əsasən obyektiv səciyyə daşıyır. Əfəl, qabiliyyətsiz, tənbəl görünən insan nəinki asılı durumdadır, o yetişə bilmir, həm də bu olmadıqda yaradıcılığı, daimi fəaliyyəti səfalət və pis vərdişlər əvəz edir.

Gözəlliyə kölgə salan başqa şey zora uğramaq, zorun insani münasibətləri, bəşəri keyfiyyətləri, ülviyyəti üstələməsidir.

Dövlət zorun "mükəmməl" formasıdır.

Dövlət bütün fərdi arzulara, yaşayışa can atmaq cəhdlərinə "dayan" deyə əmr verir. O, ayrı-ayrı hərəkətlərə hədd qoyur, sonsuz məntiqlər məcmusuna qarşı öz məntiqini irəli sürür. Zahirən belə görünür ki, dövlət bütün fərdi mənafeləri vahid bir ümumi amalda birləşdirir – ona tabe edir, həmin vahid amal əsasında fərdi hüquqları qorumaq və ehtiyacları ödəmək yolu ilə ümumi rifaha qulluq göstərir. O ilk dəfə meydana məhz bu iddialarla da atılır. O bu prinsipləri pozanlara qarşı cəza mexanizmi və ictimai tərəqqinin təşkilatçısı kimi görünür. O bu məqsədlə də yaradılmışdır. Lakin dövlət mücərrəd məfhumdur. O, ictimai aparat olduğuna görə, əla niyyətli şəxslər orada hər biri ayrılıqda müxtəlif görəvləri yerinə yetirməlidir. Lakin yetirməlidirlər bir şeydir, yetirirlər başqa şey. Tarixin ümumi mənzərəsi və təcrübə göstərir ki, bu səlahiyyətli adamlar dövlətin, içtimai prinsiplərin adından daha çox öz məqsədlərini həyata keçirtmək, şıltaqlarını ödəmək üçün vurnuxmağa fürsət tapırlar.

Dövlət cinayətkar və qəbahətli mahiyyət daşısa da, ictimai prinsiplərin simgəsidir (rəmzidir). İlk baxışdan onun səlahiyyəti mütləq görünür. Xalqın, toplumun dağınıq durumuna qarşı dövlətin əlindəki canlı qüvvə mütəşəkkil durumdadır. İctimai sərvətin bir hissəsi onun əlində toplanır. Amma lazım gələrsə, bütün sərvətlər də sanki onun əlinin altında görünür. Dövlət guya həm də bu ictimai sərvəti idrakla,

ədalətlə bölmə aparatıdır. Belə hallar da tarixdə müşahidə edilmişdir. Lakin indiki halda dövlət istibdad mahiyyəti almışsa və özəllikcə o istila maşını ilə qaynayıb qarışmışsa, burada daha ictimai prinsipləri idarəetmə nizamından, sərvətləri idrakla, ədalətlə bölüşdürmə, tətbiqetmə sistemindən söhbət gedə bilməz. Burada söhbətlər başaldadıcı yöndə gedər və şaqraq şüarlar irəli sürülər. Lakin əslində istibdadın ətrafında birləşən canlı sürüsünün bütün təbəqələrinin üzvləri – çinovniklər şəbəkəsinin bütün məsamələri ictimai sərvəti tarac etməklə məşgul olur. Mütəşəkkillik, silah və sərvət onlara quldur kimi davranmağa, gözdən pərdə asmağa, bir sıra pis işlər görməyə imkan yaradır. Bununla da xalqın taleyi ilə oynamaq, mənəviyyatını açıq və ya pərdəli şəkildə hərraca qoymaq, onu aldatmaq, zorakı yolla əxlaqını pozmaq üçün ortam (şərait) yaratmışdır. İctimai sərvət və xalqın abrına, həyasına, ismətinə, mənəviyyatına qarşı tam bir qan-qan durumu hökm sürür kimi payına nə düşə!!! Burada bəzən cəza tədbiri də müşahidə edilirsə, bu da durumu istənilən yöndə tərtib etmək üçündür. Yaxud bu cəza tədbiri əsasən mübarizədə məğlub  olanların və ya təsadüfən yıxılıb ayaqlar altında qalanların arasında gedir.

Çinovnik şəbəkəsi təkcə əlində toplanan ictimai sərvətin talanmasıyla yetərlənmir. O, azğın canavar sürüsü tək ov gəzir. Zəif nöqtələrdən adamlar tapıb tora salır, öz mənafeləri naminə, nahaq göz yaşları və qanlar axıtmaq yolu ilə, başqalarının payını əlindən qoparmğa çalışırlar. Bu soyğunçuluq açıq-düz yolla başa gəlsə idi, müsibətin amansızlığı dözülməli olardı. Payı verib canı xilas mümkün idi. Lakin soyğun əyri-üyrü, dolaşıq yollarla edilir. Birinə siyasi və ya mülki ittihamlar tərtib edilir, ağır cinayət işlərində suçlu kimi ələ keçirilir. Hər bir cinayətin də öz qiyməti var. Vay onda ki, dara düşən adamın gözəl arvadı, bacısı, qızı, gəlini... ola. İstənilən şey ələ keçənə qədər "suçlu"nu eşşək kimi anqırdır, işgəncə baş alıb gedir. Lakin xilas olmaq üçün boğazdan tikə çıxarılmalı, ləyaqət ayaq altına verilməlidir. Əks halda, ağır cəza və ömrün qırılması mütləqdir.

İstibdad bəşəriyyəti maddi və mənəvi yöndən soymaqla məşğuldur.

İstibdadın əlində sərvət var. O bu və ya başqa yollarla bu sərvəti mənimsəyir. Lakin o buna əlavə olaraq xüsusi tipli soyğunlarla da məşğuldur.

İstibdadın əlində sərvət var. Bu sərvət vasitəsiylə o bəşərin mənəvi aləminə nüfuz göstərir, özünü satanları öz heyvani aləminə hopdurur. Lakin o, səlahiyyətindən yararlanmaq vasitəsiylə özünü satmayanları da bu işə məcbur edir. İstibdad tora düşmüş, təklənmiş, ictimai zəmini zəifləmiş birisini aclıq və ya həbs-sürgün qarşısında qoyur. Yaşayış vasitələrindən, sərvətindən, üstəlik namusundan, özündən, arvadından, bacından, qızından keçməlisən, ya da nəsilliklə ictimai əjdahanın ağzında çeynənməlisən. Vay onda ki, bu nəfərin, onun arvadının, bacısının, qızının qəlbi əxlaq, təmizlik və ülviyyətlə dolu ola. İnsanın, onun arvadının, bacısının, qızının qəlbində bir məhəbbət də gizlənə! Burada sızıldayan könlü, qırılıb tökülən səadəti, daşa dönüb əzab verən ürəyin durumunu sözdə demək asan, işdə təsəvvürə gətirmək isə çətindir...

İstibdadın dolanbacları, çevrilmələri çalarlı və qol-budaqlıdır.

Lakin hələ dövlətə qədər də insanlar arasındakı münasibətlər elədir ki, fürsət düşdükcə, ayrı-ayrı hallarda güclü zəifə kömək göstərmək, ruhi əzginə təsəlli vermək əvəzinə öz gücü ilə təzyiq göstərir, şıltağı ilə isə təhqir edir, həqarət, tənə selləri yağdırır. Ona görə də bizim ittihamlarımız qarşısında istibdad əsəbiliklə hayqırır, uca səslə deyir ki, biz bu cür təzyiqlər – cinayətlər və qəbahətlər törətməyə məcburuq. Həyatın özülü belədir. Sizin müdafiə etdiyiniz insanın özü şər və qəbahət dağarcığıdır. O bunu öz gündəlik hərəkətində açıq və ya gizli şəkildə büruzə verir. İnsan öz nəfsinin və ehtirasının öhdəsindən gələ bilmir. Onu bədən, ürək bir şeyə, ağıl isə başqa şeyə təhrik edir. Ürəyin və ağlın hökmləri isə tab gətirmir, ilkin dirənişlərə təslim olur. Lakin burada ayrıca bədəndən və bu bədənlə bağlı ağıl və başdan söhbət gedə bilməz. Gözümüz qabağında bir-birini cəlb edən və bir-birinə qarşı dayanan bədənlər, ürəklər, başlar dünyası dayanır. Nəsillər yaşayır, nəsillər törənir, nəsillər ötür. Bədənlər, ürəklər, başlar dünyasına tarixin əngin mənzərəsi əlavə olunur. İrsiyyət, ənənə dəyişkənliklərinin məcmusundan, xeyirlə şərin yaratdığı qarmaqarışıqlıqdan göy üzü tutulur... Ona görə də istibdad iddia edir ki, biz atdığımız addımlardan azca da olsa geri dursaq, sizin qorumaq istədiyiniz insanlar toplu halında elə bir hərcmərclik yaradar ki, onun törətdiyi qəbahətlər və cinayətlər hər cür istibdadın, hər cür istilanın nəticələrini kölgədə buraxar.

İbtidai quruluşu, ibtidai icmanı instinktlərə əsaslanan, nizamlı, mənəvi təmizliklə izlənilmiş halal bir cəmiyyət hesab edirlər. Lakin orada da qəbilə qanunları qorunub saxlanılmalı-dır. Orada da durub-

oturmağın ölçüsü gözlənilməlidir. Birinin qəlbində ölçüyə sığmayan bir duyğu baş qaldırmış. O iki adam arasında qeyri-adi bir münasibət tələb edir. Lakin yerə-göyə sığmayan duyğu, iki adam arasında qeyri-adi münasibət qəbilənin qoruduğu məhdud qaydaların çərçivəsinə sığmır. Qəlbində göylərə ucalan bir duyğunun baş qaldırdığı şəxs, qeyri-adi münasibətdə olan iki fərd, ya qəlbindəki duyğunu öldürərək biryolluq qəlblərini yaralamalı, ya da qadağan hərəkətlər edərək cəza təhlükəsi altında qalmalı və ya toplumlarını tərk edib təminat, sığınacaq olmadan ümidsiz səmtə çəkilməlidirlər.

Qəbilələr arasındakı münasibətlər isə ölüm-dirim durumunda idi. Burada soyğunla yaşamaq istehsalın mühüm bir əlavəsi kimi özünü göstərir. Qəbilələr arasındakı basqınlar, basqının törətdiyi qırğın, dağıntılar, soyğun və məğlub olan tərəfin başına gətirilən işlər: əsir götürmə, təhqir, təcavüz, zorlama, qətl, insan qurbanı, insan əti yemək və b.k. bura daxildir.

İnsanın qul durumu başqa biçim almışsa da, indi də bu və ya başqa şəkildə saxlanılır. Bunu nəzəri fikir gərəyincə işıqlandırmış. Lakin insanın ən böyük qul durumu onun iradəsinin yoxluğunda, simasızlığında, özü-özünü qul halına salmasındadır. Durumun kölgəli, fikirdəki qaranlıq cəhətləri işıqlandırmaq üçün "hakimlər və məhkumlar" yönündə əsərlər də yazmaq mümkündür. Çünki "hakim-məhkum" istilalarının mənası düzgün başa düşülmür. Ona görə ki, "zalım-məzlum" məsələsi özü də tərsinə qiymətləndirilir.

İmkanlı, vəzifəli, səlahiyyətli adamların insana qarşı törətdiklərini zülm, onun naşirlərini də zalım adlandırırlar. Bu isə zülm yox, cinayətdir. Onun naşirləri də zalım deyil, canidirlər.

Zülm-zalım sözündə bir əzəmət də var.

Cinayət işləyən hər bir kəs hansı mövqedə, hansı imkanda, hansı reklamda olsa da, caniliyinə görə hakim yox, məhkumdur.

Cinayətə uğrayan və ona dözən zümrə də məzlumdan daha çox məhkumdur.

Nə üçün?

Bu sualın çalarlı cavabı mövzunun yönünü dəyişdirərdi.

Yeganə doğru hakim varsa, o da öz idrakına tapınan, əllərinə güvənən, nitqləri və hərəkətləri ilə bəşəri görəvləri yerinə yetirən, ülviyyətin təsdiqini bacaran adamlardır. Onlar çarmıxda olduqda belə! Ona görə də əlahiddə quldarlıqdan və başqa formasiyalardan danışmağına dəyməz.

Planetimizdə əmin-amanlıq yoxdur. O, dost millətlərlə yanaşı, bir-birinə kin bəsləyən xalqlarla, bir-birinə qarşı dayanan dövlətlərlə, cəbhələrlə əhatə olunmuş. Bu cəhət planetimizdə ibtidai dövrə aid basqın və soyğun durumunu saxlayır.

Lakin insanın ən böyük qəbahəti və cinayəti öz nəfsini və şıltağını əsas götürüb, pərdəli yollarla, sonsuz aldadıcı sifətlərlə, hiylə və xəyanət mexanizmi vasitəsi ilə hərəkət etməsidir. Bu halda insan özü naqisdir. Və öz naqisliyi ilə burada ona edilən hər cür vəhşilikləri doğruldur.

İnsan bir anda xoşbəxt ola bilərdi. O, onu məhəbbət və qayğı ilə əhatə edən ailədə boy atır.

Körpənin zərurət üzündən qışqırması və ağlamasında bəlkə

də gözəllik var. Bu, körpə həyatında onun inkişafı üçün güman ki, bir ünsürdür. Lakin instinkt şəklində gərəksiz tələblərin yekunu kimi qışqıran, ağlayan körpə onun ailəyə gətirdiyi sevincə, qayğılara qanqaralıqları qatır.

Körpə həyata sevinc gətirir. O, boy atdıqca bu sevinci varlığına hopdura, onunla təskinlik tapa bilər. Bu zaman sevinc sevincə qarışar, dalğa və mühit yaradardı. Həyatda həmişə nə isə bir şeyin çatışmadığını nəzərdən qaçırmasaq, belə təsadüflər də müşahidə eləmək mümkündür. Lakin körpə boy atdıqca, gözünü açıb ətrafına baxdıqca, qarşısındakıları hiss etməyə, fərqləndirməyə başladıqca yaxın adamların məhəbbət və qayğısı ona cüzi, bəlkə gərəksiz görünür. Qəribə tərzdə ona məhəbbəti soyuq qarşılamağa, qayğılara etinasızlıqlar göstərməyə başlayır. Əgər indi o özü sevinc və qayğı iqlimi yaratmağa başlayırsa, burada təbiilikdən daha çox xudbin məqsədlər güdülür. Bununla da ailədə xəbisliyin və etimadsızlığın əsası qoyulur.

Ailə qalmaqallarının törətdiyi böyük cəhənnəmi, cəhənnəmin çalarlarını daha burada araşdırmırıq. İnsan ailədə xoşbəxt ola bilərdi. Lakin xudbin ehtiraslar – şər buna imkan vermədi.

İnsan ailədən qıraqda da xoşbəxt ola bilərdi. O, ailədən qırağa çıxan kimi insanlarla – el-oba ilə, böyük toplumla, nəhayət bəşəriyyətlə, tarixin uğurları ilə əhatə olunur. Qarşıda yüzillərlə qorunub saxlanılan Vətən, qucağını geniş açmış canlı, neməti bol, cazibəli, gözəl bir planet və möcüzələrlə dolu kainat var.

Lakin şər, şər! O gözəlliyə, ictimai ahəngə, ülviyyətə imkan vermir!

İnsan dünyaya tənha gəlir. Lakin dərhal ailədə, obada, eldə, dünyada insanla əhatə olunur. Dünyaya tənha gələn adam bu qədər insan topluları ilə əhatə olunduğu halda səbəblər səbəbi yenə də özünü tənha hiss etməyə başlayarsa? Hələ bu harasıdır, həmin insan deyilən şeyin özü ona qarşı çevrilərsə? Bir də görürsən səni cəzb edən, səndə qibtə oyadan, məhəbbətini qazanan, səni heyran qoyan insan sənə zülm etməyə başlayır, böhtan atır, həyasız bir yalanı həqiqət təki dinləmək cəzasına uğradır. Onu itələyir, qapıları onun üzünə bağlayır, ona salam vermir, salamını almır. Təhqir edir. O, ixtisassız duruma düşür, aciz qalır, işləməkdən, yaratmaqdan, buna görə də yaşayış vasitələrindən məhrum olur. Yoxsulluğun gətirdiyi qidasızlıqdan, ömrün qırılmasından başqa başıaşağılıq, üzüqaralıq, ictimai zəmini itirdiyinə görə insanların olduğu yerlərə buraxılmaması halları baş alıb gedir. Çünki həyat insanlığa yox, mürəkkəb şər mexanizminə uyğunlaşmaq məharətinə, onda iştirakın dərəcəsinə görə verilir. Həyatda kişi tənhalığı, kişi müsibəti! Hərçənd bu təklənmiş insanlardan bəzilərinin səlahiyyətə yetmək imkanı olduqda, yerə-göyə sığmayan iddiasını və qəddarlığını da müşahidə etmək mümkündür.

Sevən qadın, onun qəlbi, bu qəlbin parçalanma ehtimalı, qadın məhəbbətinin ələ salınması!

Dünyada zülm və müsibətin çalarları çoxdur. Məsələn, balasını itirmiş, mələr qalmış ananın taleyini göz qabağına gətirmək bəsdir. Lakin qadın üçün məhəbbətini itirməkdən, təhqir olunmaqdan, ürəyi sinəsində ağır bir daşa dönməkdən, bədənin ruhu itirib taxtaya çevrilməsindən ağır şey olmaz. Əsil qadının məhəbbəti əldən çıxdıqda bütün buna uyğun başqa keyfiyyətlərini də itirir. Sonradan sərvət, qayğılar, tərifnamələr baş alıb getsə də, məhəbbətini itirmiş qız daha heç bir zaman ürəkdən sevinib gülə bilməz. Hərçənd ömrün sonrakı anında qadını uğurdan daha çox, ailə ixtilaflarından, qalmaqalından ibarət cəhənnəmlə yanaşı toplumun basqısı da gözləyir. Buna qadın dargözlüyünü də əlavə etmək mümkündür. Amma bizim diqqətimizi eşqini itirmiş qadının gizli fəlakəti daha çox cəlb edir.

Yaxşı qadın sevərkən sanki xəyaldan hörülmüş ölür. Bu cür xəyalın sönməsi müsibətdir. Hərçənd məişət mülahizələrinə pərçimlənib eşqindən özü imtina edən qızlar da var. Fərdi qüsurlar öz yerində! Deməli, insan üzərində daha ağır basqı mövcuddur. Bu ictimai basqı da istibdadı yaradır.

Dava-dalaş, ficətən ölümlər, qətl, qırğın, aclıq, müharibə viranəlikləri, ehtiyaclıqları, dulluqları, yetimlikləri və b.k. bunların hamısı dəhşətli olmuş. Lakin heç bir şey edama məhkum olunmuş insanın taleyi qədər vahiməli deyil. Çünki bu qırğınların hamısı gedişatda baş verir. Bu ölümlər intizar əzabı, ölümə qədərki vahiməni yaratmır, burada xüsusi bir ölüm mərasimi də yoxdur.

İnsan xoş münasibətlərin iqliminə qərq olmaq və yaratmaq əvəzinə kobudluq göstərir, cinayət törədir. Onu isə edama məhkum edirlər. Burada cani sürüsünün dövlət mexanizmini ələ keçirib qüdrətli şəxslərə, istedadlı adamlara, dahilərə qarşı cəza tədbirlərini hesaba almamaq mümkündür. Əgər insanı hünərinə görə edam edirlərsə, bu, vahimə yox, sevinclə qəzəbin qarışığından ibarət bir duyğu yaradır. Burada edam duruma görə dahiliyə verilən muzd, dahiliyin təsdiqidir...

İnsan və insanın insana çıxardığı edam hökmü! Edama məhkum olunmaq, edamın intizarı, vahiməsi, edam mərasimi, edamın icrası və müşahidəçilərdə yaratdığı duyğular! Bu tamamilə başqa məsələdir. Hələ bu edam edilən şəxs günahsız ola!..

Bəs müdafiəsiz bir ailədə yenicə çiçəklənməkdə olan bir qızın bakirəliyini müxtəlif münasibətlərlə, – satın alma, aldatma, zorlama yolu ilə pozub tullamaq, ucsuz-bucaqsız bir səhrada tənha qalan qadına qarşı himayə əvəzinə edilən təcavüz və qətl necə?!

Bütöv bir ailənin evini – mülkünü viran qoyub, əlindəkini alıb özünü ümidsizlik içərisində bayıra tullamaq... dilənçi həyatı!!!

Bəşəri ahəngə, ülviyyətə, gözəlliyə qarşı dayanan təkcə istibdad adlandırdığın mən, – dövlət deyiləm. Həyatın özülü belə qoyulmuşdur. İnsan öz acizliyi, xudbinliyi, çoxüzlülüyü, simasızlığı, qorxaqlığı, cinayətləri ilə ona edilən qəddarlığı doğruldur. Mən dövlətin nə taqsırı?!

Bu zaman Xızırın, Fərhadın, Prometeyin, Zərdüştün simasında ülviyyət, qüdrət, ürək, ağıl səmalara belə nüfuz edən həzin bir səslə deyir:

-Dayanın! Siz heyvanlıq qanunlarını insanlığa tətbiq edirsiniz! Sizin uğrunda vuruşduğunuz, ideal səviyyəsinə qaldırdığınız şey yalnız bədənə lazımdır. Lakin insan təkcə bədəndən ibarət deyil. Onun yaratmaq üçün gücü, sevmək üçün ürəyi, kəşfdən ötrü ağlı var. Bunların hamısı birlikdə bəşəri amalı, ülviyyəti təsdiq edir. Bədən səviyyəsində ömürlük dayanmaq heyvanlara məxsusdur. Biz bədəni inkar etməsək də, insanı yalnız onun ülvi mahiyyəti təsdiq edir.

Ülviyyətin nəzarətində bədənin tələbləri də gözəllik tülünə bürünə bilər.

Biz inkar etmirik: Həyatın ilkin şərtləri təmin edilməlidir. Əks təqdirdə, ancaq ağlın tələbləri əsasında hərəkət etmək fərdi və ondan asılı adamları ehtiyacın, ictimai zülmətin burulğanı içərisinə salar. Bu, ictimai burulğan ümumi sözdür. Onun nəticələrinin törətdiyi dəhşətli variasiyalar, çabalamalar, baxımsız qalmaq, yoxsulluqdan irəli gələn sınıqlıq, əliaşağılığın törətdiyi üzüqaralıq, təhqirə və təcavüzə uğramaq, sayıllıq, həqarət, istehza, hökmfərma bir cinayətin hayqırtısı, zorluların sentimental duyğulara uzadılan murdar vasitələri, namusun hərraca qoyulması, yetişməkdə olan nəslin başlı-başına qalması, qidasızlıq, cismən, əqli baxımdan və mədəni cəhətdən zəif düşmək, quru yurdda qalmaq, həyat yarışında məğlubiyyətə uğramaq, nəsibsizlik, ümidsizlik, göz yaşları, aclıq, xəstəlik, ömrün qısalması, solğunluq, gözəlliyi itirmək, vaxtsız ölümlər... Bu boyda işıqlı dünyada nə qədər qaranlıq zirzəmilər, zülmət varmış! Ağıl, ahəng, humanizm yoxdur. Bu durumda bədənin tələblərini gözaltı et, ağlın qanunları əsasında irəlilə görüm haraya gedib çıxacaqsan?! Həmişə ağlamaq olmur və ya hamı da ağlaya bilmir. Lakin bu mümkün olsa belə, göz yaşları da həmişə kömək etmir, qardaş! Hətta ilkin tələblər ödənildikdə belə həyat ürkək, davamsız, ümidsiz, etibarsızdır. Burada gələcək qayğıları, nəslin təminatı təsadüflərə hazır olmaq məcburiyyəti, ehtiyatlılıq əsasında yığıma meyil, yığmaq, yığmaq, daima yığmaq ehtirası ağıl və ülviyyətin qanunlarını sıxışdırır. Cəmiyyətin tarixlə vəhdətində ağlın-ülviyyətin ictimai zəmini belədir.

Lakin ilkin ehtiyaclar təmin edilərsə, nadir təsadüflərdə baş verən səadəti və ağlın-ülviyyətin hökmlərini bədənin təhriklərinə, dəbdəbə rəqabətinə güzəştə getmək xeyirə qarşı şərin qələbəsidir. İnsanlar da məhz belə edir. Onlar adi canlının ehtiras səviyyəsindən ötüb əql və ülviyyətin qanunlarına tapına bilmirlər. İlkin ehtirasların meyil etdiyi şeylər hisslə qavranılandır. Güclü ehtizaz yaradan, çox şey vəd edib cırtdan nəticə ilə qurtaran həmin şeyin dərki üçün instinkt səviyyəsində ağıl kifayətdir. Lakin ağlın, ülviyyətin tələblərinin duyğular şəklində qəlbin dərinliyində gəzdirilməsi və sistem halında dərk edilməsi müşkül bir işə çevrilir. Gərək insan özü bu səviyyədə olsun. Məhz şəxsiyyət səviyyəsinə yüksələnlər bu durumdadır. Doğrudur, bu cür adamlar fəci hala düşürlər. Bu adamın qanında olduğuna görə, ağlın-ülviyyətin qanunları əsasında hərəkət edir. O, ümumun

içərisində yaşasa da, ümumun səviyyəsinə enə bilməz. Ümumi isə bədənin tələbləri ilə yaşayır, rəftar edir. Onun uğrunda mübarizə aparır, o həddə dayanır və öz insani simasının təsdiqini burada görür. O, oradan da qabağa getmək istəmir. Şəxsiyyət isə ağlın-ülviyyətin tələbləri ilə hərəkət etməlidir. O, təkdir və müqabil tərəflərlə münasibətlərdə olmalıdır. O, təcrid şəklində yaşaya bilməz. Tək isə ağıl və ülviyyətin tələblərinə qarşı ümumi hal olan bədənin tələbləri ilə yaşayan, öz həyat amalını bunda görən, ömrünü bu əsasda planlaşdıran, bu cür hərəkət edən zümrə ilə birgə yaşayır.

Kimsə şübhə etmir ki, varlığımız təkcə ağıl və ülviyyətdən ibarət deyil. Bu ağıl və ülviyyət bədən vasitəsiylə mövcuddur. Həmin səbəbdən də hətta ən ülvi şəxsiyyətlər də axıra qədər bədənin tələblərindən yan keçə bilmir, bir an bu səviyyəyə enir. Lakin o ağıl və ülviyyət əsasında bədənin tələblərini necə ödəyir və ya insani münasibətlər başa gəlmədikdə ondan imtina hissi necə baş qaldırır – bu başqa məsələdir. Amma bədənin tələblərini mütlqələşdirmək iradənin zəiflədiyi yerlərdə daha çox müşahidə olunur. Müxtəlif rəngli mürtəce ideyalara meydan verən bu hal kütləvi heyvanlaşmanın rəhnidir və ümidsizlik iqlimidir.

Burada kamala çatmaya qədər gedən yolun tədqiqi xüsusi sahədir və uzun söhbətdir. Lakin elə burada dediklərimiz də az deyil.

Yuxarıda dedik ki, həyatımız amansızlıqlar seylabından süzülüb keçir. Güzəran elə gətirmişdir ki, macal tapıb bədənlə ürəyin tələblərinin fərqini ayırd edə, ülviyyət haqqında düşünə belə bilmirik. Bu doğrudur. Qoy olsun! Lakin təslimçilik durumu islah etmir. Siz qorxmayın! Siz həyatınıza təslim olmayın! Məhrumiyyətlər, ehtiyac, ölüm təhlükəsi sizi sarsıtmasın! Şərə qarşı amansız olun! Dəyənək məntiqinə qarşı idrakın, ülviyyətin hökmlərini irəli sürün! Bu zaman bəzən dəyənəyə qarşı əlinizə balta götürməyə məcbur olsanız da fəaliyyətinizin baş sahəsi bu yox, tərəqqidir.

Ac adama hər şey şirin görünər! Toxlar üçün fərq götürülür. Toxluq aləmi bürüdükdə qaydasınca həyat başlayır.

Təmin olunan, ülviyyəti təsdiq edilən adam üçün sərvətin, məzmunsuz bir şöhrətin önəmi qalmır.

Bunlar başa gəldikdən sonra qarın, cib, sandıq, plakat “ülviyyəti” məyusluq doğurur. İnsanı kədər bürüyür: biz ömrümüzü nə qədər məzmunsuz şeylərə sərf emişik?!

Biz bəzən əlimizə balta götürsək də, dəyənək məntiqinə qarşı dayanan idrakın – ülviyyətin qanunları əsasında başa gələn fəaliyyətimiz tərəqqini planetin hər tərəfinə yaymağa çalışır.

Bu zaman həyat özü, cəmiyyətin tarixlə vəhdəti hayqırır: mənim ünsürlərimi bir-birindən təcrid edib, ayrı-ayrılıqda təhlilə çalışmayın! Mən buların hamısının birliyində mövcudam!!!

Həyat gözəldir, qardaş, gözəl!

Ölüm onu üstələməsə:

"Hacı Səməd xan düyüdən bir loxma yeyərək durmuşdu, onun nimçəyə dirənən gözü yol çəkirdi. Nəhayət o, aşpazı səslədi.

Aşpaz içəri girib təzim etdi.

Səməd xan qayət acıqlı bir surətdə ona müraciət edərək:

– Düyünü nə üçün əzibsən? – soruşduqda, aşpaz qorxusundan cavabı təxirə saldı. Buna görə də Səməd xan adamlarına müraciətlə:

İndi ki, cavab vermir, aparıb ağzını tikin, – dedi.

Aşpazı apardılar. Mənim tüklərim biz-biz durdu. Lakin etiraz imkanı yox idi. Başqaları da etiraz etməyərək plov yeməkdə davam edirdi. Ağzını cücə əti ilə doldurub burnundan nəfəs alanların fısıltısı içəridə ağzı çuvalduz qıyıq ilə tikilən aşpazın iniltisini eşitməyə mane olurdu".[1]

Bir günahsızın ağzını palanduz iynə ilə tikmək... inildədə-inildədə. Adi bir istibdad bəhrəsi. Bu cür istibdad istila ilə çulğaşdıqda xalqların da ağzını bu cür bağlamağa çalışırlar. Əlbəttə, orada işlər bir qədər dinc ötüşə bilərdi. Bu şərtlə ki, xalqlar nəfəs almağa cəhd göstərməsin, istilanın yaşadığı ölüm havasını səadət çiçəkləri kimi rövnəqləndirsin, istila baltası altında sakit surətdə başını kötüyün üstünə qoysun, işləri təhlil etməsin, qandığını dilinə gətirməsin və s. ona görə də istila xalqların ağzını tikməyə məcburdur. Necə ki, istibdad hirsini soyutmaq, şıltağını təmin etmək naminə bir günahsızın ağzını iynə-sapla tikdirdi.

Amma istibdadı dindirsən söyləyər ki, mənim bütün cidd-cəhdim xalqın rifahını təmin etmək, intizam yaratmaq, abrını qorumaq və s. üçündür. Xırda-xuruş cəza tədbirlərim naqisliyə, cinayətlərə qarşıdır. Ümumun asayişini, rifahını qorumağın başqa yolu yoxdur.

Deyirlər ki, bir günahsızın ağzını tikdirdilər və o ağzı bağlı olduğuna görə fəryad qopara, qışqıra bilmədiyi üçün inildəyirdi. Adamlar isə bu işgəncə meydanında insan münasibətlərinə laqeyd

---

[1] M.S.Ordubadi. Əsərləri, səkkiz cilddə, üçüncü cild, Bakı, 1964, səh. 379

şəkildə ağızlarını-burunlarını ətlə, cücə ilə, plovla doldurub elə fıshafısla, basabasla yeyirdilər ki, fısıltıları işgəncəyə uğrayanın iniltisini batırırdı.

Bəşəriyyət varlığın bəzəyi, bütün yaranmışların ən gözəlidir. İlk baxışda onun oyatdığı heyranlıq, riqqət, məhəbbət haqqında həyəcanlı, uca fikirlər söyləmək mümkündür. O özü də üzdə bu cür görünməyə cəhd göstərir. Əslində isə o, öz nəfsinə, iştahasına (leşə acıxan sürü kimi) nə qədər bağlı olmalıdır ki, işgəncə meydanında süfrəyə bu qədər soxulsun?!

Duyğusuz şəkildə! Bu zaman adam gözlərinə inanmaq istəmir, insan yarandığına təəssüflənirsən! Axı fərqi seçmək çətindir. O da iki ayaq üstə gəzir, sən də. O da danışır, sən də. O da iddia edir, sən də. Onun da qaşı-gözü, üzü, boyu-buxunu, yerişi və s. var, sənin də. Bir çox halda o səndən daha gözəl görünür, onun ictimai mövqeyi daha möhkəm olur. Ona ehtiram, etimad, hörmət daha çoxdur. Halbuki onun fiziki və mənəvi qüvvələrini mədəsi və ondan da bir az aşağısı hərəkətə gətirdiyi halda, sən insana pərəstiş hissinin dəryasında əriyib axırsan.

İnsan qarşısındakını hiss etməyi, fərqləndirməyi və qiymətləndirməyi bacarmalıdır. Lakin fərq aradan götürülmüşsə, qiymətləndirilməkdən söhbət gedə bilərmi? Duyğusuz bəşəriyyət, sənin “amalın”, güzəranın xəcalət gətirir. Ona görə də ağzını tikirlər.

Əlahiddə götürdükdə aşpaz günahsız idi. Təbriz kimi nadir iaşə mərkəzində saray aşpazı pis plov bişirə bilərmi? Elə işgəncə, şaqqalama meydanında adamların fıshafısla tıxması da xörəyin dəyərini göstərir. Amma ağızlar iylənməlidir. Çünki ictimai məntiq pozulmuşdur. İctimai məntiqin pozulduğu yerlərdə necə davransan da, qəlbin düz olsa da, hansı qulluğu göstərsən də, bir gün ağzının palanduzlanması var. Amma burada günahsız verilən işgəncənin başqa səbəbi var idi. Çünki bir az bundan əvvəl müstəbidin başqa bir cəza tədbiri, gözlənilmədən saraya gələn qonaqla zabitəli davranmaq məcburiyyəti yarımçıq qalmışdı:

“Mən Hacı Səməd xanı həyətdəki hovuzun başında gördüm. O, mənimlə görüşmək üçün oturduğu kürsünün üstündən qalxdı və məni çox mülayimətlə qarşıladı.

Onun halında nə isə başqalıq var idi.

O, qolumdan tutdu. Onunla balkona tərəf yönəldikdə mən hovuzdan çılpaq bir adamın çıxarıldığını gördüm. O, gənc idi, bütün

vücudundan qan axırdı. Səməd xan onu buzlu suyun içinə salıb çubuq ilə döydürmüşdü.

Gənci ayağından tutub sürüyə-sürüyə aparırdılar. O, inildəyirdi. Hacı Səməd xan işgəncəsinin bu şəkli məni tamamilə sarsıtdı və bağda Hacı Səməd xanın, yaxud başqalarının olduğunu belə unutmuş kimi oldum.

Səməd xan mənim durumumu çox tez anlamış olmalı ki, bu işgəncənin səbəbini izah etdi:

Bir həftədən bəridir ki, bu ədəbsizi tutmaq olmurdu. Mən bunları tərbiyə etməyi bacarmıram, bunlar külliyyətcə ədəbsizdirlər. Bu nadürüst hər gecə bağın yanından keçəndə oxuyurdu, oxuduğu sözləri nədir? Səttarxan vaxtında deyilən hərzə hədyanlar.

Birlikdə balkona qalxdıq. Xan narahat idi. Özü də dönüb tez-tez hovuza sarı baxırdı. Mən bilirdim ki, bu narahatlıq gəncə verilən cəzanın yarımçıq qaldığına görə idi”.

*(M.S.Ordubadi, əsərləri, 3-cü cild, səh. 374-375).*

Hacı Səməd xan məclisdə bəhanə gəzib bir günahsızın – məclisə rövnəq verən aşpazın ağzını iynələtdi. Buna səbəb o idi ki, bundan əvvəl o, hirsi soyuyana qədər eybəcər bir cəza tədbirini axıra qədər həyata keçirə bilməmişdi. Gətirdiyimiz sitat da elə bu sözlərlə bitir ki, hacı Səməd xanın “narahatçılığı gəncə verilən cəzanın yarımçıq qalması” idi.

“Onun cəlladlara məxsus qana həris gözləri qızarmağa və qan tələb etməyə başlamışdı. Onun duruşu 11-ci ilin məhərrəm ayındakı faciələrini yada salırdı. Onun uzun və sallaq bığlarının hər bir tükü dar ağacından asılan bir kəndir kimi gözlərimdə canlanır və məni iyrəndirirdi. Bu tüklərdən inqilabçı Silqətülislam, Təbriz inqilabi rəhbəri Hacı Əli Davafüruş, Sadiqilmülk, Şeyx Səlim, Qəndfüruş Məşədi Abbasəli və Əli Müsyönün gənc, inqilabçı oğulları asılmışdır. Mən bu cəlladı əsəbləşdirməməli idim, çünki o, daim əsəbərini bir neçə nəfəri öldürmək və ya ağır cəzaya düçar etməklə sakitləşdirərdi. O, daim öz mövqeyinin laxladığını gətirib gözü önündə döydürər, əlini, qulağını və ya başqa bir əzasını kəsdirər, yaxud da bir neçəsini çılpaq halda buzlu hovuzun içərisində döydürər, bununla da öz əsəblərini sakit edərdi.

Hacı Səməd xan bu məqsədlə də ümumi həbsxanada olan dustaqlardan gündə bir neçəsini Nizamüddövlə bağında düzəlmiş xüsusi həbsxanada saxlar və gecələri yata bilmədiyi və əsəbləşdiyi

zamanlarda onlardan bir neçəsini cəzalandırdıqdan sonra sakit olub yatardı.

Təbriz xalqı Nizamüddövlə bağının adını əbəs yerə "Nizamüddövlə qəssabxanası" qoymamışdı. Bu bağın ağacları Təbriz inqilabçılarının qanları ilə suvarılırdı.

Burada kəsilən başları görmək üçün qızılgül qönçələri üzünü açmaz, bülbül isə məzlumların iniltisini eşitməmək üçün bu bağın ətrafında dolanmazdı" *(Orada, IV cild, Bakı, 1965, səh. 66-67).*

Tarixin naqisliyi, insanın zəifliyi, təklənmiş duruma düşməsi, xalqın dağınıqlığı istibdada elə bir "münbit" ortam yaradır ki, məxluq ictimai qüvvənin təyin etdiyi adi bir əfəlin xırda bir şıltağının qurbanı olur, ona bir dirəniş də yoxdur.

Biz inkar etmirik: insan bəzən ona deyilən pislikləri öz zəifliyi, simasızlığı, xırdalığı ilə doğruldur. İstibdad xalqa qarşı təkcə amansız işgəncə tədbirləri həyata keçirmir. Həm də onun cəza tədbirləri çox vaxt ağlasığmaz, gözlənilməz, eybəcər və intəhasız variasiyalarla başa gəlir. Zahirən belə görünür ki, xalq başı hayına qaldığından zülmə dirəniş göstərməyə, istibdadın işlərini təhlilə macal tapa bilmir. Lakin o bundan daha çox nəfsinə və qorxaqlığına ilişib qalmışdır. Təsəvvür edin, o yanda bir günahsızın ağzı iynələnir, burada isə adamlar işgəncəyə uğrayan adamın bişirdiyi cücə-plovu fıshafısla ağzına dürtür. Bu cür insana hansı qəbahətləri və cinayətləri eləsən azdır. Lakin məsələni bir anlığa belə qoymaq mümkündür. Hər halda zülmün icraçıları və zülmə uğrayanlar var, onlar da göz qabağındadırlar. Deməli, məzlumları müdafiə etmək, zülmə də dirəniş göstərmək lazımdır. Zülm edənlə, zülmə uğrayanın bir fərqi olmalıdır. Amma ən böyük fərq zülmə dirəniş göstərən, məzlumu müdafiə edən tərəfdədir. Bu baxımdan Səttar xan hər cür vəsfə layiqdir. Çünki Səttar xan fərdi qüvvəni və ya az qüvvəni cinayətkar mahiyyətli ictimai bir gücə qarşı qoymuşdu. Həm də Səttarxanın fəaliyyətini humanist düşüncələr, böyük insani duyğular müşaiyət edirdi. Amma Hacı Səməd xan bir millətin – Azərbaycan xalqının və bəşəriyyətin fəxri olan bir adam haqqında xalqın könül nəğmələrini "hərzə və hədyan" adlandırır, onun nəğməkarlarını isə qışın amansız şaxtalarında buzlu hovuza salır, qanına qəltan edir. Həm də o adamları tərbiyə eləmək xəyalına düşür. Guya onun qəddarlığı tərbiyə məqsədi güdür. Əgər xalq ülviyyəti vəsf edən nəğmələr bəstələyir, qəlbində ictimai eybəcərliklərə qarşı nifrət duyğuları gəzdirir, fürsət düşən tək şərə dirəniş göstərirsə, ibtidai mənada onu tərbiyə etməyə

ehtiyac qalırmı?! Hələ onu demirik ki, amansızlıq, hətta, yaxşı mənada belə tərbiyə rolu oynamaqdan daha çox çolaq qoyur. Bir halda ki, tərbiyəçi Hacı Səməd xan kimi fiziki eybəcər, mənəvi çolaq pis bir məqsəd üçün yaxşılara verə...

Onun tutulduğu pis xəstəlik, eybəcər vərdiş isə mövqeyi ilə birlikdə ictimai üfunətə təkan verməlidir.

"Mən Nəsrulla Salama işarətlə dedim:

Doğrudan da fikri açıq molladır, qızla ən mədəni və ziyalı bir adam kimi danışır.

Müctəhidzadə Məhəmməd xan gülərək dedi:

– Rəfiqi-möhtərəm! Bizim naxoşluğumuz ölüm naxoşluğu-dur, bizim başımız xəstədir, bəibarət pişvalarımız naxoşdur. Ağam, o naxoşluq ki, mən sizə ərz edirəm, onların kaffəsi haman xörək süfrəsinin üstünə qoyulan əmmamələrdən doğur, bəlamızın kaffasi haman qırx-əlli arşın tənzifdən çıxır. Doğrudur, bu adam qızla çox ədəbli danışır, lakin bununla ona mədəni və ziyalı adam demək olmaz, çünki onun qadınları görəcək gözü yoxdur. Sanki qadınlar ona təbiətcə biganədir. Onun qadını vardır, lakin üzünə baxmaz, çünki o, qeyri-təbii şəhvətin əsiridir. Bunun üçün də onun cavan övrətləri bir dənə də olsa uşaq doğmamış.

– Nə üçün? – deyə soruşdum.

Onun yanında dörd-beş xidmətçi, hazırda bir nəfər gənci də özü ilə bərabər Məkkə ziyarətinə aparır, öz çirkin əməllərini ziyarətdə də təkrar etmək istəyir. Axı, bunu sizə bir nəfər iranlı olduğunuz üçün ərz edirəm. Bu haramzada haman uşağı Kərbəla və Xorasan ziyarətinə də aparmışdır, indi də Məkkə ziyarətinə aparır. Bizi də bu səfərə məcbur edən odur. "Gərək gedib tövbə edəsiniz" deyib bizi də öz dalınca Ərəbistan çöllərinə sürüyüb aparır.

Biz bu söhbətdə ikən, 18 yaşlarında gözəl bir gənc əlində qəlyan içəri girdi və qəlyançı Nəsrulla Salamın qabağına qoydu. Nəsrulla Salam isə:

Bərəkallah, hacı! – deyə alqışladı.

Müctəhidzadə yenə də sözünə davam etdi:

Budur, haman uşaq budur, indiyə qədər müctəhid bir neçə beləsini saxlayıb, böyüdüb buraxmışdır. Gənc hələ də Nəsrulla Salamın qarşısında durmuşdu, gözləri qandan dolmuş bir piyalə kimi qızaran Nəsrulla Salam iki gözünü uşağa dikərək baxırdı. Xeyli baxdıqdan sonra, Nəsrulla Salam ona getməyə icazə verdi, Müctəhidzadə isə yenə də sözünə başlayaraq dedi:

Rəfiq, siz bizim rəhbərlərimizi tanımayırsınız. Onların hamısı bu xəstəliyə mübtəladır.

Mən:

Əcəba bu bədbəxt uşaqların axırı necə olur? – deyə soruşdum.

Onlar öz gəncliyini bu əxlaqsızların qucağında keçirdikdən sonra, müctəhidin vasitəsiylə hökumət işlərinə təyin olunur. Məsələn, Nəsrulla Salamın əmrinə görə Marağa hakimi Hacı Səməd xan kimi əxlaqsızlar bu uşaqları hökumət işlərinə düzəldir, çünki Səməd xanın özü də Nəsrulla Salamın atasının yanında böyümüş, sonra da hökumət işlərinə təyin olunmuşdur. Hazırda o, Şücaüddövlədir. Dövlətin şücaətidir. İndi isə bizim dövləti, onun müctəhidini və bizim hökumət adamlarımızın kim olduğunu, necə böyüdüyünü mülahizə buyura bilərsiniz.

Bu kimi əxlaqsızlığa öyrənmiş və bu rəzalətin içərisində böyümüş cavanlar hökumət idarəsinə keçəndən sonra öz başına gələnləri başqa cavanların başına gətirirlər, odur ki, ölkəmizi əxlaqsızlıq bürümüşdür" *(Orada, səh. 47-48).*

Bəzən bir haqsızlıq, bir şəxsin acınacaqlı taleyi ilə bağlı həqiqət, insan, xalq, tərəqqi haqqında səlahiyyətli adamla həzin bir dillə danışırsan. Lakin onun tam etinasızlığı ilə qarşılaşırkən vəziyyəti heç cür özünə izah edə bilmirsən. Bu, nə əfəllik, nə kütbeyinlik, nə xudbinlik, nə xəbislik, nə də şərdir. Görünür, mənşə M.S.Ordubadinin işarə veridyi xəstəlikdir. Bəzən xalq daaldanarkən görün hansı səmti özünün pənahı gümanına gedir?!

M.S.Ordubadinin təsvirində təkzibi mümkün şeylər var. Nəsrulla Salamın qızla mədəni rəftarını təkcə xəstəliyi ilə izah etmək çox da ağlabatan deyil. Hər halda zahiri mədəniyyət göstərməyi, incə rəftarı da bacarmaq lazımdır. Xəstəliyə, çürüntüyə, geriliyə islamı işarə vermək də özünü doğrulda bilməz. İranda və dünyanın bir çox yerində qabaqcıl din xadimləri də müşahidə etmək mümkündür.

Nəsrulla Salamın arvadları var. Lakin bu arvadlardan uşaq olmaması məsələsini məlum "naxoşluqla" izah etmək özünü doğrulda bilməz. Ər-arvad arasında cinsi təmaslar – görüşlər doğuş arzusu çərçivəsindən qırağa çıxır. Eynilə "naxoşluq" ər-arvadın uşaq arzusunu sıradan çıxaracaq amil sayılmamalıdır. Hər halda o cür "naxoşluq" şəraitində də uşaq arzusu ilə qadınla lazımi qədər görüş başa gətirmək olar. Adama deyərlər madam ki, belədir, Nəsrulla Salam bu qədər arvadı neyləyir? Axı pərdə üçün bircə arvad bəsdir.

Durumu gerçəkçi qoymaq gərəkdir. Əksinə, sənin qüsur kimi təsvir etdiyin şeydən bəşəriyyətin bədxahları bu və ya başqa xalqa qarşı qullanmağa çalışırlar.

Bu cür mənəvi çürüntülərin qaynağı hansısa bir xalq deyildir. Burada tərəqqinin yarımçıqlığı və onun yaratdığı istibdadın əsil mahiyyəti üzə çıxır. Özəllikcə, istibdad istila ilə çulğalaşdıqda xalqları, əsarətə alınan xalqı məhv etmək üçün istila maşını bu cür eybəcər ünsürlərdən istifadə edir.

Bir sözlə, Hacı Səməd xanın şəxsiyyəti, düşdüyü, layiq olmadığı mühit və xüsusən ictimai mövqeyi elədir ki, o eybəcərliklər törətməli, başını itirməli, qəddar olmalı, doğma xalqına xain çıxmalı, qəbahətlər və cinayətlər nəşr etdirməlidir.

Məsələnin məğzi aşağıdakı kimidir:

“Həbs və edam ediləcək şəxslərin məsələsinə keçdikdə Səməd xan:

Siz cənab konsula tərcümə edin! – dedi – mən Səttarxanın qardaşı Hacı Əzimin və onun iki oğlunun asılmasını məsləhət görmürəm. Onların evlərini dağıtdıq və bütün var-yoxunu aldıq. Özlərinin azad edilməsini məsləhət görürəm.

Konsul bu sözlərdən razı qalmadı və buna bir səbəb göstəmək lazımdır! – dedi.

Səməd xanın boğazı qurudu, güclə cavab verdi:

Onların Təbrizdə böyük nüfuzu vardır, hələ Səttarxan da Tehrandadır. Xüsusən Hacı Əzim də bolvalərdə iştirak eləməmişdir.

Konsul yenə də sözə başladı:

İmperator hökumətinin bütün təşəbbüsləri, yeni valinin mövqeyini möhkəmlətmək üçündür. Bu kimi ünsürlər təmizlənməzsə, Təbrizdə yenə də bəzi ixtilaf zühur edə bilər. Buna baxmayaraq hərgah cənab vali məsləhət görürsə, bizim etirazımız yoxdur.

Səməd xan sözünü davam etdirərək:

O ki qaldı marağalı Hüseyn xanın edam edilməsinə, burada mənim də etirazım yoxdur, – dedi, – lakin mən cənab generaldan rica edərdim ki, onu aparıb Xoy şəhərində edam eləsinlər. Onun burada edam olunması Marağa xalqının iğtişaşına səbəb ola bilər; çünki marağalılar çox haramzada adamlardır.

Konsul:

Bu yaramaz! – dedi, – çünki biz İranın daxili işlərinə qarışmaq istəmirik. Bu məsələlər sizin öz işinizdir. Hərgah onu Xoyda edam etsələr, yenə İran məhəlli hakimləri tərəfindən edam edilməlidir.

Səməd xan konsulun bu təklifini qəbul etdi, sonra Məşədi Rzanın azad olunmasını rica edərək:

Onu çox döydürmüşəm. Bu da onun üçün kifayətdir, qoy deməsinlər ki, Səməd xan günahsızları da edam etdirir.

Çar konsulu burada da güzəştə getdi və Hacı Səməd xanın qarşısına, imza olunmaq üçün bir siyahı qoydu.

Bu edam olunacaq şəxslərin siyahısı idi:

1. Kəblə Haşım dəllal,
2. Məşədi Abbasəli qındfruş,
3. Hacı Əli dəvafruş,
4. Mirzə Əhməd Süheyli,
5. Mirzə Ağabala Xiyabanlı,
6. Mir Kərim Natiq,
7. Məhəmməd Əmioğlu və sairə...

Səməd xan bunların edamına razı oldu. Əli titrəyə-titrəyə eynəyini silib gözünə taxdı, nəhayət gecə saat birin yarısında edam hökmünü imza etdi.

Mən bu vərəqəni görürkən, təsəvvürümdə canlanıb ucalan dar ağaclarında iki ildən bəri bərabər çalışdığımız yoldaşları seyr edirdim". *(M.S.Ordubadi, əsərləri III cild, Bakı, 1964, səh. 364-365).*

Hacı Səməd xan günahsız adamların bəhanə tapıb ağzını tikir. Çünki "nəzakət" qaydaları, ictimai etikaya "hörmət" məcburiyyəti onun işgəncə mərasimini yarımçıq qoymuşdur. İlk baxışda bu qəddarlığa Hacı Səməd xanın şikəst-adamcıl təbiətini səbəb göstərmək mümkün idi. M.S.Ordubadi də onun zöhrəvi xəstəliyinə, kütbeyinliyinə, qəddarlığına, şikəstliyinə, eybəcərliyinə, mənəvi qırıqlığına işarələr vurmuşdur. O da doğrudur ki, layiq olmayan adamlar ictimai mövqe tutduqda, öz müvazinətini saxlamaq üçün pis, məntiqsiz işlər başa gətirməlidir. Bütün bunlar var. Lakin ən başlıcası odur ki, istila mexanizmi Hacı Səməd xanın "vicdanı"nı ağır məngənə arasında sıxıb onu zorantəbib qatilliyinə sürükləmişdir.

Ən pis adamların belə yadellilərin xeyrinə öz xalqına xain çıxması asan deyil. Amma ən betəri əfkari-ümumiyyənin, – xalqın və dünyanın gözündə qatil vəziyyətində qalmaq məcburiyyətidir.

Zahirən belə görünür ki, Əli Müsyö kimi insanlığın fəxri, Şərqin beyni olan adamların dara çəkilməsi İranın daxili işidir. Lakin gecə yarısı baş verən tədbirdən aydın olur ki, siyahını çar konsulu təqdim edir, Vali isə yalnız imza atır. Ey unudulmaz gecə yarısı! Sənin səmaların aydın olmalı, sakinlərin, insanların buna tuş gəlməli,

idrakları, rəftarları, məhəbbətləri, törətmələri, yaratmaları ilə ülviyyəti təsdiq etməli idi. Lakin sən gizli və aşikar, bilinən və bilnməyən nə qədər rəzalətlərin, qəbahətlərin, cinayətlərin şahidisən!

İran azad ölkədir, Rusiyanın müstəmləkəsi deyil. Konsul məzhəkəsi isə müstəmləkə bağlılığı yox, xalqlar arasında beynəlxalq münasibətlərdir. Lakin bir yerdə ki, yerli hakimlərə əli silahlı dövlətlərin konsulları təsir edə, xalqın düşünən beyinlərini söndürə, döyünən ürəkləri dayandıra, burada müstəmləkədən daha ağır bir vəziyyət, zorlama var.

Bizim yadımıza gələn dövrlərdən başlayaraq Azərbaycanda istila mexanizmi ilə qovuşmamış xalis istibdad müşahidə edilməmişdir. Bizim yadımıza gələn dövrlərin Azərbaycanı xalqları istila edən mexanizmin başında dayanmış qüvvə tərəfindən istilaya uğramış, burada dərəbəylik, pərakəndəlik, istibdad baş alıb getmişdir. Lakin bunların heç biri xalis şəkildə baş verməmişdir. Bizdə hər bir istibdadın istilaçı müşaiyətçisi, hər bir istilanın istibdad ünsürü olmuş. Ona görə də biz çox hallarda istibdad və ya istilanı eyni mənada işlətməyə məcburuq.

Biz çarlığın Şərqə yürüşünün mündəricəsini onun özündən soruşsaq, özünü aldırmadan cavab verməyə başlayacaq ki, mən xalqlara nicat və səadət, ahəngdar həyat gətirir, tərəqqini yayıram. Bu gün tarixin leytmotivi rolunu oynamaq vəzifəsi mənim boynuma düşmüş. İndi xalqların səadəti, gələcəyin işıqlı yolları rus körpüsündən keçəcəkdir. Rusların xalqlarla rəftar tərzi özündə əzəmətlə ülviyyəti birləşdirir. Tezliklə xalqlar bunu hiss eədcəkdir.

Nə gözəl inamlardır və nə gözəl danışıq tərzidir! Amma bu gözəl inamlar və bu gözəl danışıq məntiqsizliklər seylabından ibarətdir. Kim şahidlik verə bilər ki, doğrudan da çarizmin boynuna belə bir vəzifə düşmüşdür? Əgər ilk hökmün varlığı şübhə doğurursa, ondan doğan bütün hökmlərin özülü məntiqsizliklərə əsaslanmalıdır. Bir halda ki, biz hər cür istilanı cinayətlər və qəbahətlər dağarcığı hesab edirik. O nə qədər parlaq şüarlarla müşaiyət olunsa da...

Əlbəttə, çarlıq deyə bilərdi ki, mən ilk istilaçı deyiləm. Hətta özüm yüzillərlə təpiklər altında qalmışam. Tarixin meyli özü istilaya meydan verir. Əgər vəziyyət bu gün məni "ağa" mövqeyinə gətiribsə, nə üçün bəxtimə kor deməliyəm?!

Hərçənd bir dövlətin "ağa" mövqeyi onun təmsil etdiyi xalqı rahatlığa çatdırmır. Burada yalançı bir əndazə var. Lakin məsələ yuxarıdakı təkin yox, bu cür qoyulsa, şüurlu surətdə şərə dirəniş işığı

görünür, ağıl cinayətə dirəniş imkanı tapa bilər. Amma istilaçı deyir ki, xalqı dara çəkmək lazımdır. Çünki bu tədbir Valinin mövqeyini möhkəmlədir. Bəli, bəşəriyyət çarmıxda qalmalıdır ki, murdar bir xəstəlikdən, siflisdən bədəni çürüyüb tökülən birisi istila maşını tərəfindən Vali tikilsin, vəhşətlər əsasında mövqeyi möhkəmləndirilsin. Dünya ələnir, çalxalanır və mövqeyə də necə həşaratlar atlıb düşür?! Tarixin məntiqsizliyi bundan ibarətdir. Ağlın da həll etməyə cəhd göstərdiyi həmin ziddiyyətlərdir...

Zəif düşmək dəhşətdir. İctimai hadisələrin başında Səttarxan dayanır. Lakin o güclüdür, beynəlxalq nüfuzu var deyə, onu açıq-aşkar dara çəkmək asan deyil. Amma Səttarxanın qardaşı Hacı Əzim və onun iki oğlunun dara çəkilməsi planı asanlıqla tərtib edilir. Halbuki cəllad özü də deyir Hacı Əzim və onun oğulları hadisələrdə, qarışıqlıqlarda iştirak etməmişlər.

Burada adamlar dara çəkilsin, çəkilməsin, dara kim çəkilsin, kim çəkilməsin, dara çəkilmə mərasimi harada başa gəlsin "müşkülləri" həll edilir. Çünki çarlıq əfkari-ümumiyyənin gözündə pak qalmaq üçün cinayəti özünün yetirdiyi yerli Valinin əli ilə icra edir. Millətin "övladı" da iki fikir arasında qalır. Bir tərəfdən minlərlə adam məhrumiyyətə, səfalətə, işgəncələrə, zülmə, həqarətə, təhqirə uğradığı halda, asanlıqla bundan xilas olmaq, mövqe qazanmaq, zabitəli görünmək imkanı qazanır. Başqa tərəfdən öz xalqına xain çıxmaq rüsvayçılığı, millətə qarşı cəllad vəzifələrini öz boynuna götürməyin dəhşətləri durur. Ona görə də istilaçı ilə satqın arasında cəllad vəzifələrinin icrasının metamorfozları başlayır. O həddə kimi ki, meydana millətin düşünən başlarının, döyünən ürəklərinin – qüdrətli şəxslərinin siyahısı gəlir...

Burada bütün götür-qoylar qurtarır. İstilaçı adi adamların cəza dərəcəsi haqqında məşvərətə, insan alverinə müəyyən qədər yol verərdi, lakin əsarətə düşən xalqın içərisində bir ayıq baş, bir düşünən beyin, görən göz, daim öz simasını göstərən şəxs qalmamalıdır. Burada güzəştdən söhbət gedə bilməz. Bunu satqın da bilməli ki, cınqırını da çəkmədən əli titrəyə-titrəyə olsa da, xalqın əziz oğullarının qətl hökmünə qol çəkir.

Bu açıq mühakimə və edamdır. Burada ölümlər həyasız yollarla olsa da, zahiri bir qanun rənginə boyanır, müəyyən ictimai forma şəklinə salınır. Lakin istibdadın istila, istilanın istibdadla çulğaşdığı yerlərdə alçaqcasına başa gələn cinayətlərin, qəbahətlərin, qətllərin çalarları olduqca çoxdur. Biz gözlənilməyən, eybəcər qətlləri nəzərdə

tuturuq. Cəllad qətl edir, vahimə yaradır, beyin sönür, ürək susur, cinayətkar isə gözdən gizlənir.

“1903-cü il 17 avqust

Günəş “Müqəddəs Nina”nın üzüm ağacından qayırılmış əsasını mühafizə etməkdə olan Siyon soborunun yüksək qülləsi üzərində durduğu əski Tiflisin dar və əyri-üyrü küçələrinə baxdığı, yeraltı kanallara bənzəyən örtülü bazarları işıqlandırmaq istədiyi vaxt onun parlaq və əlvan zərrələri insanın qəlbinə əvvəlki nəşələri verə bilmirdi.

Qanlar, qurbanlar verən tarixin bütün faciələrini qucağında gəzdirən, min beş yüz il müddətində bir çox feodalların əlinə keçən, Xəzər atlılarının dırnaq səsini dinləyən, hunların dəhşətini zehnində yerləşdirən, Bizansın xaçları kölgəsində gələn silahlara başını verən, İran şahlarının axınları qarşısında milli varlığını məzarlara gömən, monqolların mal quyruğundan qayrılmış qamçılarına qabırğalarını açan, ərəb komandanının 24 saatlıq ultimatumuna təslim olan, səlcuq türklərinin istila günlərini görən əski Tiflis heç bir zaman Günəşi bu gün olduğu kimi heyrətli, həyəcanlı görməmişdi.

Günəşin bu acıqlı baxışı, Xorasanlı Soltan Cəlaləddinin taxt-rəvan içində Tiflisə girdiyi, taxtını Siyon soborunun qülləsi üzərində qurub Tiflis xalqının ümumi qətlində Xorasan qoşununun göstərdiyi dəhşətlərə tamaşa etdiyi gündəki baxışına bənzəyirdi.

Günəşin bu baxışı olduqca acıqlı və qəmgin idi. O, Metex kilsəsinin civarında riazət çəkən və əziyyət içərisində özünü torpağa təslim edən “müqəddəs Şuşanik”in məzar daşına işıq saldığı vaxt sanki həyat altıncı əsrlərə qayıdır və Tiflis şəhəri Şuşanik dövrünün əziyyətli günlərini xatırladırdı.

Kilsələrin xırda və böyük zəngləri səslənirdi. Məbədlərin daş pilləkanlarından aşağı düşənlər, sanki İsarrın Bizans Məbədindən Anqaxat kilsəsinə gətirdiyi ikonanın ziyarətinə tələsirdi.

Günəş yüksəlirdi, “Müqəddəs Davud” kilsəsində yatan Suriya missionerinin qəbir daşına təzə-təzə işıq salırdı.

Knyaz Qalitsinin üsul-idarəsindən doğan təzyiqi həzm etməyən Tiflis yenə də əski şəklində yaşayırdı. O, sınıq hasarlar, yüz dəfələrlə əldən-ələ keçən qüllələr içərisindəki məscid və kilsələri qucaqlayıb durmuş Günəşin qeyri-adi baxışlarını gözdən keçirirdi.

Siyon soborunun dəmir şəbəkəli pəncərələri çar Quriyanın qülləsindəki bacalarla üz-üzə duraraq “Çar Rostam” sarayında inləyən tavat gəlinlərinin kədərli əfsanələrini oxuyarkən Günəş də Vaxtanq

şahzadəsinin əski yaylası olan "Botanika" bağının başı üstündə durmuşdu.

Hava isti idi. Xalq qırmızı kərpicdən tikilmiş evlərin pəncərəsindən başını çıxarıb təmiz hava alarkən, Metex həbsxanasında çürüyən dustaqlar da dəmir şəbəkəli pəncərələrin açılmasını, rütubətli havanın dəyişilməsini arzu edirdilər.

Əski Tiflis çar Nikey dövründən fərqli olmayan Nikolay üsul-idarəsinin ağırlığı altında, isti tərlər tökdüyü vaxt Toboris və Siminda dağlarının odlu qəlbindən çıxan isti sular da çarlar, soltanlar və padşahlar sarayına göndərilən gürcü qızlarının isti göz yaşları kimi coşurdu.

Mavi rəngli fəzanın isti çanağı daş tava şəklini alan meydanın üzərində çevrilərək ətrafı bişirdiyi anlarda, yapıncı, yun çuxa, isti başlıq və qoyun dərisindən tikilən qalın papaqlar geymiş gürcülər, "hey, hey!" deyə-deyə kəl və öküz arabalarını sürməkdə idilər.

Avlavar qayaları ilə qoç kimi baş-başa döyüşən Kür çayı Metex həbsxanasında çürüyən insan sümüklərinin rahatlığını pozsa da, qaranlıq zirzəmilərdən çar əleyhinə qaldırılan nifrət səslərini örtə bilmirdi.

Günəşin üzü, Tiflisin mum qətlinə əmr verən Teymurləngin gözləri kimi qızarırdı. Kür çayının bulaşıq dalğaları Toboris və Simanda dərəsində tökülən qanları xatırladırdı. Vaxtanq dərəbəyliyindən geri qalmayan çar üsul-idarəsində inləyən əski Tiflis qırx səkkiz kilsənin zəng səslərini örtmək üçün Gürcüstan kəndlilərinin iniltisini irəli sürür və Qarqaslan ruhaniliyinə məxsus dini nəğmələrin simfoniyasını qapamağa çalışırdı.

Çar sallaqxanası olan yeni Tiflisin "sallaqxana" hissəsi üzərində çırpınan Günəş, əsrlərdən bəri üzünə sıçramış qan ləkələrini yumaq üçün Kür çayına enərkən Metex dustaqxanasında olanlarda soldatların təhdidinə baxmayaraq pəncərələrə qalxırdılar.

Günəş tabut şəklində qayrılan əski Tiflisin içərisi ilə qərbə doğru sürünərkən, qərbdəki qara buludlarla qarşı-qarşıya gələrkən Tiflisə səyahətə gələn böyük Puşkinin, Qriboyedovun qara parçaya bükülmüş tabutu ilə qarşı-qarşıya gəldiyini xatırladırdı.

Günəşin zərrələri rus ədibinin qara mərmər qəbrini qucaqlayan qadın heykəlini oxşadığı və Tiflis dağlarına onun... "unudlmaz Ninası!.." kəlmələrini yazdığı vaxt fabrikin fəhlələri evlərinə buraxılırdı. Metex həbsxanasından baxan dustaqlar da onları salamlayırdılar. Bu hal pəncərə altında gəzən növbətçi soldatı rahatsız

etmirdi, çünki o, çar jandarmeriyasından aldığı əmri yerinə yetirmək üçün bir fürsət axtarırıdı. Çar jandarmeriyası bu fürsəti 1903-cü il avqustun 17-də əldə edə bildi. Günəş qüruba doğru çəkilərkən, Metex həbsxanası pəncərəsindən görünən əlləri tütün fabriki fəhlələri ilə danışarkən, çar jandarmının təyin etdiyi güllə açıldı. Bütün həyatını fəhlə sinfinin azadlığı yolunda sərf edən və həbsxanada olduğu vaxt yenə də işindən ayrılmayan dustaq arxası üstə yıxıldı. O, Bakı fəhlələrinin yorulmaz rəhbəri Lado Ketsxoveli idi!" *(M.S.Ordubadi, Əsərləri, V cild, Bakı, 1965, səh. 139-142).*

Bu misal gətirdiyimiz parçada bəlağətli bir dillə, təşbehlərlə yeridilən fikir var. Bu bəlağət, bu təşbehlər istila maşınının amansızlığını, istibdad qəddarlığının ifrata varmış dərəcəsini göstərmək, bu gün onların əli ilə başa gələn cinayətin bütün hədləri aşdığını nəzərə çatdırmaq yolu ilə insan həyatının təhlükə qarşısında qaldığını, ümidsiz vəziyyətə düşdüyünü sübut üçün idi. Bir qəddarlıq, bir cinayət tarixin keçib gəldiyi naqis yolun bütün kədərli mənzərəsini xatirələrdə canlandırır. Bir cinayət cinayətlər məcmusuna ekvivalent rolu oynayır.

Poeziya, məhəbbət, sevinc mənbəyi olan Günəş, onun şaqraq şüaları könüllərin dərinliklərində qalan layları işıqlandıra bilmir. Çünki cinayətin törətdiyi kədər Günəş işığının üzərinə kölgə salmışdır. Cinayət bu qədər böyükdür. O qədər ki, tarixdəki cinayətləri sadalamağa dəyər. Xəzərlərin istilaçı atlılarının iti dırnaqları bir vətənin sinəsini cırmış, didik-didik etmiş, orada iz buraxmışdır: bunların gördüyü işlər bu xalqın zehnində dəhşət izi buraxmışdır. Bizansdan gələn istilaçılar guya silahdan əvvəl əqidə, xaç, bayraq gətirmişlər, amma bu xalq bayrağın dalında gizlənən silaha başını verməli olmuşdur. İrandan gələnlər bu cür etmiş, monqollar başqa cür, ərəblərinki bir ayrı olmuş, səlcuqlarınkı özgə cür... Burada tarixin qəddarlığı və ağlasığmaz, hər dəfə yeni şəkildə meydana çıxan eybəcərlikləri çeşidlənmiş. Bunlar hamısı təkcə yeri deyil, göyü, Günəşi belə həyəcanlandırmalıdır. Lakin Günəş bu gün daha dəhşətli mənzərənin şahidi olur. Ona görə də Günəş heç bir zaman bugünkü həyəcanı keçirməmişdir. Bəzən istila maşını azğın bir məqsədin həyata keçməsi, "məqsəd" yolundakı maneələrin cavabı kimi coşan "qəzəb"in və şıltağın nəticəsi olaraq bütöv-bütöv xalqların qətlinə fərmanlar vermiş. Bu günün cinayətləri tarixin həmin "səhifələr"ini xatırladır.

Bəzən tarix bir insanın şıltağına ilişib qalır. Hər halda ən azı belə görünür. Məsələn, Neron qəddarlığı, Qacar zülmü, Nikolay istibdadı kimi tərkiblərdən istifadə edilir. M.S.Ordubadi də təşbehlərində "Knyaz Qolitsinin üsul-idarəsi təzyiqini həzm etməyən" təbilini vurur. Zülmün nəticəsi kimi "Metex həbsxanasında çürüyən dustaqlar", "Metex həbsxanasında çürüyən insan sümüklərinin" nidaları baş alıb gedir. Bir simasız qəddarın fəaliyyəti guya bu cür acınacaqlı nəticələr verir. Əlbəttə, hadisələrə həlledici təkanı verən tarix özüdür. Tarix və şəxsiyyət – işin müsbət və mənfi səmtləri üçün elm bu məsələni lazımi səviyyədə həll etmiş, öz fikrini sübuta da çatdırmışdır. Lakin ilk baxışdan göründüyü kimi, bir vətən, bir xalq, cəmiyyət, ölkələr, bəşəriyyət, tarix bir nəfərin şıltağına, kütbeyinliyinə ilişib qalanda, əfkari-ümumiyyə vəziyyətin öhdəsindən gələ bilməyəndə acınacaqlı vəziyyət alınmaqdan başqa insan – şəxsiyyət özünü təhqir olunmuş hiss edir. Doğrudanmı o bu qədər gücsüz və dəyərsizdir ki, gözü qabağında dayanan mənasız bir məntiqsizliyin öhdəsindən gələ bilmir?! Hüseyn Cavid də deyir ki, əgər bütöv-bütöv ölkələr, bölük-bölük insanlar bir topalla bir çəpə müsəllət olursa, daha burada ülviyyətə, idraki düşüncələrə yer qalmır. Bu vəziyyətdə vətən, xalq, insan, idrak anlayışları dəyərdən düşür.

Lakin hadisələr ictimai səlahiyyəti bir simasızın, kütbeyinin əlinə tapşıranda məntiqsizliklər seylabı aləmi basırsa, bəs insan özü kimdir, nəçidir?! Sual təsadüfən meydana çıxmır.

Biz zalımı görür və ittiham edirik. Lakin yaşayışın aşağı pilləsində ictimai məcburiyyət azalan təki, kütlələr arasındakı pərakəndəlik, başıpozuqluq baş alıb gedir. Böyük pozulma və dağıntı təhlükəsi meydana çıxır. Cəmiyyət qəti tədbirlər görmək məcburiyyətində qalır. Xalqı ictimai işə, xidmətə aparmaq çətin olur. Zülmə direniş göstərmək ictimai amal şəkli aldıqda vəziyyət daha çətinləşir.

Zalım cəza verir və satın alır. Həbs, işgəncə, qırğın, soyğun, iqtisadi təzyiq, ictimai baxımsızlıq xalqın gözünü qorxutmuşdur. Xalq zülmə direniş göstərmək əqidəsində və cəsarətində deyil. Dünya da xali qalmır. Hər halda zülm olan yerdə gec-tez, bu və ya başqa vaxtda, bu və ya başqa səmtdə zülmə direniş də başlayır – savadlı və ya savadsız, fərdi və ya kütləvi. Amma gözü püflənmiş, simasız hala gətirilmiş kütlə zülmə direnişdə iştirakı bir tərəfə dursun, özü ümidsizlik iqlimini gücləndirir. Fəaliyyətin faydasızlığı laylalarını oxuyur, ya da odur ki, öz müvazinətini möhkəmləndirmək üçün satır.

Kişi olmayan xalq zülmə layiqdir, lakin öz həyatının nəticəsindən – ölümdən qorxub zülmə ağıllı dirənişdən çəkinən insan kişi deyil. Deməli, "xalqın kişisi var, özü mövcuddur" məsələsi müşkülə çevrilir.

Eyni sözləri başqa variantda qadınlar haqqında da demək mümkündür.

Əgər bir xalq həqiqi mənada qadından məhrumdursa, onun heç bir şeyi yoxdur. M.S.Ordubadi "saraylarda" inildəyən "tavat gəlinlərinin kədərli əfsanələri"ndən söhbət açır.

Qadınlıq: hərəmxana, saray həyatı, hərraca qoyulmaq, dulluq, səfalət və s. bunların hamısı dəhşətdir.

Hərəmxana zahirən vəziyyəti yumşalda bilər. Burada dünyanın "başını tutan" bir adama hamının başı üstündə dayanan birinə hərəm, arvad olmaq "əzəməti", "şöhrəti" var.

Bütün varlıqda qütbik vəziyyət hökmfərmadır. Canlı həyatda bu cinsi dünya kimi müşahidə edilir. İnsanın cinsi dünyası bu gün mürəkkəb mənzərə təşkil edir. İlkin cinsi qıcıqlanmalar, şəhvət, başqa cinsin gözəlliyinə meyil, ünsiyyətə can atma və nəhayət, məhəbbət. Məhəbbətə qədər bunların hamısı bir həyatdır. Şəhvani israfçılıqda bir nəşə var. Xüsusən o gözəllərlə başa gəldikdə. Lakin minlərlə təmas gözəllərlə ünsiyyətin hamısı birlikdə insani mənada bir şey deyil. Mənəvi səviyyədə başa gələn məhəbbətin ülviyyəti isə bütöv bir dünyadır. Bu elə bir dünyadır ki, onu qiymətləndirmək və ya əvəz etmək üçün başqa bir şey yoxdur. Deməli, hərəmxana həyatının hakim üçün yaratdığı minlərlə nəşə insani mənada hayqırtıya bərabər olmur. Halbuki hərəmxanaya düşən qadının birə bərabər olmayan minin özünün birinə bu başdan çevrilir. Hələ bu hərəmxanaya düşməkdə arzu iştirak etməzsə normal ailə üçün könülsüzlük daşınılmaz bir dərd hesab edilir. Üstəgəl sevdalı bir qəlbin hərəmxanaya salınması... vəziyyəti ağırlaşdıran amillərin sayı çox-çoxdur. Biz ötəri surətdə təsvirə cəhd göstərdik. Bu hərəmxanaya düşən cinsi məhəbbət aləmi. Lakin saray çəkişmələri, intriqa, qısqanclıq, nəzarət, gözdən düşmə, cəza qorxusu, dünyadan kəsilən əlaqə, daş divarlar qəlbin ömür boyu sıxıntıya məhkum olması və s.

Amma azad, normal şəraitdə yaşayan qadın səadətlə üz-üzə dayandıqda həyati mənasını qiymətləndirmirsə, bununla da o, zülmə, məsələn, hərəmxana həyatına və ya aldadılmağa layiq olduğunu sübuta çatdırır. Əlbəttə, belə şəraitdə qadın səviyyəsinə enib onu aldatmaq əsil kişiyə yaraşmaz. Sevdalı bir qız ilkin ehtiyac

mülahizələri ilə yox, firavanlıq eşqi ilə “idealından” üz çevirərsə, o qadın insan deyil. Halbuki bu vəziyyət tarixin bütöv bir səviyyəsində bir ümumi hal kimi müşahidə edilmişdir.

Biz başqa qadın xırdalıqlarının, naqisliklərinin mənzərəsinin təsvirinə cəhd göstərmirik. Lakin nəzərə çatdırmağa çalışdığımız faktda aydınlaşır ki, “xalqın qadını var, özü mövcuddur” məsələsi müşkülə çevrilir.

Humanizm – idrakın məhsulu kimi, elm, nəzəriyyə, sənət, daim zülmü döymüşdür. Lakin zülm ictimai qütbün bir tərəfidir. Əslində isə bir çox hallarda zülm insanın mahiyyətinə layiq olur. Başqa sözlə, bəzi vaxt zülm insan qüsurlarının cəmiyyətin inkişaf səviyyəsinin barometri ola bilər. İstibdad göydən düşmür. İnsan insan, xalq xalq, bəşər bəşər olsa, zaval öz atını bu qədər də dördnalla sürməz...

Biz adi insanların dünyasını insan amansızlığını ötəri nəzərdən keçirdik. Lakin bəzən istedadlı, yaradıcı adamlar da məntiqsizlik, naqislik göstərərək zülmə qida verirlər.

M.S.Ordubadi günün amansızlığını göstərmək üçün gətirdiyimiz nümunədə söylədi ki, “Günəş, tabut şəklində qayırılan əski Tiflisin içərisi ilə qərbə doğru sürünərək qərbdəki qara buludlarla qarşı-qarşıya gələrkən, Tiflisə səyahətə gələn böyük Puşkinin, Qriboyedovun qara parçaya bükülmüş tabutu ilə qarşı-qarşıya gəldiyini xatırladırdı”.

Puşkinin, Qriboyedovun istedadını da bilirik. Necə qətlə yetirildikləri də tarixə bəllidir. Bu hadisələr üçün kimin ürəyi ağrımır?! Amma Puşkinlər rus istila ordusunu ölkələrə cəlb etmək üçün “Qafqaz əsiri” laylaları çalır, sürgünlər təşkil edir, səfirliklər adına bir missioner təki ölkələri veyillənirdilər. Xalqlar arasında səfirliklər səviyyəsində əlaqələr gərəkdir. Amma rus istila ordusu mənim vətənimin belini qırdıqdan, İranı diz çökdürdükdən sonra tarixi şəraitə görə öz üstün mövqeyindən istifadəylə Qriboyedov qalib və istilaçı dövlətin səfiri kimi Şərqə gəlmişdir. O, taleyini əvvəlcədən duymuşdu. Amma o, əsəbiliklə deyinmirdi. Qriboyedov ümidsizliklə donquldanıb şərqliləri vəhşilikdə ittiham edirdi. O, görməli idi ki, bir istedad kimi istila maşınına qoşulmaqla idrakı, insan hünərini, yaradıcılığı, humanizmi, ülviyyəti təhqir edir. İstedadlar vətənə, doğma xalqa nə qədər bağlı olsalar da, yaradıcılıqda bəşəriyyətin, bütün xalqların mövqeyindən çıxış etməlidirlər. Bəlkə əsil istedad da elə bu deyən sözdür.

Qriboyedovun simasında bir ağıl dünyadan vaxtsız getdi, burada qatil axtarmaq lazımdır. Halbuki qatili üzə çıxartsaq, o deyərdi ki, mən müqəddəs bir intiqam almışam. Mən cüzi cəza verməklə daha böyük dəyənəyin zərbəsinə uğramışam. Lakin bununla da mən kişi adımı qorumuş və gələcəyə ümid işığı yandırmışam.

Qriboyedovların, puşkinlərin, lermontovların qətlində Mütləqiyyəti suçlamaq asandır. Lakin onlar da asanlıqla missioner ləkəsi daşıyırdı; istedadların missionerləşməsi isə zülmə daha böyük qida verən şeydir... zülmü suçlarkən işin bu cəhətini nəzərə almaq lazımdır. Lakin bütün bundan sonra zülm zülm, zülmə direniş isə zülmə direniş olaraq qalır.

Zülm özünü quruculuq tədbirləri, idarəetmə tədbirləri ilə doğruldur. Çünki ifrat pərakəndəlik, başıpozuqluq, mənfəət və nəfspərəstlik, simasızlıq, kütlük, qabiliyyətsizlik, tənbəllik, acgözlüklə yerinə yetirilən cinayət və qəbahətlər amansızlığı, təzyiqi, cəza tədbirlərini zəruri edir. İşin bu cəhətinə haqq qazandırmaq mümkün idi. Lakin işin bu zəruri cəhətinə əlavə kimi dərhal idarə edən şəxslərin öz simasızlığı, kütlüyü, qabiliyyətsizliyi üzə çıxır. Aşağı təbəqə də ittiham etdiyi şeylərin hamısı indi onun özündə cəmləşir. O, öz qabiliyyətsizliyi, gərəksizliyi ilə idarəetmədə daha üçqat dolaşıqlıqlar yaradır. Onun acgözlüyü, nəfspərəstliyi, beləliklə də şıltaqlığının, nəfsinin ardınca qoşması hər cür hüdudları aşır. Bu dairə müqəddəs şüarlarla bəzənir, zabitə ilə davranır və ölkədə çapqın vəziyyəti yaradır. Adi zülm ibtidai forma alır. Zəruriyyətin başa gətirdiyi cəza tədbirlərinə istibdadın əlavə etdiyi qəbahətlər, cinayətlər seylabı qoşulur.

İstibdad məhsuldar qüvvələri buxovlayır, təsərrüfatı pozur, sərvəti tarac edir. O, çaşqın durumu saxlamaq üçün nahaq qanlar axıdır. Həm də o, öz mövqeyini möhkəmlətmək naminə tərəqqini də buxovlamağa, qabiliyyətli adamları sıradan çıxarmağa, idraklı və qəhrəmani şəxslərə divan tutmağa məcburdur. Zülmün istibdada çevrilməsi, – istibdadın özü bu deyən sözdür.

Elə bir hədd gəlib çatır, zülm qarşısıalınmaz, zülmə müqavimət də mənasız görünür. Lakin elə bu anda da bu və ya başqa şəkildə zülmə qarşı direniş başlayır. İdraki və qəhrəmani fəaliyyətin dəyəri də bu vəziyyətin kəskinliyi ilə ölçülür.

M.S.Ordubadinin təsvirində zülmə direniş fədailərindən birinin istibdadın istila, istilanın da istibdadla qatışığından ibarət amansızlıq aparatı tərəfindən dəhşətli qətli göstərilir. Xalq naminə zərər çəkən,

dustaqlığa düşən adam əl-ayağıyla işdən buraxılan kütlə ilə ünsiyyətə can atarkən "çar jandarmının təyin etdiyi güllə açıldı. Bütün həyatını fəhlə sinfinin azadlığı yolunda sərf edən və həbsxanada olduğu vaxt yenə də işindən qalmayan dustaq arxası üstə yıxıldı". Ölümün dəhşəti və onun doğurduğu vahimə burada gözlənilməzliyində, aman verməzliyindədir. Əgər ictimai idarə sistemi donu geyən istibdad öz "doğma" xalqı ilə yazılmamış qanunlarla rəftar edəcək, solaxay qanunlarla qətllər törədəcəksə, kim öz həyatından arxayın ola bilər?! Bəzən deyirlər ki, ictimai ədalətin başında duran prokurorun rüşvət yolu ilə yığıb gündə basdırdığı yüz minlərlə "pullarının" çürüdüyü aşkar edilmişdir. Başqa bir məlumatda söylənilir ki, bəşəriyyətin qayğısına qalan, onun şəfqətdən riqqətə gələn doğum evinin "xadimələri" yenicə dünyaya gələn körpələri qəsdən dəyişik salır və ya çağa oğurluğu baş alıb gedir. İnsan oğurluğunun özü cinayətdir. Lakin ən böyük dəhşət ondadır ki, kimsə əmin ola bilməz ki, ölümü elan edilən körpə hazırda sağdır və haradasa yaşayır, yoxsa yox. Əgər doğum evində körpələr dəyişik düşürsə, kim əmin ola bilər ki, böyüdüb ərsəyə çatdırdığı övlad onundur, yoxsa başqasının. Burada valideyn-övlad münasibətində bəşəri etimad pozulur və səksəkəli dünya başlayır. Eynilə gözlənilməz qətllər də insanın öz həyatına və sabaha inamını əlindən alır, narahat, vahiməli, ümidsiz bir iqlim yaradır.

Qətl olunan şəxs, onun arxalandığı nəzəri-elmi dünya sübuta çalışırdı ki, tarix sirrinin açarını tapmışam. Xaotik, əzablı dünyaya qarşı elmli, ahəngdar, səadət saçan bir dünya uğrunda vuruşuruq. Bu adamı qətlə yetirən dünya da cavab verirdi ki, onlar dünyanın ahəngini pozub, təbiətin və cəmiyyətin irsiyyətindəki inkişaf telini qırıb aləmi ağzıaşağı qapamağa çalışırlar. Onlar dünyanı sahibsiz mala çevirməklə ictimai intizamı alt-üst edirlər. Təbiətin milyonlarla, cəmiyyətin min illərlə inkişaf edib gəldiyi, yığım əmələ gətirdiyi, bəşəriyyətin min bir əzabla yaratdığı, göz bəbəyi kimi qoruyub saxladığı şeyi talana sürükləyirlər. Dünya talana uğrayır, bəşəriyyətdə də talançı əxlaq yaranır.

Deyək ki, hər kəs öz mövqeyində haqlıdır. Lakin heç bir şey gözlənilməz qətlə bəraət qazandıra bilməz. Ona görədir ki, sənətkar – M.S.Ordubadi burada bir adamın qətlinin təsirini bir millətin, bir xalqın edamına verilən aşkar hökmün doğurduğu vahiməyə bərabər tutur.

Lakin bizim üçün gözlənilməz, təəccüblü, vahiməli görünən şey, istibdadın istila ilə qarışığı üçün adi haldır. İstila maşını xalqı qüdrətli şəxsiyyətlərdən, düşünən başlardan “təmizləməlidir” ki, həyasızlıqla özünə yol açsın.

“Şəhər çoxdan bəri çar Rusiyasına ilhaq olunmuş bir şəhər vəziyyəti almışdır. Çar soldatlarının adi söyüşləri, küçədən keçənlərlə öcəşməsi, qadın görürkən: “bacı, sənin ərin var?” deməsi dükançıdan ərzaq alıb pulunu verməməsi, pomidoru tabaqdan götürüb baqqalın üzünə vuraraq gülməsi adi bir hala çevrilmişdir. Yolumuz baqqal – bazardan düşdü. Buranın süd, qatıq və s. ağartı satılan bazarı başqa şəhərlərə görə qayət zəngin idi. Biz qoca bir baqqalın dükanı qabağında durub qaymağa baxırdıq, bu halda bir köpək başını qatığa uzadıb yalamaq istədi. Baqqal yanındakı ağacla köpəyi vurub qovdu. Köpəyin səsinə çar ordusunun alay komandanı nişanını daşıyan bir zabit gəldi və baqqalı söyərək köpəyin yalamaq istədiyi qatığı qabı ilə götürüb baqqalın başına vurdu. Baqqalın başı yarıldı, qanı qatığa qarışaraq axıb saqqalından aşağı töküldü. Zabit söyürdü, lakin söyüşlər yalnız baqqalın deyil, ümumiyyətlə, “mədəniyyətsiz və vəhşi” şərqlilərin ünvanına idi. Zabitin əli qatığa batmışdı. Bir nəfər Avropalı qiyafətində olan yerli tacir zabitə yanaşdı, onun İranlı olduğu ancaq başındakı nazik və mahud börkündən anlaşılırdı. O, cibindən ağ dəsmalını çıxardıb:

Əfv edərsiniz, bizimkilər eşşəkdirlər.

Sözünü rusca dedikdən sonra zabitin qatığa bulaşmış barmaqlarını silmək istədi. Hirslənmiş zabit isə qatıqlı barmaqları ilə ona bir sillə vurub:

Rədd ol – deyə söydü.

Tacir əlindəki dəsmalı ilə üzünü sildi və yaltaqlıqla zabitdən üzr istədi. Sonra tacir də baqqala yanaşıb söyməyə başladı:

“Alçaq, sən bilirsən ki, bunlar bizim əsil mehmanlarımızdır. Sən necə cürət edib ağanın itini döyürsən? – deyə tacir zabitin üzünə baxır və onun razılığını qazanmağa çalışırdı. Bundan sonra daha birisi baqqala yanaşdı:

Özləri də qonağımızdır, itləri də əzizimiz və gözümüzün işığıdır.

Baba, anlamamışıq, ağanın itini Mərənd iti bilib haqqında ədəbsizlik eləmişik. Yoxsa bizim babamız da bu qələti eləməzdi. Yəni biz elə ədəbsiz olduq ki, ağanın itindən bir qab qatığı da əsirgədik? – deyə zabiti razı salmağa çalışdı. Zabit isə hələ söyürdü,

lakin bu söyüşlər bizə yabançı deyildi, bunları biz çar zabitlərindən hər yerdə eşitmişik.

Vəhşi şərqlilər, azyatlar, zavallılar! Daha Səttarxan yoxdur. Əlahəzrət çarın zabitləri sizi lazımınca tərbiyə edər, özünüzdən min kərə mədəni və şərəfli olan nəcib köpəyi vurmağa haqqınız yoxdur. Bu hərəkət bizə qarşı bir üsyandır.

Baqqal da yalvarırdı:

Ağa, başına dönüm, belə ayaqlarının altında qurban kəsilim, anlamamışam, bir qələtdir ölübəölümümlə eləmişəm. Mən kasıb babayam, bəs qatığın pulu necə olsun?

Baqqalından tacirinə, ziyalısına qədər yaltaqlığa alışan bu xalqı seyr etdikdən sonra məni bir İranlı kimi tanıyan Miss Hannanın üzünə baxmağa utandım".

Gətirdiyimiz nümunədə istila maşınının əsil siması aydınlaşır.

Əvvəlki nümunədə istibdad istila ilə, istila da istibdadla çulğalaşaraq düşünən bir beyni gözlənilməz güllə ilə tolazladı. Biz bu hadisənin amansızlığına və vahiməli məzmununa diqqət yetirmişdik. Lakin burada istila maşını müəyyən dərəcədə özünə haqq qazandıra bilərdi. O deyərdi ki, gülləyə hədəf olan adam qadağan işlər görürdü. Qanun hər hansı bir şeyi sübut etsə onu cəzalandıracaqdı. Bizim yazılmamış qanunla etdiyimiz hərəkətimizin hansı səmtdənsə gerçək əsas verən cəhəti var. Lakin dünyaya "tərəqqi" yayan, xalqları "himayə" edən bir ordunun talanla məşğul olması, abır-həyanın həyat-məmat məsələsi olan bir xalqın qadınına əl uzatmasını nə ilə izah etmək olar? Burada vəhşilik o həddə çatmışdır ki, bir məzlumun məhsulu başındaca partladılmış, ağ qatıq qırmızı qana bulaşaraq üzü-gözü bəzəyib saqqal uzunu süzülməyə başladı. Mənzərə qəlbdə pis duyğular oyadır, adamın da ürəyini bulandırır. Lakin istilaçı ilə işin bu insani tərəfi ilə danışmaq mümkündürmü? Əksinə, zalım aman vermədən vəziyyətdən istifadə ilə insan problemini it məsələləri ilə əvəz etməyi bacardı. O, iddia etdi ki, istila ordusuna qulluq göstərən zabitin iti əsarətə düşmüş xalqın övladlarından "min dəfə mədəni və şərəflidir". Zülmə məruz qalan tərəf də etiraf etməli oldu ki, döyülən "Mərənd iti olsa idi" bir çıxış yolu mümkün idi. İstila ordusu zabitinin iti isə çox nəcib məxluqdur və hər yerdə "hörmətə, ehtirama layiq qonaqlardır".

İstila maşınının şüarlarını oxuyanda başqa şeylər eşidirik. O deyir ki, mənim əlimdə nümunəvi tərəqqi və ahəngdar yaşayış tərzi, adamı heyran qoyan ictimai intizam vasitələri var. Mən istila ilə məşğul

olmuram. Mən əlimdəki bu ilahi nemətləri yayıram. Lakin elədikləri əslində amansızlıq, vəhşilik, törətdikləri də cinayətlər, qəbahətlər məcmusudur.

Sonra o xalqları zəlil vəziyyətə salacaq. İctimai təzyiq altında simasızlaşan xalqı da göstərib deyəcək ki, bu millət murdardır, geri qalmışdır.

Planetimizdə eyni vaxtda vahid tərəqqi müşahidə edilməmişdi. Tərəqqidə həm pərakəndəlik, həm dalqabaqlıq, həm də qalxıb-enmələr müşahidə edilmişdir. Tərəqqinin lokallaşmış xalqları nümunəvi, tərəqqidən qıraqda qalan xalqlar isə naqis millətlər kimi gözə dəymişdir. Bir halda ki, dəqiq elmlərin nümayəndələri hesablama əsasında söyləyirlər ki, texniki tərəqqidə hər son 50 il tarixin keçib gəldiyi bütün yola bərabər olur. Dəblər qəhbəxanalardan, texniki tərəqqi isə adətən hərbi texnikadan başlayır. Ona görə də tərəqqinin lokallaşdığı xalqlar həmin vəziyyəti keçirlər. Texniki tərəqqi maddi imkanı da genişləndirir və o, münasibətlərdə də (çox vaxt da zahiri) maraqlı cəhətlər yaradır. Zahiri əndazə belə görünür. Ağlın küt, iradənin zəif yerlərində istedadlı və istedadsız, yaxşı və pis xalqlar haqqında təsəvvürlər yaranır. Bu zaman istilaçı dövlətlər himayə şüarları ilə çıxış edir.

Məhv olsun o azadlıq ki, onu başqaları verir.

Məhv olsun o səadət ki, onu başqaları yaradır və s. və i.a.

İstilaçı dövlətlər himayə şüarları ilə çıxış edirlər. Lakin sonra onlar əsarətə düşən xalqlar haqqında müəyyən "əsaslar"la pis rəylər yaratmağa çalışırlar. Belə bir halda başı partlayan baqqal – "şəxsiyyət" cismani əzabını, mənəvi həqarəti unudub qatığın və küpün dərdini çəkir. Ziyana, zülmə uğramış, zəlil vəziyyətə düşmüş doğma xalqı müdafiəyə keçmək əvəzinə, zalımın ətrafında şırvanır, quyruq bulayır, zalımın hərəkətlərinə yaslanır, yaxasını açıb itə göstərir. Zəlillik, gerilik və həqarət o qədərdir ki, müəllif və ya əsərin baş qəhrəmanı doğma xalqı üçün xəcalət çəkməyə başlayır. Bu zaman zalım əsarətə düşən xalqları məhv etmək planları hazırlayır, həyata keçirməyə də cəhd göstərir. O, özünə haqq qazandırmaq üçün durub-oturub söyləyir ki, murdar, geridə qalmış xalqdır. Mən planeti və bəşəri yolu murdardan, gərəksizlikdən, gerilikdən təmizləyirəm. Bəla orasındadır ki, zalımın bu fitnəsinin toruna günahsız surətdə düşənlər də müşahidə edilir.

Əgər bir xalq bu gün tərəqqiyə başçılıq edirsə, onun yaratdığı dövlət başqalarını əsarət altına almışsa, çıxış yolu geri qalan

millətləri məhv etmək yox, tərəqqi yaymaqdır. Çünki tərəqqi növbə ilədir. Çox vaxt əsarət altından çıxan xalq özü tərəqqiyə istiqamət verməyə və istila dövləti yaratmağa başlayır. Dünənki hakim xalq isə geri qala, əsarətə düşə bilər. Vəziyyətdən çıxış yolunu tərəqqini yaymaqda yox, məhv etməkdə axtaranlar öz məntiqlərinə ilişə bilirlər. Çünki məhv etmək, növbə ilə bütün xalqların, deməli, bəşəriyyətin kökünü kəsməkdir.

Müəllifin və ya baş qəhrəmanın doğma xalqın düşdüyü vəziyyətə görə xəcalət çəkməsində də idrakilik yoxdur. Baqqalından tutmuş ziyalısına qədər simasını itirib yaltaqlanan doğma xalqı müşahidə etmək kədərlidir. Xalq xarakterindəki dolambacları – metamorfozları inkar etmirik. Lakin istila maşınının mənafeyi naminə və axmaq arzularla baş tutanlar, satqınlar zümrəsi yaradır, "xalqı satın almağa" çalışır, əzir, qırır-tökür, xalqın gözünə kül üfürərək, onu simasız şəklə salır. Elə bir an gəlir ki, daha xalq özü də özünü təmsil etmir. Tarxin gedişi elədir ki, belə bir hadisə hər hansı bir xalqın başına gələ bilər. Bəla onda deyil ki, xalq zəlil vəziyyətə düşərək, özünü təmsil edə bilmir. Bəla onda olardı ki, xalq özünü itirəndə bütövlükdə milləti təmsil edən əzəmətli adamlar müşahidə edilməyəydi. Səttarxanlar bütövlükdə öz xalqını və bəşəriyyəti təmsil eləmək qüdrətinə, keyfiyyətinə malikdirlər. Əgər baş qəhrəman baqqalından tacirinə qədər simasını itirən xalqdan üzü qaradırsa, zalımın "daha Səttar yoxdur" deyib sinəsinə döyməsində bir vahimə hissi də var. Zalım Səttarları sıradan çıxarıb xalqı təpikləri altında saxlayarkən özünü aldatmır, vəziyyəti elə qələmə verir ki, guya məsələ həll olunmuş, onun mövqeyi əbədidir. Lakin böhran anında zalımın Səttarxanın adını çəkməsində bir vahimə hissi də gizlənmiş. Nöqsanlara görə xəcalət çəkməkdə idrakilik yoxdur. Nöqsanlar keçmişə və zəlil vəziyyətə bağlıdır. Səttarxanlar isə sağlamdır, artandır, boy atandır. Ona görə də o gələcəyə doğru gedir. Bəşər həyatında əsil özül, sağlam hissə Səttarxanlardır.

Zalımlar öz fəaliyyətlərində ona görə dərhal Səttarları hədəfə götürür ki, həyasızlıqla özlərinə yol açsınlar.

Hər cür orduda sözsüz dövlət (hərbi) intizamı qorunmalıdır. Əks təqdirdə o, öz vəzifəsini yerinə yetirməz, hərc-mərcliyin yaratdığı vəziyyət dünyanı ağzıaşağı qapayar.

Ordunun vəzifəsi intizamı qorumaqdır. Lakin ordu qorumaq vəzifəsini buraxıb soyğuna başlayırsa, çadralı başlara əl atar, dünyanı həyasızlıq bataqlığında boğar.

“...Birdən uzun dəhlizdə çar zabitinin hay-küyü başlandı.

Bir çox İranlı və yerli tacirlər qaçıb getdi, qadınlar da həyət qapısından çıxıb başqa mehmanxanalara qaçırdılar. Zabitlərdən bir neçəsi xidmətçiləri döyüb, qadın tələb etmişlər. Qadın gətirilmişdi, lakin zabitlərin hamısına qadın yetişmədiyindən dalaşmağa başlamışdılar.

Culfanın hər tərəfindən toplanmış 15 nəfərə qədər əxlaqsız qadın dəhlizin bir başında saxlanmışdı, zabitlər isə qılınclarını çəkib yenə də qadın tələb edirdilər.

“Day baba!” deyərək xidmətçiləri hədələyirdilər. Qadınlar qorxularından nə edəcəklərini bilmirdilər.

Otel sahibi qadınını götürüb qaçmışdı.

Zabitlərdən birisi dördüncü otağın qapısını qalıncla vurub:

Burada qadın var, – deyə qışqırırdı.

Xidmətçi:

Buradakı qız Amerika Xeyriyyə Cəmiyyətinin üzvlərindəndir, o, Təbrizə gedir, – dedikdə zabit qüvvətli bir təkanla qapını açdı. Otaqdan dəhşətli bir qışqırıq eşidildi, bir azdan sonra gecə paltarında olan gənc bir qızı dəhlizə çəkdilər. Saçları dağınıq qız qorxusundan tir-tir titrəyirdi. O, gah almanca, gah ingiliscə yalvarırdısa da, sözünü eşidən yoxdu. Çar zabitlərinin qafasında iki şey hökm sürürdü: şəhvət və şərab.

Zabitin birisi namusu vəhşilər əlində olan Amerikalı qıza arası kəsilmədən nitq söyləyir və deyirdi: Biz çarın yolunda Şərqə gedirik. Kim bilir, bəlkə salamat qayıtmadıq. Xanım qız, siz mədəni bir qızsınız, bilməlisiniz ki, sizi özümüzə həmişəlik mal etmirik, bir gecə qalıb gedənlərdənik. Siz heç də təlaş etməyin, biz mədəni və ziyalı adamlarıq, çar zabitləriyik.

Qıza yardım etmək lazımdı, lakin müdaxiləyə cəsarət etmirdim. Pasportum vardı, canımdan qorxurdum. Çünki qılınclar və boş butulkalar kəsməyə və əzməyə baş arayırdı. Onların sırasında ayıq olanları da vardı, lakin onlar da qadın ver, – deyə qışqıranların səsinə səs verirdi.

Mən yüksək rütbəli 40-45 yaşlarında bir zabitə yanaşdım. O məni başdan-ayağa qədər gözdən keçirdi və yanında bir Avropalı durduğunu hiss edincə:

Nə istəyirsiniz? – dedi.

Mən: Sizə bir neçə söz demək istərdim, – dedim.

Buyurun, – deyə cavab verdi.

Siz Şərqə gedirsiniz, bura da Şərqin girəcəyidir. Siz İrana böyük Rusiya mədəniyyəti aparmaq və orada sülh səlaməti bərpa etmək üçün gedirsiniz, siz bu iddia ilə də başqa bir hökumətin torpağına daxil olacaqsınız. Əlbəttə, sizin bu rəftarınız imperator hökumətinin təqib etdiyi sülh siyasətinin əleyhinədir, əcəba, siz bunu nəzərə almırsınızmı?" *(M.S.Ordubadi, əsərləri, 3-cü cild, Bakı, 1964, səh. 29-30).*

"Otel sahibi bizə yanaşaraq:

...İngilis otelinin qab yuyan qadınını, otel sahibinin qadınını zorlamışlar. Meqri ateli "Fransa" otelinin sahibi Qriqor ağa Franqulov da axşamdan öz arvadını götürüb bura qaçmışdır" (Orada, səh. 34).

Gətirdiyimiz nümunələrin tələblərindən irəli gələn izahat işləri əvvəlcədən aparılmışdır. Vəziyyətin heyrətli, dəhşətli, vəhşicəsinə olduğu o qədər aydındır ki, nümunələr özləri də özlərini izah edir.

İmperator hökuməti! Fərqi yoxdur, bu istila ordusudur. O bu gün də müxtəlif tüllərə bürünə, ən modalı fikirlər intişar etdirə, parlaq şüarlarla meydana atıla bilər. Amma istila iki mahiyyətdə olmur. O, sözdə tərəqqi yaymaqdan, sülhü bərpa etməkdən və sülhü qorumaqdan danışa bilər – məntiqsiz surətdə! Lakin müdafiəsizlərin varlığı ilə hesablaşmaz, xalqı tərac edər, ölkəni viran qoyar, kişilərin boynuna balta tuşlayar, düşünən beyinləri zülmətə qərq edər, qadınların gözəllik və ülviyyət saçan yaxalarına əl atar, ülviyyəti söküb-tökərlər. Burada isə rus istila ordusunun zabiti müdafiəsiz qadının sinəsinə qılıncını dayamış – qız isə dəhşətlə qışqırır, tir-tir titrəyir. Rus istila ordusunun başında "şəhvət və şərab" tüğyan edir. Əli qılınclı zabit qorxudan, həyəcandan özünü itirən qıza bununla təskinlik verir ki, səni həmişəlik yanımda saxlamaq məqsədim yoxdur, səninlə istədiyim kimi rəftar etməliyəm.

Əhsən, nə təskinlikdir! Əhsən, nə sülhü qorumaqdır! Əhsən, nə tərəqqi yaymaqdır!

İstila maşını məsələni belə qoyur: dövlətin əzəməti onun sərhədlərinin hüdudu ilə ölçülür.

Yelbeyin məntiqdir!

Qədim Yunan Dövləti özünün ən yaxşı – Perikl dövrünü sərhədlərinin kiçik olduğu dövrlərdə keçirmişdir. Əksinə, Yunan Dövlətinin sərhədləri genişlənib əndazədən çıxdıqda məhv oldu.

Öz əzəmətini sərhədlərinin hüdudu ilə ölçən istilaçı dövlət buna cəhd göstərir. O, imkanı daxilində bu səmtdə irəliləyir də. İstila

maşını əraziləri, xalqları istilaçı dövlətin təmsil etdiyi millətin ətrafında bir-bir birləşdirməyə başlayır. Bu gedişat müəyyən həddə çatdıqda istilaçı başqa bir fikrə düşür. O, bu qərara gəlir ki, tarixin "əzəmət" yarışında hamını kölgədə buraxmaq üçün planetdə ancaq bir xalq və bir dövlət qalsa bəsdir. O, əvvəlcə əraziləri xalqın təmsil etdiyi bir dövlət ətrafında birləşdirirdi. İndi isə əsarət altına aldığı xalqları əritmək bu və ya başqa şəkildə qırmaqla axırına çıxmaq planı tərtib edir. Onun tərəqqi yaymaq, intizam yaratmaq, sülhü qorumaq planının axırı buraya gəlib çıxmalı idi.

Yekcins millət, xalis bəşəriyyət yaratmaq iddiası belə yaranır.

Təkcə bəşəri-tarixi gedişatda yox, həyatın bütün səmtlərindəki proses – gediş isə bunun əksinədir.

Beləliklə, tarixə amansızlıq, pozğunluq, viranəlik, çapqınçılıq, tənbəllik və s. gətirən bir şeyin sonu iflasa gedir.

Bu məntiqsizliklə bağlı başda dediymiz bəzi fikirləri burada daha da gücləndirə bilərik.

Varlığın mayasında belə, yekcinsliyi saxlamaq mümkün deyil. Hər bir hərəkət ilk təkanı yekcinslikdən alır, sonra şaxələnir, variasiyalar yaradır. Əgər yekcinslik mümkün və gərək olsaydı, cansız təbiət ilk başlanğıcı elə hidrogenin fəaliyyəti kimi saxlayardı. Lakin hidrogen özü fəaliyyət göstərən kimi dərhal cansız təbiətdə yekcinslik pozulur.

Əgər yekcinslik mümkün və gərək olsaydı, canlı təbiət öz başlanğıcını birhüceyrəlidən alar, elə də qalardı...

Çağdaş elm söyləyir ki, materiyanın element tərkibi hidrogendən başlayır. Sonra fəaliyyət, sonsuz hərəkətlərin məcmuu yüzə yaxın (elmin bugünkü səviyyəsinin verdiyi məlumata görə) kimyəvi element verir.

Qeyri-üzvi aləmdə bu yüz element müxtəlif variantlarda və quruluşlarda birləşərək yüz minlərlə məhsul yaradır. Üzvi aləmdə isə kökü karbon və hidrogen olmaq şərti ilə bu elementlərin müxtəlif tərkibli və quruluşlu birləşmələri milyonlarla məhsul verir. Yekcincliyin bu cür pozulma gedişatı baş verməsəydi, dünyanın indiki mənzərəsi, bəşər həyatı da mümkün olmazdı. Məhz yekcinsliyin məsələn, canlı təbiətdə pozulması imkan vermişdi ki, həmin birhüceyrəli tarixən müşahidə edilən, bu gün mövcud olan flora və fauna növlərinin əsasında dayansın. Söz nisbi mənada başa düşülərsə, axırı da ki, gəlib düşünən materiyaya dayanır, ülviyyət təsdiq olunur.

Məgər bu pisdirmi?

Bəşəriyyətin irqlərə və irqlərin törətdiyi millətlərə nisbətində də eyni mənzərəni müşahidə edirik. Əgər məsləhət olsa idi, təbiət və sonra tarix lap başlanğıcda bir irq və tək bircə millət yaradar, axıra qədər də onu hifz edərdi. Bir halda ki, millətlər və milli dillərin əsası vahid bir kökə bağlanır. Lakin biz burada da bunun lap əksini görürürk. Təbiət yekcinsliyə qayıdarkən, yekcinslik əsasında (karbohidrogenlərin timsalında) yenidən ifrat şaxələnmə müşahidə edildiyi kimi, bəşər həyatında da imperialistcəsinə yekcinsləşmə getdikcə, yəni hakim millətin böyüməsi əsasında yenidən ifrat çürümə və parçalanma başlayır. İmperialist assimiliatorluğunun təcavüzkarlığından, cinayətkarlığından başqa bu cür yelbeyin, düşüncəsiz, lakin dünya üçün təhlükəli mündəricəsi də var.

Hələ lap qədimdən dünyanın element tərkibini müəyyənləşdirməyə çalışmış, müxtəlif zamanlarda odu, suyu və ya havanı, torpağı əsas götürmüşlər. Nəhayət, "dörd ünsür" nəzəriyyəsi meydana gəlmiş, dünyanın əsası kimi uzun müddət qüvvədə olmuş həmin "dörd ünsür" bu gün bizə məlum olan, dünyanın əsasını təşkil edən elementlər və onun intəhasız birləşmələrini əvəz edirdi. Doğrudan da bizim seyirçi baxışımızla gördüyümüz həmin od, su, hava, torpaq adi od, su, və hava yox, zəngin kimyəvi birləşmələrin və çevrilmələrin məhsuludur. Məsələn, əhəng daşı, mərmər, təbaşir, müxtəlif növ torpaqlar, toz təbəqəsi, lil, dəniz suyu, çay suları, vulkan püskürmələri zamanı müşahidə edilən alov, atmosfer və s. bu qəbildəndir. Bu birləşmələrdə hegemon elementlər var – maddənin növünə görə. Həm də bu hegemonluq mütləq deyil – maddədən maddəyə keçdikcə dəyişkəndir. Lakin təbiətin özündə ardıcıl yekcinslik müşahidə edilmir.

Elementlər əsasında intəhasız maddələr yaranır. Bunların hamısı birlikdə, bütöv şəkildə dünya kimi meydana çıxır. Bəşəriyyət sanki dünyamıza, irqlər isə dünyanı təşkil edən elementlərə bənzəyir. Elementlərin bir-biri ilə birləşməsi əsasında yaranan maddələr dünyamızın intəhasız variasiyaları olduğu kimi, irqlərin əsasında təşəkkül tapan millətlər də bəşərin variasiyalarıdır. Görünür, bəşərin milli variasiyalarının da hüdudu yoxdur. Bu da özünü onda göstərir ki, bu və ya başqa qarışığı olmayan, xalis şəkildə millət meydana çıxmır. Qarışıqlıqda milli hüdudlar sanki itir, bəşəri özül yaranır. Bu çarpazlıq, milli-bəşəri intəhasızlığı təmin edir. Hadisələr qarşısıalınmaz, obyektiv surətdə başa gəlir. İşin təbii vəziyyəti belədir. Lakin bəşəriyyət ülviyyəti təsdiq etdiyinə və idraki varlıq olduğuna

görə ağlın-tərəqqinin gücü ilə indiki ifrat amansızlıqdan qaçmalıdır. Cansız təbiətdə və canlı aləmdə cisimdən başqa ürək, həm də ağıl anlayışı insani səviyyədə deyil. Ürəyi, ağlı vasitəsiylə seçilən insan onun gücü ilə ifrat təbii vəziyyətdən qaçmalıdır. Bu özü də ikinci obyektiv tələbdir.

Lakin bunun əvəzində istila maşını işdəki amansızlığa hegemonluq ideyasını da əlavə edir.

Obyektiv vəziyyət mübarizədə zəif-güclü tərəf yaradır. Amma istila maşını hegemonluq ideyasını zəif düşmüş millətləri təcavüzə uğratmaq, onları məhv etmək təşəbbüsü ilə başa gətirməyə çalışır.

Doğrudur, istila maşınının bu ideyaları özünü doğrultmur, nəticədə özünə qarşı çevrilərək tərs nəticə verir. Lakin o, qüvvədə olduğu müddətdə ictimai məntiqi qarışdırır, hərc-mərclik, laqeydlik, heyvərəlik, dağıntı və b.k. yaradır, nəticədə isə dünyanın kamilliyə gedən yolları qırılır, daim yarımçıq qalır.

İstila maşını planlarının nəticədə özünə qarşı çevrilməsinin məğzi ondadır ki, çox vaxt zəif düşən, təcavüzə, təzyiqə uğrayan xalq deyil, güc əsasında xalqları əsarətə alan, təcavüz işlədən, təzyiq göstərən, təkbaşına, ancaq özü qalmağa çalışan millət daha tez sıradan çıxır, əsarətə aldığı dünyanın içərisində əriyərək itib-batır. Doğrudur, indi o, əriyərkən, əvvəlcə xəsarətliklər gətirdiyi millətlərdən yeni bəşəri variasiyaların, özünün əridiyi yerlərdə yeni millətlərin əmələ gəlməsinə yol açır. Bu baxımdan qədim Roma imperiyası latın xalqının taleyi timsalında bir nümunə yaratmışdır.

Biz insani pillədən aşağı dayanan cansız və ilkin canlı təbiətə nəzər salarkən onlardakı kor-koranəliyə qarşı düşünən dünyaya ürəyi və ağlı isnad verirdik.

Bizcə ürəyin yaratdığı ülviyyət, idrakın meydan verdiyi imkan varlıqdakı kor-koranə amansızlığı yumşaltmalı idi. Lakin hegemonluq iddiası əsasında istila maşınının soyğunçuluğu, yekcins millət planlarının başa gətirdiyi amansızlığı və baş tutmazlığı bu səviyyədə biz cansız təbiətdə və canlı aləmin ilkin pillələrində görmürük.

Təbiət və ilkin canlı aləm vəziyyəti hegemonluq və yekcinslik əsasında aparmır. O, bu xəyala düşsə idi, ancaq ahəng pozulardı. Biz, məsələn, insan anlayışına kimyəvi tərkibcə elementlərin mürəkkəb birləşmələri şəklində təsəvvür etmirik. Başqa sözlə, kim insan anlayışına karbon, hidrogen, oksigen, azot, fosfor və s. elementlərin intəhasız birləşmələrinin məcmusu kimi baxır?!

Heyvan və insanların kimyəvi tərkibinin əsasını, heç şübhəsiz, karbohidrogenlər təşkil edir. Lakin bu "karbohidrogenlərin" oksigenli birləşmələri o dərəcədə ardıcıldır və ifrat şəkildədir ki, heyvan və insanlarda faizilə yox, kütləcə oksigenin payına düşən hissə başqa elementlərlə birlikdə götürüldükdə bu onların hamısından daha çoxdur. Oksigen heyvan və insan orqanizmində imperialist xəyala düşsə və başqa elementlərə qarşı assimilyator siyasəti yeritsəydi, heyvanlar və insanlar aləmi nə kökə düşərdi?!

Heyvanların, xüsusən insanların qidaları da heyvandarlıq məhsulları, bitki və bitki tumları, meyvələridir. Bunların da kimyəvi tərkibinin əsasında karbohidrogenlər durur. Lakin burada karbonun hidrogenli birləşmələri oksigen, azot, fosfor və s. elementlərlə o qədər birləşmə yaradır ki, bu birləşmələrdən hər hansı bir elementi sərf-nəzər etsək, canlı dünyanı bütöv nəzərə gətirmək olmaz.

Ən adi kitablarda, dərsliklərdə belə deyilir ki, bitkiləri təbii "fabriklərə" bənzətmək olar. Hava, su və torpaqdan alınan maddələr bitkilərdə şüanın, – helium elementinin fotonlarının təsiri ilə zülallara, yağlara, nişastaya, şəkərə, turşulara, vitaminlərə çevrilir. Kim, məsələn, buğda, düyü, tut, gilas, alma, armud, heyva, üzüm, qoz, fındıq, şabalıd və b. məhsullarda adi gözlə ayrıca götürülmüş "hava, su, torpaq, helium elementi fotonlarının" parlaq izini görə bilər?! Lakin hava, su və torpaq adlandırdığımız dünya adicə hava, su və torpaq deyil, bu elmə məlum olan ən azı onlarla, yüzlərlə elementin mürəkkəb, sonsuz variasiyalarla birləşmələrinin məcmuudur. Göründüyü kimi, kütləsinə görə yox, faizlərlə götürüldükdə də üzvi birləşmələrdə karbon və hidrogenin də assimilyatorluq siyasəti baş tutmazdı. Dünyanın ayrı-ayrı qatlarını və bütövlükdə özünü yaradan elementlər sırasında "aparıcı elementlər"assimilyatorluq siyasəti yeritsəydi, onu həyata keçirə bilsəydi, bu ancaq dünya ahənginin pozulması ilə nəticələnərdi.

Kosmik elm milyardlarla işıq ili məsafəsində obyektlərdən danışa bilir. Əgər biz özümüzü milyardlarla işıq ili radiusunda şarın mərkəzində təsəvvür etsək, onda görərik ki, bu alımin də kimyəvi tərkibinin əsasını bizim Yer planetimizdəki və ya ümumiyyətlə bizə məlum olan həmin kimyəvi elementlər təşkil edir. Orada da həmin kimyəvi elementlərin sonsuz birləşmələri baş alıb gedir. Dünya məhz bu baxımdan birrənglidir. Lakin o yekcins deyil. Çünki onun element birləşmələri və çevrilmələrinə qədər intəhasız olsa da əsas, kök itmir, elementlər mühafizə olunur.

Eyni vəziyyətin bəşər tarixində də müşahidəsi mümkündür. Bəşəriyyət vahiddir. Dönə-dönə dediyimiz kimi, irqlər sanki onun element tərkibini təşkil edir. İrqlərin intəhasız birləşmələri millətləri vermişdir. Deməli, millətlər bəşəri vahidin intəhasız variasiyalarıdır.

Millətlər bəşəri variasiyadır. Yəni o birrənglidirsə, bu heç də yekcinslik deyən söz deyil. Əgər biz bu sonsuz variasiyalarda yekrəngliliyi təsdiq ediriksə, bu heç bir zaman variasiyalardan birini – indi hakim mövqeyə qalxmış bir millәti fövqə qaldırmaq, yerdə qalan variasiyaları – millətləri onun içərisində əridib süni yekcinslilik yaratmaq yolu ilə başa gəlmir. Belə təsadüflər tarixdə müşahidə edilmir. Bu baş tutmur. Lakin bu baş tutmaz təşəbbüsdə çoxlu xəsərrətliklər yetirəndən və iflas edəndən sonra tarix öz yolu ilə addımlayır.

Tarixi təcrübə göstərir ki, zorakı assimilyasiya heç bir zaman baş tutmur. Əksinə, bəşər haqqında zorla yekcinsliliyə, birmillətliliyə can atdıqda milli ayrılıqlar daha çox baş verir. Çünki nadanlıq, qərəz, zorakılıq etimadı, bəşəri telləri qırır, kin, nifrət yaradır. Özünümüdafiə amansız mübarizə meydanına çevrilir.

Dünya yekcinsliliklə müxtəlifliyin intəhasız variasiyalarının məcmusundan ibarətdir. Burada qütblər daim bir-birilərinə tərəf axır və bir-birilərindən uzaqlaşır. Eynilə yekcinslilik daim müxtəlifliyə, müxtəliflik isə yekcinsliyə meyil edir. Beləliklə, xalqlardan bir hakim millət əsasında yekcins bəşəriyyət yaratmaq təşəbbüsünün real əsası aradan qalxır.

Bəs əldə nə edilir?

Nəticədə istibdad və istilanın tarixə, bəşəriyyətə, xalqların, insanların həyatına gətirdiyi fəlakətlər, faciələr, təhqirlər, qəbahətlər, pozğunluqlar, dağıntılar, düşkünlüklər, nadanlıqlar, geriliklər pərən-pərən düşmələr və s. əldə edilir.

İstibdad qüvvədə olduğu anda nəfsi, şıltağı naminə əzir, məhv edir. İrin, qan, göz yaşı hesabına istibdadı mənəvi düşkünlük, simasızlıq, kütbeyinlik müşaiyət edir. O nəfsini və şıltağını güddüyünə görə hər cür yaradıcılıqdan məhrumdur. Ondakı amansızlıq, böhtan və zülm yalanı genişləndirmək biçimində üzə çıxır. Lakin onun azğınlığı, dünyanı şikəst qoymaqdan, kütləri zəlil kökünə salmaqdan başqa törətdiyi dolaşıq ictimai ipə özünü də ilişdirir. Bu vəziyyət bəzən istibdadı islahatlar oyunbazlığına əl atmağa məcbur edir. Lakin savadsız, qərəzli. Qeyri-səmimi islahatlar baş tuta, işə xeyir verə bilərmi?

İstibdad bəzən xidmətə meyil edir. Lakin məhz istibdad olduğuna görə (diktatura başqa şeydir) xeyir yollarında onun ağzı mütləq yanacaqdır.

O islahat və Xeyirə xidmət oyunbazlığı etməyə başlayır. Lakin islahatı özündən yox, ağılasığmaz səmtlərdən başladığına görə dərhal ifrat istibdad baş alıb gedir. Axırda isə yeni tərəqqi, xeyirə əsil xidmət məqsədilə edilən islahat istibdadın özünün varlığı məsələsini qoyur.

İfrat istibdadın törətdiyi vəziyyət yaralı Əqrəbi xatırladır. Əqrəb bəzən məqsədli, çox vaxt isə təbiətinə görə daim quyruğunu fırladır, fərqinə varmadan sancmağa, çalmağa, zəhərləməyə, məhv etməyə çalışır. O, şər üçün, zəhərli iqlim yaratmaq naminə vurnuxur. Təbii ki, cavabsız da qalmır və nəhayət, zədə alır. Zədəli əqrəb daha çaşqın şəkildə quyruğunu fırlayır və çox vaxt özünü öz başından sancır. Əqrəbin həm başı, həm də quyruğu zəhərlidir. O, həm dişi, həm də quyruğu ilə sancır. İstibdad zəhərli bir mühit yaradarkən özünə xilas yolu tapacağını güman etməkdə ciddi səhvə yol verir. Necə olar ki, zəhərlənmiş mühitdə yaşayasan, ondan bir gilə sənin üstünə dağılmaya? Axı istibdad ümumi məfhumdur. O ayrı-ayrı fərdlərin (xüsusən, müstəbidlər özlərini xadim yerinə qoymağa çalışırlar) məcmusudur. Zəhərli mühitdən istibdad naşirlərinin özünə pay çatır. Əgər ictimai və təbii hadisələr imkan versə ki, bu və ya başqa fərd ictimai zəhər sıçrantısından yan keçsin, bu da vəziyyətə çıxış yolu qoymur. Çünki onlar bala, nəsil qoyub gedirlər. İstibdadın tərk edib getdiyi zəhərli mühitdə bəlalar çabalamaya bilərmi?

İstibdad bir ictimai zəhər tuluğudur. O, az-çox fərqi ilə bütün ictimai məsamələrə və onun sakinlərinin üstünə səpələnir. Lakin ictimai zəhərin bircə zərrəsi bəsdir ki, o öz işini görsün – məhv etsin. Məhvin isə azı-çoxu olmaz!

İstilanın ilk məqsədi imperiya yaratmaq və soyğundur. Lakin ilkin planlar müəyyən həddə çatandan sonra məhv etmə gedişi başlayır.

İstila gedişinin özü hələ lap başlanğıcda qırğın və dağıntı hesabına başa gəlir. Sonra o əsarət durumunu saxlamaq, ictimai qüvvələri öz məqsədinə tabe etmək üçün güclü və sağlam qüvvələri məhv edir. Lakin o tora salmaq və hipnoz etmək naminə canavar təbiətini gizlə-mək üçün mələk tülünə bürünməlidir. Bu zaman məhv etməyin mürəkkəb və daha amansız üsulları başlayır. Bunun ilkini və başlı-cası parçalamaq yolu ilə məhv etməkdir. O bu iş üçün millətin öz

içərisindən satqınlar, laqeydlər zümrəsi yaradır. Bu gedişat əvvəlcə milli cılızlaşmanın əsasını qoyur. Sonra o, xalqı məhv etməlidir.

Bir sözlə, bu ideyanın yelbeyinliyi, baştutmazlığı, ona görə də antibəşəriliyi, cinayətkarlığı ondadır ki, təzyiq, təcavüz yaradacı bir xalqı öldürə bilməz – tarixən həmişə ölən istilaçı dəstəni verən xalq olur. İrticaya, cılızlaşmağa, çürüməyə, ölümə və s. qarşı yaradıcı xalqın içərisində müqavimət hərəkatı başlayır. Satqınların, laqeydlərin müqabilində fədailər müşahidə edilir. Bu yolla da millət daxilində süni surətdə yaranan eybəcər təbəqələşməyə qarşı təbii təbəqələşmə özünü göstərir. Təbii təbəqələşmə isə bəşəriyyətin uzaq vuran silahıdır.

Bu, istila ilə istibdadın vəhdət təşkil elədiyi nöqtədir. İstibdad üçün güzsüz düşdüyü nöqtələr münbit bir mühit rolu oynayırdı. O bu mühitdən istifadə edərək gücsüz nöqtələri daha da artırır, şiddətləndirir, pərakəndəliyə, satqınlığa, xaraktersizliyə, şərəfsizliyə, bayağılığa, tənbəlliyə, bekarçılığa, qəbahətlərə, cinayətlərə, səfilliyə yeni tonlar verərək, qəddarlığın meydanını başdan-başa sulayır.

İstibdad hakimiyyətə dırmaşan, gərəksiz təbəqənin qabiliyyətsizliyini pərdələyərək nəfsi, şıltaqlığı naminə əzməyi irəli sürür. İstilanın istibdadla vəhdəti (istila istibdadsız keçinə bilməz) əlavə prinsiplər irəli sürür – əsarətə aldığı xalqları məhv etmək. Bu, uyğunsuz bir məntiqdir. Ona görə də o, həyatın özünün və ağılın qanunlarını, gerçəkliyi qəbul etmir. Onun xalqlardan əzib hakim millətdən yekcins bəşəriyyət yaratmaq kimi yelbeyin məqsəddən ağzı sulanmışdır. Aydın şeydir ki, bu cür yelbeyin məqsəd baş tuta bilməz. Lakin istilaçı yelbeyinin ağlına başqa şey sığmır – bir halda ki, bu gerçəkliyi və ağlın qanunlarını qəbul etmək istəmir. O, baştutmaz məntiqi irəli sürür, əsarət altına aldığı xalqın oğullarından da tələb edir ki, bu məntiqi ağlın, idrakın, tarixin, həyatın, intizamın, firavanlığın, abadlığın, səadətin, əxlaqın, ülviyyətin və s.-in möcüzəsi təkin qəbul etsinlər. Əqli, mənəviyyatı zəiflər üçün süni iqlimə uyğunlaşmaq bir qədər asandır. Çünki onların öz təbiəti zəifdir. Onlar əzab çəksələr də min dona girməyə və vicdanlarını udmağa zəif təbiətləri boy verir. Vay onda ki, bu şəraitdə bir güclü ağıl, qüdrətli şəxsiyyət peyda ola! Onda müsibət başlayır. Simasızlığa, məntiqsizliyə verilən paralarla, şəxsiyyətə, ağla verilən cəza, divan tutmalar yanaşı dayanır. “Təqsir də həmişə ölən köpək oğlunda olur”. Çünki ona əvvəlcədən demişdilər ki, səadət hər kəsin öz əlindədir. Həmin səadətin imkanları da, cəlladın qarşısında əli-qolu bağlı şəkildə

sərilmiş doğma xalqın başını öz əlinlə tutmaq kimi bir vəzifəni yerinə yetirmək və mükafatlanmaqdan ibarət yollar da ona göstərilmişdi. Özünə də başa salmışdılar ki, qarşında bir eşşək dayanmışdır. İndi özün bil, istəyirsən qantarğa ol başa keç, istəmirsən quşqun ol, quyruq altda qal... Lakin burada “qantarğa olub başa keçənlər” də yanılırlar. Belə şey baş vermir. Çünki başı quyruq, quyruğu baş – qantarğanı quşqun, quşqunu da qantarğa adlandırırlar. Burada pozulmuş ictimai məntiq dünyanı alt-üst edir. Amansız dəyənək xaotik şəkildə fırlanır. O, döyəcləmədiyi bir yer qoymur. Gec-tez bütün səmtlər o dəyənəyin “bərəkət”indən feyziyab olur. İndi “qantarğa ol, başa keç” görüm necə keçəcəksən?! Söyəndə də deyirlər ki, heyvan oğlu dəlidir. Məssəbə də söymək olmaz!..

İstibdad və istila göydən düşməmiş, o, tarixlə yanaşı yaranıb, bu günə qədər sürünüb gəlmişdir. Bunun qaynağı həyat şərtlərinin çətinliyi, insanın yarımçıqlığı, gərəkən səviyyədə kamala dolmaması, tarixin də naqisliyidir. Bu şərtlər vəhşiliyi, ibtidailiyi, çapğını, dərəbəyliyi, istibdadı, istilanı, diktaturanı, cılız bir demokratiyanı tədriclə tarixdə ipə-sapa düzüb başa gətirir. İstibdad və istila təbii yolla, tədriclə tarixə qədəm qoyduğu, möhkəmləndiyi, ömrünü sürdüyü kimi, tərəqqinin gücü artdıqca eyni ahənglə də silinib gedir. Burada təbii bir vəziyyət vardır.

Diktatura istibdada qarşı bir addım irəlidir. O, öz amansızlığı ilə istibdadı xatırladır. Ancaq istibdada hərəkət verən şey subyektiv cəhətdən kütbeyinlik, zəiflik, nəfs və şıltaqdırsa, diktaturanı idrak, qüdrət müşayiət edir. İstibdad hazır dünyanı çapqın vəziyyətinə gətirərək, viran qoyan şər mücəssəməsinə çevrilir. Diktatura, öz üslubunda olsa da, yaradıcılığa xidmət göstərir.

Cılız demokratiya zahiridir. Mahiyyəti isə ifrat şəkildə istibdadın təkrarıdır.

Formaca cılız demokratiya hər şeyi müəyyən məcəllələrlə, “xəlqi” şəkildə aparır. Lakin demokratiyanın zahiri əlaməti məcəllələr, seçki sistemlərinin tərtibi deyil, xalqın, yaradıcı, ziyalı kütlənin mətbuat imkanının dərəcəsidir. Çünki mətbuatın imkanını məhdudlaşdıran demokratiya insan hüquqlarını, xalqı, yaradıcı dünyanı açarsız-qapısız qapalı bir qəbrə və ya dibsiz bir quyuya salır... Bu cılız demokratiya qəbrin içindəkilər və ya quyunun dibindəkilərlə istədiyi kimi rəftar edir. Quyunun dibindəkilər dirəniş göstərdikcə onlara qarşı vəhşiliklər də güclənir. İndi qaranlıq bir qəbir və ya quyu dibinin sakinləri istədikləri qədər atılıb düşsünlər, qışqırsınlar, fəryad

qoparsınlar, haray salıb köməyə çağırsınlar – onların səsi heç bir yana gedib çatmaz. Dünya əlamətlərlə quyunun dibindəki vəziyyətdən nə isə bir şey duyur. Lakin vəziyyət elədir ki, dünya da quyunun dibindəkilərlə gərəkən əlaqəni yarada bilmir. Halbuki mətbuat dərhal irticanı cilovlayır, insanın dünya ilə əlaqəsini bərpa edir. Bu zaman istibdadın sərbəstliyi əlindən alınır və demokratiyaya yol açılır.

Biz istibdad və istilanı nə qədər döysək də, vəziyyət belədir.

Bəs bizim təşəbbüslərimiz nəyə xidmət göstərir? Bu, ağlın və elmin imkanları deyən sözdür. Pis ağıl stixiyanı daha da pis məcraya salaraq şəri gücləndirir, işi çətinləşdirir, irticanın ömrünü uzadır. Yaxşı ağıl təbiiliyə şüur əlaməti qatır, xeyrə yol açır, stixiyanı pis məcradan qorumaqla nahaq qurbanların və s. qarşısının alınmasına xidmət göstərir.

Elm insanın dünya ilə qarşılıqlı münasibətinə, diplomatiya siyasətə, rəftar və söz gündəlik güzərana xidmət göstərir. Həyat öz yolu ilə addımayır. Lakin bilməklə bilməmək, işi yoluna salmaqla xətdən çıxarmaq, udmaqla uduzmaq, sağaltmaqla qurban vermək, səadətlə bədbəxtlik, qazanmaqla itirmək arasında bir fərq olmalıdır. Bütün bu fərqlər gündəlik güzərandan tutmuş dünya ilə rəftara qədər təsirini göstərir. Tarix üçün yekun birdir. Çünki o balansı həmişə öz xeyrinə yekunlaşdırır. Lakin yekuna gedən yollar variasiyalar şəklindədir. Bu sonsuz variasiyalar hansı isə bir variasiyanı seçib özünə yol açır. Amma variasiyaların optimallığı müxtəlifdir. Dünya ilə rəftarda – təsərrüfatdan tutmuş siyasətə və yaradıcılıq aləminə qədər optimallıq pozulduqda hərəkət əsil xəttindən kənara çıxır. Bu sözün ifadəsi sadə görünür. Tarixdə və cəmiyyətdə isə ictimai tufan törədir. Dünya sanki çıxılmaz dairə içərisinə düşür. Fərdi və ictimai fəlakətlər, tərəqqidə ləngimək baş alıb gedir. Bu zaman cəmiyyət həyatı, tarix iki qat qüvvə ilə öz xəttinə düşməyə cəhd göstərir. Yenidən "doğma" xəttinə düşmüş hərəkətin yeri indi daha möhkəm olur.

Gündəlik güzəranda isə optimallıq pozulduqda olası bir iş baş tutmaya bilir. Buradan nahaq uğursuzluqlar, itki, hətta ölüm hadisəsi də baş verə bilir. Cəmiyyət həyatında yaranan fərqi tarix doldurur, fərdi hadisələrdə isə itənin yeri dolmur. Əgər burada ağıl varsa, itənin yerini idrakın təhlili tutur. Optimallığın itirdiyini ağıl taparaq qazanır. Vay o halda ki, optimallıqda itirəsən, ağılda isə tapmayasan. Axı insan instinktlərlə yanaşı, daha artıq idraki varlıqdır.

Deməli, həm gündəlik həyatda, həm də tarixdə obyektivlik, qanunauyğunluq düzxətli deyildir. Orada eyni şey variasiyaların seçilmə dərəcəsindən asılı olaraq elə də baş verə bilər, belə də.

Qəribə instinktli adamlar müşahidə edilir. Onlar öz instinktləri ilə incə şəkildə öz mənafelərinə bağlı olur. Bu instinkt həssas şəkildə vəziyyəti alır və daim işin xeyrinə (şəxsi mənafe mənasında) impulslar hazırlayır. Bu adamlar güzəranda daim qazanırlar. Onlar çox vaxt özlərini intim dünyasında uğurlu, cəmiyyət qoynunda mövqeli və varlı olurlar. Onlar öz hərəkətləri və daxili təhrikin instinktlərinin yaratdığı imkan əsasında, mümkün işi qeyri-mümkün hala gətirmirlər. Bu instinktin zəif müşahidə edilən və idraki kamilliyin aşağı olduğu yerlərdə vəziyyəti dərhal ala bilməmək üzündən mümkün iş qeyri-mümkün hala gələ, çıxacaq və faciə törədə bilir.

Müəyyən adamlarda müşahidə edilir ki, onlar qüdrətli şəxsiyyətə, idraka malik olsalar da, instinktlərinin zəif işləməsi üzündən dərhal vəziyyəti ala bilmir, şəraitə həssas münasibət bəsləməyi bacarmırlar. Bu qabiliyyəti onlar elmin, həyat təcrübəsinin kamala yetmənin gücü ilə yarada bilərlər.

Həm instinkti, həm əqli zəif adamlar da müşahidə edilirlər. Belələri haqqında söyləmək mümkündür ki, yıxılan ayaq altda qalır.

İnstinkt həssaslığının üstünlüyü həyata pərçimlənməməyə, şəxsiyyətin gücü dünyaya xidmət göstərir. Şəxsiyyət fəaliyyətə, idrak yaradıcılığına yol açır. İstibdad üçün fəaliyyət yox, çapqın vəziyyəti lazımdır. Ona görə də istibdad insanın zəifliyi, tarixin qüsuru üzündən əldə topladığı ictimai qüvvənin yönləndirdiyi ağır dəyənəyi qüdrətli şəxsiyyətlərin başına tullayır.

İdrak yaradıcılığa xidmət göstərir. İdrak hamının baxdığı, lakin seçə bilmədiyi şeyləri görə bilir. O, hamının bildiyi şeyləri bir tərəfə buraxıb dünyanın əfkari-ümumiyə gizli qalan sirlərini açır. Sənətin, nəzəriyyənin, elmin dəyəri də bundadır.

Lakin istibdada öz qəbahət və cinayətlərinə rövnəq verən "yaradıcılıq" lazımdır. Ona görə də o, əvvəlcədən müəyyənləşdirilmiş fikirləri inkişaf etdirən yaradıcılığa meydan verir. Bu, əvvəlcədən müəyənləşdirilmiş fikirləri inkişaf etdirənlər də istibdad tərəfindən sənətkar, nəzəriyyəçi, alim siyahısına düşür. Bu isə dünyanı kor qoymaq deyən sözdür. Halbuki idrak dünyaya baxan gözdür. Amma gözün dünyaya baxması istibdadı sıradan çıxarardı. İstibdadın ictimai qüvvənin istiqamətləndirdiyi ağır dəyənəyi idraklı başlara tuşlamasına səbəb budur.

Qüdrətli şəxsiyyətin, idraklı başın arxasında insanlıq, xalqlar, bəşəriyyət dayanır. İstibdad sadəcə qüdrətli şəxsiyyətin, idraklı başın yox, insanlığın, xalqların, bəşəriyyətin düşmənidir.

Lakin insanlıq, xalqlar, bəşəriyyət istibdad kimi gərəksiz, mənfi səciyyəli bir şeyə ömürlük ilişib qala bilməz. Bəs əslində nə olmalıdır, biz nəyi gözləyirik?

Bu sualın cavabını, gələcəyin aydın təsvirini, vaxtını dəqiq müəyyənləşdirə bilməyibsə də, elm ümumi mənzərəni vermişdir. Naturfilosoflar başqa variantda bu suala belə cavab verərdilər ki, başlanğıc bütün hərəkətlərdə nizamlı olur. Sonra daxili ziddiyyətlər qarmaqarışıqlıq yaradır. Qarmaqarışıqlıq həllini gözləyən ziddiyyətlərə işarədir. Qarmaqarışıqlıq ziddiyyətli vəziyyətə təkan verərək işin həllinə doğru aparır. Bu müəyyən həddə çatdıqda yenidən nizam başlayır. Onlara naturfilosoflar deyərdilər ki, atomar vəziyyət nizamlı, molekulyar isə xaotik hərəkətlərdir. Kristallik vəziyyət yenidən nizamı bərpa edir.

Qüdrətli şəxsiyyətin fəaliyyəti, yaradıcılıqda idrakın məhsulları həyatın irəli sürdüyü problemlərə verilən cavablardır.

## II

Aristofanın "atlılar"ı istibdad – xalq münasibətlərinin aşırı durumunu ifadə edir.

Dövlət xalqın, bəşəriyyətin taleyi ilə istədiyi kimi oynaya bilirsə, qanuni və ya qeyri-qanuni istədiyi hoqqabazlığı başa gətirə bilər. Belə olduqda kütlələr, ictimaiyyət, xalqlar məzlumcasına dayanıb dururlarsa, əllərindən heç bir şey gəlmirsə, gözü görə-görə, ağlı kəsə-kəsə iki adam birləşib etiraz etmirsə, insan nəsli ilə qoyun sürüsü arasındakı fərq aradan götürülür.

Çoban və ya qəssab üçün qoyun son dərəcə sevimli məxluqdur. Necə ki, hər bir dövlət durub-oturub özünün xalqına və bəşəriyyətə sevgi elan eləməkdən, parlaq şüarlar irəli sürməkdən doymur. Lakin birinci növbədə qəddarcasına hər cür cinayəti qoyunlara qarşı məhz çobanlar və ya qəssablar edir. Burada istibdad-xalq münasibətlərinə yönəlik durum daha da ifrata varır. Çünki çoban-qəssab, qoyun münasibətlərində sürü öz vəziyyətini insan qədər dərk etmir. O qəddarlığın işgəncəsinə qurban gedərkən təhqir hissi də duymur. Halbuki insani münasibətlərdə təkəbbürün, xudbinliyin, qəddarlığın törətdiyi qəbahət və cinayətlərə təhqir hissi də əlavə olunur. Hələ

buna üstəlik üstünlük duyğusu, təslim etmə, şəhvani ehtiyacın harınlıqla həyata keçirilməsi, murdarçılıq yaratması qəbahət seylabının hüdudunu bütün çərçivələrdən o üzə aşırır.

Əsərdə qullar – Niki və Demosfon istibdadın xalqla rəftarında vəziyyəti aşağıdakı şəkildə mənalandırır:

*“Demosfen - ...Bizim bir ağamız var:*
*Paxla yeməkdə qoçaq, əldən düşmüş bir qoca,*
*Özü də qulaqdan kar, ətiacı, bədrəftar,*
*Onun adı Demosdur, ləqəbi də küt, qanmaz,*
*Keçənlərdə bazardan bir qul alıb özünə.*
*Qul nə qul, paflaqonlu, sənəti də ki, dabbağ”.*
*(Antik ədəbiyyat müntəxabatı. Bakı. 1930, səh. 593).*

Burada əldən düşmüş qoca xalqı təmsil edir. Paflaqonluya, qəssaba isə öz taleyini tapşırmışdır.

İstibdadın dərəcəsi xalq səviyyəsinin, ictimai çürüntünün, pərakəndəliyin qəribə bir barometri rolunu oynayır. Hərçənd ki, bəzən cinayətkar bir sürü dövlət maşınını ələ keçirdikdə hakimiyyətin felən yaratdığı nüfuz, fetiş, mütəşəkkillik, sərvət və silah vasitəsiylə bu çürüntünü süni surətdə də yarada bilir. Lakin söhbət ümumi haldan gedir. Bu ziddiyyətli haldır. Ziddiyyətlər öz həllini tapana qədər isə çürüntü dövlət aparatında bir-birini əvəz edən, bir-birindən betər versiyalar törədəcəkdir.

Bu münasibətlə həmin qullar arasında gedən söhbətlər çox ibrətlidir.

*“Demosfon:*
*Açıq-aşkar, göstərilib hər nə var,*
*Əvvəl, hər eydən əvvəl gəlib kəndin taciri*
*Şəhrin ixtiyarını öz əlinə alacaq.*

*Niki:*
*Hələ ki, bir tacir var... Bəs sonra kim gələcək?*

*Demosfen:*
*Sonra da bir başqası, qoyun-keçi çodarı...*

*Niki:*
*Yenə tacir? Bəs onun nə gələcək başına?*

*Demosfen:*
*Sonra ondan da xəbis birini tapacaqlar;*
*O ağalıq edəcək, sonra da rədd olacaq...*
*Ondan sonra boşboğaz, dəyirman tək gurlayan*
*Pafloqonlu bir dabbağ hökmranlıq edəcək...*

*Niki:*
*Deməli ki, çodarı dabbağ? Yəqin*
*Qədərin hökmü budur?*

*Demosfon:*
*Özün aşkar görürsən...*

*Niki:*
*Nə fəlakət!.. görəsən başqa bir tacir yoxmu?*

*Demosfon:*
*Hələ dördüncü də var; Əla peşə sahibi!..*

*Niki:*
*O kimdir?..*

*Demosfon:*
*(dəbdəbəli)*
*Bir kolbasaçı gəlib dabbağı endirəcək!"*

*(Orada, səh. 598).*

Əvvəlcə dünyanın taleyi alverçilərin əlinə düşür. Bu o qədər qabarıqdır ki, mükamiləçilərdən biri o birindən soruşur ki, "yenə tacir". Hökmranlığa dırmaşan tacirlər də xalqın taleyini, ölkənin sərvətini hərraca qoyur, ölkədə tam bir qəbahət bataqlığı, cinayətlər dənizi yaradır, "qəbahət bataqlığı", "cinayətlər dənizi" sözdə demək asandır. Lakin işdə bu "qəbahət bataqlığı" insan əxlaqını, ədəbi, ərkanı, namusu, vicdanı, bəşəri dəyəri hədələyir, "cinayətlər dənizi" insanın taleyində, xalqların – bəşərin həyatında irinli yaralar, çoxlu göz yaşları, qan, iztirab, ağır dərdlər yaradır.

Lakin hakimiyyətdəki dəyişiklik ölkənin taleyini elə əllərə tapşırır ki, xalqın gözü yenidən tacir axtarmağa başlayır. O, açıqcasına bir nida, sual şəklində deyir ki, “görəsən başqa bir tacir yoxmu?”, çünki tacirin taleyini hərraca qoymaqdan əlavə xalqın dərisini soymaqla məşğul olan dabbaq, dabbağı da qan axıdan, şaqqalayan qəssab əvəz edir.

Biz hələ lap başda dedik ki, tarixin naqisliyi, insanın zəifliyi o həddə çatır ki, ictimai dəyişiklikdə bir-birindən betər qəbahətlər, zaylıqlar, – şər metamarfoza edir. Hardasa nəzəriyyəçilər də söyləmişlər ki, hər bir xalq öz dəyərinə, bəşəri mündərəcəsinə uyğun dövlət sistemi yaradır. İlk baxışda bu fikrə haqq qazandırmaq mümkündür. Bir halda ki, xalqı təmsil eləyən haqda deyirlər, “əldən düşmüş bir qoca”, “qulaqdan kar”, “xasiyyəti pis”, “ləqəbi də küt, qanmaz”. Nəzəriyyənin işarə vurduğu “xalq dəyərinə, bəşəri mündərəcəsinə uyğun dövlət sistemi yaradır” fikri ilə yanaşı bizim atalar misallarında söylənilir ki, axsaq eşşəyin də kor nalbəndi olar.

Xalq “qulaqdan kar, gözdən də kordursa”, o dağınıq, qarmaqarışıq axından başqa bir şey deyil. Bu halda xalq deyilən (xalq əslində bəşəriyyətdir) geniş dünyanın hər hansı səmtində əmələ gələn cüzi bir qüvvə insanın başına istədiyi oyunu aça bilər (cinayətlər cəzasız qalmır fikri başqa məsələdir). Bu vəziyyət idarəetmə sistemində (və ya hakimiyyətdə) dərəbəyliyə, istibdada, cılız demokratiyaya meydan verir. Xalq həmişə (bu vəziyyətdə) seçməkdə səhvə yol verir. Yaxşı qıraqda qalır. Onda onun haqqında söyləmək mümkündür ki, xalq özü nə səfehdir ki, onun seçdiyi nə olsun. Xalq həyatında bu qarmaqarışıqlıq mütləqiyyətdə istibdada, seçkidə isə cılız bir demokratiyaya meydan verir.

İctimai sistemlərin ən pisi cılız demokratiyadır. Çünki cılız demokratiya ifrat istibdadla dərəbəyliyin sintezini ifa etdiyi halda, əsil demokratiyanın adından danışılır. O, ülviyyəti, azadlığı, səadəti, əxlaqı, mərdliyi və s. murdarlayır. Istibdad həqiqətə yalan satır. Cılız demokratiya həqiqət taxtına minib ancaq yalan intişar etdirir. Ancaq yalan!!! Yalan, yalan, yalan! Ölkə viran qalır, insan – xalq bəşəri dəyərini itirib eybəcərləşir, zay məhsul milləti sərvətdən məhrum edir. Beləliklə, cılız demokratiya dünyanı ictimai vakuum dəryasında boğur. Xalqın qulağı kar, gözü də kor olanda, yaxşını görməyəndə, seçkidə daim yaxşını qıraqda qoyanda başına bu oyunlar gəlməlidir. Bu baxımdan nəzəriyyənin işarə vurduğu xalq öz dərdinə, bəşəri mündəricəsinə görə dövlət yaradır” fikri doğru kimi görünür.

Lakin dövlət mütəşəkkil, əli silahlı və sərvətli olduğuna görə, onun müəyyən fikri həyata tətbiq etmək imkanı daha çoxdur. İstibdad nə qədər müqəddəs, parlaq şüarlarla bəzənsə də çox vaxt cinayət, qəbahət, şər planları hazırlayır və həyata keçirməyə çalışır. Onun mövcud olma, yaşayış tərzi belədir. Buna görə də istibdad daim xeyri, yaxşını, idrakı, yaradıcı təşəbbüsü, ülviyyəti, əxlaqı, məhəbbəti, humanizmi yerindəcə boğmağa, tumurcuq halındaca qoparıb tökməyə, xırpalamağa çalışır. O, şər toxumları yayır. Vay o halda ki, istibdad istila ilə birləşə. Onda hər bir şey bəşəri libas geyinərək başdan insanın, xalqların, bəşəriyyətin əleyhinə çevriləcəkdir. Bu zaman xalqlar bəşəri keyfiyyətləri itirmək dərəcəsinə gələcəkdir.

Xalq bəşəri keyfiyyətləri itirdikdə, adətən deyirlər ki, burada kütləvi heyvanlaşma baş verir. Lakin burada heyvanlaşmadan daha dəhşətli nəticə alınır. İnsan nə insan olur, nə də heyvan. O hər ikisinə bənzəyir və hər ikisindən yad şəklə düşərək dəhşətli şeyə çevrilir. İnsan satın alınma, korlanma, təzyiq nəticəsində dəhşətli şeyə çevrilir. O, özü üçün, yaxını – övladı, valideyni, qohum-qardaşı, özgələr üçün, uzaqlar – yadlar, dostlara, yoldaşlara, qonşulara, vətəndaşlara, dəhşətli şeyə çevrilir. Lakin çətinlik orasındadır ki, bu dəhşətli şey insani keyfiyyətlərlə pərdələnir və bəzən həqiqətən bəşəri məndərəcə kəsb edərək özünə qayıdır. Vəziyyətdəki müşkül bundan ibarətdir.

Dərəbəylik, istibdad, cılız demokratiya dövründə pis-yaxşı hər şey xalqın öz daxilində baş verir. İstila dövründə isə əsarət boyunduruğu hər şeyi bürüyür. O, xalqı xəlqi olan hər şeydən məhrum edir. Xalqın hər nəyi varsa – mərdliyi, üsyankarlığı, idrakı, mədəniyyəti, mərifəti, ədəbi, ənənəsi, əxlaqı, məhəbbəti, nifrəti, qəhrəmanlığı, tarixi, vüqarı, ülviyyəti, müqəddəsliyi, və s. əlindən alınır. Əvəzində bunların hamısı istila mərkəzində plana uyğun və uydurulmuş eybəcər tərzdə izah edilərək yerlərə göndərilir. Vay o halda ki, istilanın əkdiyi bu “müqəddəs”, “dərdlərin dərmanı” olan şeylərin “gözün üstə qaşın var” deyəni olsun. Kütləvi cəza tədbirləri üçün dərhal ələ fürsət düşür. Çünki istilanın son məqsədi əsarət yox, baş tutmaz bir məqsəd üçün məhv etməkdir. O, assimilyasiya ilə başlayır. Bu baş tutmadıqda istənilən nəticəni vermədikdə sərtləşir, sonra əsəbiləşir, edam – genosid tədbirləri başlayır. Hər cür cinayətkar tədbir bəşəriyyətə tətbiq edilərkən əvvəlcədən planlaşdırılan nəticəni vermir. İstila quduzlaşır. O gördükdə ki, assimilyasiya, hətta xalqları bütöv edam eləmək də onu istəyinə çatdıra bilmir, millətləri vətənləri ilə birlikdə cılız təsərrüfata çevirmək yolu ilə torpağı genosidə başlayır.

İstilanın XX əsrin sonuna doğru müqəddəslik tülünə bürüdüyü ən böyük "kəşf" torpağı – vətənləri milləti ilə birlikdə genosid planıdır. Əgər torpaq özü inildəyir və anqırırsa, onun sakinlərinin tale mənzərəsini təsəvvürə gətirmək çətin deyil.

Amma istilanın həmin məqsədi tamamilə tərs nəticə verirsə, bu başqa məsələdir. İstila əsarətə alarkən hiss edilmədən həmin xalqların əsarətinə düşür və çox vaxt məhv etməyə çalışarkən özü əriyir, ölüb gedir. Bu xüsusən o zaman aydın şəkildə baş verir ki, istila davamlı, uzun ömürlü olsun. İstilanın məhvi bu "əzəmətin" zirvəsindəcə başa çatır.

Bax, bu vəziyyətdə hər bir xalq öz bəşəri mündərəcəsinə görə dövlət yaradır, xalqla dövlətin vəhdəti haqqında "axsaq eşşəyin də kor nalbəndi olar" fikri özünü doğrulda bilməz. Burada söhbət insanın zəifliyi və tarixin naqisliyindən gedə bilər. "Atlılardakı hadisələr belə bir tarixi vəziyyətlə bağlıdır. Orada xalqın taleyi istibdad vasitəsilə ən rəzil, ən miskin adamların əlinə keçirdi. Bu adamların sonuncuları dabbaq və qəssabdır. Dabbaq xalqın dərisini soymaq, qəssab isə şaqqalamaq üçündür. Xalq isə dövlət dəyişikliyi oyunu – qaravəllisi çıxararkən bunların hər ikisindən imtinanı, özünə ümid bağlamanı deyil, onları köbə ilə əvəz etməkdən başqa ağlına heç bir şey gətirmir.

İşarə verilən həmin adamların öz şəxsi "ləyaqətləri" simaları ilə bilavasitə və növbə ilə tanış ola bilərik.

Adamlar kolbasaçıya hakim təyin edildiyini bildirməzdən əvvəl belə bir hikmətli fikir söyləyirlər:

*"Bu gün heç bir şey olan sabah hər bir şey olar".*

*(Orada, səh. 599).*

Biz tövsiyə edirdik ki, xalq tüccara, dəllala, dabbağa, qəssaba ümid bağlayınca, özünə arxalansın. Bu ona bənzər ki, inkişafın indiki pilləsində bəşəriyyətə başa salasan ki, bir anda bütün şərəfsizliklərdən, qorxaqlıqlardan, pozğunluqlardan, simasızlıqlardan, satqınlıqlardan, tənbəlliklərdən və s. imtina etsin. Lakin bir çox halda fərd tarixin, cəmiyyətin və indiki şəraitin gərginlik şəbəkəsinə düşür. O, bu naqis vəzifələri yerinə yetirməkdən yaxasını qurtara bilmir. Bəzi adamların təbiətlərindəki yaramazlıqlar da bu gedişata ton verirsə, bu tamamilə başqa məsələdir. Söhbət burada ümumi naqis halın qaçılmazlığından gedir. Bu vəziyyətdə xalqa tövsiyə etsək ki,

tüccardan, dəllaldan, dabbaqdan, qəssabdan əl çək, özünə bel bağla, onda biz təbii vəziyyətə göz yummuş olarıq. Təbii vəziyyətə göz yumub fəaliyyət göstərərkən isə daha tərs nəticələr alınar. Belə olanda istər-istəməz “bu gün heç bir şey olan, sabah hər bir şey olar” kəlamını təhlil edirik.

Adamlar aşağıdakı şəkildə kolbasaçıya elan edilər ki, sən bu gündən hakimsən:

*“...Minlərcə adamı görürsənmi?..*
*Bunların hamısına.*
*Bazarlara, məclisə, bargaha. Hər bir şeyə*
*Sən hakim olacaqsan! Şura sənin əlində*
*Bir oyuncaq olacaq... Bütün sərkərdələri*
*Mühakimə edəcək, bəzəyəcək qırxacaq,*
*Qızları çəkəcəksən kefçin Pritoneyə...*
*Dənizi, adaları görürsənmi. Bax, orda?..*
*O yüklü gəmiləri?..*
*İndi də sağ gözünlə Karniyaya sarı bax,*
*Sol gözünlə Karfagen sahillərini seyr et!*
*Bütün burda nə varsa, sən satıb sovacaqsan..”*

(*Orada, səh.* 600-601).

Nə qədər ki, tarixi inkişafın müəyyən pilləsində dövlət cəmiyyət həyatı, xalq və dünyanın taleyi üçün təsirli vasitədir, onun imkanları geniş miqyas alır. Qabiliyyətli adamlar üçün dövlətin verdiyi imkan yaradıcılıq və quruculuq deməkdir. Tarixdə belə təsadüflər də müşahidə edilir. Lakin heyvani yaşayış tərzinə bənzər güzaran şəraitində dövlət nəfsin, xudbin ehtirasların, şıltaqlığın tələbləri üçün də geniş meydan verir. Ölkənin viran qalması, ictimai, milli, bəşəri mənafenin tapdanması, yoxsulluq, səfalət, aclığın verdiyi əzab, təhqir, göz yaşı, irin, qan hesabına... burada birinə dövlət hakimiyyəti təklif olunur. Lakin bircə kəlmə də yaradıcılıqdan, qurucu fəaliyyətdən söhbət getmir. Əksinə, ona deyirlər ki, bazarlar, sərkərdələr, dünyanın sağı və solu sənin sərəncamında olacaq. Sən də orada nə varsa, hamısını satıb, külünü göyə sovuracaqsan. Ölkənin gözəllik və ismət xəzinəsi olan qızları da öz kefinə qurban verəcəksən.

İndi yönləndirəcəyimiz məna ilə bağlı “kef” sözü bayağıdır. İnsani yaşayış tərzi üçün ən böyük məndərəcə başlanğıc üçün hamını sevmək, hamı ilə ünsiyyətə ehtiyac hiss etməkdir. İki fərd arasında

baş qaldıran cinsi məhəbbətə gəldikdə bu xüsusi duyğudur. İkini bir edən, dünyanı ilahi tülə bürüyən, aləmi poeziya və Günəş şəfəqləri ilə dolduran bu xüsusi duyğu hamıya məhəbbəti, insanla ünsiyyətə içdən duyulan ehtiyac hissini istisna etmir, buna daha da humanist mündərəcə verir.

Sevərkən xəlvətə çəkilmək, ikilikdə qalmaq arzusu, nə qədər ümumi hal olsa da, mənəviyyatın aşağı pilləsi, naqislik üçün məqbuldur. Lakin biz ümumi hala nə qədər bağlı olsaq da, işığa doğru getdiyimizə görə qarışıq-bulaşıq məhəbbəti elmin – nəzəri fikrin dili ilə təsdiq edə bilmərik. Bu yöndə təzə-tər, körpə qızları nuş etmək heyvani yaşayış tərzi üçün kef sayıla bilər.

Heyvani yaşayış tərzində çox şey məqbuldur. Körpələrin gözəllik, ismət, xəyal dünyasını pozmaq, murdarlamaq da!.. Xüsusən məcburetmə vəziyyətini müsibət və göz yaşları müşayiət etməyə bilməz. Lakin təki insan qəlbində insani, humanist duyğular daşımasın, duyğusuz yaşasın. Vay onda ki, qəddarlıq qələbə sayılsın. Bu vəziyyətdə qızların yatağa sürüklənməsi də kefdir.

Adamlar Qəssaba hakimiyyətə sürükləndiyini elə bir dillə söyləyirlər ki, Kolbasaçı təəccüblə taleyin bu gərdişinə inanmağa başlayır.

O, gözlərini bərəldərək sual verir ki, bir kolbasaçının dövlətin başına sancılması hansı keyfiyyətlə bağlıdır? Ona cavab verirlər:

*“Elə iş də bundadır: sən həyasız, şərəfsiz,*
*Rəzil, boşboğaz, alçaq olduğuna görə də*
*Böyük mənsəb sahibi bir adam olacaqsan!*

*Kolbasaçı:*
*Yox, yox, mən heç özümdən bədgüman-zad deyiləm.*

*Demosfen:*
*Ax, aman ay allahlar! Axı, niyə, a kişi?*
*Yoxsa, şərəfli, şanlı bir keçmişin var sənin?*
*Yoxsa, adlı əcdadın, əslin-nəcabətin var?*
*Kolbasaçı:*
*Yox, yox, buna əmin ol, nanəcibəm, bədəsil!*

*Demosfen:*
*Onda baxtın açıqdır, xoşbəxt doğulmusan sən!*

*Kolbasaçı:*
*Axı, bir də əzizim, mənim savadım azdır...*
*Güclə-zorla bir az-maz oxumağı bilirəm.*

*Demosfen:*
*Hayıf, hayıf... heç gərək onu da bilməyəydin!*
*Fitnəkarlıq etməyə nə məlumat, nə savad?*
*Bu iş nəcib-namuslu adamın işi deyil.*
*Cahillərin, nahamar avamların işidir.*
*Dostum, indi qulaq as, bir gör Febin falında*
*Nə deyir,*

*Kolbasaçı:*
*Nə var ki?*

*Demosfen:*
*"...Ol gün ki, qəzanın qəzəbiylə iti caynaq qara qartal*
*Qanlar soran ol əfi ilanla üz-üzə gəldi,*
*Nabüd olacaq Paflaqonun kirli həfidi və o gündən*
*Kolbasaçılar övladı olub şanu-şərəfli nücəbadan,*
*Allahların əmriylə daha əl çəkibən kolbasalardan*
*Hakimliyə nail olacaqdır, əbədi şöhrət içində..."*

*Kolbasaçı:*
*Yaxşı, bundan mənə nə? yaxşı başa sal görüm?*

*Demosfen:*
*"Qara qartal" Pafloqon itinin ləqəbidir.*

*Kolbasaçı:*
*Bəs "iti caynaq" nədir?*

*Demosfen:*
*Haman caynaqlarıyla*
*Yurdun bütün varını qamarlayır o alçaq...*

*Kolbasaçı:*
*Bəs "ilan" nə deməkdir?*

*Demosfen:*
*Bu ki, aşkar bir şeydir:*
*Bilmirsən ki, ilan da, kolbasa tək uzundur?*
*İlan qan sovurandır, kolbasa qandan olur...*
*Fal deyir ki, qartalı tələf edəcək ilan,*
*Hakim olacaq, əgər əl çəksə peşəsindən!..*

*Kolbasaçı:*
*Eləsə, mən razıyam, ancaq bir şey də var ki,*
*Bilmirəm hökuməti necə idarə edim.*

*Demosfen:*
*Buna nə var ki? Elə əvvəlki peşən kimi,*
*Döy, az sonra bunları yaxşıca qat-qarışdır,*
*İstiot vur, yoxla, bir də üstüörtülü*
*Şirin sözlər də işlət, qat acıya şirini...*
*Müxtəsər ki, boynuna biçilib fitnə-fəsad,*
*Hakim ola bilməyə hər nə desən, səndə var.*
*Özün bazar adamı, heyvərə, səsin də gur..."*

*(Orada, səh. 601-602).*

İdarəetmə sistemi dövlət adı ilə bir dəstəni başa çıxarır. Bu dəstənin içərisində isə bir nəfər hakimi-mütləq kimi görünür. Bu vəziyyətin dolanbacları var. Həmin dolanbacların izahına indilikdə ehtiyac yoxdur. Lakin vəziyyəti bir dəqiqəliyə dolanbaclardan sərf-nəzər etsək, ayrıca götürülmüş adam bütöv-bütöv insanların, böyük bir aləmin başçısı kimi nəzərə gəlir. Qəribə bir bərabərlik yaranır. Bir tərəfdə tək bir adam, o biri tərəfdə hamı. Bir adam hamıya bərabər olur. Deməli, həmin şəxs fiziki gücü, mənəvi keyfiyyətləri, kamala çatma dərəcəsinə görə bu böyüklük çərçivəsinə uyğun gəlməlidir. Lakin çox vaxt tarixin təcrübəsində və "Atlılar"da bunun əksini görürük. Ən zay, rəzil, miskin, qeyri-kamil, gücsüz, simasız, nadan,

qəbahətlər kanı, cinayətlər naşiri, lakin fitnə-fəsadda, xudbinlikdə üstün olan bir adam həmin mərtəbəyə çatır. Elə bil dünya öz məntiqsiz kələfinə ilişib qalmışdır. Burada bir nəfərə deyilir ki, sən rəzil, boşboğaz, alçaq olduğuna görə, indi hakimiyyətə dırmaşacaqsan. Arada bir əsil-nəsil söhbəti də var, söz hərfi mənada başa düşülməsə idi bunu ləyaqət kimi də mənalandırmaq mümkündür. Deməli, riyasət üçün ləyaqətə ehtiyac hiss edilmir. Təhsildən, savaddan söhbət düşür. Aydınlaşır ki, dibli-köklü savadsızlıq daha əlverişlidir. Hakimiyyət xidmət göstərmək, yaradıcılıq üçün deyilmiş. Burada insana qarşı fitnə-fəsad hazırlanır. Fitnə-fəsad üçün nə savad! Əsərin qəhrəmanları belə də deyirlər.

Dünyanın əvvəlki hakimi it xislətli, iti caynaq imiş. Onun peşəsi yurdun varını qamarlamaqdan ibarət olub. Yeni hakimin üstünlüyü amansız, zəhərli, qansoran ilan olmasındadır.

Bu adam qəssabdır. Ona başa salırlar ki, bu cəhət sənə dövləti idarə etməkdə bir özül ola bilər. Çünki kolbasaçı kimi, hakim də döyüb, əzib sonra bir-birinə qarışdıracaq, istiot, duz vuracaq, yağlayacaq. Yəni bəd işlərin, törətdiyi fitnə-fəsadı şirin sözlərlə ört-basdır edəcək, acıya şirin qatacaq – vəssalam! Bu keyfiyyətlərə əvvəlcədən malik olduğuna görə hakimiyyət elə bil kolbasaçının boynuna biçilib.

İkinci bir düşünən varlıq olsa idi cəmiyyət həyatını və tarixi təcrübələrini müşahidədən sonra qaşlarını bərk-bərk çatıb öz-özünü yeyərdi:

“Aman, gör insan özünü nə şəklə salmış!!!”

İnsanın zəifliyi, tarixin naqisliyi istibdada və istilaya meydan verir. İstibdad naşirləri xudbin ehtirasların, şıltağın ardınca qoşarkən zəifliyi artırır, naqisliyi gücləndirir. Qəbahətlər və cinayətlər hüdud bilmir. İnsanın təbiətində, cəmiyyət həyatında, tarixdə bəşəri düşüncəyə qarşı yadlaşma yaradır. Burada kütləvi tənbəllik, ülviyyət və yaradıcılıq baxımından insanların yadlaşması, qəbahətlik, viranəlik, çapqın, rüşvət əsasında beş nəfərin aşırı varlanmasına qarşı yoxsulluğun, dilənçiləşmənin əhatə dairəsinin genişlənməsi ümumi hala çevrilir. İstibdad öz müvazinətini saxlamaq naminə dünyanın sağlam parçasını, idrakiliyi tumurcuq şəklində xırdalamağa başlayır. Avaralar, müftəxorlar zümrəsi yaranır. Yıxılan ayaq altda qalır. Bütöv bir dünyanın qarnını doyurmaq üçün hər yerdən əli üzülənlər məhsuldar əməyə məcbur olur. Onlar bütün müftəxorlar, avaralar, çapqınçılar, rüşvətxorlar zümrəsinin də yerinə iki qat, on qat, min qat artıqlaması ilə işləməyə məcburdurlar. Buna tər tökdürən əmək sahəsi demək

azdır. Bu tamamilə şirəsi erkən sorulana qədər işləmək deməkdir. Dərhal gənclik solur, erkən qocalma və qısa ömür ümumi hal olur.

Ədəbin, ismətin, abırın, ləyaqətin, namusun, qeyrətin sağlamlığın, gözəlliyin dəyəri, maliyə işində pulun olduğu kimi, burada da hər şey devalvasiya edir.

Bəşəri keyfiyyətlər hərrac bazarına çıxır. Burada mənəvi sərvətlərin qoruyucusu əqidədən söhbət belə gedə bilməz.

Vəziyyət xalqın öz "hakimləri"nin, iki "nümunəvi" hakimin üz-üzə gəlməsində və bu qəbil hadisələrdə daha artıq aşkar olur.

Xalq köhnə hakim üçün deyir ki:

*"Rüşvət üçün can verərdin, qan alardın hamıdan,*
*Vətəndaşlar arasında cibi dolu, başı boş".*

*(Orada, səh. 604).*

Köhnə hakim müvazinətini saxlamaq üçün özünü aşağıdakı kimi reklamlaşdırır:

*Kleon:*
*...Oğruyam mən...*
*Yeni hakimliyə nişan verilmiş adam cavab qaytarır:*

*Kolbasaçı:*
*Mən bazar əhliyəm...*
*Oğrunu da oğurlaram!*

*(yenə orada, səh. 606).*

Camaat da yeni hakimi müdafiə edərkən kolbasaçıya dil verir, söylə ki:

*"Razı qalmasa, söylə: "Oğruyam, əsləm-nəsləm".*

*(Orada, səh. 608).*

Kolbasaçı da hamının sözünü kəsərək öz "üstünlüyünə" sübut üçün deyir ki, mən naqqallar başçısıyam.

Burada hakimiyyətə dırmaşmaq üçün rəzillik yarışır, açıq-açığına bəhsə girir. Xalqı idarəetmə, işləri sahmana salma problemi meydana çıxanda rəqiblər qətiyyən geri çəkilmirlər. Onlar dünyanın naqis vəziyyətinə əsaslanıb işləri daha da tündləşdirirlər:

*Kolbasaçı:*
*Qorxaq oğlu qorxaqdır, əvvəldən də o, ancaq*
*Gözə qoçaq görünüb, biçib özgə əkəni...*
*Bu yaxında şəhərə gətirdiyi dərzləri,*
*Qiyməti qalxsın deyə doldurub anbarları.*

*Kleon:*
*Nə qədər ki, şura var, nə qədər ki, səfeh xalq*
*İclasa mürgüləyir, qorxmuram təhdidindən!*
.....................................
*And olsun allahlara, gücünüz çatmaz mənə,*
*Yalansa haram olsun mənə müftə içalat...*

*Kolbasaçı:*
*And olsun kötəklərə, qəssab təpiklərinə*
*Uşaqlıqdan çox üzlər görübdür mənim üzüm...*
*Həyasızlıqda səndən artığam. Yalan desəm,*
*Yediyim tör-töküntü burnumdan gəlsin mənim!*

*Kleon:*
*Ey it kimi tullantı yeyib böyüyən əclaf,*
*Mənim tək itbaş ilə döyüşmək həddin deyil,*
*Abazlara deyirdim: "Baxın bahar elçisi*
*Qaranquşlar gəlirlər!" Onlar göyə baxanda,*
*Yavaşca aparırdım yağlıca tikələri...*

*(Orada, səh. 611-612)*

Xalq da Kolbasaçıya qahmar çıxıb hakim haqqında deyir:

*"Çəmənlərdə uçuşan arılar tək bir zaman,*
*Hansı çiçəyə qonsan, ondan rüşvət alırsan!"*

*(Orada, səh. 611)*

Xalqa yenilik, hakimiyyətin dəyişməsi lazımdır. Bu bəlkə də təbii bir şeydir. Lakin o dəyişikliyi müdafiə edərkən hər dəfə özünə daha pis variant seçir. Məsələ burasındadır. Görün adamlar xalqın taleyini, dünyanın cilovlarını ələ keçirmək üçün özlərini hansı səmtdən reklamlaşdırırlar.

Səhər siftəsi üçün Kolbasaçı deyir ki, uşaqlıqdan üzüm çox üzlər görüb.

Bəli, hakimiyyət xidmət və yaradıcılıq rolunu oynamayıb tikəyə çevriləndə bu cür nəticə alınır. Tikəyə sahiblənmək isə çox vaxt ləyaqətə yox, sırtıqlığın dərəcəsinə görə başa gəlir. Üzüm üzlər görüb isə dolaşıq "kəlamdır". Yerdə qalan bütün söhbətlər müftəxorluq, çapqın, aldatmaq, haramxorluq, rüşvət üzərində qurulub.

İstibdad şəraitində dövlət guya naqisliklərə, məsələn, rüşvətxora qarşı mübarizə aparır. Çünki naqisliklər, o cümlədən rüşvət xalqa ziyan vurur, cəmiyyəti ləkələyirsə, guya dövləti də zəif salır. Bu səbəbə görə dövlətin mübarizədə, cəza tədbirlərində marağı da var. Amma bu zahirən belədir. Əslində dövlətin bütün tədbirləri həmin rüşvətxorlar şəbəkəsini qoruyub saxlamaqdır. Çünki o, həmin rüşvətxorlar şəbəkəsi vasitəsi ilə xalqı əzir. Mübarizlik, cəza oyunbazlığı vəziyyəti pərdələmək üçündür. Əslində isə heç bir mübarizə getmir, cəza tədbiri də yoxdur. Burada yalnız yıxılan ayaq altda qalır. Və bir də bəzi rüşvətxorların haradasa, qəlbinin bir hissəsində sağlam yer qalırsa, onda zərrəcə insani-xəlqi hiss müşahidə olunursa, onu məhv edirlər.

Vəziyyət belədir.

Hakim isə özündən arxayındır. O deyir ki, şura var, səfeh xalq da iclasda mürügüləyir.

Bəli, hakim üzdə xalqın adından çıxış edir, işdə isə onunla səfehlərlə olduğu kimi rəftar edir.

Xalqın hakim seçməkdəki dolanbacını, hakim-xalq dolaşıqlığını Kolbasaçı bir çıxışında belə ifadə edir:

*"Doğrudan danışmağa layiqdir bu əhvalat:*
*Ardınca düşüb getdim, tez yetişdim dabbağa,*
*Oraya çatan kimi, o, hay-küy qopararaq,*
*Xəyanətdə suçlamağa başladı atlıları*
*Fitnəkar bağırtılar, dəhşətli sözlər ilə*
*İstədi qorxudaraq, inandıra hamını.*
*Orada oturanlar bu fəsadı dinləyib,*
*Çatdılar qaşlarını, ağızları əyildi;*
*Sanki üz-gözlərindən lap zəhrimar yağırdı...*
*Mən bunu görən kimi, duydum ki, iş xarabdır,*
*Bu böhtan, bu iftira aldadacaq onları...*
*Öz-özümə dedim ki, "Ey fəsad iblisləri,*

*Ey cibgirlər, lotular, dor dibindən qaçanlar,*
*Sən, ey mənim əqlimin, qəlbimin canı bazar,*
*Eşidin bu duamı, yetişin imdadıma,*
*Siz mənə həyasızlıq, vicdansızlıq lütf edin,*
*Mənə hərzə dil verin, gur səs eyləyin əta!"*
*Bu sayaqla ürəkdən dua etdim bir müddət;*
*Bu zaman sağ yanımda bir nəfər guruldatdı,*
*Mən bunu bir xeyir fal bilib sözə başladım,*
*Dalımı surahıya söykəyib bağırdım ki:*
*"Vətəndaşlar, dinləyin, xoş xəbər gətirmişəm!*
*İstəyirəm hamıdan əvvəl bildirim sizə:*
*Müharibə başlanan zamandan indiyədək*
*Şor balıq bugünkü tək ucuz olmayıb, bilin!"*
*Həmin saat hamının açıldı qaş-qabağı,*
*Bu şad xəbərçin məni hamısı alqışladı*
*Həmin saat yenidən başqa bir təklif etdim:*
*"Bir qrupa bir yığın şor balıq almaq üçün*
*Müsadirə edilsin çölməkçilərdən qablar!"*
*Şura əzası məni bir də bərk alqışladı;*
*Ağzını ayıraraq hamısı baxdı mənə...*
*Dabbaq da bunu görcək, başa düşdü fəndimi,*
*Şura da onların boş damarını tapdı:*
*Onlara xoş gəlməkçin belə təklif eylədi:*
*"Vətəndaşlar, zənnimcə, bu xoş xəbərə görə,*
*Allaha yüz dana qurban kəsək, xoş düşər!"*
*Həmin saat şuranın ona çevrildi meyli*
*Ancaq mən də fürsəti itirməyib bir an da*
*Yüz dana artıq deyib geridə qoydum onu,*
*Hələ Artemidaya min keçi qurban dedim...*

*Onda balığın yüzü düşərdi bir quruşa.*
*Şuranın mənə sarı çevrildi yenə meyli.*
*O, bunu eşidəndə elə sarsaqladı ki,*
*Yasavullar kötəklə çəkib saldılar onu.*
*Şura əzası isə, hamı qalxıb yerində,*
*Başladılar balıqdan sorğu-sual etməyə,*
*O, söylədi ki, hələ iclas davam eyləsin,*
*Lakedemondan gələn qasidi dinləsinlər".*
*Hamısı bir ağızdan bağırdı: "Lazım deyil!*

*Düşmənlər eşidib ki, ucuzlaşıb balıqlar.*
*İndi sülh istəyirlər... Yox, biz razı deyilik,*
*Qoy indi müharibə davam etsin sonadək!*
*Ey məmurlar, Şuranı bağlı elan eyləyin!"*
*Belə deyib hamısı başladı dağılmağa...*
*Mən durmayıb tələsik gedib çıxdım bazara,*
*Nə qədər göyərtilə soğan vardısa, aldım.*
*Onlar balıqçın soğan-göyərti axtaranda,*
*Mən müftəcə payladım onlara aldığımı.*
*Məndən razı qaldılar, min cürə dil tökdülər,*
*Təşəkkür eylədilər, minnətimi çəkdilər...*
*Bir ovuc soğan ilə bir cəngə göyərtilə*
*Bu sayaqla şuranı mən aldım öz əlimə!"*

*(Orada, səh. 620-622)*

Gətirilən nümunə ictimai çürüntünün aşırı durumu baxımından ibrətlidir. Burada ölkənin və xalqın taleyi dəllallar arasında hərraca qoyulur, onun gönünü dabbağ soyur qəssaba verir, qəssab da şaqqalayıb ətini qıymalayır, sümüyünü sındırır. Sonra da dünyaya haray salır ki, mən insan dostuyam. Mən öz həyatımı xalqların, bəşəriyyətin yolunda qurban vermişəm, fəaliyyətim tərəqqiyə yol açır, ümumi rifahı təmin edir. Məni təhlilə çalışanlar, məndə nöqsan görənlər, etiraz edənlər, dünyanın düşməni kimi müxtəlif rəngli cəzalara layiqdir.

Beləliklə, çürümə şəraitindən tədriclə amansız məngənə, quduz bir axın başlayır. Ən dəhşətlisi odur ki, öz yolunu bu cür azmanın qarşısını almağa çalışmaq, sağlam bir fikir söyləmək, yaradıcı bir fəaliyyəti həyata keçirmək təhlükəli bir şeyə çevrilir.

Bizim əsərimiz M.S.Ordubadinin fikirləri çərçivəsində istibdad və istilanı izləməkdir. "Atlılar"dakı hakim-xalq münasibətlərinin acınacaqlı səhifələri hələ demokratiya çərçivəsində başa gəlir. Həm də bu demokratiyanın lap da betəri-bayağısı deyil. Çünki burada ikisindən birini seçmək imkanı var. Vay o gündən ki, qüsurlu, naqis demokratiyanın özünü də demokratik oyunbazlıq əvəz edə. Orada iki şey olmaya. Tək əlinə amansız zopa keçirib tarix və ictimai qüvvədən istifadə edib dünyaya deyə ki, məni sən seçmisən. Mən görünməmiş bir demokratiyanın başa gətirdiyi bir xadiməm. Mən insanın, xalqların, bəşəriyyətin, – bütün yaradıcı dünyanın iradəsini yerinə yetirirəm. Bu qədər müqəddəs vəzifələri yerinə yetirən xadim bir

azca cəza tədbirlərindən də istifadə edirsə, tarixi şərait, ictimai zərurət üzündən o, buna məcburdur. Ümumi rifah naminə dözmək olar.

Bu cür cılız demokratiyanın sözün pis mənasında, mütləqiyyətdən fərqi odur ki, o, ölkəyə sahibsiz mal, xalqa isə mala ortaq çıxan öz rəqibi gözü ilə baxır.

Baxımsızlıq, harınlıq, ölkəyə, xalqa yad münasibət, tərəqqini tıxaclama nəticəsində ictimai bulaqlar quruyur, ətraf murdarlanır.

Əsil vəziyyəti ifadə edən bədii vəsait əldə yoxdur. Əldə olan vəsaitdən çıxış edərək nə isə bir şey söylənilirsə, həyat təcrübəsi ilə birlikdə ümumi bir təsəvvürə gəlmək mümkündür.

Biz gətirilən nümunədə dabbağı da, kolbasaçını da xalq qarşısında çıxış edən və fəaliyyət göstərən şəkildə görürük.

Mövcud hakim-dabbaq əfkari-ümumiyyəni öz rəzalətlərindən yayındırmaq üçün hansısa zəif yer tapıb ora iftira atır, adamları gah haray-həşirlə qorxudur, gah da nəyə isə inandırmağa çalışır. Əfkari-ümumiyyə isə kimin nə danışdığının fərqinə varmadan dərin fikrə dalır, bərk-bərk qaşlarını çatır. O, bu fəsadda özünə qarşı bir fitnəni duymayaraq, hipnoz olaraq, özünü o qədər itirir ki, düşüncənin və təsirə düşmənin “dərinliyindən”, “ağzı-burnu əyilib” haldan çıxır.

Bu vaxt hakimiyyətə yeni namizəd meydana atılıb mübarizə qazanını qaynadıb daşdırır. Kolbasaçı rəqibinə qarşı üstünlüyünü göstərərək sinəsinə döyür ki, mən baza əhliyəm, çapğın, oğurluq naşiriyəm, cibgirəm, naqqılıqda tayım-bərabərim yoxdur, uşaqlıqdan üzüm üzlər görüb. Xalq bu cür danışıqlara qulaq şəkləyib qaşlarını çatır.

Hakimliyə yeni namizəd hələ meydana atılmamış üstün gəlmək üçün, qələbə rəhni kimi, allaha – ülviyyətə deyil, iblislərə, lotulara, dor dibindən qaçanlara, qəlbinə yaxın dəllallar dünyasına müraciət edir, köməyə çağırır. O, bunlara söyləyir ki, mənə həyasızlıq, vicdansızlıq, hərzə dil, qulaqları batıran, ağılları başdan alan gurultulu, bayağı səs əta edin.

Xalqın öz şüuru olmadıqda, o, mütəşəkkil hərəkət etməyi bacarmayanda, insani, milli, bəşəri mündərəcəni itirəndə rəzalət bu şəkildə başa çıxar, miskinlər azmanlıq edər, dünyanın cilovları qəbahət və cinayət naşirlərinə tapşırılar. Rəzil utanmadan söyləyir ki, yanımda bir nəfər guruldatdı. O, buna xoş bir fal, qələbə rəmzi kimi baxır.

Xoş bir fala baxın!..Eyni ilə xalq öz vəziyyətini hiss etməyəndə, o rəzili də, bu rəzili də eyni laqeydliklə dinləyəndə heyvərəlik, qəbahət onun üçün xoş fal rəmzinə çevrilər.

Bütün qələbə rehinlərindən, xain fallardan sonra hakimliyə yeni namizəd şor balıqla xalq dəryasına tilov atır. Heyvani yaşayış şəraitində xalq şor balıq tilovuna düşür. Kolbasaçı adətən "qara-güruh" adlanan dünya üçün xoş xəbər kimi söyləyir ki, heç vaxt "şor balıq bu günkü tək ucuz olmayıb".

Bazarda qiymətlərin düşüb-qalxması ümumi rifahdakı şərtlərdən, - mühümü olsa da, – o ancaq birdir. Xalq da bu zahiri, ilkin əlamətdən hallanır, üzlərdə işıq, təbəssüm zühur edir, kütlə qızışır. Bunu görən kolbasaçı xalqın ruhunu tamam ələ almaq üçün zahirən gözəl gözəl görünən, əslində isə aşağıdakı təkin qorxulu təklif irəli sürür:

"Bir quruşa bir yığım şor balıq almaq üçün müsadirə edilsin çölməkçilərdən qablar!"

Müsadirə məhsulu yaratmaq yox, hazır sərvəti ələ keçirməkdir. Bu gedişat çox vaxt mülkü sahibsiz qoyur və rifah vasitələrinin külünü göyə sovurur.

Mülkiyyət, mülkiyyət münasibətləri, ictimai əmək, məhsulların yaranma və bölüşdürülməsi, məhsuldarlığa və keyfiyyətə təsir göstərən şərtlər, ölkədə abadlığa və viranəliyə gedən yollar haqqında "atlılar"ın yarandığı zaman müasir mənzəri fikir və insanlarda olan müasir təcrübi nəticələr yox idi. Halbuki haqqında danışdığımız gedişatlar üçün mülkiyyətə münasibət özüldür. Bu elə açıq faktdır ki, əldə təcrübi nəticə, nəzəri-elmi təsəvvür olmasa da mülkiyyətin, yəni çölməkçilərdən qabların müsadirə edilməsinə" qarşı xalq həssaslığını göstərməli idi. Lakin qara kütlə nəfsini cilovlaya bilmir. O, şor balıq, müsadirə yolu ilə mülkün və sərvətin ələ keçirilməsi, kiminsə taxtdan salınması, zora qalib gəlmək, qələbənin özünün addımını eşidən tək daha da qızışır, coşub daşır.

Müsadirə!

İnadcıl, təbii, obyektiv gedişat!

Zahirən cazibəli görünür. Elə bil ki, dərdin qaranlıq, bilinməz, müəmmalı və təbii ki, qorxulu bir quyunun üstü ufacıq şeylərlə örtülüb və gülüstan tək bəzədilib. Bir dəstə də adamları "bu cənnət tək misal yerə" bütün dərdlərin dərmanı kimi sürükləyir. Bu cür "cazibəli" yerə can atan dünyanın yekununu indi göz qabağına gətirmək çətin deyil!!!

Beləliklə, xalq asanlıqla "şor balıq" toruna düşür. Yeni hakim əfkari-ümumiyyənin tərəfinə çəkmək üçün şor balıq, soğan, göyərti və s.-dən istifadəylə rəqibinə qarşı qələbənin əsasını qoyur.

Kolbasaçıya qələbə gətirən şeyin xalq taleyinə təsiri nədən ibarətdir ki, o, bu qədər canfəşanlıq göstərir.

Xalq taleyindəki acınacaqlı səhvlərin variasiya etməsində xalqın özünün bu baş-ayaqlığına nə məna verməlidir. Xalq küt görünür. Onu başsız axın şəklindəki hərəkətinə görə ittiham etmək, suçlamaq mümkündür.

Hər şeydən əvvəl ictimai gərginlikelektrik sahəsini və bu qəbil gedişatları xatırladır. Burada vəziyyət o qədər təbii, möhkəmdir ki, bir çox halda o qətiyyətlə qarşısıalınmaz görünür. Bu qəbil gedişatları tənqid etməklə təriflənmək, qəbul və ya rədd etmək, həqarət yağdırmaq və ya patetik hisslər dünyasında çimdirmək bir şeydir. Burada yeganə düzgün yol – əgər mümkündürsə – qüdrətli, dərin elmi-nəzəri savad əsasında təbii vəziyyətə işə bələliklə ağıl ünsürləri hopdurmaqdır.

Daha sonra, xalq anadır! Ana ilə isə təbiətin eyniyyətə yaxın tərzdə qohumluğu var.

Biz tarixin naqisliyi ilə yanaşı, insanın zəifliyinə də işarələr vurmuşuq. Anamız xalq əslində müəyyən insanların ictimai toplusundan ibarətdir. O, ayrı-ayrı fərdlərə aid bütün keyfiyyətləri özündə əks etdirirmi? Söyləmək çətindir. Çünki hər cür təbii birləşmələrdə ilkin cəhətləri dəyişib yeni keyfiyyətləri yaratmaq səciyyəsi var. Xalq anlayışında isə birləşmə tarixi-ictimai durumda olduğuna görə gözəgörünməz şəkildə zilə qalxmışdır. Amma bu cür göründükdə belə xalq öz daxili ziddiyyətlərini saxlayır.

Təbiətdəki nizamın möhkəmliyi məlumdur. Lakin insani baxımdan təbiətin qəddarlığı və çılpaqlığı üzündən bəzi münasibətlərdəki qəbahətə yol verməsi də göz önündədir. Hələ lap başlanğıcdan təbiət yaşaması üçün milyonlarla imkandan təkcə birinə meydan verir. Yerdə qalan milyon çoxluğu eyni qəddarlıqla məhv edir. İnsandan başqa yerdə qalan canlılarda cinsi aləm və bir çox gizli qalmalı şeylər göz qabağındadır. Öz ovunun üstünə cumarkən təbiət də məqbuldur. Düşünən, dünyaya, humanizmə və ülviyyətə qədər, həya və mərhəmət hissi baş verdikdə təbiətdəki nizamın möhkəmliyi bəşəriyyəti təmin etmir.

Yarımçıq ağlın işə müdaxiləsi bir çox halda mürəkkəbliyi gücləndirirsə, bu başqa məsələdir.

Həm də təbiət öz nizamında nə qədər möhkəm olsa da, insanı təmin etmir, o bu səviyyə ilə hesablaşa bilmir. O, yeni normativ yaratmağa can atır və fəaliyyət də göstərir. Nəticələri ictimai qurğu-

lar, avadanlıq, dəblər, incəsənət, elmi-nəzəri şəkildə göz önündədir. Bəşəriyyətin böyük arzusu odur ki, elmi-nəzəri qüdrət hər cür qərəzdən, hoqqabazlıqdan, saxtakarlıqdan, nadanlıqdan təmizlənib, təbii nizamla vəhdət təşkil etsin. O zaman ağıl təbii gedişatdakı mürəkkəbliyi gücləndirmək deyil, zəiflədər, təbiətin nəticələri də ictimai gedişata keçərkən daha da böyüyər.

Anamız xalq da övladlarına, yəni bütün ictimai təbəqələrə eyni gözlə baxır. Hər bir övlada qarşı analıq duyğusu bərqərardır. Bu, qıraqdan bir qədər qəribə görünsə də, analıq duyğusunun təsdiqidir. Bəlkə də bunsuz lap başlanğıcda hadisələrin amansızlığından qurtara bilməzdik. Analıq duyğusu fədakarcasına körpəlikdən insanı xilas eləyir.

Lakin analıq duyğusu bir çox cəhətdən kordur. O, məhəbbəti və vüqarı üzündən (mənimki hamıdan üstündür duyğusu) övladda şıltaq və təşəxxüs yaradır, övladın yetişməsini nəzərdən qaçırır. Bu halda təbiətdə olduğu kimi, analıq duyğusunda da ağıl ünsürləri hopdurmaq gərəkdir.

Biz tarixi durumu baxışdan keçirərkən cinayət və qəbahət törədicilərini – dövləti, qoluzorluları, caniləri, ədəbsizləri cəzalandırmadığına onlardan dərhal üz çevirmədiyinə, hələ də "məhəbbət" bəslədiyinə, bəzi halda seçərkən səhvə yol verdiyinə görə xalqı danlayırıq. Lakin xalq anadırsa, bütün təbəqələr də xalqın övladlarıdırsa, burada analıq duyğusunun təsdiqi daha dolğundur.

Deməli, danlamadan, töhmət etmədən daha çox, təbiət nizamı kimi möhkəm olan analıq duyğusuna ağıl ünsürləri hopdurmaq gərəkdir. Təkrar edirik: bəlkə də təbiət və ana haqlıdır. Həm də onlar ardıcıl surətdə qalib gəlir. Lakin bütün varlıq hələ maya halından başlayaraq daim insani yaşayış tərzinə can atır. Müdafiə etdiyimiz şeyin canı burdadır.

Durumdakı bu cəhətləri yadda saxlamaq şərti ilə olaylara münasibətimizi aça bilərik.

Bəzən anamız xalq elə acınacaqlı duruma düşür, özünü o şəklə salır ki, naxələf övladları onun qabağına sümük atmağa, yal qoymağa başlayır. Namuslu övladların baltaya əl uzatmasına səbəb budur.

Dabbaqla Kolbasaçı aşağıdakı şəkildə xalqa münasibətlərini bildirir və xalqın qabağına tikələr atmağa başlayırlar.

*"Kolbasaçı:*
*Səni xalqın gözündən salaram köpək kimi!*

*Kleon:*
*Yox, ay küçük, o sənin sözünə uyan deyil,*
*–O, mənim əlimdədir, hər yana sürsəm gedər!*
*(Orada, səh. 623).*

Naxələflərə, zülmətbazlara, cinayətlər və qəbahətlər dünyasına yol verən şey budur. İdarəetmə sisteminin cilovlarını ələ keçirmiş iki heyvərə hakimi-mütləqdir, onlar ləyaqət təcəssümü kimi görünürlər. Çünki xalq xeyirə nisbətən şəri, həqiqətə nisbətən yalanı və b.k. daha asanlıqla həzm edir. Bu cəhət təbiət, ana – xalq kimi bir dünyanın qabağına sümükatma və yalqoyma mərasimini başa gətirir. Bu cəhət o qədər qabarıqdır, heyvərə söyləyir ki, xalq mənim əlimdədir, hayana sürsəm gedər.

Bir sözə diqqət verin: xalq anlayışı və "hayana sürsəm gedər" hökmünün heyvərəliyi, bu iki uyuşmayan dünyanın bir qəlibə salınması.

Tarixin bu naqisliyi, insandakı bu zəifliklər düşüncəni darıxdırır, ülviyyəti təhqir edir. Biz hamımız, heç olmasa bəşəriyyətin əsas hissəsi, insan kimi düşünürük, heyvani yaşayış tərzi ilə üzləşirik, mübarizə başlayır. Ahəngdar dünya uğrunda ilkin, elmi-nəzəri, "mükəmməl" plan əsasında idealın bərqərar olmasına ümid bəsləyirik. Təbiilik və tarix isə gülür. Həyat sabitdir. O, ilkin cəhdlərə, elmi-nəzəri işlərə, "mükəmməl"planlara müəyyən dərəcədə diqqət yetirir. İşdəki saxta cəhətlərə isə fınxırır. Yəni burada əsarətliklər yaranır, ictimai pozuntu baş verir. Lakin "xəstənin tələsməsi ilə deyil, armudun yetişməsi lazımdır" kəlamı, söyləmi qüvvədə qalır. Kamilləşmə pilləsi başa gələnə qədər tərəqqiyə daim yol açmalı, onun hərtərəfli çiçəklənməsi üçün çalışmalıdır. Amma irtica nəfsi və şıltağı ucundan daima ahəngi pozur, tərəqqini ləngidir. Bu zaman ümumi ahəngi qəbahətlər və cinayətlər dünyası üstələyir:

*Kolbasaçı:*
*Doğrudan da dayə tək bəsləyirsən onu sən:*
*Ən yağlı tikələri özün ötürüb əvvəl,*
*Qabağından qalanı yedirisən uşağa.*

*Kleon:*
*Allahlara and olsun, ustayam bu işdə mən,*

*Xalqı necə istəsəm, oynadaram əlimdə!*

*(səh. 524).*

Biz də bunu deyirdik: xalq bəzən özünü o kökə salır ki, onun qabağına sümük atır, yal qoyurlar. Bu sözdə qəddarlıq əməliyyatı ilə yanaşı, sayğısızlığın aşırı şəkli özünü göstərir.

Sözdə deyilir ki, ölkənin yiyəsi xalqdır. İşdə də belədir. Sözdə deyilir ki, hər cür sərvətin – məhsulun yaradıcısı xalqdır. Yaradıcı ziyalıları ilə birlikdə götürdükdə bu, işdə də belədir. Bəs necə olmuşdur, sərvəti – məhsulu böyük çoxluq yaradır, lakin o bir ovuc dəyyusun əlində toplanır? Tarixin bu naqisliyini, xalqın da pərakəndəliyini elm gərəkən şəkildə izah etmiş. Burada bir dəstə dəyyus xalqın sərvətinin külünü göyə sovurur, məhsulu öz keyfinə və şıltağına israf edir, xalq kimi müqəddəs dünyanın qabağına da tullantılar, qırıntılar atır. Bu dəyyuslar hələ yaxşıdır, xalqın qabağına qırıntını da olsa atırlar. Vay o halda, işlər elə gətirə ki, həmin dəyyus dəstə xalqı təpədən dırnağa qədər hiylə mexanizmi içərisində boğa, qabaqdan qalan qırıntını da ona qıymaya, vədlərin yerini söz-söbət, yalan, parlaq şüarlarla doldura. Durumu bildirənlərin, sirrin üstünü açanların da başına elə ağır dəyənək endirə ki, yerdə qalanlar üçün də "ibrətli dərs" ola! Çünki bu azğın dəstə xalqı, ölkəni soyur, xalqa da ziyanverici həşarat gözü ilə baxır. Həm də ona, – bu azğın dəstəyə xalqın daim zəif düşməsi lazımdır.

Tarixin naqisliyi, insanın zəifliyi, xalqın pərakəndəliyi, qəddarlığın, həyasızlığın ifrata varması ilə birlikdə insanın, xalqın, bəşərin simasını korlayıb tamamilə özgə şəklə salır. Bilmirsən istedadı söyəsən, yoxsa başıpozuq axın şəkli almış xalqı.

Kolbasaçı dabbağa deyir ki, sən xalqın qabağına qırıntı atırsan. Dabbaq da özünü müdafiə etmək, təmizə çıxarmaq əvəzinə hər şeyi həyasızlıqla boynuna alır. Cavab verir ki, dediklərin doğrudur, xalqı necə istəsəm elə də oynadıram. Çünki durum elədir ki, burada özünü müdafiəyə ehtiyac yoxdur. Yoxsa, Dabbaq Qəssaba deyərdi, sən ki, mənə qalib gəlmək üçün daha artıq dəyyus olduğunu sübuta çalışırsan, deməli, hakimiyyətə dırmaşdıqdan sonra ölkədə cinayətlər və qəbahətlər daha həyasız tüğyan edəcəkdir.

Dabbaqla Qəssab öz aralarında xalqa münasibətlərini belə izhar edirlər. Bu zaman əzgin, tökülmüş bir qoca şəklində xalq qarşıya çıxır. Hər iki dəyyus ona olan məhəbbətdən dəm vurur. Əvvəlcə dəyyusluq yarışı var idi. İndi "məhəbbət" yarışı başlayır. Dabbaq

xalqa şikayətlənir ki, sənə məhəbbətim üstündə məni incidirlər. Bu zaman Qəssabın "məhəbbət" laylaları bəstələyən nəfəsi tüğyan edir:

*"...Səni çoxdan sevirəm, çoxdan arzu edirəm*
*Bir çox nəcib, şərəfli vətəndaşlarla birgə*
*Sənə xidmət eylərəm... ancaq o qoymur bizi...*
*Ərköyün uşaq kimi sən də şıltaq edirsən,*
*Nəcib xadimlərini qovlayırsan qapından:*
*Şamçılar, dəriçilər, dabbaqdan gön soyanlar*
*Yanından əskik olmur... Nə uymuşsan onlara?!"*

*(Orada, səh. 625)*

Qəssab "doğma xalqına" məhəbbətdən doğan bu cürə patetik sözlər yağdırır, insanlarla bağlı qayğılı söhbətlər açır. Lakin əsil şərtin əfkari-ümumiyyə qarşısında kəsilməsi gərəkdiyi təklif irəli sürüldükdə dərhal "xalqa məhəbbəti və qayğını" hövsələsiz, şübhəli fikirlər əvəz edir.

*"Kolbasaçı:*
*Aman, evim yıxıldı! Qoca yaman qocadır;*
*Evdə olanda, yenə az-çox düşüncəsi var.*
*Ancaq ki, o daşların üstünə oturanda,*
*Başlayır əsnəməyə, milçək dolur ağzına".*

*(səh. 625)*

Əgər istibdad xalqı iş üstündə əsnəyən, yaxşını pisdən ayırmayan, düşüncəsiz bir hədəf hesab edirsə, burada məhəbbətdən söhbət gedə bilərmi? Lakin istibdad uyuşmayan şeyləri bir yerə qalıblaşdırmaq ustasıdır. Dabbağ və Qəssab ürəklərində hansı hisslərlə yaşasalar da, bu cür şübhəli düşüncələrdən sonra xalq qarşısında məhəbbət izharının yarışı başlayır.

*Qəssab deyir ki:*
*Ey xalq, əgər mən səni ürəkdən sevmirəmsə,*
*Ətimi qiymə çəkib kolbasa qayırsınlar!*
*Dabbaq da cavab verir:*
*"Aman xalqım! İnan ki, dünyada heç bir kimsə*
*Mənim tək sevə bilməz səni...*
*Heç kimə rəhm etməyib asıb-basıb kəsmişəm,*

*Qurban olsun, demişəm, hamı sənin yolunda..."*

*(səh. 626-627)*

Müstəbidlə xalqın övladlarını asıb, basıb, kəsib "millətə xidmət etməkdən", "ümumi rifahın təminindən" dəm vurmağa başlayırlar. Xalq da laqeyd şəkildə, lazımsız surətdə özünü bilməməzliyə qoyub onları ali xidmətlərlə müqayisələndirib təqdir edir.

*Xalq:*
*...Demokrat Qarmodinni!*
*Nəcib nəslinə mənsub igidsən,*
*Alicənab, böyükdür sənin xidmətlərin".*

*(səh. 627)*

Durumu belə gördükdə müstəbid də özünü övliyalarla müqayisə etməyə başlayır:
*"Kleom,*
*...Femistoklun özündən*
*Qat-qat artıq iş görüb ləyaqət göstəmişəm!"*

*(səh. 628)*

Amma əsil vəziyyət iki müstəbidin əfkari-ümumiyyə qarşısında bir-birinin ifşası zamanı üzə çıxır. Çünki dəyyuslar üçün bu asan işdir.

Öz gələcəklərinə baxır, qəlblərindəki çirkə, gizli əməllərinə baxıb, adlarını özgəyə qoyaraq hücuma keçirlər.

Özünü reallaşdırmaq, xidmətlə bağlı parlaq şüarlarla xalqın başını tovlamaq o həddə gəlib çatır ki, riyasət cilovlarını əlində tutmuş dələduz rəzillər, miskinlər özlərini Femistokl kimi azmanlarla tutuşdurur. Bu iş o qədər ağ olur ki, buna başqa rəzil də gözünü bərəldir.

*"Kolbasaçı:*
*Aman, ay arqivlilər! Bir görün, nə danışır!*
*Cürətə bax, özünü Femistokla tay tutur!*
*Femistokl bu şəhəri ac-yalavac halından qurtarıb...*
*Bir də bil ki, Femistokl sürgündə həlak oldu,*
*Sən isə nazu-nemət içində kef edirsən!.."*

*(səh. 629)*

Nə qədər özünü tərifləsə də həqiqəti heç şey iki dəyyusun bir-birini ifşası zamanı olduğu qədər aşkar edə bilməz. O birinə söylənilən ittihamda ittihamçının öz mahiyyəti də var. Dəyyuslarsa bir-birilərini aşağıdakı kimi ifşa edirlər:

*"Kolbasaçı:*
*...Sənin*
*Fikrin-zikrin budur ki, şəhərləri sayasan,*
*Talayasan: bol rüşvət alıb özün doyasan...*
*Xalqın başı qarışsın hərbin keşməkeşinə,*
*Sənin alçaq işlərin gözünə görünməsin;*
*Daim ac olsun, sənin tikənə möhtac olsun...*
*Xalqın başı ayılsa, öz kəndinə qayıtsa,*
*Yenə əvvəlki kimi yeyib-içsə doyunca.*
*Paxladan, çuğundurdan, şilədən doysa qarnı,*
*Onda başa düşər ki, sənin verdiyin tikə*
*O yazığa nə qədər baha tamam olurmuş...*
*Onda kəndli sayağı qəzəblənib əlindən,*
*Səsə qoyub Şurada, səni başından atar!...*
*Sən özün bunu yaxşı bilərsən, ona görə*
*Dadlı xülyalar ilə tovlayırsan bu xalqı*
*Mitilendən min hiylə edib aldığın rüşvət,*
*Qırx talantdan az isə dünyada gün görməyim".*

Qəssab Dabbağa ittihamlarının ardını xalqa üzünü çevirib etdiyi müraciətində belə başa gətirir:

*"...Ey xalq, aldadıb səni məlun!*
*Sən gözünü yuman tək təftiş qəbzlərini,*
*Əlaltı çırpışdırıb mənimsəyir pulları,*
*Qorxu-hürkü bilmədən, iki əlli soxulur,*
*Dövlət xəzinəsini talayır o həyasız!"*

*(Orada, səh. 628-629).*

Əfkari-ümumiyyə də ittiham etdiyi dələduzun başqa adı olan hakimliyə yeni namizədin "parlaq" nitqindən ruhlanıb belə fikrə düşür:

*"Sən bütün insanların xilaskarısan, inan!*

*Gözəl nitqin hər zaman*
*Layiqdir, bil, qibtəyə.*
*Bu şücaətlə yəqin Elladada çatırsan*
*Ən ali bir rütbəyə!*
*Sən olub Afinaya, adalara hökmdar,*
*Bol-bol pul qazanırsan, ey dilavər qəhrəman!”*

*(səh. 630)*

Müstəbidin əlaməti kütbeyinliklə tamahkarlığın vəhdətidir. Bir kütbeyin mövqeyə çatır, əslində sərvət toplaya da bilirsə, bu dünyanın özünə yad işlərə meydan verməsinə, əfkari-ümumiyyənin isə xeyirə nisbətən şəri daha asan həzm etməsinə əsaslanır. Mənsəbə çatmaq, sərvətli olmaq isə kütbeyinliyi pərdələyən şeydir. Halbuki naqis dünyada mənsəb və sərvət ləyaqətə yox, məhz qəbahətə verilir. Ağlı başında olan adam hər cür addımı adına layiq bilmir, kütbeyin üçün isə hər cür qəbahətə dözmək adi haldır. Beləliklə, kütbeyin mənsəbə çatdıqda müstəbidə çevrilir və istibdad meydan sulamağa başlayır. Bu “meydan sulamaq” ağır durum barədə yumşaq bir ifadədir. Bu yumşaq “meydan sulamaq” ifadəsinin arxasında nə qədər acınacaqlı dünya dayanır. Ölkə viran qalır, tərəqqidən geri düşür, xalqın xarakteri korlanır, ümumi heyvanlaşma baş alıb gedir, səfalət, aclıq, maddi sıxıntı, iqtisadi basqı, ictimai baxımsızlıq, təklənmiş insan, zülmə uğramış adamın göz yaşları, abrın əldən getməsi, təhqir, ismətin pozulması, zorlanan namus, mənəviyyatın irin və qan bulaşığına bələnməsi, zindanlar, sürgünlər, asılmalar, basılmalar, kəsilmələr, şaqqalanmalar, sui-qəsdlər, zəhərlənmələr, təklənmələr. Yumşaq ifadə olan “meydan sulamağın” arxasında dayanan acınacaqlı dünyanın ümumi mənzərəsinin bir hissəsi bundan ibarətdir.

İstibdadın simvollarından biri özünü reklamlaşdırmaq, özünü tərifləyib ala buludlara qaldırmaq, bütün dərdlərin dərmanı kimi zorla boğazlara tökülmək, çox vaxt da nadan bir iddiaya düşməkdir. Burada rəzillər, miskinlər, dəyyuslar özlərini Femistokllarla müqayisə edirlər. İstibdadın simvollarından başqası iddia etməsidir ki, onun bütün təşəbbüsü ümumi rifahın təmini üçündür. Əslində isə kütbeyinliklə, tamahkarlıqla başa gələn soyğun o həddə çatır ki, rüşvət mexanizminin hərəkət dairəsi bir xərçəng kimi ölkəni bürüyüb boğmağa başlayır.

Bəli, istibdad şəraitində ümumi rifah şüarları dünyanı söz qalaqları altına basdırır, rüşvət mexanizmi isə ölkəni düz yurdda qoyur. İstibdad istila ilə birləşdikdə isə soyğun daha amansız, daha antibəşəri rəng alır.

İstila xilasetmə və tərəqqini yayma şüarları ilə meydana atılır. O əsarətə aldığı xalqlara dayə vəzifələri göstərmək rolları ifadə edir. Əslində isə məqsədi vətənləri onun sakinlərindən, yerli, doğma xalqlardan təmizləməkdir. Bu, pərdəli, riyakar yollarla başa gəldiyindən daha amansız rəng alır.

İstila zorakılıqla, qırğınla başlayır. İlkin zərbə amansız olur. Hətta bu zərbədən uzun müddət millət özünə gələ bilmir. Sonra inzibati, ideoloji, məişət sahələrində assimilyasiya başlayır. Millətin vicdanla bağlı qənaətini məhv edə-edə! Hər bir müqəddəs, idraki hərəkət cinayət kimi izlənilir. Məhsuldar pöhrələr pörşələnir, yerindəcə məhv edilir. İstila mexanizminə nökərlik edən zay dünya yaradılır. Lakin xalqları, bəşəri mühafizə edən ümumi-ilahi prinsiplər var. Hər şey istilaçıların əvvəlcədən planlaşdırdıqları, prinsipə çevirdikləri, nadanlıqla, effektlərlə inandıqları bir şəkildə getmir. O zaman istilaçının xalqları vətənlərdən təmizləmək prinsipi assimilyasiya həddini aşmağa başlayır. Əzmələr, sui-qəsdlər, həbslər, sürgünlər güclənir. Müxtəlif süni qırğın hadisələri təşkil olunur. İstilaçı əsarət altına aldığı xalqları şüarlarında doğma təbəələri elan edir. İndi isə nüfuzu altında olan millətləri bir-birindən ayrı salır, milli nihilizm zəhərləri yayır, ayrı-seçkilik toxumları səpir, milli qırğınlar üçün boy verir və s. bunların hamısında da ayaq altında qalan xalqın özünü müqəssir tutur. Haray salır ki, mən dövrün tərəqqisini təmin edir, himayə göstərir, fərq qoymadan bütün xalqların çiçəklənməsi üçün şərait yaradıram. Bu xalqın mayası naqisdir ki, bəhrələnmir, ona yaradılan şəraitdən istifadə etmir, düzəlmir. Bu cür gərəksiz xalqın qətli üçün məni danlamağına dəyərmi? Əvvəla mənim günahım yoxdur. Lakin məni suçlu sayırsınızsa, bir fikirləşin, nəyin üstündə? Mən bəşəri gərəksiz bir ünsürdən təmizləmişəm.

Həm istibdad, həm də istila tarixi – ictimai gərginliyin məhsuludur. İlkin baxışda gedişata mənfi, müsbət münasibətin önəmi yoxdur. Lakin işə şüurlu münsibət əvəzinə ayaq altında qalan xalqı naqislikdə suçlamaq istilanın tarixi gedişata süni surətdə əlavə etdiyi cinayətdir. İdrak buna qarşı çıxır. Ayrıca götürülmüş xalqa aid keyfiyyətlər və bəşəriyyət anlayışları ilə bağlı məsələləri müəllif başqa yazılarında dönə-dönə izaha çalışmışdır. Burada fikrimizi yalnız onunla

yekunlaşdıra bilərik ki, xalqları bəşəri naqislikdə suçlamaq, caninin öz hərəkətlərinə bəraət qazandırmaq, əfkari-ümumiyyənin fikrini cinayət qovşaqlarından yayındırmaq üçündür.

Xalqları məhv etmək istilaçı üçün prinsipdir, əqidədir. Ona görə də bu "arzu" (arzuya bax ha!) baş tutsa da, tutmasa da, öz məqsədini axıra qədər davam etdirəcəkdir. Xalqları öz torpaqlarında iflic olana qədər işlətməklə, haqqını danmaqla, soyğunla, aldatmalarla, zaylıq, qəhətlik, bahalıq salmaqla xəstəlikləri, yoluxmaları artırmaq və s. yollarla. Hələ istibdad şəraitində bir dələduz başqasını suçlayarkən deyir ki, sənin fikrin-zikrin ölkəni soymaq və xalqı ac qoymaqdır. Ac qalan xalq zəif düşür. Sənə əl verən budur. Qarnı doyan xalq özünə gələr, ləyaqəti anlar. Yaxşını pisdən seçməyə başlayar. İstila şəraitində bu durum aşırı olur. Bu zaman soyğunun mərtəbələri yaranır. Xalqın tədriclə mülkü, altında oturduğu torpaq əlindən alınır. Bu torpaqdan istehsalın sahələri yaranır, cılız şəkildə! Yad ölkələr üçün. Əmək haqqı isə rəngarəng vasitələr, aldatmalar, itələmələr, zorlamalar yolu ilə verilir. İstilaçı özü birbaşa, yerli satqınların əli ilə də, yerli satqınlar da istilaçılara qoşulub hər tərəfdən xalqın cibinə soxulmağa başlayırlar. Dibinə qədər dərinə. Getdikcə dərinə.

Burada soyğun ilkin məqsəddir. Burada göz baxa-baxa, xalqın öz torpağında şirəsi quruyana, iflic olacaq dərəcəyə çatana qədər işlətmək və əvəzində heç bir şey verməyərək oturduğu torpaqdan məhrum etmək var. Lakin əzabdan zəif düşən, iflic olan admların acından öldürlməsi yolu ilə xalqın edam edilməsi də var. İstilaçı tərəfindən xalqların məhv olunması planları adi assimilyasiyadan başlayırsa, sona getdikcə bu qədər mürəkkəb və gözə görünməz çalarları yaranır. Nəticədə bəşəri bir keyfiyyət xalqları xilas edir, qarşısıalınmaz hökmü-rəvan, qələbəsi qəti, özü məğlubedilməz görünən caninin özünün yer üzündən silinməsi ilə nəticələnirsə, bu tamamilə başqa şeydir.

Romanın nüfuz dairəsi o həddə çatmışdı ki, xalqlar hətta könüllü surətdə özündən keçir, təslim olur, latınlaşırdılar. Xalqların Latın dilinə dırmaşması təbii hal almışdır. Bu hər yerdə gedən romalaşdırmadan, latın məktəblərindən heç asılı da deyildi. Lakin bəşəri bir keyfiyyət xalqları saxladı, Romanı isə çoxlu cinayətkar dəstə verən latın xalqları ilə birlikdə məhv etdi.

İstibdadda və istilada ən dəhşətli şey xadimlərin dövlət xəzinəsinə soxulmasıdır. Burada özünün özündən oğurluğu başlayır. "Atlılar"da açıq-açığına deyilir ki, dələduzlar qorxu-hürkü bilmədən, iki əlli

dövlət xəzinəsinə soxulur, talançılıq ayaq tutub gəzir. Bu son həddir, hər şeyin açıq-aşkar uçub tökülməsinin əlamətidir. Soyğuna uğrayan xalqın da, talan edilən vətənin də, talançıların da.

Madam ki, hakimlər, istibdad və istila nökərləri, çinovnik şəbəkəsi həm istehsalın gedişində, həm də ticarətdə ölkədən – xalqdan hər şeyi götürüb əvəzində heç bir şey vermir. Hətta xarici ticarətdə də nadir məhsulları yad ölkələrə axıdır, əvəzində ölkənin ehtiyaclarını deyil, nəqd altun götürüb itləşə-itləşə öz aralarında bölüşdürürlər, onlar özləri üçün uçub tökülən dünyanın altında qalırlar. Burada təngə gələn, daha yaşayışın qeyri-mümkün həddindən çıxış yolu tapmayan, huşunu itirmiş xalqın gözü qızarmış şəkildə dövlətin üstünə yerimə hadisələrini hesaba gətirmirik. Bu bizim diqqət mərkəzimizdə deyil. Xalqın hər cürə dəyişiklikdə marağı olur. Hər şeydən əvvəl bu hadisədir, rəngarəngdir və ümid işığıdır, sonralar dəyişikliklər şübhəli nəticələrə aparıb çıxarsa da bu belədir. Xalqın hər cür dövlət çevrilişində marağı olur. Hər şeydən artıq ona görə ki, burada məzlumun zalim, silahsız çoxluğun silahlı azlıq üzərində qələbəsi ifadə edilir. Biz uçub tökülən dünyanın altında qalan dələduzlar dünyasının başqa cəhətini nəzərdə tuturuq. Əldə edilən məhsulun başının qırağa dağıdılması nəticəsində təkrar istehsalın, xüsusən cəmiyyətin yaşaması üçün qəti zəruri olan geniş təkrar istehsalın normativi, daxili bağları pozulduğuna görə ölkə abadlıqdan, istehsal avadanlıqdan qalır, ticarət və istehlak pozulur, mənəviyyat aşağı düşür. Ölkə hərbi gücünə görə deyil, mülki istehsalda beynəlxalq yarışın ayaqları altında qalır. Bu qədər uçub tökülən dünyanın ucu istila və onun törətdiyi istibdadın özünə çatmaya bilərmi? Hər şeydən əvvəl yalan və saxtakarlıq ölkəni o həddə çatdırır ki, daha idarəetmə imkansız şəkil alır. Təsadüfi deyil, “Atlılar”da bir dələduz o birinə deyir ki, sən müharibə qazanına yağ tökürsən. Xalqı və dünyanı pis günə qoymaq yolu ilə başını qarışdırmaq üçün.

Dünyada şər böyükdür, çalarları rəngarəngdir. Fərdi xəbislikdən tutmuş, dövlət xəzinəsindəki soyğuna, zindandakı boğulmalara qədər. Amma şər aləmindən heç bir şeyi müharibə əjdahası ilə müqayisə etmək olmaz. O, aman vermir, tədbirə, düşüncəyə, aman vermədən udur. Üzdən belə görünür ki, bütün təbəqələr, müstəbidlər özləri belə, müharibə əjdahasından qaçmağa çalışır, dad edir, bu vahiməni başa düşür. Burada bir həqiqət var. Lakin söhbət istiladan gedirsə, istila-müharibə, müharibə-istila, – bunlar əkizdirlər. İstila

arzusu müharibənin mayasıdır. İstibdada, xalis istibdada gəldikdə isə özünü zəif hiss etdiyi anlarda müharibədən qaçmaq halları müşahidə edilə bilər. Xalqla üz-üzə dayanana qədər. Əgər doğma xalqla üz-üzə dayanma ölüm-dirim həddinə çatıbsa, istibdad onu yadların süngüsünə vermək keyfiyyətinə qabildir. Nə qədər narazı da olsa, xalq hardasa dövlətə öz pənahı kimi də baxır. Lakin dövlətin yadlaşması o həddə çatırsa ki, xilas yolunu doğma xalqı müharibə əjdahasının ağzına verməkdə tapır, buna ad vermək çətindir.

Qərəz ki, bəşəriyyət yaman ilişmişdir!!!

İndi gəl ağıllı bir fikri müstəbidə çatdırmağa cəhd göstər. Müstəbidin öz xeyrinə olsa belə. Bu zaman müstəbidin qulağı kar, gözü kor olur. Dünyada ən çətin iş nadan, təkəbbürlü müstəbidin ağıllı sözü eşitməsinə nail olmaqdır.

Burada diqqəti cəlb edən bir cəhət də var. Femistokl fəaliyyətinin əl-ayağına dolaşanlar, fitnə şəbəkəsinə ilişdirənlər, indi onu övliyalaşdırır, sürgünlərdə can verməsini göz yaşlarıyla, kədərlə qeyd edirlər.

Femistokl fəaliyyəti ölkəni abadlaşdırır, rifahda (yaraları sağaltmasa da) canlanma yaradır, ruh yüksəlir. İdrakilik qüdrətliliklə birləşir, ülviyyətə gedən yolların izi görünür. Femistokl fəaliyyəti aqili nadandan, zəkini kütbeyindən, şəxsiyyəti simasızdan, mərdi namərddən, qüdrəti zəiflikdən, sağlamı saxtadan və s. seçməklə, ayırmaqla ölkə müdafiəsini möhkəmləndirdi. Femistokl idrakı, qüdrəti ölkəni, xalqı, xalqın bütün təbəqələrini, hətta müstəbidin özünün də üzünü işıqlandırdı. Bütün bunlar Femistoklu fitnədən və təzyiqdən azad etməli idi. Lakin hələlik tarix belə bir şeyi müşahidə etməmiş. Fitnə toru ilə, ictimai (doğmaların və yadların) təzyiqlə izlənmək elə bil ki, idrakın, qüdrətliliyin əkiz qardaşıdır. İndi müstəbid Femistoklun ardınca göz yaşı tökür. Amma o, tarixin naqisliyi – istibdadın fəaliyyəti nəticəsində ömrünün, idrakının ən çiçəklənən vaxtında sürgünlərdə can vermişdir. Çünki istibdad demokratiyaya yol qoymur, bərabərliyində ikinci bir varlığa yol vermir, istəmir ki, diqqət ondan qırağa yayınsın. Üstəlik kiminsə rəqib çıxmaq ehtimalı var.

Dünyadan çoxdan köçmüş Femistoklu təqdir etmək, onun üçün göz yaşı tökmək asandır. Bunun özündə belə, istibdadın özünə övliyalardan zireh çəkmək cəhdi var. Burada da o, əfkari-ümumiyyəni çaş-baş salmağa çalışır. Əfkari-ümumiyyə isə onsuz da çaş-başdır.

Əfkari-ümumiyyə “Atlılar”da yaramadığına görə bir dələduzu hakimiyətdən qovur. Əfkari-ümumiyyənin çaş-başlığı o həddədir ki, dələduzun yerinə gətirdiyini də eyni keyfiyyətlə təbrik edərək deyir ki, Afinaya, adalara hökmran olub bol-bol pul qazanardım.

Fitnəkarlıq, viranəlik, ictimai qarmaqarışıqlıq, pozğunluq və s. səlahiyyətli adamların nəfslərinə güc vermələri, “bol-bol” pul qazanmaq yürüşləri ilə bir ana düşür. Elə bil bunlar da əkizdir. Xalq həmin şeyə görə əvvəlki dələduzu uçururdu. Sonrakının qabağında açılan həmin yolun ucunu isə əfkari-ümumiyyə yeni dələduza özünü göstərir. Şərə meydan verən şərtlərdən biri də dünyanın bu cür öz-özünə yadlığıdır.

Şəxsi keyfiyyət, idrak, güc, yaradıcılıq olmadıqda pul zahirən nə isə bir şeyi təsdiq edir. Pul ehtiyacları ödəyir, təsadüfi çətinliklərdən, təhlükələrdən xilasa kömək göstərir, gələcək həyat üçün sığortalama vəzifəsini görə bilir. Bunlar hamısı ömrün mühafizəsi və şəxsiyyətin təsdiqi kimi görünür. Lakin mühafizə olmasa da ən böyük təsdiq yaradıcılıq və ictimai işə xidmətdir. Hökmranlıq isə həyatı mühafizə etdiyinə görə yaradıcılığa daha geniş meydan verir. İctimai işə xidmətə gəldikdə isə hökmranlıq məhz bundan ötrüdür. Hökmranlıqda bunu deyil, başqa şeyi görmək imkanları, deməli, öz-özünü yerə vurmaqdır. Hökmranlıq zamanı bütün həyatını və imkanlarını ictimai işə, yaradıcılığa qurban verən adamın nimdaş, yoxsul güzəran keçirməsi şəxsiyyətin əzəmətini azaltmır, artırır, onun ləyaqətini göylərə ucaldır.

Adi adamlar şəxsi ləyaqətdən, idrak və gücdən məhrumdursa, harınlıq, nəfsin tələblərinə meydan vermək, sırtıqlıqdan, heyvanlaşmadan çəkinməmək, sərvət, zənginlik, olmayan bir şeyin təsdiqi vəzifəsini görməyə cəhddir. Bu adan ləyaqəti olmadığından yaradıcılıqla yox, dələduz yollarla sümürdüyünə görə harındır, nəfsin quludur, sırtıqdır, heyvanlaşmışdır, sərvətə çevrilmişdir. O, indi firavanlıq şəklində özünü ifa edir. Bu hər şeydir. Amma insan yox! Əgər bu cür adamcığaz müəyyən “nüfuza”, “təsir” dairəsinə maliksə, bu yalnız ona əsaslanır ki, zəif, heyvanlığa yol verən insanlar arasında yaşayır. Belə bir mühitlə əhatə olunmuşdur. İnsanlar qüdrətli olsa idi, dünya sırtıqlığa, yırtıcılığa meydan verməsə idi, bu cür adamların lap başlanğıcda sərvəti, firavanlığı, başdan aşıb daşmazdı. Adi şəraitdə bəlkə də dözülən bu hal hökmranlıqda yol verilməzdir.

İki səbəbə görə. Ona görə ki, hökmdar səviyyəsinə qalxan adam bu münasibətlə şəxsiyyətini "təsdiq" edir və o mühafizə olunmuşdur.

Başqa tərəfdən ona görə ki, hökmranlıqdan, əfkari-ümumiyyənin özünün dediyi kimi, "bol-bol" pul qazanılmasa, burada sərvət də, firavanlıq da görünəcəkdir. Burada sərvət, firavanlıq, harınlıq olacaqdır. Amma insan görünməyəcəkdir.

Hökmranlığın nüfuz dairəsi isə genişdir. O, özünə aid harınlığı, yırtıcılığı, heyvanlaşmanı cəmiyyət həyatına hopduracaqdır. Burada isə söhbət həyatla, heyvanlaşma gedişatı ilə razılaşmaq yox, insanın yaşayış tərzinə, mənəviyyat və ülviyyətə yol açmaqdan gedir. Hər cür ümid yeri tükənsə idi, onda heç düşünüb daşınmağına, yaşamağına da dəyməzdi.

Əsər boyu irəlilədikcə, istibdadla xalq daha artıq üz-üzə gəldikcə biz dolanbaclığın – metamorfozların ifrat formaları ilə üzləşirik.

İstibdad xalqı şirnikdirir, sonra başına ip salıb oynadır. Bu başlanğıc üçündür. Lakin istibdadın xalqa qarşı əsas silahı zordur. Bu zaman xalqın dərisini soyur – zor ilə, özünün pis işlərini müqəddəs qələmə verir – zor ilə xalqı banlamağa və nəqarət deməyə məcbur edir – onu da zor ilə. Beləliklə, istibdad yaşadıqca, çürüdükcə, zor həndəsi silsilə ilə güclənir, hər bir zor iki qat, sonra on, yüz qat və sair surətdə artır.

Bu işlər başqa tərəfdən də ona görə baş verir ki, xalq təmizdir, sadəlövhdür, çaşbaşdır, daha artıq isə əlacsızdır. İstibdad həyasızlığı ilə xalq məntiqsizliklərinin məcmusu birləşdikdə tarixin meyli kimi görünür. Bundan da sanki əlacsız bir dərd alınır.

Bir həyasız mübarizədə o biri həyasızı məğlub etmək üçün bir-birinin bütün rəzalətlərini açıb-tökürlər. Xalq isə həyasızların hər ikisindən xilasa çalışmaq əvəzinə özünü ikisindən birini seçmək məcburiyyətində qoyur.

Hələlik müxalifətdə olan həyasız hakimiyyətdə olan həyasızın ünvanına işarə edib xalqa deyir ki:

*"Ey əziz xalq,*
*O məlun istəyir ki, bir zaman*
*Ona cəza verəndə sən əliboş qalasan!*
*Diqqətlə bax, gör onun dalında kimlər durur:*
*Dəstə-dəstə dabbaqlar, gön soyanlar, sərraclar,*
*Hamısı bir zibildir, bir yuvanın quşudur...*
*Bir azca qaşqabaqlı baxsan üzlərinə,*

*Gecə yarı qoparıb yerindən qalxanları,*
*Tökülüb üstümüzə hücum edərlər bizə,*
*Bircə tikə çörəyə həsrət qoyarlar, inan!"*

O biri həyasız bu hücumlara qarşı xalqın qabağında öz xidmətlərini sayır. Bu zaman "ittihamçı" həyasız kükrəyir:

*"Balıqçılar da belə salır tora balığı!*
*Dəniz sakit olarsa, balıq düşərmi tora?*
*Ancaq lili çalxayıb suyu bulandıranda,*
*Tutarlar balıqları o zaman qalaq-qalaq...*
*Sən də bulanıq suda balıq tutursan, alçaq!*
*Hay-küy xeyirdir sənə..."*

Həyasız özünü müdafiə edib deyir ki, mən həya-abır, namus keşiyində durmuşam. Zinakarları ölkədən qovmuşam. İttihamçı həyasız da onu yataq naziri adlandırır.

Dövlət, onun ifaçı diktatoru bir hökmdar kimi, ölkənin abadlığını təmin etməyə çalışmalı, mənəviyyatının da keşiyində durmalıdır. Həyasızın "zinakarları qovmuşam" sözündə bu vəzifəyə bir işarə var. Lakin həmin həyasız bu cür vəzifəni yerinə yetirə bilməzdi. Əgər o doğrudan da ölkəni zinakarlardan təmizləmək əməliyyatına girişsə idi, onda gərək özündən başlayaydı. Həyasız və özünü suçlu bilmək – baş tutmaz əhvalatdır. Bu cür iddiada olanı "yataq naziri" adlandırmaq tutarlı ifadədir.

İttihamçı həyasız sözünü belə tamamlayır:

*"Sən, ey yataq naziri, rəzilətsən sən özün!*
*Zinakarları qovdun, ancaq qorxundan qovdun;*
*Dil zinakarlarından yaman qorxmuşdu gözün".*

*(səh. 630-631).*

Həyasızın ittihamları tamamilə doğrudur, yerli-yerindədir.

O doğrudur ki, istibdad xalqı soyur, özünü isə əli-qolu bağlı şəklə salır, müdafiəsiz qoyur.

O, doğrudur ki, ölkənin başına təkcə sənətcə deyil, sosioloji psixologiyasına görə dabbaqlar dayananda xalqın dərisini soymaq üçün arxasına "dabbaqları", "gön soyanları" toplayacaq, bir cinayət, harınlıq şəbəkəsi yaradacaq. "Dabbaqlar", "gönsoyanlar" – ikisi də bir sözdür, bir şeydir. Lakin rəzalətin törətdiyi hiddəti ifadə etmək

üçün təkrara əl atılmışdır. O deyir ki, bu cinayətkar dəstəyə xalqın aldanması, ya özünü aldanan təki qələmə verməsi, zamanın işlərini təqdir etməsi lazımdır. Əgər xalq pərdəni söksə, öz narazılığını bildirsə, istibdad pərdə arxasında gördüklərini aşkarda həyata keçirməyə başlayar.

Lakin özünü bilməməzliyə qoyub şılıq-qılıq göstərməli, ya qaşqabaq töküb pərdələri sökməli, qüvvələri üz-üzə gətirməli. Bu vəziyyəti izah etmək əsərin vəzifəsi deyil. Hər halda istibdada xalqın aldanması, qəbahətlərə, cinayətlərə göz yumması, şılıq-qılıq göstərməsi lazımdır. Bu, xalq üçün sakit ölüm, istibdad üçün isə qulaq dincliyidir. Əgər xalq qaşqabağını turşutsa, istibdad xalqın üstünə yeriyər, onu "bir tikə çörəyə də həsrət qoyar". Lakin "sakit ölüm" yaxşıdır, ac-yalavac surətdə cinayətkar dəstə ilə vuruşmaq, haqqını müdafiəyə qalxmaq? Bu başqa sualdır.

İttihamçı həyasız deyir ki, istibdad ictimai hərc-mərcliyə görə əl verir. Suyun bulanması, könül bulandıran assosiasiyadır. Lakin nə edəsən ki, bu bir həqiqətdir.

Zahirən elə görünür ki, hər bir dövlət, eynilə istibdad da ictimai nizamı saxlamağa çalışır, "suyun bulanmasına", hərc-mərcliyə" qarşı mübarizə aparır. Burada isə dövlət – istibdad, onun naşiri olan müstəbid üsyanlar, sui-qəsdlər hazırlayır və sonra da cəza tədbirləri həyata keçirir. Deməli, burada bir "üsyan-üsyan", "üsyan yatırma" oyunbazlığı var.

Bəli, istibdad baş qarışdırmaq, əzmək, aldatmaq, tora salmaq və öz əyriliyini gizlətmək üçün ictimai məntiqi qəsdən qarışdırır. İstibdada əsil yaradıcı, nizamlı xalq lazım deyil. Çünki istibdad əyrilik üzərində qurulmuşdur. Yaradıcı, nizamlı xalq düzlük ənənəsi yaradır. Bu cür ənənə isə təbii şəkildə əyriliyin, istibdadın kökünü qazımış olardı.

"Atlılar"da bizim təsvirimizdə istibdad naşirləri eybəcər görünürlər. Bu onların daxili aləmləri, mahiyyətləridir. Üzdə isə onlar yaradıcı, nizamlı, xalqdan daha gözəl görünür, daha artıq adama oxşayırlar.

Onlar rahat yaşayır, istirahətlərinin qayğısına qalır, imkanları böyükdür, firavan – xüsusi yaşayış tərzi yarada bilir, danışıq, rəftar qaydaları məşq etmişlər, fövqəl münasibətləri, görüşləri, cəmiyyətləri olur və s. onlar daha gözəl, kamil görünürlər. Lakin bu zahiridir. Siz onların gözlərinin içinə baxın, dərininə. Yırtıcı bir ifadə görərsiniz.

Bu adamlar yuxarıda sadaladığımız "əsaslara" görə özlərini nadir vücud, fövqəl insan hesab edib xalqdan ayırır, İnsanlığa qarşı dayanırlar. Lakin onlarda heç bir fövqəllik yoxdur. Onların cinayət mahiyyətlərini çıxsan, saxtadırlar, uydurmadırlar. Xalq isə yetişmədiyinə, məntiqi itirdiyinə görə məhv etmək əvəzinə, bu iki saxta, uydurma vücuddan birini özünə sahib seçməlidir. Bu vəziyyət ancaq cinayətlərlə özlərini təsdiq edən bu saxta, uydurma adamların xalqın rəğbətini qazanmasını asanlaşdırmışdır. Bir həyasız o birinə üstün gəlmək üçün daha artıq yalançı bir şılıq-qılığa malikdir, dilə basır və xalqa bir ayaqqabı, bir kürk atır. Xalq da bu cür dilbasmalardan, şılıq-qılıqdan, tikə atmalardan pərvazlanır, hərəkətə gəlir. Bu o qədər qabarıq olur ki, xalqdakı dolanbaclıq həyasızın özünün də gözünü bərəldir. O deyir ki, sən bir "başmağın hökmünə bax!" *(orada səh. 631).* Bu fikri başqa cür də ifadə etmək mümkündür. "Sən bir qabağa qoyulan yalın, atılan sümüyün hökmünə bax!"

Lakin xalqın "yal", "sümük" möhtacı kökünə düşməsinin daha artıq dolanbacları var. Bu mənanın köklərinin izahına bütövlükdə əsər cavab verməlidir.

Hadisələr qızışdıqca "yal-sümük" oyunbazlığına fal qaravəllisi qarışır. Bəlkə də xalqın taleyi olan başlanğıcdan qumara qoyulmuşdur. Çünki həyasızlıq, saxta, uydurma, dünyanın həyata keçirdiyi qəbahətlər, cinayətlər seylabı elədir ki, xalq qumarda uduzmuş vəziyyətdə qalmışdır.

Xalq üçün fal, nə fal! Bundan da yöndəmsiz, çaş-baş bir mənzərə təsəvvürünüzə gətirə bilməzsiniz. Bir halda ki, xalq özü həmin həyasızlardan fal açmağı tələb edir:

*...Deyin falları bir-bir:*
*Məndən danışanları oxuyun, çox xoşum var,*
*Qartal tək səmalara uçmaq istəyir könlüm.*

*(Orada, səh. 639).*

Adamın dili gəlmir. Amma buna pintilik deyərlər. Elə xalqda da bu pintilik var ki, onun taleyində "fal" oyunbazlığı başa gəlir.

Birinci həyasız öz falını aşağıdakı şəkildə izah edir:

*"Dinlə, dinlə ey Erexvid, məbədgahda zəki Febin*
*Kürsüsündən gələn səsi, onun qadir kəlamını;*
*Hörmət elə iti dişli o müqəddəs köpəyə sən,*

*O köpək ki, sənin üçün keşik çəkir, hürür, qapır;*
*Sənin üçün ruzi tapır... tapmasa, bil gəbərəcək...*
*Başı üstə çox dolama hərlənərək qarıldaşır!..*

*(səh. 639).*

Xalq özünü itirdiyindən, laübaliliyindən laylalarla, xəyallar içində məst olmaq eşqinə düşmüş, həm də bu məst-xumarlığı şər dağarcıqlarından gözləyir. Şər toxumlarının cücərməsi üçün necə də münbit iqlimdir. Ona görə də xalq üçün elə cəfəng fal açırlar ki, bu məntiqsizliyi əsil mənada heç bir kəs yoza bilməz. Xalq da elə deyir ki, heç bir şey başa düşmədim. Amma bu yaramazın açdığı falı başqa yaramaz aşağıdakı təki yozur:

*"...İt sümük gəmirən tək,*
*Bu köpək də bu falı gəmirdi, parçaladı.*
*Köpək falı adamı qapar, nə desən çıxar!*
*"Allah deyir: Ey Erexvid, o can alan xain Kərber*
*Quyruğunu bulayaraq, göz dikmişdir yeməyinə;*
*Güdür səni, göz yuman tək qapacaqdır bil, tikəni!*
*Gecələri, sən yatanda, gizli girib mətbəxinə,*
*Yalayacaq qab-qacağı, gəmiləri, kikladları..."*

*(Orada, səh. 639).*

*"Feb əyri əl deyəndə,*
*Bax, oğurluq eyləyən bu pəncəni söyləyir!*
*(Kleonu göstərir)".*

*(Orada, səh. 642).*

Kleon da ki, həmin fal açan həyasızdır. Lakin Kleon başqa həyasızın onun falını bu cür yozmasından razı qalmır:

*"Düz yozmursan falı sən! Feb əyri əl Killena*
*Deyəndə, Dionisin əllərini söyləyir..."*

*(Orada, səh. 642).*

*...Köpək mənəm, boğazımı yırtıram".*

*(Orada, səh. 639).*

*"Ey xalq, məndə çox fal var, səni ucaldır göyə,*
*Qartal tək qanadlanıb dünyaya hökm edəsən!*
*...Sənə mən üyüdülmüş un verim..."*

*(Orada, səh. 642-643).*

Falın tikə əlavəsi ilə tamamlandığını görən Kolbasaçı xalqa tikə göstərmək mərasimi başladıqda o, dərhal artıq canfəşanlıqla meydana atılır.

Lakin bu tikə yarışı hələ sonraya qalsın. Zira bu fal oyunbazlığı xalqın taleyindəki zəlalətin elə mənzərəsidir ki, elm izahat aparmaq işini heç öz adına layiq də bilməz. Burada yalnız demək mümkündür ki, bərəkallah sizə də, sizin falınıza da!.. Bərəkallah da ki, bizim tərəflərdə eşşəyə (ulağa) deyərlər.

Bəli, xalqın taleyi yad əllərə keçəndə "şəxsiyyətlər" eşşəklərdən saxta şəkildə uydurulur və ən ali insan donu geyir. Çinovnik şəbəkəsində eşşəklər sıraya düzülür və ən ali adlarla özlərini "şərəfyab" edir, hər cür təltiflərlə sinələrini doldurmağa başlayırlar.

Belə bir vəziyyətdə xalq da ayaqlarını üstündə dayandığı zəmindən üzübdür. Fallarla, röyalarla xəyallanmaq, qanadlanmaq, səmalara uçmaq eşqinə düşmüş. Xalqdakı bu dolanbaclıq o qədərdir, əfkari-ümumiyyə də məyus halda xalq haqqında deyir:

*"Ey xalqım, qüdrətin əyandır sənin,*
*Dünyada adın da, dəhşətin də var.*
*Qadir bir hakimsən, heyif ki, ancaq,*
*Hər kəsə edirsən tezcə etibar.*
*Yaltaqlar dövrəni alıblar, heyhat,*
*Riyalar çulğamış səni hər yandan.*
*Sən də inanırsan hər riyakara,*
*Yaraşmır bu sənə, ey xalqım, inan!*
*Ağzını ayırıb durursan, yəqin*
*Yerində deyildir şüurun sənin!"*

*(Orada, səh. 643).*

Hələ başda xalq haqqında deyilir ki, o paxla yeməkdə qoçaqdır. Yəni gödənpərəstdir. Özü də qulaqdan kardır. Bu cür dünyanın taleyi rəzilliklə canbazlığın xamırından yoğrulmuş sırtıqların əlinə keçmiş. Xalq da onların laylaları ilə xumarlanmaq, vədləri ilə qanadlanıb uçmaq eşqinə düşür. Ona görə də rəzillər, canilər sürüsü xalqı istədiyi kimi şumlayır, bostan əkirlər.

Əlbəttə, xalq əfkari-ümumiyyənin ittihamına qarşı özünü müdafiə edir. Onun müdrik cavabları əfkari-ümumiyyəni sakitləşdirir. Xalqın taleyi ilə gizli düşüncəsi arasındakı bu məlhəmlik əfkari-ümumiyyəni özünə göstərir. Belə olanda biz yenidən tarixin keçib gəldiyi naqis

yolu görürük. Bu şərti möhkəm yadda saxlasaq, "fal açma – sümük atma", "sümük atma – fal açma" oyunbazlığını izləyə bilərik:

*"Kleon:*
*Bax, mən sənə bir qoğal gətirmişəm, lap əla!*
*Pilos unundan bişib, dadından doymaq olmaz.*
*Budur, bax, bu qutabı ilahəmiz bişirib*
*Ki, gəmilərdə sizin canınız yaxşı qızsın.*

*Kolbasaçı:*
*(gəmirilmiş sümük verir)*
*Buyur, bunu da buyur!..*
*(xalqa şərab təqdim edir).*
*Buyur, iç, bu da əla qarışdırılmış şərab!*

*Xalq:*
*Ay allah, nə dadlı şərabdır, nə şirindir!*
*Tündlüyü də lap əla!"*

*(Orada, səh. 646-647).*

Xalq gəmirilmiş sümükdən, əla şərabdan sonra hakimiyyət çələngini Dabbağın başından götürüb Qəssaba təqdim etmək istəyir. Dabbaq sonuncu imkana əl atır. Bu zaman belə bir səhnənin şahidi oluruq:

*Kleon:*
*Yox, çıxaran deyiləm!*
*Mənim də öz falım var, mənə üstün gələcək*
*Adamın sifətləri orda xəbər verilib...*

*Kolbasaçı:*
*Elə mən ki varam... Şübhə-zad ola bilməz.*

*Kleon:*
*Hər halda istəyirəm yoxlayım öz falımı...*
*Görüm ki, ilahənin falı düzmü çıxacaq*
*Əvvəlcə sən cavab ver, mənim bir sualıma:*
*Uşaqlıqda müəllim yanına getmisənmi?*

*Kolbasaçı:*
*Əvvəl sallaqxanada almışam mən dərsimi*

*Kleon:*
*...De görüm palestrdə sən nə təlim almısan?*

*Kolbasaçı:*
*Oğurluq eləyəndə dik, mərdanə baxmağı...*
*Kleon:*
*...Boya-başa çatanda nə alıb, nə satıbsan?*

*Kolbasaçı:*
*Dalımı, qabağımı... Sonra da ki, kolbasa..."*

*(Orada, səh. 650-651)*

Xalqın taleyini ələ keçirmək üçün sallaqxana, oğurluq, sırtıqlıq təlimi keçməkdən başqa kişi heyvərə qadınların yataq vəzifələrini yerinə yetirməyə də qabil olmalı imiş... Bundan sonra insan, dünya, xalq, bəşər, mənəviyyat, ülviyyət, tarix haqqında ağız dolusu danış görək, sözünüz nə olacaq?!

Qəribədir, M.S.Ordubadi istilaçılara nökərlik edən, onların bəd-xah, cinayətkar planlarını doğma xalqının başına gətirən İran müstəbidlərinə nəhayət həmin sifətləri ünvan verərdi.

Biz də çağdaş dünyanın acınacaqlı mənzərəsini göstərən bir əsər yazdıq. Faktlar əsasında.

İndi budur, tarixdə nümunə olan bir xalqın sənətkarı istibdada həmin mənəvi eybəcərliyi əlavə edir.

Bütün bu uyğun kəlmələr silsiləsinin müəyyən bir ortaq kökü olmalıdır.

Müstəbid ifadəsi ağır sözdür. Bu söz eybəcərlik və qəddarlıq təsəvvürü oyadır. Halbuki müstəbidlər çağdaş dünyanın imkanları ilə özlərini bəzəyir, onların bərabərlik, firavanlıq, ahəng şüarları aləmi bürüyür. Adam bu qədər sirxo, güclü, kişi görünən vücudların qadın təki yataqda olacaqlarına inanmaq istəmir. Burada faktlar röya təsiri bağışlayır.

Amma istibdad dünyasında o həqarətlər, o cinayətlər, tükləri ürpədən o qəddarlıqlar ki, başa gəlir, qeyrətsiz olmadan bunların icrası mümkün deyil.

Lakin bəşərin amalı önündə bunlara meydan verən tarixin özü var. Tarix özünü elə bil biyaban kolluğuna salmış. Daxilən lap rahat

olmasa da istbdada, istilaya, onun icraçılarına bu tarixi ləmbəlik əl verir. Ona görə də onu əldəki vasitələrdən istifadəylə saxlamağa, bərqərar vəziyyət yaratmağa çalışırlar. Elmin, sənətin, ictimai fəaliyyətin vəzifəsi tərəqqiyə xidmət yolu ilə tarixi bacardıqca lənbəlik xəttindən tez çıxarmaqdır.

İctimai qüvvələri qəti şəkildə üz-üzə qoyan şərt budur!

Dabbaq deyir ki, yenisi rəzillikdə məndən üstün deyil, sadəcə onun bəxti gülmüşdür. Lakin əsər işarə verir ki, daha həyasız olduğuna görə ölkənin, xalqın taleyi ona tapşırılmalıdır. Elə gətirmiş ki, "Atlılar"la yanaşı, əsəri "Düşmə" də adlandırmaq mümkündür. Elə bil insan taleyi qəbahətlərlə, cinayətlərlə dolu dibsiz bir dərəyə üzü aşağı düşür. Amma xırda bir dəyişiklikdə ölkədə ümumi şənlik başlayır. Özündən xəbərsiz şəkildə!

Deyirlər keçmişi yada salan namərddir. Madam ki, şənlik başlamış, elə şənlik də etmək lazımdır. Amma adamlar hələ devrilmiş hökmdarın işlərini hallandırmaqdadırlar. Onlar nəyinsə bir şeyin narahatlığını çəkirlər. Deyirlər ki, "o qazana yaman girib, çıxmayacaq...", "Karfagenə hücum üçün birdən yüz qız tələb edir". *(Orada, səh. 653).*

Yaşamı, gerçəyi unutmaq çətin. Dünyanın qazanına bərk soxulmuşlar. Biri qazana soxulur, o biri mənəviyyatı talan edir. Yeni hakimsə hamını unutqanlığa çağırır:

*"Kolbasaçı*
*Kəsin sual-cavabı, ey uca Afinanın məşəli!*
*Məhkəmələr qapansın, dinləyin şad xəbəri,*
*Şən teatr eşitsin, sevinsin, alqışlasın..."*

*(Orada, səh. 653).*

Yeni hakimə – müstəbidə müəmmalı bir şənlik lazımdır. Hər şeydən əvvəl "nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım"ıma görə. Həm də "kökə", nə "kökə"! Bütöv bir ölkə, bütöv bir xalq! Bütöv bir xalq!.. bəşəriyyət üçün ülviyyət, insanlığın təsdiqi, müstəbid üçün talanmalı sərvətlər, külü göyə sovrulmalı maddi və mənəvi nemətlər dünyası. Dünya tər bənövşə kimi üzüləcək, çeynənəcək və zorlanacaq. Sonra da ayaqlar altına düşəcək, solacaq, tapdalanacaq, ləğv ediləcək. Bu dünya!

Müstəbid dəyişmişdir. Dünya isə kədərli səhifələri ilə yerindədir. Yenə baxımsızlıq, nizamsızlıq, hərəkətdən poeziyadan, düşüncədən geri qalmaq, heyvan kimi tər tökmək, – iflas olana qədər, əli boş

qalmaq, imkansızlıq, viranəlik, haqsızlıq, təhqir, irin, əzab, şaqqalamalar və s. və i.a. dünyası!

Müstəbid sevinir! Müəmmalı şəkildə!

Xalq sevinir! Küt şəkildə! Guya ki, arzusu başa gəlmiş.

Müstəbid sevinir! Müəmmalı şəkildə! Heç bir dünya üçün. O heçi ələ keçirmiş və özündən xəbərsiz şəkildə sevinir. Ona görə heç ki, indi onun hər şeyi var, o hər şeyə malikdir. Amma insan deyil. Lakin o insanlığın adından çıxış edir. Əgər o insanlığın adından çıxış etməsə idi, o bir heyvan olsa idi, ələ keçirdikləri "heç" yox, bir şey idi. Lakin tarixi təcrübə göstərmişdir ki, insani dünyanı ələ keçirənlər onu heyvani bir məqsəd üçün sərf edərkən kimsə sevincə çatmamışdır. Sonra onların düşdüyü həqarətli və məhkum vəziyyət daha eybəcər şəkil almış. Haqq ödənilir, cinayətlər cəzalanır. Bu və ya başqa şəkildə!

Dünyada mükafatsız xidmət, cəzasız da cinayət yoxdur. Bizi darıxdıran şeydə tarix təmkinlidir!

Lakin müstəbid sevinir. Çünki dünyanı ələ keçirmiş! O, təbillərlə xalqı da şənliyə çağırır. Xalq bu sevincə qoşulmalıdır. Müstəbidə bu, hava və su kimi lazımdır. Xalqın özünü, öz vəziyyətini unutması, heyvan vəziyyətində qalması üçün.

Müstəbid xalqı sevincə çağırır! Keçmiş pislənilir və müstəbid yalançı vədlərlə xalqın qulağına pıçıldayır:

*"Kolbasaçı:*
*"Məclisdə hər kim durub sənə söyləsəydi ki:*
*Mən sənə dostam, ey xalq, yaman sevirəm səni,*
*Təkcə mənəm dünyada sənin dərdinə qalan...*
*Sən belə çərənləri eşidəndə, məst olar,*
*Lovğalanıb dik tutar, ucaldardın başını...*

*Xalq:*
*Kim? Mənmi?*

*Kolbasaçı:*
*Bəli, bəli!.. səni aldadırdılar...*

*Xalq:*
*Nə deyirsən, a kişi?*

*Kolbasaçı:*
*Bəli, Zevsə and olsun!*
*Sən hey qulaqlarını sallayardın dinlərdin...*

*Xalq:*
*Nə axmaq qocaymışam!..*

*Kolbasaçı:*
*Allah haqqı, elədir!*
*Əgər iki natiqdən biri yer tikmək,*
*O biri xəzinəni dağıtmaq istəsəydi,*
*Daim üstün gələrdi, xəzinəni talayan...*
*Yaxşı, sənə nə oldu, sallamısan başını?*

*Xalq:*
*Ax, yaman günahkaram... Keçmişçin dərd çəkirəm...*

*Kolbasaçı:*
*Heç dərd çəkmə, əzizim, heç təqsir yoxdur səndə!*
*Günah səni aldadan ədnalarındır ancaq...*
*İndi söylə bir görüm, hərzə yavanın biri*
*Çıxıb hədəylə desə: "Ey hakimlər, siz əgər,*
*Məhkəmədə işlərə baxıb qurtarmasanız,*
*Çörək yoxdur sizlərə!.." söylə, belə natiqə*
*Nə eylərsən, indi sən?*

*Xalq:*
*Onu qaldırıb göyə,*
*Boğazına bağlayıb Kiberbolu, qayadan*
*Dik aşağı ataram!*
.........................
*Yaxşı, o pafloqonlu alçağa, törətdiyi*
*İşlər üçün nə caza verəcəksən, a dostum?*

*Kolbasaçı:*
*O, heç... sadə bir işdir: Getsin mənim peşəmə,*
*Getsin kolbasa satsın darvazanın önündə;*
*Qarışdırıb bişirsin eşşək əti, it əti;*
*Məst olub küçələrdə qəhbələrlə söyüşsün,*

*İçsin hamamdan axan sabunlu çirkabları...*

*Xalq:*
*Tədbirin çox gözəldir! Ancaq layiqdir buna,*
*Hamamçılar, qəhbələr qoy ona tay-tuş olsun!*
*Səni mən o alçağın yerinə təyin etdim,*
*Buyur Pritaniyə!.. Get, əvvəlcə əyninə*
*Yaşıl bayram libası geyindirsinlər, buyur!*

*(Kolbasaçının əyninə yaşıl rəngli bayram libası geyindirirlər).*

*Onu da sürüsünlər öz yeni sənətinə,*
*Müttəfiqlər, qonaqlar gülsün aqibətinə...*

*(Orada, səh. 655-657).*

Yeni hakim yüngül bir şəkildə xalqa tənə vurur, keçmiş nöqsanlarını, səhvlərini ona qaxınc edir. Söyləyir, "kim xalqım, xalqım desəydi, məst olardın. Onlar səni aldadırdı. İndi sən ancaq mənə inan. Doğrudur, xalqım, xalqım deməkdə mən onları da keçəcəyəm. Sən onlara inanma, amma mənə inan".

Yeni hakimin bəsit şəkildə söylədiyi nitq bundan ibarətdir. Lakin xalqın öz mövqeyində rəqs etməsi üçün belə bir bəsit nitq də kifayətdir. Çünki xalq nəticədən əvvəl yeniliyi izləyir. Xalq həmişə nəticə ardınca qaçır. Lakin daha artıq yeniliklə aylanır, əylənir, rəqs edir, daha çox isə oynağa düşür.

Yeni hakim bəsit şəkildə nitq söyləyir. Xalq da öz mövqeyində rəqsə başlayır. Çünki başını sındırıb işlərin dərininə getməyə nisbətən aldanmaq daha asandır, şirin xəyallarla məst olmağın cazibəsi daha güclüdür.

Hələ elə bir cinayətkar idarəetmə aparatı olmamış ki, xalqın, vətənin adından çıxış etməsin. Xidmət etmək əvəzinə şablonla getmək rahatdır. Lakin istibdadın xalqın, vətənin adından danışması vətənə, xalqa xəyanəti gizləmək üçündür. Başqa sözlə, xalq və vətən adından danışmaqları bir xəyanət məqsədi güdür.

Xidmət ən böyük səadətdir. Bu şərtlə ki, xidməti başa gətirən insani qüdrət, istedad, ilahi bir mənəviyyat sahibi olsun. Lakin bu nadir hadisə sərf-nəzər edilməlidir. Şablon həmin istedadın, insani qüdrətin, ilahi mənəviyyatın rolunda çıxış edir və dünyanı viran qoyur. Onun məqsədi öz firavanlığını və adını qorumaq, artırmaqdır. Bunun üçün real özül lazımdır. O isə yoxdur. Ona görə də min

oyundan çıxma, min dona girmə əməliyyatı başlayır. Hamısı da xalqın adından. İstənilən nəticə əldə edilməsə də, başqa nəticə alınır, vətən viran qalır, cəmiyyətin siması korlanır. İnsan, fərd, şəxsiyyət əvəzinə rəzil, heyvərə bir şey alınır. Vəhşiləşmə o həddə çatır ki, insan unudulur, haradasa insani təsəvvür istehza obyekti kimi saxlanılır. Təbiətdə qısırlıq yaranır. Torpaq, onun örtüyü, meşələri, çəmənliklər solur, sular quruyur və ya bulanır, iqlim eybəcərləşir, növlər itir, bitki, meyvə, bostan cılızlaşır. Müstəbid isə vətənə, xalqa xidmətdən qışqıra-qışqıra, ağzı köpüklənə-köpüklənə danışır.

Müstəbidə yalançı bir şənlik lazımdır. Dərhal və sona qədər Unutqanlıq üçün! Əsil vəziyyəti unutmaqdan ötrü! Bu ağılları başdan almaq, şüurları kütləşdirmək, gözləri toranlaşdırmaq üçündür.

Müstəbid şənliyi əvvəlcə effektlə yaradır. Lakin sonra o şənliyə məcbur edir, təbliğat, aldatma, iqtisadi təzyiq, zor vasitəsi ilə.

İnsanlar simasız şəkildə bu qəbahətli, cinayətkar şənliyə qoşulmalıdır. Yəni kor-koranə surətdə gedib uçurumun dibinə düşməlidirlər. Lakin hələ uçurumun dibinə çatana, orada boğulana, yəni ölənə qədər yaşamaq lazımdır. Simasızlaşmaq, həqiqətə – həyata xəyanət edərək müstəbidə dəm tutmaq rüsvayçı bir ölümə, süni surətdə yaradılan bu ölümə qədərki həyatı mühafizə etmək üçündür. Cəzadan yaxa qurtarmaq, kiçik bir mövqe, müvazinət, tikə şənliyə qoşulmaq üçündür. Azca şüur başda olarsa, simanı göstərərsə, eybəcərləşmiş cəmiyyət əjdahası səni ağzına götürər, istibdadın dəyənəyi də başına endirilər.

İstibdadın vətənin, xalqın, adından danışmasının mündəricəsi budur.

Müstəbid xalqı şənliyə çağırır. Lakin o xalqdan çox da arxayın deyil. Ona görə orada xalqı sınaqdan da keçirir. O, xalqdan soruşur ki, bu aylanmada bir ayıq adam tapılsa, işlərimizə dil qatan olsa, ona nə edərsən? Xalq düşünmədən cavab verir ki, onu qayadan ataram. Halbuki bəlkə də həmin qayadan atılan xalqın əsil oğludur. Xalq dolanbacı bununla bitmir. O, özü müstəbiddən soruşur ki, köhnə ilə rəftarın necə olacaq?

Hakim xalq özüdür. Lakin açıqca görünür ki, o əsil oğullarını qayadan tullayır, rəzilləri də hakim təyin edir. Rəzil isə vaxtı ilə hakim olmuş caniyə əsil cəzadan, şiddətli tədbirlərdən yayınır. Çünki o, hakimlər arasında, yəni özləri üçün belə bir layiqli hökmün ənənəsini qoymaq istəmir. Bəs necə! Cani gözdən yayınmalı və mühafizə edilməlidir...

Yadınızdadırsa xalqa bu çaşbaşlığını xatırlatmışdılar. Xalqın həmin töhmətə cavabını indi nümunə gətiririk:

*"Mən sizə şüursuz görünürəmsə,*
*Özünüz şüurdan məhrumsunuz siz!*
*And olsun, özümü sadədilliyə*

*Mən özüm qoymuşam, yaxşı biliniz.*
*Mən bundan alıram başqa bir ləzzət:*
*Özümü çağa tək göstərirəm mən.*
*Görürsən Piniksdə oğru məmurlar*
*Qoyuram, mən özüm çox zaman qəsdən;*
*Sonra qarınları şişən zamanda,*
*Vururam, partlayır onlar bir anda!..*
*Bir görün, ən mahir, həm də hiyləgər*
*Xain düşmənləri seçəndən sonra,*
*Onları nə sayaq məharətlə mən,*
*Bir-bir tovlayaraq, salıram tora:*
*Oğrular hamısı məni kor sanır,*
*Çox fikir vermirəm onlara mən də.*
*Nə qədər oğurlayıb yesələr ancaq,*
*Bir anda alıram vaxtı gələndə.*
*Göz vurub vermirəm onlara aman,*
*Çıxır yedikləri boğazlarından!..”*

*(Orada, səh. 644)*

Zəif təskinlikdir! Ölkənin taleyini rəzilə tapşırır, sonra da arxadan müşahidə başlayır ki, görək bu axmaq bu boyda dünya ilə necə rəftar edir, baxtına və insanın taleyinə necə kor baxır. Ölkə viranəlik, dünya fəlakət içərisində boğulur ki, xalq müşahidə etmək və ya əylənmək eşqinə düşmüş. Sonra bu nacinsləri, naxələfləri cəzalandıracaq, yediklərini də qusduracaq. Hələ onu demirik ki, biri yeyib qusandan sonra xalqın yeni “intixabından” sonra vəziyyət daha geniş şəkildə təkrar olunacaq. Söhbət burada xalqın özünə verdiyi təskinlikdən gedir.

Zəif təskinlikdir!

Heç olmasa xalq deyəydi ki, mənim başqa imkanım yoxdur. İnsan zəifdir, tarix naqisliklər içərisindən keçib gəlir. Hələ bu vəziyyətdə yaxşı ki, fürsət tapıb bəzən caniləri cəzalandıra bilirəm. Burada hələ lap da istənilən nəticə yoxdursa da, amma zalım üzərində əli-qolu bağlı görünən çoxluğun qələbəsindən doğan bir anlıq təskinlik var.

Çoxluğun, idrakın taleyinin rəzalətin əlinə tapşırılmasında darıxdırıcı bir ziddiyyət var. Xalq deyə bilərdi ki, bu darıxdırıcı, xoşagəlməz, ziddiyyətli vəziyyət tarixi kamilləşməyə doğru aparır.

## III FƏSİL

I. Əsər – insanın fəlakətli vəziyyətini göstərən güzgüdür.

Ağılla, hərarətli ürəklə, məhəbbətlə, təbii kədərlə yazılmış gərəkli, ləyaqətli, cəsarətli sosioloji traktatdır.

II. Müəllif əslində insanın tarixi taleyinə həsr olunmuş iki cildli sosioloji traktat yazıb.

Traktatın birinci hissəsi "İnsan və tərəqqi", ikinci hissəsi "insan və istibdad" adlandırılmalıdır.

("İstibdad və istila" yaxşı səsələnsə də, mahiyyəti ətraflı ifadə etmir).

Ümumi ad – "İnsan fəlakət içərisində"olmalıdır.

III. Birinci irad... - Əsərdə tez-tez təkrarlanan "müasir elm sübut edib ki", "elmin məlum nəticələri" kimi diplomatik gedişlərə aiddir.

Əvvəla, hansı elmdən söhbət gedir?

İkinci, söhbət müasir iqtisad elmindən gedirsə, onun əsil elm olmasını bəşəriyyətin yarısından çoxu inkar edir (o cümlədən sən özün!").

Üçüncü, elmi fikir – hələ həqiqi fikir deyil. Elmi fetişləşdirmə dövrü çoxdan qurtarıb. Bəşəriyyət öz taleyini elmə tapşırmır. Heç olmasa bu baxımdan müdrikləşib.

Ümumiyyətlə, əsərdə cəsarət dalğasının ardınca bir çox hallarda, pərdəli geri çəkilmələr var və bu əcayib təsir bağışlayır.

Qəhrəmanlığı axıra kimi elə. Bacarmırsan – eləmə! Geri çəkilmələr cəsarəti adiləşdirir.

IV. Sənin, öz təbirinlə desəm, "naturfəlsəfi" ehtirasın burda özünü doğrultmur.

Sübut təsdiqdən çox mürəkkəbdir.

2x2 = 4-ü həndəsi yolla həll etmək artıqlığı yaranır.

V. "Xalqın günahı" adlanan problemə yenidən qayıtmaq lazımdır, zülm ilə intizam arasında əlaqəni dərindən açmaq lazımdır və s.

Gərəkli işində uğurlar arzulayıram.

***Asif (Əfəndiyev) Ata***

*Sentyabr, 1980 il.*

Tarixən xalq səciyyəsində bəlkə də ikilik müşahidə edilmiş. Xalq bu cür yaşamış, güzəranını bu cür keçirmiş, lakin düşüncə tərzi başqa cür olmuş, bu düşüncə tərzinin məhsulları da yaradıcılıq kimi meydana gəlmiş, həmin yaradıcılıq insan mahiyyətinin başqa keyfiyyətini üzə çıxarmış və burada xalq, bəşər öz arzularını, dünyaya baxımını da ifa etmiş.

Bir sıra xalqların müdrikliyi, düşüncə tərzi, yaradıcı təfəkkürün verdiyi məhsullar gələcəyi görmək, bəşər həyatının məndərəcəsini əvvəlcədən müəyyənləşdirmək keyfiyyəti ilə sanki tarixin gedişatını qabaqlamış. Əgər tarix müəyyən təbii sütunlar (xromosomlar) üzərində hərəkət edirsə (məsələn, üz-üzə dayanan xeyir və şər qüvvələrin eyni dərəcədə yaşamaq hüququnu təsdiqə tarixən çalışmaları), xalqlar yaradıcılıqları ilə bunu duymuş, əvvəlcədən müəyyənləşdirmişlər. Buraya Azərbaycan el ədəbiyyatının bir çox nümunələrini və xüsusən, qədim yunan mifologiyasının bütün məhsullarını, hər cür rəmzini daxil etmək mümkündür.

Hələ “Koroğlu” dastanında belə bir fikir yeridilir, tarixin gedişatı, haqq ilə nahaq arasında münasibət elədir ki, hər cür şəraitdə insan, xalq, bəşəriyyət Koroğluluğu yerə qoya bilməz. Qara keşişin simasında “Əsli və Kərəm” dastanı qulaqlara pıçıldayır ki, bütün xalqları birləşdirən, bir-birinə sevdirən, bir-birinə can atan məhəbbət, humanizmdən ibarət ilahi keyfiyyət var ki, yalnız quduz ideyalar, qara qüvvələr onları bir-birindən ayırır.

Qədim yunan mifologiyasında yeridilən fikirlər isə sanki tarixin gedişatını əvvəlcədən müəyyənləşdirmiş, tarix də öz gedişatında həmin mətləblə hərəkət etmiş.

Məsələn, biz əvvəlki fəsillərdə belə bir fikir yeritməyə çalışırdıq ki, insanın naqisliyi, tarixin qüsurları istibdada meydan verir. İstila isə istibdadın ifrat forması olub, milli çərçivədən çıxıb xalqlar dairəsini pəncəsi altına alır. Yunan mifologiyasında da əsaslandırılır, insan, xalqlar, bəşəriyyət xeyirə nisbətən, şəri daha rahat həzm edir, idrakın səslərinə qulaq asmaqdan daha çox zor qarşısında boyun əyməyə meyil göstərir.

Troya müharibələri ilə bağlı mifologiyalar, Homerin həmin əsasda yaratdığı “İliada” və “Odisseya” dastanları bu özül üzərində dayanmış.

Məsələn, “İliada”dan Axilleslə Aqamemnon arasında baş verən ixtilafa, əfkari-ümumiyyənin də münasibətinə diqqət yetirək.

Yunanlar, yunan ordusu müsəlləh şəkildə Troyaya Atriplər ailəsinin səadət və şərəfini xilas etməyə gəlmişlər.

Görünür, bir zamanlar yunanlarla Troyalılar mehribanlıq etmiş, yaxın dost olmuşlar. Bir-biriləri arasında get-gəl, xoş rəftar varmış. Belə get-gəllərin birində Troya şahzadəsi Paris (Priamid) padşah Menelayın arvadı Yelenanın ruhunu ələ alır və götürüb Troyaya qaçır.

Bu fakt ilk baxışda hökmdarlar arasında baş versə də, fərdi bir hadisədir. Lakin faktın törətdiyi gedişat ölkədə elə boz hadisə törədir ki, Yelenanın oğurlanması simvola çevrilir. Bu qadın zəifliyi problemi və ölkə səadətinin, şərəfinin basqına uğraması, oğurlanmasıdır.

İki ölkənin üz-üzə dayanması, orduların baş-başa gəlməsi bu baxımdan təbii görünür.

Burada yunanlar səadət və şərəflərini xilas etməli olduqlarına görə haqq onların tərəfindədir və ya belə görünür. Lakin bəla gələndə bəzən üst-üstə qalanır. Yunanlar haqsızlığa məğmun qaldıqları bəs deyilmiş kimi, fələk gözlənilməz əllərlə orduya qırğın da göndərir.

*"Leto ilə Zevsin oğlu! Qəzəblənib hökmdara,*
*Axeylilər ordusuna dəhşətli bir əzab salıb,*
*Qırıb-tökür adamları..."*

*(İliada", Bakı, 1978, səh. 19-20).*

Əgər fələk özü zülm edirsə, Allah özü yunanlara yeni bəlalar göndərirsə, daha haqqı bərpadan, namus və səadəti xilasdan söhbət gedə bilməz.

Zira Allah universal haqqın, ülviyyətin, xidmətə görə mükafatın, günaha görə cəzanın simvoludur. Əgər fələk özü bəla göndərirsə, bu nəyə görə isə bir cəzadır. İşlərin həqiqətinə gedəndə aydın olur ki, qardaşının, Atridlər ailəsinin, ümumən Yunan elinin səadət və şərəfini xilas edən Aqamemnon hələ bu işi başa gətirməmiş özü kiminsə şərəfinə toxunmuş, səadətini isə əlindən almış.

Aqamemnon kahin Xrisin qızı Xriseidanı çapqın zamanı bir qənimət kimi götürmüş, ortada da razılıq yoxdur.

Bu şikəst, kor, kahin, bilici, uzaqgörən, gələcəkdən xəbər verən, gizli sirlərə həmdəm, Allah adamı Xris üçün o qədər müsibətli olmalı ki, bütün var-dövlət ilə düşmənin, – Aqamemnonun qabağına gəlir. Əgər arada razılıq olsa idi, düşmənçilik yox, bir qohumluq baş verərdi. Çünki qızı götürən Aqaqmemnon Xrisin yeznəsi, övladı

olardı. Amma Xris qızılları Aqamemnonun qabağına töküb yalvarır, göz yaşları tökür ki, bunları götür, qızımı özümə ver. Bala yolunda o, varından keçir, düşmən qarşısında qəddini əyməyə, məzlum olmağa dözür. Bütün yunanlarda qoca kahinə güzəştə gedirlər. Təkcə Aqamemnon haqqa təslim olmur. Hadisə üstəlik Aqamemnonun nəfsbazlığını, qəddarlığını da üzə çıxarır. O, Xrisin qəlbinə dağ çəkir, üstəlik onu təhqir də edir.

O, Xrisə deyir ki, "rədd ol, qoca!". Aqamemnon həyasızlıqla, amansızlıqla qocaya sözlərini bu cür bitirir:

*"...O, vətəndən, səndən uzaq,*
*Bizim "Arqos diyarında – ya toxucu dəzgahında,*
*Ya da mənim yatağımda əsarətdə qarıyacaq!"*

*(Orada, səh.20)*

Beləliklə, Aqamemnon Xrisin sinəsini həm zorla, həm də sözlə yaralayır.

Bəşəriyyətin Aqamemnon dövründə çapqın, qənimət ümumi haldır. Xalis şəkildə götürüldükdə çapqın, qənimət üçün Aqamemnonu ittiham etməmək də mümkündür. Lakin şərəfinə toxunulmuş, saədəti oğurlanmış adam bunun üçün döyüşə gələn zaman qənimət bu qədər prinsipial olmamalı idi. Qənimət indi onun gözünə bu qədər qətiyyətlə görünməməli idi. Üstəlik zorla, qəddarlıqla, insafsızcasına başa gələn bir iş onun qəlbini xarab etməli, xəyalını dağıtmalı, dünyasını pozmalı idi. Öz şərəfi uğrunda vuruşa gələn və bütöv ölkəni də buna məcbur edən Aqamemnon sanki pis işlərdən ləzzət alır, ehtirası coşurdu. Bu vəziyyət şəri ümumi hal edir və Aqamemnonların təhqirə, haqsızlığa məruz qalmağa layiq olduqlarını əsaslandırır. Lakin müşkül orasındadır ki, işin acısını suçlu tərəf deyil, başqa birisi, yükün ağırlığına çiyin verən, haqqı bərpaya çalışan tərəf dadmalı olur.

Məzlum qalmış, təhqir edilmiş Xris öz hamisi Apollonun yanına gedir. Apollon Xrisi müdafiə edir.

*"Dəhşət ilə guruldadı gümüş yayı Apollonun,*
*Ondan əvvəl qatırları, köpəkləri vurub yıxdı,*
*Sonra bir-bir qırıb tökdü qoşundakı adamları,*
*Düşərgədə tonqal yandı qalaq-qalaq cəsədlərdən".*

*(Orada, səh. 21).*

Durumun acısını hər kəsdən çox Axilles duymalı ki, o, qoşunun sərkərdəsinə – Aqamemnona yanıqlı bir dillə müraciət edir. O deyir ki, qırğın bir fəlakətdir. Xilas yolu aramalıyıq. Yuxu yozanları, fala baxanları, işin əslinə bələd adamları, gələcəyi görənləri bir yerə toplamalıyıq. Görək qırğına səbəb nədir? Qırğından xilas olsaq belə, uzun sürən müharibədən xilas olub, vətənə qayıtmalıyıq. Müharibə məqsəd deyil. Biz öz sakitliyimizi vətəndə tapmalıyıq. Çünki ancaq ana yurda qovuşmaq ruhumuzu təmin edə bilər.

Allahların elçisi falabaxan Fester oğlu Kolxas ayağa qalxır, söyləyir ki, mən həqiqəti deməyə hazıram. Ey Axilles:

*"...Ancaq and iç əvvəl, – məni bütün qərəzlərdən*
*Sözlə-işlə qoruyacaq, havadarım olacaqsan".*

*(Orada, səh. 21).*

Ancaq fəlakətə səbəbin ucu ölkənin başçılarına, başçıların özünə calanmalı ki, Kalxas nitqini bu cür bitirir:

*"...Rəiyyətə qəzəblənən hökmdar çox qorxunc olar,*
*İlk zamanlar qəzəbini gizlətsə də, ancaq yenə*
*Ürəyində qalan kini söndürməsə, rahat olmaz...".*

*(Orada, səh. 22).*

Həqiqəti söyləməkdəki bu narahatlıq hər şeydən əvvəl ona işarədir ki, ölkədə ağılları sıxan, dilləri kilidləyən bir ictimai iqlim hökm sürür.

Ağıldan, həqiqətdən qorxmaq istibdadın əlamətlərindəndir. Riyasət ictimai vəzifələrdən yayınıb, bu və ya başqa şəkildə, nəfsinin, xudbin arzularının ardınca qoşmalıdır. Bu da ictimai məntiqi pozmaya bilməz.

İstibdada boy verməyə də, həqiqəti eşitməyə də hazırdır. Bu şərtlə ki, pozulmuş məntiqə toxunmasın. Lakin ağıl, həqiqət pozulmuş məntiqə toxunmursa, təbii vəziyyəti bərpaya çalışmırsa, ona idrak ünsürü qatmırsa, o, nəyin ağlı, nəyin həqiqətidir?!

İstibdad bəlalar üçün səbəblərin tədqiqinə meydan verir. Bu şərtlə ki, səbəbin ucu istibdadın özünə dirənməsin... Yoxsa, istibdad, içində yığılıb qalmış murdarlıqlarını ağlasığmaz səmtlərdən və ağlasığmaz amansızlıqlarla üzə çıxaracaq, qəbahətlər seylabı baş alıb gedəcəkdir.

Millətin və ya cəmiyyətin xilası ictimai bəlaların səmtinin müəyyənləşdirilməsində və sağlamlaşdırma işinin aparılmasındadır. Lakin istibdad deyir ki, bəlanı məndən kənarda axtarın, sağlamlaşdırma işlərini məndən uzaqda aparın. Burada isə azı üç ictimai məntiqsizlik üst-üstə qalanır, qarışıqlığı ifrata vardırır.

İctimai məntiq pozulmuşdur – bu bir! Yaralar saxlanıb qorunur, sağlam səmtlər doğranıb, kəsilib atılır ki, biz müalicə işi aparırıq – bu iki! Həqiqəti deyəndə istibdad cəza tədbirlərinə əl atır ki, bu da həyasızlığı ifrata vardırır – bu da üç!

Bir çox halda həqiqəti dinləmək hər kəs üçün çətindir. Təkcə ona görə yox ki, həqiqət bəzən acı olur, həm də ona görə ki, həqiqətin çəkisi ağırdır. Bu ağırlıq hər səmtə təzyiq göstərir. Ona görə də deyirlər ki, dünyada ağıllı sözə qulaq asmaqdan çətin şey yoxdur.

Ağıllı sözə qulaq asmaq şəraitə görə hər kəsə çətin ola bilər. Şərt ondadır ki, idraklı adamlar mənəvi müvazinətin pozulmasının qabağını iradənin – idrakın gücü ilə alır. Götür-qoylar nəticəsində həqiqətə təslim olur. Onu əsəbiləşdirən, hövsələdən çıxaran səmtə nəinki kin bəsləmir, cəza vermək "əzmindən" dönür, həm də ağılla, ağıllı adamlarla əməkdaşlığa can atır. Əgər burada ahəngdar idarəetmə imkanına meydan yoxsa, hər hansı bir tədbiri zorla həyata keçirmək qətiyyətlə vacibsə, bu zaman istibdad azğınlığı yox, diktatura qətiyyəti özünü göstərir. İstibdaddan isə bu idrakı gözləməməli!

Kolxas söyləyir ki, fəlakətə qurban verməmək, andı pozmaq səbəb deyil. Sərkərdəmiz Aqamemnon Xrisə zülm etdi, onu məzlum qoydu, qocanın qəlbini də qırmaqla təhqirə meydan verdi. Hələ allahlardan qabaq Xrisin vəziyyəti hamımıza təsir etmişdi. Biz hamımız qızın atasına verilməsinin tərəfdarı idik. Bizim özümüzə təsir edən ürəkyandırıcı bir hala Allahın münasibəti necə olmalı idi?

Həqiqət, fəlakətin səbəbi Aqamemnona dirənəndə ehtimal edilən bir şey baş verir. Sərkərdənin müvazinəti pozulur. Aqamemnon hirslənir. Hirsli başda da ağıl yerində olmur:

*"...Aqamemnon:*
*Qəzəbindən od saçırdı, kinli qəlbi dəhşət dolu,*
*Gözlərindən od yağırdı, hələ cavab verməmişdən,*
*Kolxasa bir kəc nəzərlə baxıb, sonra belə dedi:*
*Ey fəlakət xəbərçisi! Səndən xoş söz eşitmədim,*
*Zövq alırsan daim bizə qara xəbər gətirməkdən.*

*Bir dəfə də səndən xoş söz eşitmədik ömrümüzdə...*
*İndi ki, Allahın hökmü kimi etdin elan,*
*Guya Febin göndərdiyi bu fəlakət ondadır ki,*
*Qızıl alıb, qaytarmadım gözəl qızı atasına.*
*Düzdür, Qızı gözüm tutub! O qız gərək mənim olsun!*
*Öz arvadım Klitemnestra heç də ondan gözəl deyil:*
*Qədd-qamət, şəkil-sima, rəftar-əda... hər şey gözəl!*
*Çünki xoşdur fəlakətdən məncə xalqın səlaməti!*
*Amma mənə bir mükafat hazırlayın! Eyb olmazmı*
*Axeylilər arasında mən əliboş qalım təkcə?*
*Görürsünüz, var-yox bircə qənimətim gedir əldən?"*
*(Orada, səh. 22-23).*

Duruma Aqamemnonda əmələ gələn əhval, onun hadisəyə münasibəti, nankorluğu, xəbisliyi, dəyərsizliyi, ziyankarlığı ilə bərabər ziddiyyətlərlə də doludur.

İşləri pis məcraya, kənar səbəblərlə yanaşı, pis əməllər və səhvlər salır. Nəticə bir idraklının, uzaqgörənin nə söyləməsindən asılı deyil. Kahin Kolxas mütləq baş verəcək yekunu söyləyirdi. O, mükafat ummasa da (çünki hər cür mükafat xidmətin, hünərin qiymətini aşağı salır), qibtəyə, hörmətə, təqdirəlayiq iş görürdü. Lakin o, başlamazdan əvvəl təqibdən qorxurdu, həqiqəti söyləyəndən sonra da sərkərdə onu ittihama başladı. Dedi ki, sən fəlakət xəbərçisisən, səndən xoş söz eşitmək olmur, pis xəbərlər daşımaqdan zövq alırsan və s.

İş adamı üçün, yaxşı və ya pis həqiqət lazımdır. Sərkərdə və ya hökmdar, hökmdar və ya sərkərdə isə iş adamı olmalıdır. Lakin o bu başdan ancaq xoş xəbərlər tələb edir, ancaq xoş xəbərlər daşıyanlar təqdir qazanır, acı həqiqətlər təqibə uğrayırsa, daha burada sağlam işlərdən söhbət gedə bilməz ki?! Məddahlar zümrəsi yaradan hökmdarlar həm canlı işdən uzağa düşür, həm də yaradıcılığın, idrakın yollarını bağlamaqla canlı həyatı, mənəviyyatı, ağıl dünyasını bir üfunət dumanına bürüyürlər.

O, ailə həyatı üçün də dəyərsiz söhbətlər açır. Arvadım heç də qənimətimdən gözəl deyil.

İntim həyatın mürəkkəbliyi təhlil olunub qurtarmayıb. Amma ümumi qayda var. Qaydasınca ailə həyatı üçün gözəllik götür-qoyları, hamısı qurtarır. Lakin ailədən qıraqda belə gözəl görünən hər şeyin bir adamın götürməsinin də sonuna çatmaq mümkün deyil.

Aqamemnon qarşıdakı ictimai milli problemi bir tərəfə buraxıb söyləyir ki, Axeylilər arasında əliboş, qənimətsiz qalmağım ayıb deyilmi?

Təəssüf ki, şərti vüqar, axmaq ənənə bəlkə də Aqamemnona bəraət qazandırır. Lakin burada onun nəfsi, xudbinliyi daha güclüdür. Axı Aqamemnona deyərlər ki, sən buraya qənimət problemlərini həll etməyə, daha artıq, qənimət toplamağa gəlməmişsən ki?!

Əksinə, burada Atridlər nəslinin şərəfi, əldən gedən səadəti məsələsi var. Bütün Danaylılar – Nestorlar, Ayakslar, Odisseylər, Axilleslər Atridlərin xatirinə buraya bu iş üçün gəlmişlər.

Aqamemnonun nəfsi, xudbinliyi, kütbeyinliyi üzündən qəhrəmanla – Axilleslə sərkərdə Aqamemnon arasında kəskin bir ixtilaf baş qaldırır. Bütün yunanlar üçün törətdiyi çətinlik heç də Allahın göndərdiyindən geri qalmır. Tarixən xeyirin qarşısında şərin meydan sulamasının məğzi burasındadır.

Madam ki, ictimai, milli yükün daha ağır hissəsi şər mücəssiməsi Aqamemnonun deyil, xeyir bələdçisi Axillesin çiyninə düşür, elə hökmü-fərma da xalq qəhrəmanı özü olsun. Məsələ belə qoyulduqda tarixin naqisliyi daha artıq üzə çıxır.

Əvvəla, zahiri bir meydanda Axilles deyil, Aqamemnon olmalıdır. Daha sonra isə meydan Aqamemnona deyil, Axillesə verilsəydi belə, yenə də arzuolunan nəticə alınmayacaqdı.

Naqislik ucundan tarixdə hələ bu günə qədər sürünüb gələn bir qənimət problemi var.

Varlığın özündə bir ruhani vəziyyət müşahidə edilir. Buraya bütün qütbik hərəkətləri daxil etmək lazımdır. Elektrik gərginlik və maqnit sahəsi, ümumdünya cazibə qüvvəsi kimi. İbtidai canlı aləmdə buna intim münasibətlər ünsiyyətə can atma da əlavə olunur. Lakin varlığın heç bir atributunu öz ruhani məndəricəsi ilə insanla müqayisə etmək olmaz. Əsil ruhanilik ondadır ki, hər cür şəraitdə ülviyyətin izi itmir, toxunulmaz qalır, axıra qədər ona qalib gəlmək olmur. Bütün başqa mövcudatda ruhanilik bir ünsürdür. Əsil insanilikdə ruhanilik əsasdır, cismanilik isə qaçılmaz. Təbiətlə bağlılıqdan sürünüb gələn bir ünsürdür. Varlıqda ruhani ünsür şeylərin bağlılığı ilə yanaşı törədiciliyi də təmin edir. Bu törədici ünsür insanda da qalır. Lakin insanda törədicilik yalnız ilkin cəhətdir. İnsan isə törədicilikdən daha artıq yaradıcı varlıqdır. O, işin birinci cəhəti – törədici dünya üçün öz həyatını maddi cəhətdən təmin etməlidir. Buraya məskənlərin salınması və məhsul istehsalı daxildir. Lakin çapqın, qənimət ideyası

nə məskənlərin salınması işinə, nə də məhsulların istehsalına xidmət göstərmir. Əksinə, o, insanları baş-başa gətirərək məskənləri viran qoyur, insanları məhsul yaratmaqdan ayırır, bəşəriyyəti pis bir məcraya salır, qırğın, qan, müsibət, şikəstlik, mənəvi düşgünlük baş alıb gedir. Biz əgər "İliada", "Odisseya" səviyyəsində danışsaq deməliyik ki, orada çapqın, qənimət götürmək istehsalla yanaşı yaşayışın zəruri bir ünsürü kimi özünü göstərir. Lakin bunu tarixə müncər etdikdə bu gün gözəgörünməz tellərlə daha fəlakətli mənzərənin şahidi olarıq. Təkcə müsəlman dünyasını qul vəziyyətində saxlamaq, onlara məxsus sərvətləri xirtdəklərindən çıxarıb udmaq arzusu planetdəki bütün silahlı qüvvələri baş-başa qoyur, bəşər həyatını hədələyir; yalana, həyasızlığa meydan verir, uydurma mədəniyyət sağlam yaradıcılığı az qala bir xərçəng kimi ölümə sürükləyir, beyinlər məngənə arasına alınır, vicdanlar təpiklər altında qalır; qəhər, hıçqırıq, göz yaşları baş alıb gedir.

İdarə aparatı, ticarət kimi çapqın da abadlıq işlərində, məhsulların yaradılmasında bilavasitə iştirak etmir. Lakin çapqın ticarətdən fərqli olaraq əvəzini ödəmədən çalıb-çapır.

Ticarət adamları məhsulların bölüşdürülməsi gedişatında ucuz alıb baha sata, dəyərlə qiymət arasında istehsalın tələbindən doğmayan bir uçurum yarada bilər. Bu dolaşıqlıqdır. Lakin burada hər halda əvəzi ödənilmədən qopartma yoxdur.

İdarəetmə sistemi bilavasitə məhsulların yaradılmasında iştirak etməsə də, orada vicdan, arzu, ehtiras, səmimiyyət, idrak varsa, istehsal gedişatını sürətləndirir.

Dediyimiz kimi, çapqın isə əvəzini ödəmədən götürür, viran qoyur; qan, göz yaşları yaradır; intizamı pozur, marağı öldürür.

Tarixən şərin məzmunu bundan ibarətdir. Biz Aqamemnon şərinə qarşı Axilles xeyrini müdafiə edirik. Lakin orada qənimət problemi o qədər mühümdür ki, Axilles də bu gedişatdan yan keçə bilmir. Yalnız Aqamemnondan fərqli olaraq, Axilles qənimətə, özünə düşən paya ictimai məqsəddən daha artıq əhəmiyyət vermir. Axilles üçün ictimai məqsəd və fəaliyyət əsasdır. Axilles xeyrinin məzmunu bundadır.

Hökmdarın "eyb olmazmı, əliboş qalaram" deməsi və dəbdəbə ideyası avam, nadan bir məkrdir, şərdir.

Hakimiyyət böyük ictimai qüvvəni bir əldə topladığına görə yaradıcılıq üçün geniş meydandır. Dəbdəbə isə bu meydanı sıxışdırır. Əsil insan, xeyir dünyası, hansını götürməlidir: dəbdəbəni, yoxsa

yaradıcılıq aləmini?! Humanizm, məhəbbət, nəvaziş kimi yaradıcılıq da insan ləyaqətinin zirvəsidir.

Yoxsulluqda zahiri bir zəlillik müşahidə olunur. Bəlkə də bu doğrudan da belədir. Ancaq yoxsulluq səbəbinin çalarları idraklı dünyada yoxsulu ictimai töhmətdən xilas etməlidir. Hələ buna üstəlik, yoxsulluqda sadəlik kimi ülviyyət ünsürləri də varsa, hökmdarı bu başdan yoxsulluq qorxusundan çıxarır.

İmkansız adamın yoxsul, adi yaşamasında bir böyüklük gizlənmir. Lakin hakimiyyət vasitəsiylə yaradıcılıq aləminin başında duran adam sadə, yoxsul yaşayırsa, burada nəinki əliboş qalmaq, eyib töhmətinə hədəf olmaq var, əksinə, idrakın gücü, əzəməti daha çox meydana çıxır.

Əgər yaradıcılığa meydan verirsə sadə, yoxsul dolanmaq hökmdarın ləyaqətini, əzəmətini artırır. Tarix bunun şahididir. Heç olmasa, bizim Nadir şahı və ya I Pyotru gözümüzün qabağına gətirə bilərik.

Lakin bu halda belə, tarix xeyirə nisbətən şərin yolunu daha artıq işıqlandırır.

Hakimiyyətin cilovlarını xeyir əldə tutduqda və buna uyğun surətdə hamıya mərhəmət, güzəşt, humanizm əsasında fəaliyyət göstərərkən cəmiyyət həyatı elədir, insani xırdalıqlar, öz-özünə zidd getmələr o qədərdir ki, dərhal tərs nəticə alınır, iflas baş verir.

Ya da xeyirə elmilik, tarixi təcrübə əlavə olunduqda, hətta bir çox hallarda, istibdadın özünü belə üstələyə bilən bir diktatura, idarəetmədə amansızlıq baş alıb gedir. Xeyir hakimiyyətdə olarkən bəlkə də ictimai bir iş görür. Lakin xeyirin özü burada itirir.

İtirmənin məğzi nədədir?

Məsələ ondadır ki, təkcə qaragüruh, avam kütlə, ictimai təbəqələr, xalq, hətta tarix özü belə hipnoz olur, əsil nəticəni hakimiyyətdə görür. Çünki hakimiyyət ictimai qüvvəni bir əldə toplamaqla yanaşı, toplu insanlarla bir nəfər arasında zahiri bir bərabərlik qoyur. Bir halda ki, bir nəfər müstəsna, fövqəl keyfiyyətə malikdir, ona görə də onu bu qədər adamların üstünə hakim qoymuşlar, ölkələrin, işlərin, sərvətin sərəncamı ona tapşırılmışdır. Bu zahiri üstünlüyün daxili ziddiyyətləri və ictimai qütbləşmənin tarixi vəziyyəti haqqında elm izahat vermiş.

Diktatura şəraitində bu hipnoz vəziyyəti ifrata vardırır.

İstibdad şəraitində xudbin ehtiraslar, şəxsi şıltaq ön plana keçir. Burada ictimai imkanlar eqoist düşüncələrin tələbləri baxımından

qiymətləndirilir, hərc-mərclik, mənfəətpərəstlik, meşşanlıq, əqidəsizlik baş alıb gedir. Hər cür şəraitdə, hətta istibdad iqlimində belə ictimai şərtlər yekunda öz hökmünü verirsə, bu başqa şeydir. Fərd özü ictimai əlaqələrlə bağlı olduğuna görə, istər-istəməz onun fəaliyyətinin çox hissəsi ümumi məqsədlərə aparıb çıxarmalıdır.

Diktaturada xudbinlik, nəfs arxa plana keçir. Burada məqsəd yaradıcılıq və ictimai işə xidmətdir. Lakin ictimai yayınma, başıpozuqluq, ümumi tənbəllik adi hala çevrildikdə dövlətin əli ilə başa gələn ümumi yaradıcılıq ictimai işə xidmət, qənaətcillik zəruriyyəti məcburiyyətə aparıb çıxarır. Burada məcburiyyət yumşaq ifadədir. Təzyiq, amansızlıq, kütləvi cəza qaçılmaz şəkil alır. Lakin diktatura dövründə bütün bunlar yaradıcılıq və xidmət məqsədi güddüynə görə, hətta bu işdən ziyan çəkənlər belə, hakimə rəğbət bəsləyir, qurban gedənlərin özündə belə, pərəstiş hissi silinmir.

Xudbin ehtirasların, nəfslərin boğulması, ideal ardınca yürüş, ictimai məqsəd, mütəşəkkillik, fəallaşma, coşğun əmək, yaradıcılıq bir anda böyük işlərə aparıb çıxara bilir. Biz Nadir şahın, I Pyotrun adını çəkdik. Amansızlıqla yanaşı böyük quruculuqların başında dayandığına görə Şah Abbasın, bir çox başqalarının adını çəkə bilərik. Biz ona görə Şah Abbasdan yan keçmirik ki, xalq arasında onun qədər nüfuzu olan ikinci bir hökmdar tapmaq çətindir. Xalq Şah Abbas dövründəki amansızlıqları, kütləvi cəzaları bir tərəfə buraxıb, həmin quruculuqlara görə "Şah Abbas – cənnət məkan" deyir. Lakin bizim şəxsi rəğbətimiz daha çox Nadir Şah tərəfindədir deyə onu ön plana çəkdik.

Bir zamanlar Key Xosrov və ya Dara haqqında belə düşünmüşlər ki, bu adamlar tarixin bu günə qədər nişan verə bilmədiyi şəxslərdir. Tarix bu günə qədər belə bir möcüzənin üzünü görməmiş, bu gün yoxdur, daha dünya belə bir şey yarada bilməz. İsgəndər, Yuli Sezar, Atilla, Böyük Karl, Sultan Mahmud, Çingiz Xan, Topal Teymur, Sultan Süleyman, Napoleon və s. haqqında bir zamanlar belə düşünmüşlər. Hitler öz mühitində Allah hesab edilirdi. Bizdə Stalinə, Çində Mao-Seduna münasibət belə olmuş.

Lakin xeyirlə şərin münasibətindəki dolanbaclıq ondadır ki, məsələn, hər hansı bir dahi alim, ya dahi şair zaman keçdikcə əzəməti artdqca, tarixdə bir möcüzə kimi görünən diktator, hadisələr ötdükdən sonra əzəmətini itirir, dünya hipnozdan ayrılır. Stalini və ya Mao-Sedunu elmi-fəlsəfi yaradıcılığı xilas edir. Vay o gündən ki, yaradıcılığın olmaya, o zaman cırtdan, diktator tarixdə bir dılğır

vəziyyətində qala!.. Hətta diktatura dövründə yaradıcılığı olan adamları hakimiyyətin zəruri ünsürlərindən doğan siyasətbazlıq, yalan, aldatma, minüzlülük, amansızlıq, yersiz cəza tədbirləri müşaiyyət etdiyinə görə yaradıcılığın gətirə biləcəyi ehtiramdan da iyrəndirən amillər meydana çıxır. Ayılan dünya yekunda deyir: böyük adam, əsil xeyirə xidmət göstərən belə işlərə yol verə bilməzdi.

Deməli, xidmətinə görə yunanlar şər olan Aqamemnonu deyil, xeyirə xidmət göstərən Axillesi özlərinə başçı seçməli idilər. Lakin biz vəziyyətin elə deyil, belə olmasında onu gördük ki, tarix xeyirə nisbətən şəri daha asanlıqla həzm edir. İşlərin elə deyil, belə olmasında yuxarıdakı izahımıza görə tarixdə bir mizan var.

Biz ədalət naminə Aqamemnona daha yaxından diqqət yetirməliyik.

Hər halda Aqamemnonun sərkərdəliyi, qardaşı Minelayın padşahlığı seçki yolu ilə başa gəlmişdi. Buna görə də vəziyyət mükəmməl istibdad sayılmamalıdır.

Bir sərkərdə kimi də Aqamemnon adi şəxsiyyət deyil. Təsadüfi deyil ki, Homer Axillesin müqabilində Aqamemnonun naqisliyi ilə yanaşı onun təkbətək vuruşlarını, qəhrəmanlıqlarını vəsf edir, başqaları ilə yanaşı onu da pak, nəcib qəhrəman, allahsifət və s. adlandırır.

Pak, nəcib, allahsifət epitetlərini Homer döyüşdə iştirak edən qəhrəmanların əksəriyyətinə verir. Həm Yunan, həm Troya döyüşçülərinə... Baxmayaraq, tərəflər qarşı-qarşıya dayanmışlar. Homer yalnız nadir halda, nəfsin, iştahanın əsarətinə düşən döyüşçülərdən ifrat rəzilliklə üzləşərkən "nəcib" epitetini əsirgəyir. Məsələn, Troyalılar Dolon adlı döyüşçünü məlumat toplamaq üçün Yunan ordusunun içərisinə buraxırlar. O, şərt qoyur: uğurlu nəticə üçün Axillesin, heç kəsə ram olmayan atları mükafat kimi mənə verilməlidir. Amma bu cür iştaha sahibi ilk təzyiqdə səmtini satır, əks tərəfin qəhrəmanı Odisseyin də istehza hədəfi olur:

"Arzuya bax, Peley oğlu Axillesin atlarını..."

Dolon kimi əllərə səlahiyyət verilsə, mükəmməl bir müstəbid peyda olar.

Odissey sirr toplamağa gedən Dolonun özünün sirlərini əlindən alır, başını da kəsib tullayır. Homer Dolont kimi adamları nəcib, pak, allahsifət epitetləri ilə adlandırmır. Amma ümumi halda qocaman şair döyüşçüləri vəsf etməkdə səxavətli idi. O, yeri gəldikcə Aqamemnonu da vəsf edir.

Biz yuxarıda dedik ki, müstəbiddən fərqli olaraq diktatorun şəxsi keyfiyyətləri də var. O, müəyyən bir fikri həyata keçirərkən amansızdır. Lakin ümumi işi və ya ölkənin xeyrinə bir fəhlə kimi işləməyi, bir əsgər kimi düşünməyi də bacarır. Biz Aqamemnonu quruculuq şəraitində müşahidə edə bilmirik. Lakin hərbi vəziyyətdə o, təkbətək döyüşdən çəkinmir, vuruşun qızğın yerinə atılır, təkbətək meydana çıxır; qırır, tökür və özü də yaralar alır. Belə adam dinc dövrdə əliqabarlı görünməkdən çəkinməz.

Müstəbid belə olmur. Müstəbid deyir ki, özüm işləsəm, özgələri işlədə bilmərəm. Mənim vəzifəm hakimiyyət vasitəsiylə təsir göstərməkdir. Bu təsirin də sonu çox vaxt yersiz şaqqalamalara, mənəvi eybəcərliyə gətirib çıxarır. Xalq ölür, ölkə viran qalır.

Müstəbid özü işləmək istəmir. O, xalqın üzərinə "it" buraxır. Amma xalqın üzərinə yeriyib söyləyir ki, siz bir mələklərə tamaşa edirsinizmi? Bu itlər isə xalqın gözünə çinovnik, ya əyan kimi görünür. Bu cəhətdən Aqamemnon seçilir. O, öz qövmü, öz mühiti ilə birlikdədir və dediyimiz kimi çəkinmir.

Diktatorun fəaliyyətinə hərəkətverici qüvvə ideyadır, ictimai məqsəddir. Müstəbidsə nəfsinin quludur. Müstəbid bütöv ölkəyə, külli xalqa nəfsinin tələblərini ödəməli olan imkan kimi baxır. Guya ölkənin dəyəri ondadır ki, o bir rəzilin nəfsini ödəyir. Ülvi sifətlər, vətənpərvərlik bu baxımdan qiymətləndirilir. Müstəbidin nəfsinə tabe olmaq, onu ödəmək xalqın müqəddəs vəzifəsidir.

Aqamemnon ölkənin, ümumi mənafenin, dostunun xatirinə Xirisin qızından şərtsiz-qeydsiz əl çəkə bilməməsində müstəbidlərlə qohumluğu olduğunu büruzə verir.

Amma bu gedişdə Aqamemnon nəfsi ilə yanaşı, adətə də təlqin olunur. O, heyvani düşüncələrin təsiri altında Xirisin qızı kimi ağzı sulandıran bir tikədən asanlıqla əl çəkə bilmir. Başqa tərəfdən də "mən sərkərdə əliboş qalaramsa, el nə deyər, mənə gülməzlərmi?" kimi güman edilən nadan bir töhmət. Bu baxımdan Aqamemnon nəfsi cəhətdən də mükəmməl bir müstəbid deyil.

Lakin vəziyyətin tərzində istibdadı əsaslandıran cəhətlər var. Aqamemnon şəxsi qüdrətin deyil, hakimiyyətin verdiyi səlahiyyətdən istifadəylə haqsız bir tədbiri başa gətirir. Başqa tərəfdən, həm nəfsinə təlqin olaraq, həm də nadan bir ənənənin nəqli ilə tutduğu tikəni buraxmır və ya həmin məqsədlər üçün şərtlər irəli sürür. Bu da müstəbidlərə məxsus azğınlığa meydan verir, yunanlar da, yəni

ictimai məqsəd, ümumi iş də ziyan görür. Əfkari-ümumiyyə isə təsirli bir müdaxilə edə bilmir. Biz də bunu deyirdik!

Biz də bunu deyirdik ki, tarixin bu günə qədər müşahidə edilən inkişaf sütunlarından biri budur ki, dünya xeyirə nisbətən şəri daha asanlıqla həzm edir.

Xeyir-şər hesabının Axilles taleyindəki bu dolanbaclıq, daha bir Yunan qəhrəmanının – Heraklın həyatında da baş verir.

Biz oxşar cəhəti asanlıqla izləyə bilərik.

Herakl şərə bənzər qüvvələrin tədbiri, fitnəsi ilə cılız, cır səsli hökmdar əmioğlusu Evrisfeyin məzmunsuz sərəncamlarını yerinə yetirməli idi.

Bu sərəncamların başa gəlməsinin bir dəfə də dünya üçün müstəqil mündəricəsi yox idi. Lakin möcüzə onda idi ki, adi şəraitdə bu sərəncamların həyata keçirilməsi, başa gəlməsi ağla sığmırdı.

Amma Heraklın gücü, qüdrəti ondadır ki, o, bu sərəncamların hamısını həyata keçirir, həm də deyinmədən, narazılıq etmədən, itaətkarlıqla həyata keçirir.

Evrisfey padşah idi. Lakin Herakldа elə ilahi qüdrət vardı ki, dirəniş göstərmək arzusuna düşsəydi, Evrisfeyin hakimiyyəti bu təzyiqə tab gətirməzdi.

Herakl onunla fərqlənirdi ki, o, həm qüdrətli idi, həm də üzüyola.

Həyat, tarix elə qurulmuş ki, mütləq şər qüvvələrə dirəniş göstərmək lazım gəlir. Hər halda cinayətlər, qəbahətlər dünyasına qarşı bir xalq, bir tərəqqi cəbhəsi gərəkdir. Tarixən bu cür dirəniş cəbhəsi Herakllar, Axilleslər, Koroğlular tərəfindən başa gəlir. Axillesdə öz qüdrəti ilə birlikdə yarım dirəniş, Koroğluda tam dirəniş müşahidə edilir. Herakl isə tam itaətkardır.

Bəlkə tam dirənişlə, tam itaət eyni şeydir?!

Hər halda taleyin hökmü ilə Herakl 12 qoçaqlıq göstərməli idi ki, azadlıq əldə edə bilsin. Tarixin və təfəkkürün yaratdığı bir çox qəhrəmanlar bu və ya başqa cəhətdən bu və ya başqa dərəcədə bəşəri keyfiyyətlərə malik olurlar. Herakl isə bu boyda qüdrəti ilə yanaşı, itaəti, mərhəməti, məhəbbəti, kimsizliyi ilə dinməz-söyləməz 12 qəhrəmanlıq göstərib azadlığa çıxmasında bütövlükdə bəşəriyyəti təmsil edir. Bu cəhətdən o, adlarını müqayisə üçün çəkdiyimiz Axilles və Koroğludan da fərqlənir.

Bunlar hamısı zahirən, bir-birinə bərabər, bir-birilərinə layiq qəhrəmanlar kimi görünürlər. Lakin Herakl xeyirə və şərə eyni

dərəcədə itaəti, həm də mənəvi müvazinətinin sabitliyi, mənəvi dözümü ilə seçilir. Bəşəriyyət kimi.

Üst-üstə götürüldükdə bəşəriyyət əsasən zəifləri, rəzilləri başının üstə qaldırmış, bu qüdrətdə varlıq cılızların, miskinlərin, cır səslilərin qərarlarını həyata keçirməli olmuş. Herakl Evrisfey münasibətləri kimi.

Herakl Evrisfey miskinin cır səslə verdiyi əmrlərlə 12 qəhrəmanlıq göstərdi və azad oldu. O, axırıncı dəfə üçbaşlı köpək, – goreşəni bu dünyaya gətirməli oldu.

Bəşəriyyət bu qəhrəmanlıqlardan neçəsini göstərmiş ki, insanın adına layiq qaydasınca həyatın hələ nə izi var, nə tozu?! Görəsən dünyanın goreşənlərin yaxasından tutub dərisini boğazından çıxaracağı günə çoxmu qalmış?

Bu gün elmi-texniki tərəqqidən, firavanlıqdan ürəklə danışmaq mümkündür. Lakin adam xırdalıqları, şərin hökmləri daha artıq tüğyan edir. Goreşənlər məişətdən tutmuş idarəetmə sistemlərinə qədər hərtərəfli dəbərmiş, baş-başa dayanaraq dünyanı ölümlə hədələyir.

Ölüm bu gün üçün nisyə, sabah üçün bəlkə də nəqddir. Lakin gündəlik həyatımızın, fəaliyyətimizin cilovları goreşənlərin əllərində qalmış...

Herakl qüdrətlidir. O, mərhəmətli, məhəbbətli, humanistdir, dözümlüdür və itaət göstərir. O, Evrisfeyin əmrlərini yerinə yetirir və deyinmir. Lakin onun əvəzinə Homer "Odisseya"sında bir münsibətlə bizimlə səsləşir.

Uzun macəralardan sonra Odissey vətənə dönmək üçün müəyyən tədbirlərlə o dünyaya köçmüş adamların ruhları ilə görüşə bilir. Bunların biri də Herakl olur. Həm də maraqlı burasıdır ki, Herakl Odisseyin o dünya əhli arasında görüşdüklərinin axırıncısı idi. Axı bu Homerə edilmiş əlavəyə və ya sonrakı əlavələrə görə belədir. Mifologiyada isə xidmətlərinin və təmkininin yekunu kimi Herakl ölməzlər sırasına keçir. Amma görüş zamanı Herakl bu dünyadakı məntiqsiz taleyi üçün o dünyaya deyinir:

*"Zevsin oğlu olsam da mən, başıma çox bəla gəldi,*
*Məndən çox-çox ləyaqətsiz bir adama tabe olub,*
*Hey yerinə yetirməli oldum onun buyruğunu*
*Əmr etdim ki, bu dünyadan it aparım onun üçün.*
*Düşündü ki, bu icrası mümkün olan bir iş deyil.*
*Lakin hünər göstərərək iti burdan apardım mən."*

*(Homer, "Odisseya", Bakı, 1977. səh. 162).*

Herakl burada açıq-açığına deyir ki, məndən çox-çox ləyaqətsiz bir adama tabe oldum. Bu, Homerin və ya dastanın üzü köçürülərkən əlavələrin Heraklında belədir. Göylərin tərtib elədiyi fikirlərdə isə Herakl deyinmədən, dinməz-söyləməz itaət göstərir.

Əslində mifologiyada Heraklın taleyinin gərdişi belə gətirsəydi də, o, Evrisfeyin əmrlərini yerinə yetirməkdə tamamilə sərbəst idi. Herakl ana yurdunda qalıb öz yaşıdları ilə gənclərlə birlikdə sərbəst, nəşəli, şən, coşğun bir həyat da keçirə bilərdi. Hər halda o da şahzadə idi. Özgə torpağında yaşayırdı, şəxsi qüdrəti isə bir ölkənin padşahının əlində toplanan ictimai qüvvədən zəif deyildi.

Herakl Fivada böyüyürdü. Lakin taleyin gərdişi ilə, allahların onun üçün əvvəlcədən müəyyənləşdirdiyi qərarla o, müəyyən yaşda, gənclikdən kamala keçmə dövründə Fivadan baba yurdu Arqosa qayıtmalı və əmisi oğlu padşah Evrisfeyin əmrlərini yerinə yetirməli idi. Herakl Evrisfeylə yaşıd idi. Burada saat, dəqiqə və hətta saniyə fərqindən söhbət gedirdi.

Allahların qərarı belə idi.

Lakin yunan allahları başqa allahlardan, məsələn, yəhudilərin, xristianların, müsəlmanların mütləqiyyətçi allahlarından xeyli insaflı idilər. Onlar hökm verirdilər, lakin başqa yol da qoyurdular. Onlar deyirdilər ki, biz sənin üçün çətin yol seçmişik. Amma sənin qabağında asan yol da var. Yollardan hansı ilə getmək sənin öz işindir. Zira, onu bil ki, bizim sənə müəyyən etdiyimiz yolda əzəmət var.

Zevs Prometeyi də odu insanlara daşıdığına görə cəzalandırmışdı. O, öz əməlini əsaslandırmaq üçün söylərdi. Mən istəyirdim ki, bəşəriyyət daha çətin yol keçsin və daha möhkəm, daha hünərli olsun.

Biz insanı daha qüdrətli görmək istərdik. Bizim arzu və ümidimiz baxımından insanın bugünkü pintiliyi üçün Zevslə razıyıq. Lakin insanın keçəcəyi daha müsibətli yollar da ola bilərdimi?!

Allahlar Axillesin də qarşısında iki yol qoymuşdular. Ona qəhrəmani, şərəfli və qısa ömür təklif olunurdu. Burada qəhrəmani və şərəfli yol tarix baxımından özünü doğrulda bilər. Sırf insani cəhətdən isə bu şərəf şübhə doğurur.

Əgər Axilles xalqlar, ordular üz-üzə durarkən Troya qəhrəmanı Hektoru öldürməkdən imtina etsəydi, sakit, xoşbəxt, uzun ömür sürə bilərdi. Lakin Axilles üçün Hektorla təkbətək döyüşdən, onu həlaka yetirməkdən imtina mümkün deyildi. Hər şeydən əvvəl, Axilles

prinsipcə buna məcburdu. Axillesin əmioğlusu Patroklun əli ilə həlaka yetmişdi. Vəziyyət onu intiqama çağırırdı. Daha sonra isə yunan ordusu Hektorun əlində aciz qalmışdı. Axillesə də tale tərəfindən xəbər verilmişdi ki, Hektoru öldürsən, başqa bir əllə də ömrün tamam olacaqdır.

Hikmətli dilemmadır! Tale güclü tərəfə qarşı zəifi müdafiəsiz qoymur.

Axillesi fədakar, qəhrəmani addıma şöhrət arzusu təhrik etmir. Prinsip onun ruhunda qarşısıalınmaz ehtiraslar oyadırdı. O, öz təbiətinin, onu sürükləyən ehtirasların qulu idi. Bu təbiət, bu ehtiras idraka da uyğun gəlirdi. Lakin qəhrəmani fəaliyyət, ömrü qısaltmaqla yanaşı, həm də şərəfə çatdırırdı.

Tarix, bəşəriyyət, gündəlik yaşayış tərzi xeyirə nisbətən şəri asanlıqla həzm edir. Lakin xeyir də əvəzi ödənilməyən haqqın yerinə şərəfli bir istiqamət götürür.

Herakl müəyyən yaşa çatanda Arqos hökmdarı və əmioğlusu Evrisfey onu hüzura dəvət etdi. Dostları, yoldaşları Heraklı burax-maq istəmədilər. Heraklsız yaşayış, güzəran, əyləncələr sönükləşərdi. Herakl da tərəddüd edirdi. Məsələ qarşıda duran vəzifələrin çətinliyində deyildi. Herakl vərdiş etdiyi mühitdən ayrıla bilmirdi. Daha artığı isə cılız bir nəfərə tabe olmaq, onun düşüncəli və düşüncəsiz əmrlərinə tabe olmaq həqarətli idi.

Axillesə qarşı Aqamemnonu insanların seçki prinsipi fərqləndir-miş, hakimiyyət vermişdi. Biz hakimiyyətdə fərqli cəhət görmürük. Lakin hələlik əfkari-ümumiyyə belə fərqləndirir, belə güman edir. Xeyirə nisbətən şərin meydan sulamasının sirri bundadır. Herakla qarşı Evrisfeyə hakimiyyət verilməsində isə allahlar iştirak edirdi.

Yekun isə birdir. Şər üstünlük əldə edir və meydan sulayır.

Lakin əsil yekunda Xeyirin qisməti möcüzəlidir. Heraklın ömrü bu gedişata, dolanbaclığa dolğun cavab verir. Heraklla bağlı əfsanələrdə göylərin göndərdikləri ilə yanaşı, sonrakı bəzi əlavələr də müşahidə olunur. Bu əlavələrin də hamısı rəmzlərlə, mənalarla doludur – yunan əsatirlərinin bütün variantları kimi. Lakin hər bir əsatirin (məsələn, Prometeylə, Heraklla, Arqonavtlarla, Troya ilə bağlı) ilk variantla yanaşı, sonradan yaranan çoxlu əlavələr müşahidə edilir. Biz bu əfsanələrə müraciət edərkən çalışacağıq ki, ilk variantı dürüstləşdirək və həmin əsasda fikirlər yürüdək. Çünki hər bir variant doğrudan da bəşəri mündərəcə daşısa da, dərin mənalarla

dolu olsa da, ilkin variantın aşıladığı ideyalar daha möhkəm, daha ibrətli və ilahidir.

Məsələn, Herakl o dünyadan gedib üç başlı köpək Kerberi gətirərkən axirət aləmində bir sıra insanların kölgəsi ilə, o cümlədən dostu Meleaqra ilə rastlaşır. Dostu Herakla söyləyir ki, mənim işıqlı dünyada bacım qalıb, ona evlən. Burada sən dostluq vəzifələrini yerinə yetirər və hər ikiniz səadətə çatarsınız. Herakla layiq səadəti ailədə mənim bacım başa gətirə bilər.

Herakl Zevslə, Hera ilə, Evrisfeylə, – bəşəriyyətlə, tarixin naqislikləri ilə, insanın zəiflikləri ilə bağlı vəzifələri yerinə yetirdikdən sonra öz şəxsi həyatına qayıdır. O, dostu Meleaqranın bacısı Deyarinanı tapır və onunla evlənir.

Lakin bir çox variantlarda Meleaqra Heraklın dostu yox, qadın olaraq Heraklın arvadı kimi təqdim edilir. Burada daha Heraklın əsil arvadı Deyanira haqqında söhbət belə gedə bilməz. Halbuki Heraklın taleyinin mənalı, ilahi yekunu arvadı Deyanira ilə bağlıdır.

Herakllа bağlı əsatirin ilk variantında qəhrəman onun üçün əvvəlcədən müəyənləşmiş vəzifələri başa çatan təki şəxsi həyatına qayıdır. Böyük xidmətə mükafat kimi layiqli bir səadət başa gələ bilərdi. Lakin görünür, Herakl həm hakimiyyət və həm də səadət üçün yaranmamışdı. Sanki o, heç yer adamı da deyildi. Herakl göylər üçün yaranmışdı. Ona görə də onun heç bir aqibəti Yer sakinləri ilə uzlaşmırdı. Bu istiqamətdə təşəbbüslərin içindən heç bir şey çıxmırdı.

Ona görə də Herakl Deyanira ilə evlənib səadətə çatanın ardınca ömür qırıla bilərdi. Lakin xeyir mücəssəməsi olan Heraklın Yerdə baş tutmayan həyatının ardınca Göylərə layiq səltənət başlayır. Allahlar Heraklı o dünyaya getməyə yol vermirlər. Layiq olduğuna görə onu öz yanlarına götürürlər. Herakl hakimiyyəti və səadəti itirir. O xidmət göstərir və əbədiyyətə çatır. Bu, ümumbəşər həyatı baxımından arzuediləndir, ya arzuedilməzdir, bununla işimiz yoxdur. Lakin biz ilkin, dəqiq variant bunu hesab edirik. Herakllа bağlı əsatirin əsil məndəricəsi də işlərin bu cür yön götürməsindədir.

Lakin bir çox variantlarda Herakl məcburi qoçaqlıqlar seriyalarını başa çatdırdıqdan sonra həyatının başqa dövrü başlayır. Herakl sonralar çoxlu qoçaqlıqlar edir, döyüşlər, müharibələr, qələbələr baş alıb gedir. Bunlar isə Herakl ideyasına uyğun deyil.

İlkin variantda Herakl qoçaqlıqlarının mənası ondadır ki, o, bəşəriyyəti düşdüyü müşküldən xilas edir.

Herakl güclüdür – buna söz ola bilməz. Heraklın arxasında Zevs – Allah dayanmış. Bu cəhətdən də Heraklın qələbələri təmin edilmiş. Lakin Heraklın mənası ondadır ki, onun itaəti, məhəbbəti, güzəştləri, bağışlamaları, fiziki imkanlarından daha böyükdür. Herakl Zevsə nisbətən daha böyük Allah ideyasını ifa edir.

Zevs qüdrətlidir, riyasətpərəstdir, yaradıcıdır. Lakin o, şəxsi həyatına da eyni dərəcədə bağlıdır. Zevs bacardıqca öz nəfsindən güzəşt etmir, hüdud qoymur, onda həyat nemətlərindən imtina yoxdur.

Heraklda isə insana, ünsiyyətə, xilas etməyə, pərəstişə, məhəbbətə elə böyük meyil var ki, daha burada nəfsin təhrikinə güc verən heyvani ehtiyaclara yer qalmırdı. Ona görə də ümumi baxımdan Herakl həyata imtina ilə başlayır.

Hələ o, beşikdə ikən təhlükə qarşısında özünü və qardaşını zəhərli ilanlardan xilas edir.

Herakl güclüdür. Lakin Heraklın qüdrəti qolundan çox, qəlbindədir. Variantlarda Heraklın sonrakı dövr qəhrəmanlıqları isə fiziki gücə əsaslanan adi qoçaqlıqlardır – döyüş qoçaqlıqları.

Bəzi variantlarda Heraklın məcburi qoçaqlığının 12 yox, 10 (on) olduğu göstərilir. Guya Herakl bəzi (iki) qoçaqlıqlarında ikinci nəfərdən, dostu və əmisi oğlu İolayın köməyindən istifadə etmiş. Burada guya şərt pozulmuş. Ona görə Allah onun göstərdiyi qoçaqlıqlardan ikisini hesaba almadı. Herakl da on iki deyil, on qoçaqlıq göstərməli oldu.

Halbuki Heraklın öz qoçaqlıqlarında İolaya ehtiyac hiss etməsində daha böyük məna var. Burada "tək əldən səs çıxmaz" ideyası Herakl – Zevs – Hera – Evrisfey əhvalatında da təsdiq edilir.

Söhbət heç də qoçaqlıqların sayında deyil, bəşəriyyətin ilişib qaldığı müşküllərdədir. Bu müşküllər bəşəriyyəti qəhrəmanlıq yoluna sürükləyir. İndi ki, belədir, dünya da Heraklın 12 qoçaqlığına vərdiş etmiş. Yəqin ki, ilk variant da belədir. Biz də hər yerdə ilk varianta üstünlük veririk.

Variantlarda Heraklın huşsuzluq ilahəsi Ate ilə bağlı əhvalatlarına da işarələr var.

Göylərin göndərdiyi variantda Herakl Heranın hiyləsi ilə hakimiyyətdən məhrum edilmişdi. O, həyata keçirilməsi müşkül vəzifələri yerinə yetirməli idi. Vəzifələr başa çatan təki Heraklın məhəbbətli ailə səadəti müşahidə edilir. Lakin bu səadət dayanıqsız olur. Herakl eşq, səadət, ailə camını nuş eləməmiş bir xəyanət səadəti müsibətə

çevirir. Ahəngdar, ülvi ailə sevinci yarımçıq qalır. Alkmena aldanaraq sevimli, məhəbbətli, ləyaqətli, qüdrətli ərinə xəsarət yetirir. Lakin ayılarkən vəziyyəti islah eləmək mümkün deyildi. Alkmena arsızlığa yer vermir, o, özünü öldürür. Görünür, Alkmena hardasa ərinə layiq imiş.

Xəbər gəlib Herakla çatır.

Herakl hələ dünyaya gəlməmiş bir hiylənin yekunu kimi ata qayğısından məhrum olur. Bunun ardınca hakimiyyət əlindən alındı. Dərhal onun boynuna elə vəzifələr düşdü ki, daha o həyatı nuş edə, gənclik əyləncələri ilə coşub daşa bilməzdi.

Vəzifələr başa çatmışdı. İndi o, səadəti nuş edə bilər. Lakin xəyanət səadəti də onun əlindən aldı. Əgər ömrü bütöv şəkildə həyat nemətlərindən əl çəkib xidmətə qoşmaq da dünyanın daş qəlbini yumşaltmayacaqsa, varlığın dar gözləri dərya xidmətə qarşı üskük (bir üskük xalis səadət dünyaya bərabərdir) səadəti çox görəcəksə, yaşamağına dəyməz.

Dünya ilə əlaqəni üzmək olmaz. Hər hansı bağlılıq, təmas isə heraklları xırdalayır, dargözlər, daşqəlblilər dünyasına qərq edir.

Herakl hakimiyyətdən məhrum edilərkən səs-səmir salmadı. Cılız bir nəfərə də axıra qədər itaət göstərdi. Halbuki Herakl o qədər qüdrətli, məhəbbətli, idraklı idi ki, məcburiyyət qarşısında hər hansı bir dövlət aparatına dirəniş göstərə bilərdi.

Hər şey arxada qalmışdı. Herakl bir ödül (mükafat) kimi ailədə dost tapmışdı və səadətə çatmışdı. O yaşayırdı. Lakin dərhal bu da əlindən alındı.

Heraklın, heç olmasa indi, səsini ucaltmağa haqqı vardı. Ancaq Herakl bu dünyadan umub küsməyi ağlına gətirmədi. Sanki o bilirdi, Yerlər üçün yaranmayıb. Göylər adamıdır. Herakldakı Yerdən imtina, təmkin, məhrumiyyətə və müsibətə dözüm o qədər qüvvətlidir ki, Zevs başda olmaqla bütün Allahlar, onun tərəfinə keçir. Hətta əleyhdarı Heranın da ürəyi yumşalır. Zevs isə Heraklın allahlar arasına götürülməsinə razılıq verir, İlahə özü belə onu təbəssümlərlə qarşılayır.

Bununla da Heranın Herakla qarşı bütün iddiaları başa çatır.

Variantlarda isə Hera Heraklı axıra qədər izləyir, xüsusən ailə həyatında. Herakl güclü, qüdrətli idi. Amma o, heç bir zaman öz gücündən yaxın adamlara qarşı istifadə etmirdi. Belə bir şey heç onun ağlına da gəlmirdi. O, doğma adamlara qarşı özündə üstünlük görmürdü. “Mən”, “sən”, “biz”, “siz” ayrılığı yox idi. Variantlarda

Hera Heraklı doğmalar arasında, ailədə şən, xoşbəxt görən kimi huş, yaddaş Allahı Ateni yanına çağırır və onun vasitəsi ilə Heraklın dinc həyatını pozurdu.

Halbuki Heraklla bağlı mifologiyada göylərin göndərdiyi variantda Atedən bircə dəfə istifadə olunur. Və bu ilkin variantda Ate ilə bağlı əhvalat, onun bu bir dəfə gördüyü iş, tarix, bəşəriyyət baxımından çox ibrətlidir.

Hər cür allah ideyası ziddiyyətlidir, yarımçıqdır. Bu o qədər aydın həqiqətdir ki, onu çalarlı izaha da ehtiyac duyulmur. Təkcə bir şərt bəsdir. Mükəmməl, təkallahlı dinlərdə deyilir ki, Allah hər şeyə qadirdir. Hər şeyin başlanğıcı, yaradıcısı və sahibidir. Deyilir ki, o, xeyiri himayə edir, şərin əleyhinədir.

Əgər hər şeyin yaradıcısı, hər şeyə qadir Allah Şərin əleyhinədirsə, dünyanı başlanğıcdan elə birrəngli xeyirdən ibarət yaradaydı; başlanğıcda şərdən əsər-əlamət olmayaydı.

Lakin təhlil başlayan kimi dilemma açılmağa yönəlir...

Hər cür Allah ideyası ziddiyyətlidir. Xüsusən də yunan allahları...

Zevs ailənin intim bağlarından qırağa çıxır. O, Fiva çariçası gözəl Alkmena ilə əlaqədə olur. Sonralar onun halal arvadı Heraya da bu əhvalatın sorağı çatır. Hera əri Zevsə müəyyən ziyan vurmaq, əhvalını pozmaq qərarına gəlir. Hera buna ən yaxın vasitə – Zevsin Alkmenadan olacaq övladını ən azı bir anlığa valideyn qayğısından məhrum etmək qərarına gəlir. Bunun üçün Hera Alkmenanın doğum dəqiqələri yetişəndə huş Allahı Atenin vasitəsiylə Zevsi yadaşdan məhrum edir.

Burada yenə Zevs ideyasının ziddiyyəti meydana çıxır. O necə Allahdır ki, onun huşunun oğurlanması mümkün olur? Lakin dedik, bu faktın üstündə dayanmaq bizim mövzumuza daxil deyil.

Ate zəruri anda Zevsin huşunu oğurlayır. Herakl da hələ dünyaya gəlməmiş valideyn diqqətindən məhrum olur.

Herakl ata səhlənkarlığı üzündən hakimiyyəti itirir, tabe vəziyyətə düşür.

Herakl ideyasının müqabilində hakimiyyət solğun bir şeydirsə, bu tamamilə başqa bir məsələdir.

Zevs səhlənkarlıq edir, huşunu oğurladır. Bununla da övladın qisməti əldən çıxır. Amma Zevsin huşu özünə gələrkən qəzəblənir. Heraya xəbərdarlıq edir ki, bir də belə şeyə cəsarət göstəməsin, yoxsa müəyyən haqqı və hüquqları da onu amansız cəzadan qurtarmaz. Ateni isə Zevs allahların məkanından götürüb aşağı tulla-

yır. Ate başı üstə yerə çırpılır. Və o gündən də Ate insanlar arasında qalıb fitnə-fəsadla məşğuldur.

Vəssalam! İlk variantda Ate ilə bağlı əhvalat bununla bitir. Bu ideyanın böyüklüyü ondadır ki, böyüklər, səlahiyyətli adamlar nəfslərinə qapılarsa, mütləq bir şər törəməli, diqqətləri yayınaraq çolaqlıq əmələ gəlməlidir.

Sonrakı variantlarda isə Ate sıx-sıx Heraklın ailə həyatına soxulur. Ate Heraklın huşunu oğurlayır. Bununla da ardıcıl ailə qalmaqalı başlayır. Burada da özlüyündə ideya var! Ondan ibarətdir ki, ailə qalmaqalı ağlın zəifliyinə, huşun yarımçıqlığına, şərə əsaslanır. Bu var. Bu diqqətə layiq ideyadır. Lakin Atenin ardıcıl surətdə Heraklın huşunu oğurlaması ideyası Heraklı Herakllıqdan məhrum edir. Burada Herakl ideyasına ziyan dəyir.

Herakl ideyasının böyük mənası Heraklın bütövlüyüdür. Zevsin özündən də!

Herakl Allah deyil, insandır. Lakin Herakl mükəmməl şəxsiyyətdir. Ona görə də o, idrak və xidmət vasitəsiylə göylərə üz tutdu.

Variantlarda dəqiqləşdirilməyə ehtiyacı olan daha bir əhvalat var. O da bundan ibarətdir ki, bəzi variantlarda Herakl Medeya ilə evlənir. Bu evlənmədə nə isə bir ideya gizlənməlidir.

Medeya "Arqonavtlar" mifologiyasının iştirakçısıdır. Yazon – Medeya qolu bu mifologiyanın özəyini təşkil edir.

Bütövlükdə "Arqonavtlar"la bağlı ideya, Yazon taleyinin çalarları daha böyükdür. Lakin çox vaxt "Arqonavtlar"dan Medeyanı ayırmış, ona sıx-sıx müraciət etmişlər. Beləliklə, Medeya ayrıca ideyaya çevrilmiş.

Bu variantlarda Medeya çılğın, intiqamçı qadın kimi diqqəti cəlb edir. Onda bu çılğınlıq, intiqamçılıq o qədərdir ki, Medeya öz "məqsədi" naminə övladlarını belə, qətlə çatdırmağadək varır.

Bəlkə də Yazon-Medeya qolunda ailə müşkülünün həll olunmazlığına işarə var?! Axı, Yazon-Medeya ailəsi məhəbbət, razılıq və qarşılıqlı saziş əsasında qurulmuşdu. Bu məhəbbət çətinliklə mübarizədə qazanılmışdı. Üstəlik, arada haqq-say da var idi. Bütün bunlar indiki şəraitdə ailə müşkülünü yumşalda, ailədə səadəti üstələyən bədbəxtliyin qarşısını ala bilmədi.

Yazon-Medeya əhvalatlarında riyasət arzularının axıra qədər səadəti üstələməsini də axtarmaq mümkündür.

Bütün bu mülahizələr haqlıdır və axtarışda öz yerini tutardı. Lakin o mifologiyada ki, Herakl Medeya ilə evləndirilir, burada Medeyaya münasibət dəyişilir. Bu ailə sazişində Medeya Herakla bərabər tutulur.

Necə?! Haqlı olsa belə, övladını qətlə yetirən intiqamçı bir qadınla, bütöv həyatdan imtina edən, gündəlik işlərə yaramayan, xidmət və böyük işlər üçün yaranan Herakl Medeyaya bərabər tutulur?

Heraklın və Medeyanın bərabər tutulması üçün Medeyaya çılğın, intiqamçı qadın kimi yox, ailə ülviyyətinin mücəssəməsi təkin baxmalıyıq. Burada ailədə əxlaq, sədaqət, məhəbbət bütöv tələb olunur. Bu tələb o qədər böyükdür ki, o pozulduqda hər şey, hətta övladlar da ləğv edilməlidir. Ailədə əxlaq, sədaqət, məhəbbət bəşər həyatının məndəricəsini, mənasını təşkil edir. Nəhayət, bəşəriyyət heyvanlığa, naqisliyə nifrət edib bu pilləyə qədəm qoymalıdır. Ya da belə hesab eləməlidir ki, o yaşamır, güzərana pərçimlənibdir, başını girləyir. O, yarı heyvan, yarı insandır. Bəşər övladı heyvanlar arasında insanlara, Heraklllar, Medeyalar arasında murdarlara, nəfsinin əsarətinə düşənlərə, hakimiyyətdə səadət axtaranlara, heyvanlara bənzəyir.

Herakl – Medeya qolunda belə bir ideya gizlənmiş.

Bu ideya böyükdür, əhəmiyyətlidir, yaxud kiçikdir, əhəmiyyətsizdir, bununla işimiz yoxdur.

Məsələ ondadır ki, Herakl – Medeya ideyası göylərin göndərdiyi qolda ola bilməz.

Göylərin göndərdiyi qolda Herakl məcburi xidmətləri başa çatandan sonra Kalidon çarı Meleaqrın bacısı Deyanira ilə evlənir. Herakl ailəyə və səadətə çatmışdı. Lakin bunun ardınca dərhal Heraklın yer həyatı başa çatır və o göylərə çəkilir.

Yer adamını göylərə hansı yollar aparmışdı?

Heraklla bağlı mifologiyanın hər rəmzi mənalıdır. Dediyimiz kimi, bu rəmzlərdə tarixin keçib gəldiyi yolla cəmiyyət həyatının vəhdətindən ibarət dünyanın bütün gedişatını ifadə edən özülün xəbərləri var, həm ümumi ideyada, həm də ayrı-ayrı əlaqədə!

Bütün təfərrüatı izləmək indicə müşkül deyil. Həm də mənalar çalarlıdır. Bir hadisə indicə bu mənanı kəsb edər, sonra başqa. Hadisə birinə bu, o birinə başqa bir ibrət dərsi verir. Bir çoxlarına isə heç bir təsir göstərməz.

Ayrı-ayrı hallardan bəzi hadisələri xatırlayaq.

Herakl hələ birinci qoçaqlığında meşədəki qeyri-adi şiri öldürür.

İnsan və şir – adi halda fərdi güclər bərabər deyil. Lakin istisnalar var. Elə adamlar müşahidə edilmişdir ki, fiziki gücü ilə şirləri basa bilmişlər. Lakin Heraklın birinci qoçaqlığında öhdəsindən gəldiyi şir adi yırtıcılardan deyildi. O, insana qarşı dayanan dünyanın əlamətlərindən biri kimi sehrli idi. Ayrıca adamın adi yollarla onu həlak etməsi ağla sığmazdır. Amma Heraklın mənası ondan ibarətdir ki, o, qeyri-adi işləri başa gətirirdi. Herakla əsarətdən – "qulluq həlqəsindən" qurtarmaq üçün müşkül vəzifələr tapşırılmışdı (bəşəriyyət də bütün tarix boyu məhz bu cür mənasız müşküllərlə üzləşmiş). Bu müşküllərlə üzləşmək hər bir qüvvəni sıradan çıxara bilər. Lakin Heraklın fərqli cəhəti onda idi ki, o, müşkülləri həll edirdi.

Doğrudur, Herakl qoçaqlıqlarının arxasında Allah – Zevs özü dayanmışdı. Heraklın qarşılaşdığı çətinliklər nə qədər qarşısıalınmaz olsa da, müşahidəçini ümidsizliyə salsa da, həyəcana səbəb olsa da, onun qələbələri əvvəlcədən, Allah tərəfindən təmin edilmişdi. Belə olduqda, əslində onun göstərdiyi hünərlər qəhrəmanlıq hesab edilməməlidir. Lakin bu qədər qüdrətli, hünərli, kamil, mərifətli, humanist, zabitəli, ağıllı adamın yelbeyinin, əfəlin, zəifin, cılızın birinə tabe edilməsi, tabe vəziyyətə düşməsi, onun sərəncamlarını sözsüz yerinə yetirməyə məcbur olması və hövsələdən çıxmadan, itaətlə, təmkinlə başa gələn vəzifələr Herakl qəhrəmanlığını təmin edir. Herakl allahlaşır. Bəşəriyyət kimi!

Hər cür hakimiyyətə, riyasətə, dərəbəyliyə, istibdada, istilaya qarşı bəşəriyyət də qüdrətli, güclü, hünərvər və eyni zamanda sanki itaətkardır. Əgər burada bəşəriyyət özünə qarşı dayanan bir şeyi özü yaradır və qarşılıqlı təsir baş vermirsə, bu başqa şeydir. Bizim diqqətimizi cəlb edən şey Heraklın bəşəriyyəti təmsil etməsidir. Heraklın qarşısında nə qədər çətinliklər dursa da, qələbələr əvvəlcədən təmin edilmişdir! Bəşəriyyət də bütün tarix boyu çətinliklərlə üzləşmiş (daha bu günündən olmaz). Amma bəşərin bütün böyük oğulları, böyük ağıllar yekun üçün bəşəriyyətin son qələbəsinə inanır.

Herakl bu vahiməli şiri öldürür. Evrisfey ölü şirin özünü gördükdə belə, canına vahimə düşür. Qışqırır ki, Herakl şiri uzaqlaşdırsın.

Riyasətpərəst azmanların xisləti belədir. Onlar dövlətin əlində toplanmış qüvvəni öz şəxsi keyfiyyətləri riskə gedir və qudurğan şəkildə hayqırırlar. Lakin çılpaq vəziyyətə düşən təki bütün məzmunsuzluqları üzə çıxır. Raklların isə hünəri onların məhz çılpaq vəziyyətlərində özünü göstərir.

Herakl öldürdüyü Nemey şirinin dərisini soyub çiyninə atır. Bu şirin dərisi zirehli idi. Əvvəlcə şir Heraklın qarşısında bir təhlükə kimi dayanmışdı. İndi məğlub edilmiş şirin dərisi Heraklı bir zireh təkin yağdırılan zərbələrdən qoruyur. Onun Nemey şiri adlanması təsadüfi deyilmiş.

Bəşəriyyət də hər cür çətinliyi dəf etdikcə (bu çətinliklər lap ölüm həddi yaratsa da, nə qədər darıxdırıcı olsa da ) mətinləşir, kamala çatır.

Heraklın Lerpey əjdahası ilə döyüşünə də diqqət yetirək.

Bu əjdaha bataqlıqda yaşayırdı. Lerpey bataqlığında. Elə həmin bataqlığın adı ilə də Lerpey əjdahası adlanır.

"Əjdaha" sözü özü vahiməlidir. Hələ buna bir "Lerpey" – "bataqlıq" da əlavə oluna! Bu çoxbaşlı, qeyri-adi, tilsimli əjdaha idi. Lerpey əjdahası insanlar üçün qorxu törədir, qaydasınca yaşayışı pozurdu.

Bu əjdaha ilə üzləşməyin çətinliyi onda idi ki, o, qeyri-adi idi, tilsimli idi. Əjdahanın hər bir başının öhdəsindən gəlmək müşkül bir məsələ idi. Hələ qalsın ki, çox başın. Həm də əjdahanın quyruğunda da başı var idi.

Herakl əjdaha ilə döyüşə başlayır. Ona yaxınlaşmaq belə, çətin idi. Əjdaha ağzından od saçırdı. Lakin indi Herakl zirehli idi. O, birinci çətinliyin öhdəsindən gəlmiş, ilk qoçaqlıq göstərmişdi. O, məğlub və həlak etdiyi şirin dərisinə bürünmüşdü.

Lakin əjdaha ilə vuruş çətinliyinin ikinci pilləsi daha böyük idi. İş ondadır ki, Herakl əjdahanın başlarından birini əzdikcə, kəsdikcə yerindən birinin əvəzində daha çox baş çıxırdı. Heraklın başları kəsməsi əjdahanın təhlükəsizliyini artırırdı, başlar çoxalırdı. Şərlə mübarizənin çətinliyi bundadır. Əjdaha kimi şər də, şər kimi əjdaha da davamlıdır, qatıdır, kökü çətin kəsiləndir.

Bu zaman İolay Heraklın köməyinə gəlir. Herakl əjdahanın hər hansı başını kəsdikdə İolay kəsik yeri kösövlə dağlayırdı.

Herakl bu yolla Əjdahanın axırına çıxır.

Deməli, şərə qarşı güzəştli, yumşaq olmaq mümkün deyil. Həm də onu məğlub etmək azdır. Əzilmiş şərin yerini dağlayıb, kökünü birdəfəlik kəsmək lazımdır.

Beləliklə, Herakl ikinci qoçaqlıq göstərir. Bu ikinci qoçaqlıq da qəhrəmanın mətinləşməsinə xidmət edir. Lerpey əjdahasının qanı zəhərli idi, – şirin qanı, ruhu kimi. Herakl nizələrinin ucunu Lerpey əjdahasının qanına bulaşdırır. Bu nizələr artıq öldürücü olur.

Heraklın İolayla göstərdiyi qoçaqlığın biri budur. Buna görə də bəzi variantlar İolayın iştirakı ilə başa gələn qoçaqlıqları ortaya çıxmış və onu on ikiyə çatdırmışdılar. Guya o bir qədər az ola bilərdi.

Halbuki məsələ qoçaqlıqların azlığında, sayında deyildi – özündə idi. İş ondadır ki, şərlə mübarizədə, xilas olmada qəhrəmanlıq göstərmək gərəkdir. Taleyin mühafizəsində, döyüşə gedərkən öz qüvvənə güvənməlisən?!

Amma mifologiyanın əslindəki Heraklın öz qəhrəmanlığında yaxın adamına müraciətinin daha böyük mənası var. Bu da ondan ibarətdir ki, hətta Herakl olsan belə, insanın insana, köməyə ehtiyacı var. Atalar sözündə də deyilir ki, tək əldən səs çıxmaz.

Heraklın Kripey Xallı Maralı ilə bağlı qəhrəmanlığı da çox maraqlıdır.

Evrisfey həmin təbiət yavrusunu tutub gətirməyi Herakla tapşırmışdı. Bu işin çətinliyi onda idi ki, Maralı ilahələrdən biri himayə edirdi – Maral toxunulmaz idi. Başqa tərəfdən Maralı tutmaq üçün güc, cəsarət zəif amil idi.

Məsələ ondadır ki, Maral itiayaqlıdır, keçilməz cığırlarla qaçandır. Lakin məsələnin belə qoyuluşu özü məhz tapşırığın yerinə yetirilməsini qəhrəmanlığa çevirir. Bəs qəhrəmanlığa çevrilən fəaliyyətin mifoloji mündəricəsində nə axtarmalıyıq?

Hər şeydən əvvəl, İlahənin Maralı himayə etməsində təbiətin toxunulmazlığına bir işarə var.

Elm təbiət, təbiət sakinləri, təbiət sakinləri və təbiət, təbiət sakinlərinin bir-birinə nisbəti, insan-təbiət münasibətləri haqqında dolğun fikirlər söyləmiş. Az qala daha burada qeyri-kafi görünən cəhət yoxdur. Hətta bu izahat işlərindən sonra belə, təbiət-insan münasibətlərinin aşırı mürəkkəbliyi yenə də bəşərin qarşısında dayanır.

Hər bir sakini təbiət doğurur. Lakin bu sənin özünə dərhal mühit yaratmağa cəhd göstərir və təzyiq hadisəsi baş verir. Təbiət sakini ətrafına təzyiqlə ziyan vurur və əks təzyiqin vurduğu ziyana uğrayır. Təzyiqin, ziyanın gətirdiyi xəsarətə hansı tərəfin dözməsi və özünü qoruma qabiliyyəti mürəkkəbləşir. Aşırı halda tam ölüm vəziyyəti də yarana bilər, hadisələr təbii özülü möhkəmlədə də bilər.

İnsan da təbiət sakinlərindəndir. Lakin o təbiətin yaratdığı xüsusi varlıqdır. O, təbiətin ilkin çərçivəsində qalmır. İnsan təbiət içərisində ikinci dünya yaradır.

İnsan başqa təbiət sakinlərindən daha imkanlı olduğuna görə, onun vurduğu ziyan daha böyük ola bilər. Məntiqin, ümumi ahəngin bu pozulmasına ağlın müxtəlif rəngli fəaliyyətləri də əlavə edilməlidir.

İnsan-ağıl ayrılmaz atribut olduqları getdikcə daha dolğun şəkildə dərk edilir. Lakin təbiətə qovuşub insanın yaradıcılıq gedişatında ağlın müdaxiləsi zamanı süni işlərə boy verən imkan da böyüyür. Bu da dünyanın ağzıaşağı qapanmasına aparıb çıxara bilər. Təbiətin toxunulmazlığı problemi burada meydana çıxır. Ona görə də Herakl Maral dalınca qoşarkən əlisilahlı İlahə ilə qarşılaşmalı olur. İlahə, yalnız o zaman güzəştə gedir ki, Heraklın hərəkətlərinin kamilliyinə inamı yəqinləşir.

Deməli, kamil ağıl yaradıcılıq zamanı təbiətin ahənginə uyğun gəldiyinə görə, işdə məqbul bir şeyə çevrilir. Bu zaman Maralla bağlı Heraklın təbiətindəki yaradıcılıq işləri qol-budaq açır.

Maral keçilməz cığırlardan ötür, sıldırımlardan, dağlardan, dərələrdən, təpələrdən aşır, çayların üzərindən tullanır. Herakl Maralı izləmək naminə keçilməz cığırlardan yol açır, sıldırımları, dağları, təpələri, çayları insan üçün yararlı hala salıb abadlığın əsasını qoyur və s.

Mifologiyaya bu cür məna verməkdə bəlkə də çox haqlıyıq. Ayrı birisi başqa mənaların ardınca qoşa bilər. Burada ümumi yekun ondan ibarətdir ki, bu mifologiyaların bəşəri mündəricə daşımayanları yoxdur.

Biz bilirik ki, Anteylə, Korin şəhərindən olan Siziflə, Sipilin çarı Tantalla, Prometey həyatının müəyyən dövrü ilə bağlı mifologiyalar da Herakl dünyası daxilində baş verir. Burada həqiqətlər o qədər parlaqdır ki, həqiqətin özü hər cür izahat içindən daha tam görünür.

Məsələn, Anteylə bağlı əhvalatın izahına nə hacət?

Bir çox fikirlər, şəxsiyyətlər, əsərlər var ki, izahat işi orada gizlənmiş fikirləri dünyaya çatdırmaq vəzifəsini görür. Bu zaman həqiqət qazanır, itirmir. Amma Antey həqiqəti o qədər böyük, o qədər aydındır ki, izahatda o itirir, qazanmır. Bu heç də o demək deyil ki, fikirlər Antey həqiqətindən istifadə etməməlidir. Bu gedişat qıraq şərtlərdən, bizim düşüncə tərzimizdən, dediklərimizdən asılı deyil. Antey həqiqətindən fikirlər istifadə etmiş, edir, edəcək də. Lakin bunlar Antey həqiqətini artıra bilmir.

Bu cəhətən klassiklərdən Nizami Gəncəvi də bənzərsiz şəxsiyyətdir.

Tarixdə böyük şəxsiyyətlər, alimlər, sənətkarlar var. Onlar öz fəaliyyətləri və ya əsərləri ilə misilsiz fikirlər yeritmişlər. Bir çox halda yeridilən fikir, dolğunluğu ilə çatmadığına görə izahat işinə ehtiyac duyulur. Məsələn, bu sətirlərin müəllifinin C.Cabbarlı haqqında kitabı belə bir zəruriyyətin doğurduğu arzudan irəli gəlmiş, həm də burada müəllifdən daha çox C.Cabbarlı qazanmış. Biz o kitabı yazarkən ifadəmizin gücü ilə öz imkanlarımızdan geri qayıtmalı olurduq. Amma Nizamidə vəziyyət belə deyil. Antey, Prometey, Sizif, Tantal həqiqətləri kimi, Nizami həqiqəti də böyük olduğu qədər aydındır.

Nizami haqqında izahat işləri aparılmış, aparılır, aparılacaq da. Bizim də sonra (yaradıcılığımızın sonunda) belə bir arzumuz var. Lakin izahat işlərində Nizami qazanmır, itirir. Çünki bu izahat işləri Nizami haqqında müəyyən baxış yaradır ki, bunlar da hamısı Nizamidən aşağıda durur. Həqiqəti almaq üçün ancaq Nizaminin özünə qayıtmaq lazımdır. Nizamidə həqiqət o qədər aydındır ki, fikir özü-özünü qulaqlara izahatsız daha yaxşı pıçıldayır.

Biz itirməsin deyə, Nizamiyə əl uzatmazdıq. Belə bir arzu başa gələrkən çalışarıq ki, Nizami itirməsin. Lakin onun itirdiyi yerdə müəllif və dünyanın qazanacağına əminik. Ona görə də Nizami haqqında arzular bəsləyirik. Zira bizim müraciətimiz zamanı Nizami itirərsə, onda Nizaminin özü durur. Nizaminin özünə müraciətlə itkinin yerini doldurmaq mümkündür.

Antey, Prometey, Sizif, Tantal həqiqəti də belə. Ona görə də Antey, Prometey, Sizif, Tantal həqiqəti haqqında lap ötəri qeydlərlə yetərlənirik.

Allah (Zevs) Prometeyə – öz xeyirxahı, köməkçisi, əmisi oğlu Prometeyə insanlara xidmət göstərməyi qadağan etmişdi. Lakin Prometey də ona görə Prometey idi ki, məzlumlara, əzilənlərə, təzyiqə uğrayanlara, gücsüzlərə, köməksizlərə, müşkülə düşənlərə mərhəmət göstərsin, insana, yaxşılığa, həqiqətə xidmət eləsin. O, bu iş üçün yaranmışdı. Bu vəzifələri yerinə yetirmək onun mövcudluğunu təsdiq edirdi. Bir də ki, xidmət arzusu onun iradəsindən asılı deyildi. Prometeylərdə bu, ehtiras şəklində özünü göstərir. Necə ki, naqislərdə şər ehtirası. Ona görə də Prometeydə xeyirə xidmət arzusu qarşısıalınmazdı. Lakin Hökmürəvan da insana xidməti yasaq etmişdir. Əks halda ağır cəza qaçılmazdı. Xidmətin böyüklüyü də məhz ondadır ki, hətta ağır cəza ehtimalları da onun qarşısını ala bilmir. Bu mütləq vəziyyət Prometeyi çarmıxa aparıb çıxarır.

Prometey etidalını pozmur. Onun öz işinə və aqibətinə etimadı bərqərardır. Bu inam o qədər güclüdür ki, bu Prometeyin Allaha – universal müstəbidə qarşı üstünlüyünü təmin edir. Ona görə də Prometey mütləq azad olacaqdı. Lakin Prometey məhz Heraklın əli ilə azadlığa çıxır və ya bu işdə Heraklın əli olur.

Bu xətt, – Prometeyin azadlığa çıxması xətti üçbucaq şəklində Prometeyi, Heraklı və bizim hədsiz şəkildə diqqət yetirdiyimiz Axillesi birləşdirir.

Prometeyin azad olması üçün əbədilərdən hansı isə biri onun əvəzində o dünyaya getməli idi. Bu işə bir çox Yunan qəhrəmanının, o cümlədən Heraklın özünün də müəllimi Kentavr Xiron razılıq verir.

Xiron Kentavr olsa da, insanlara qarşı mehriban və mərhəmətli idi. O, qəhrəmanlara sənət öyrədir və gündəlik işlər üçün həyat dərsi verirdi. Xiron allahlar içərisində yeganə Kentavr, kentavrlar içərisində isə yeganə Allah idi. O, ölərilər yox, əbədilər təbəqəsinə daxil idi. Xiron ölməz idi. Lakin bir təsadüf, bir çıxacaq kimi Xiron öz sevimli şagirdinin, Heraklın ölümcül oxu ilə yaralanmışdı. Zəhərli oxun yarası ona əzab verir, lakin Xiran əbədi olduğuna görə ölmürdü. Bu əbədi yaşayış onun üçün ölümdən də betər şeyə çevrilmişdi. Əbədilər içərisindən (deməli, kentavrlardan da Allah ola bilərmiş) Xiron Prometeyin yerinə o dünyaya getməyə razı olur. Prometey azadlığa çıxır. O, allahların məkanına qayıdarkən İlahə Fetidanı fanilər arasından kimə vermək məsələsi müzakirə olunurdu. Herakl etdiyi yaxşılıqlara təşəkkür əlaməti olaraq İlahə Fetidanı Xironun nəvəsi Peleyə ərə verməyi təklif edir. Heraklın təklifi qəbul olunur. Burada Axillesin irsi teli, bir tərəfdən Kentavr olsa da, allahlarla bağlanırsa, (o, onsuz da İlahə Fetidanın oğlu idi) digər tərəfdən, felən Prometeylə, Heraklla qarışır.

Bizim diqqətimizi cəlb edən cəhət budur.

Sizif əhvalatı aydındır. Herakl ona Kerber itini o dünyadan gətirməyə gedərkən rast gəlmişdi.

Herakl görür ki, bir nəfər ağır dəyirman daşını səhərdən axşama kimi dağın başına qaldırır. Lakin daş zirvəyə çatar-çatmaz yenidən yuvarlanıb aşağı düşür. Allah isə müftəxorluğuna, acgözlüyünə görə ona belə bir cəza vermiş ki, daş mütləq zirvəyə çıxarılmalıdır. Bu iş başa gəlmədiyinə görə Sizif hər gün min zəhmətlə yeknəsək surətdə eyni işi təkrar etməli olur.

Burada bəşərin xudbin keyfiyyətinə, həddsiz dərəcədə nəfsinə bağlanmasına, başqalarının xoşbəxtliyini görmək istəməməsinə, həyata pərçimlənib qalmasına, bütün bunlara görə də korluğuna və insan olduğu halda qeyri-insani həyat tərzinə bir işarə var.

Bu doğrudur.

Lakin nə üçün Sizif Korinfdən olsun? O, nə üçün Korinfli Sizif adlandırılsın? Axı yunan mifologiyasında və incəsənətində bir çox hadisələr Korinflə bağlıdır. Bəlkə burada şəhərlərin və mərkəzdən idarəetmənin başlanması ilə bağlı cəmiyyət həyatının daha da mürəkkəbləşməsinə, insanların bir-birinə təzyiqinin güclənməsinə, toplanan sərvətlə yanaşı nəfslərin itiləşməsinə, bütün bunların əsasında bəşəri naqisliklərin üzə çıxmasına işarələr var? Hər halda, bir faciə müşahidə edilir. Tərəqqi ülviyyətin əl-qolunu açmalı, mahiyyətini üzə çıxarmalı, qanad çalmasına imkan yaratmalıdır. Lakin şər güclənir və xeyirlə üz-üzə gəlir. Ziddiyyət ictimai çöküş (süqut) yaradır.

Faciə ondadır ki, insan ülviyyət ardınca qoşmağa macal tapmır. Yayınma, vəzifəni unutmaq, ictimai laqeydlik, özgə hesabına yaşama "hünəri", nəfsbazlıq, şıltaq, təkəbbür, acgözlük baş alıb gedir. Həm də uğur tapanlar elə bilirlər ki, hünər iş görmüşlər. Amma ayılanda anlaya bilərlər ki, ömür ötmüş, həyat isə əldən getmiş. Onlar insanlıqdan uzaq düşmüşlər. Bəşəri şərtlər üçün dünyaya gələn insan mündəricəni heçə həsr etmiş, arzuları külək qabağına tullamış. Bu qədər vurnuxmanın qarşılığında bir göz qırpımı timsalı kimi ömür başa çatmış, ortada isə heç bir şey yoxdur.

Lakin zəruri ictimai şərtlər insanı bu kökə salır. Əgər insan Sizif əhvalatından ibrət götürüb bəşəri amallar dalınca qoşsa idi, onun rifahı və taleyi hansı yönə olardı? Sualın cavabı sadə deyil. Ölçü itir və dünya Sizifləşir.

Bu izahatlar doğrudur. Lakin yenə də Sizif əhvalatının özü daha dolğun fikirlər söyləyir.

Spilin çarı Tantal səadətə yaxın idi. Bir zamanlar allahlar onu sevirdilər.

Lakin hətta əzəmətli adamların özündə belə, sevgi çarlığa, padşahlığa qədərdir. Burada, ən yaxşı halda, sevgini yalançı əzəmət və qorxutma əvəz edir. Eyni şey Tantalın da taleyində müşahidə olunur.

Tantal guya allahlar tərəfindən sevilirdi. Lakin sonra o, allahları aldatmağa, xainlik etməyə, paxıllığa başladı. Allahlar da ondan üz döndərdilər və onu cəzalandırdılar.

Lakin allahların sultanlara, şahlara, çarlara, hər hansı şəkildə məhəbbətinin saxta cəhətləri gec-tez üzə çıxmalı idi. Ən yaxşı halda, çar olan minüzlü olmaya bilərmi?

İctimai sərvət şahların nəzarəti altına düşür. Bu sərvət onların ülvi dünyasına xidmət göstərə bilmir. Burada bir nöqtəyə milyonlarla gözlər zillənir. Nemətlərin dəryasında məhrumiyyətli bir dünya yaranır. Nemətlərin əvəzinə irinli, yaralı, qanlı bir firavanlıq meydana gəlir. Tantal toxluğu bəşəriyyətə qarşı çevrildiyinə görə Tantal səfilliyinə dönür. Allahlar öz məhəbbətlərində və ayrı-seçkilərində səhv buraxırlar. Yersiz mükafatlar amansız cəzalarla əvəz olunur.

Gerber iti ilə bağlı əhvalatın əhatəliliyi ondadır ki, Gerber itlərinin caynaqları hər tərəfdən görünməkdədir.

Siz Gerber itləri ilə zarafat etməyin. Ömür zahirən öz işlərini bilməyən, mürgü döyən kimi görünür. Əslində Gerberlər tora salmaqda, amansızlıqda ayıqdırlar, şər üçün öz işlərini biləndirlər. Şərin kökləri də xeyirinki qədər dərindir.

Gerberlərlə rəftarın çətinliyi nədədir?

Hər şeydən əvvəl onlar girəcəkdə dayanır və gözə görünməməyə çalışırlar. Hər halda mifologiyada Gerberin bu variantı götürülmüş. Gerber mürgüləyir, tora salır və dərhal ayılır, canavarlaşır, yırtıcılaşır, ilanlaşır, zəhərli olur, əjdahalaşır, üfunət yaradır. Gerberlər dünyası cinayətlər, qəbahətlər bataqlığı!..

Gerberlərin üç başı var. Pələqulaq, üçbaşlı Gerber. Boyunlar çəngə-çəngə tüklər. Tük, nə tük, hər biri bir ilan!!! Bu ilanlar qıvrılır və bir-birinə qarışır.

Gerber yuxulu görünür – tora salmaq üçün. Tora saldımı, titrəyər, pərvazlanar, dünyanı məhv etmək üçün titrədər. Açılmış ağızlardan dil əvəzinə dünyanı yalayan, yandırıb-yaxan alov görünür. Halbuki aləmi oda qalayan dil əvvəlcə dünyanı nəvazişlə yalayırdı. Tora salana qədər.

Gerberin quyruğu da ki, əjdahadır.

Gerberə dünyanın ölüm vəziyyəti lazımdır. Gerberlərin dünyasında insan əvəzində inildəyən, ah-uf edən zavallı məxluqlar var. Gerberə ölüm lazımdır. Gerber ölümlə nəfəs alır. Lakin dərd ondadır ki, Gerber ölülər səltənətinin sakini olduğu halda, canlı dünyaya

hökmlər etməkdədir. O, canlı dünyanı qeyri-qanuni qələmə verir. Dünya solğunlaşmalıdır. Gerberin məntiqi belədir.

Gerberin hökmü işləkdir. İnsan ölmüş – yaralanmaq, zədələnmək, əzab çəkməkdən başqa, simasızlaşması nəticəsində! Canlı görünən dünya insandan daha çox sürüləri xatırladır. Ona görə də deyirik:

İnsan ölmüş!

Xalqlar ölmüş!

Bəşəriyyət ölmüş!

Gerber təntənəsi!

Gerberlərin təntənəsi!

Gerberlər dünyasının təntənəsi!

İnsanı diriltməyə, müdafiəyə çalışan hər bir kəs dərhal gerberlərlə üzləşir. Gerber min sifətə girir. Öz yolunun rəvanlığından, əsil səadət qapılarının açıqlığından, kamilliyin, haqqın adından macal vermədən danışır, qışqırır, haray salır. Hər addımı isə ölümdür. O, ölüm saçır. Viranəlik, ölüm və zəlilliyin genişlənməsi belə təsəvvür yarada bilər ki, Gerber dünyası zəifləyər. Zəif düşmək, Gerberin şüuruna təsir göstərə bilər. Lakin hər dəfə əks nəticə alınar. Gerber getdikcə qatılaşır, quduzlaşır, qarşısıalınmaz görünür.

Gerber yaratdığı cinayətlər, xəsarətliklər dünyasından ibrət götürüb geriləmək əvəzinə özünə arxayın şəkildə baltanı daha da uca qaldırır. O, tələb edir ki, dünya ölümə təslim aktını imzalasın...

Lakin Gerberin gücü tarixin cinayətə verdiyi cəza hökmünə qədərdir. Bu zaman qüvvələr nisbəti Heraklın xeyrinə dəyişir.

Gerberin hökmü – rəvanlığı zahiridir. Dünya Herakl üçün işləyir. Tarix də Gerberin öz əli ilə belə, Heraklın xeyrinə hərəkət edir.

İlk dəfə Allahın köməyi ilə Herakl Gerberin məğlubedilməzliyi əfsanəsini aradan götürür.

Bu, Heraklın axırıncı qəhrəmanlığıdır.

Tarixin naqislikləri, tarixdə müşahidə edilən şərlər sonda Gerberin simasında yekunlaşır.

Həyatla ölümün üz-üzə dayanmasının sirri bundadır.

Bəşəriyyət əsil həyat nədir bilir. Lakin Gerber iddia edir ki, əsil həyat mənəm. İşin çətinliyi bundadır.

Zira, ölüm həyat ola bilməz. Əksinə, həyat mütləq ölümün pəncəsindən xilas olmalıdır.

Bu xilas ən böyük, axırıncı qəhrəmanlıqdır.

Dünya Herakl vəziyyətinə hazırdır.

İndi biz Heraklı göylərə aparan yolu izləyə bilərik.

Dünyanın gərdişi elə tərtib edilib ki, heç əvvəlcədən planlaşdırılmadan Heraklın anası, Arqoslu padşahının qardaşı qoçaq Anfitrionun arvadı Alkmena qəhrəmanın dünyaya gəlməsi üçün Allahdan, – Zevs tərəfindən mayalanır.

Təsadüf belə tərtib edilir.

Amfitrionun oxu təsadüfən qardaşı padşah Sfepalın oğlu Elektrini öldürür. Üzqaralıq baş verir.

Amfitrion öz qardaşı oğlunu təsadüfən öldürmüşdü. Bir ölüm hadisəsi baş vermişdi. Hər halda qətlin törədicisi cəzalanmalı idi. Lakin suçlu zərərçəkən öz qardaşı idi. Padşah öz qardaşını cinayətinə uyğun şəkildə ağır cəzalandıra bilmir. Qardaşlar üzüqara, başıaşağı şəkildə bir-birilərinə baxmasınlar deyə, Sfenal qardaşı Amfitrionu birdəfəlik Arqosdan çıxarır. Amfitrion bir daha Arqosa gələ bilməzdi.

Bir çıxacaq baş vermişdi. Üzüqaralıq var idi. Cinayət işi də tərtib etmək mümkün idi. Bütün bunlar sürgünü əsaslandırırdı. Lakin Sfenal bu təsadüfdən istifadəylə qardaşını – Amfitrionu vilayətdən qovmaqla əslində vərəsəlik məsələsini həll edirdi.

Təsadüf (istər mənfi, istərsə də müsbət) hər vaxt, hər yerdə baş verə bilər. Lakin burda mənfi səciyyəli təsadüf istibdadın öz əlindən çıxmış. Zira, istibdad şər dağarcığıdır. O, ardıcıl surətdə fəlakətlər, cinayət və qəbahət bataqlığı törədir.

Başqa tərəfdən, üzüqara bir iş baş vermiş, müsibətli bir vəziyyət yaranmışdı. Amma istibdad burada xəcalətli şəkildə, başını aşağı salmaq, özü müsibətli halına qalmaq əvəzinə, fürsətdən istifadə etməklə vərəsəlik, yəni riyasət məsələsinin həllinə çalışır.

Bir çox əfsanələrdə, nağıllarda bütün xalqların şifahi və yazılı yaradıcılığında və tarixi hadisələrdə də vərəsəlik istibdadın – riyasətin qarşısına bir problem kimi çıxır. Hakimiyyət hüququnun saxlanması naminə doğmalar yad olur, qardaşlar, valideyn və övladlar üz-üzə dayanır. Yunan mifologiyasında hətta allahlar arasında da eyni vəziyyət müşahidə olunur. Zevsin atası Kron Allah, Kronun atası Uran Allah həmin yolla gedirdi.

Morlar – mələkələr Hatifdən xəbər vermişdilər ki, öz övladı onu taxtdan salıb hakim olacaq. Uran da dünyaya gələn övladlarını dərhal yeraltı dünyaya göndərirdi ki, onu taxtdan salan olmasın.

Lakin məhz bu qəddarlığına görə, işlər mürəkkəbləşdi. Uranın oğlu Kron işıqlı dünyaya yol tapdı və atasını yıxıb hakimiyyəti öz əlinə keçirdi.

Xəbər verildi ki, Kronun da başına eyni iş gələcəkdir. Kron bu vəziyyətə qarşı atasına nisbətən daha diqqətli oldu. O, dünyaya gələn övladlarını dərhal udub qarnına doldururdu. Lakin amansızlıq özü istibdadın ayağını yerdən üzməli idi. Eyni səbəblə Kron da devrilir və yerinə oğlu Zevs padşah seçilir. Allahlar və bütün dünya padşahı.

Məsələnin belə qoyuluşunda istibdadın antibəşəri mahiyyəti üzə çıxır.

Deməli, istibdad nəinki yadlar, həm də doğmalar üçün antibəşərilik, amansızlıq maşınıdır.

Doğrudanmı hakimiyyət insana bəslənən doğma duyğudan, hətta qohumluq-qardaşlıq, valideyn-övlad duyğusundan daha şirindir?

Burada mürəkkəblik meydana çıxır. Bu mürəkkəbliyi də biz tarixin naqisliyi, insanın zəifliyi ilə bağlamışdıq.

Xudbin düşüncələr işə təsir göstərir. Güzəranın çətinliyi isə bütün ülvi cəhətləri, bəşəri ahəngi öz pəncəsi altında saxlayır. Ülviyyət və güzəranın ağır şərtləri üz-üzə dayanır. Güzəran da öz müvazinətini saxlamaq üçün qəddar addımlar atmalı, sırtıqlığa yol verməli, şərəfini tapdatmalı olursan. Bu şərtləri nə qədər "uğurla", amansızlıqla yerinə yetirirsənsə, ictimai mövqeyin o qədər "möhkəm" olur. Burada ictimai mövqeyini möhkəmlətməkdən başqa, diqqət mərkəzinə də çevrilirsən. Məşəqqətli güzəran dünyasında təmin olunmaq, etimadsızlıq, həqarət dəryasında diqqət mərkəzində olmaq, – insana doğma münasibətə və insanla dostluğa qarşı duran cəhət budur.

Üzüqara çıxacağa qarşı Arqosun qoca padşahı Sifenal qardaşı Amfitrionu Arqosdan qovur. O, bir daha Arqosa gedə bilməzdi.

Amfitrion Migenaya gəlir.

Bu zaman Migenada yetişməkdə olan və gözəl Alkmenaya sahiblənmək üçün gənclər arasında yarış gedirdi. Bütün Migenada Akmenaya layiq, şərtləri yerinə yetirə bilən bir nəfər yox idi. Amfitrion Alkmenanı görür. Yadellinin gözü bu gözəli tutur. O, yarışa qoşulur. Amfitrion yarışın qalibi olur. O, şərtlərin öhdəsindən gəlir, qarşıya çıxan çətinlikləri aradan qaldırır. Alkmenanın da gözü bu yadellini yaman tutmuşdu. Həmin gözəl yavru da ürəyinin başını sökən igidə hər vasitə ilə köməklik göstərirdi.

Amfitrion gözəl Alkmenaya sahib olur. İgidlə gözəl vüsala çatır. İtirilən riyasətə qarşı başa gələn səadət!

Amfitrion Migenada Alkmena ilə evlənir. Lakin o, Arqosa gələ bilməzdi. Amfitrion əmisi Kreontun padşah olduğu Fiva (həmin başıbəlalı Fiva) şəhərinə gəlir.

Zahirən bizim izlədiyimiz məqsəd üçün mifologiyanın götürdüyü bu yönün heç bir önəmi yoxdur. Lakin burdan Zevsin gözü Migenalı – Fivalı gözələ, Amfitrionun gəlininə sataşır. Bu gözələ qarşı Allahın qəlbində arzu doğur.

Allah arzusuna çatmaq qərarına gəlir.

O, arzusuna çatmalı idi. Lakin Zevs Allah olduğuna görə insanın dincliyini, Amfitrian – Alkmenadan ibarət ailə səadətini poza bilməzdi. O, vəziyyətdən çıxış üçün "ilahi" bir plan tərtib etməli idi.

Bir çox şeylərdə ikili cəhət olur. Yaxşının kölgəli, pisin xeyirə impulslar verən keyfiyyətləri kimi.

Alkmena gözəl və ağıllı idi. Amfitrion igid və ağıllı idi. Onlar bir-birilərini gördülər və sevişdilər. Arzuya çatmaq üçün mübarizə meydanı yarandı. Çətinliklər aradan qalxdı. Sevgidə vüsal yarandı və səadət üçün yollar açıldı.

Bu gözəllik, bu vüsal, bu səadət bütövlükdə Amfitrionun qəlbinə hakim kəsilməli idi.

Lakin Amfitrion ehtiraslı adam idi. O, elə adam idi ki, hər kəsin diqqətini cəlb edən şüy üçün maraq göstərməzdi. Lakin diqqətini cəlb edən şeyə bütün qəlbi ilə bağlanar, ağlı başından çıxacaq dərəcədə ehtiras onu haqlayardı.

Onun Alkmenaya məhəbbəti də belə baş vermişdi.

Eşqdən başqa Amfitrionun ov əyləncəsi də var idi. Ova bağlılıq Amfitrionda ehtiras səviyyəsində idi. Bəzən o, ova o qədər bağlanardı ki, bir anlıq ailəni unudar, evə gəlişi ləngiyərdi.

Zevs məqsədinə çatmaq üçün Amfitrionun ov ehtirasından istifadə qərarına gəlir. Bir dəfə Amfitrionun başı ova o qədər qarışır ki, evə qayıtması ləngiyir. Bundan istifadə edən Zevs ovdan qayıdan Amfitrion cildinə girir. Alkmena Zevsi ovdan qayıdan öz əri təkin qəbul edir. Zevs məqsədinə çatır. Zevs gedir, ovda gecikmiş Amfitrion gəlir, Alkmena isə fərqinə varmadan hər ikisini öz halal əri kimi qəbul edir. Çünki Allah –Zevs işləri elə təşkil etmişdi ki, bu fərq hiss edilmirdi.

Beləliklə, Alkmena dünyaya gələcək qəhrəman üçün günahsız şəkildə Zevsdən – Allahdan mayalanır.

Bu hadisə bəşəri baxımdan, – əxlaq, namus, saflıq cəhətdən qarmaqarışıq görünür.

Bu hadisə uğur baxımından gözəl bir təsadüf kimi qiymətləndirilə bilər.

Burada Amfitrionun öz ehtirasının ailədə yaratdığı əyintidən də danışmaq mümkündür. Söyləmək mümkündür ki, fəaliyyət, ikinci ehtiras nə qədər güclü olsa da, ailə kimi, ülvi dünya diqqət mərkəzindən yayınmamalıdır. Əgər belə bir keyfiyyət maşahidə edilərsə, hətta Alkmena kimi ərinə sədaqətli, məhəbbət mücəssiməsi olan dünyanın da üstünə kölgə düşə bilər. Demək mümkündür ki, ən yaxşı ailələrdə belə, qadınlar ərlərini başa düşməlidirlər. Ərin ailədə bugünkü mövqeyinə görə kişinin fəaliyyət dairəsi genişdir. İşin vicdanlı təsadüfündə belə, kişi rəftarında, fəaliyyətində, həyatında gözlənilməz hadisələr ola bilər. Ailə tərkibindəki barışığın, dostluğun saxlanması, ülviyyətin və səadətin qorunması naminə arvad ərini başa düşməyə çalışmalıdır.

Lakin burada ən böyük hadisə Zevsin, – Allah adlanan zatın özü üçün axtaran gözü olmasından Herakl kimi bir qəhrəmanın dünyaya gəlməsidir.

İş ondadır ki, Arqosun qoca padşahı Sfenalın oğlu Elektrini gözlənilmədən əmisi Amfitrion tərəfindən öldürüləndən sonra səltənət varissiz qalırdı. Zevs Amfitrionun arvadı Alkmenadan olacaq öz oğlunu Arqos padşahı eləmək fikrinə düşür.

Lakin Zevsin səltənətinin ortağı, bacısı və arvadı İlahə Hera da yatmamışdı. O, ərinin adi insanlar sırasından olan bir gözələ nəfs salmasından bərk kinliləşmişdi. Üstəlik bu görüşün nəticəsi, dünyaya gələcək insan səltənət sahibi də təyin edilirdi.

Zevs baş Allahdır. Onun bütün tədbirləri yaradıcılıq, insanlar – dünya üçündür. Lakin Zevs belə allahlardan deyil. Zevs hər şeyi dünya üçün edər. Amma bu şərtlə ki, mərkəzdə özü dayansın. O, birinci olsun, bütün diqqətlər ona yönəlsin. Hər bir kəsin arzusunda, fəaliyyətində, mövcudluğunda Zevsin Allahlığı, – mənafeyi və üstünlüyü təmin edilməlidir. Ona görə də Zevs allahdan daha çox yaradıcı kimi diktatoru, xudbin kimi müstəbidi xatırladır.

Universal bir müstəbid!

Allah olasan, universal bir müstəbid kimi meydana çıxasan!

Zevs allahlığında qalır. Lakin onun allahlığındakı xılt dünyada Sizifləri, Tantalları, Gerberləri yaradır.

Zevsin bu hərəkətinə qarşı Hera da yatmamışdı.

Hera, hər şeydən əvvəl, qoca padşah Sfenalı varissizlikdən xilas edir. O, işləri elə tərtibləşdirir ki, Heraklla yanaşı Sfenalın da dünyaya yeni övladı qədəm basacaq idi. İndi qalırdı bu uşağın padşahlığı məsələsi. Axı Zevs Alkmenadan olacaq oğlunu Arqosa padşah nəzər-

də tutmuşdu. Bir tədbir tökmək lazım idi. Hera öz “qadın təbiətinə” sədaqətlə ərə qarşı məhrəm bir məkrə əl atır. O, səfehlik və huşsuzluq ilahəsi Ate ilə sözbir olurlar. Ate Allah oğlu Herakl dünyaya gələn anda Zevsin ruhuna daxil olub, yaddaşını oğurlamalı idi. Bu an bir məclis də təşkil edilmişdi. Məsti-xumarlıq zamanı Hera ərinin qulağına girir və ondan söz alır ki, indicə dünyaya gələcək uşağı Arqosa padşah edəcək. Huşu əlindən alınmış Zevs bir anlığa oğlunu unudur, Heraya söz verir. Bundan istifadə edərək Heraklın doğuluşunu ləngidir və Sfenalın oğlu ondan bir qədər tez dünyaya gəlir.

Beləliklə, göylər Heraklı hakimiyyətdən məhrum edir. Hələ buna üstəlik Allah oğlu Herakl adi insan oğlu Evrisfeyə xidmət etməli idi. Heranın ərinə şərti belə idi. Zevs də buna razılıq vermişdi.

Mifologiyanın hadisələrə verdiyi bu yöndə mənalar çoxdur. Kişidəki qadın zəifliyi allahlarda, Zevsdə də müşahidə edilə bilərmiş. Hətta Allahın (Zevsin) də huşunu əlindən almaq, tora salmaq, səfehləşdirmək mümkünmüş. Arvadın dargözlüyündən doğan məkrinin toruna düşən kişi hətta sonu fəlakətlə nəticələnə bilən strateji səhvlər də buraxa bilər. Biz bunun ən parlaq örnəyini M.S.Ordubadinin “Qılınc və Qələm”indəki Atabəy Məhəmməd-Qətibə rolunda görəcəyik.

Ailəyə, övlada, insana, vətənə, xalqa, əqidəyə qarşı bir anın unutqanlığı ömürdə silinməz bir şikəstliyin yaranması üçün yetərlidir.

Doğrudur, bu unutqanlıq nəticəsində Zevsin oğlu hakimiyyətdən məhrum edilmişdi. Biz görəcəyik ki, xoşbəxtlik üçün hakimiyyət mənfi xarakterli şeydir. Əksinə, hakimiyyəti itirən Herakl dünyaya xidmət kimi böyük qismətə çatır. Lakin burada hakimiyyətin əlindən alınması ömür üçün Herakla bir uğursuzluq kimi məna edilir.

Amma ən böyük məna Heranın ailədə Zevsin nəfsbazlığına qarşı özünün “sən-mən” iddiaları irəli sürməsidir. Bu iddia amala uyğun təbiətlər üçün məqbul deyil. Onlar bu cür tələblərə uyğunlaşa, bu cür həyatı qəbul edə bilmirlər. Lakin tarixin naqisliyi, insanın zəifliyi şəraitində “sən-mən” iddiası müəyyən ölçüdə yaşayış tərzinə çevrilir və hiss edilmir.

Halbuki, bədii və nəzəri fikir ailədə “sən-mən” iddiasını qayda-sınca həyata qarşı dayanan fərdi naqislik hesab edir. Bu düşüncəyə görə məhəbbət, barışıq, ailə ittifaqı, uca mənəvi amil ailədə ikiliyi, “sən-mən” sərsəmliyini aradan götürür. Bu düşüncələrə görə tək

yarıdır, cüt vahidi tamamlayır. Eşq bəşəri – ülvi bir tale yaradır. Nəzəri fikrin keçib gələn yolu belə söyləyir.

Bədii fikrin Homerdən M.S.Ordubadiyə qədər keçib gəldiyi yol bunu təsdiqə çalışır.

Biz bu istiqaməti heyranlıqla izləyir, qibtə ilə qəbul edirik. Lakin özümüz daha da başqa fikirdəyik. Bizcə hər cür "Mən" anlayışı özlüyündə miskin bir xəstəlikdir. "Mən" iddiası ancaq dünyanın bir hissəsi kimi məqbuldur. Belə götürüldükdə ailədə təkin yarı, cütün vahid olması fikri də öz həllini tapır. Bu zaman eşq əlaqələrini başqa insani münasibətlərdən: doğma əlaqələrdən, valideyn-övlad münasibətlərindən, qardaş, bacı, əmi, dayı, bibi, xala və s.-dən, qonşu, dost, vətəndaş tellərindən fərqləndirməyə ehtiyac qalmır. "Mən" və "biz" ümumdünya ənginliyi içərisində əriyib axır.

Lakin məsələ heç də vəziyyəti bu cür yönləndirməkdə deyil. Məsələnin bu cür qoyuluşu üçün bəşəri-mənəvi özül varmı? Bu cür özül olduqda məsələ asanlaşır və ictimai imkanın gözlənilməsi lazım gəlir. Bunlar tədricən, birlikdə baş verir.

Anlayışın qəbulu mənəvi səviyyədən, zənginlikdən asılıdır.

Ailədə "sən-mən" anlayışı naqis yaşayış tərzində, müəyyən ölçüdə məqbul görünür. Bu ünsür Hera-Zevs təlimində də müşahidə edilir.

Axı Zevs nəfsinə hüdud qoymur. O, Allah səviyyəsindən istifadəylə bir çox xudbin ehtiraslara meydan verir. Onun intim dünyası ailə sədlərini aşır. Əgər indiki bu cəhət Herakl kimi yaxşı nəticə verirsə, burada dini düşüncə vəziyyəti islah edir. Lakin islah edən şey, eyni zamanda Heranın ailədə "sən", "mən" tələblərinə də yol qoyur.

Həm də ayrı-ayrı, xırda-mırda istisnalar nəzərə alınarsa, bu cəhət bəşər həyatında ortaq haldır. Çünki bir çox hallarda insan ona qarşı edilən qəddarlığı, cinayət və qəbahətləri doğruldur. O, zəifliyi üzündən asanlıqla istehza hədəfinə çevrildiyi halda, şəri çətinlik çəkmədən həzmə başlayır. Bu şəraitdə, ailə daxilində "sən-mən" arqumenti hiss edilir. Normal şərait başlasaydı, iddia dözülməz görünərdi.

Hera-Zevs qolundakı "sən-mən" arqumenti ailə münasibətləri üçün M.S.Ordubadinin "Qılınc və Qələm"indəki Qətibə-Atabəy Məhəmməd qolunda ifrata varır.

Hera Zevsə qarşı "sən-mən" arqumenti irəli sürür. Amma burada doğmalıq, sevgi, ərk tələbi də var idi. Hera tələb edir və ərinə qarşı daima çöhrəsi gülür. Onun qəlbinin qapıları da ərinə açıqdır.

Hera tələb irəli sürür. Lakin heç vaxt işin bərkindən tutmur. İş yoğunlayan təki manevr edir, güzəştə gedir, ərə itaət göstərir. Bu cəhət imkan verir ki, ər (Zevs) də arvadını (Heranı) dinləyə, onunla hesablaşa bilsin. Bununla da ailədə ahəng yaranır, ailə həyatı başa gəlir və davam edir.

Qətibənin çöhrəsi isə tutqundur. Onun qəlbinin bütün qapıları ərinin üzünə bağlıdır. Bu o qədər tünddür ki, hətta Qətibənin şərtlə ərə getməsi də vəziyyəti islah etmir.

Qətibə İlyası sevəndə də, ələ keçirməyə cəhd göstərəndə də "hansı daha yaxşıdır" manevrləri edir, şərtlərlə meydana atılırdı.

Qətibə – bu gözəl, "ağıllı", sağlam, təhsilli, tərbiyə görmüş, təcrübəli qadın şər dağarcığıdır. Onun ailədəki "sən-mən" tələbləri işləri fəlakətlərə aparan mütləq səviyyəlidir.

İnsanların "mən" tələbləri isə həyatda naqisliyə meydan verdiyinə görə işləri universal cəhətlərin təcəssümü olan istibdad və istilaya, bundan irəli gələn bir çox fəlakətlərə aparıb çıxarır.

Hera səfehlik və huşsuzluq ilahəsi Ate vasitəsiylə Zevsi tora salır. Herakl dünyaya gələcək anda Zevsdən söz alır ki, indicə doğulacaq uşağı Arqosa padşah təyin edəcək. Zevs söz verir. Lakin huşu özündə olmadığına görə doğulmaqda olan övladı unudur. Bundan istifadəylə Hera Heraklın doğuluşunu ləngidir və Sfenaldan olan uşağın dünyaya gəlişini bir addım qabağa salır. Evrisfeyin Arqos padşahlığı belə başa gəlir.

Zevsin huşu özünə qayıdanda artıq gec idi. O, məsələni alır və bərk qəzəblənir. Səfehlik və huşsuzluq ilahəsi Ateni başı üstə yerə çırpır. O vaxtdan Ate allahlar məskənindən çıxarılmış, insanlar arasında dolaşır. Yer üzündə səfehlik, huşsuzluq, bundan irəli gələn fitnə-fəsad bu cürə başlayır. Zevs bu işdən Heraklı və başqa allahları da xəbərdar edir. O deyir, bir də mənə qarşı bu və ya başqa tərzdə tor atılsa, sizlərə elə cəza verərəm ki, dünya gözlərinizdə qaralar. Zevsin ortağı, bacısı və arvadı, işin təşkilatçısı Hera da qınına çəkilir.

Zevs Heraya deyir: sənə verdiyim söz qüvvədə qalır. Evrisfey Arqos padşahı, qüdrətli Herakl da 12 qoçaqlığı başa gətirənə qədər onun xidmətçisi olacaq. Göylərin hökmü Heraklı hakimiyyətdən məhrum etdi. Lakin Herakl xidmət əsasında elə ülvi yol keçəcək ki, ona qarşı kinli olan sən Hera özün onu yerdən götürüb Allahlar aləminə, göyə gəlməsinə razılıq verəcəksən.

Zevs özündən əvvəlki baş Allah Kronun oğlu, Hera isə qızıdır. Zevs və Heranın bacı-qardaş, həm də ər-arvad olmasını tez-tez xatırlayırıq.

"Bacı-qardaşın ər-arvad" deyilişi vicdani qənaətə əzginlik gətirir. Həm də bu iş ülviyyət təcəssümü allahlar arasında baş verir.

Bundan başqa, bir ayrı mifologiya olan, Yer üzündə insanın başlanğıcı hesab edilən Adəm-Həvva əhvalatı da belədir.

Əgər dünyanın lap başlanğıcında allahlar və peyğəmbərlər arasında intim münasibətlər ülviyyətə zərbə vurmuşsa, bəs nə üçün tarixin sonrakı inkişafında və bu gün qan cəhəti ilə ifrat doğma adamlar arasında intim münasibətlər qəbahət sayılır, yolverilməz cinayət hesab edilir?

Hər iki vəziyyət ziddiyyətlərlə doludur və boş, mənasız deyil.

Hər şeydən əvvəl Zevs-Hera, Adəm-Həvva insanların ilkin bacı-qardaş anlayışları ilə bağlıdır. Elmin təsdiq etdiyi kimi, tarixin ilkin pilləsindəki real bacı-qardaşlar bugünkü kimi deyildi. Bacı-qardaşlıq həddinin dərəcələri var idi və intim münasibətlər müəyyən dərəcədə bacı-qardaş arasında baş verə bilərdi.

Biz həyat məsələlərini, nə üçün "elə yox, belədir", "bu belə deyil", elə də ola bilərdi" kimi qoya bilərdik. Həm bədii, həm nəzəri-elmi fikirlərdə də bu cür təşəbbüslər müşahidə edilmiş. Lakin hadisələrin gedişi getdikcə daha artıq diktə, nəql edir ki, gedişatın "elə deyil, belə olmasında" daha böyük hikmət var. Az-çox fərq ilə, bir qədər stixiyalı, – kortəbii şəkildə, xaotik tərzdə baş versə də, işlər təbii özül üzərində mövcud olur. İşlər "elə deyil"ə yox, yalnız obyektivliyə, təbiiliyə əsaslandıqda, çox böyük savadla, dəqiqliklə tətbiq edildikdə işə bir qədər müsbət təsir göstərir.

İntim işlərdəki gedişatda da mövcud vəziyyətdə bir təbiilik olmalıdır.

Bütün xalqlarda, tayfalarda abır-həya müşahidə olunur. Təbii halda, yerində baş verən abır-həya mənəviyyata ülviyyət gətirir. Burada intim-mənəvi, fizioloji gedişdə insan əsaslı surətdə heyvandan seçilir.

Bütün xalqlarda, tayfalarda doğmalıq münasibətləri dəqiqləşdikcə intim münasibətlərdə sədlər müşahidə edilir.

Bəzən deyirlər ki, insan əllaməliklə öz nəfsini, əsas keyfiyyəti şəhvət ehtirasını pərdələyir. Əgər "saxta" abır-həya duyğusu, ictimai etika olmasa idi, o sədləri aşar, hər cür münasibətlər baş verərdi. Bundan başqa bir nəticə də çıxır ki, insan "püxtələşdikcə" abır-həya

buxovundan azad olacaq, asanlıqla doğma sədləri də aşacaq, şəhvani dəryada üzüb həyatı nuş edə biləcək.

Amma bu fiokrin saxtalığı, hər şeydən əvvəl ondadır ki, o mövcud vəziyyətə şübhə yaradır, ən küt şəkildə məsələləri "elə deyil, belə" qoyur.

Bu cür düşüncələr "meşəni gözardı edib, ağacı əsas götürməkdən" irəli gəlir.

Ümumi etikaya dayanan şəhvani harınlıq saxta ideyaların həqiqiliyinə dəlalət eləmir. Məgər harınlıq təkcə intim münasibətlərdəmi müşahidə edilir? Biz naqisliyi və zəifliyi, bundan irəli gələn həyəcan oyadıcı işləri etiraf etmişik. Lakin təbiiliyə, tarixən gündəlik gedişata, elmə əsaslanıb təsdiqə çalışmışıq ki, tərəqqi müşahidə edilir, naqislik zəifləyir, zəiflik azalır. Eyni sözləri intim xaos haqqında da söyləmək mümkündür.

İntim həyəcanlar, həm məhəbbət, həm də şəhvət təbiidir. Amma abır-həya da, doğma duyğular da təbiidir.

Nadir eybəcər hallar, ələ alınmazsa, məhəbbətə sədd qoymağa ehtiyac yoxdur. O məqbul şəkildə baş verir. Əksinə, məhəbbət abır-həyanın, ictimai etikanın təbii özülü sayılır. Daha artıq, məhəbbət qarşılığı, xüsusən üçüncünü istisna edir. Məhəbbət iki adam arasında baş verir, səadət və ülviyyət yaradır. Məhəbbətdə kamiyablıq və səadət yaranır, ülviyyət vasitəsiylə insanın bəşəri keyfiyyəti təsdiq olunur. Uğursuzluq nəticəsində məhəbbətdə yaranan şikəstliklərə gəldikdə bunlar eşqin özündə deyil, kənarda baş verir. Məhəbbət güclü olduqda əxlaqın bərqərarı üçün iradi cəhətə o qədər də ehtiyac qalmır.

Müəyyən ölçüdə şəhvət təbiidir. Bu cəhət o qədər mərufdur ki, izaha ehtiyac qalmır. Amma hər halda, eybəcər cəhətinə görə şəhvani hadisələr gizlində baş verir.

Bir çox heyvanlarda belə, abır-həya, ismət duyğusu müşahidə olunur. Hətta bəzi heyvanlarda ana hiss etdikdə ki, indicə onun üstündən düşən öz doğma balası idi, bu dərdə dözmür, ürəyi partlayır.

Şəhvani israfçılıq kimsəni məsud etməyib. Bu murdarçılığın hüdudu yoxdur. Əgər məhəbbətdə uğursuzluq şikəstlik yaradırsa, şəhvani israfçılıq bu işi başa çatdırır.

Məhəbbət insani münasibətləri, dünyanı gözəlləşdirir. Şəhvət bataqlıq, eybəcərlik, şikəstlik yaradır. Abır-həyadan başqa, intim duyğularda doğma münasibətlərin səddini yaradan yəqin işin bu

cəhətidir. Yoxsa şəhvət hər səmtdə əl altında, əl çatan olsa idi, bəşər bu bataqlığın içində qalar və heç bir yana gedib çıxa bilməzdi.

Zevslə Heranın, Adəmlə Həvvanın bacı-qardaşlığında işin ibtidai cəhətindən daha böyük məna gizlənməlidir. Bu da ondan ibarətdir ki, işin ilahi özülündə bütün insanlar bir-birinə doğmadırlar.

Herakl yer oğlu idi. Lakin göylərlə bağlı olmuşdu. Burada böyük arzu, ehtiras, doğma duyğuyla bərabər vəziyyətə gəlmişdi. Hər halda Zevsdə Alkmenaya yolverilməz şəkildə olsa da, məhəbbətə bərabər bir arzu baş qaldırmışdı ki, o bu qədər qadağan, təhlükəli addım atmışdı və nəticəni övladı Herakl sevirdi. Lakin başlanğıc üçün Heranın hökmü böyük idi. Zevs oğlu Herakl üçün arvadı Heranın şərtlərinə boyun əydi.

Herakl göylərin əvvəlcədən ona tərtib etdiyi şərtlərə doğru can atırdı.

Qəhrəmanın qeyri-adiliyi hələ körpə ikən, dirçəldikcə, sonralar isə hər gün boy atdıqca hiss edilirdi. Bu fərq həm onun fiziki imkanlarında, – qüvvəsində və həm də mənəvi cəhətində - ağlının böyüklüyündə nəzərə çarpırdı. Ən əlamətli cəhət o idi ki, Herakl mehriban idi. O, fiziki və əqli gücündən ətrafına qarşı öz üstünlüyünü təmin etmək üçün istifadə etmirdi. Mühiti Herakldakı üstünlükləri fərqləndirir, onlara toxunan bir iş baş vermirdi deyə onu sevirdilər. Qəhrəmanla bir yerdə olmaq dostları üçün xoş idi, hələ qeyri-adi həyat, həm də könül oxşayan münasibətlər.

Bu cəhətdən Heraklın taleyi, ümumiyyətlə, real dünyadakı qüdrətli şəxslərin taleyindən fərqlənir.

Əsil böyüklük, ümumiyyətlə, bu və ya başqa cəhəti ilə seçilir. Bir cəhətdən seçilən böyüklük bir çox cəhətdən qəribəlik yaradır. Burada uyuşmamazlıq, qələbəlik, coşğunluq, baş alıb gedən ehtiraslar və s. daxil ola bilər.

Böyüyə təqdirlə yanaşı, bəzən narazılıqlar da əlavə olunur. Böyüklüyə fərqlilikdən daha çox tənhalıq xasdır. Bu bir çox halda işləri faciə həddinə aparıb çıxarır. Böyük işlərdə hünərvər olan adam gündəlik həyatda aciz də qala bilər. Tarixi şəxslər, böyük adamlar haqqında əsər yaratmağa cəhd göstərən bir çox müəlliflər bu cəhəti unudur. Onlar böyük adamın fərqli cəhətinə ürkəkliyi və tənhalığı əlavə etmək əvəzinə heyrət verməyə çalışır. Ona görə də böyük adamın dolğun siması alınmır və əsasən uğursuzluq baş verir.

Mifologiyada Heraklın taleyində də bu müşahidə edilir. Heraklın böyüklüyü hərtərəfli və qabarıq idi. Ona görə də onu görməmək

mümkün deyildi. Lakin Herakldakı bu böyüklük ümumi ahəngi pozmurdu. Ona görə də mühitdə ürkəklik və Herakldа tənhalıq baş vermədi. Bəlkə bu ona görə idi ki, Herakl böyüklüyünü ifrat itaət müşaiyət edirdi?!

Eybi yoxdur, bu cəhəti yeri düşdükdə izləyərik.

Zaman çatdıqda göylərin şərtinə əsasən Migenanın gənc padşahı, – cılız zəif, cır səsli Evrisfey öz əmisi oğlu qüdrətli qəhrəman Heraklı xidmət üçün hüzura dəvət etdi. Bu zaman dostları Herakla Fivada qalmağı və öz aləmi ilə məşğul olmağı məsləhət bilirdilər.

İşlərin bu cür haçalanmasında üçlü vəziyyət var. Herakla hakimiyyət verilə bilərdi. Göylər bunu onun əlindən aldı. Lakin göylərin daha hökmlü sahibi hakimiyyətə qarşı qəhrəmana xidmət göndərdi. Burada hakimiyyət səadətinə və üstünlüyünə qarşı xidməti ləyaqət dayanırdı. Hansı daha çox təqdirə layiqdir. Lakin yuxarıda deyildiyi kimi, Herakl Göylərin hökmünə qarşı müstəqil idi. Onun hakimiyyəti əlindən alınmışdı. Əfələ xidmət həqarətindən boyun qaçırmaq imkanı da ona verilirdi. Bu zaman o, öz aləminə qapıla, gündəlik əyləncələrdə aylana, həyati məsudluğa bağlana bilərdi. Dostları da Heraklı buna səsləyirdi. Qəhrəman da tərəddüd göstərirdi. Lakin dostların təhrik etdiyi şey əldən alınana bərabər deyildi. Bu zaman iki simvolik gözəl, – qadın Heraklın qarşısına çıxır.

Qadınlarda Herakla qarşı cəzb olunma, bir çağırılma vardı. Lakin qadınların təhrik etdikləri şeylər fərqli idi. Herakl sanki yol ayrıcında dayanmışdı.

Birinci qadın gözəl idi. O, cazibəli və şirindilliyi ilə seçilirdi. Qadın dəvətlə tələb edirdi ki, biz, hər ikimiz, həyat və həyəcan mücəssiməsiyik. Bu arzu hamıda var. Lakin təbiət nadir hədiyyəsini hamıya vermir. Gözəllik, qamət, sağlamlıq kişilərdən sənə, qadınlardan mənə qismət olmuş. Biz ikimiz birlikdə nadir məhsuluq. Amma həyat uçub-töküləndir. Bu müstəsna məhsul da əbədi deyil. Bizim də sonumuz çatacaq. Gözəllik solacaq, qamət əyiləcək, gücdən də düşəcəyik. Həyatın aqibətsizliyi düşüncəyə qaranlıq gətirir. Təbiət yeganə çıxış yolunu onda qoyub ki, tərəflər bir-birini cəzb edir, hətta bu çıxış yolunda da müstəsna var. Bəzilərinə gözqamaşdırıcı gözəllik verilir. Burada zövq məhəbbəti, məhəbbət zövqü üstələyir. Gözəlliyin görüşündə ehtiyacın zəruri ödənişindən daha böyük şey var. Burada ehtizaz, məsti-xumarlıq baş alıb gedir. Gözlərimə, saçlarıma, sinəmə, gərdanıma, geniş açılan, səni və məni

qərq etməyə hazır olan, səni və məni səadətə çatdıran, qucağıma diqqət yetir... və s.

Herakl ehtizaza – məstliyə əyilməyə, ayağını qaldırıb addımlamağa hazır idi. Bir an... bir anda bu baş verə bilərdi...

Bu zaman ikinci bir qadın onun qarşısına çıxdı və sanki Herakla dedi: saxlan! Bu hökm, bu nida qəhrəmanı yerinə mıxladı.

İkinci gözəlin dedikləri birincisinə bənzəmirdi. O, söyləyirdi ki, çağırışlarla sənin başını aylandıran dünyanın həqiqətini mən inkar etmirəm. Lakin o həqiqət bütün mövcudata aiddir. Bu həqiqət mövcudatdan o yana getmir. Amma sən sadə mövcudat yox, insansan. İnsan seçilir. İnkar mümkün deyil ki, insan da ilkin tələblərini ödəməlidir. Ehtizazlı və ya ehtizazsız şəkildə, könül açan və ya könülsüz. Lakin təkcə insanda ehtizaz, məhəbbət, əxlaq səviyyəsinə yüksəlir. İnsan idrakı və fəaliyyəti həyatın daha geniş telləri ilə bağlanır. Bu hamı üçün həqiqətdir. Zira, səni cəzb edən dünyanın özünün də qeyd etdiyi kimi, sən daha da seçilirsən. Çünki sən insanlıqda nadir nüsxəsən.

Hamının ümumi idrakı və fəaliyyəti özünün həyatını qurmaq çərçivəsində insanlığa xidmət göstərir. Lakin sənə verilən pay artıqdır. Sən özün yox, dünya və xidmət üçün doğulmusan. Burada ehtizazdan, məstlikdən daha böyük bir şey, – qəlbin nəfəslə isinməsi və işıq var.

Ehtizaz, məstlik törədən şeyin ardı adətən səadətdən daha çox, düşkünlük yaradır. Bu çalarlı vəziyyət sənət və nəzəri fikir tərəfindən hərtərəfli işıqlandırılmış. Fəaliyyət isə ehtizazı, məstliyi ünsürə çevirdiyinə görə, onun saçdığı işıq mütləqdir.

Səni səadətə səsləyən qadın gözəl və cazibəlidir. Bunu danmıram. Lakin lazımi səviyyədə insani deyil. Məgər mən gözələm? Diqqətlə bax, mənim haram ondan əksikdir? Zira, mənim çağırışımın gözəlliyi daha dərindədir. İdrak və fəaliyyət üçün yaranmışlara mənim bir an verdiyim ehtizaz, məstlik yetərlidir. Kişisən, bataqlığa cumma, hünər göstər. Mənim kimi zərif məxluq belə, səni bura çağırır. Mən səninləyəm...

Gözəllər gözdən itir. Herakl tərəddüddən xilas olur. O, Evrisfeyin çağırışı ilə Migenaya xidməti vəzifələri itaətlə yerinə yetirməyə gedir.

Ağır idi... Herakl kimi qüdrətli varlıq Evrisfey təkin miskinə itaət göstərməli olmuşdu. Vəziyyətin bu gərginliyində, bəlkə də seçilməsi çətinlik törədən düzgün yol bundan ibarət idi.

Biz Herakla qarşı yunanlı Axillesi və azərbaycanlı Koroğlunu irəli sürmüşdük. Demişdik ki, Herakl şərə qarşı itaət yolu ilə xidmət göstərir. Axilles və Koroğlu dirəniş vasitəsi ilə bu işi başa çatdırır. İşarə vurmuşduq ki, tam itaətlə tam dirəniş xidmət məqamında bəlkə də eyni şeylərdir. Bu qədər döyüşlər, vuruşlar şərin ümumi balansını azaltmırsa, fələyin yayı bu qədər bərk isə, bəlkə elə itaət göstərməli və fələyin yayını çəkməməlidir?

Heraklın fəaliyyəti və ömrü bunu təsdiq edir. Lakin Koroğlunun fəaliyyəti və taleyi Heraklın təsdiq etdiyi bir şeyin əksini daha inamla nəql edir. Axı Koroğlu inandırıcı tərzdə sübuta çatdırdı ki, hər cür şəraitdə Koroğluluğu yerə qoymaq olmaz. Bəşəriyyətə qarşı həyasızlıq və yırtıcılıq dayanmış. Koroğluluq fəaliyyətdən düşən kimi sanki insan, xalqlar, bəşəriyyət ölür, planetimiz üfunətli bir sahəyə çevrilir. Ona görə də bəşəriyyət ardıcıl surətdə, bu və ya başqa səmtdən, bu və ya başqa şəkildə Koroğluluq etməlidir. Tarix belədir. Yalnız bir faktdan başqa.

1940-cı ildə Fransa Hitlerizmə qarşı  uğursuz bir Koroğluluğun ardınca idraki surətdə Herakllıq göstərdi.

Bu yöndə hadisə diqqəti cəlb edir.

Hitlerizmin əsil mahiyyəti onun Fransaya hücum və Fransanın ona göstərdiyi Herakllıqda yox, Hitlerizmin SSRİ-yə basqınında və SSRİ-nin ona qarşı başa gətirdiyi Koroğluluqda üzə çıxır.

Hitlerizm SSRİ-yə basqınından çox-çox qabaq fəaliyyətə başlamışdır. Dünyanı şər hədələyirdi. Dünya həyəcan keçirirdi, həyəcan içərisində idi. Hamı eyni vəziyyətdə idi. Hamını eyni aqibət gözləyirdi. Lakin dünya birləşib mütəşəkkil dirəniş göstərə bilmirdi. Ayrıca Fransa isə bu iqtidara malik deyildi. Həmin anda dünyanın kütbeyin, siyasətbaz, dağınıq durumuna qarşı Fransa Herakl yolu tutdu.

Dağınıqlıqda bir nəfər qabağa duran lazım gəlir. Bu, Hitlerizmin SSRİ-yə basqını zamanı başa gəldi.

Basqın zamanı, əvvəlcə ölkənin başçısı Stalin az qala diz çöküb fəryad qopardı. Lakin bu bir an üçün, yalnız bir an üçün baş verdi. Sonra Stalin özünü düzəltdi. O, həyəcanla ayağa durdu və ildırım kimi çaxıb dedi ki, düşmən güclü görünür. Çox vahiməli vəziyyətdir. Amma inanın mənə: haradasa biz daha güclüyük, haqq, həqiqət bizim tərəfimizdədir. Biz qalib gələcəyik. Bu zaman Stalin ildırım kimi çaxdı. Elə çaxdı ki, heç yunanlı, bulud və qəzəblənərkən dərhal ildırım çaxan Zevs özü belə ildırım çaxa bilməzdi.

Stalin Zevsdən daha dəhşətli bir ildırım çaxdı və dedi: biz qalib gələcəyik!

SSRİ Herakl deyil, Koroğlu yolu tutdu və qələbə çalındı.

Lakin bu qələbə nəyə başa gəldi və sonrakı nəticəsi nə oldu?!

Adətən bu suala ondan başlayırlar ki, İkinci Dünya Müharibəsində 10 (on) milyonlarla adam qırıldı, ölkə viran qaldı. Lakin müharibənin ən böyük nəticəsi odur ki, qırğın, dağıntı, istehsalın hərbiləşməsi və xeyli hissəsinin işdən düşməsi nəticəsində dinc əhali üçün həyatın çətinləşməsi ilə bağlı mənəvi eybəcərlik, tarixin belinin qırılması, xalqların həyatına daxil olan xəsarətlik, dünyanı udmağa hazır vəziyyətə gələn yeni Gerberlərin yaranması baş verdi.

Müharibə cəbhədə qırğın və dağıntı yaradır, arxada hərc-mərclik, müdafiəsiz qalanlar üçün laqeydlik, təzyiq. Elə bir laqeydlik və təzyiq ki, müharibənin açıq döyüşündə ölmək bir xilas yolu olardı. Aclıq və digər ehtiyaclar, döyülmək, mənəviyyatın zorlanması, digər təhqirlər baş alıb gedir. Ən betəri odur ki, müharibə əjdahasından xilas naminə fədakarlıq göstərənlər deyil, təltifləri də dəstəbazlar, simasızlar, gözə soxulanlar alır.

Döyüş meydanına təltif naminə atılmırlar. Lakin hadisələr ötüb qurtarandan sonra hər halda xidmətin bir qiyməti də olmalıdır. Daha sədəqə və minnətdarlıq yox. Yuxarıda deyilənlərə dulluq, yetimlik, şikəstlik və bunlardan doğan nəticələri də əlavə edin...

Biz müharibənin bahasını hesablayarkən dedik ki, o yeni Gerberlər yaradır. Lakin dünyanı udmağa hazır Gerberlərin yaranması müharibənin bahasından daha çox nəticəsidir. Biz də sualı belə qoymuşduq ki, müharibə baha başa gəlir və qələbə çox vaxt gözlənilən nəticəni vermir. Yeni Gerberlərin meydana gəlməsi müharibənin nəticəsinə daxildir.

Müharibənin ən kədərli nəticəsi odur ki, bir qədər keçəndən sonra kimin qalib, kimin əsil məğlubluğunu seçmək çətinləşir. Əvvəlcə vəziyyət çox aydındır. Bu tərəf təslim bayrağını qaldırmış, o biri tərəf qələbənin təntənəsi ilə haylanmış. Lakin bu yalnız başlanğıcda belədir. Qələbədən doğan haylanmanın, qızmışlığın (qızmışlığın özü mürəkkəbliyə yol açır) ardınca mürəkkəbləşmə başlayır.

Bir qədər sonra müharibənin baş qəhrəmanı öldü.

Ölüm bir hadisədir. Hətta rəzilin biri dünyadan köçəndən sonra indi Allahın hüzurunda dayandığına görə, daha ona qarşı ağız büzmələr pərdələnir. Qəhrəmanın isə ölüm əzəmətini artırır. Amma bizim müharibənin baş qəhrəmanı hələ yadlar bir qırağa, onun öz

qövmü belə, gorbagor elədi. Halbuki Stalin öz qövmü üçün təkcə müahribə qəhrəmanı deyildi.

Stalinin "Oktyabr"ın hazırlanmasında xidməti vardı – həm nəzəri, həm əməli. "Oktyabr"ın rəhbərləri və digər qəhrəmanları Stalini qiymətləndirir, sevir və çox vaxt heyrət edir, onunla ehtiyatla davranırdılar. Hələ lap başlanğıcda Stalinə pərəstiş və inam var idi. "Oktyabr" ən çətin işlərdə Stalinə ümid bəsləyirdi. Sonra Stalin özü əməli olaraq "Oktyabr"ın yaradıcısı oldu. Stalinin şəxsiyyəti, idrak selinə qərq olmuş siyasətçiliyi SSRİ çərçivəsindən çıxıb dünya hadisələrinə təsir göstərirdi. Lakin Stalinin dühası müharibədə və müharibədən sonra vətənin çətin vəziyyətindən məharətlə çıxarılmasında özünü daha artıq göstərdi. Buna onun həmin vaxtda başa gətirdiyi elmi rəşadəti də əlavə olunur. Stalin bir möcüzə təsiri bağışlayırdı. Stalin Allahlaşdı. Dünya Stalinə belə baxırdı. Belə bir zamanda Stalin öldü və onu öz qövmü gorbagor eləməyə başladı. Aydınlaşırdı ki, Stalin elə uşaq imiş ki. Ətrafı onun gözündən pərdə asır, aldadır, tora salır. Bunun da nəticəsi o imiş ki, adamlar qırğına gedirmiş. Lakin adamların qırğına getməsi gözdən pərdə asanların nəyinə lazımmış?! Bəlkə adamların qırğına getməsi başqa dünyaya gərək bir işdir?! Bu gedişat gözdən pərdə asanlardan əvvəl başlamış və hər zaman müşahidə edilə bilər.

Stalin dövründə ficətən ölümlər, şübhəli aradan götürmələr var idi. Lakin Stalin Trotskilər kimi azmanları açıq mübarizədə məğlubiyyətə çatdırandan sonra sıradan çıxartdı. Trotskilərin özlərinin isə "Oktyabr" qəhrəmanları olmasından irəli gələn mürəkkəbliyin izahının buraya dəxli yoxdur.

Stalini gorbagor edərkən onun öz qövmü söylədi ki, bu adam kütbeyin, yelbeyin, azğın, özbaşınanın biri imiş və s.

Öz qövmünün Stalinə bu münasibəti dünyanı təəccübləndirdi. Dünya daxilində bununla bağlı çox şey oldu. Lakin hadisələr bununla duruldu ki, dünya sual qarşısında qaldı: Stalini ağıllı adam hesab etmək mümkünmü?

Stalin öz ideyasının və Rusiyanın oğlu idi.

Stalinin bir qədər gürcülərin, ermənilərin başını sığallamasının, müsəlmanlara, xüsusən türk tipli xalqlara qərəzli münasibətinin mətləbə dəxli azdır. Məsələn, ayrıca götürsək, gürcü xalqı dünya hadisələrinə nüfuz etmirdi və s.

Stalin öz ideyasının və Rusiyanın oğlu idi. Buna görə də “Stalini ağıllı adam hesab etmək olarmı?” sualına aşağıdakı cavabları vermək mümkündür:

a) Əgər ideya və Rusiya haqdırsa, dünyada Stalindən böyük adam yoxdur;

b) Əgər ideya və Rusiya haqsızdırsa, “Stalini ağıllı adam hesab etmək olarmı” sualı qüvvədə qalır...

İndi diqqətlə tamaşa edin: bu Hitlerizmə qarşı Herakl yolu tutan Fransanın aqibəti; bu da Koroğlu yolu tutan bizim aqibətimiz...

1940-cı ildə Hitler Fransanın üstünə yeriyərkən Fransa bir az dirəniş göstərdi, döyüşlər oldu, odlu müharibə baş verdi. Lakin Fransa siyasətçiləri ölkənin bu döyüşdə ölümlə üz-üzə gəldiyini gördükdə düşündülər, dərindən bir məşvərətə başladılar. Onlar gördülər ki, Hitler tufanı ayrıca Fransa məsələsi deyil. Fransa Koroğluluq yolundan döndü, Herakl xətti götürdü. Hitlerçilərin Fransaya basqınından məqsədlərini soruşdular. Basqınçılar iddia ilə cavab verdilər ki, bizə Fransa lazımdır. Bir də biz dünyaya səadət, tərəqqi, ahəng, ülviyyət və s. yayırıq. Fransızlar ağızlarını doldurmuşdular, az qala basqınçılardan xəbər alacaqdılar ki, dünyaya paylamaq iddiasında olduğunuz şeylərdən sizin özünüzdə varmı?! Heç olmasa, əlaməti, yüngülcə bir qoxusu?..

Lakin Fransa siyasətçiləri həmin an üçün uzağı görürdülər, son aqibət onlara aydın idi.

Vəziyyət Fransa siyasətçilərindən bu cürə düşünməyi tələb edirdi. Şərtlərin səsinə səs vermək üçün onların özündə də idrak tapıldı...

Bir qədər tullanıb-düşdükdən sonra Hitlerçilər SSRİ üzərinə də yeriməyə başladılar. Bu basqında tərəflər bir-birini tamam ittiham edir, səbəb göstərməyə, əsaslandırmağa çalışırdılar. Bizcə səbəblər üçün ən çox tarix və insanın öz simasızlığı, cılızlığı, zəifliyi başını aşağı salmalıdır.

SSRİ Koroğlu yolu tutdu.

Qüvvələrin qeyri-bərabərliyinə, vəziyyətdəki vahiməyə baxmayaraq, dünya xalqları, siyasətçilər, dövlətlər gördülər ki, SSRİ-nin atıldığı döyüş manevr deyil. Bu ölüm-dirim məsələsidir.

Bundan sonra, yalnız bundan sonra, insafən demək lazımdır ki, dünya hərəkətə gəldi, dünyanı hədələyən qüvvəyə qarşı xalqlar SSRİ ətrafında toplandılar.

Qələbə əldə edildi. Amma bizim yuxarıda hesabını apardığımız qiymətə!..

Əgər SSRİ də Koroğluluq deyil, Fransa kimi Herakl yolu tutsa idi, bu nə naticə verərdi?

Basqınçılar SSRİ kimi geniş və çoxmilyonlu ərazidə yayılar. Sonra həmin iddia ilə Hindistana, Çinə, Afrikaya, Amerikaya addımlayardı. Belə güman edək ki, bütün bu ölkələr də Herakl yolu tutdular. Onda almanlar "qələbə əzmi ilə" dünyaya səpələnər və sürətlə xalqların arasında əriyib sıradan çıxardılar. Bu qələbə onlara mütləq bir ölüm gətirərdi. Deməli, SSRİ böyük qurban hesabına birinci növbədə suçlunun özünü – almanları mütləq ölümdən xilas etdi.

Lakin dəfələrlə dediyimiz kimi, tarix "elə deyil, belə daha yaxşıdır" əsasında hərəkətdə olmur. Bəlli səbəblərə görə, nə qədər xoşagəlməz olsa da, təbii şəkildə hərəkət göstərir.

SSRİ basqınçılara qarşı Koroğluluq meydanına atılarkən dünya mütəşəkkil vəziyyətə gəldi. Halbuki hələ əvvəlcədən də Stalin və Stalinin mənsub olduğu dünya xalqları təhlükəyə qarşı əlbir mübarizəyə çağırırdı. Lakin bəşərin pərakəndə halı ifrat ana qədər əlbir hərəkətə imkan vermir.

Koroğlu vəziyyətində olduğu kimi, sözü bir yerə qoyan dünya gerberinə deməz ki, buyur planeti götür görək nə edəcəksən? Amma gözlə boğazında qalmasın.

Həm Koroğluluqda, həm də Herakllıqda dünya dağınıq durumdadır. Ona görə bəşərin bir gerberi üzərində qələbənin ardınca, aləmi hədələyən daha qatı, daha universal, daha üfunətli gerber əmələ gəlir.

Bu gün gerber təhlükəsi daha böyükdür.

Bugünkü gerber tərəflərə qələbə və ya məğlubiyyət vəd etmir. O, xalqları mütləq bir ölümlə hədələyir. Lakin yenə də dünya Herakl yox, Koroğlu vəziyyətindədir.

Gerber təhlükəsi dünyanı öz caynaqlarına keçirir. Dünya da matıqutu qurumuş şəkildə onun qarşısında dayanır, dirəniş göstərir və Koroğluluğa, döyüşə hazır vəziyyətdədir. Bu dünya döyüşü yalnız ona görə baş vermir ki, o, hamı üçün ümumi bir ölüm vəd edir. Bu mütləq ölüm bəşəri dünyanı bürüyəcək döyüşdən çəkindirir və bəşər bir an üçün Koroğlu ilə Heraklı bir nöqtədə birləşdirir.

Biz qətiyyətlə deyirdik ki, dünya "elə yox, belə daha yaxşıdır" əsasında hərəkət göstərmir.

Amma dünya indiki şəraitə görə belə hərəkət edib Herakl yolu tutsa idi, bundan nə nəticə alınardı? O zaman gerberin sonu çatardı.

Əlbəttə, dinc yolla gerber sıradan çıxandan sonra dünyanın hansı səmtə yönələcəyini əvvəlcədən söyləmək çətindir. Kimsə şübhə etmir ki, tarixin naqis ənənəsinə əsaslanan gerber süni surətdə çətinliklər törədir. Dinc yolla gerber aradan götürülsə idi, bu çətinliklər də olmazdı. Amma dünya həmin dünyadır, xalqlar həmin xalqlar, insan da həmin insan...

Dünyaya daha böyük tərəqqi lazımdır.

Lakin bütün bunlar şərti söhbətlərdir. Qarşıda real dünya və gerber dayanmış.

Dünyanın və gerberin, gerberin və dünyanın aqibətini nə gözləyir?

Tarixin bütün gedişatlarında gerberlər gəlib getmiş, dünya isə yerində qalmış. Lakin gerberin kökü üzülməmiş.

Bugünkü gerber əvvəlki gerberlərə bənzəməz. Necə ki, bugünkü dünya da əvvəlkilərə.

Hər şeydən əvvəl gerber nə qədər təhlükəlidirsə, o qədər də ölümsüzdür. Bu gün gerberin dayaqları müxtəlifdir. Onun daxildən arxalandığı doğma qüvvələr yoxdur. Çünki gerber birinci növbədə öz doğmalarına yağı kəsilmiş. Daha sonra isə gerberin heç bir təşəbbüsü baş tutmur, istənilən nəticəni vermir. O, içəridən çürüyüb tökülür. Siyasətdə isə daim uduzur. Çünki o, ağlın səsini eşitmir, əsil elmə əsaslanmır, idrakdan isə məhrumdur. Gerberin əlində tarixin naqis ənənəsi və müasir hərbi maşın var. Gerber hər şeyi buraxıbdır. Bu ənənə və hərbi maşının adından danışır. Bu gün gerberin idrak və tərəqqi harayı oyun-oyuncaq timsalında bir söz-söhbətdir.

Lakin Gerberin ənənəsinə və hərbi maşınına qarşı da dünya dayanmış.

Gerberə qarşı dünya düşünür, ilkin dirənişlər gözləyir və hərəkət planları hazırlayır.

Gerber içəridən çürüyüb tökülür. Lakin onun öz-özünə açılıb düşəcəyi gümanı şübhəlidir. Görünür, bir təkan, itələmək lazım gələcək. Lakin bu “bir təkan”, “itələmək” sözünü demək asandır. İşdə isə vəziyyət daha dəhşətlidir. Bu dəhşətə qarşı dünya bir qədər ağıl göstərir. Amma ən böyük hadisə odur ki, gedişat müəyyən an üçün bütün qüvvələri bir nöqtəyə aparır. Gerberlərin taleyi, bu nöqtələrdə həll olunur...

Hər halda dünya ilə gerber heç bir zaman bugünkü qədər üz-üzə gəlməmiş. Olsun ki, tarix bu dəfə gerber məsələsini bir dəfəlik həll edə bildi. Axı, tərəqqi də indi əvvəllərdə olduğu kimi dünyanı adda-budda deyil, bütöv şəkildə əhatə etməkdədir.

Herakl Evrisfeyin tapşırığını yerinə yetirir. O, Gerberi təslim edib o dünyadan çıxarır.

Əlbəttə, sonra gerberi buraxırlar. Gerber o dünyaya öz işinə qayıdır. Lakin gerber ilk dəfə təslimin dadını görmüşdü. Daha o əvvəlki qüdrətini və iddiasını qoruya bilməzdi.

Herakl cılız bir varlıq olan padşah Evrisfeyə tabe vəziyyətinə düşsə də qəhrəmanlıqlar göstərir, bu da onun qüdrətini təsdiq edir və bununla da onun başı qarışırdı. Azadlığa çıxmaqla yanaşı Heraklın bu fəaliyyəti də başa çatırdı. İndi o, nə işlə məşğul olacaq, onun fiziki və mənəvi qüvvəsi hansı işə tətbiq olunacaqdı?

Hər bir qüdrətli, istedadlı şəxsin yetişmə dövrü var. Sonra yaradıcılıq gedişatı başlayır. Əsil dahilik yaradıcılığın coşğun dövründən kamilliyə qədəm qoyur. Məsələn, C.Cabbarlının "Ədirnənin fəthi", "Trablis müharibələri", "Aydın", "Oqtay Eloğlu" kimi pyeslərini yaradıcılığın bu coşğun dövrünün məhsulu hesab etmək lazımdır. Və bu, dünya yaradıcılığının mühüm dövrüdür. Əgər yaradıcı əsil dühadırsa, sonra kamillikdə bəşər həyatını, dünyanı əhatə edən daha dərindən düşünülmüş, sakit tərzdə yaranan əsərlər başlayır. Yaradıcılığın coşğun dövrü isə bu cür əsərlərin meydana gəlməsinin bünövrəsini qoyur və həmin dövr əsərlərindən kamilliyin bütün bürcləri görünür.

C.Cabbarlının "1905-ci ildə" pyesini insan dühasının kamil dövrünün məhsulu hesab etmək mümkün idi. Lakin C.Cabbarlı həmin mövzuda yaradıcılığının coşğun dövründə, 1918-ci ildə "Bakıda küçə döyüşləri" pyesini yazmışdı. Bəlkə də bu onun şah əsəri idi. Lakin əsərdən qırıntılar belə qalmamışdı. "1905-ci ildə" pyesi həmin əsərin ikinci surəti kimi səslənir. Çünki mövzunun şirəsi o zaman axıb qurtarıbmış. Ona görə də "1905-ci ildə" pyesi dramaturqun kamil dövründə yazılsa da, C.Cabbarlıya məxsus pafosdan məhrumdur. Bəlkə də bu kamillik sənətkarın başa çatmamış və üzərində işlədiyi "Əfqanıstan" pyesində özünü göstərəcək idi. Lakin hadisələrin sonrakı inkişafı, taleyin bəd rəftarı dünyanı ağzı aşağı qapadı.

Bir sıra istedadlarda yaradıcılığın coşğun dövrləri vədlər verən məhsullarla meydana çıxır. S.Vurğunun coşğun lirikası, bir çox poemaları, "Komsomol poeması" əsəri, "Vaqif" pyesi kimi. Bu əsərlər S.Vurğun istedadının coşğun dövrünün məhsullarıdır. Biz, əlbəttə, kamillik dövrünün məhsulları olan, məsələn, "İnsan", "Aygün" haqqında da böyük fikirlər söyləyə bilərik. Lakin burada bir

qəti hökm kimi söyləyirik ki, S.Vurğunun sonrakı yaradıcılığında "Vaqif" pyesinin vəd etdiyi şeylər alınmadı.

Herakl isə belə yarı yolda dayanan dühalardan deyildi.

Herakl fəaliyyətinin coşğun dövründə bir sıra hadisələri başa çatdırdı. On iki qəhrəmanlıq göstərdi və s. Prometeyin azadlığa çıxması qəhrəman fəaliyyətində çoşğunluqla kamillik arasında keçid dövrü hesab edilməlidir. Lakin coşğunluqla kamillik arasında Herakl hələ gündəlik həyata alışmalı idi.

Hər halda dahi də insandır. O da bir an nəfəs almalı, özü haqqında düşünməlidir. Bəzi vaxtlarda yaradıcılığının coşğunluğu buna imkan vermirsə, baş ayılan kimi bir an üçün həyata qayıtma mümkündür. Herakl həyatının bu dövrünə qədəm qoymuşdu. Lakin o, hələ gündəlik həyata alışa bilmirdi.

Herakl gündəlik həyata alışa bilmir. İndi böyük fəaliyyətlərlə onun nəfsi çəkmir. Tullanıb-düşmək, ov səhnələri, adi döyüşlər ona fəaliyyətsizlik kimi görünür. Herakl üçün bir anın istirahəti, nəfəsin dərilməsi darıxmaq demək idi.

Ən betəri bu idi ki, adi həyata alışa bilməməkdə Heraklın hövsələsi çatmırdı. O, tez-tez hiddətlənir və əlindən çıxacaq da çıxırdı.

Həmin dövrdə müşahidə edilən cəhətə görə bəzi variantlar səfehlik və huşsuzluq ilahəsi Ate əhvalatına əl atır. Lakin biz orda söylədik ki, Zevs, Allahın işlərinə əl atan sərsəm addımına görə onu kəlləsi üstə göydən yerə atmış. Həmin andan da Ate hamı üçün ümumi cəhət olmuş. Gərgin vəziyyətdə, iradənin, ağlın zəiflik göstərdiyi yerlərdə hövsələsizlik baş verirsə, səfehlik və huşsuzluq, yəni Ate qalib gəlir. Vəziyyət belədir. Lakin Zevs Ateni elə xəbərdar etmiş, elə cəzalandırmış ki, daha o, ayrıca adamın huşunu əlindən almağa cəsarət göstərməz.

Heraklın hövsələsizlik göstərməsi, tez-tez özündən çıxması, sadəcə olaraq, böyük işlər üçün yaranan adamın gündəlik həyata birdən-birə alışa bilməməsinin nəticəsi idi.

Lakin Herakldakı bu hövsələsizlik bəzən ətrafındakılara ziyan vurur, xəsarətlik, hətta bədbəxtlik də gətirir. Belə nəticələrdə, hətta təbii vəziyyətin nəticəsi üçün də Zevs öz oğluna güzəştə getmir. Hövsələsizliyi üzündən Heraklın əlindən çıxan bir bədbəxtliyinə görə Zevs öz oğlunu cəzalandırır. Ona dəhşətli ağrısı olan xəstəlik göndərir. Hər halda Herakl Zevsin ilahələrdən birinin deyil, adi insandan olan övladı idi. Zevs Heraklın tərbiyəsi üçün digər oğlunu – Hermesi onun yanına göndərir. Hermes isə bu vəziyyətdə qardaşının

ən yaxşı tərbiyəsi üçün ona xidmətçilik yolunu seçir. Hermes Heraklı Lidiya çariçası Omfaleyə üç il kölə verir.

Qəribədir, göylərin fitnəsi nəticəsində Herakl hakimiyyətdən məhrum edilir. Ata, Zevs Allah gülümsəyir, sevinir. O, güman edir ki, oğluna itirilmiş hakimiyyətin qarşılığında ilahi yollarla daha böyük xoşbəxtlik qismət olacaq. İndi də Allah oğlunu suçuna görə vicdanını tərpətmək yolu ilə ağrılar göndərir, tərbiyə naminə köləliyə verir.

Qəribə simvoldur! Deməli, hakimiyyətin gətirdiyi böyüklük və xoşbəxtlik xırdalar, simasızlar üçündür. Köləlik də zəif adamları zəlil kökünə sala bilər. Qüdrətli adamlar üçün isə hakimiyyət yük və məhrumiyyətdir. Əksinə, köləlik yaradıcılıq, kamala çatmağa bir həyat yoludur.

Herakl hikmətinin məğzi bundadır.

Herakl köləlikdən xilas olur. İndi o, tədriclə həyata alışırdı. Və birdən onun o dünyada dostuna verdiyi söz yadına düşür. Herakl evlənməli idi.

Bu vəsiyyəti yerinə yetirmək, Deyanira ilə evlənməyə layiq olduğunu sübuta çatdırmaq asan deyildi.

Bütün insanların ailə həyatı başa gəlir. Bu və ya başqa şəkildə! Lakin böyük adamların qarşısına bütün hadisələr bir problem kimi çıxır. Xüsusən də sevgi və ailə kimi mürəkkəb gedişat.

Allahın oğlu olmaq, bu dərəcədə qüdrətlilik, kamillik, göstərdiyi hünərlər, dostunun – Deyarinanın öz qardaşının vəsiyyəti belə, Heraklın ona çatması üçün bəs eləmir.

Lakin Herakl başqa çətinliklərdə olduğu kimi sevgi, ailə imtahanından da uğurla çıxır.

Herakl Deyanira ilə evlənir. Herakla, Deyaniraya layiq səadət baş verir.

Herakl Deyaniranı da götürüb daimi yaşayış üçün Traxin şəhərinə gəlir. Yolda onlar bir çaydan keçməli idilər. Qoca Kentavr Ness muzdla burada adamları çaydan keçirirdi. Herakl Deyaniranı Kentavr Nessin belinə mindirir. Özü isə qabağa düşüb çayı keçməyə başlayırlar. Birdən o, Deyaniranın həyəcanlı qışqırığını eşidir. Kentavr geri dönmüşdü və Deyaniranı götürüb qaçırdı. Herakl Kentavrı oxla vurur. Onun üçün başqa yol qalmamışdı.

Kentavrın qanı axırdı. O bilirdi ki, ölümcül yaralanmışdı. Ness qadın ağlındakı zəif cəhətdən istifadəylə Herakldan intiqam almaq üçün fürsət düşünür. O, Deyaniraya deyir ki, mən sənə yaxşılıq

etmək istəyirəm. Mənim qanım sehrlidir. Ərinin məhəbbəti azalarkən və ya səndən soyuduğunu müşahidə edərkən mənim qanımdan xəlvəti onun bədəninə sürtsən Heraklın əvvəlki məhəbbəti qayıdar və səni daha şiddətlə sevər. Odur ki, mənim qanımdan yığ, saxla.

Öz fikrinə Deyaniranı inandırmaq üçün yəqin ki, Nessin burada yaman dilbasmaları olmuş. O deyə bilər ki, siz mənim ömrümün qırılmasına səbəb olsanız da, sənə məhəbbətim baqi qalır. Mən xeyir üçün yaranmışam. Təbiətim məni pisliyə qarşı yaxşılığa sövq edir. Üstəlik sənə qarşı yönələn ülvi duyğular və s.

Əks təqdirdə ilk təkliflə Deyaniranı təlqin etmək başa gəlsəydi, onda o, yelbeyinlərin yelbeyini olardı. Onsuz da həmin anda Deyanira ərini özünə bağlamaq arzusu ilə yelbeyinlik göstərir.

İllər ötür. Herakl-Deyanira ailəsi məhəbbət, səadət, ülviyyət təcəssümü idi. Lakin Herakl xidməti vəzifəni başa çatdırsa da, ailə səadətinin iqliminə qərq olsa da, kişi idi. İstər-istəməz o, kişi vəzifələrini yerinə yetirməliydi.

Herakl çöl işləri ilə məşğul olur, ova və döyüşlərə başı qarışırdı. Bəzən qəhrəman çöllərdə ləngiyirdi, evə vaxtlı-vaxtında qayıda bilmirdi. Bir çox halda bu ləngimə həftələrlə uzanırdı. Buna görə elə də olurdu ki, Deyanira narahatlıq keçirirdi.

Bir dəfə də Herakl döyüşdə ləngidi. Deyanira narahat idi. Sonra Herakl qayıdarkən əvvəl qənimət götürdüyü hədiyyələri göndərir. Qənimətlər içərisində gözəl bir kəniz də var idi. Deyanira onun kimliyini xəbər alır. Qənimətdir deyə cavab verirlər. Acı dilləri də tərpədən olur. Deyanira qısqanır. Qısqanclığın və yelbeyinliyin (yaxşı qadında da müşahidə edilən yelbeyinliyin) təsiri ilə əri üçün hədiyyə hazırladığı köynəyə Kentavr Nessin qanından sürtüb evə qayıdan ərinə, yolda ona çatdırmaq üçün hədiyyə göndərir. Herakl hədiyyəni, köynəyi arvadın ərə məhəbbət müjdəsi kimi sevinclərlə əyninə geyərkən Nessin qanı onun bədəninə toxunur və dəhşətli ağrıları başlayır. Ness Deyanira və ölümü üçün Herakldan intiqam almışdı. Heraklın bədənində yaralar əmələ gəlir və ağrının şiddətindən özünü qoymağa yer tapmır.

Xəbər gəlib Deyaniraya çatır. Deyanira aldandığını və ərini nahaq dərdə saldığını anlayır. O, ləyaqətli və sevimli ərini dərdə salmışdı. Zərif, məhəbbətli, itaətkar, abırlı Deyaniranın Heraklı qarşılamağa üzü qalmamışdı. Deyanira intihar edir.

Layiqli bir səadət busatı pozulur.

Herakl evə çatarkən qanlı bir səhnənin şahidi olur. O, arvadından zərbə almışdı. Bu ər-arvad münasibətlərinin üzərinə kölgə salırdı. Lakin baş verən sonrakı müsibət edilən günahı yuyur, günahsız, sadəlövh Deyaniranın ərinə münasibətini fədakarlıq tülü ilə ülviləşdirirdi. Məhəbbət, müsibət, günahsızlıq və ülviyyət bir-birinə qarışırdı.

Herakl qüdrətli yaranmışdı. O, hakimiyyətə və Allah oğlu olmaq çərçivəsinə sığışmadı. Dünya ilə üz-üzə gəldi, hünərlər göstərdi. Yekunda isə bütün bunların mükafatı kimi Deyanira ilə ailə səadətinə çatdı. Bu səadət busatı pozularkən Herakl elə vəziyyətə düşür, aydın olur ki, dünyaya sığışmayan Herakl ailə sevinci çərçivəsinə sığırdı. Çünki bu səadət layiqli xidmətdən sonra gəlirdi.

Herakl intihar qərarına gəlir. O, Deyanira münasibətindən sonra yaşamaq istəmirdi. Qəhrəman ölüm üçün yollar arayırdı...

Vəziyyətin bu cür alınmasında, Nessin intiqamını sərf-nəzər etsək, çapqının antibəşəri mahiyyətini də görmək olar. Çünki Axilles kimi Herakl da məcburi döyüşlərdən başqa, qənimət də daşıyırdı. "İliada", "Odisseya" dünyasında olduğu kimi, Herakl aləminin müəyyən hissəsində də soyğun yaşayış üçün istehsalın ünsürünə çevrilir. Əslində isə məqamında izaha çalışdığımız təkin soyğun məhsul kütləsini artırmır, əksinə, istehsalın qaydasınca gedişini pozur... və s. Bu, antibəşəri gedişin Deyanira əhvalatı kimi uğursuz yekunu olmalı idi.

Vəziyyəti ailə gedişatının daha çətin, daha həll olunmazlığı təkin də izah etmək mümkündür. Demək mümkündür ki, qəhrəmanlıqlar göstərən, müşküllər açan Herakl ailə toruna ilişdi, burada bacarmadı.

Bu mülahizələrin hamısı özünü doğruldardı.

Lakin əsaslı şey odur ki, Göylər Heraklın əlindən hakimiyyəti alıb, əvəzində xidmət vermişdilər. Burada bəlli səbəb bəhanə idi. Əsil səbəb o idi ki, Heraklın böyüklüyü hakimiyyət çərçivəsinə sığmırdı.

Sonra Herakl səadətə çatdı. Hakimiyyət çərçivəsinə sığmayan Herakl səadətlə tamamlanan ailə çərçivəsinə qablanmışdı. Buraya o sığırdı. Çünki bu səadət xidmətlə qoşa idi. Bir Deyanira Herakl üçün bütöv dünya kimi görünürdü. Ona görə də hakimiyyəti itirəndə müvazinətini pozmayan Herakl Deyanira müsibətinə dözmür.

Lakin Heraklın böyüklüyü onda idi ki, hakimiyyəti itirəndə olduğu kimi, səadəti də müsibətə çevriləndə haray-həşir salmır, deyinmir, asi olmur. O, günahsız göz yaşları tökür, lal-dinməz şəkildə ağlamaqla qalır. Çünki Herakl həyatın dargözlüyünə, xırdalığına, xırdalanmış

həyatın başa gətirdiyi “bəşəri” dünyaya bərabər deyil. Onu bu dünyaya Deyanira bağlayırdı. O isə yoxdur. Herakl yaşamaq istəmir.

Əgər Göylər Heraklı hakimiyyətdən məhrum edirsə, Yerlər səadətdən məhrum edir.

Beləliklə, hakimiyyət çərçivəsinə sığmayan Herakl səadət çərçivəsinə də sığmır. Herakl-Deyanira əhvalatının əsil məndəricəsi budur.

Hakimiyyət və səadət çərçivəsinə sığmayan Herakl xidmət üçün dünyaya gəlmişdi.

Yer aləminin hakimiyyəti və səadətindən məhrum olan Herakl xidmətini də başa çatdırmışdı. Onun Yer həyatı qurtarmışdı. O, ölməyə də nahaq cəhd göstərirdi. Çünki göstərdiyi xidmət onu ölməyə qoymazdı. Doğrudan da, o, ölə bilmirdi. Odur ki, allahlar onu öz məkanlarına qəbul edirlər. Hətta burada Hera özü onu açıq çöhrə ilə qarşılayır.

Burada çox mürəkkəb bir vəziyyət qarşısında qalırıq.

Səadət nədir?

Yer səadəti nədir?

Göy səadəti nədir?

Adi adamlar üçün səadət nədir?

Böyük adamlar üçün səadət nədir?

Böyük adamlar zahiri əlamətlərə uyub Yer sədaətinə meyil göstərdikdə hansı nəticə aınır?

Bu sualların çalarlı cavabına burada ehtiyac yoxdur. Bəzi ümumi qeydlərlə yetərlənək və yekunlaşdıraq.

Biz Stalin timsalına müraciət etmişdik. Bu adam sanki Göylər üçün, Göy səadətindən ötrü yaranmışdı. Elmi, həyatı, elmlə həyatın vəhdəti olan həqiqəti qavrayan böyük ağlı, aydın təfəkkürə sübut və əlamət kimi misilsiz üslubu hər şey idi. Amma onun arxalandığı şey hələ bu başdan Göyləri rədd edirdi. Arzuların kökünü kobud şeylərlə başlayır, ülviyyət haradasa mövcud ola bilər və bu kobud, maddi şeylər üzərində ucalır. Hətta ideya çərçivəsində belə, Stalin lazım gəldikdə dərhal elmdə idrak möcüzəsi göstərə bilirdi. Xüsusən bu cəhət ömrünün sonuna yaxın yaratdığı dil və iqtisadiyyatla bağlı əsərlərində ifadə olunur. Bu əsərlərdə xalq, millət, xalqla millət arasındakı sınırlar, xalq dili, milli dil anlayışı, metamorfozlarla bağlı fikirləri ilə lap razılaşmasaq da, idrakın elmdə törətdiyi möcüzə göz önündədir.

Stalinin əvvəlki əsərləri də var. O, dünya işlərinin başında dayanması ilə bağlı hadisələrlə üzləşirdi. Hadisələrə verdiyi izahatlar

da Stalinin şeylərin həqiqətinə girən və vəziyyəti dərhal alan ağlına işarədir.

Lakin Stalin xidmət üçün bu yolu tutmamışdı. Həmin yolu tutmaq üçün gərək deyəsən: mən başqa şeylər üçün yox, ancaq bu məqsəd üçün dünyaya gəlmişəm. Bu mənim əlimdən alınarsa, heçə çevrilərəm. Burada bir həqiqət var. Qəbul edilən qərarda şüurlu hərəkətin də önəmi yox deyil. Əgər ağıl, ürək çox böyüksə, hər şeydən üz çevirib xidmət, ülviyyət yolu tutulmalıdır. Belə olsa idi, Stalinin aydın təfəkkür tərzi və ilahi üslubu hər cür idraki möcüzəyə meydan verirdi. İdrak dünyası onun simasında necə də böyük bir möcüzəni itirmiş!..

Lakin Stalin əsas yolu və xidməti dünya hadisələrinin başında durmaqda görürdü. Ülviyyət burada Stalin üçün bir ünsür idi.

Herakl hakimiyyətdən məhrum edildi. Stalin isə möhkəm surətdə hakimiyyətdə yerləşdi. Stalinə məxsus hakimiyyətin sehri və müstəsnalığı onda idi ki, Stalin hakimiyyətdən, hakimiyyət də Stalindən bərk yapışmışdı. Tarixdə bu səviyyədə ikinci bir hadisə müşahidə edilmir.

Səadət də Heraklın əlindən alınmışdı. Hakimiyyət mütləq bir səadət yaratmasa da, həyatın nemətlərini dadmaq imkanı verir. Stalinin əxlaqı ilə bağlı son dərəcə qeyri-rəsmi və uzaqdan-uzağa tutqun söhbətlər gedir. Amma gedən söhbətlərdən başqa belə işlərin həqiqətinə girən ağıl və üslub da var. Stalin kimi bütöv şəxsiyyət, bütün ömrünü fəaliyyətə bağlayan adam axıra qədər nemətlər bataqlığında qala bilərdimi? Hələ buna üstəlik Stalin haqqında mənfi rəy yaratmağa çalışan rəsmi dairələr hər şey söylədi. Lakin onlar özləri belə, onun etik hərəkətləri ilə bağlı kölgəli söhbətlər etmədi. Deməli, onda nuş etmək cəhdi zəif imiş.

Hakimiyyəti əlindən alınan Herakl göylərə ucaldı. Çünki o, öz fəaliyyətində Göylərə xidmət yolunu tutdu. Hakimiyyət isə Stalin kimi bütöv bir şəxsi eybəcər vəziyyətdə qoydu və lənət hədəfinə çevirdi. Çünki o, öz fəaliyyətində Yerlərə xidmət yolunu tutdu. Nə qədər əllaməliklə başa gətirilsə də, pis işin yaxşı nəticəsi ola bilməzdi...

"Təəssüf ki, həyat kəlamlarla hərəkət etmir. Tarixin naqisliyi, insanın zəifliyi ardıcıl surətdə nüfuz göstərir.

Heraklın taleyi ilə bağlı eyni vəziyyət başqa bir yunan əsatirində, "Arqonavtlar"da müşahidə edilir. Lakin lap əks istiqamətdə və əks nəticə ilə.

Müqayisəli izahat fikri bütöv olmaq işinə köməklik göstərərdi.

*xxx*

Əsərin Herakla bağlı hissəində üç özünəməxsus, geniş konsepsiya var.

I. “Göy insaniliyinin” “yer insaniliyindən” fərqi və üstünlüyü.
II. Bəşərin şərə meyil etməsi.
III. Qəhrəmani itaətkarlıq – “Herakl itaətkarlığı”.

Hər konsepsiyanı hərtərəfli işləyib – bəşər tarixinin qanunauyğunluğu kimi təsdiq etmək lazımdır.

Bu, böyük idraki uğur olar.

***Asif (Əfəndiyev) Ata***

*20.I.81*

Herakldda durum belə idi. Onun atası Anfitrion ov zamanı bir çıxacaq kimi ölkənin padşahının, öz doğma qardaşı Sfenelin oğlu Elektri öldürür.

Sfenal qardaşını vilayətdən ömürlük sürgün edir. Cəza daha ağır olardı. Lakin iki cəhət bu vəziyyəti yumşaldır. Ölüm hadisəsi “cinayət” niyyətli deyildi. Daha sonra isə hadisə doğmalar arasında baş vermişdi. Qardaşın ölkədən ömürlük sürgünü isə şəraitə görə, vəziyyətdən ən yaxşı, insaflı, idraki çıxış yolu idi.

Sfenalın – padşahın – atanın oğlu ölmüşdü. Qaydasınca yaşayış tərzində bu hadisə dərd, ürəkdə ağrı, əhvalda pozuntu törətməlidir. Lakin meydana hakimiyyət mülahizələri girdikdə hər şey mövqeyin möhkəmliyi baxımından qiymətləndirilir. Əgər burada övlad dərdi vardısa, ömürlük sürgündə də Amfitrion kimi ürəyiaçıq və igid qardaşdan ayrılığın həsrəti ola bilərdi. Amma Sfenal dərdi və həsrəti arxaya tullayıb hakimiyyətə ortaq ehtimalından xilasa cəhd göstərdi.

Beləliklə, hələ birinci addımda Heraklın atası hüquqi hakimiyyətindən və ya hakimiyyətə şəriklik etimalından qıraqda qalır.

Heraklın özünə gəldikdə isə o, allahların hökmü ilə hakimiyyətdən uzaqlaşdırılmışdı.

Məsələ onda idi ki, Herakldda heç bir zaman hakimiyyət iştahası da müşahidə edilmir.

Bu məhrumiyyətlə – hakimiyyətdən uzaqlaşdırılmaqla yanaşı, Herakl həm də fəlakətə düşmüşdü... O, həyatın ağır şərtlərini yerinə yetirməklə yanaşı, ömrünün çiçəkləndiyi bir vaxtda yeganə təsəllisi sevimli arvadını da itirdi.

Lakin bütün bunlar Herakl səadətinə mane ola bilmədi. Çünki onun səadəti mənimsəməklə yox, idrakla və xidmətlə bağlı idi.

Eyni vəziyyət başqa variantda "Arqonavtlar" əsatirinin qəhrəmanı Yazonun da başına gəlir.

Yazonun atası Ezon Fassiliyanın İolk şəhərinin padşahı idi. Lakin Ezonun kiçik qardaşı Neley onu taxtdan salır, özü padşah olur.

Heraklın atası pərdəli şəkildə, bir bəhanə, bir şeyə əsasən hakimiyyətdən uzaqlaşdırılır. "Arqonavtlar"da isə bu hadisə açıq şəkildə, xəyanətlə başa gəlir. Burada da doğmalar arasında.

Herakl əhvalatında həmin işi böyük qardaşı kiçiyinə qarşı edir. "Arqonavtlar"da isə həmin işi kiçik qardaş böyüyə qarşı başa gətirir.

Hələ lap başlanğıcda riyasət mülahizələrinin, hakimiyyət ehtiraslarının doğma münasibətlərə, xeyirə və ülviyyətə qarşı dayandığını görürük.

İnsan insanın prototipidir. Onda ola ki, bu insanlar doğma yaranalar.

İnsanın dünyaya gəlişi sadə görünür. Lakin bu bir möcüzədir və səadət sayılmalıdır. Amma bu hadisə daha böyük möcüzəni onda yaradır ki, insan dünyaya gəlişi ilə doğma münasibətlər şəbəkəsini daha da genişləndirsin: valideyn, övlad, bacı, qardaş və s. insanın əhatəsidir, onun dairəsidir, səadətin qol-budağını açır, artırır.

Lakin o nədir ki, insan bundan imtina ilə başqa bir şeyin üstünə cumur? Doğrudanmı mənimsəməkdə və hakimiyyətdə daha böyük məna, səadət var ki, insanlar övladı və qardaşı, bacını tapdalayıb onun ardınca qaçırlar? Həyatın ağır şərtləri və insanın insana qarşı dayandığı vəziyyət başqa. Bir qədər xeyir və idrak ünsürü qatdıqda qıraq şərtlər doğma münasibətlərə girə bilmir.

Herakl konsepsiyasına gəldikdə isə şəri təsdiq etmədi, başqa mənalar pıçıldadı.

"Arqonavtlar" əsatirinin qəhrəmanı Yazon burada Heraklın etmədiyini başa gətirməyə cəhd göstərir, əldən getmiş hakimiyyəti qaytarmağa çalışır.

Görək bu cəhd nə nəticə verir və hansı mənaları pıçıldayır?!

Peliy İolkda qardaşının padşahlığını devirir. Lakin padşahlığı əlindən alınmış Ezon təskinliyi vətənə bağlılıqda və ailə başçısı vəzifələrini yerinə yetirməkdə görür.

Ezon İolku tərk etmir. O, vətəndə qalır. Zira, vərəsəlik mülahizələri onun ailəsini, övladlarını təhlükə qarşısında qoya bilərdi.

Ezon bu istiqamətdə də tədbirli tərpənir. Devrilmiş padşah özünün həyat və səadət meyvəsi övladı dünyaya gələn təki onu doğma qardaşından, padşahdan gizləyir. Ezon oğlunun adını Yazon qoyur və onu Pelion meşəsinə göndərir.

Bu meşə Kentavr Xironun nüfuzu altında idi.

Beləliklə, Yazon dünyaya gözünü açan kimi həm Xironun nüfuzu altına keçir və həm də bu mərhəmətli, mülayim, bilici, sənətkar Allahın tərbiyəsində olur.

Herakl kimi Yazon da Xironun nəzarəti altında tərbiyə tapır, gəncliyini başa vurur və kamala çatır. Bu cəhətdən də Yazonla Herakl arasında bir paralellik müşahidə edilir.

Burada da riyasət mülahizələrinin, hakimiyyətin insana gətirdiyi səadətin əsil mündəricəsi ilə bağlı düyünlü nöqtələr meydana çıxır.

Peliy həyat nemətlərini təpə-dırnaq nuş etmək, "Səadətə"çatmaq üçün doğmalıq, həyat və məntiqin pozulması üçün yadlıq yetərlidir. Öz əli ilə həyata belə bir pozuntu daxil edən Peliy hələ lap başlanğıcda səadətə çata bilirmi?

Hər halda, Peliy öz hökmranlığından narahat olmalı ki, sürgün əhvalatları, gizlənpaç qaravəllisi, Ezon-Yazon-Xiron xətti meydana çıxır. Kahin də Peliyə işarə vurmuşdu ki, ayağında tay ayaqqabısı olan adamdan qorx.

Budur, bax, bu! Riyasətin, hakimiyyətin gətirdiyi səadət!

Riyasət mülahizələri, hakimiyyət tilovu bəşəri ayaqyalın qoyur və ürəkləri daim səksəkədə saxlayır.

Peliy hakimiyyətlə yanaşı, narahatlıq, səksəkə tapır. Onun öz həyatı və "səadəti" ilə bağlı əminliyi yox idi.

Peliyin qəlbinə gizli bir tutqunluq, ağrı, narahatlıq gətirən bir şey isə qeyri-adi bir tərbiyə ilə pərvaz edirdi.

Ezonun oğlu Yazon Xironun tərbiyəsi altında yetişirdi.

Günlər gəlib keçdi, Yazon 20 yaşa doldu. O, təbii imkanları və Xironun tərbiyəsi sayəsində kamala çatmışdı.

Yazon fiziki cəhətdən möhkəm, əqli yöndə yetkin, həyat baxımından bitkin bir sənətkar idi. O, Xironun nəzarəti altında müstəsna bir döyüşçü kimi də yetişmişdi. Artıq nəzarətin və tərbiyənin bələyindən

çıxıb həyata atılmaq vaxtı çatırdı. Bu zaman ömür hər bir kəsin qarşısında müəyyən vəzifələr qoyur. Çox vaxt bu vəzifələrə süni şərtlər də əlavə olunur. Yazon üçün bu “süni şərt” ictimai irsiyyət kimi bağlanmışdı. O, atasına qarşı başa gələn haqsızlığı da aradan götürməli idi. Burda çətinlik daha qabarıq görünürdü. Çünki fərdi güc dövlət kimi ictimai qüvvə ilə üz-üzə gəlirdi. Doğrudur, bəzən fərdi qüvvə ictimai dünyaya bərabər olub tarazlıq yaradır. Xüsusən, bu fərdi qüvvənin arxasında xeyir simasında tarix və bəşəriyyət dayandıqda.

Yazon bu cür yaranmış və yetişmişdi. Belə bir vaxt gəlib çatdı ki, Yazon müəllimi Xirondan ayrılıb İolk şəhərinə doğma yurduna yollanmalı oldu.

Onun ilk vəzifəsi atasının əlindən alınmış hakimiyyəti geri qaytarmaq idi.

Yazon beynində belə bir hava – həvəslə doğma yurda qayıdarkən coşğun dağ çayından keçməli idi. Hələ buna üstəlik bu yolda düşgün, köməksiz bir qarının da qayğısına qalmaq lazım gəlirdi. Hər halda, vəziyyət onun qarşısına belə çıxmışdı. Yazon coşğun dağ çayına yaxınlaşarkən çayı keçmək istəyən, lakin bunu bacarmayan gücsüz bir qarı ondan kömək diləyir. Kömək istəyən səs imdadla haray qaldırmışdı.

Yazon qarını da qucağına götürüb dağ selindən o taya keçir. Bu zaman onun ayağından ayaqqabasının bir tayı da axıb gedir. Yazon tay ayaqqabısı ilə və ya bir ayağı yalın qalır.

İstibdada ilk işarə! İstibdad bu və ya başqa şəkildə bəşəri səfil kökə salmalı, orada qəhətlik, öz-özünü çeynəyib tökmək, təzyiq, haqsızlıq, əzab, təhqir, göz yaşı, boğulmalar, qan, səfillik, ayağıyalınlıq baş alıb getməlidir.

İstibdad bu və ya başqa şəkildə bəşəri ayaqyalın qoyur. Ayaqyalın bəşər də istibdad taleyinə, istiqbalına, – gələcəyinə bir ümidsizlik gətirməlidir.

Öz qardaşının hakimiyyətini qapmış İolk padşahı Peliyin səltənətini də ayaqyalınlığın başa gətirdiyi belə bir təhlükə hədələyirdi. Axı kahin Peliyə demişdi ki, tək ayaqqabılıdan qorx.

Yazon qarıya kömək göstərib onu coşğun dağ çayından o taya keçirir. Lakin qarı ayaqlarını yerə qoyan kimi cingiltili bir səs qoparıb gözdən itir.

O dedi ki:

Yazon, sənin bu xeyirxahlığını mən heç bir vaxt unutmayacağam. Hər halda, qarı cildinə girmək, təhlükəli bir vəziyyətdə qarşıya çıxmaq, kömək diləmək, yad bir adamın həyata atılan gənc üçün köməklər vəd etməsi möcüzə idi.

Bu möcüzə İlahə Hera imiş!

Beləliklə, Yazon həyata atılarkən, məqsədlər ardınca qoşarkən, Zevsin ortağı, bacısı və arvadı İlahə Heranın himayəsinə düşür.

Burada da Heraklla Yazon taleyi arasında bir bənzəyiş var. Herakl Zevs, Yazon Hera tərəfindən müdafiə olunurdu.

Kahin Peliyə xəbər vermişdi ki, ayaqyalın, tay ayaqqabı ilə gəzən bir adamdan qorx. Ona görə padişah ürəyi səksəkəli dolanırdı. O, harada olsa, gözü ayağında tay ayaqqabı olan adamı axtarırdı.

Yazon İolka varid olarkən doğma əmisi padşah Peliy də öz məiyyəti ilə şəhəri gəzməyə çıxmışdı. Yazon şəhərdə adamların sıx yeri ilə addımlayarkən birdən camaat ikiyə aralandı və o, padişahla üz-üzə qaldı.

Peliy təkcə bir ayağında ayaqqabı geymiş bir adamı gördükdə, bütün bədəni ilə titrəyir:

- Sən kimsən?

- Çar Ezonun oğlu Yazonam. Mən qanuni səltənətimi qaytarmağa gəlmişəm.

İstibdad ona qənim kəsilən ayaqyalın bir dünya ilə üz-üzə gəlmişdi. Bu hal Peliyi, – padişahı bir an üçün yerə mıxlayır.

Budur, insanları bir-birinə qənim kəsən vəziyyət, bəşərin hələ də qaça bilmədiyi, bəşərə yad bir duyğu hətta doğmalar belə rastlaşarkən insanı yerə mıxlayır.

Lakin insanı ayrı bir səmtdən yerinə mıxlayan başqa, daha bəşəri bir duyğu da var. O duyğu kamil adamlarda müşahidə edilən ali məhəbbətdir.

Biz məhəbbətə kamil adamlarda müşahidə edilən "ali" eyhamlarını əlavə etdik. Halbuki məhəbbət ümumi duyğudur.

Məsələ ondadır ki, insanların indiki səviyyəsində məhəbbət iki adamı bir-birinə bəlkə də yaxınlaşdırır. Bu yaxınlaşma ümumi iqlim yaratmaq əvəzinə başqalarına qarşı ayrı-seçkilik salır. İki adamın özünün "ülvi" yaxınlaşmasını isə dərhal müxtəlif oyunbazlıqlar, murdarçılıqlar, çəkişmələr və s. müşaiyət etməyə başlayır.

Kamil adamlarda müşahidə edilən ali səviyyəli sevgiyə gəldikdə isə o, iqlimə bir ülvilik, işıq, riqqət, uyum, ahəng aşılayır. Poeziya, sevinc, işıq sezilməz şəkildə bərqərar olur.

Riyasət doğmaları yadlaşdırdı. Məhəbbət isə yadları doğmalaşdırır.

M.S.Ordubadinin “Qılınc və Qələm”ində belə bir yer var. Gəncə hakimi Əmir İnanc gənc şair İlyası, – Nizamini ittihamlarla saraya gətirtdirir. Bu şübhəli bir saraya götürmə idi. Şirvanda Xaqaninin, Gəncədə Məhsətinin törətdiyi haray-həşir sənətkar, şair səs-səmirindən qırağa çıxırdı. İndi isə yeni bir şair adının qopardığı gurultu aram-aram, daha əzəmətlə ucalmağa başlayır.

Zira, gecənin bir vaxtı saraya götürmə nə qədər şübhəli olsa da, böyük adamı mühafizə edən bir zirehin təsiri Əmiri geri çəkilməyə, Nizamini azad buraxmağa məcbur edir:

“İlyas Əmirin evindən küçəyə çıxdığı zaman artıq gecə idi. Çinarın dibində bir qaraltı durmuşdu. İlyas yolunu davam edərkən qaraltıdan belə bir səs eşidildi:

İlyas, səni buraxdılarmı?

İlyas bu səsi eşidib dayandı. Səs ona tanış gəldi və sanki İlyasın bütün varlığına kəmənd atıb onu saxladı. O səs İlyasın gənc sevgilisi Rənanın səsi idi. İlyas da, qaraltı da bir-birinə tərəf irəlilədi”.

*(M.S.Ordubadi, əsərləri, 7-ci cild, Bakı, 1966. səh. 24).*

Bir çox yazılarda, məlumatlarda, eynilə burada da böyük şəxslərin hökmdarlarla, səlahiyyətli adamlarla üzləşməsi işin əslinə çox da uyğun deyil. Burda mürəkkəblik var.

Tarixən İlyas əməlli-başlı Nizami olarkən onun başına səlahiyyətli adamlar, əmirlər, atabəylər, padşahlar, sultanlar fırlanmışlar. Bu fırlanmalar bütün səmtlərdən başqa mündərəcə də olmuş.

“Qılınc və Qələm”də isə Nizaminin lap başlanğıcda sarayla, Əmir İnancla üzləşməsi başqa məna daşıyır.

Böyük yaradıcı adamın öz yolu var. Onun istər-istəməz zülmlə üz-üzə gəlməsi, ictimai həyasızlığa dirəniş göstərməsi ümumi fəaliyyətinin ancaq bir hissəsi ola bilər. Bu üzləşmələrdə yaradıcı adamın daha əzəmətlə vəziyyətdən çıxması, padşahlara belə, üstün gəlməsi pis hadisədən, pis təsəvvürdən doğan pis, əlverişsiz müqayisədir. Bu müqayisə böyük yaradıcı adamın xeyrinə deyil...

Məhəbbət sevilən tərəfə yönəlmiş təhlükəni hiss edir və ona can atır. Məhəbbət qəfildən rastlaşarkən adamlara kəmənd atıb saxlayır.

Riyasət də bunu edir. Lakin lap əks yöndən.

Peliy doğma qardaşının oğlu ilə gözlənilmədən rəqib kimi üz-üzə gələrkən yerindəcə mıxlanıb qalır. Lap məhəbbətdə olduğu kimi.

Lakin məhəbbətdə ilk "mıxlanma" ötdükdən sonra mənəvi, ülvi dünyanın təhriki ilə tərəflər bir-birinə yaxınlaşdığı halda, insanları bir-birinə qənim kəsən şərtlərdə adamlar kəskinliklə üz çevirir, qaçır, aradan çıxırlar.

Bu dünyada adamlar bir-birindən üz çevirir və qorxmuş halda aradan çıxıb qaçırlar.

Peliy qardaşı oğlundan eşitdikdə ki, mən qanuni hakimiyyəti qaytarmağa gəlmişəm, araba guruldayır və qorxmuş çarı götürüb aradan çıxır.

Biz istibdadın mənfi xarakterli mahiyyətini addım-addım açmağa çalışırıq. Burada gördük ki, o insanları bir-birinə qarşı qoymuş (əgər bu işdə insanların öz dılğırlığı da iştirak etmirsə), doğmaları belə bir-birinə qənim kəsmiş.

Başqa təsadüfdə istibdada idrak ünsürü qatmaq şərti ilə vəziyyət bir qədər yumşala bilərdimi?!

Hər halda sualın cavabı ziddiyyətlərlə doludur.

Nə qədər ki, insan zəifdir, tarix naqisliklər seylabından keçir, ya xalq hərc-mərcliyin, dərəbəyliyin pəncəsində əzilir, ya da dövlət istibdad həddinə varıb yad bir "intizam" yaradır. Bu intizam şüurluluqdan, ictimai pafoslu münasibətdən məhrumdur. Burada ürəyin, ağlın, yaradıcılığın, insani bağların yerini qorxu hissi tutur. Cəmiyyət təpədən dırnağa qədər "insan zülmə tabedir" kimi eybəcər məntiqi dildə-dodaqda gəzdirir.

Gözdə qorxu gəzdirən insandan insan, xalqdan xalq, bəşərdən bəşər ola bilərmi?!

Doğrudur, dövlət mütəşəkkil aparatdır. O, süni yolla da zor ocaqları yarada, bu istiqamətdə fəaliyyət göstərə bilir. Lakin ictimai özül olmadıqda bu cür süni zülm zəmini yaradan dövlətlər uzun müddət duruş gətirə bilmir.

Deməli, daha böyük özül insanın, xalqın öz səviyyəsidir.

Xalqın səviyyəsi imkan vermədikdə istibdad insanların bir-birinə qənim kəsilən şərtlərini yumşaldan kimi başıpozuqluq başlayır ki, bu da hər cür istibdaddan daha təhlükəlidir.

Yox, insanın zəifliyi, tarixin naqisliyi şəraitində dövlətə idrak ünsürləri qatdıqda belə, o, həm hərc-mərcliyi aradan götürür və həm də istibdad olmursa, amma yenə də idarəetmə vəzifələrindən uzaqda dayanır. O, ən yaxşı halda diktaturaya çevrilə bilir.

Dövlətin tədriclə idarəetmə aparatına çevrilməsi üçün xalq güclü olmalıdır. Onun səviyyəsi artdıqda əslində dövlətin öhdəsindən gələ

bilmədiyi ictimai vasitələri olur. Bura hər şeydən əvvəl mətbuat, başqa informasiya vasitələri, ictimai qruplar, partiyalar çoxluğu və nüfuzlu şəxsiyyətlər... daxildir.

Bu cür şəraitdə ictimaiyyət dövlətin mütləq müstəqilliyini əlindən alır. Hətta bütün zəruri anlarda dövlət böhranı törətmək imkanı yarada bilir.

Nə qədər ki, bu səviyyə müşahidə edilmir, istibdad insanların bir-birinə qənim kəsilən vəziyyətini yumşalda bilmir. Burada iddialar böyük, pərdəli, minüzlü, hiyləgər münasibətlərin əndazəsi parlaq, amma insanlar xırda hisslərin əsiri və bir-birinə yaddır. Dövlət idarəetmə aparatı mövqeyinə yan ala bilmir. O, zor və həyasızlıq silahıdır.

Dağınıqlıq, dərəbəylik, istibdad, diktatura naqis dünyanın bəlalarıdır.

Lakin biz əsil vəziyyətə bir anlıq göz yumub deyirik ki, istibdad dünyanı səfil, ayaqyalın vəziyyətə salır, insanları bir-birinə qənim edir. Orada doğmalar belə, rastlaşarkən heyrət, təəccüb və qorxu ilə bir an üçün yerlərinə mıxlanıb qalırlar. Sonra bu aylanmadan silkinib bir-birindən üz döndərir, uzaqlaşır, qaçıb aradan çıxırlar.

Yazon qanuni haqqını, hakimiyyəti qaytarmaq üçün İolka gəlir. Şəhərdə veyillənərkən birdən adamlar ikiyə ayrılır. O, müstəsna bir heyətlə əmisi ilə üz-üzə gəlir.

Yazon vəziyyətə görə bu üzün şahanə, onunla danışan adamın isə doğma əmisi Peliy padşah olduğunu duymaya bilməzdi.

Lakin bu adam Yazona "sən kimsən?" sualını verdikdə "yad" adam mərdanə şəkildə özünü nişan verir və məramını bildirir.

Padşah arabanı guruldadıb aradan çıxdıqda isə Yazon tək-tənha, birbaşa saraya soxulur, pərdəsiz şəkildə Peliylə göz-gözə dayanıb təklifini bildirir.

Yazonun məqsədə doğru birbaşa, bu cür şütüməsində onun fərdi gücünə və hazırlığına bir işarə var.

Əlbəttə, dövlət elə aparatdır ki, hər hansı fərdiyyətlə onun üz-üzə dayanmasında qüvvələr nisbəti bərabər deyil. Bu iki iş əfsanələrdə, nağıllarda, dastanlarda asandır, Zal oğlu Rüstəm, Koroğlu və s.

Lakin real tarixdə bir nəfərin üzə çıxmasına qədər zor və həyasızlıq aparatı minləri işgəncə, qırğın körfəzindən keçirir. "Bir nəfər" isə o zaman peyda ola bilir ki, o, bir nüvə kimi ətrafındamühit əmələ gətirir, narazılar, qəhrəman bir oğlun ətrafında birləşir.

"Arqonavtlar"da isə Yazon zülm, qəsd, həyasızlıq, vicdansızlıq aparatının üstünə tək, birbaşa gedir. Həm də istibdada tələblər irəli

sürür. İstibdad da dərhal dəyənəyə müraciət etməyin əvəzinə hiylə mexanizminə əl atır.

Hiylə bir çox başqa şeylərlə yanaşı, hər halda zəiflik də əlamətidir. Doğrudanmı, bir nəfərin gücü dövlətə qarşı üstün vəziyyətdədir?! Elə isə bu, son dərəcə qeyri-adi bir şey olmalıdır.

Makedoniyalı İsgəndərin əvvəlcə hakimiyyəti ələ alması, sonra vətənində qüvvətli, mərkəzləşmiş möhkəm dövlətin yaradılması, onun misli-bərabəri olmayan istila döyüşləri tarixən məlumdur. Tarixçilər isə məlumat verirlər ki, çətin vuruşmalarda, qoşunun girə bilmədiyi yerlərdə İsgəndər özü əlində nizə cəbhəyə baş vurar, bu üzdən girib o üzdən çıxar, qoşuna yol açardı.

Şeyx Şamilin şəxsiyyəti ilə bağlı belə söhbətlər də var. Ən ciddi döyüşlərə Şamil özü atılar və bu da döyüşün nəticəsində öz ifadəsini taparmış.

Lakin açıq cəbhə döyüşünə nisbətən dövlət aparatının üstünə yerimək daha çətindir. Çünki cəbhə ilə müqayisədə dövlət, onun başında duran şəxs ictimai zireh pillələrində gizlənir, gözdən itir.

Yazon bu cür tilsimlə üz-üzə gəlmişdi və təkliflər, tələblər irəli sürürdü.

Tarix bu cür vəziyyətə də şahidlik verir. Deyilənə görə, Nadir şah Təhmasibin saray qapılarından tutmuş taxtının qapılarına qədər təkbaşına nizə ilə özünə yol açmış və dövlət çevrilişini başa gətirmişdi.

Əgər Yazonun bu tarixi vəziyyətlərlə qohumluğu varsa, bu onun fərdi keyfiyyətinə daha böyük işarədir. Bu cəhət bizim izlədiyimiz ideya üçün önəmlidir.

Yazon saraya yollanır. O, Peliylə üz-üzə dayanıb deyir ki, indicə hakimiyyəti özüm əlindən alıb, sənə və qövmünə də istədiyim cəzanı verə bilərəm. Hərçənd ki, sən əmimsən. Lakin sən mənə səndən daha yaxın olan atama yamanlıq etmisən. Bu cəhət mənə haqq verir ki, səninlə istədiyim kimi rəftar edim. Zira, mən həddi gözləyir, əmi hüququna hörmət qoyuram. Qanuni haqqımı, hakimiyyəti xoşluqla mənə qaytar. Əvəzində isə həyatına və mülkünə təminat verirəm.

Peliy təklifdən birbaşa boyun qaçırmır. Ağılsızlıq edib zora da əl atmır. O, hiyləyə müraciət edir. Peliy Yazona söyləyir ki, yad bir ölkədə, uzaq Kolxidada bizə məxsus qızıl yunlu qoyun dərisi var. Bu dəri özü böyük sərvət, dəfinədir. Lakin dərinin iksiri daha önəmlidir. Bu da ondan ibarətdir ki, dərinin qorunduğu ölkədə məhsulun qabağını almaq olmaz, bolluq, bərəkət aşıb-daşar. Mən hakimiyyəti

mənimsəmişəmsə də, uzun müddətdir padşaham. Qoy iş qanuni olsun. Hakimiyyəti sənə havayı verməyim. Qəhrəman balasan. Sən əvvəlcə səfər edib yad ölkədən bizə məxsus həmin dərini gətir. Əvəzində isə hakimiyyəti özünə qaytaraq.

Peliy öz zənnində Yazonu aldadırdı. Hakimiyyəti dolayı yolla əldə saxlamaq üçün. Çünki adi təsəvvürə görə, dəriyə sahiblənmək müşkül bir məsələ idi.

Lakin Yazon şərtlə razılaşır və yeni məqsəd dalınca qoşmağa başlayır. Bununla da dastan əsil özül üzərinə gətirilmiş olur.

Bəs o hansı “qızıl yunlu qoyun” dərisidir ki, yad ölkəyə düşmüş və onda bu qədər mənalar gizlənmiş?!

Mifologiya əhvalatı belə əsaslandırır.

Nefela Göylər qızı idi, buludlar dünyasının qızı. Bir gün o, Orxomen şəhərinin simasında süzərkən bir saray görür. Geniş eyvanlı, aynalı, şüşəli, salonlu, günəşli bir saray. Saray buludlar qızını cəzb edir. O, göylərdən enib saraya daxil olur.

Bu bina Orxomen çarı Afamantın sarayı idi. Nefelanın buraya daxil olması padşahlıqda ictimai imkana, rahatlığa, firavanlığa səadət də əlavə edir.

Saraya qədəm basan bulud qızı Nefelanı görürlər. O, burada əziz, gözlənilən bir şəxs kimi qəbul olunur. Sonra bu şəxs bütöv bir aləmə çevrilir. Çar Afamant və Nefela bir-birilərini görür. Bu görüş cazibəli və sehrli idi. Məhəbbət yaranır və ailə baş verir.

Afamant və Nefela xoşbəxt idi, yaşayırdılar. Sonra onların əkiz uşağı olur: bir oğlan, bir qız. Oğlanın adını Firiks, qızın adını Hella qoyurlar.

Bütün mülahizələr, rəylər, fikirlər məhəbbəti ailə səadəti, onun yaşaması üçün bir şərt, bir sütun kimi göstərirlər. Lakin təcrübələr göstərir ki, nə qədər mühüm olsa da, məhəbbət ailədə səadət və ailənin davamlılığı üçün yalnız şərtlərdən biridir. Çünki məhəbbət ailə çalarlarını bütün çoxcəhətliliyi ilə qavraya bilmir. Burada zahiri əlamətlər və bəzi mənəvi yaxınlıq işə təkan verə bilir.

Halbuki ailə fərdlərinin çıxdığı mühit, ataların dediyi kimi, hər kəsin babı olması, digər ictimai şərtlər və s. amillər də var.

Afamantın sarayı Nefelanı cəzb etmişdi. Sonra gənclər bir-birilərini gördülər. Bu görüş cazibəli idi. Məhəbbət də yarandı.

Ailədə məhəbbət var. Sarayda maddi şərtlər səadətə mane ola, ailə ahənginə basqı göstərə bilməzdi. Üstəlik, Nefela ana da olur. Oğul və

qızdan ibarət övlad. Səadət və ailə özülünün davamlılığı üçün bu şərtlər yetərliydi.

Lakin bu səadət yurdu, ailə və cazibə məkanı Nefela üçün yad idi. Genişlik və buludlar dünyasının həsrəti onun dünyasını pozur, qəlbini sıxır. Vətən həsrəti, mühitə bağlılıq o qədər qüvvətlə baş qaldırırdı ki, saray həyatı, gənclik, məhəbbət, ailə ülviyyəti və qayğıları da bu hissi üstələyə, ovuda bilmir.

Bir gün Nefela sarayın eyvanında həsrətlə göylərə boylanarkən, ucalığın aydın dünyasının bir səmtində üst-üstə qalanan buludlar dəstəsinin süzdüyünü görür. O, özünü saxlaya bilmir. Nefela buludlara qoşulub sarayı tərk edir. Nə ərin, saray əhlinin yalvarışları, nə də övladlarının acı fəryadları Nefelanı mühitinə qovuşmaq arzusundan döndərə, bu arzunun qarşısını ala bilmir.

Afamantın sarayında Nefela üçün hər şey var idi. Lakin bu hər şeyi olan dünya bulud qızına yad idi.

Ailəyə daxil olan yad duyğu hələ lap başlanğıcda məntiqi pozdu və bu pozğun məntiq əsərin sonuna qədər sürünür.

Sonra bu "yad duyğu" ideyası bütün "Arqonavtlar" əfsanəsi boyu davam edir və bu cəhət əsərin əsas məndəricəsi, riyasətin, hakimiyyətə yerikləməyin şər mahiyyəti ilə qoşa yeriyir.

Bizcə, ailədə yad duyğu ideyası, mifologiyaya variantlar daxil olan sonrakı cəhətdir. Bu bəlkə də belədir. Lakin bu cəhət "Arqonavtlar"ın ilkin məntiqinə xələl gətirmir. Həm də "yad duyğu" ideyası o qədər mühümdür ki, bu cəhətin izlənilməsi özü də faydalıdır. Ona görə ilkin variantın dürüstləşdirilməsi üçün başımızı sındırmarıq.

Ailənin bütün problemləri və eynilə "yad duyğu" şərti də həm real həyatda və həm də fikri cəhətcə hələ də həll edilmədiyinə görə, iş daha da önəmli görünür.

Afemantın sarayı məhəbbətlə işıqlanmış və səadətlə dolmuşdu. Lakin bu "işıqda", "səadətdə" yad duyğu gözlənilmədən doldurduğu dünyanı bir anda boşaltdı.

Afemantın uşaqları Firiks və Hella anasız böyüyürdü. Bu cəhət balaların üzünə solğunluq, padşahın həyatına kədər gətirir, səadətində boşluq yaradırdı.

Lakin tale bu zaman başqa bir işığın ucunu göstərir.

Şahzadə qız İno gözlənilmədən kimsəsiz qalır.

Fəlakətin saraylarda bu qədər inadla dolaşması ibrətli və idrakidir.

İno sərkərdan qalmışdı. O, Afamantın sarayına gəlib çıxır. İno sığınacaq diləyir. Ona nəinki sığınacaq verir, həm də saray əhli, eynilə Afamant da bu əhvalatdan sevinirlər. Onlar sevinclə söyləyirlər ki, "biri gözlənilmədən yurdu tərk etdi, o biri çağırılmamış gəldi".

Lakin bu səadət gətirən çağırılmamış qonaq işə nə dərəcədə müdaxilə göstərə bilir və ailədə yad duyğu məsələsini nə qədər yumşaldır?

Məsələ bundadır.

Afamant İnoya evlənir. İno da bu izdivaca bir səadət kimi baxırdı. O, Nefeladan qalan yetimlərə də doğmalıq göstərirdi. Firiks və Hella anasızlığı indi hiss etmirdilər.

Lakin Afamantın ailəsində bu ahəng İnonun özünün ana olmasına qədər davam edir. Afamantın Nefeladan olan uşaqlara İnonun doğma münasibəti də ailə həyatının davamında Afamantdan dünyaya gətirdiyi övladlarının peydasından sonra dəyişir. Dərhal ögey-doğmalıq münasibətləri yaranır.

Valideyn sövq-təbiisi təbii duyğudur. İnsan isə ünsiyyət kimi bəşəri keyfiyyətə daim ehtiyac hiss edir. Lakin bir tərəfdən insani naqisliklər, başqa tərəfdən qalaq-qalaq ictimai müşküllər adamlara doğmalıqla yadlıq, təbiiliklə bəşərilik arasındakı miqyası müəyyənləşməyə imkan vermir. Bu cəhətdən tarixdə ancaq pozğun vəziyyət müşahidə edilmiş. Bu hal bu gün də qüvvədədir.

Vəziyyətin həlli üçün, bəlkə də, "miqyası müəyyənləşdirmək", işə ağlın müdaxiləsi yox, o səviyyə özü gəlib çatmalıdır. O zaman doğmalıq, yadlıq işə bu qədər mənfi təkan verməzdi. Axı, əslində haradasa bütün insanlar bir-birinə doğma olmalıdır.

Lakin bizə cavab verib deyə bilərlər ki, siz kefdən danışırsınız. Biz də cavab verib deyərdik ki, siz "kef"dən, yəni bu kimi yelbeyin düşüncələrdən qaçıb nə qazanırsınız?

İno ümidsiz vəziyyətdə Afamanta rast gəldi. Afamant nəinki onu ümidsizlikdən qurtardı, həm də onun simasında qaçmış səadəti özünə qayıtdı. İno da xoşbəxt idi və özünü doğmalar arasında hiss edirdi. Firiks və Hellada da özünə qarşı yad bir şey müşahidə etməmişdi. Lakin İnonun mövqeyi möhkəmlənən kimi, dırnaqları artıq ovcuna batır, bu ögey-doğmalığı özü yaradır. Başqa sözlə, dünən sığınacaq hayına qalan bir məzlum bu gün tam xanıma çevrildikdə qarşısıalınmaz bir qudurğan kimi yenidən peyda olur. Bu isə ahəngi pozmaqdan başqa, həm də şəri doğruldur, xeyrin hökmlərini şübhə

altına alır. Belə çıxır ki, əgər İno sığınacaq, himayə, kömək tapmasaydı, məkr və zalımlıq üçün meydan sulaya bilməzdi.

Tədriclə doğma-yad müşküllərinə vərəsəlik mülahizələri də əlavə olunur. Afamantın İnodan olan oğlanları da boy atırdı.

Səltənətin bir nömrəli varisi kim olacaq?

Axı İnoya ögey övlad – Firiks Afamantın böyük oğlu idi.

Riyasət mülahizələri baş qaldırdıqda ailədə yad duyğu keyfiyyəti zilə qaldırılır. Bəlkə də əsil yad duyğu və ya riyasət bəşər həyatı üçün eyni bir şeydir. Başqa sözlə, riyasətin özündə bəşəriyyətə qarşı yad keyfiyyət var.

İno öz övladlarının mütləq varisliyinin həll olması, təmin edilməsi üçün ögey övladlarının məkrlə məhvi planlarını tərtib edir.

Bu istiqamətdə nə isə bir iş başa gəlir. Məkrin hansı tədbirlərə əl atmasının, şəri hansı yollarla başa gətirməsinin önəmi yoxdur. Bu gün ögey övladlara qarşı güc İnonun əlindədir. Şəri isə bu deyilsə, başqa vasitələrlə başa gətirəcək idi.

Bu da başa gəlmişdi.

Firiksin və Hellanın başı üzərində təhlükə dayanmışdı. İndi heç bir şeylə onları müdafiə mümkün deyildi. Balalarının nəzərlərini sonsuz səmalara tikməkdən başqa əlacları qalmır. Bu da öz təsirini göstərir. Ana, bulud qızı Nefela bunu hiss edir. Hər halda ana hissiyyatı, ana duyğusu! O hiss etməli və köməyə gəlməli idi.

Bulud qızının balalarını xilas etmək imkanı geniş idi. Məsələn, onun əlində bərəkət, bolluq və sərvət simvolu olan, uçmağı, götürüb qaçmağı və mənzilə çatdırmağı bacaran qızıl yunlu qoyun var idi.

Göy qoyunu. Göylərə məxsus keyfiyyətləri özündə əks etdirən qızıl yunlu qoyun.

Nefela balalarının durumundan halı olur. O, göydən yerə, balaların yanına enir. Onlara qaçıb getmək üçün qızıl yunlu qoyun verir və sığınmalı yeri də, səmti də onlara göstərir.

Nefela balalarına Günəş oğlu Estin çarlığı səmtini göstərir, Kolxidanı, Yunanlar üçün Qafqaz, xüsusən Kolxida həmişə möcüzəli bir ölkə olmuş. Ona görə də Nefela balalarına sığınacaq üçün səmt göstərərkən, Kolxidanı Günəş ölkəsi, onun çarı Esti isə Günəş oğlu adlandırır. Və nə səbəbdənsə də Estin onun övladlarına sığınacaq verəcəyindən, əmin-amanlıqlarını mühafizə edəcəklərindən əmin idi.

Nefela qoyunu balalarına verib, onları lazımi səviyyədə təlimatlandırıb səmaya ucalır və öz səmtinə çəkilir.

Firiks və Hella qoyuna minib ölkələrin, dağların, dənizlərin üzərindən Kolxida çarlığı səmtinə üz tuturlar.

Bütün yunan ədəbiyyatında dəniz səfərləri macərasız keçmir. Hətta bulud qızı Nefelanın sehrli vasitələrlə səfərdə olan övladları da.

Firiks, Hella qızıl yunlu qoyunla, ölkələrin üstündən uçduqları vaxt, dənizdə bir boğazın üzərindən ötərkən tufan qopur. Hella gurultu gələn səmtə, şahə qalxan dalğalar tərəfə boylanır. Onun gözləri qamaşır, müvazinətini itirib hüdudsuz sular dəryasına yıxılır və dənizdə qərq olur. Sonralar bu hadisəyə bələd adamlar həmin yeri Helespoit, – “Hella dənizi” adlandırır.

Firiks Kolxidaya tez gəlib çatır. Çar Est Firiksi xoşluqla qarşılayır. Burada Bulud oğlu Günəş oğlu ilə qovuşur. Est hətta bu qonağı belə bir yedəklə ona göndərən Zevsin şərəfinə qızılyunlu qoyunu Zevsə qurban kəsir. Dərisini isə Ares meşəsindəki müqəddəs palıdın budağından asır.

Bizim tərəfdə deyərlər, hər xəzinənin üstə bir ilan yatır. Bu ifadə müəyyən məzmun daşımalıdır. Mifologiyada söyləyirlər ki, Ares meşəsində müqəddəs palıdın budağından asılan qızılyunlu dərini ağzından alov saçan, qorxulu əjdaha qoruyurdu. Dərini ələ keçirməyin çətinliklərindən biri də bu idi.

Dəri qızıl yunlu idi. Bu özü sərvətdən ibarət bir keyfiyyətdir. Üstəlik, o dərinin məlum olduğu üzrə sehri də vardı. Dəri saxlandığı ölkənin məhsuldarlığını artırırdı, oraya sərvət gətirirdi. Ona görə də Kolxida məhsuldar və varlı ölkə oldu.

Lakin bu dəri heç bir səmti əsil səadətə, sakitliyə, ahəngdar həyata çatdırmadı. Çünki əsil sehr ölkənin əsil sərvəti vətən olması, hər bir vətənin də əsil sərvəti onun torpağı, xalqı və xalqla torpağın əlaqəsindən, məhəbbətdən, əməkdən, yaradıcılıqdan ibarət vəhdətdir. Buna deyil, nəzərlər hazır sərvətə, dəfinəyə tikildikdə o arzunu başa gətirmək yox, fitnəyə meydan verir.

Kolxida – Est xətti çarlıq idi. Riyasət mülahizələrinin öz məkri var. Lakin qızıl yunlu dəri buna dəfinə azarını da əlavə edir. Ona görə də qızıl yunlu qoyun Kolxidaya bolluq, sərvət gətirməklə yanaşı, müxtəlif səmtlərdən məkr və gücdən ibarət təhlükələr də tuşladı.

Amma burada bir cəhət diqqətdən yayınmamalıdır.

O da ondan ibarətdir ki, ilk baxışda ölkəyə bolluq, sərvət gətirən şey Nefela ilə, onun balaları ilə bağlıdır. Əgər Orxomen çariçası

ögey balalarına əvvəlki münasibətlərini saxlasaydı, bu cür sehrli dünya onun sərəncamına keçə bilərdi.

Biz burada dargöz münasibətə görə İnonu ittiham edirik. Lakin bizim ittihamlarımız da ziddiyyətsiz, kölgəli cəhətsiz deyil.

Deyək ki, İno ögey balalarına əvvəlki mehriban, doğma münasibətlərini axıra qədər davam etdirəydi. Lakin necə təminat vermək olardı ki, ögey balalar böyüdükdə və asılılıqdan qurtardıqdan sonra indi onlar özləri bu ahəngi pozmayacaq idilər? Axı bir çox hallarda yetimə istinad verilən namərdliyi bu və ya başqa şəkildə insan başa gətirir. Ona görə də İno dargözlüyü daha artıq insana, onun tarixi vəziyyətinə, yaşayış şərtlərinə aid bir keyfiyyətdir.

Dəri – qızıl yunlu qoyun dərisi həmin bu dəri idi ki, Yazon Peliydən hakimiyyəti tələb edərkən adı çəkilmişdi. Həmin dəri idi, Peliy Yazona demişdi ki, get Kolxidadan ölkəyə bolluq və sərvət gətirən həmin dərini əldə et, çarlığı sənə qaytarım. Axı, Kolxidaya o dərini aparan Firiksin atası ilə bizim babalarımız əmiuşağı idi. Bu cəhət dəriyə vərəsəlik üçün nəslimizə əsas verir.

Bu cür qohumluq və başsızlıq, təhlükə üzündən didərgin düşən Firiks anlayışı da bir ziddiyyətdir. Lakin işin bu cəhəti gözardı edilir. Burada diqqəti çəkən şey Yazondan tələb edilən dərinin tarixçəsidir.

Peliy Yazona deyir ki, mən qoca və zəifəm. Sən isə gənc və qüvvətlisən. Peliy əlavə edib söyləyə bilərdi ki, mənim rəzil vücuduma qarşı sən qəhrəmansan. Mən qardaşının qismətinə göz dikən, taxt-tac oğrusu olan bir həşaratam. Sən isə xəyanətdən uzaq, haqqını mərd-mərdanə tələb edən, təkbaşına istibdadın üzərinə şığıyan bir ərsən. Bu cəhət müəyyən dərəcədə haqqımız olan dərinin qaytarılması işində mənə qarşı sənə üstünlük verir. Bu da haqdır ki, hakimiyyət üstün tərəfin əlinə tapşırılmalıdır. Haqqını sübut elə. Onda hakimiyyət sənə qaytarılar, sən də ölkəyə bolluq və sərvət gətirən, qızıl yunlu qoyun dərisi saxlayan ölkəyə çarlıq edərsən.

Amma Peliy hakimiyyəti sahibinə qaytaramq üçün Yazona irəli sürdüyü bu tələbində başqa məqsəd güdürdü. Peliyə görə, dərini əldə etmək eşqinə düşən hər bir kəs, kim olsa da, orada ancaq öz ölümünü tapırdı.

Dərinin Ares meşəsində müqəddəs palıdın budağından asıldığı yerdə ağzından alov saçan qorxulu əjdahanın qoruduğunu bilirik. Yunanıstandan Kolxidaya qədər gedən yolların çətinliyini və təhlükəsini aşmaq lazım idi. Kolxida çarı ilə üz-üzə gələrkən və tələblər irəli sürərkən meydana çıxan çətinlikləri də buna əlavə

etmək gərək. Başqa çətinlikləri məqsədimizi izlədikcə əyani şəkildə görəcəyik.

Peliyə görə, Yazona həlli müşkül bir iş tapşırılıb. Ona görə bu səbəbdən də hakimiyyəti əldə saxlamaq problemini həll edib.

Peliyin tələbi Yazona məntiqi, ağlabatan görünür. Bundan başqa işin çətinliyi və bir qədər macəravariliyi Yazonun qəhrəmani təbiətini həyəcana gətirməli idi.

Yazon padşahın, əmisinin, Peliyin tələbləri ilə razılaşır və həvəslə işə girişir.

Yazon Yunanıstandan çıxıb Kolxidaya çatmaq üçün dənizlər aşmalı idi. Hər şeydən əvvəl bütün bunun üçün etibarlı, möhkəm gəmi əldə etmək lazım gəlir.

Hazır gəmilər onu təmin etmir. O, məqsədinə uyğun gəmi hazırlamaq qərarına gəlir.

Yazon gəmiyə özül seçmək üçün Pelion meşəsinə gedir. Orada yenə də bir qadının kömək vəd edən səsini eşidir. Bu həmin səs idi ki, vətənə qayıdarkən dağ çayından keçmək üçün ona kömək etmişdi. Bu Hera idi.

O qarı, o səs vəd etmişdi ki, Yazon, mən səni dar ayaqda, dar gündə çətinlikdə qoymaram.

O zamanlar səs sahibinin, Heranın coşğun dağ selindən keçmək üçün köməyə əsil mənada ehtiyacı olmamalı idi. Çünki o, özü də Allah sayılırdı, – İlahə idi.

Hera Kronun qızı, baş allah Zevsin bacısı və arvadı idi. Lakin Hera haradasa Yazona rəğbət bəslədiyi üçün qəhrəmanın alicənablığını sınaqdan keçirməli idi.

Biz hələ lap başlanğıcda demişik ki, hər cür allah ideyası mükəmməl deyil, ziddiyyətlidir. Burada Hera da, onun Yazona məhəbbəti, Yazonun qəhrəmanı simasını sınaq qarşısında qoymaq təşəbbüsü də birtərəflidir. Lakin indi burada işin bu naqis cəhətinin bizim üçün önəmi yoxdur. Orası önəmlidir ki, Yazonun həyatında ən çətin an qızıl yunlu qoyunun dərisini əldə etmək olardı ki, Hera da sözünə sədaqətlə indi üzə çıxıbdır, Yazona kömək əli uzadır.

Nəzərə almaq lazımdır ki, Heraklı Zevs himayə edirdi.

Herakla qarşı Evrisfeyi və onunla yanaşı burada da Yazonu Hera himayə edir.

Bu ana qədər Yazona qarşı mənfi istiqamətli rəy oyatmağa haqqımız yoxdur. Təkcə Evrisfeylə yanaşı Heranın onu himayə

etməsindən başqa, hər halda Evrisfey Herakla qarşı çox solğun idi. Hera da Herakl qüdrətinə qarşı hələlik kişi naqisliyinə meyil göstərir.

Bura qədər Yazon da Evrisfeyə deyil, Herakla bərabər sifətlər göstərir. Lakin Heranın onu himayə etməsində nə isə mənfi səciyyəli bir ünsür olmalıdır.

Heraklın hakimiyyət məsələsini yerlər deyil, göylər həll edirdi. Lakin Herakl hakimiyyətdən kənar olduğunu bildikdə bundan etidalını pozmadı. Biz Herakla o zaman müraciət etdik ki, Herakl insanın şəri xeyrə nisbətən daha rahat həzm etməsi ilə bağlı giley-güzara başladı. Lakin, bu, mifologiyanın yox, Homerin Heraklı idi. Odissey o dünyada qəhrəmanların ruhu ilə söhbət edirdi. Kölgələrdən biri Herakl idi. O dünyanın naqisliyi ilə bağlı deyindi ki, mən işıqlı aləmdə əfəlin birinə, məndən dəfələrlə aşağı adama xidmətçi verildim.

Əsil mənada, mifologiyada isə Herakl ölməz idi. O, ölə bilməzdi ki, o dünyada da Odissey Heraklın ruhu ilə məşvərət apara biləydi. Bu, Homerdə belədir və bəlkə də bu cəhət ilkin, Homer variantında yox imiş, sonradan katiblər üzünü köçürərkən əsərə daxil etmiş və hadisə vaqeə möhkəmlənmiş.

Lakin təkrarən söyləyirik ki, bizim üçün fərqi yox idi. Biz şərin hökmü ilə bağlı bu haldan bilə-bilə yapışdıq.

Göylər Heraklın hakimiyətini əlindən aldı. Herakl isə etidalını pozmadı. Yerlər Heraklın səadətini pozdu. Buna isə Herakl dözmədi. Çünki hakimiyyətə qarşı saədətdə bir ülviyyət var. Həm də Herakl səadəti ikinci bir fərdin də həyatı ilə bağlı idi. Ona görə Herakl pozulan səadəti üçün fəryad qopardı. Bu zaman allahlar, hətta Hera özü belə gülümsədi. Herakla söylədilər ki, bala, sənin yerlərdə işin yoxdur. Sən ordakı həşaratların işindən baş açmazsan. Sənin yerin bizim yanımızdır – göylərdir.

Heraklın hakimiyyətini göylər əlindən almışdı. Lakin o etidalını pozmurdu. Yazonun hakimiyyətini yerlər əlindən almışdı. Yazon isə nəinki etdalını pozmur, hətta imkanına gümanı gələn təki hakimiyyətin üzərinə şığıyır. Və bu yolda da göylər, Hera ona kömək əli uzadır.

Yazon gəmi düzəltməyə özül seçmək üçün Pelion meşəsinə gedir. Bu zaman hera peyda olub Yazona köməyə gəlir.

Hera məsləhət verir ki, gəmini İolklu usta Arqoya hazırlatsın. Gəminin özülü Telin meşəsindən kəsilmiş şamdan, başqa hissələri isə müqəddəs "Dodon" palıdından hazırlanırdı. Gəminin qabağında

isə Yazonun himayəçisi Heranın qızıla tutulmuş başının cizgiləri görünürdü.

Hazır olarkən gəmini ona hazırlayan ustanın adı ilə "Arqo" adlandırdılar.

Heraklın məsləhəti ilə səfərdə Yazona Yunanıstanın ən yaxşı oğullarından ibarət 50 nəfər qəhrəman yoldaşlıq etməli idi. Hətta bu 50 nəfərin içində Yunanıstanın Allah qüdrətli oğulları Herakl, Axillesin atası məşhur Peley, Odisseyin atası Layert kimi qəhrəmanlar da var idi.

Onların hamısı üçün Yazon sərkərdə idi.

Gəmini ustanın adı ilə "Arqo", sakinlərini də Arqonavtlar adlandırdılar. Burdan da Arqonavtlar haqqında əfsanələr yarandı.

Arqonavtlar Günəş ölkəsinə, Kolxidaya, – Estin çarlığına çatana qədər quru və dənizlərdən ibarət uzun yol keçdiklərinə görə, bir sıra çətinliklərlə rastlaşmalı, dəniz mağaraları içərisindən ötüb keçməli olurlar. Xatırlatmışdıq ki, Yunan incəsənəti bunsuz ötüşmür. Odisseyin macəralarında bu dəniz sicilləməsi fövqə qalxır. Heraklın dənizlə bağlı qəhrəmanlıqlarında da bu cür çətinliklər müşahidə edilir.

Bunlar təbiidir.

Dediyimiz kimi, Yunanıstan dəniz ölkəsidir. Həm də yunanlar bizim yadımıza gələn vaxtdan dünyaya tərəqqi ilə göz açmışdılar. Onlar idraki və əməli cəhətcə diribaş idilər. Onların dünya ilə bağlılıqları, rəftarları çoxcəhətli idi. Eynilə dəniz hadisələri də. Dənizlə çoxcəhətli rəftar, o zamanın baxımından dünyanın, yerlərin, göylərin, dənizlərin sehri təfəkkürdə əks olunmaya bilməzdi. Eynilə mifologiyada da. Bu cəhət "Arqonavtlar"da da müşahidə edilir. Amma Arqonavtlar da elə igidlərdən tərtib edilmişdi ki, çətinliklər şəraitində belə, uğurun rəhni üçün müjdə verirdi.

Hər şeydən əvvəl, ən azı başlanğıc üçün, "Arqonavtlar"ın içində Herakl kimi qəhrəman var idi.

Herakl, onun taleyi, bir çox cəhətdən bəzi yunan qəhrəmanları ilə, xüsusən Yazonla, bir də Axilleslə bağlıdır və ümumi cəhətləri də var.

Həm Herakl, həm də Yazon Kentavr Xironun nəzarəti altında gəncliyini keçirmiş, tərbiyə tapmışlar. İndi Yazonun dəstəsində olan Peleyin həyatında da Herakl iştirak etmiş, həm də Peley məşhur Axilles xətti də yaradır. Məhz müşavirədə allahlar Heraklın təklifi ilə xidmətlərinə görə Kentavr Xirona, onun xatirəsinə hörmət əlaməti kimi İlahə Fetidanı Xironun nəvəsi Peleyə ərə verirlər, həm də belə

məlum olur ki, Axillesin də kökü Xirona gedib çıxır (ata tərəfdən; ana tərəfdənsə o, İlahə Fetidanın oğlu idi). Nəhayət indi Herakl özü Yazonun dəstəsindədir. Bu cəhətlər Yazonun arzu, məqsəd, vəzifə ardınca qoşarkən işini asanlaşdırırdı.

Arqonavtlar qüdrətli qəhrəmanlardan tərtib edilmişdi. Onların hamısı qüdrətli idi. Lakin onlar müəyyən cəhətdən biri o birindən də seçilirdi. Başqa sözlə, hamı Herakla bərabər olmasa da, "Arqonavtlar"da hər qəhrəman bir cəhəti ilə fərqlənirdi. Məsələn, Linkey adlı qəhrəman uzağı yaxşı görməsi ilə diqqəti cəlb edirdi. Onu gəminin sükanına oturtmuşdular. Linkey hadisələrdən baş çıxartmaq cəhətdən də uzaqgörən idi. Arqonavtların Estin çarlığına çatana qədər bütün mağaralarını, qarşılaşdıqları çətinlikləri necə dəf etdiklərini təfərrüatı ilə izləməyə ehtiyac yoxdur. Bəzi cəhətləri isə burada xatırlamaq ümumi ideyanı aydınlaşdırmağa kömək göstərər.

Onlar yolda əhalisi cazibəli qadınlardan ibarət Lemnos adasına gəlib çıxırlar.

Arqonavtlar bir qədər dinclik almaq, azuqə, su götürmək, istiqaməti müəyyənləşdirmək üçün bu adaya yanaşmışdılar. Amma gedişatda Arqonavtlar adi lövbər salamq yox, az qala cazibəli qadın dünyasına ilişib burada da qalacaqdırlar.

Bu adanın əlaməti onda idi ki, buranın sakinləri və hakimi dediyimiz kimi, qadınlardan ibarətdir. Təsərrüfat, idarə, müdafiə işlərini də onlar özləri görürdülər. Onlar kişi deyilən şeyi öz aralarına buraxmırdılar.

Arqonavtlar adaya yan alarkən əvvəlcə adanın sakinləri tərəfindən bu yöndə dirənişə rast gəlirlər. İşi zorla həll etmək, qadın dünyası ilə hərbə girişmək isə Yunanıstanın şanlı qəhrəmanlarının şərəfinə sığmırdı. Ona görə də Arqonavtlar əvvəlcə adanın sakinləri ilə idrakla, ədəblə söhbətə girişmək, məsələni məsləhətlə həll etmək qərarına gəlirlər. İdrakın hökmü lemnoslulara, ada sakinlərinə asanlıqla sirayət edir. Adətən, tarixdə müşahidə edilənin əksinə. Lakin burada bu əlamətdar cəhətin izahına vaxt itirmirik.

Arqonavtlar Lemnosun qadın sakinlərinə söyləyirlər ki, bizim adaya yan almamızda pis niyyət yoxdur. Biz yolçuyuq, filan, filan məqsədlərimiz var.

Adanın başçısı İnsipila sərəncam verir ki, yolçuları adaya buraxın, qonaqsevərlik göstərin, azuqə və su ehtiyatı üçünköməklik verin.

Lakin yunan qəhrəmanları bu toxunulmaz qadın dünyasına təsir göstərməli, onların intim aləmini tərpətməli ki, başqa yön alır. Həmin

cəhət, xüsusən, çariça İnsipilanın qoca dayəsi Poliksoda öz yavruları üçün daha çox ifadə olunmalı ki, hər kəsdən əvvəl qarı dillənir.

Qarı çariçaya məsləhət görür ki, kişiləri aranıza buraxın. Ən azı həyatımızı mühafizə, nəslimizi davam etdirmək üçün qızların kişilərlə görüşü lazımdır. Çariça və ada əhli razılaşır. Bəlkə sevinmişdilər də. Cinslərin fikrən səddlərlə yaşaması bəlkə də nə isə bir şeyə işarədir. Lakin kütləvi imtinada süni surətdə boyuna düşən bir yük də olmalıdır. Lemnosun qadın dünyası bir anda bu yükdən azad olur.

Zira, Arqonavtlar üçün işin yöndəmsizliyi onda idi ki, az qala onlar, Yazon da daxil olmaqla, əsas məqsəddən yayınacaqdılar. Arqonavtlar ada sakinləri ilə unutqan bir həyata başlayır. Adanın biliciləri Arqonavtlara təklif edirlər ki, özünüzə arvad seçin. Adanın çariçası Yazonu yedəkləmişdi.

Burada Herakl ülviyyəti köməyə gəlir. Arqonavtlar adaya gedərkən Herakl gəmidə "Arqo"da qalmışdı. Yoldaşlarının ləngidiyini görən Herakl adaya yollanır. O, buradakı busatı görərkən gözləri kəlləsinə çıxır. Herakl yoldaşlarını danlayır. Onlara əsas məqsədlərini başa salır. Yazona da tənə ilə söyləyir ki, ay mən deyən, sən səfərə bununçünmü çıxmışdın. (Bu "mən deyən" sözünün arxasında dayanan ifadəni hər kəs istədiyi kimi dilinə gətirə bilər).

Arqonavtlar adanı tərk etdilər. Qadınlar göz yaşları və həsrətlə onları yola salır. Hətta çariça İnsipila Yazona söyləyir ki, dərini əldə edəndən sonra arzuya uyğun gəlsə, yanıma qayıda bilərsən. Mən çarlığı sənə verər, özünə də sədaqətli arvad olaram. Vəziyyətin belə qoyulmasında insanlar və xüsusən cinslər arasında bəşəri, təbii bağlılığın qaçılmazlığına da bir işarə var.

Arqonavtlar yolüstü "Ayı dağı" deyilən adaya yaxın bir boğazdan ötməli idilər. Buradan keçib getməyin çətinliyi onda idi ki, orada altı qollu, iri əlləri olan nəhənglər məskən salmışdılar. Arqonavtlar "Ayı dağının" burnundakı boğaza yaxınlaşarkən nəhənglər boğaza iri daşlar, qaya yağdırmağa başlayır. Ya odur ki, boğaz keçilməz şəkildə dola, yeganə yolun qabağı qayalarla kəsilə bilərdi, ya da yağdırılan iri daşların zərbələrindən "Arqo" və onun sakinləri məhv olardılar.

Həlli müşkül vəziyyət yaranmışsdı. Az qala Arqonavtlar əli qoynunda, boynu bükük qalacaqdılar. Yenə də Herakl qüdrəti imdada çatır. Herakl kamana əl atır və nəhəngləri ox zərbələri ilə bir-bir dənləməyə başlayır. Heraklın oxları isə öldürücü idi. Nəhənglərdən öləni ölür, qalanı isə onlar üçün taun vəziyyəti törədən Herakl zərbələrindən qaçıb gözdən itirlər. Arqonavtlara yol açılır.

Əgər Herakl ülviyyəti Lemnosun cazibəsi Arqonavtların nəfsini itiləyib onları intim duyğuların bataqlığında boğulmaq təhlükəsindən xilas edirsə, qəhrəmanın cismani gücü və məharəti "Ayı dağı" çətinliyini aradan götürür.

Vəziyyət elə gətirir ki, bununla da Herakl Arqonavtlarla bağlı vəzifəsini başa çatdırmış olur.

Arqonavtlar azuqə və içməli su üçün adaya yan alırlar.

Ada ormanlara, çəmənlərə bürünmüşdü. Çaylar, qaynamalar, dəryaçalar, bulaqlarla barınmış ada kimsəsiz görünürdü. Arqonavtlar tək-tək, cüt-cüt, ya qrup halında adaya dağılışırlar. Onların arasında ilk gəncliyə yenicə qədəm qoyan sevimli, gələcəyə ümid verən Hilas adlı oğlan var idi. Heraklın bu oğlana doğma münasibəti, məhəbbəti aşıb-daşırdı.

Hilas şəffaf, mavi dəryaçaya yaxınlaşarkən onu səsləyən hənirti eşidir. Buna hənirti demək düz olmazdı. Bu ən təsirli musiqini andıran qadın səsi idi. Səs dəryaçadan gəlirdi. Helas boylanarkən dalğalı, coşğun saçları dəryaçaya səpələnən gözəl, açıq çöhrəli, çılpaq bir qadının onu səslədiyini, ona əl elədiyini, onu yanına çağırdığını görür. Hilas yanaşarkən su pərisi oğlanın boynuna sarılır və özünə tərəf şəkir. Əvvəlcə nə etmək lazım gəldiyini bilməyən Hilas tədriclə ayılır ki, bu cazibəli yavru, – su pərisi onu dərinə sürükləyir. Hilas ağuşdan çıxmaq, onu saran qollardan azad olmaq istəyirsə də, daha artıq sarındığını başa düşür. Pəri onu dəryanın dibinə doğru çəkirdi.

Hilas ayaqlarının yerdən üzüldüyünü, batdığını, məhvə doğru getdiyini hiss etdikcə haray salır, çaşqın, dəhşətli bir səslə qışqırır. Bu həyəcanlı səs, haray adanı bürüyür və batıb gedir...

Arqonavtlar gələn səsi, qışqırtı salanın kimliyini, haray sahibini tanıyır. Birinci olaraq yerindən Heraklın dostu Polifem sıçrayır. O, "Hilas", "Hilas" deyə qışqırır və adanı başına götürür.

Dost hamı üçün lazımdı. Hətta Herakla da. Hilas, Polifem, Herakl xəttini hər şeydən əvvəl belə başa düşmək lazımdır. Sonra isə Hilasla bağlı Herakl Arqonavtlardan ayrılmalı olur, həm də birdəfəlik.

Zevs hikməti burada da Herakl ülviyyətinin toxunulmazlığını saxlayır. Arqonavtların niyyətinin əsilliyi, bəşəri baxımdan məndəricəsi o qədər də aydın deyil. Hələlik ən azı oraya riyasət mülahizələri qarışmışdı. Başlanğıcda bütün məkrini açmayan riyasət isə heç bir şərtlə antibəşərilikdən uzaq ola, ülviyyəti hədələməyə bilməzdi.

Herakl Hilasın itməsi ilə bağlı adada qalır. Hilas tapılmırdı. Sonra Herakl Hilası tapa bildi, ya bu olmadı – yunan mifologiyaları bu

yöndə bir məlumat vermir. Amma burada o var ki, Herakl itən Hilasla bağlı Arqonavtlar məkrindən də uzaqlaşır.

Lakin daha böyük mənalardan biri Heraklın Hilasa məhəbbətidir. Bu, Heraklın bəşəriyyətə münasibətini təmsil edir.

Hilas dünyamıza və tarix haqqında təsəvvürümüzə nisbətən körpədir. Onun haqqında əhatəli bir söz deyə bilmərik. Hilasın insani mündəricəsində yeganə zəmanət Heraklın ona məhəbbətidir. Bütövlükdə bəşəriyyəti, onun gələcəyini təmsil edən Hilas isə gözəl görünən, nəfsi itiləyən, aldadıcı, cazibəli bir şeydən yan keçə bilmədi. Hilas tora düşür və getdikcə dibsiz bir dəryanın dərinliyinə doğru batır.

Burada yenə də bəşəriyyət və nəfs, nəfs torunda boğulmaq ideyası göz önündədir.

Hələ ilk dini işarələrdə, Adəm, Həvva, cənnət, dadlı nemətlər, şeytan, İblis, nəfsi itiləyən ağulu ilan, ilan ki, sinədə yatır, daha tez qadın aləminə yol tapır, kişinin şeytanı qadındır, kişidəki qadın zəifliyi, tora düşmə, şirni – dadlı şey dalınca getmə, cənnəti – ülviyyəti batırma, cənnətdən qovulma və s. və i.a. söhbətlər var.

Sözlərdə, söhbətlərdə, hikmətlərdə, əfsanələrdə, nəzəriyyələrdə bəşəriyyət və nəfs iniltisi!..

Amma Hilas körpəliyi, təmizliyi, məhəbbət oyatması, Herakl bağlılığı və su pərisi qaravəllisi bəşəriyyət və nəfs bağlılığını çox qabarıq qoyur.

Bir anlıq insanın, hələ lap başlanğıcda, necə bir dünyaya və hansı tələblərlə qədəm basdığını təsəvvürümüzdə canlandırsaq, aləmi çox da birrəngli, nəfs xislətliliyinin həlledici təsirini görmərik. Burada işə daha inadla müdaxilə edən başqa amillər daha güclüdür. Elm bu yöndə nə lazımsa demiş. Söyləmiş ki, insan lap başlanğıcda dünyaya çılpaq gəlmiş. Başqa mövcudat, xüsusən heyvanlar tək mühitinin təsirinə uğrayarkən özünü müdafiə cəhətdən gücsüz olmuş.

Hələ təbiət lap başlanğıcda canlı aləmin, milyon təsadüfdən birini qoruyur. Qorunan vahid özü də yerləşmək üçün yörəsinə basqı göstərir və qarşılıqlı basqıya da uğrayır, qüvvələr nisbətinin bərabərsizliyi şəraitində. Burada "kim ölə, kim qala" durumu hökm sürür.

Lakin əsil müsibət tələblərin ödənilməsi gedişində başlayır. Burada təkcə yerləşmək deyil, həm də nə isə bir şeyi, daim bu və ya başqa şeyi əldə etmək zərurəti meydana çıxır.

Canlı insana çevrildikdə o, yerləşmək və həyatını qorumaq cəhətdən silahlanır. Cəmiyyət yetişdikcə, tarix ötdükcə insanın silahlanması artır. Özəllikcə, onun ağlı daha böyük silaha çevrilir.

Lakin bu üstünlüklə yanaşı, çətinliklər də yaranır. Silahlanma bircə çabanı məcbur edir. Burada bircə çabanın təşkili və nəticənin bölüşdürülməsi mürəkkəbliyi çalarlı variantlar yaradır.

Silahlanma, idrak, idrakın müxtəlif məhsulları, insanın dünya və insanla rəftarı kimi əhatəli halın mənzərəsi göz önündədir. Ancaq bu zaman insan hiss edir ki, o, hansı cəhətdənsə başqa yaratıqlardan, həm canlılardan və xüsusən ona ən yaxın olan heyvanlardan fərqlənir. Burada ehtiyacla yanaşı zəruri, qeyri-zəruri, ibtidai, ali, heyvani, ülvi məsələsi meydana çıxır. Xüsusən, sənin, mənim müşkülü baş alıb gedir.

Lakin məsələni bu şəkildə, idraki, insani qoyan tərəf daim uduzursa?! Başqa tərəfdən, idrakın bütün üstünlüyü başqalarını sıxışdırmaq, tora salmaq, gözdən pərdə asmaq, sümürmək, sümürmək, sümürmək işinə xidmət göstərirsə?!

Sümürmək bir tərəfi qeyri-ülvi yolla şişirdir. Çətinlik isə ondadır ki, yırtıcı təkin şişirdilən şey zahirən ləyaqətin, ülviyyətin mücəssəməsi kimi meydana çıxır. Əks halda ülviyyət eyni səbəbdən zəif düşür və zahirən həqir vəziyyətdə qalır. Burada yadlaşma baş alıb gedir.

Burada, Adəmi, Həvvanı, Holası tora salan nəfsi axıra qədər necə ittiham etmək mümkündür?!

Amma fakt faktlığında qalır. Ülviyyət nəfsin əsarətində, – Adəm, Həvva, Hilas vəziyyətində qala bilməz. Heç olmasa yaradıcılıq insanın, yuxarıda ötəri mənzərəsini canlandırmağa çalışdığımızın çətinliyini nəzərə almaqla yanaşı, özünü və məqsədi nəfsə qurban verməsinə qarşı mübarizə aparmalı, onun ülviyyətə qarşı dayanan və müşkülü artıran cəhətini izaha çalışmalıdır.

Əgər Herakl Hilasa bağlıdırsa, Hilas yaxşılığı təmsil etməlidir. Lakin yaxşının da tələbləri var. Tələblər isə nəfs yaratmaya bilməz. Deməli, ədalətli mühakimə və nəfsin basqısından yaxşının xilas olması üçün tələblərin əyri yolla, çətinliklərlə dolu ödənilməsi şərtləri aradan götürülməlidir. Bu məqam başa gələnə qədər bütün mülahizələr, mühakimələr mənfi xarakterlidir...

Əgər xilas üçün Herakl Hilası axtarmağa gedir, ardınca qoşursa, bu Heraklın bəşəriyyətin özünü xilas üçün qarşısında duran yeni, daha mühüm, əsas vəzifədir.

Herakl Arqonavtlara ilkin ülvi və fiziki təkanını verib, Hilas vaqiəsi ilə bağlı daha mühüm işlər üçün onlardan ayrılır. Bununla da Heraklın bəşəriyyətlə bağlı fəaliyyəti başa çatır, bəşəriyyətin ilahiyyətə doğru yolları ilə əlaqədar xidmətləri başlayır...

Arqonavtlar mənzilə çatana qədər yolda başlarına gələn hadisələrdən biri onların "Bebriklər" çarlığına qədəm basmalarıdır. Onlar buraya da bir qədər dincəlmək, yemək və su götürmək üçün yan alırlar. Lakin onlar gümanlarının əksinə mənzərənin şahidi olurlar. Adanın sakini nəhənglər arqonavtların qonaq qədəmlərinə və niyyətlərinə gülür, onları ələ salırlar. Onlar deyirlər ki, siz xoş gəlib səfa gətirmisiniz. Bizə sizin kimi yem lazım idi. Payaların başındakı quru insan kəllələri sizin kimi buraya qədəm basan yadellilərindir. İndi bizim başçımız gələr, əmr edər və biz sizin hamınızı parçalayıb yeyər, kəllələrinizi də qurumaq üçün bu gəmilərin sırasında payalara keçirərik. Arqonavtlar Bebriklərlə arzunun, məntiqin, ülviyyətin dili ilə danışmağa can atırlar. Onlar söyləyirlər ki, biz insanıq. Siz də insansınız. Adətən, insanların malı ortaq düşməyibsə, acgözlük onları bir-birinin üstünə salmayıbsa, onların bir-birinə rast gəlməsi yaxşı münasibətlərin başlanğıcı olmalıdır. Bütün mürəkkəbliyinə baxmayaraq, insan üçün ən böyük nemət insandır. Xüsusən, qonaq, qərib, yolçu amandadır. Yurd sahibləri qonaqsevərlik göstərməli, himayə etməlidirlər. Bizim pis niyyətimiz yoxdur. Biz ötəriyik. Buraya yan almışıq ki, insani qanunlar əsasında binagüzarlıq göstərəsiniz, çıxıb gedək. Əgər bunu etməsəniz, israra əsasımız yoxdur. Binagüzarlıqdan imtinaya başlasanız yenə də çıxıb gedəcəyik.

Bebriklər hər cür arzuya, məntiqə, niyyətə gülür. Bir niyyətə baxın: siz bizə yem gəlmisiniz, deyirlər.

Başçı da başqa ada sakinlərinin dediklərini təkrarlayır. Sonra qaşlarını çatıb Arqonavtlara şərtlərlə çıxış yolu qoyur. O deyir ki, sizlərdən bir nəfər mənimlə yumruq döyüşünə çıxmalıdır. Əgər güc göstərə bilsə, siz azadsınız, çıxıb gedə bilərsiniz. Əks halda, – deyə o, barmağı ilə payaların başını göstərir.

Başçının adı Amaq idi. O güman edirdi ki, qüvvələr bərabər deyil. Onun fikrincə, bu cırtdanlar ilk zərbədən məhv olub gedəcəklər. Onlar eləsinə də, beləsinə də Bebriklərin yemidir. Amma Arqonavtlara bəşəri mənalarla uyğun şərtlər irəli sürülməli idi ki, Arqonavtların yeyilməsi hüquqi çərçivəyə salınsın.

Bebriklər nəhəng idi. Arqonavtlar nə qədər qəhrəmanlardan tərtib edilsəydi də, bu hünər qaydasınca şəraitdə, insanlar arasında

mümkün idi. Nəhənglər arasında bu imkan aradan götürüldü. Herakl da yox idi. O, başqa məqsədlər naminə Zevsin öz əli ilə dəstədən ayrı düşmüşdü.

Burada təbii gücə qarşı tərəqqinin qüdrəti köməyə gəlir. Yunanlar arasında döyüş təlimi keçmiş, Polidviq adlı vuruşda məharətli bir igid də var idi. O, Arqonavtları başa salır ki, mənim hazırlığım, məharətim qarşısında nəhəngin gücü işə keçməz. Qorxmayın, mən onunla vuruşar və aradan götürərəm.

Amaqın çağırışına qarşı Polidviq qabağa çıxır. Nəhənglər gülməkdən qəşş edir. Amaq deyir, balaca, səndəki cəsarətdən xoşum gəldi. Amma özünü gözlə! İndi bir zərbə ilə başını əzəcək və hamınızı yeyəcəyik. Bu niyyətlə də Amak Polidviqin üzərinə yeriyir və əl-qol atmağa, yumruq endirməyə çalışır. Lakin Polidviq mahir idi. O, zərbələrdən qorunur və Amaqı yorub haldan salmağa çalışır. Arada fürsət düşdükcə, özü də nəhəngə zərbə vururdu. Lakin Polidviqin Amaqa zərbəsi çatarkən nəhəng gülür, yunanlını ələ salırdı. Hə, balaca, sənin zarafatların da varmış deyə Amaq dil bulayır, – məni qıdıqlayırsan, – deyir. Lakin mən zarafatı sevmirəm. Sonra Amaq Polidviqə tərəf yeni yumruq atır. Amma nəhəngin bütün cəhdləri boşa çıxırdı, tədriclə o yorulmağa və tövşüməyə başlayır. Polidviq də elə bunu gözləyirdi. İndi o, özü şığayır və nəhəngə sarsıdıcı zərbələr endirməyə başlayır.

Amaq yerə sərilir və gəbərir. Nəhənglər üçün bu gözlənilməz və anlaşılmazdı. Heyrətdən, təəccübdən onların gözləri bərələ qalır. Vəziyyəti belə görən Bebriklər təslimə məcbur olurlar.

Lakin qarşılarındakı təslimi və ölmüş tərəfi görən Arqonavtlar durumdan istifadə etməyə zərrəcə cəhd göstərmirlər. Əksinə, onlar əvvəldə dedikləri sözləri, sonda, yenə də təkrar edirər. Onlar insanlıq qanunlarını nəhənglərə xatırladır, ən azı Bebriklərə yolçulara, gəlmələrə qonaqsevərlik göstərmək təlimi verirlər.

Dediyimiz kimi, burada başlıca ideya təbii gücə qarşı tərəqqinin qüdrəti və üstünlüyüdür.

Lakin burada başqa cəhətin də izi görünür. O da ondan ibarətdir ki, Bebriklər Arqonavtların təsvirindən çox eybəcər görünür və vəhşi, yırtıcı təkin, insanlıqdan uzaq şəkildə təqdim edilir. Zira, işin əslini biz deyə bilmərik. Nəhənglərin eybəcərliyini indi bizim təsəvvür imkanımız azdır. Vəhşiliyinə, yırtıcılığına, insanlıqdan qıraqlığına gəldikdə isə, bu, çox da Arqonavtların təqdimi kimi deyil. Hər

şeydən əvvəl Bebriklər hər nə etsələr də öz vətənlərində, öz torpaqlarında başa gətirirlər.

Doğrudur, onlar yadelliləri parçalayır, yeyir və kəllələrini payadan asırlar. Lakin bu onların daimi güzəranı, güzəranlarının möhkəm əsası ola bilməz. Onların güzəranlarının nə isə daimi qaynağı olmalıdır. Başqa sözlə, onların həyatlarının təminatı əsasən içdəki istehsala əsaslanmalıdır. Belə halda isə onların bir-birinə münasibətləri qaydasınca, ahəngdar, intizamlıdır. Bu cəhətlər insanlığa, bəşəriliyə yaxın görünür. Hər halda, orada böyük-kiçiklik saxlanılır və onlar sözlərində bütöv görünürlər.

Arqonavtlar söyləyirlər ki, Bebriklərdə insanlıq, qonaqsevərlik əlaməti yox idi. İlkin olsun ki, yadelliləri məhv etməyin əsasında qarın doydurma cəhdindən daha çox həyati basqınlardan qorunmaya zorlanma var.

Axı istilaçılar öz basqınlarını həmişə bir şeylə əsaslandırmağa çalışmış, xüsusən də mədəniyyət gətirmək, qalxınmanı (tərəqqini) yaymaq iddiaları. Bu zaman onlar özlərinin istilaçı və bundan irəli gələn bütün yırtıcı, təhqirli hərəkətlərini gözdən yayındırmağa cəhd göstərib, yerli durumu miskin, rəzil, dözülməz, eybəcər və s. təsvirə çalışmış, öz yürüşlərinə misilsiz rövnəqlər vermiş, dünyaya bütün dərdlərin dərmanını daşıdıqlarını iddia etmişlər. Lakin bunun ardınca dərhal onlar dünyanın qulağına pıçıldadıqları dastanlarla əlaqələri kəsilmiş, danışıqları, sözləri ilə işləri ayrılmış. Onlar üzdə bir söz demiş, işdə isə söhbətləri ilə heç də uzlaşmayan eybəcər cinayətlər, hərəkətlərində vəhşiliklər, qəbahətlər, təhqirlər baş alıb getmiş.

Onlar əsarətə aldıqları dünyanın bütün bəşəri keyfiyyətlərinə pərdə çəkmiş, onları pis günə qoymuş və haray salmışlar ki, bu xalq pisdir. Onlar xalqların imkanlarını məhv etmiş, haray salmışlar ki, bu xalq əfəldir, yaşamaq iqtidarına malik deyil. Onlar xalqları zorlamış, haray salmışlar ki, bu xalq pozğundur...

Arqonavtların Bebriklər haqqında oyatmağa çalışdıqları fikirlərlə istilaçı psixologiyası arasında qohumluq var. Axı, "Arqo" riyasətə dırmaşmaq və istila vasitəsidir. Bu istiqamətdə "Arqo"nun və Yazonun aqibəti ilə bağlı söz-söhbət bütövlükdə mövzunun işidir. Ona görə, bu fikrin izlənilməsini mövzunun sərəncamına buraxırıq. Burada isə vahid ideya naminə biz yunanlar tərəfində dayanıb Arqonavtlar mövqeyində çıxış edirik...

Beləliklə, Arqonavtlar Bebriklərə qonaqsevərlik təlimi verib oradan uzaqlaşırlar. Bu da olur onların bu və ya başqa münasibətlə tərəqqi yaymaq işlərinin bir hissəsi...

Arqonavtların Kolxidaya qədər səfərlərində yolüstü rast gəldikləri ölkə, qarşılaşdıqları hadisələrdən biri və maraqlısı da paytaxt şəhər Salmidesdə Frakiya çarı müsibətli Fineylə görüşmələridir.

Finey uzağı görməsi, gələcəkdən xəbər verməsi ilə fərqlənirdi. Taleyin bir sıra gizli sirləri ona agah idi. Bu cəhətlər onda o qədər qabarıq idi ki, hətta bu padşah Boreyin də diqqətini cəlb edir. Borey varisi, yeganə övladı – qızını Fineyə ərə verir. Beləliklə, Finey xoşbəxt ailə həyatına sahib olur və çarlığa çatır.

Finey ailədə və vilayətdə xoşbəxt idi. Onun ölkəsi bərəkətli, məhsuldar, xalqı firavan və halalına yaşayan idi.

Finey çar idi və sevilirdi. Bunlar az-az başa gələn və ikisi birlikdə tutmayan şeylər idi. Lakin xoşbəxtliyin məğzi onda idi ki, məhz bunlar Finey səadətinin məğzini təşkil etmişdi.

Lakin Fineyin şəxsi ləyaqətlərində gələcəyi görməkdən, gizli sirlərdən agah olmaqdan başqa bir zəif cəhəti də vardı. O da ondan ibarət idi ki, Finey cilovsuz fədakarlığının, xeyirxahlığının qabağını ala bilmirdi.

Əlbəttə, fədakarlıq və xeyirxahlıq yaxşı cəhətlər idi. Lakin başqa yunan əsatirlərində olduğu kimi, burada da Allah uzaq görənlər üçün insana xidməti, başqalarına köməyi yasaq edirdi.

Allahlar deyirdi ki, biz sənə hər şeyi görən və səni səadətə çatdıran gözlər vermişik. Bu şərtlə ki, həmin üstün keyfiyyətindən insanlara, ölərilərə, fanilərə kömək göstərməyəsən. Sən daim öz xeyrini ölçüb-biçib, öz səadətini təmin etməyə çalışasan. Əks halda səni amansız cəza və müsibətlər gözləyir.

Lakin bu mümkünmü?! Əsil zəka və insana kömək, xeyirxahlıq, humanizm – bunlar ayrılmaz atributlardır.

Bəs nə üçün yunan əsatirləri vəziyyəti belə qoyur? Bu başqa mövzudur və buradan zəka faciəsinin, dünyanın əsil faciəvi vəziyyətinin məğzi görünür...

Allahlar da Fineyi xəbərdar etmişdi ki, sənə verilən bənzərsiz gözlərdən, beyindən, – idrakdan bərkə düşən, zəif, əlacsız insanlara köməklik göstərməyəsən. Finey isə özünü saxlaya bilmir, allahların şərtini pozur.

Allahların hökmü qüvvədədir. Onlar Fineyə nə vermişdilərsə, hamısını əlindən alırlar. Yaxını, uzağı, əhli-əyalı sarayı tərk edir,

ölkədən çıxıb gedir. Vilayət viran qalır, təbiət korlanır, hava dəyişir, bulaqlar dəyişir. İndi köməksiz, kimsəsiz qalan Fineyin gözlərini də allahlar kor qoymuşdu.

Arqonavtlar bu ölkədən, Fineyin sarayının yaxınından keçərkən tükləri ürpədən bir inilti eşidirlər. Onlar kimsəsiz saraya daxil olarkən haldan düşmüş, üzülmüş, kor bir qocanın tənha halda yerə sərildiyini və kömək dilədiyini görürlər. Ən betəri bu idi ki, Finey ac idi. Ötənlərin rəhmi gəlib ona verdikləri çörək və xörəkləri də Allahın təyin etdiyi xüsusi quşlar, eybəcər, murdar, amansız dəmir quşlar onun əlindən alır, ətrafı murdarlayır və Fineyi yenə də ac qoyurlar. Xeyirə xidmətə verilən cəzanın amansızlığı və tərrəqinin, idrakın keçdiyi yolun çətinliyi bundadır. Lakin deyirik ki, bu mövzunun başqa səmtidir.

Arqonavtlar yolüstü bir mənzərə ilə də rastlaşırlar. Onlar Frakiyaya, onun paytaxtı Salmidesə o vaxt gəlib çıxırlar ki, Fineyin cəza müddəti artıq başa çatırdı.

Arqonavtlar həm Fineyi xilas edir və həm də Fineyin köməyi, eyni zamanda yenə də bəzi məsləhətləri Arqonavtlara lazım idi. Bunsuz Arqonavtlar mənzil başına gedib çıxa bilməzdilər.

Məsələ onda idi ki, Arqonavtlar Kolxidaya tərəf yolüstü dəryadan sıxılan sehirli qayalar arasından keçməli idi. Bu qayalar Arqonavtların dəryanın keçməli yolu üstündə ensiz boğaz əmələ gətirir. Əvvəlcə hər şey qaydasınca görünür. O yerə kimi ki, yolçular qayaların lap ortalığına girsinlər. Lakin işlər bu həddə çatan təki gözlənilmədən hər şey dəyişir. Qayalar fürsət vermədən hərəkət edir, sıxlaşır və məngənəyə düşən hər bir şeyi amansızlıqla məhv edir. Xəbərsiz şəkildə bura düşən bir kəs xilasa can atsa, daha bu təşəbbüs uğurlu nəticə verməz.

Qayalarla bu cür oyun baş tutmur. Göründüyü kimi, durumun həlli çətinlikdədir. Lakin biz bilirik ki, İlahə Hera Yazona dar gün üçün kömək vəd etmiş. Ona görə hər dəfə Yazona çətinlik üz verdikdə həyəcan keçirməyinə dəyməz. Necə ki, Heraklın da qəhramanlıqlarının uğurla başa çatması üçün işlərin arxasında Zevs dayanmışdı.

Lakin burada qayalar tilsiminə qarşı Fineyin uzaqgörənliyi, gizli sirlərdən agahlığı, onun hikməti dayanmış. Finey ona edilən yaxşılıqların əvəzində və öz qəlbinin ülvi tələbləri ilə Arqonavtları durumdan agah edir. Müdrik insan onlara xilas vasitəsi verir və xilas yolu da göstərir. Fineydə tilsimləri qüvvədən salan sehirli göyərçin

var idi. Finey həmin göyərçini Arqonavtlara verir və söyləyir ki, qayaların arasına yaxınlaşın. Hələ özünüzdən əvvəl bu göyərçini oradan buraxın. Qayaların hikkəsinə, atılıb-düşməsinə baxmayaraq göyərçin oradan ötsə, heç şeydən qorxmayın, ürəklə qayaların arasına doğru irəliləyin. Heç şey olmaz, siz salamat oradan ötərsiniz.

Belə də olur. Göyərçin oradan uçarkən qayalar çox nərildəyib guruldayır. Amma göyərçin uçub keçir. Göyərçinin ardınca Arqonavtlar irəliləyərkən isə qayalar heç yerlərindən də qımıldanmır.

Biz bilirik ki, allahlar insana köməyinə görə, Fineyi cəzalandırmışdı. Lakin bir işə baxın ki, Fineyin cəza dövrü başa çatan təkin o, fəaliyyətə insana köməklə başlayır. Biz fəaliyyətə deyirik. Əslində Fineyin Arqonavtlara yol göstərməsi onun canlı varlıq olmasının nişanəsi, mövcudluğunun sübutu idi. Finey xeyirxahlığı onun gözünün işıqlığı, ağlının itiliyi kimi bir sövq-təbiidir. Fineyin ikinci varlığı yoxdur. Necə ki, bir çox halda şər də özünü belə, qarşısıalınmaz təbii vəziyyətdə, instinkt şəkildə göstərir.

İstibdad Fineyi – zəka və xeyiri cəzalandırır. İstibdadın inadla həyata keçirməyə çalışdığı tədbir ondan ibarətdir ki, insan görən gözdən, düşünən başdan – idrakdan məhrum olsun. İnsan əvəzinə əldə oyuncağa çevrilən pıspısa, istənilən səmtə yönəldilə bilən sürü, düşüncəsiz kütlə yaransın. Dünyaya açılan göz, düşünən, ayılan, qoruyan baş istibdada gərək deyil. Onunku, kütləvi sürüləşmədir, müəyyən məqsədləri həyata keçirmək üçün. Xeyirin, insan düşüncəsinin, bəşəri ləyaqətin istibdad tərəfindən cəzalandırılmasının, onun gözünün bunları götürməməsinin sirri bundadır.

Lakin insan anlayışı bütövləşəndə bəşəriyyəti təmsil edir. İstibdad isə antihəyat olduğuna görə, bəşərə qarşıdır. Ona görə də tarix ötəndən sonra şərdən heç nə qalmır, qalan xeyirin nəticələridir. Çünki şər artırmır. Artıran xeyirdir. Şər isə ələ keçirir və talan edir. Tərəflərin – xeyir və şərin bir-birinə impulslar verməsinin, bununla da mürəkkəbliklər yaratmasının başqa mündərəcəsi var.

Bir bəşəri istehzaya bax! Şərin hökmü yeriyir. Xeyir şər tərəfindən çarmıxa çəkilmiş. Lakin tarixin yekununda qalan və yaşayan şey yenə də xeyirdir!

Ona görə vəziyyət nə qədər arzu olunmaz görünsə də, faciəlilik daha üstündür.

Faciəlidir – deməli, idrakidir. Bəşər amalının gücü bundadır.

Arqonavtlar Kolxidaya lap yaxınlaşanda çıplaq bir adada dörd nəfərköməksiz, kmsəsiz adaya atılmış oğlan uşağına rast gəlirlər.

Bunlar söhbətimizin lap başlanğıcında adını çəkdiyimiz həmin Firiksin oğlanları idi.

Biz Firiksdən o vaxt ayrıldıq ki, Günəş oğlu Kolxida çarı Est onu mehribanlıqla qarşılayır. Bu mehribanlıq, hətta dərhal valideyn-övlad sevgisinə çevrilmiş, padşah qızı Xolkiopanı ona ərə vermiş. Est həm də Firiksi padşahlığa varis hazırlayırdı.

Lakin bu mehribanlıq, bu səadət – ailə büsatı o vaxta qədər davam edir ki, Estin arvadlarından birinin oğlu olur. Aspirti! Bu zaman Estin yeznəyə münasibəti dəyişir. Ona görə yeznəyə və qız uşağından dünyaya gələnlərə nisbətən varisin öz oğlu olması və bu nəslin səltənətə sahiblik etməsi daha məqsədəuyğundur.

Estin Firiksə münasibəti dəyişir. Padşah tələb edir ki, Firiks Kolxidanı tərk etsin. Firiks Kolxidanı tərk edir. Lakin qızıl yunlu qoyun dərisi ona məxsus idi. O, qızıl yunlu dərini özü ilə götürmək fikrinə düşür.

Əgər qızıl yunlu dəri Yazonu bir riyasət vasitəsi kimi çətin, ölümcül macəraya sürüklədisə, burada həmin dəfinə Firiksə ölüm gətirir. Est Firiksin dərini özü ilə götürmək eşqinə qarşı onu öldürtdürür, balalarını isə gəmiyə qoyub Yunanıstana, baba yurduna tərəf göndərir. Lakin onlar Yunanıstana gəlib çata bilmir. Dənizdə fırtına qopur və bu dörd oğlan uşağını çıplaq adaya tullayır. Bu cəhət təbiidir. Biz görürük ki, Yunanıstandan Kolxidaya gələn Arqonavtlar kimi azmanların çətinliyi nə dərəcədədir. Amma əsatir onların tərəfindədir. Üstəlik onların İlahə Hera kimi himayəçisi də var. Həmin çətinliyi 4 nəfər köməksiz körpə aşa bilərdimi?!

Deməli, Est nəvələrini riyasət mülahizələri və sərvətə təkbaşına sahib olmaq arzusu ilə gəmiyə qoyub Yunanıstana səmtləşdirərkən babalarının yanına göndərməkdən daha çox ölüm tədbirini həyata keçirirdi.

Arqonavtların çılpaq, qayalıq adada rast gəldiyi 4 uşaq həmin oğlanlar idi. Onlar burada ən azı acından ölə bilərdilər. Arqonavtlar onları xilas edir və gəmilərinə götürür, özləri ilə birlikdə Kolxidaya qaytarırlar. Oğlanlar da yola bələdçilik etməli idilər. Həm də onlar yerli kimi qızıl yunlu dərini ələ keçirməyə kömək göstərə bilərdilər. Əvəzində Arqonavtlar uşaqları baba yurdu Orxamona qaytarmaq kimi yaxşılığı özlərində saxlayırdılar.

Beləliklə, Arqonavtlar Kolxida çarlığına gəlib çatır. Gəmi lövbər salır.

Yazon Elladanın qəhrəmanlarını Kolxida sahillərində lövbər salmış gəmidə – “Arqo”da qoyub çar Estin yanına tək gedir. Bu, Yazonun fərdi gücünə və qəhrəmani mərdliyinə işarə olmaqla yanaşı, məsələni sülh, danışıq yolu ilə həll etmək arzusuna da işarə idi. Durum ciddiləşsəydi müdaxilə üçün qəhrəmanlar hazır dayanmışdılar.

Burada yenə də dastanı yaradan tərəfin başqa ölkələrə, insanlara, xalqlara sadəlövh, iddialı münasibəti özünü göstərir.

Ətrafında cəmi yüz nəfər olan Yunan qəhrəmanı bütöv bir ölkəyə, Kolxidaya qarşı qoyulur. Həm də necə bir iddia ilə! Onlar qələbə əzmi ilə gedirlər. Ciddi bir dirəniş gümanı yoxdur ki, bu yürüşə ordu çıxartmağa ehtiyac duyulmayıb. Bir ovuc qəhrəman. Bu qəhrəmanlar isə bütöv ölkə ilə istədikdə təkbaşına, istədikdə dəstə ilə, istədikdə dağınıq, istədikdə açıq döyüş, istədikdə fitnə, istədikdə ultimatum yolu ilə də məsələni həll edə bilər. Qəhrəmanların içərisində Herakl (o sonradan dəstədən ayrılsa da, ilk planda məqsədi həyata keçirmək üçün nəzərdə tutulmuşdu), Peley, Layert kimi ərlər də var. Lakin bu qəhrəmanlar bütöv bir ölkənin, xalqın, yad, uzaq səmtdə olan dövlətin üstə yeriyirdi. Burada qəhrəmanın öz ölkəsində haqsızlıqla üz-üzə gəlməsindən söhbət getmir.

Doğrudur, Yazon öz ölkəsində haqsızlıqla üz-üzə gəlmişdi. O yürüşündə dövlətdən və onun ordusundan kömək görə bilməzdi. Əksinə, çar Peliy Yazonun başını əkmək üçün onu bu cür tapşırıqla Kolxidaya yönləndirmişdi. Lakin vəziyyətdəki bu cəhət əsatir müəlliflərinin başqa xalqlara yad, yelbeyin, iddialı baxışını yumşalda bilməz.

İnsanlar, xalqlar bir-birinə bu cür yad, yelbeyin, saxta, iddialı yanaşır ki, şər bir qədər də tarixdə və cəmiyyətdə artıq yer sulaya bilir. Başa düşülməlidir ki, başqa tərəfin də istədiyi iddiaya düşmək hüququ yerində qalır.

Qarşı-qarşıya duran cəhətlər, qalaq-qalaq ziddiyyətlər, dolaşıqlıqlar, natamamlıq, naqisliklər üst-üstə yığılmışdır. Bunlar bir dəqiqəlik gözardı edilsə idi, deyərdik ki, bütün vətənlər bizim doğma yurdumuzdur, bütün millətlər öz doğma xalqımızdır.

Eyni ilə başqa fərdlər hər bir insanın əhatə dairəsidir. Qəhrəmanlıq və s. insani keyfiyyətlər (istər mənfi, istər müsbət olsun) ayrıca şəxsə və millətə yox, bəşəriyyətə məxsusdur. Güclülük və zəiflik, idrakilik və kütlük hər bir zaman və hər bir yerdə müşahidə edilən keyfiyyətlərdir.

Lakin biz deyəsən kefdən danışırıq. Fakt budur ki, Yazon bir ovuc qəhrəmanla birlikdə müəyyən tələblərlə Kolxida çarlığına yanaşmış. Qəhrəmanları da gəmidə qoyub padşahın üstünə təkbaşına yeriyir. Biz vəziyyətlə razılaşmalıyıq. Çünki izlədiyimiz ideya məsələni belə qoyur. Biz də həmin yöndə rəğbət göstərməyə məcburuq.

Doğrudur, Yazon Kolxida çarı Estin üstə lap da təkbaşına getmir. O, özü ilə qəhrəmanlardan Telamonla Avqiası və bir də Firiksin oğlanlarını götürür. Lakin bütöv bir dəstə müqabilində iki igid Yazon üçün həyan, bir məsləhətçi timsalında idi. Firiksin oğlanları isə yerlilər timsalı hesab edilə bilər. Onlar yol göstərirdilər.

Telamon! Bu həmin Telamon idi ki, öz hövsələsizliyini və güclünün, təhlükənin üstə şığımağı ilə fərqlənirdi. O, yeri gəldikdə və özünü haqlı hesab etdikdə başçının üzünə ağ olmaqdan, qolaylanmaqdan da çəkinməzdi. Adada Herakl istəyən hər hansı bir naqislik gümanı ilə Yazonu ittiham edən də o idi. Burada az qala baş verə biləcək toqquşmanın da qarşısını fatehdən gələn səs aldı. Səs Arqonavtları, eynilə Telamonu da başa saldı ki, Herakl adada Zevsin adı ilə qalır. Onlar məqsədə doğru Heraklsız yollarına davam edə bilərlər.

Telamon hövsələsizliyi Estlə görüş zamanı da bir an üçün özünü biruzə verəcək. Bu isə bir ideyanı tamamlamaq üçündür.

Çarlıqda ayrıca Estə məxsus dörd saray var idi. Başqa sözlə, Estin dörd sarayı var idi. Bunlardan birində Est arvadı ilə, üçündə padşahın oğlu Apspirt, qızları Xalkiopa və Medeya yaşayırdılar.

Bir gimgəyə-kollektivə, bu gimgə istər iş üstü olsun, istər ailə və istərsə də saray həyatı, mütləq təsir dairəsi yaratmalı, hadisələrə müəyyən təkan verməlidir. Bir halda Yazon Estin sarayına müəyyən tələblərlə gəlmişdi, həm də ölkələr basıb buraya qədəm basan yad adamlar özləri ilə buraya padşahın onlardan xilas məqsədi ilə malikanəsindən qovduğu nəvələrini də qaytarıb gətirmişdilər, həm də bu çağırılmamış qonaqlar nəvələrin ata yurdunun adamları idi.

Saray çaxnaşır. Est gələnləri xoşüzlə, qonaqsevərliklə qarşılamır. Xüsusən Est nəvələrini, Firiksin oğlanlarını gördükdə üzünü turşudur. O deyir ki, mən sizi ata yurdunuza göndərmişdim. Sizin mənim ölkəmdə heç bir işiniz yoxdur. Siz yolçular və ya qonaq-zad deyilsiniz. Siz atanızın qohumlarını götürüb, mənim səltənətimə ziyan vurmağa gəlmisiniz...

Heç bir yalvarış, heç bir söz-sübut Esti yumşalda bilmirdi. Məhz bu yerdə Telamon bir daha hövsələsizlik göstərir. O, hiddətlə yanına əl atır ki, Yazon işarə ilə qəhrəmanı sakitləşdirir.

Əsatirin bu işarəsi, eyhamı, bədii gediş onu göstərir ki, Arqonavtlar bir dəstə olsalar da, tələblərində dirənişə rast gəlsələr, dövlətə qarşı silahla da müraciət edəcəklər.

Lakin buna ehtiyac qalmır. Yazon Firiksin oğlanlarını ətəyi altına alıb Estə söyləyir ki, biz onlara yolda rast gəldik və onların taleyi ilə də burada tanış olduq. Bizə sənin nə tacın, nə taxtın, nə torpağın, nə sərvətin, nə də heç bir şeyin lazım deyil. Bu uşaqlar da sənin öz doğma nəvələrindir. İstərsən onları analarına qaytarar, öz qızını sevindirər, sən də baba səadətinə, ülviyyətinə çatarsan, istəməzsən qayıdarkən uşaqları özümüzlə götürər və ata yurduna çatdırarıq. Bu gün uşaqlar himayəsiz deyil, sabahın cilovları isə onların əlində olacaq.

Biz başqa məqsəd üçün sənin səltənətin sayılan ölkəyə, sənin yanına gəlmişik.

Sonra Yazon öz məramını Estə söyləyir. Söyləyir ki, sənin ölkəndə bizə məxsus qızıl yunlu qoyunun dərisi saxlanılır. Filan-filan səbəbə görə, dəri Yunanıstana qayıtmalıdır.

Est Yazonun məramı ilə bağlı bir an üçün qaşlarını çatır. Dəri burada dəfinə və prinsip idi.

Bizim üçün yeganə sərvət vətən və xalqın yaradan əlləridir. Prinsip isə insanlar, qruplar, xalqlar arasında bəşəri-təbii münasibətlərdir.

Lakin daha çox bizim gümanımız və prinsipimiz deyil, real həyatda və əsatirdə də dərinin sərvət, həm də prinsip olması əsasdır.

Est bir an fikrə gedir. Lakin o, vəziyyətə daha çalarlı bələd idi. Est Yazonun əmisi Peliydə olduğu kimi yunanlıyla açıq döyüşə nisbətən hiyləyə əl atmağı üstün tutur. Buna şərait də imkan verirdi.

Hər şeydən əvvəl, dərinin qoruması tilsimə tapşırılmışdı. Tilsim müşkülünü təkcə güc və cəsarətlə, – qəhrəmanlıqla açmaq mümkün deyildi. Tilsimə yanaşmağın başqa yolu var idi ki, bu da hələlik Yazona bəlli deyildi (yəni tilsimli vəziyyət, vəziyyətin mahiyyəti) və tilsimə təsir üçün vasitəsi yox idi.

Est Yazona söyləyir ki, təklifinlə, dərini sənə qaytarmaqla razıyam. Lakin əvəzində sən də mənə bir xidmət göstərməlisən ki, bu qədər qiymətli dəri lap da havayı getməsin.

Yazon qanuni hakimiyyətinin qaytarılması tələbinə qarşı əmisi Peliy tərəfindən olduğu kimi, burada da şərt qarşısında qalır və həmin şərtlərlə razılaşır.

Şərtlər çox vaxt təklifdən boyun qaçırmaq vasitəsidir. Lakin düz yox, əyri yollarla. Ona görə şərt qarşısında qalan insanlar, prinsiplər münasibətlərin sağlam yox, dolaşıq olduğunu başa düşməlidir. Ya odur ki, bütün şərtləri basıb (çünki şərt qurtaran deyil) doğru yolla məqsədə yeriməli, ya da şərti dolayı yolla haqdan qaçmaq kimi qəbul edib düzmələrlə şərtləri kəsərsizləşdirib məqsədə yeriməlidir.

Yazon deyir ki, biz güclüyük, sənin dövlətinin qüdrətini artıra, iç və dış düşmənlərini aradan götürməkdə sənə köməklik göstərə bilərik.

Est cavab verir ki, bu məsələləri həll etmək üçün mənim əlimdə dövlət, sərvət, hakimiyyət kimi vasitələrim var. Sizin qüdrət, güc, mərdlik, qəhrəmanlıq məharətiniz mənə başqa xidmətlər üçün gərəkdir.

Məsələ ondadır ki, Zevsin oğlu, sənətkar, dəmirçi, Allah Hefest mənə iki qüdrətli öküz verib. Onlar ram edilmir. Onları ram etmək lazımdır. Bir də heç şey bitməyən geniş çöllərim var. Dərini geri götürmək xəyalındasınızsa, işarə verdiyiniz qüdrətlə öküzləri ram edin və həmin çölləri becərib məhsuldar hala salın. Heç bir şey əvəzsiz başa gəlməsin. İlk cücərtidə tələbiniz başa gəlir, haqqınızı ala bilərsiniz.

Bütün bu təklifləri adi şey hesab edən, qaydasınca vəziyyət gümanına gedən Yazon işdən xəbərsiz şəkildə hər şeylə razılaşır. Halbuki sonradan ona məhəbbət və qayğı ilə deyirlər ki, sənin əkəcəyin torpaq da, toxum da adi şeylər deyil. Öküzlər daha betər. Onlar Od, Günəş Allahınındır. Ayaqları misdəndir. Ağızlarından alov və tüstü buraxırlar.

Belə vəziyyətin torpağın əkilib becərilməsi müşküldür. Lakin əsil "bayram" becərilib əkilmiş torpaqda "məhsulun" başa gəlməsindədir...

Yazonun qarşısında bu şərtlər dayanmışdı. Yazon bu şərtlərin öhdəsindən gəlməli idi.

Lakin Yazon müşkülü anladıqda etidalını pozmur. Deyir ki: – nə olsun?! Geriyə yol yoxdur. Ölüm hadisəsi baş versə də, heç olmasa adıma qorxaq deməzlər.

Biz söylədik ki, şərtlər rədd cavabının dolayı yoludur. Ona görə də şərti məqsədə çatmaq yolu mənasında ciddi şey hesab etməməli.

Lakin şərtin başqa üzü çətinlikdir. Fərqi yoxdur, bu çətinlik istər hakimiyyətə, istərsə də səadətə çatmaq arzusu ilə olsun, qismətin muzdu kimi səslənir. Elə bir muzd ki, hər bir kəsin, hünərini üzə çıxarmaq vasitəsi ilə şəxsiyyətini, ləyaqətini təsdiq edir, özünü isə mətinləşdirir.

Şərtin törətdiyi çətinliklərə ilkin mənanı bu yöndə də vermək mümkündür.

Amma Yazonun çətinlik qarşısında qalması ilə əsatirin Medeya qolu baş qaldırır.

Əsatir bu qız haqqında birbaşa ünvan verir: cadugər Medeya!

Lakin Medeyanın cadugərliyinə biz nə məna verək? Biz bilirik ki, əslində cadugərlik yoxdur. Bu nə isə bir məharətdir. Amma məharət adlandırdığımız şey nə mündərəcədə olmalı ki, o əfkari-ümumiyyə üçün cadu təsiri bağışlasın. Axı əfkari-ümumiyyənin rəyinə hər dəfə də müstəqim, ciddi münasibət özünü doğrulda bilmir. Bir zamanlar insanlığın, – qadınlığın fəxri olan Janna Deark qəhrəmanlıq, fədakarlıq nümunəsi göstərərək xalqının və tərəqqinin taleyində iş gördüyü zaman müəyyən dəstə onu da cadugər adlandırırdı. Janna Dearkın, eynilə Medeyanın da məharəti əfkari-ümumiyyəni vahimələndirmiş. Ona görə də biz burada cadugərliyə gözütor dünyanın bəbəkləri ilə baxa bilmərik.

Biz əsatirin yönləndirdiyi səmtə yataraq Medeyanı cadugər kimi də qəbul etməyə məcburuq. Amma cadugər öz sehri ilə xeyirə də xidmət göstərsə, şərə də bir vahimə yaratmalıdır. Vəziyyət ehtiyatlı olmağı tələb edir. Cadudan hər zaman, hər bir şey gözləmək lazımdır. Bu hər bir şeyin arxasında, məsələn, sənə göstərilən yaxşılığın arxasında bir fəlakət də gizlənə bilər. Xeyir elə xeyirdir. Bunun təhlükəsi yoxdur. Burada ehtiyatlılığa ehtiyac qalmır. Lakin cadunun və bizim öz həyatımızın da kələ-kötürlüyü ondadır ki, xeyir kimi görünən şeyin arxasında hansı fəlakətin gizləndiyini ilk baxımda görmək çətindir.

Biz vəziyyətə öz ədalətimiz baxımından, mühakimələrlə yanaşdıqca Medeyada əsatirin yönləndirmədiyi, tamamilə başqa şeylər görəcəyik. Əsatirdə isə Medeyaya əvvəlcə cadugərlik arxasınca cadudan irəli gələn bədbəxtliyə, fəlakətə, tilsimə, tora, dibsiz quyuya, qulaqsız dünyaya, bəbəksiz aləmə bir məşum, nəhs simvol kimi hər yerdə qara rəng işarə verilir.

Medeya qara paltardadır. Onun əhatə olunduğu iqlim, tilsimin təsir sferası, tədbirlərinin bağlı olduğu vasitələrin hamısı qara rənglərlə mənalandırılır.

Adətən qara hər yerdə matəm rəngi kimi nəzərə gəlir. Amma bəzi hallar istisna edilməlidir. Məsələn, Nizami gələcəkdə bizə lazım olacaq əhvalatda qara rəngi təvazökarlıq əlaməti kimi məna edib. O, görəndə ki, bütöv şəhər əhli ancaq qara paltar geyir, bu vəziyyətin sirri ilə maraqlanır. Aydınlaşır ki, insanın laqqırdamasına, atılıb-düşməsinə, al rəngə, bayram təntənəsinə, coşub daşmasına hələlik ehtiyac yoxdur. Qara ona yaraşır. Qara təvazökarlıq əlamətidir.

Hadisələrin inkişafında, əsatirin əksinə olaraq, Medeya-qara paralelində biz daha çox Nizaminin yönləndirdiyi mənanı görəcəyik.

Medeya qolunun "Arqonavtlar"a daxil edilməsi isə əsatirin başlanğıcında müşahidə etdiyimiz yad duyğu ilə bağlı olmalıdır.

Əsatirin başlanğıcında Orxamen çarı Afamantın həyatına gözlənilmədən göylər pərisi Nefela daxil olur. Bu gəlişlə ailə səadəti tüğyan edir. Amma bu tuğyan edən səadət yalançı idi. Çünki o, ailə həyatı üçün peyvənd tutmayan bir calaqdan yaranmışdı. Nefela gözlənilmədən Afamantın həyatına daxil olub səadət təntənəsi başa gətirdiyi kimi, qəfildən də sarayı tərk edib xoşbəxtlik yurdunu viran qoyur. Çünki o bu həyata yad idi.

Əsatir bu ideya ilə başlayır. Əsatirdə sonrakı hadisələrin inkişafı üçün bu ideya, – yad duyğu ideyası qızıl yunlu qoyun dərisi əhvalatı qoyub gedir. Medeya ilə hadisələr yenidən ailə daxilinə qayıdır. Əsatir Yazon-Medeya ailəsinin aqibətini bilavasitə Medeya ilə bağlayırsa, bu, yad duyğu fikrinin daha qabarıq şəkildə finalıdır.

Lakin biz həm "Arqonavtlar", həm də Medeya ideyasına başqa cür yanaşırıq.

Medeya ideyası bütövlükdə "Arqonavtlar" əhvalatından doğan məntiqin içərisindən çıxır. Bu da ondan ibarətdir ki, böyüklük hakimiyyətdə yox, şəxsiyyətin bütövlüyündə, onun şəxsi qüdrətində, fiziki, mənəvi gücündə, yetişib kamala çatmasındadır. Böyüklük – insanlar üzərində qələbədə yox, onlara xidmət göstərməkdədir. İstila hakimiyyəti böyütmür, ərazini genişləndirmir. İstila xalqlara fəlakət daşıyır, – aparıb gətirir, vətənləri isə parça-tikə edir. Sərvət hazır dəfinəyə sahiblənməkdə yox, yaratmaq yolu ilə başa gələ bilər. Bu isə tullanıb-düşüb ortada qalan qızıl yunlu qoyun yox, vətən, onun torpağı, dağı, dərəsi, tarlası, meşəsi, çəməni, havası, suyu, günəşi və xalqıdır. Xalqın vətənə sahibliyi sərvətlərin və insancasına həyatın

özülüdür. Səadət hakimiyyətə dırmaşmaqda yox, insanların bir-birilə dil tapmasındadır. Səadət ölkələri fəth etməkdə, dünyanı mənimsəməkdə (mənimsəyib viran qoymaqda – istilanın başqa yekunu olmur) yox, könüllərin bir-birinə daxil olmasındadır.

Əslində "Arqonavtlar" sanki Herakl ideyasını təsdiq üçündür.

Yazon kimi Herakl da hakimiyyətdən məhrum edilmişdi. Lakin Herakl bu işdən üzünü turşutmadı, xidmət yolu tutdu. Herakl özünü xidmət vasitəsilə açır, təsdiq edirdi. Şəxsi əzəmət nə qədər əngin və ülvi idi! Hakimiyyəti, hətta səadəti əlindən alınan Herakl xidmət vasitəsilə həm böyüdü və həm də ülviyyət məqamına çatdı.

Herakl kimi Yazon da hakimiyyətdən məhrum edildi. Axı Yazon hər şeydə Herakla bənzəyirdi. O, güclü idi, parlaq idi, gözəl idi, müdrikliyi, alicənablığı da var idi. Hətta Herakl kimi Yazon da Kentavr Xironun nəzarəti altında tərbiyə tapıb boya-başa çatmışdı. Yalnız bir yerdə Yazon Herakldan seçildi, ayrıldı. Yazon inadla əldən getmiş hakimiyyəti qaytarmağa çalışdı. Yollar ayrılanda nəticələr də başqa-başqa olmalıdır.

Biz də bu fikri izləməyə çalışırıq.

Firiksin uşaqlarının bələdçiliyi ilə Yazon Estin sarayına daxil olan təki uşaqlar analarının, Xalkiopanın üzərinə atılır. Ana və balalar qucaqlaşır, sevinir, kədərlənir, gülüşür, atılıb-düşürdülər. Bir anda sarayın bu səmtində böyük bir büsat başlamışdı. Halbuki riyasət mülahizələri ilə saray bu özünəməxsus doğma diyarda böyük bir müsibət başa gətirmişdi.

Yazon Estlə üz-üzə gələrkən və tələblərini irəli sürərkən, onlar arasında "bağlaşmalar" gedərkən padşahın digər qızı, uzun qara paltarda, gözəl Medeya qıraqda dayanıb mənzərəni müşahidə edirdi.

Medeyanın gözləri bu yadelliyə, Yazona sataşdıqca qəlbinə anlaşılmaz, doğmalıq duyğusunun axdığını hiss edir. Medeya nəzərlərini Yazondan çəkə bilmirdi. O, qəlbində bu yad adama qarşı bir doğmalıq duymağa başlayır və bu hiss, bu hissin yaratdığı iqlim onu öz haləsi içərisinə qərq edir.

Medeya sehrkar idi. O, zövqüncə bir cinsə, insana rast gələrkən bu cür kökə düşür. İnsani duyğu onu öz pəncəsi altına alır. Medeya insan kimi hiss edir ki, taleyi bu yad adamla bağlanır. Ona görə Yazona kömək üçün öz məharətindən istifadə qərarına gəlir. Medeyanın sehrkarlığı müşkülləri həll edə, düyünləri aça bilərdi.

Əgər hakimiyyət insanları bir-birindən ayırır, yurdları dağıdır, səadəti məhv edirsə, doğmalar burada yadlaşırsa, yaxını uzaq edirsə,

insani bir duyğu, məhəbbət uzağı yaxın, yadı doğma, çətini asan edir. Məhəbbət bərkin yumşalmasına müşküllərin həllinə, düyünlərin açılmasına köməklik göstərir.

Medeyada cadugərlik kimi görünən şey məhəbbətin bu cür gücündə idi.

Məhəbbət hamıda müşahidə edilir. Lakin hamıya məxsus məhəbbətdə yükün altına girmək yox, faydalanmağa meyil daha ümumi haldır. Halbuki böyük nemət kimi məhəbbət ağır bir yükün altına girməyi tələb edir. Səadət bu yolla başa gəir, hazır şəkildə qamarlanmır.

Medeyada məhəbbət bu səviyyədədir. O adi ölçüyə sığmadığına görə cadu təsiri bağışlayır. Bu cür məhəbbətlər isə zəka ilə birləşir. Medeyada iksir təki görünən şey zəkanın gücü idi.

Medeya atası ilə bağlı Yazonun nə qədər çətin vəzifə qarşısında qaldığını bilirdi. O, öz malikanəsinə çəkilir və saraydan çıxarkən Yazonu qarşılamaq üçün öz xidmətçisini göndərir. Yazon isə sarayı tərk edib gəmiyə qayıdarkən həyatda Medeyanın qoca qulluqçusu onu qarşılayır. Qarı tapşırığı Yazona çatdırır. Medeya qəhrəman yadellini Hekata məbədində gözləyirdi.

Hekata özü xəyal və qorxu ilahəsi idi. Onun məbədi təpənin üstdəki meşədə yerləşirdi. Medeya ona xidmət edirdi. Burada əsatirin Medeyaya işarə verdiyi cadugərlik daha da qatılaşır. Çünki Medeya cadusunun ucu Hekataya bağlanır. Hekatanın nəzarətində olan qorxu aydındır. Xəyalı bəs necə mənalandırmalı?!

Əlbəttə, xəyal şirindir. O, bir anda möcüzəli aləm düşüncələri ilə səni həqiqət və gerçəklikdən ayıra bilər. Ayaqların yerdən üzülməsi və dibsiz quyuya düşülməsi üçün bu da yetərlidir.

Xəyal mənfi yönlü ola, təhlükəni şişirdə, qorxu hissini qüvvətləndirə də bilər.

Lakin xəyal həqiqətlə yanaşı uçarsa, idrakın qol-qanadı olar!

Qaydasınca xəyal-idrakın qol-qanadıdır.

Amma əsatirin Hekataya işarə verdiyi və qorxu ilə yanaşı qoyduğu xəyal mənfi məndərəcəli olmalıdır. Haqsız tərəf üçün Medeyaya bizim isnad verdiyimiz bəşərilik, idrakilik cəhətincə də qorxulu olmalıdır. Çünki güclü tərəf hətta bəşəri, idraki tülə büründükdə belə təhlükə yaradır.

Hekatanın məbədi təpənin üstündəki meşədə yerləşirdi. Orada üç üzü olan heykəl vardı. Üç heykəl şəhərin hakimiyyətində olan aləmlərə: göyə, yerə, yerin altına işarədir.

Buradan Hekatanın hökmünün nə qədər əhatəli olduğu aydınlaşır. Başqa qalaq-qalaq (Medeya ilə bağlı) simgələr (simvollar) də var. Bütün simgələrin ardınca qaçmağa ehtiyac duyulmur. Həm də çox vaxt simgələrin məna çalarları tükənmir. Biri onları bu cür, başqası başqa cür də mənalandıra bilər.

Biz öz ideyamız çərçivəsində hərəkət edirik. Amma zahirən cazibəli görünsə də, əsatirdə həm Medeyaya, həm də Hekataya qara işlər, inilti, fəlakət törədən aqibətlər işarə verilir.

Medeya Yazon üçün başqa cinsin nümayəndəsi idi. Cinslər isə bir-birini cəzb edir, ehtizaz, huşsuzluq yarada bilir.

Medeya gənc idi, gözəl idi, məhəbbət vəd edirdi.

Medeya idraklı idi.

Lakin Medeya cadugər idi.

Hekata İlahədir. Deməli o, ilahi duyğunun ifadələrindən biridir. Ona görə də Hekata Allahın – Xeyirin nümayəndəsi olmalıdır. Zira, Alah geniş anlayışdır. Onu iç ziddiyyətlərindən bir dəqiqəliyə ayırsaq belə, şər də onun ixtiyarındadır. Xüsusən də yunanların dini düşüncəsində. Bu cəhətdən ilahəlik Hekatanı şər təmayüldən arındırmır. Bir halda ki, ona Medeya ilə bağlı izaha çalışdığımız kimi, xəyal və qorxu isnad verilir. Hələ üstəlik, cadugər Medeya da ona xidmət edir ki, bu da vahiməni gücləndirərək şərin təsirini artıra bilər.

Allahlara, ilahələrə qurbanlar kəsilir, onlar hədiyyələr də qəbul edirlər. Lakin qurbanlar, hədiyyələr allahlara layiq olmalıdır. Amma əsatir lap başlanğıcda söyləyir ki, meşədə Hekataya bəxş edilmiş itlər veyillənir.

İlahə – Hekata, bəxşeyiş it və hədiyyənin məmnuniyyətlə qəbulu!

Bu köpəklər də nəyə isə bir şeyə işarə verməlidir. Üstəlik deyilir ki, köpəkləri saxlamaq üçün daim qara quzular hazırlanır. Yenə də qara! Bu qara quzular da məşum və murdar aqibətlərini daim duymalı ki, şikayətlə inildəyirlər.

Bu da simgədir, Medeya ilə bağlı. Bu simgədə quzular itlərə yemdir. Başqa sözlə, Medeya ilə bağlı simgədə birində itlər quzuları inildədirlər.

Bütün bu cəhətlər Medeya cadugərliyi mündərəcəsinin çalarlarını təsəvvür etmək üçün idi.

Cadugər Medeya, söylədiyimiz kimi, ölünü dirildə, qocanı cavan edə, kədər törədə, dincliyi poza bilir. Ona görə də hamı Medeyadan

çəkinir. Medeya öz mühitində bir kabus, vahimə yaratmışdı. Hətta atası – ölkənin padşahı belə, qorxur, ondan ehtiyatla davranır.

Lakin Medeyanın cadugərliyini nəzərə almasaq, onun idraklığı, güclü ağlı və bunların ona imkan verdiyi məharəti, qabiliyyəti göz qabağında dayanırdı. Hələ buna üstəlik Medeyanın sevən qəlbi də var. Ancaq son dərəcə ülvi, dahiyanə təbiətlərdə sevgi ilə zəka vəhdətdə müşahidə edilir, az qala eyni məna kəsb edir. Medeya bütün cəhətlərindən qıraq Yazonu sevir və ona görə də bu yadelliyə qarşı kövrəkdir.

Bizim Medeyaya münasibətimiz belədir. Ona görə də bizcə, Yazonun günəş ölkəsində ələ keçirdiyi əsil qızıl yunlu qoyun, yəni sərvət və şahlıq Medeya idi. Yazon öz səadətini burada görməli idi.

Yazon şahlığı öz haqqı, bir prinisip kimi geri qaytarmaq istəyirdi. Lakin sonrakı hadisələr göstərir ki, o, şahlığın qaytarılmasında öz səadətini də görürdü.

Qızıl yunlu qoyun ona şahlığın qaytarılması üçün vasitə idi. Lakin qızıl yunlu qoyun, eyni zamanda, dəfinə idi. Burada “Arqo” lazım olmuşdu. Lakin “Arqo”nun aqibəti istila fikrini izah etdiyinə görə, Yazon yürüşlər təşkil etməkdə də, ölkələr tutmaqda da, dəfinədə də, sərvətlərin gətirdiyi firavanlıqda da öz səadətini görməli idi. Bütün bunlar ona arzuladığı səadəti başa gətirmək üçün idimi?

Amma gözlənilmədən “səadət vasitələri” ilə yanaşı, Yazonun gözü önündə birdən Medeya dayandı.

Hakimiyyət, sərvət!

Medeya-insan, məhəbbət!

Bunlardan hansı məqsəd, hansı vasitə idi?

Səadət üçün hansına can atmalı, nəyi prinsipə çevirməli idi?

Medeya rast gələrkən Yazonu sevdi.

Medeya Yazonun özünü də cəzb edirdi. Yazon da məhəbbətə hamilə olmuşdu. Lakin Yazon hakimiyyət ardınca qoşarkən məhəbbətlə, – insanla rastlaşırkən bir an fikrə gedib başına vurmur. Bu ikinci, əsil, insana layiq dünya haqqında düşünüb, onu əsil prinsipə çevirə bilmir. Bu heç onun ağlına da gəlmir.

Aqibəti isə biz izləyirik.

Biz inkar etmirik, Medeya hər halda hər hansı bir təsadüf üçün təhlükəli idi. Lakin bu, ağıldan, mənəvi qüvvədən, dahilikdən doğan təhlükə idi. Dahilikdən isə qoy qanmazlıq, qərəz, şər ehtiyat etsin.

Medeya insan üçün səadət təcəssümü idi. Səadətin fəlakətə çevrilməsi üçün gərək öz mahiyyətin haqqında dərindən düşünəsən.

Medeya ilə Yazon təyin edilmiş yerdə görüşürlər. Bu görüş bir daha təsirli idi. Hər iki tərəf üçün...

Göz-gözə gəlmənin, bir anın sükutundan sonra Medeya dillənir. O, Yazona sabah görməli işin çətinliyini danışır. Adi halda bunlar başa gəlməli vəzifələr deyildi. Lakin Medeya məhəbbətin təsiri ilə Yazona söyləyir ki: "amma, bilmirəm nədənsə, mən atama qarşı sənin tərəfindəyəm. Bu işin öhdəsindən mənim sehrim gələ bilər. Qəlbimdə sənə kömək arzusu doğub. Mənim köməyimdən imtina etmə!"

Yazon həm sevinmişdi, hələ də sehirlənmişdi.

Doğrudur, çətinlik qarşısında qalarkən Yazon titrəmədi. O, ölümü gözünün altına alıb, təhlükənin üstünə yeriməyi qərara aldı. Hünərli işlər və qəhrəmanlıqlar belə başa gəlir. Amma təhlükə hər halda təhlükə olaraq qalırdı. Həm də bu adisindən deyildi. İndi isə ona göydən düşmə bir kömək qəmxar çıxır, misilsiz bir dayaq yaranırdı. Həm də necə bir qəmxarlıq, necə bir dayaq!..

Təhlükə böyük idi. Lakin qəmxarlığın, dayağın arxasında dayanan qüdrətin sehri üçün bu təhlükənin öhdəsindən gəlmək adi bir iş idi.

Yazon buna sevinirdi.

Həm də Yazon sehirlənmişdi.

Yazon sehirlənmişdi! Möcüzəli bir aləm ona tərəf gəlir, qanad açıb qarşısında süzür. Ona cəzb olunan bir şey, onun özünü də cəzb edirdi. Burada ixtiyarı əldən alan, lakin bu ixtiyarsızlıq qüdrətli adamlarda baş verdiyinə görə ixtiyar səlahiyyətlini daha da gücləndirən şairanə bir aləm yaranırdı.

Medeya, əsatirin yönləndirdiyinə yatsaq, cadugər idi. Lakin o, Yazona qarşı, Yazonun məhəbbətini qazanmaq üçün cadudan istifadə etmirdi. Sadəcə olaraq, Medeya bu yad adama qarşı qəlbində mehribanlıq duyurdu və ona kömək arzusu baş qaldırdı. Hələlik hamıya qarşı güclü olan Medeya Yazona qarşı gücsüz, kövrək idi. Çünki hələlik onu başqa tərəf hesab etmirdi. Onunla özünün vəhdətindən ibarət bir hissi qəlbinə dolmuşdu.

Medeya cadugər idi. Amma Yazona məhəbbətində cadugərlikdən istifadə etmirdi. Burada daha böyük cadugər peyda olmuşdu: məhəbbət! Medeya məhəbbətin təsiri altında özü Yazona sehirlənmişdi. Yazon özü də həmin sehrin içərisində idi.

Yazon və Medeya bir-birilərinə sehirlənmişdi. Bu, məhəbbətin sehri idi. Məhəbbətin ovsunlayıcı qüvvəsi Medeyanın cadusundan daha təsirli idi. Lakin bu, Yazonda da bu səviyyədəmi baş vermişdi?

O səviyyədə ki, məhəbbət Yazonu ovsunlayıb riyasət mülahizələrini, riyasətdən doğan prinsipləri  unutdursun? Hələlik bu cəhət aydın görünmür. Amma sehirlənmişdi. Lakin burada sevinc hissi daha fəal idi.

Yazon Medeyanın kömək təklifini qəbul edir və dərhal onlar işə başlayırlar.

Yazon sabah təhlükəli işə başlamalı idi. O, Hefestin, dilindən alov saçan dəmir dırnaqlı öküzlərini ram etməli. Yabanı bir çölü şumlamalı idi. Ona toxum əvəzinə əjdaha dişi veriləcəkdi. Bu dişlərdən taxıl əvəzinə silahlı dəmir döyüşçülər bitəcək və təbii ki, Yazonu bütün dəstəsi ilə məhv edəcəkdilər.

İndi Medeya elə tədbir tökməli idi ki, Yazon bütün bu işlərin öhdəsindən gələ bilsin.

Hər şeydən əvvəl, Medeya öküzlərin təhlükəsini zərərsizləşdirmək və Yazona qeyri-adi qüvvə gətirmək üçün ona balıq qulağında qara bir məlhəm verir.

“Qara” leytmotivi davam etməkdədir.

Bəs, bu məlhəm özü nədən ibarətdir?

Bəlli olur ki, bu məlhəm cəzaya məhkum edilmiş, əzaba düçar olmuş Prometeyin axıdılan qanından hazırlanıb.

Biz əsatirin yönləndirdiyi mənanın əksinə olaraq, Medeyada zəka, onda məhəbbətin ülviyyət səviyyəsinə çatmış qüdrətini də görürdük. Medeya cadügərliyinin məlhəmlə bağlı Prometeylə əlaqələndirməsində əsatir öz mövqeyindən geri çəkilib bizim fikrimizə boy verməyə imkan yaratmış.

Söylənilir ki, əzaba məhkum edilmiş Prometeyin qabırğalarını söküb cigərlərini qartal parçalayarkən qan axıb qayaya və dənizin qırağında qumların üstünə yayılırdı. Həmin qumda vəhşi və qorxunc bir çiçək bitibmiş. (Əlbəttə, əsatir təsvirində yenə də vəhşi, qorxunc anlayışlarından istifadə edib). Məlhəm həmin çiçəyin qara kökündən hazırlanıb.

“Qara” leytmotivi davam edir.

Medeya Yazona başa salır ki, gecə vaxtı gedib filan çayın suyunda yuyunarsan. Sonra bədəninə başdan ayağa qədər həmin məlhəmdən sürtərsən. Onda bədənin qüvvətli və oda davamlı olar. (Hər halda hakimiyyət arzusu prinsipə çevrildikdə işləri belə mürəkkəbləşdirir). Sonra qara paltar geyməli (gecə qara, paltar qara). Həmin məlhəmdən silahlarına: qılıncına, nizənə, qalxanına da sürtməlisən.

Yazon qarşıda duran çətinliyə qarşı ilkin pillə kimi bu səviyyədə hazırlanır. İkinci pillə, hazırlıq dövründən sonra, çətinliyin öhdəsindən gəlmək idi.

Yazon indi möhkəm idi. Onsuz da güclü, cəsarətli, qəhrəman olan Yazon daha çətinliklərin öhdəsindən gələ bilərdi. Lakin işin ikinci pilləsinin mahiyyəti ilə tanışlıq aydınlaşdırır ki, vəziyyət güman edildiyindən daha mürəkkəbdir.

Yazon becərəcəyi yerin adı Ares gölü idi. Bundan başqa müharibə Allahı Ares Kolxida çarına ikitəkərli araba və yaraq-əsləhə bağışlamışdı. Yazonun çölə atdığı toxumdan da bir anda Aresin silahlı döyüşçüləri bitəcəkdi.

Burada Medeyanın bağlı olduğu kökün müharibə Allahı Aresə bu qədər bağlanması yenə də təhlükəli, gizli bir şərə işarədir. Hər halda əsatirdə vəziyyət belədir. Lakin biz Medeyaya gümanlarla yox, onun özünün ətrafa, özünə, başqalarına münasibətinə və gördüyü işlərə əsasən qiymət verəcəyik.

Medeya çöldə bitən Aresin silahlı döyüşçüləri ilə vuruşa girməyi məsləhət bilmir. O, burada da tədbir tökür, fəndə əl atır. Deyir ki, döyüşçülər baş qaldıran təki görünməyən səmtdən döyüşçülərin arasına bir daş tullamaq bəsdir. Onlar daşın haradan atılacağını bilməyəcək, bunu öz aralarından axtaracaq, bir-birilərindən görəcək, bir-birilərinin üstə atılacaq, özlərini qırıb qutarana qədər vuruşacaqlar.

Hər şey hazır idi. Gecə vaxtı söhbət qurtarandan sonra qız Yazonun üzünə məhəbbətlə baxırdı. Eyni hiss, işıq-ülvi sərbəstlik Yazona da hakim kəsilir. Əsatir işarə vurur ki, bu zaman Medeya Yazonun gözünə mərhəmətli və gözəl görünürdü. Bu əsatirin vəziyyətə münasibətidir. Bizim üçün isə qoşa cazibəli gözlərin bir-birinə yol tapması, könüllərə ilahi duyğunun dolması idi. Biz əsatirin yönləndirdiyi ailədə yad duyğu ideyasına yatmırıq.

Ailə əslində yadlar arasında baş verir. Lakin insan heyvan sürülərindən fərqli daha əhatəli şəkildə qan qohumluğundan başqa ruhani surətdə də bir-biriləri ilə bağlanmalıdırlar. Məhz ən ilkin şey kimi bu məhəbbətdə və ailədə özünü göstərir. Ailə-məhəbbət dedik, yadı doğma, uzağı yaxın, çətini asan edir. Həmin cəhət, işin cinsilikdən başqa ümumi insana, ünsiyyət əlaqələri, humanizm və cəmiyyətin təhrik etdiyi başqa iqtisadi, mədəni və s. əlaqələri daha böyük ruhani aləmə səsləyir. Burada insanın zəifliyi, tarixin naqisliyi, qalaq-qalaq ziddiyyətlər şər şəklində meydana çıxırsa, bunlara

Medeyanın cadusu, yəni əqlinin və qəlbinin gücü, məharət və məhəbbəti cavabdeh deyildir ki?!

Səhər Yazon Ares çölünə getməli idi. Hər cür ehtimala qarşı Arqonavtlar da gəlib burada bir səmtdə gizlənməli idi.

Səhəri belə də olur. Kolxidalılar da buraya axışıb gəlmişdi. Onlar əjdaha dişindən əmələ gələn müharibə Allahının döyüşçülərinin Arqonavtları necə qıracağına tamaşa etmək istəyirdilər.

Lakin tərəflər tamam tərsinə olan mənzərə qarşısında qalırlar.

Medeyanın iksiri öz işini görmüşdü. Yazon tilsimi qıra, qarşıya çıxan ölümcül təhlükənin öhdəsindən gələ bilərdi. Amma hətta iksirin gücü ilə silahlandıqdan sonra belə, qəhrəmani bir keyfiyyət lazım idi ki, Yazon dəhşətdən göyüzü tutulacaq bir meydana təkbaşına atıla idi.

Yazon qəhrəmani surədə bu addımı atır. Adamlar Yazonun bir anda ram olmaz öküzləri necə cilovladığını, Ares çölünü necə şumladığını – əkib-becərdiyini gördükdə, heyrətdən quruyub qalırlar. Hər şey Medeyanın əvvəlcədən xəbər verdiyi kimi olur. Yer şumlanıb tarazlandıqdan, toxumlar yerə səpiləndən sonra çöl Aresin müsəlləh döyüşçüləri ilə dolur. Vəziyyətin öhdəsindən gəlmək üçün Medeya məsləhət görmüşdü ki, gözlənilməz səmtdən döyüşçülərin arasına bir daşın atılması bəsdir. Amma döyüşçülər şumlu səhradan baş qaldıran təki oraya bir neçə səmtdən daş atıldı. Müsəlləh adamlar düşməncəsinə bir-birinin üstə yeridi. Qanlı bir hadisə baş verdi. İstibdadı cinayətlər, təhqirlər, qəbahətlər dünyasını qıraqdan yıxmağa ehtiyac qalmadı. Dostu və düşmənini bir-birindən fərqləndirməyi, yaxşını pisdən seçməyi bacarmaqda kütbeyin olan, gözləri görməyən istibdadı qıraqdan yıxmağa ehtiyac qalmadı. Bu naqisliyin təsiri ilə öz-özünü didib, paçalayıb məhv etdi.

Şumlanmış səhradan baş qaldıran döyüşçülərin təhlükəsindən sovuşmaq üçün qıraqdan atılan daşın gördüyü işlə bağlı simvol axtarmağa ilk baxışda ehtiyac yox idi. Əsatir burada simvolik bir mənaya meyil göstərməmişdi. Əsatirə Yazonun qızıl yunlu dərini əldə etmək və bir də Medeya cadusunun gücünü göstərmək lazım idi.

Bu vəzifə yerinə yetiriləndə əsatirə lazım olan iş başa çatırdı.

Bizim əlimizə isə fürsət düşüb.

Bu dünya xeyirə nisbətən şəri daha asanlıqla həzm edir. Axı idrakla, yetişməklə, qabiliyyətlə, məhəbbətlə, insana qayğı ilə yaratmağa nisbətən xəyanət yolu tutmaq, aldatmaq, yalan satmaq, tora salmaqla əldə etmək çox asandır. Bunun üçün yalnız sinəni

isidən və daim insana köməyə təhrik əvəzinə nəfsə həris, təşəxxüscəsinə bir duyğu yetərlidir.

Zəif insanlardan tərtib edilmiş naqis dünyada məntiq pozulmalıdır. Burada yaradanlar faciələr, çalıb-çapanlar, əzib əzilənlər, cinayətlər, təhqirlər, qəbahətlər, aldatmalar və s. bataqlığında çabalayacaqlar. Lakin ictimai özüldə xeyirə nisbətən şər daha asanlıqla həzm edildikdə dünyanın cilovlarını əllərində tutanlar yaxşını yox, pisləri seçib sonalayacaq. Orada mütləq dostla düşmən baş-ayaq salınmalıdır, dost buraxılıb düşmən tutulmalıdır. İstibdad ona görə də istibdad adlanır ki, o, məntiqi pozur, düşmənlərdən tərtib olunur. Belə halda xeyir istibdadada dost ola bilərmi? Düşmənlərdən tərtib edilmiş dünya iflasa uğramalı, məhv olmalıdır. Məntiqsizliyin məntiqi yekunu belədir.

Pislik – kütbeyinlik, kütbeyinlik – pislik bir-birilərinin daimi peykləridir. Bu cür öz-özünü yıxan dünyanı qırağın yüngülcə itələməsi bəsdir.

Yazon da belə edir.

Onda ki, Aresin döyüşçüləri xoflu şəkildə bir-birinin üstə atılır, Yazon da qılıncı siyirib axıra qədər bu yönü, silahlı adamları qırıb tökür.

Adamların heyrətinə səbəb olan cəhət bu idi.

Lakin vəziyyət Kolxida çarının, Günəş oğlu Estin gözündən qaça bilməzdi. O, anlaya bilərdi ki, özgələrin ram edilməsi, Ares döyüşçülərinin aradan götürülməsi üçün təkcə qəhrəmani hünər, güc və cəsarət azdır. Est hadisədə qızı cadugər Medeyanın əli olduğunu anlayır.

Est qızıl qoyun dərisini əldən vermək istəmirdi. Başqa tərəfdən baş verən hadisəni də cəzasız qoya bilməzdi. O, gecəykən Yazonu dəstəsilə, Arqonavtların hamısını məhv etməyi planlaşdırır.

Medeya yenə də hadisələrə müdaxilə etmək qərarına gəlir. O, atasının nə qədər hiyləgər, rəhmsiz, ona görə də amansız, qəddar olduğunu bilirdi. Medeya özünün də cəzasız qalmayacağını anlayırdı.

Medeya dərhal qanadlanır, gecə ikən Yazonun yanına gəlir. O, vəziyyəti Yazona başa salır və deyir: Mən sizi və özümü xilas edirəm. Yazon, and iç ki, sən məni heç vaxt tərk etməyəcək, məni yad ölkədə baxımsız vəziyyətə salmayacaqsan. Mən dar gündə, bərkə düşəndə səni öz yanımda hiss etməliyəm. O cür ki, mən könlümü sənə vermişəm, səndə də həmin münasibəti özümə qarşı hiss etsəm,

dünyanın heç bir çətinliyini, bərk gününü, baxımsızlığını duymaram. Mən hər şeyimi atıb səni tuturam. Sən mənim üçün hər şeysən. Sən mənimlə olsan mənim gördüyün dünyadan daha böyük aləmim var. Mən hər kim olsam da, qadınam. Sənə ehtiyacım var.

Medeya düz deyirdi. O, hər kim olsa da qadın idi və onun başqa cinsə həm cismən, həm də ruhən qovuşmağa da ehtiyacı var idi. Necə ki, hər bir kişinin də, eynilə Yazonun da başqa cinsə, Medeyaya cismən və ruhən qovuşmağa ehtiyacı var. Həyatı bərpa etmək, vəhşiləşməmək, solmamaq, çolaq qalmamaq və s. üçün.

Əlbəttə, bu cür birgəlik, qovuşma, xüsusən, məhəbbət və ailə gedişatında şərtlərlə, andlarla başa gəlmir. Bütün müşahidələr, bütün təcrübə göstərdi ki, bunlar özünü qatı şəkildə, inadcıl surətdə büruzə verən, bəzən hətta qeyri-ixtiyarilik həddinə çatan təbi gedişatlardır. Bu gedişatda hətta ağlın birtərəfli müdaxilə etməsi, yəni hətta bir tərəfin ağıllı olması da zəif özüldür. Burada birgə ağıl bilinən (müəyyən) mənada, bilinən ölçüdə işə haradasa təsir göstərə bilər.

Medeya-Yazon münasibətlərində müəyyən vəzifəni yerinə yetimək zərurətindən başqa bu cür qarşılıqlı təbii vəziyyət də müşahidə edilir. Bu var. Bundan başqa Medeyanın Yazona qarşı güclü haqq-sayı da əsaslıdır. Qadın bu yolda dünyasından keşmişdi... Medeya bunun haqq-sayına getsə də, getməsə də. O, bunu ortaya çəkib, üzə vursa da, vurmasa da. Baş verəcək hər bir çolaqlıq, çox vaxt buna namərdlik də deyirik. Yazon tərəfindən törədilərsə, o, burada həm mənəvi bir dünyanı korlamış olur, həm də vicdanlı bir vəzifəyə qarşı nankor çıxır.

Lakin bir tərəfli surətdə, təbii şəkildə Yazon tərəfindən dönüklük baş qaldırarsa, Yazon burada nadir şəxsiyyət, düha təbiətli adam ola ki, hər şeyi nəzərə ala, qarşısındakının çıxılmaz vəziyyətini götür-qoy edə, özündən keçməyi bacara, bütün gedişatları iradənin nəzarəti altına sala bilsin. Lakin belə şəxsiyyətdən hər hansı birgə iş üçün bu başdan cavabdehlik etibarnaməsi tələbinə ehtiyac qalmır. Çünki bu cür adamların həyat tarixçəsi insana kömək naminə özündən keçmələr məcmuəsinin salnaməsidir. O, nəinki ruhi qovuşma və haqq-saya qarşı, hətta ən umacaqsız anlarda da özündən keçəcək və dara düşmüş adamı tək qoymayacaq.

Biz bu yöndə Yazon üçün əvvəlcədən hazırlanmış fikir söyləmirik, hadisələri izləyərik, yekun hər şeyi göstərər, özü söyləyər.

İndilik isə Medeya və Yazon şərtləşir, sözləşirlər. İşin söz hissəsində hər şey uğurla başa gəlir.

Yazon Medeyanın köməyi ilə Estin irəli sürdüyü çətin işin öhdəsindən gəlmişdi. Şərtə görə, indi bəlli dəri əldə edilməli idi. Lakin bəlli olur ki, Est tərəfindən irəli sürülən şərt dərinin verilməsi yox, məhz verilməməsi üçün imiş. Çünki şərt yerinə yetiriləsi vəzifə deyildi.

Hadisələr arxada qalandan sonra Est indi sözündən dönməli və dərini özündə saxlamaq üçün dövlətin gücündən əlindəki silahdan istifadə etməli idi. Həm də xəyanət yolu ilə. Nəzərə almaq lazımdır ki, xəyanət ən "kəsərli" kəmfürsətlik vasitəsidir. Dövlətin və kəmfürsətliliyin birləşməsi qüvvəni daha da gücləndirməlidir.

Bu təhlükədən xilas üçün Medeya Yazona söz verirdi. Amma dəri əldə edilməli idi. Məsələ bundadır. Yoxsa sadəcə təhlükədən qaçmaq Yazonun məqsədini başa gətirmirdi.

Bütün hadisələr ötəndən sonra dərinin əldə edilməsi aşağıdakı şəkildə çətin başa gəlirdi. Xüsusən də indiki şəraitdə...

Qızıl yunlu qoyun dərisi, müqəddəs yerdə palıddan asılmışdı. Nəhayət, burada qızıl yunlu qoyun dərisi müharibə işləri ilə, müharibə Allahı Areslə bağlaşdırıldı. Hərçənd əsatirlərdə müharibələr həyatın zəruri hissəsi kimi məna edilir. Amma hər halda, müharibə müharibədir. O, tarixin gedişində necə peyda olsa, hans rolu oynasa da...

İş onda idi ki, dərini heç bir zaman gözünə yuxu getməyən, daim ağzından alov saçan əjdaha qoruyurdu. Əgər Medeyanın sehrkarlığı işə müdaxilə etməsəydi, dərini əjdahanın cəngindən götürmək təkcə qəhrəmani işlə başa gələn şey deyildi. Lakin Medeyanın Yazona arxa durması ardıcıldır. Medeya əjdahanı ovsunlayır. Əjdahanın gözləri sönür və onu dərin bir yuxu basır.

Dəri əldə edilir. Yazon dərini əldə edən təki çiyninə atır. Xatırladaq ki, Herakl da ilk qoçaqlığı başa gəldikdən sonra belə etmişdi. O, qalib gəldiyi Nemey şirinin dərisini çiyninə atmışdı. Herakl Nemey şirinin Yazon isə qızıl yunlu qoyunun dərisini.

İndi qaçıb aradan çıxmaq lazım idi. Est Arqonavtların ardınca oğlu Aspirtinin sərkərdəliyi ilə mükəmməl bir ordu göndərir.

Ordu və onun sərkərdəsi. Estin öz oğlu Aspirti qəti tapşırıq almışdı. Onlar Arqonavtları məhv etməli, Yazonun və Medeyanın, mümkün olsa dərisini, olmasa meyidini gətirməli, dəri isə geri qayıtmalı idi. Əks halda tapşırığı yerinə yetirə bilməyənlərin özünü ən ağır cəza, ölüm gözləyirdi.

Burada istibdadın yenə də ağılsızlıqdan (həyatın zəruri şərtlərindən deyil) doğan qəddarlığı özünü göstərir. Lakin ayrı cür də olsa idi, o, istibdad adlanmazdı.

İstibdad kütbeyin düşüncələrlə birtərəfli düşünür, plan hazırlayır, tapşırıq verir, haqq-nahaq cəzalar və təltiflər tərtib edir.

İstibdadın cəzası təltiflərdən betər, təltifləri cəzasından beşbetər.

Amma əsatir Yazonun, deməli, arqonavtların tərəfində idi. Üstəlik Medeya da onları müdafiə edirdi. Est Aspirtiya, orduya tapşırığında istibdad da cəza hədəsində bunu hesablamamışdı. Ona görə də ordu Estin öz oğlu Asperti ilə birlikdə məhv olur, arqonavtlar isə aradan çıxırlar.

Uzun dəniz macəralarından sonra onlar Yunanıstana qayıdırlar.

Hələ əsatirin hakimiyyətə dırmaşmaq ideyası, – dəri əhvalatı, tamamilə qurtarmasa da, axıra qədər sürünüb getsə də, lakin indi hekayətin daha mühüm, mənalı, ibrətli, bizim üçün əsas yolu, – Medeya – Yazon əhvalatı baş qaldırır.

Durumu dolğun almaq üçün Medeyanın öz yurdunu, öz qövmünü necə tərk etdiyini ötərgi xatırlayaq.

Qızıl yunlu qoyun dərisi vaqeəsində Yazonun – arqonavtların uğuru üçün hər şeyi Medeya özü öz arzusu ilə başa gətirmişdi. Burada işə təbii şəkildə peyda olan arzu təkan verirdi. O, Yazona qoşulub Elladaya yollanarkən də, ata yurdunu, öz qövmünü tərk edərkən də hər şeyi öz könlü ilə başa gətirirdi. Amma Medeya Kolxidadan ayrılarkən uzun müddət gözlərini oraya zilləyib durur, qövmündən ayrılarkən göz yaşlarını saxlaya bilmirdi. Təkcə bu cəhət göstərir ki, Medeya-Yazon münasibətlərinin lap başlanğıcdan götürdüyü təkan, üz tutduğu yön Medeya üçün lap da qurbansız keçməmişdi.

O doğrudur ki, Medeya cadusunun öz qövmü, eynilə atası padşah Est üçün önəmi yox idi. Bu, onların gözündə Medeyanın üstün cəhəti, qabiliyyəti yox, təhlükəli bir şey idi. Medeyanın doğma atası, padşah Est heç olmasa öz hakimiyyətini möhkəmləndirmək üçün Medeyanın hünərindən istifadə əvəzinə ondan ehtiyat edirdi. Bu cür ehtimalla tərəflərin ortaq işi mənfəətpərdar olması başa gələrdimi?! Əksinə, çəkingənlik, xof, hürkü doğma münasibətlərin də üzünə kölgə salmalı idi.

Medeya hünəri, hadisələrin yekununu nəzərə almasaq, Yazon üçün təhlükəli deyildi. Nəzərdə tutulan yekunu isə məqamında izaha çalışacağıq.

Medeya lap başlanğıcda Yazona itaət edir. O, Yazona özü mehribanlıq göstərirdi. Hadisələrdə təhlükə ehtimalına yer qalmırdı.

Həyat bütöv götürülməlidir.

İnsan dünyaya gələrkən müəyyən qövmün içərisindən çıxır və qan müəyyən dairə ilə onu bağlayır. Bu o qədər təbii cəhətdir ki, bunu inkar etmək üçün cüzi bir imkan, işıq ucu, yer qalmır. Lakin bunun ardınca ünsiyyət, humanizm ehtiyacından bəşəri meyillər baş qaldırır, maddi tələblər iqtisadi bağlılığın əhatə dairəsini ifrata vardırır. Biz ünsiyyət və humanizm meyillərini söyləyərkən, onun başqa üzü olan təkləmə və nifrət ehtimallarını nəzərdən qaçırmırıq. Bu cəhət fikri tamamlayır. Beləliklə, qan qohumluğunun əhatə dairəsini dərhal ruhani bağlılıq və ictimai münasibətlər dairəsi genişləndirir. Lakin cinslər arasında intim duyğuların yaratdığı bağlılıq, xüsusən onun məhəbbət məqamı və ailə ilə tamamlanan təsadüfü öz sarsıdıcılığı ilə seçilir.

Nadir təsadüflər nəzərə alınmazsa, qan qohumluğunun ümumi mənzərəsi elədir ki, bütün başqa münasibətləri üstələyir. İntim münasibətlər, məhəbbət və arzunun tamamlanması, qan qohumluğu ilə yanaşı, bəzən hətta təəssüf ki, onu üstələyən ikinci qüvvətli bağlılıq yaradır.

Məhəbbət – ailə ona görə mülahizələrin, bədii və nəzəri fikrin diqqətini bu qədər cəlb edir ki, o, tərəfləri sözün yaxşı mənasında ovsunlayır, sevənlər bir-birinə ülviyyətin gözü ilə baxır. Bu mənəvi ucalıq, ülviyyət ictimai zərbələrə və fərdi qüsurlara qarşı nə qədər kövrək olsa da, heç olmasa bir an üçün insanı müqəddəslik tülünə bürüyür, fərdlər arasında “şəfəqin” nəzarəti altında qırılmaz görünən bağlar yaradır.

Bu bağlar sonra çalarlı rənglərə boyansa da, həmin çoxcəhətliyin indi bizim üçün önəmi yoxdur.

Medeya həmin duyğunun təsiri ilə Yazona qoşuldu. İndi onun öz qövmündən ayrılarkən kədər dəryasına qərq olması, qəlbində yaranan ağırlıq, tökdüyü göz yaşları sübut edir ki, qaydasınca vəziyyətdə Medeya məhəbbət teli əsasında yaranan ikinci bağlılığı qan qohumluğuna, başqa sözlə, öz qövmünə qarşı qoymazdı.

Qan qohumluğunun, ruhani münasibətlərin, iqtisadi əlaqələrin, intim-ailə vahidinin yaratdığı bağlılıqların bir-birinə qarşı durmaması üçün tarixin yaratdığı qalaq-qalaq ziddiyyətlərdən başqa fərdin özünün də bəşəri məzmunu lazımdır. Bəlkə bunlar birlikdə baş verə bilər.

Medeyanın özü yüksək qabiliyyəti, cadugərlik adlanan qüdrəti ilə yanaşı, insanlarla münasibətində bu qədər sarsıntı keçirməsi, bütün səmtlərə eyni bağlarla möhkəm sarınması onun yüksək mənəviyyatına, bəşəri mündəricəsinə işarədir. Lakin yekun birdirsə, yaxşı münasibətlərin o biri üzü olan pis münasibətlərdən yan keçə bilmirsə, bu Medeyanın günahı deyil. Çünki onun kamilliyi, mənəviyyatının törətdiyi ülviyyət birtərəflidir.

Hələlik Medeyanın Yazona münasibəti bütövdür. Lakin o, öz qövmündən üz çevirmişdi. Hətta burda qarşıdurma da var. Səbəbini də izaha çalışmışıq. Həm də iş o yerə çatır ki, Medeya qardaşı Aspirtinin hadisələrə qurban getməsinə, ölümü ilə də razılaşır.

Lakin o, bunda da suçlu idimi?

Riyasət, hakimiyyət hər cür ortamda (şəraitdə), bu və ya başqa dərəcədə, bu və ya başqa şəkildə şərə həm yer qoyur, çox vaxt da meydan verir. Əlbəttə, şəxsi keyfiyyətləri ilə seçilən adamlarda bu mövqedən fəaliyyət şəklində yaradıcılıq da müşahidə edilir.

Est bir riyasətçi, bir padşah kimi şərlə bağlı idi. İşin betəri isə o idi ki, Est şərdə bu və ya başqa şəkildə, müəyyən dərəcədə şəxsiyyəti, şəxsi hərəkətlərinə görə mühakimənin güzəştini qazanmaq üçün üstün fərdi keyfiyyətlərə malik deyildi. Ona görə də o, axıra qədər riyasətin tələb etdiyi şər bataqlığında batıb qalmalı idi. Burada lap başlanğıcdan ictimai məntiq pozulmalı, kütbeyinlik hadisələrin öhdəsindən gələ bilməməli, işlərə lap da tərsinə təsir göstərməlidir. Hər şey təsadüfdən asılı olur. Mənfi təsadüflər isə yüzdə doxsan doqquzu üstünlük kəsb edən işdir. Müsbət təsadüf isə haradasa bir kütbeyinliyin, dargözlüyün başa gətirdiyi bir nəfsə ilişib axıra qədər başa çıxmalıdır.

Bizim üçün bunun ilkin əlaməti Est-Firiks hadisəsidir.

Est bir qəribi, Firiksi xoşluqla qarşılayır. Hətta onu oğulluğa da götürür. Qızı Xalkiopanı da ona verir. Firiks və ondan olacaq övladlar səltənətin varisi kimi nəzərdə tutulurdu.

Birdən tale Estin önünə oğul övladı nəsib edir – Aspirti.

Bu vəziyyətdə ağıllı adamlar vərəsəlik məsələsini qabiliyyətə görə müəyyənləşdirər. Est isə dərhal yaxın-uzaq, doğma-yad mülahizələri sicillətməsinə ilişib qalır. Beləliklə o, Firiksə bərabər doğma qızı Xalkiopaya, nəvələrinə qarşı da xaincəsinə və qəddar tədbirlərə əl atır.

Doğma olsa da bu cür şər dünyasına və onun icraçılarından biri olan qardaşı Aspirtiyə qarşı zəruriyyət üzündən Medeyanın dayan-

masında və onlara ziyan vurmasında ölüm hadisəsinin baş verməyində günahkar idimi?

Bu qarşıdurma Medeya və ona istinad edilən cadudan qıraqda baş verirdi. Elə vəziyyət yaranmışdı ki, Medeya iki tərəfdən birini seçməli idi. Hələlik isə ədalət və Medeyanın haqlı mənafeyi Yazonun tərəfində idi.

Yazon doğma yurda, Yunanıstana, İolk çarlığına qayıdıb gəlir. O, qızıl yunlu qoyun dərisini də əldə etmişdi.

Lakin qanuni hakimiyyətin özünə qaytarılması üçün göstərdiyi hünər də kömək göstərmir. Ona deyirlər ki, sən şərti pozmuş, dərini müstəqim yolla ələ keçirməmiş, özünlə yadelli və cadugər bir qız da gətirmisən.

Biz bilirik ki, o zaman Yazon hakimiyyəti özünə qaytarmaq üçün təkbaşına və əzəmətlə istibdadın üstə yeriyib padşah əmisi Peliydən hakimiyyəti tələb edərkən, müstəbid iddiaçını rədd etmədi. O, işə zahiri bir razılıq verdi. Amma tələbin yerinə yetirilməsi üçün, Peliyin özünə görə, başa gəlməsi mümkün olmayan şərt irəli sürdü. Əslində bu Peliyin qardaşı oğlu Yazonun tələbindən qaçması deyən söz idi.

Qanuni tələblər və ya qaydasınca münasibətlər üçün bu və ya başqa mündəricə şərtlər qoyulursa, həmin şey tələblərdən dolayı yolla qaçmağa və ya münasibətlərdəki saxtalığa işarədir.

Tələblərdə və ya münasibətlərdə şərtlə rastlaşan adam ya odur ki, şərtlə hesablaşmalı və məqsədin ardınca birbaşa qoşmalıdır. Ya da odur ki, şərti tələbdən boyun qaçırmanın pərdəli yolu kimi qəbul edib, qüvvələr nisbətini nəzərdə tutub hələlik üz-üzə gəlməkdən qaçmaq mənasında şərti götürməlidir. Həmin götürülən şərt də yerinə yetirilmək üçün yox, vaxt qazanmaq, məqsədə çatmaqdan ötrü fürsət gözləməkdir.

Həmin sözləri münasibətlər haqqında da demək mümkündür. Münasibətlərdə şərt müşahidə edilirsə, onun saxtalığı üzə çıxır. Saxta münasibətin davamına dəyməz. Lakin burada münasibətlərin davamı lazımsa, başqa tərəf öz vəziyyətini hesablamalıdır. Burada vəziyyət islah olunmaz. Amma kor-koranəlik bataqlığına düşməməyin yolu belədir.

Təəssüf ki, münasibətlərdə məqsəd güdmək, şərtlər, kor-koranəlik və ya bir-birinə dolab gəlmək ümumi haldır. Ona görədir ki, bağlandığımız imkanla yanaşı, bu cəhətin nəticəsi kimi, ülviyyət və səadət ərşə çəkilmiş.

O zaman Peliy Yazonun tələbinə qarşı qızıl yunlu qoyun dərisi şərtini irəli sürərkən, hiylə işlətmişdi. Peliy kimi adamlarda hiylə adamlarla münasibət və məqsəd uğrunda qoşmaq üçün əsas üslubdur. Bu, onların yeganə qabiliyyəti, ruhları və şəxsiyyətləridir.

Məsələ ondadır ki, riyasət psixologiyası doğmaları yad etmiş, qardaşı qardaşa qarşı çevirmiş, Peliy qəsd yolu ilə hakimiyyəti ələ keçirmiş. İndi də onu Yazona vermək istəmir. Əgər ortada “qızıl yunlu qoyun dərisi” əhvalatı olmasaydı, hakimiyyəti özündə saxlamaq üçün Peliy yenə də şərt üçün başqa bir əsas tapacaqdı.

İndi “qızıl yunlu qoyu dərisi” əldə edilmişdi. Lakin Peliy tələbdən boyun qaçırmaq üçün səbəb tapdı. Əgər Yazon “dərini” Peliyin mənalandırdığı yöndə gətirsəydi və cadugər yadelli qadınla qayıtmasaydı belə, Peliy tələbdən qaçmaq üçün bir əsas yapacaq idi. Bu, onun təbiətidir. Tələbdən və ya öz vəzifələrini yerinə yetirməkdən qaçmaq üçün şərtlər tükənmir.

İş adamı üçün iki halda şərtlərin toruna düşməyinə ehtiyac yoxdur.

O vaxt ki, Yazon hakimiyyəti qaytarmaq üçün Peliyin üstə təkbaşına yerimişdi, padşah onun qarşısına şərt qoyarkən varislik iddiasına düşən adam başqa cür hərəkət etməli idi. Biz Yazonun məqsədə doğru açıq şığıması müqabilində hiyləyə qarşı hiyləyə əl atmasını məsləhət görməzdik. Lakin o, bu vəziyyətdə mərdanəliyini axıra qədər davam etdirməli idi. O, şərt qarşısında qalarkən deməli idi ki, söhbət burada mənim qanuni haqqımdan gedir. O, mənə çatmalıdır. Görünür, sən onu xoşluqla özümə qaytarmaq istəmirsən. Onda mən onu zorla alaram. Və işə başlamalı idi. Dəri məsələsinə gəldikdə isə hakimiyyəti ələ keçirdikdən sonra bu məsələ ilə məşğul olmaq qarşıda duran yeni vəzifələrdən asılı olardı.

Yazon başlanğıcda Peliyin üzərinə elə yeriyir ki, biz burada ona: “yox, əgər indi zora əl atmağa cəsarətin çatmırsa”, deyə başqa mülahizələrlə söhbət açmağa lüzum görmürük.

Peliy Yazon “qızıl yunlu qoyun dərisini” əldə edəndən sonra da bir əsas tapıb tələbdən və öz vədindən qaçır. Burada da Yazonda başlanğıcda müşahidə etdiyimiz cəsarət və mərdanəlikdən əlamət görmürük. O, dərhal vəziyyətlə razılaşır, boynunu büküb durur. Sanki onun başlanğıcda göstərdiyi cəsarət guya basmaq, hay-küylə hakimiyyəti ələ keçirmək üçün idi.

Belə olmasa idi, özünə arxayın olduğu halda, indi nə üçün zora əl atmır. Axı “dərini” əldə edəndən sonra onun qəhrəmanlığına nüfuz

da əlavə olunmuşdu. Üstəlik Medeya kimi tamamlayan cüt yaranmışdı.

Adi adamlar üçün ilkin baxışda qəhrəmani işləri başa gətirmək üçün ailə müəyyən dərəcədə əl-ayağı bağlayır. Lakin bu lap ilkin baxışda belədir. Əslində isə qaydasınca ailə, əsil həyat olduğuna görə, hər cür fəaliyyətə təkan verməlidir. Elə hünər göstərən adamların da az qala hamısının ailəsi olmuş. Bir halda ki, Yazon üçün ailə Medeya hünəri ilə tamamlanır...

Yazonda güc var. Herakl kimi o da Xironun tərbiyəsini almış. Lakin Yazonda bütün cəhətləri təhlil edib yekunu görən idrak və ya bu cür idrakı əvəz edən əhatəli ruhdan doğan cəsarət çatmır. Ona görə də Yazonun qəhrəmanlığında, cəsarətində gizli bir çəkingənlik müşahidə edilir. Bu çəkingənlik yarımçıq qəhrəmanlığa aparıb çıxarır. Ona görə də Yazon hər hansı bir vəzifəni başa gətirərkən bu yarımçıqlığın yerini doldurmaq üçün başqa bir vasitəyə əl atmağa məcbur olur. Bu "başqa vasitə" də hər dəfə tapılmır.

İolkda hakimiyyət Peliyin oğlu Akastə çatır. Yazonun nəinki hakimiyyətdən əli çıxır, hətta onu Medeya ilə birlikdə İolkdan qovurlar.

Yazona padşahlıq qismət olmaması bir yana dursun, hələlik ona adi bir sığınacaq lazımdır. O, ana yurdundan qovulur. Yarımçıqlıq nə dərəcədə dəhşətli şey imiş? O, hətta miskinlik yaradır. Axı qəhrəman üçün fəlakətdən, bədbəxtlikdən, faciədən miskinlik betərdir.

Yazon sığınacaq üçün Korinfə, atası Ezonun dostu Kreont padşahın yanına gəlməli olur.

Yazon doğrudan da burada sığınacaq tapır. Kreont onu və onunla gəlmiş Medeyanı himayə edir. Onlar burada məskən salır, sadə həyat sürürlər. Onların övladı, iki oğlu da olur.

İşin bu cəhəti həyatın, güzəranın gündəlik şərtləridir. Əgər tərəflər ailədə bu ölçüdə mündəricə ilə razıdırlarsa, yəni məişət baxımından ərin arvadı, arvadın əri varsa, bu ünsiyyət qarşılıqlı arzudan doğmuşsa, üstəlik bu qovuşma meyvə də vermişsə, yəni uşaq da dünyaya gəlmişsə, tərəflər bununla da özlərini xoşbəxt sayırlarsa, bəlkə də bu, dünyada əsil səadətdir. Çünki burada səadəti nə maddi şərtlər, nə sərvət, nə mərtəbə, nə təltif və sinəni bəzəyən bu qəbil başqa şeylər müşaiyət etmir. Buradaən adi güzəranla yetərlənən bütün zahiri "üstünlüklərə" qarşı insanın özü meydanda dayanır. Kim deyə bilər ki, dünyada olan başqa şərtlər insandan üstündür.

İnsan nədir?

Başqa şərtlər nədir?

Çalarlı cavab indinin tələbləri deyil. Amma burada səltənətə yiyələnmək mahiyyət kimi prinsipə çevrilmiş. Doğrudan da mərtəbə əfkari-ümumiyyənin rəyi baxımından insanlığın nadir hallarda əli çatan zirvə kimi görünür. Lakin bu binəvalar anlamırlar ki, nə mərtəbə, nə sərvət, nə təltif, hətta dahilik, peyğəmbərlik, allahlıq tərkibləri ən adi insani düşüncədən aşağı dayanır. Çünki onların hamısını yaradan insandır. İnsanın öz mahiyyəti isə bütöv şəkildə, nəinki mərtəbədə, sərvətdə, təltiflərdə, hətta dahilikdə, peyğəmbərlikdə, allahlıqda da ifadə olunmur.

İnsanlıq özündəki zəif, başqalarındakı qüvvətli cəhətləri görməkdən başlayır. Bu şərtlə ki, heyranlıqla, riqqətlə, nəzakət, utanmaq, hörmət qoymaq və s.-lə yanaşı şərdən də qorunmağı bacarasan...

Məsələ belə qoyulsaydı, Yazonun Medeya ilə indiki həyat tərzi onların insani mündəricəsinin ən böyük təsdiqi olardı, səadət də başa gəlmiş hesab edilərdi. Onlar elə bir səadət hədəsi ilə əhatə olunardı ki, hər kəsdə heyrət, bədxahlarda həsəd doğurar, göyləri belə, yerə enməyə məcbur edərdi. Lakin vəziyyəti əsatir bu cür, biz başqa cür məna edirik.

Əsatir burada da ailədə "yad duyğu" xətti ilə mənalandırır ki, insanlar onlarla qaynayıb-qarışmırdı. Onlar Medeyanı yadelli və cadugər hesab edirdi.

Əsatir vəziyyəti bu cür qoyur.

Bizim üçün isə "yad duyğu" o idi ki, Yazonun beynindən səltənətə sahiblənmək arzusu silinmirdi. Əgər Yazonun Medeyaya münasibəti insani mündəricədə olsaydı, sağlam əsaslara əsaslansa idi, adamların soyuq münasibəti həlledici rol oynamazdı. Əksinə, Yazona baxıb əfkari-ümumiyyə münasibəti dəyişərdi. Amma adamlar öz rəftarında zahiri əndazədən deyil, Yazonun ruhunda gizlənən, yatan xıltdan təkan alırdı.

İşin əsli belə idi. Medeyanın yad qızı olması, cadugərliyi əsas deyildi. Axı hər bir kəsə yad qızı, ya yad oğlu adı vermək mümkündür. Burada nisbiliyin hüdudu yoxdur.

Yazon tədriclə Kreontun sarayına ayaq açır. Burada padşahın yetişməkdə olan nazəndə bir qızı da vardı. Yazon sarayda bu qızla da görüşür və onların söhbətləri də yaman tuturdu. Kreont da gənclərin bu hərəkətinə boy verirdi.

Əfkari-ümumiyyə tədriclə belə bir rəy hazırlayırdı ki, yadellidən arvad yox, kəniz olar. Beləliklə, Yazonun Medeyaya və ondan olan

uşaqlara münasibətinin qeyri-qanuniliyini əsaslandırmağa çalışırdılar.

Tədriclə Yazonun saraya ayaq açması adi get-gəldən daha çox, lövbər salmağa çevrilir. Qeyrətsiz oğlu qeyrətsiz Kreont sarayında lövbər salır, arvadına, Medeyaya da yalan satıb deyir ki, padşah onu işə götürüb.

Ona görə qeyrətsiz ki, başlanğıcda Yazon əmisi Peliyin, İolk səltənətinin üstə yeriyib səltənəti qəhrəmani surətdə ələ keçirmək istəyirdi. İndi isə burada bu işi arvad balağına dürtülməklə başa çatdırmaq planları tərtib edir.

Ona görə qeyrətsiz ki, o mərtəbəni ailədən, səltənət səadətini Medeyadan üstün tutaraq doğma ocağa, ailəyə xəyanət edir, qadına belə yalan satmaqdan çəkinmir.

Simasızlıq nə böyük dərd imiş. O, riyasət mülahizələri ilə qəhrəmanı da rəzil kökünə sala bilər.

Deyirlər, Medeya yad qızıdır, cadugərdir. Lakin Yazon-Medeya qolunda axıra qədər başqa şey müşahidə edilir. Bu, Medeyanın Yazona inamdan doğan məhəbbəti, məhəbbətdən doğan inamıdır.

Yazon tədriclə işə getmişəm bəhanələri ilə Kreontun sarayında lövbər salır, Medeya isə etidalını pozmadan, böyük bir inamla Yazonu əvvəlki məhəbbəti ilə sevir, ona qulluq göstərir, balalarını bəsləyirdi.

Deyir cidanı çuvalda gizləmək olmaz.

Deyir xəlvətdə hövr olan aşkarda doğmalıdır.

Heç bir şey axıra qədər gizli qalmır. Sirlər gec-tez aşkara çıxır. Burada da belə olur. Yaman dillər işə düşür. Adamlar vəziyyəti Medeyaya xəbər verirlər.

Əsatirin yönləndirdiyi ailədə "yad duyğu" ideyasının əsil məndəricəsi. O zaman ki, Yazon-Medeya münasibətləri qaydasınca idi, adamlar soyuqluq göstərir, Medeyadan qaçırdı. İndi pis bir hadisə baş verir, əfkari-ümumiyyə dərhal qolunu çirmələyib işə girişir.

İdeya qəribliyin, arxasızlığın, iki uşaqla birlikdə köməksizliyin və tənhalığın acısını dadmağa başlayır. Üstəlik Kreontun adamları da ona dinclik vermirdilər.

Özünün adi insani arzusunun müsbət həlli üçün Medeya cadusu gücsüz idi. Budur bax, insani məndəricənin gücü! Bu müşkül onun dəyərini də müəyyən edir.

İdeya oynaq bir vəziyyətə düşür. İşin mənfi həllinə gəlsə idi, İdeya imkansız deyildi. Amma Medeya hadisələrin öz müsbət yönünü saxlaması üçün uzun müddət müdrikcəsinə bir təmkin göstərir.

Yazonun aldığı bu cür istiqaməti eşidərkən Medeya əvvəlcə pörtür. Onun əli-ayağı yerdən-göydən üzülən kimi idi. İşin müsbət həllinə çalışarkən. Çünki işin müsbət həlli bir tərəfdən, – təkcə Medeyadan asılı deyildi. Bu birgə vəziyyətdədir.

Yazon isə qeyri-səmimi yön götürmüşdü. Ona görə Medeyanın təmkinliyi, vəziyyəti dönə-dönə Yazona izahı da kömək etmir.

O, Yazona deyə bilərdi ki, mən sənə görə, hər şeyimi atıb gəlmişəm. Məhəbbət, haqq-say, dar gündə sənə dayaq olmağım, sən üz döndərərkən mənim düşdüyüm oynaq vəziyyətim, taleyimin tükdən daha artıq incəlməsi, qəriblikdə başlı-başına buraxılmağımın insafdan qıraq bir iş olması bir tərəfə qalsın, bunların hamısına mən göz yumaram, amma indi bizi ailə telləri birləşdirir. Övladların, iki oğlun məsuliyyəti də bizi bir-birimizə bağlayır.

Axı biz ailəni, tərəflər bir-birini sevib deyə qurmuşuq. Əgər səndə bu hiss kütləşibsə, mənim heç bir günahım yoxdur. Mən ailə şərtlərini heç bir səmtdən pozmamışam. Madam ki, ailə düzdür, ortada övlad qayğısı da vardı, fərdi, xırda hissləri güzəştə getmək olar. İkinci duyğu bu cür münasibətləri üstələyə bilməz. Ailə səadətinin, ailə vəzifələrinin, xüsusən Medeya kimi qadına sahib olmağın qarşılığında mənsəb və sərvət, bu mənsəb padşahlıqdan ibarət olsa belə, sərvət də bu mövqedən irəli gəlsə də nə böyük şeydir?!

Medeya təxminən Yazona bu mündəricədə də dil açır.

Lakin quyuya su tökməklə quyu sulu olmaz. Su gərək quyunun özündə olsun.

Bu cür insanlar olur. Onlar ilk baxışda mənəvi cəhətdən kamil görünür. Sonra işin saxta cəhəti meydana çıxanda, uzun müddət əlləşirlər ki, nə isə işi bir yoluna qoysunlar. Lakin yarımçıq adamların qəlbinin dərinliyində xırda bir hiss olur, adamlar xəlvətcə deyirlər ki, bu hiss mənə məxsusdur. Və onlar onu hər şeyə qurban vermirlər. O hissə heç şeylə qalib gəlmək olmur. İşlər də tərəflərdən hər hansı biri üçün, ya hər ikisinə qarşı fəlakətə qədər sürünüb gedir. Məsələni işlərin fəlakətli yekunu həll edir.

Medeya xeyli təmkin göstərir. Lakin işlərin islaholunmazlığını gördükdə özü üçün bir yön götürür. O, xidmətləri önündə

nankorluqla, məhəbbətinə qarşı xəyanətlə qarşılaşmışdı, məhəbbətin, idrakın, özündənkeçmənin doğurduğu ülviyyət təhqir edilmişdi.

Axı o, Medeya idi. İşlərin müsbət həlli təkcə onun özündən asılı deyildi. Şərə cavab verməyə gəldikdə isə burada Medeyanın qüdrəti işə keçərdi.

Yazonla əlləşib hər bir işi görməyin mümkünsüzlüyünü anladıqda Medeya özü üçün bir qərara gəlir və dərhal işə başlayır.

Hera Herakla qarşı Evrisfeyi himayə edirdi. Hikkəsi üzündən. O, ərinə qısqanmışdı. Amma onu qısqandıran amili müstəqim anlamaq olmaz. Onu qısqandıran baş Allah idi. Allahları "mühakimə" gücsüz bir amildir. Burada qısqanclıqdan, hikkədən daha çox intim münasibətləri qızışdıran ər-arvad rəqabəti üstündür. Təsadüfi deyil ki, sonda Hera Herakla inadından əl çəkir və özü qəhrəmanın əlindən tutub, ülviyyət dünyasına qəbul edir. Yunan əsatirində allahların məkanı istibdad yuvasıdır. Lakin Herakl elə bir həyat yolu keçmişdi ki, onun qədəm basdığı yer allah ideyasını doğrultmalı və bir an üçün ülviyyət kəsb etməli idi. Herakl artıq həm yerdə, – insanlar arasında, həm də göydə – allahlar məkanında naqis dünya ilə yanaşı gedə bilməzdi.

Amma Evrisfeydən fərqli Heranın Yazonu himayəsi müstəqim idi. Burada qısqanclıqdan doğan hiddət, ərlə intim duyğuları qızışdıran rəqabət də iştirak etmirdi. Yazonda nə isə cazibəli bir şey var idi ki, allahların diqqətini cəlb etmişdir.

Başqa tərəfdən, heç olmasa, hadisələrin biri üçün, yunanlar onu Arqonavtlara başçı seçmişdi. Arqonavtlar isə elə qəhrəmani hadisə idi ki, orada yunanların Peliy, Layert, Herakl kimi ərənləri iştirak edirdi.

Axı, Yazon lap başlanğıcda da özünü haqlı bilərkən qanuni hakimiyyətini geri qaytarmaq üçün təkbaşına istibdadın üzərinə şığımışdı...

Medeya indi belə bir dünya ilə üz-üzə gəlirdi. Hələ buna üstəlik Yazon səltənətlə, istibdadla da qaynayıb-qarışırdı...

Lakin o da Medeya idi. Təsadüfi deyil ki, insanlar ona "cadugər Medeya" deyrilər. Biz onun nələrə qadir olduğunu Kolxida macəralarında, qızıl yunlu qoyun dərisini ələ keçirmək arzusu ilə çətinliklər silsiləsindən ötən yollarda başa gətirdiyi məharətdə gördük. Medeya yalnız məhəbbətin hökmünə, Yazona qarşı gücsüz, itaətkar idi. O, heç bir işdə, heç bir zaman Yazona müxalif çıxmamışdı. Hətta Medeya Yazona vəd edilən hakimiyyətə qarşı

didərginlik və ehtiyacla üzləşdikdə belə, darılıb deyinmədi. Axı o, Medeya olsa da qadın idi.

İndi isə Medeya kimi qadının məhəbbətini qazanmış, ömrünü ələ keçirmiş, çoxlu haqq-sayı olan qadına qarşı Yazon naməd çıxır, talançılar kimi hərəkət edir.

Medeya Yazonla bir iş görməyin mümkünsüzlüyünü yəqin etdikdə təkan alır və dərhal işə başlayır.

Medeya əri ilə münasibətləri hələlik saxlamaq üçün vəziyyətə zahirən təslim oldu. O, özünü itaətkar və sakit göstərirdi. Lakin vəziyyəti həzm etmək üçün ərindən bir günlük möhlət istədi. Əslində o, müəyyən tədbiri başa gətirmək üçün vaxt qazanırdı. Sonra o, ərinə gəlinlə barışmaq qərarına gəldiyini bildirdi. O dedi ki, barışıq rəmzi kimi gəlin mənim hədiyyələrimi, toy üçün bəxşişlərimi qəbul etsin.

Hədiyyələr nişan üzüyü, Günəş allahının Kolxida çarına bağışladığı tac və bir də örtükdən ibarət idi. Qiymətli hədiyyələr və barışıq...

Yazon sevinir! "Gəlin" də sevinirdi.

Gəlin tacı başına qoyur, üzüyü barmağına taxır, örtüyü də üstünə götürür. Lakin gəlin dərhal özünü pis hiss etməyə başlayır. Tac başını partladacaq dərəcədə sıxır, üzük barmağını üzür, örtük boğur. Ağrı, əzab əqlin həzm edəcəyi həddə deyildi, fəlakət idrakın çərçivəsini aşırdı. Gəlinin qışqırtısı, qopardığı fəryad sarayı titrədir. Bağırtıya qızın atası, çar Kreont gəlir. O, paltarı cırmaq istərkən qığılcım sıçrayır və bir anda yanğın baş verərək onları, çar Kreontu və qızını, Yazonun gəlinini alov dəryasına qərq edir. Gəlin və atası çar Kreont hələ əlləşir, mübarizə aparır, fəlakətə, ölümə təslim olmaq istəmir. Kreont paltarı cırıb atmaq istəyirdi. Lakin bunların hamısı vəziyyəti islah etmir, yanğını daha da qızışdırır, alov dəryasını qatılaşdırırdı. Onlar canlı məşəl kimi sarayda o tərəf, bu tərəfə qaçışırdılar. Ta yanıb, külə, kömürə dönənə qədər.

Yazon hadisə yerinə gələrkən yalnız onların kömürə dönmüş meyidlərini görür.

Mifdə "Arqonavtlar"da Kreont, onun qızı, onların Yazonu ələ keçirmək tədbirlərinin yekununa, hadisələrin son aqibətinə Yazonun münasibəti, keçirdiyi hisslər haqqında bir söz deyilmir. Mif hadisə baş verən təki, Kreont və onun qızının aqibəti yekunlaşan kimi dərhal söyləyir ki, bu zaman Yazon doğma evinə dönüb, oğlanlarını bağrına basmaq istəyir.

Yazonun bu istəyini nə mənada başa düşək? Bu cürə mənalandırmaq olarmı, Yazon görür ki, ondan daha qüvvətli səmt ona cəza verməyə başlamış. Yəni qohum-qardaşının başına gətirilən "oyundan", fəlakətdən balalarının da payına düşə bilər. Lakin intiqam Tanrısı, Medeya narahatlıq törədən səmtə, balalara Yazonun özündən daha yaxın idi.

Yazon Kreontun sarayında fəlakətli hadisə ilə üzləşərkən doğma evinə dönüb, oğlanlarını bağrına basmaq istəyir. Bəlkə burada hər şeydən əli çıxmış bir fəlakətzadənin qəlbində baş qaldıran doğma duyğular, bəşəri həyəcanlar daha qüvvətlidir.

Biz öz məqsədimiz, izahat işimiz üçün vəziyyətin bu cəhətinə üstünlük veririk.

Lakin indiki şəraitdə Yazonun balalarını bağrına basmaq arzusuna "doğma duyğular", "bəşəri həyəcanlar" adı vermək hayıfdır. Çünki indicə elə bil ki, haylanmaq, israfçılıq imkanı var idi. Yazon bəşəri həyəcanlar, doğma duyğular haqqında düşünmürdü. O, bunların qayğısına qalmır, öz əmisi ilə yanaşı, doğma balalarının da ləyaqətini ayaqlar altına alır, taleyini şübhəli vəziyyətdə qoymaqdan da çəkinmir. Buna üstəlik hələ Medeyanın Yazona qarşı haqq-sayı da var idi. Lakin indi o boyda gücün, qüvvənin sahibi hətta ilahi tərbiyə görmüş Yazonla kişi söhbəti etmək qabil deyil.

Yazonun indiki həyəcanı uğursuzluqdan, ümidsizlikdən doğan həyəcan idi. İşin sağlam tərəfi, bəşəri məzmunu üçün bu daha pis. Deməli, ən kövrək, ən həzin, ən doğma duyğular bu boyda kişinin şəxsi taleyi cəhətdən ölçüb-biçilir.

Axı, Yazon güclü idi. Deməli, o, böyük olmalı idi. Böyük adamlar isə hər şeyi öz taleyinin yeminə çevirmək yox, lazım gələrsə, fədakarlıq göstərməklə müəyyənləşir.

Necə ki, Medeyanın Yazona münasibəti lap başlanğıcdan fədakarlıqlar silsiləsi və nümunəsidir.

İndiki halda Yazonun doğma evinə dönüb balalarını bağrına basmaq təşəbbüsü miskin bir arzudur.

Amma hər halda, burada diqqəti cəlb edən şey var. O da ondan ibarətdir ki, uğursuzluq hər formada olsa da, bəşəri amillərə təkan verdi.

Elə ki, qələbə Yazona təmin olunmaqdan daha çox, isrfaçılığına meydan verirdi, bütün bəşəri keyfiyyətlər qəlbin dərinliyində qalın tozlar altında qalmışdı. Lakin fəlakət baş verən kimi bəşəri, doğma duyğular təkan aldı, Yazon yenidən balalarını bağrına basmaq eşqinə

düşdü. İndi bu, onun yeganə arzusu idi. Burada israfçılığa meydan yox idi. Lakin Yazonun indiki tələblərinin təmini üçün bu arzunun başa gəlməyi bəs idi.

Zira, insana israfçılıq yoxsa təminat, bəşəri arzularının başa gəlməsi gərəkdir?!

Qələbələr israfçılığı, uğursuzluq isə bəşəri keyfiyyətlərə meydan verdi. Burada taleyin dolanbaclığının mənzərəsi belədir.

Qələbə və uğursuzluq Medeyanın taleyində necə rəqs edir?!

Medeyanın taleyi hələ lap başlanğıcda qələbənin və ya uğursuzluğun başa gətirdiyi amillərdən daha ağırdı. Onun idrakının böyük gücünü, mənəvi qüdrətini mənalandıra bilməyənlər, hələ lap başlanğıcda Medeyaya cadugərlik adı verdilər. Mif də mənalandırır ki, Medeyanın gözü qara, saçları qara, libası qara... və s.

Hələ lap başlanğıcda qələbələrin önündə belə, Medeya üçün bir yöndəmsizlik var idi. Çünki Medeyanın bu iş üçün qələbələri doğma adamlarına qarşı çevrilmişdi.

Zira, qələbələr Medeyanı istəyinə, Yazona qovuşdursa da, kişini əsassız surətdə şişirdir, Yazonu əndazəsinin hüdudu olmayan bir ölçüyə, saxta bir şeyə bürüyürdü. Uğursuzluq isə Medeyaya qarşı Yazonun saxtalığını üzə çıxartdı. Medeya üçün isə ləyaqət aləmində çürük tikənin tullanması hər cür səadətdən daha üstün idi.

Burada qələbə və uğursuzluğun məna çalarları belədir.

Yazon fəlakətlə üzləşərkən, doğma yurda qayıtmaq və balalarını bağrına basmaq eşqinə düşür. Lakin o, burada daha böyük fəlakətlə üz-üzə gəlir. Yazonun oğlanları qətlə yetirilmişdi. Doğma ananın, Medeyanın əli ilə. Uşaqların kəsilmiş, qana çilənmiş başı, iki körpənin qanlı meyidi, bir qədər aralıda, səmada Günəş Allahının qanadlı əcdadlarının altına sərilmişdi.

"Arqonavtlar"da hakimiyyət, qəhrəmani ləyaqət və səadət probleminin ağırlıq mərkəzi üz-üzə dayanırdı. "Medeya" ideyası burada köməkçi vəziyyətdə idi.

Lakin hansı səbəb üzündən olsa da, ananın öz əlləri ilə doğma balalarını qətlə qədər varması izah edilməli və qiymətləndirilməlidir. İdrakının qüvvəsi, mənəvi qüdrət epitetləri ilə yanaşdığımız Medeyaya, zövcə və ana vəzifələrini yerinə yetirərkən balaları qətlə çatdırır, buna nə məna verməli? Bu hadisə bütün üstün cəhətləri yerə vurmurmu? Yoxsa, xüsusi şəraitdə qətl, xüsusən də doğma adamların məhvi, ananın öz balalarını öldürməsi, antibəşəri, iyrənc bir vəhşətdir.

Lakin Medeya xüsusi vəziyyətdədir. O, hələ hamının biri deyil. Ona görə də Medeya hamı kimi yaşaya bilməzdi. Həm də hadisə, dediyimiz kimi, xüsusi şəraitdə baş vermişdi.

İntim tələblər əzəli, ardıcıl və sona qədər davam edən gedişdir. Zira, insan gözünü açan təki həya, abır, ədəb, əxlaq və s. haqqında bərqərar tapmış söhbətlər eşidir. İntim tələblər ardıcıldır. Lakin onu, əsasən, ardıcıl surətdə izləyən həyada daim müşahidə edilir. Bəzi hallarda həyatı üstələyən sırtıqlığa gəldikdə, bəlkə də o, nadan təsəvvürə görə müvəffəqiyyətə gətirir, lakin heç bir zaman səadəti təmin etmir.

İntim tələblər ümumi haldır. Lakin müəyyən yaşda məhəbbətin baş verməsi də hamı üçün ümumi haldır.

İntim arzuların təmini üçün ailə mütləq hal deyil. Məhəbbət isə dərhal ailə arzusu yaradır və əxlaq haqqında fikirlər aşılayır.

Hər kəsin ailə düşüncəsi məhəbbətdən əvvəl bərqərardır. Məhəbbət baş verdikdə isə, yalnız bu zaman adamlara aydın olur ki, ailə arzuya uyğun yaransaydı, necə bir bəşəri mündəricəyə, səadətə malik olardı.

Məhəbbət sarsıdıcı baş verir. Məhəbbətə düçar olmuş adamlara elə gəlir ki, bu hər şeydir və məhəbbətsiz "tikələr" dəyərini itirir. Lakin məhəbbət ürkəkdir, indiki halda ictimai cəhətdən dayanıqsızdır. Ona görə də əsasən ilkin məhəbbət həyəcanları ötür, "nuş etmək" və ailə arzusu qalır.

"Nuş"a çatmaq imkandan asılı olur. Ədəb, həya, abır, əxlaq haqqında söz-söhbət qalır. Bu nə isə başqaları üçün, əfkari-ümumiyyənin gözündən pərdə asmaq üçün. Nuş arzusu ilə, fürsət düşdükdə hər şeyə getmək, tamamilə təsadüfi görüşlərdə ləyaqəti yelə vermək, intim murdarçılıqlar bataqlığına qərq olmaq tamamilə fürsətdən asılı qalır.

Ailə fürsətlə, imkanla, haqq-hesabla tərtib edilir. Burada ədəb qanunlarını güclü tərəf və giley-güzarlıq tərtib edir. Açıq və gizli surətdə intim bataqlığa qərq olma isə yenə də imkandan, fürsətdən asılıdır.

İnsaniyyət, haqq, ədalət, əxlaq və s. haqqında söz bir, sırtıqlıqla, yırtıcıcasına nəfsin, mənafenin ardınca qoşmaq isə başqa şey olur. Bu sözlər təkcə intim yox, mənafelərin bütün səmtlərini əhatə edir. Sözdə xeyirin şərtləri bərqərardır. İçəridə isə şər tüğyan edir. "İçəridə tüğyan edən şər isə" insanlar arasında narazılıqlarda, ədavətlərdə, aldatmalarda, savaşlarda, qırğında, həbslərdə və nəhayət baş verən,

böyük qırğınlar, şikəstliklər, viranəliklər, səfilliklər, aclıq, xəstəlik, göz yaşları, qan yaradan müharibələrdə təzahürünü tapır.

Təklənmiş adama qarşı dövlətin əli ilə başa gətirilən haqsızlıqda və müharibənin törətdiyi fəlakətdə olduğu qədər heç bir şey gizlidə cərəyan edən şəri üzə çıxara bilməz.

İnsanların simasız, naqis şəkildə tərtib etdikləri dolanbac yolun ümumi mənzərəsi belədir. Ona görə də onlarla məntiqi davranış mürəkkəbləşir, həyat çətindir anlayışı alınır.

Medeya bu yolun yolçusu deyil. Onun idrakı güclüdür, qüdrətli mənəviyyata malikdir. Bir üzü var. O, ya dostdur, ya odur ki, bitərəf. Düşmənçiliyi isə ardıcıldır.

Mənafeyə gəldikdə isə ləyaqət onun üçün hər şeydir.

İntim arzular onda da hər zaman müşahidə edilə bilər. Lakin məhəbbətsiz və məhəbbətlə yanaşı barışıq, qarşılıqlı etimad olmadan hörmətsiz şəkildə o, özünü heç bir şeyə təslim etməz.

Medeya üçün məhəbbət başqasında özünü tapmaq, dərhal sevdiyi üçün ideal tərtib etmək ümumi haldır. O, sevir və qovuşursa, idealına çatır. Daha burada intim yuvada qıvrılmaq və əmək açmaq nəzərə çarpmır. Doğmalıq şübhə altına alındıqda isə ləyaqət aradan götürülür və özgənin qarşısında gizli yerləri göstərmək, şərəfin tapdanması qalır.

Fürsət düşən kimi, bir anda həyanın, abrın nə olduğunu bilmədən üzü yuxarı yıxılıb ətəyi geniş açanlarla Medeyanı müqayisəyə çalışmayın.

Bu xətt möhkəmdir. Lakin Medeya Yazon ilə xüsusi yol keçmişdi. Ona görə, onun Yazondan intiqam almağa da haqqı var idi.

Amma Medeyanın tərtib etdiyi cəzada intiqamdan daha çox yersiz açılmış ətəyi bükmək və ləyaqəti yerdən götürmək daha artıqdır.

Əgər qısqanclıq və intiqam əsas şərt olsa idi, Medeya hökmdarı və gəlini məhv etmişdi. Ər evini tərk edib Yazonu tək qoymaqla yetərlənərdi. Daha doğma balalara əl qaldırmağa ehtiyac da qalmazdı. Onsuz da, o, ilahinin əli olan əjdahanın qanadlarında idi. Medeya balalarını da özü ilə götürə və dediymiz kimi, Yazonu tək qoyub, uçub gedə bilərdi. Axı balaları qətlə yetirməklə Medeya özünə də cəza verirdi.

Amma Medeyaya aydınlaşır ki, balalar ülviyyət, ləyaqət yerində qalmaq şərti ilə dünyaya gəlməmişdi. Onları qətlə yetirməklə Medeya abır və ləyaqəti xilas edir, yerdən, ayaqlar altından götürürdü.

Medeyanı Yazonu cəzalandırmaqla antihəyatdan yaxa qurtarmağa çalışırdı.

Medeya Yazonu şəxsiyyətli adam, bir qəhrəman hesab edirdi. Başlanğıc üçün Yazonda bu cəhətlər də müşahidə olunurdu. Lakin işin antihəyat hissəsi daha güclü imiş. Həmin şey də üzə çıxdı.

Yazon indi Medeya üçün antihəyat idi. Medeya da bu antihəyatdan imtina edirdi.

Medeya balalarını da ona görə qətlə çatdırdı ki, onlar da antihəyatın bəhrəsi kimi dünyaya gəlmişdi. Medeya doğma oğullarını öz əli ilə qətlə çatdırmaqla antihəyatla sonuncu ilişkiləri də qırıb tullayırdı.

Gəlin işin dərinliyinə baxaq. Görək uşaqların qətli üçün daha çox kim, Yazon, yoxsa Medeya suçludur?!

Mif tərəflərdən kimsəni ittiham etmir. O, vaqeəni danışır və olanları göstərir.

Lakin çoxlu müəlliflərin müxtəlif "Medeya"ları yaranmış. Bu "Medeya"ların hamısında "qətlə"müsibət üzə çıxır. Ən mükəmməli isə Evripidin "Medeya"sıdır.

Bu münasibətlə Evripidə də müraciət edək və sonra fikrimizi yekunlaşdıraq.

Yazon Medeyaya üzüdönük çıxıb və insaniyyət gözləmədən məqsədə doğru qoşmuş. Medeya da onu cəzalandırmış. İndi Yazon və Medeya üz-üzə gəlmiş, bir-birilərini ittiham edirlər. Bu ittihamlarda suçlu tərəfə münasibət də meydana çıxır, Evripidin, əfkari-ümumiyyənin, Yazonun və Medeyanın da başqa tərəfə. Mifologiyanın yox!

Kreont yönünün fəlakəti meydana çıxan kimi mifdə deyilir ki, Yazon evinə qayıtmağa və balalarını bağrına basmağa tələsir. Evripiddə, "Medeya"da isə Yazon malikanəsinə çatan təki əfkari-ümumiyyəyə müraciətlə deyir: "...Söyləyin, bu qanlı cinayətləri işləyən arvad hanı?.. Hökmdar xanımının intiqamından qurtara bilməyəcəkdir!

Sərsəm qadın, hökmdar öldürüb qaçmaq, qurtarmaq xəyalına düşüb!

Lənətlə ləkə vurduğu hökmdar nəslinə mənsub olanlar onun cəzasını verər..." *(Antik ədəbiyyat müntəxabatı, Bakı, 1950, səh.460).*

Məntiqsiz söhbətlərdir. Medeya öz hərəkətlərində hökmdar-gəda mülahizələrinə əsaslanmır. O, məsələni xalis şəkildə qoyur, hər kəsin öz şəxsi keyfiyyətlərinə görə münasibətdə bulunur. Əgər Yazonun mülahizələrinə əsasən adamlarla münasibət sağlam hesab edilsəydi,

Medeya özü də hökmdar nəslinə mənsub idi. Zira, Medeya hələ lap başlanğıcda səltənətlə onu bağlayan tellərə deyil, öz şəxsi keyfiyyətlərinə güvənirdi. Qüdrətli şəxsiyyət belə olar.

Burada isə qəhrəman həm Yazondur, Arqonavtların başçısıdır, həm də "hökmdar nəslinə mənsub olanları" insanlığa qarşı qoyandır. Tale səni Yazon yarada, Xironun tərbiyəsini tapasan, özün də silki fərqlərin, mənsəbin qarşısında ağız suyu axıdasan.

Yazon-Medeya münasibtələrinin sonuna, aqibətinə səbəbin özülü budur!

Lakin Yazonu başa saldıqda ki, hələ "intiqam" və "cəzadan" əvvəl başqa fəlakətin də qayğısını çəkməlisən. Burada Yazon işin əslinə getmək əvəzinə, "dərhal" – yoxsa, məni də öldürmək fikrindədir?" – deyə olduqca qeyrətsiz bir nidanı, sualı ağzından qoparır *(Orada, səh. 460).*

Qəhrəman da öz taleyinə və ya nəfsinə bu qədər bağlanıb qalarmı?!

Zira, onu başa salırlar ki, baş verən başqa fəlakətin önündə ölsəydin daha yaxşı olardı. Deyirlər ki, ana oğlanlarının da başını öz əli ilə kəsdi.

Bu zaman mifdə də, burada da Yazon Medeya ilə əjdahanın qanadları arasında oğlanlarının qətlə yetirilmiş cəsədləri ilə üz-üzə gəlir.

Yazon əvvəlcə Medeyanın üzərinə qolaylana-qolaylana gəlirdi. Medeyaya nankor çıxanda olduğu kimi, burada da qüvvələr nisbəti hesaba alınmamışdı. Lakin indi əyani surətdə aydın olur, qüvvələr nisbəti elədir ki, Medeyaya cəza vermək imkanı yoxdur, uduzmuşdur, – Yazon susmalı, qınına çəkilməli idi. Bu idrakilik olardı. Lakin o, burada da qəhrəman mövqeyində dayana bilmir, idrak əlaməti göstərmir. O, miskincəsinə Medeyanı lənətləməyə başlayır, həm də məntiqsiz şəkildə.

"Sən bir qılınc zərbəsi ilə öz məsum balalarını da, məni də məhv etdin". Öz vətəninə xəyanət edən səni vəhşilər diyarından elliklə, elimə gətirməklə nə böyük bir xəta etmişəm... sən Arqonluların gözəl gəmisinə ayaq basanda artıq qardaşını öldürmüşdün... qısqanclıq və murdar ehtiraslar üçün öldürmək məqsədilə doğduğun uşaqların pak qanlarını öz əllərinlə tökdün... Qaplansan!.. Səni həyasızlıq bir qaplan kimi hifz edir" *(Orada, səh. 461).*

Qızıl yunlu qoyun dərisi əhvalatında Yazonun işi müşkülə düşdükdə Medeyanın məhəbbəti kara gəldi. Orada məhəbbət

müşkülü həll etdi. Məhəbbətlə çətin asan, uzaq yaxın, yadlar doğma oldu. O zaman fürsət Medeyanın əlində idi. Medeya bu mövqedə dayandı. İndi fürsət Yazonun tərəfindədir. Yazon da sevir. Lakin sevgi insan – Yazon üçün məqsəd deyil. Onun üçün məqsəd, əqidə səviyyəsinə yüksələn məna riyasətdir. Həmin məqsəd və məhəbbətə, insanın insana qovuşmasına, məhəbbətdə müşkülün açılıb tam barışığa qatmasına, ikinin bir olmasına qarşı hərcayi arzularla Yazon ikilik, tərəf-tərəf yaratdı. Burada qovuşmaq, ahəng əvəzinə kim-kimi vəziyyəti baş alıb getdi. Tərəflər bir-birinə zərbə endirirdi. İlkin addımı da Yazon atmışdı. Medeya yalnız cavab verirdi. Uduzan tərəfin ittiham etməyə, giley-güzarlığına əsas yoxdur. Yazon isə balalarının taleyindən keçib özünü də hesaba salıb deyir ki, məni də məhv etdin.

Yazonun ittihamının məntiqsizliyi burada idi. Onda ki, kim-kimi vəziyyəti yarandı. Medeyanın zərbəsi birinci növbədə Yazona tuşlanırdı. Bəs başqa necə ola bilərdi ki?! Yoxsa Yazon da yırtıcı siyasətçilər kimi tələb edir ki, o zərbə endirsin, zərbəyə uğrayan tərəf də özü üçün yaranan səadətdən dəm vursun, səadət harayı salsın, təşəkkürlər yağdırsın, minnətdarlıqlarda bulunsun.

Yazon Aspirtinin də ölümünü Medeyanın başına qaxır.

Nə olar, bir qədər bu məsələyə də yaxından yanaşaq.

Hakimiyyət ehtirası, riyasət mülahizələri bir anda doğma münasibətləri basıb əzə bilir. Siz ölümdən qaçıb Kolxidaya, çar Estin sarayına sığınan Firiks vaqeəsini xatırlayırsınızmı?!

O vaxt Est nəinki Firiksə sığınacaq, hətta böyük qızını ona verdi. Firiks indi Est üçün oğul timsalı idi də. İzdivac Estə dörd nəvə də bəxş etmişdi. Firiks və nəvələrinə varis gözü ilə baxılırdı. Sonra tale, Estin özünə övlad bəxş etdi – Aspirtini! Bununla da Firiksə mərhəm tellər qırılmağa, hətta nəvələrə yad duyğular başladı. Qovmalar, sürgünlər, qətllər haqqında hökmlər baş alıb gedirdi.

Təkcə bəşəri deyil, qohumluq münasibətlərində də bir naqislik ayaq tutub gedir. Medeya bu çərçivəyə sığa bilərdimi?! Medeyanın Aspirtinin ölümünə varmasına gəldikdə isə, göründüyü kimi, bu gediş Est sarayında “müttəhimdən” əvvəl başlamış. Est sarayında Medeyadan əvvəl tamamilə günahsız böyük bacısına qarşı yadlıqla başa gələn haqsızlıqlar mövcud idi. İndi Aspirti əlində balta bacısı Medeyanı izlədiyi halda, o, qohumluq, bəşərilik mülahizələrini əsas

götürə bilərdimi?! Burada məsələni qohumluq, bəşərilik mülahizələri deyil, qüvvələr nisbəti həll edir. Üstünlük Aspirtinin tərəfində olsa idi, o, eyni hadisəni bacısının və indi yolunda hər şeyə getmiş Yazonun başına gətirəcəkdi. O zaman bir an üçün Medeyaya elə gəlmişdi ki, haqq, ideal, prinsip Yazonun simasında cəmlənmişdir. Fantaziya üçün müəyyən əsas var idi. Eşqin, vüqarın, arzunun törətdiyi yanlışlıqdan kim yaxa qurtara bilər?! Vay o gündən ki, həqiqət aşkar olduqda, ayıldıqda, özün-özünün öhdəndən gələ bilməyəsən, qəlbini parçalayan "düşmən" duyğunu sinəndən qoparıb ata bilməyəsən.

Qəhrəman da, idrakı güclü, mənəviyyatı böyük olanlar da səhv edə bilər. Lakin nəfsi itiləyən təbii duyğulara ancaq ülvi şəxsiyyətlər üstün gəlir. Təsadüfi deyil, başqa bir əsatirdə Medeya Heraklla yanaşı tutulmur. Başlanğıcda belə olsa idi, Medeya eşqin, arzunun, ideyanın törətdiyi fantaziyasında səhv buraxmazdı.

Medeya əli ilə balalarının başını kəsmişdi. Bunun müəyyən səbəbləri var idi. Yazon həmin səbəbləri nəzərdə tutub Medeyaya söyləyə bilərdi ki, edilən fənalıqlara görə, ana da öz balalarının başını kəsərmi? Amma Yazon bunun əvəzində, bizim tərəflərdə deyildiyi kimi, bir budaqda oturub minbir budağı silkələməyə başlayır və daha böyük qəbahətə, heyvərəlikdən doğan antibəşəri bir cinayətə, səhvə yol verir. O, Medeyaya söyləyir ki, səni vəhşilər diyarından gətirdim. Vəhşilərdən belə hadisələri gözləmək lazım idi. "Ellada qadınlarından heç birinin bu mənfur cinayətə əli gəlməz!"

*(Orada, səh. 161).*

Xalqlara, ən arxada qalmış tayfalara belə həqarətli baxış nadanlar və qərəzkarlar dünyasında mümkündür.

Bu və ya başqa cəhətdən, bu və ya başqa vaxtda tərəqqi tapmış xalqları inkar etmirik. Lakin o vaxt, o xalqlarda qəbahət, cinayət və fəlakətlər seylabı müşahidə edilmirmi? Sizif, Tantal, Aqamemnon – Klitemnestra, Edip murdarçılığı və fəlakəti, onun davamı kimi Kreontun vaqiəsi, Polinikin qarğalar yem olmuş cəsədi, Antiqona – Hemon fəlakəti və s. Yazonun mənsub olduğu "inkişaf tapmış xalqa" xas deyilmi?

Xalqların zəif damarından tutub çəkmək bizim adətimiz deyil. Əgər o xalq kimi özünü təsdiq edibsə, bəşəri mündəricəyə malikdir. Xalq – bəşərilik isə hər şey deyən sözdür – yaxşıdan və pisdən ibarət. Yazon isə öz ayıbına kor olmaq əvəzinə Medeya ilə arasındakı münasibətdən aşıb özünü xalq kimi çoxdan təsdiq etmiş Kolxidalıları vəhşi adlandırır.

İstilaçı fikridir!

İstilaçı fikrinin mündəricəsi ondan ibarətdir ki, mənsub olduğu xalqın yaralarına məlhəm yaxmaz. Bu barədə heç düşünmədən bütün dərdlərin dərmanını əlində tutub xalqlara səadətlər yaydığından dəm vurar. Lakin o xalqlar üçün edam vəziyyəti törətdiyinə görə, özünə haqq qazandırmaq və planlar üçün xalq haqqında həqarətli fikirlər oyatmağa çalışacaqdır.

Yazonun Medeyanın mənsub olduğu xalqı vəhşi adlandırmasını bu cür mənalandırmaq lazımdır. Yazonun fəlakəti də bundadır. Allah ona Yazonluq verib, üstəlik Medeya kimi səadət də göndərib, amma o, əvvəlcə hakimiyyətə can atdı, sonra "qızıl yunlu qoyun" dərisinin ardınca qoşarkən istilaçı fikir üçün alətə çevrildi. Burada hakimiyyətpərəstliklə soyğunçuluq, istibdadla istila qovuşurdu. Bu cür qovuşuq Yazonu onunla bağlı qövmü fəlakətlərə sürükləməyə bilərdimi?

Bizim Medeyaya münasibətimiz aydındır. O, güclüdür və məğrurdur, məğrurdur və güclüdür. Ona görə də Medeyanın gücü məğrurluğunu, məğrurluğu isə gücünü qoruyur. İndi isə Yazon suçunu və miskinliyini ört-basdır etmək üçün Medeyanı həyasız adlandırır. O, deyir ki, həyasızlıq bir qalxan kimi səni qoruyur.

Doğrudan da insanın zəif, kütlənin dağınıq olduğu iqlimdə həyasızlıq bəziləri üçün uğur gətirir. Lakin Medeyanın məğrurluğu ardıcıldır. Onun qələbələri açıqlığa, gücə əsaslanır. Ona görə də Yazonun zırıltısına qarşı Medeyanın cavabı daha haqlı görünür:

"Sən Medeyaya qaplan da deyə bilərsən... sən cəzanı aldın, gərək belə də olaydı! Sən mənə əzab və iztirab rəva gördün, mən də eyni qılıncla səni qəlbindən yaraladım" *(orada, səh. 462).*

Məntiqsizliyə qarşı məntiqi cavab! Həm də burada bəşəri mülahizələrə də meydan açılır. Medeyanın fədakarlığı və məhəbbəti, heç olmasa iki adam arasında mürəkkəbliyi sadələşdirir, "həyat bilinməz – çətindir qardaş" anlayışını yumşaldır, etimad-ahəng yaradır. Məgər Medeya aciz idimi ki, durum Yazon həqircəsinə bir nəzərlə baxa və guya fərasət göstərə, mənafeni başa düşə! Bəli, bəşəriliyə qarşı fərasət göstərmək yolu ilə simasızlığa, saxtakarlığa, minüzlülüyə, gizlənpaç oyununa, amansız mübarizə vəziyyətinə, müxtəlif rəngli antibəşəri keyfiyyətlərə meydan verməyə, fəlakətə bələdçiliyə başlaya idi.

Adamlar elə bir onu görür ki, ana öz əlləri ilə balalarının başını kəsib. İşin əsli, mahiyyəti isə daha dərində dayanıb.

Pyes bu məsələni aşağıdakı şəkildə aydınlaşdırır:

*“Yazon: Ah, yazıq balalarım, sizin qatiliniz öz ananız oldu.*
*Medeya: Ah, zavallı balalarım, öz atanızın qurbanı oldunuz!*
*Yazon: onları mənim əllərim öldürməyib...*
*Medeya: Əllərin öldürməsə də, riyakar, fitnəkar qəlbin öldürüb.*
.............................................
*Yazon: yalvarıram, icazə ver bircə dəfə onların solğun dodaqlarından öpüm!*
*Medeya: İndi onları sevirsən, cəsədlərini oxşamaq istəyirsən. Bəs niyə diri olanda onlara rəhmin gəlmədi?!*
*Yazon: And verirəm, qoy bircə o gül bədənlərinə əlimi vurum!”*
*(orada, səh. 462-464).*

Medeya hamını atıb bir Yazonu tutmuşdu və bununla da nəyi vardısa, hamısını itirmişdi. Ona qalan təkcə Yazon idi. İndi isə o, talan olur, düz yurdda qalırdı. Məgər Medeya o qədər ağılsız idi ki, aldanış üzündən iflas edəydi. Çünki o, açıq döyüşə məğlub olmaq yox, dönüklüklə üz-üzə gəlmişdi. Lakin Medeya simasızcasına başa gələn namərdliyə sona qədər meydan vermirsə, məgər bunda o, müqəssirdirmi?!

Medeya Yazona sevgi ilə can atmış və qurbanlar vermişdi. Əvəzində isə heç bir şey istəmirdi; düz söz və olarsa məhəbbət! Halbuki Medeya hər bir qadın kimi, bu və ya başqa şəkildə gözlənilən şeylərin – səltənət, səltənətin bəhrələri olan üstünlük, ad-san haray-həşiri, firavanlıq tələb edə bilərdi.

Medeya bunların fərqinə varmır, hesabına getmir, onları həyatın mündəricəsi hesab etmir, yalnız Yazonla başa gələn barışıqla yetərlənir, bunu bütöv dünyaya bərabər tuturdu.

Medeya Yazonun ona qarşı başladığı fənalıqlara qədər əri ilə münasibətində heç bir səhv buraxmamış, pislikdə bulunmamış, cinayətə də yol verməmişdi.

Balaların başının kəsilməsi atanın – Yazonun cinayətləri idi ki, Medeya öz əli ilə onları başa çatdıraraq özünü xilas edir və təmizə çıxarırdı.

Axı Yazon yeni qaynata və gəlininin fəlakətə görə cəza üçün Medeyanın yanına gələrkən hələ balalarının qətlindən xəbəri yox idi. O, güclü tərəf kimi hiddətlə gəlmişdi. Üstünlük onun tərəfində olsaydı, qarşısındakı aman, bir güzəşt gözləyə bilməzdi. Lakin

Yazon əksinə bir durumla rastlaşdıqda muma dönür və Medeyaya mərhəmət üçün yalvarır. Belə olanda bizim tərəflərdə deyirlər ki: "...adamda üz olsun, astar hardan olsa tapılar".

Miskinlər dünyası məntiqi! Amma həmin miskinlik əzəmət və qəhrəmanlıq cildinə girmişdi. Medeya ilə Yazonu bir-birindən ayıran əsil səbəb bu idi. Başqa cəhətlər üzdəki əlamət, ikinci dərəcəli səbəb önəmi daşıya bilərdi.

Böyük işlər qurbansız başa gəlməz. Çox vaxt qəhrəmancasına hünərlərin qarşısını başqa səbəblər, qurban vermək zərurəti, toxunulmaz, həzin, kövrək bir şeyi tapdalayıb keçmək məcburiyyəti alır.

Medeya burada tamamilə balalarının taleyinə bağlanıb qala bilərdi?! Lakin o zaman başqa tərəfdə yamanlıq tüğyan edərdi.

Hansını atmaq, hansını tutmaq – çətinliyin məğzi burdadır.

Medeyanın atdığı addım ağlasığmaz görünür. Doğrudan da bu işi hər kəs görsəydi, məntiqi, rəvan sonuc alınmazdı.

İndi Medeya yoxdur. İndi Yazon tək qalmış. O, Yazon, o onun "Arqo"su – hər şeyi yenidən başlasın!

Yox, indi Yazon onu deyə bilməz ki, mən nə edə bilərəm, zaman keçmiş, ömür ötüb! Axı indicə o həyatı yenidən başlamaq, evlənmək eşqinə düşmüşdü.

Son aqibət Yazonun əsil simasını və bu simanın layiqli qismətini üzə çıxarır. İndi tək-tənha qalan Yazonun yadına öz "sevimli" "arqo"su düşür. O, "arqo"nu da özü kimi tənha, dərya qkırağında, yanı yarı quma dayanmış, dağılmış, sınıq-sökük halda görür. Bütün imperiyaların yekunu kimi. Axı, "Arqo" istila maşınını simgələşdirirdi...

Yazon bir an nəfəsini dərmək, dincəlmək arzusu ilə gəminin, istila maşınının kölgəsinə sığınır. (Amma istila maşınının kölgəsi dərin yuxuya getmək üçün nə əla sığınacaqdır. Burada onu dərin bir yuxu aparır.)

Yazon yatmış, dərin bir yuxunun ağuşuna batmışkən dəryadan bir tufan, külək qopur. Qopan tufan, əsən küləyin zərbələri altında "Arqo" aşıb üzü aşağı çevrilir və sahibini də öz altında gömür.

Necə ibrətli aqibət, canavar iştahası ilə dünyanın üstünə yeriməyin necə ibrətli bir yekunu! İstilaçı arzusunun!

Yazon öz ölkəsində hakimiyyətə, istibdada can atırdı. Razılıq da əldə edilmişdi. Bu şərtlə ki, müstəbid öz talançı mahiyyətini də işdə göstərəydi. Bunun üçün də onu "qızıl yunlu qoyun" dərisi ardınca yolladılar. Yazon şərti yerinə yetirdi. Lakin hakimiyyəti ona qaytarmadılar. Çünki Yazon axıra qədər bütöv bir müstəbid, mükəmməl

istilahı ola bilmədi. O, istila zamanı intim-bəşəri, sentimental duyğulara yol verdi. Lakin "Arqo" mükəmməl şəkildə istila maşınını simgələşdirirdi. Bu da onun taleyi, yekunu.

Biz hər zaman bu fikri yeritməyə çalışmışıq ki, istila dünyanın müxtəlif səmtlərinə, öz imkanı, cəhdi həcmində, ...sərrədliklər daşıyır, özünə isə ölüm gətirir. Budur, "Arqo" və sahibinin taleyinin acınacaqlı mənzərəsi!

Biz bu fikri də yeritməyə çalışmışıq ki, yunan düşüncəsi, xüsusən, miflər də tarixin gedişini qabaqlamış, hadisələrin sonrakı inkişafını duymuş və mükəmməl şəkildə öncədən xəbər verə bilib.

"Arqo", arqonavtlar vaqiəsi tarixi cəhətdən o qədər ibrətlidir ki, hər cür izahat hadisənin əyani sürətdə göstərdiyindən solğun olardı.

Yazon qeyri-adi aqibətlə dünyaya gəlmişdi, hələ o dünyaya gəlməmişkən valideyni, nə məna daşısa da, ictimai zəmindən qopardılmışdı. Yazon atılmağa, gizlədilməyə məhkum idi.

Lakin başqa səmtdən Yazonun alnına xoşbəxtlik də yazıla bilərdi. O, təxminən Heraklla, Peleylə, Latertlə yanaşı dayanacaq qəhrəman kimi də yaranmışdı. Üstəlik Xironun tərbiyəsi ilə boya-başa çatmışdı. Tale ona məhəbbət vasitəsiylə ailəyə qovuşmaq imkanı da yaratmışdı.

Lakin Yazon bu mövqedə dayana bilmədi. Çünki o, üstünlüyün, bəşəri mahiyyətin təsdiqini, səadəti başqa şeydə görürdü. O, hakimiyyətə can atırdı.

Axı Xeyirə qulluq, məhəbbət vasitəsiylə insani barışıq, ailəyə qovuşmaq, dərhal gözə çarpan, zahirən parlaq, haray-həşirli bir şey deyil!

Hakimiyyət isə! Başda dayanırsan, ölkələr, kütlələr, dünyanın yaratdığı sərvət və s. və i.a. sənin sərəncamında olur. Yenə və s. və i.a.

Səadətə nisbətən hakimiyyətin əsil mündəricəsini isə biz hər zaman göstərməyə çalışmışıq.

Yazon əvvəlcə iki səadəti – hakimiyyətin gətirə biləcəyi şirniyyəti və məhəbbətlə ailəyə qovuşmağı bir nöqtədə birləşdirməyə, hər ikisini əldə etməyə cəhd göstərdi. Bu isə mümkün deyildi. Çünki bu iki səadətdən biri saxta idi. Saxtanın və sağlamın, sağ və çürüyün bir qabda saxlanması mümkün idimi?!

Saxta səadət, hakimiyyət Yazonun əlindən çıxmışdı. Onun əlində əsil səadət, Medeya, məhəbbət vasitəsi ilə ailəyə qovuşmaq qalmışdı.

Lakin Yazon bu əsil qismətlə yetərlənmədi. Onun üçün bu ailə qovuşmaq yox, təşkilat vəzifəsini görürdü. Ailə tarixinin bu günə qədər müşahidə edilən ümumi mənzərəsində olduğu kimi.

Məhz bu günə qədər ailə qovuşmaqdan daha çox təşkilat vəzifəsi görmüş. Ona görə də ailə səadəti hələ indi də tutiyədir. O, damcı-damcı paylanır, gözə sürtməyə tapılmır. Ailə var, əsil səadət isə yoxdur. Tutiyədən kimiyə düşə, kimiyə yox!

Yazona bütöv bir ailə səadəti düşmüşdü. Lakin Yazonun gözü başqa şeydə qaldığına görə bunu nuş edə bilmədi.

İndi biz yenə də Heraklla Yazonu eyni nöqtələrdə müqayisələndirə və fikrimizi yekunlaşdıra bilərik.

Hər şey ondan başladı ki, hələ bu başdan Heraklın vərəsəlik hüququ, deməli, hakimiyyət əlindən alındı. Hələ buna üstəlik, Homerdəki Heraklın dediyi kimi, yerində özündən aşağı adamı oturtdurub bunu da onun əmrlərinə tabe etdilər.

Herakl padşah yox, qulluqçu oldu. Lakin o, qulluqları Herakl səviyyəsində yerinə yetirdi.

Əsil qulluq nə böyük şey imiş?! Bu qulluqlar onu Herakl etdi. Heraklın yerində oturana isə padşahlıq verildi. O, əmrlər verməklə yetərlənir, qulluğa meyil göstərmirdi.

Heraklcasına qulluq Heraklı Herakl etdi! Quru bir padşahlıq isə Evrisfeyi heç bir şey etmədi.

Herakl kimi Yazonun da vərəsəlik hüququ, hakimiyyəti əlindən alınmışdı. Lakin o, Herakl yolu tutmadı. Yazon üçün hüququnu, varisliyini, hakimiyyəti qaytarmaq, padşah olmaq prinsip idi. Allah ona Yazonluq vermişdi. Lakin o nadanlar təkin düşünərək zahiri parıltısına görə, padşahlığı əqidə səviyyəsinə qaldırıb. Yazonluğun mahiyyətini dərk etmir, Yazonluğa bağlanıb qalmırdı.

Yazon axıra qədər hakimiyyətə can atdı. Buna onun qüdrəti də çatırdı. Lakin o, hər bir hərəkətində taleyin ona verdiyi Yazonluğa deyil, əyri-üyrü yollarla hakimiyyəti ələ keçirməyə çalışırdı. Yalnız bir dəfə, başlanğıcda o, Yazonluq etdi. O, oğru padşahın üstünə təkbaşına yeriyib padşahlığını qaytaracaqdı. Hər şey əlinin altında idi. Bu zaman hiyləyə əl atdılar və onu aldatdılar. Lakin prinsipdə, əqidə səviyyəsinə qaldırılan işlərdə səhv buraxan adam Yazonu, sözün yaxşı mənasında, Yazonluq səviyyəsinə qaldıra bilərdimi?!

Heraklın hakimiyyəti əlindən alındı. O, qulluqlar göstərib Herakl oldu. Tale ona bunun əvəzində xoşbəxt ailə həyatı verdi.

Bəlkə də bu ailə təşkilat kimi yaranmışdı. Çünki Herakl bu izdivacda dostunun sonərkini (vəsiyyətini) yerinə yetirmişdi. Lakin düz adamların təşkil etdiyi bu ailədə sonra elə bir məhəbbət yarandı, ailədə elə bir qovuşma baş verdi ki, uğursuzluq dərhal intihara apardı.

Bu cür ailə əqidə, prinsipdir. Ondan ayrılmaq, onu itirmək ölüm deyən şeydir. Ailəyə bu cür bağlanmaq insanın dəyəridir. İnsansız, insana məhəbbətsiz yaşamaq mümkün olmayanda ailə əqidəyə çevrilir.

Hakimiyyəti əlindən gedən Yazona tale ailə həyatında daha böyük səadət bəxş etmişdi. Onun qismətinə Medeya düşmüşdü. Üstəlik bu ailədə hələ bu başdan qovuşma da ola bilərdi. Çünki onun yaranmasında lap ilkindən tərəfləri cəzb edən qarşılıqlı istək və haqq-say da iştirak edirdi.

Lakin Yazon bu böyük səadəti həzm etmədi. O, əzəməti, ləyaqəti, beləliklə, bəşəri mündəricəni də öz şəxsi keyfiyyətində yox, zahiri şeylərdə, məsələn, hakimiyyətdə görürdü.

Orada Herakl var idi.

Burada isə Yazon yox, hakimiyyət!

Yazon ardıcıllığını itirmişdi!

Başlanğıc üçün, bütün göstəriciləri ilə Yazon Herakla taydır. Təkcə ruhunun ümumi vəziyyəti cəhətcə, ürəkcə Herakldan geri qalırdı. Nəticə də ki, göz önündədir.

Hər şey ondan başladı, biz öz baxışımızda belə bir fikrə gəldik ki, tarix xeyrə nisbətən şəri daha asanlıqla həzm edir. Bu cəhətdən bizim üçün Aqamemnon-Axilles münasibətləri başlanğıc idi. Xeyri daha çox özündə təcəssüm etdirən Axilles qıraqda qalmışdı. Heraklın taleyi ilə bağlı "Odisseya"da da bənzər söhbətlər getdi. Orada Herakl deyirdi ki, mən Zevsin öz oğlu ola-ola hakimiyyətim əlimdən alındı, dəfələrlə, aşağı adamın qulluğuna verildim.

"Odisseya"dakı bu nöqtə bir az fikrimizi inkişaf etdirmək üçün meydan verirdi. Ona görə də həmin dayaqdan tutub bütün Herakl vaqeəsindən istifadə etdik.

Əslində "Odisseya"da getmiş həmin fikir Herakl faktını bir qədər dəyişdirir. Çünki Odissey Heraklla o dünyada, ölülər aləmində, teyflərlə söhbətləşərkən üzləşmişdi.

Halbuki Harakllıq Heraklı ölməz etmişdi. Onu allahlar Herakllığına görə öz məkanlarına götürmüşdülər.

Ümumiyyətlə, biz fikrimizi doğru yöndə izləmək üçün ən mükəmməl variant yaratmağa çalışarkən bəzi qarışıqlıqdan yaxa qurtara bilmədik. Bu sözlər Heraklla bağlı mifə, xüsusən Fin, Mikena, Arqos anlayışlara daha çox ziddir.

Bu sözlər əsaslandığımız bəzi faktlara aid ola bilər. Lakin fikrimizin məntiqində sabit qədəmik!

Biz, tarix xeyrə nisbətən şəri daha asanlıqla həzm edir fikrini əsaslandırmaq üçün Aqamemnon-Axilles faktından ötüb Herakl, Yazon vaqeəsinə keçdik. Burada nə gördük? Gördük ki, başlanğıcda şərin təntənəsi üstünsə də, xeyirdə daha böyük əzəmət var imiş. Ən gözəl timsal da Herakldır.

Lakin bu cəhət bizim məntiqimizi pozmurmu?

Güman etmirik.

Tarix şərə meyil edir. Bu o demək deyildir ki, burada xeyir itirir. Əsla yox! İtirən yenə də tarixin özü, kütlələrdir, şəri asanlıqla həzm edənlərdir.

Əgər asanlıqla həzm edilmədiyinə görə xeyir itirsə idi, onda bəşər bir an belə yaşaya bilməzdi. Təsadüfi deyil ki, günün zırıltıları ötəndən sonra qalan yenə də xeyirdir.

Şəri asanlıqla həzm edən tarixə qayıdaq. Görək bu cəhət onu nə kökə salacaq.

Hadisələr "İliada"da Axillesi atıb Aqamemnonu tutdu. Bununla da hadisələr itirdi. İndi, müsibət, uğursuzluq, qırğın ayaq tutub gəzməyə qarşısıalınmaz bir hal yaratmağa başladı.

Durumu dəqiq almaq üçün "İliada"dan ayrıldığımız yerə qayıtmalıyıq.

Biz "İliada"dan o yerdə ayrıldıq ki, ölkənin taleyi ilə bağlı Aqamemnon qaytarmalı olduğu qəniməti qarşılıqsız əldən vermirdi.

Biz hər zaman duruma real qiymət verməyə çalışmışıq. Ayrı-ayrı adamlar arasında anlaşılmazlıqdan, soyuqluqdan, gözügötürməzlikdən, kindən, ikiüzlülükdən kələk gəlməkdən, didişmələrdən, mübarizə durumundan, düşmənçilikdən, hiylə torları qurmaqdan, qəsd etməkdən, açıq döyüşdən və s.-dən tutmuş insan qrupları, tayfalar, obalar, ellər, xalqlara, bütöv bəşəriyyətə – tarixə qədər aləmi bürüyən zəiflik, naqislik, dağınıqlıq, qəbahətlər, yalanlar, cinayətlər, fəlakətlər seylabı ümumi hal kimi müşahidə edilmiş. "İliada" bunu mükəmməl şəkildə simgələşdirir. Aqamemnon ziddiyyəti də ümumi durumun ünsürlərindən biridir. Tam düşüncəsiz şəkildə başa gələn qayğısızlıq, yəni heyvanilik örnəyi.

Qarşıda ilkin baxışda namusu tapdalama simgələşəndə xalq səadətinin oğurlanması kimi bir durum var. Bütün xırda arzuların unudulması üçün bircə bu fakt bəsdir. Amma həmin fakt daha mühüm amil yaratmışdır. Ölkə müharibə durumundadır.

Bəşəriyyət tərəflər üz-üzə dayanarkən, müharibə durumunda kimin tərəfində olmalıdır?

"Ölkə müharibə durumundadır" deyərkən belə bir təəccüblü hal meydana çxır.

Əxlaqın, idrakın, ülviyyətin yaradıcısı insan, xalq, bəşəriyyət müharibə durumuna düşür. İşin ağlasığmaz cəhəti burasındadır. Lakin tarixən müharibə və başqa naqisliklər bir faktdır.

Ona görə də müharibə özü bəşəri düşüncə üçün təəccüb doğurur. Həmin səbəbdən, bəşəriyyət müharibə durumunda olan tərəflərin heç birisinə üstünlük verə bilməz. Aqamemnon müharibə edən tərəfdir. O, filan, filan səbəblərə görə, indi qənimət və tənələr qayğısına qalmalı idi. Onun diqqəti şərəfi qorumaq, ölkə səadətini qaytarmaq, müharibənin irəli sürdüyü tələblər ətrafında mərkəzləşməli idi. Bu götür-qoy, iradi surətdə başa gəlməkdən daha çox, təbii şəkildə özünü göstərməli idi. Amma biz Aqamemnonda bunun tam əksini müşahidə edirik. O, bütün ictimai prinsiplərə qarşı, xudbin məqsədindən tutubdur, buraxmır. Həmin cəhəti isə təkcə Axilles istisna olmaqla əfkari-ümumiyyə tərəfindən asanlıqla həzm edilir. Amma bununla da elə durum yaranır ki, əfkari-ümumiyyəyə qarşı burada Axilles təkbaşına bəşəriyyəti təmsil edir. Əfkari-ümumiyyə isə bəşəriyyəti, – Axillesi – xeyri deyil, Aqamemnonu – şəri asanlıqla götürür, həzm edir.

Əfkari-ümumiyyə üçün Aqamemnon eləyən hər bir şey təbii görünür. Təkcə ona görə yox ki, o, hökmdardır. İşin bu cəhəti var. Lakin bundan daha artıq, ona görə ki, Aqamemnon hökmdar olsa da, əslində hamının biri kimi, onun başa gətirdiyi hər bir hərəkət əfkari-ümumiyyənin səviyyəsinə uyğundur.

Axillesin yolu idraki, bəşəridirsə də, onun hər bir addımı əfkari-ümumiyyəni şok durumuna salır. Axilles olsun ki, haradasa təəccüb və heyranlıq doğurar. Lakin onun addımları dərhal dərk edilən, həzmə gedən deyildir.

Ona görə də xeyrə qulluq, idrakilik çətinliklə başa gəlir.

Bəşəriyyət xeyrə nisbətən şəri asanlıqla həzm etməklə qazanmır, itirir.

Aqamemnonun mühüm anda qənimətbazlığı hər şeydən əvvəl yunanlar arasına dağınıqlıq salır, sonra isə uğursuzluqlar baş alıb gedir.

Aqamemnon qəniməti qaytarmağa razılıq verir. Bu şərtlə ki, əvəzində kiminsə əlindən nəyi isə qoparmalıyam, – deyir.

İşin, xüsusən, haqsız cəhəti budur ki, indi vətənin taleyi üçün Aqamemnonun qismətinə düşən pay lazım idi. Əgər bu qismət başqasına qarşı tuşlansaydı, həmin durumu da başqası yerinə yetirərdi.

Aqamemnonun xudbinliyi və yekəxanalığı bütöv bir ixtilafa səbəb olur.

İlk qəzəbli çıxışı Axilles edir. Axilles Aqamemnonu yunanlar arasında ən acgöz insan adlandırır.

İşə bax, hamıdan acgöz olasan, xalq tərəfindən də başçı seçiləsən.

Sonra Axilles Aqamemnona haradasa haqqının artıqlaması ilə ödənilməsinə yönəlik ağıllı sözlər deyir. Lakin bu, Aqamemnonu nəinki yumşaldır, əksinə, burada onun ehtirasları tüğyan etməyə başlayır. O, Axillesə müraciətlə deyir ki, verdiyimin əvəzinə “sənin, ya Ayaks, ya da Odisseyin, – kimin olsa, – payımı zorla alacağam!”

*(“İliada”, səh.23).*

*Yeyinayaq Axilles sərt bir baxışla ona dedi:*
*“”Ey bihəya, sənin bütün fikrin-zikrin qənimətdir!..*
*...Sənin, bir də Menelayın*
*Şərəfini qorumağa gəlmişik, biz, ey itsifət!*
*Sənsə bunun əvəzində bizə nifrət bəsləyirsən!*
*Hələ məni hədələyir, qəhrəmanlıq göstərərək –*
*Qazandığım qənimətə yiyələnmək istəyirsən.*
*Mərd axeylilər hər şəhəri fəth edəndə, heç bir zaman*
*Sənin qədər olmamışdır sizə zəfər qazandıran,*
*Bax, mənim bu əllərimdir!.. ancaq bölgü başlananda,*
*Bol qənimət sənə çatır, mənsə aza qane olub,*
*Döyüşməkdən yorğun-arğın düşərgəmə qayıtmışam.*
*Daha bəsdir, günü bu gün gedirəm öz Fetiyama!*
*Sənə dövlət qazanaraq, burda təhqir olmaqdansa,*
*Yeyingedən gəmilərlə yurda dönmək qat-qat xoşdur!”*

*(“İliada”, səh.24).*

Axilles öz fikrinin şərhi üçün çox ağıllı, daha idraki dəlillər gətirir. O, deyir ki, bizim heç birimiz öz xeyrimizə və öz xoşumuza buraya vuruşa gəlməmişik. Troyalılar şəxsən mənə heç bir pislik etməyib, bir qoyunumu da oğurlamayıb, malikanəmə də soxulmayıblar və s. və i. a.

Amma kimə deyəsən. Hər nə dəlil gətirsən, istibdada təsir göstərməz. O, həyasızlığa, kütbeyinliyə və zora əsaslanır. İstibdad məntiqsizlik mücəssəməsidir. Hələ üstəlik o özü özünə də məftundur. İndiki şəraitdə ona heç olmasa bir şey lazımdır ki, öz ağlına inanmasın. Bu, durumu islah etməsə də, yumşalda və ağla yol qoyar. Amma bədgümanlıq, müştəbehlik elə həddədirmi ki, onunla bir iş görmək mümkün olsun. Üstə gəl xudpəsəndlik və nəfsbazlığı.

İndi, ölüm-dirim vəziyyətində qaldığı, vətənin, xalqın taleyi həll olunduğu bir anda yunanlara işləri qaydaya salmaq lazımdır. İttihamlar irəli sürsə də, küsməyə başlasa da, Axillesin çıxışı müşkülü aradan götürməyə yol da qoyurdu.

Amma bunun qarşılığında Aqamemnonun cavabı hadisələrin məcrasından daha da çıxmasına təkan verdi. O, ağıllı başla söylənilən fikirlərini bir yana buraxıb, səbəbi də araşdıraraq, axırıncı nəticədən yapışıb Axillesi nəzərdən salmağa çalışdı. Lakin bu mümkündürmü, lazım idimi?!”

Aqamemnon cavab verdi:

*“Kefinə bax, qaçırsan, qaç? Mən ki, sənə yalvarmıram,*
*Yolun açıq... Gedirsən get! Çoxdur sənsiz burda qalan,*
*Çoxdur mənim havadarım, ən böyüyü – qadir Zevs!*
*Sərkərdələr arasında ən çox səndən zəhləm gedir...*
*Get, dəstənlə gəmilərə minib, rədd ol öz evinə.*
*Get, ölkəndə hökmünü sür... Qəm çəkmərəm səndən ötrü!..*
*Qənimətim gözəl qızı alır-alsın Feb-Apollon!*
*Mən o qızı öz gəmimlə, öz dəstəmlə göndərərəm.*
*Ancaq səndən Briseida adlı qızı alacağam!” (orada səh.25).*

Sonra Aqamemnon öz hərəkətini bununla da əsaslandırır ki, hər kəs başçının, sərkərdənin üzünə ağ olarsa və cəzasız qalarsa, dövlət nüfuzdan düşər. Kütləni itaətdə saxlamaq üçün cəza lazımdır.

Küsən adamın qabağınca getmək də çətindir. Bu “küsü” hər nə səbəbdən olsa da!.. Axilles isə dediyimiz “hər nə səbəbdən olsa da” çətin anda küsmüşdü. Burada ittifaqı, bütövlüyü saxlamaq üçün

Aqamemnona bəlkə də incə danışan bir dil lazım idi. Amma o da eyni köntöylüklə söyləyir ki, "yalvarmaram, yolun açıq, gedirsən, get". Münasibətlər islahı mümkün olmayan məcraya düşür.

Amma çıxışının ardınca Aqamemnon ağılsızlar, kütbeyinlər, dargözlər və nankorlar kimi Axillesi hamı ilə bir sırada qoyur. Burada isə ixtilafın əsas səbəbi, sərkərdənin qəhrəmana qarşı qəlbini gəmirən acı bir duyğu üzə çıxır. O, deyir ki, yanımda sənin kimi qəhrəman çoxdur.

Bu doğrudur, Troya döyüşündə yunan ordusu içərisində seçilən qəhrəman çox idi. Ancaq onların hamısı bir Axilles deyildi.

Bəşəri mənada, hüquq cəhətdən bütün insanlar bərabər olsa da, fizikanın dili ilə bənzər şəkildə desək, "kütlələr" müxtəlifdir – həm fiziki, həm də mənəvi cəhətdən.

Aqamemnon deyir ki, havadarım çoxdur, ən əsası da Zeves. Amma Zevs Aqamemnona Axeylilər vasitəsi ilə kömək edə bilər. Dünyanın sahibləri barmaqlarını salıb bəxtin gözlərini çıxaracaqsa, yəni düşmənini buraxıb dargözlükləri və kütbeyinlikləri üzündən dostlarla çəkişəcəksə, daha burada Zevsin – allahın havadarlığı nə edə bilər?!

Sonra da o, deyir ki, sərkərdələr ararsında ən çox səndən zəhləm gedir.

Aqamemnonun Axillesə bu münasibəti tarixdən bizə imperator I Aleksandrın Kutuzovla rəftarını xatırladır.

I Aleksandr Kutuzovun böyüklüyündən, hünərindən doğan nüfuzuna dözmürdü. O, dörd gözlə Kutuzovu izləyir, ən kiçik uğursuzluğu nəzərdən qaçırmır, ittiham üçün fürsət axtarır və əfkari-ümumiyyəni ona qarşı çevirməyə çalışırdı. Çox vaxt da onunla nəticələnirdi ki, ən böhranlı anda Kutuzovun ağlı, təcrübəsi, hünəri, fədakarlığı ölkə, xalq taleyinə qulluqdan qıraqda qalırdı. Həmin böhranlı an zəruri şəkildə Kutuzovu işlərin başına gətirdikdə isə o, I Aleksandrın fəaliyyət səhnəsindən çəkilməsini bir şərt kimi irəli sürürdü. Burada ağlın, fəaliyyətin böyüklüyü vərəsəlik hüququnu və imperator məqamını üstələyir, heç olduğunu göz qabağında nümayiş etdirirdi.

Xriseida, Briseida hadisələri söz-sözhbətdir, fəlsəfə dilində desək, səbəb yox, vasitədir. Səbəb isə odur ki, Aqamemnon kübarlığı, vərəsəlik hüququ, sərkərdə seçilməsi ilə birlikdə Axillesə bərabər ola bilmir və buna dözmürdü. Həmin səbəbin sonucu kimi ixtilaf isə bu deyilsə, başqa səbəbdən üzə çıxacaqdı.

Amma biz dastan üzrə gedirik. Fikrimizin şərhi üçün bu da yetərlidir. Belə qəbul edək ki, hadisələri Xriseida-Briseida vaqeəsi yönləndirir və islahı mümkün olmayan məcraya salır.

Axilles Aqamemnonun hökmünü eşitdikdə çılğınlaşır:

*Bu sözlərdən Axillesin qəlbi sanki alovlandı,*
*Çaşıb qaldı o, çarəsiz iki qərar arasında:*
*Ya böyründən asılmış o qılıncı çəkib gərək*
*Bircə anda şığıyaraq öldürəydi Aterendi,*
*Ya da gərək elə qalıb yumşaldaydı öz qəlbini,*
*Bu fikirlər arasında, qılıncına əl atanda,*
*Birdən göydən nazil oldu Zevsin qızı pak Afina".*

*("İliada", səh. 25).*

Yunanlar cəbhə durumunda idi. Onlarla Troyalılar arasında ölüm-dirim döyüşü gedirdi. Lakin asanlıqla həzm olunan şər yunanların öz arasında daha təhlükəli idi. Hadisə törətdi. Bir anda qəhrəman əli qılınclı sərkərdənin üzərinə şığıya, fəlakətli hadisə törədə bilərdi. Bu halda allahlar işə qarışır və döyüşü dil vuruşundan o yana aşmağa qoymurdular.

Burada allahlar həm haqqın, həm də nahaqqın, həm xeyrin, həm də şərin tərəfində dayanır, ümumi münsif rolu oynayırlar. Bizcə bir qədər ağlasığmaz, qəribə gələn allahların mövqeyi əslində yer hadisəsidir, dövlətin tarixi mövqeyi ilə bağlıdır.

Dövlətin ortaya çıxmasına səbəb olan amillər, onun tarixiliyi, önəmi, vəzifələri və bunlarla haqsızlıq, zor aparatı olması elm tərəfindən bütün çoxcəhətliliyi ilə izah edilmişdir. Asanlıqla başa düşmək mümkündür ki, əgər dövlətin əsaslandırılmadan başa gətirdiyi haqsızlığa, cinayətə, qəbahətə, fəlakətə, düşüncəsizliyə allahlar belə göz yumurlarsa, deməli, dövlət problemindən bütünlüklə yan keçmək düzgün sayılmaz.

Dövlət bəzən vəhşətə, azğınlığa varır. Ona qarşı da bu və ya başqa şəkildə etiraz dalğaları tüğyan edir.

Lakin allahın dindən qıraq işlərə bu qədər göz yumması onu izah edir ki, dövlətsilzik daha böyük bəla olardı. İnsanın zəifliyi, tarixin naqisliyi üzündən. Burada haqsızlığın bu cür meydan sulaması ilə bağlı əlavə izahata ehtiyac qalmır...

Allahların təhriki ilə Axilles qılıncını basır. Lakin bu zaman onun idrakı tüğyan edir və dilin kəsəri qılıncdan geri qalmır:

*Ey itigözlü, maral qəlbli, acgöz, paxıl, miskin əyyaş,*
*Sən ki, heç vaxt xalqla bircə qanlı savaş meydanında*
*Rəşadətli igidlərlə pusqu qurub, vuruşmağa,*
*əla cürət etməyibsən, qorxubsan öz ölümündən*
*gəzib geniş düşərgəni sənə qarşı duranları*
*qarət etmək, əlbəttə ki, həm yaxşıdır, həm də asan.*
*Ey xalq malı yeyən hakim, sən həqirlər padşahısan!*
*Bu gün sənin axırıncı kobudluğun olacaqdır!..*
*Ancaq... bil ki, bu müqəddəs əsaya da and içirəm...*
*Çünki Zevsə xidmt edən hakimlərin əsasıdır.*
*Qoy bu əsa mənim sənə bu andıma şahid olsun:*
*Vaxt gələcək, hamı məni həsrət ilə yad edəcək!*
*Bərk savaşda mərd Hektorun zərbəsindən qoşunların*
*Dəstə-dəstə qırılanda, yana-yana qalacaqsan,*
*Ən qəhrəman axeylini belə təhqir etdiyinə*
*Peşman olub, təəssüflə öz qəlbini didəcəksən!..*
*("İliada", səh. 26).*

Axillesin dağları, daşları belə dilə gətirən bu çıxışı da Aqamemnona təsirsiz qalır. Məsələ onda idi ki, yunanların və insan hünərinin fəxri olan Axillesə qarşı haqsızlıq və təhqirdən başqa həm də elliplər pis vəziyyətdə qalırdı. Bütün yunan dünyasından bir uğultu keçir. Hətta yunan ağlının təcəssümü, keçmişin nümayəndəsi bu günün şahidi və iştirakçısı, ağsaqqalı Nestor özü belə duruma müdaxiləyə təşəbbüs göstərir.

Nestor nə vaxtınsa hadisələrində Axillessayağı qəhrəman olmuş. Bu qoca döyüşçü, ağıl kanı və ağsaqqal bu gün də, ən böhranlı anlarda vuruş meydanlarında görünür. O, keçmişin yeganə nümayəndəsi kimi Axillesin atası Peleylərin, Odisseyin atası Latertlər dövrünün adamıdır.

Durumun təhlükəli olduğunu görən Nestor özü dilə gəlir, çıxış edir:

*Əfsus"Axey torpağına böyük bəla nazil olmuş!*
*Aranızda baş verən bu çəkişməni eşitsələr,*
*Priamla övladları böyük bayram edəcəklər...*
*Siz ki, məşhur adamsınız həm məclisdə, həm savaşda*
*Sözlərimə qulaq asın: siz məndən çox cavansıznız.*
*Sizdən çox güclü, cəsur çox igidlər görmüşəm mən.*
*Onlar mənim öyüdümü rədd etməyib heç bir zaman...*

*Mən o nəhəng igidlərlə bəhsə girib udmuşam da...*
*İndikilər arasından heç kəs buna cürət etməz!..*
*Onlar mənim sözlərimə daim əməl edərdilər.*
*Siz də qəbul eyləsəniz, əlbəttə ki, yaxşı olar.*
*Aqamemnon, inad etmə, alma qızı Axillesdən!*
*Axeylilər qızı ona səndən əvvəl bəxş etmişlər.*
*Ey Peleid, bəsdir, sən də bəhs eləmə, hökmdarla:*
*Zevsin bəxş etdiyi hökmdarlar arasında*
*Heç kəs hələ onun qədər şan-şövkətə çatmamışdır.*
*Sən ilahə oğlu, həm də çox güclüsən, düzdür, ancaq*
*Atrid səndən yüksəkdədir, çox insana hökmü çatır.*
*Aqamemnon, yalvarırıam, sən də yumşalt ürəyini,*
*Axillesə qəzəblənmə: bu uğursuz savaşmada*
*Hamımıza ən qüvvətli arxadır o mərd qəhrəman".*
*("İliada", səh. 28).*

Duruma görə, bir ağsaqqal kimi o cürə ki, Nestor çıxış edir, daha ondan da müdrik müraciət mümkün deyildi. Bununla belə, bu çıxış birinci növbədə Aqamemnona təsir göstərmir. O, bütün variantlarda özünə bəraət qazandırır, haqlı olduğunu gözə soxmağa çalışır, hərəkətində bir hökmdar kimi qaçılmazlıq görür, necə deyərlər, tutduğunu axıra qədər buraxmır. Lakin Nestorun çıxışı Aqamemnona təsir göstərib, işləri onun inadından əl çəkməyə aparıb çıxarsaydı da, Axillesə təsirsiz qalacaqdı.

Əlbəttə, Briseida məsələsində Axillesin səadəti pozulur, qisməti əldən çıxır, təhqir olunurdu. Lakin Aqamemnon indi inadından əl çəksə idi, artıq keçmişi, o, Axillesə məxsus ülvi bir dünyanın üzərinə pis nəfəsini salmışdı. Ülviyyət hiss edilmədən, adi gözlərin görə bilməyəcəyi şəkildə yerindəcə donub qalmışdı. Burada səadətin pozulması, qismətin əldən çıxması, təhqir olunmaqdan başqa başçı adlanan adamın içində yatan ifrat bulaşığı və ətrafına qeyri-insani münasibəti, bərk ayaqda özünü büruzə verən əsil siması üzə çıxmışdı.

Güclü, qorxmaz, təhlükənin üzərinə şığımaq keyfiyyətinə qabil qəhrəman çox tapıla bilər. Axilles bu cür qəhrəmanların özlərinin içində belə seçilir. Lakin Axillesdə qəhrəmanlıq insani keyfiyyətlərdən sonra gəlir. Axilles hər şeydən əvvəl böyük insandır. İnsani, bəşəri, mənəvi, ülvi keyfiyyətləri bütün çalarları ilə özündə təcəssüm etdirən İnsan!!! Qəbahət baş verəndən sonra tikələrlə bu cür insana, müsbət və ya mənfi yönlərdə, təsir etmək mümkündürmü?

Lakin Aqamemnon birtərəfli surətdə ağıllı sözləri eşitmək imkanına malik idi. O, ziyanın yarısından dönsə idi, qalardı Axilles. O zaman vəziyyətə müstəqim qiymət vermək işi bir qədər asanlaşardı...

Amma Aqamemnonda biz bu axırıncı imkandan istifadə keyfiyyətini də görmürük. O, bir kütbeyin, bir müstəbid kimi, müqəddəs səmtdən gələn, ağıllı, müdrik səslərə qulaq şəkləmir, pis niyyətini başa çatdırır. Bununla da döyüş durumunda olan tərəf üçün pis bir hadisə kimi birlik pozulur.

Bəşəriyyət xeyrə nisbətən şəri daha asanlıqla həzm etməkdə çox da qazanmır, bəlkə itirir. Biz bunun ilkin əlamətini gördük, acınacaqlı sonucunu da izləyəcəyik.

Axillesin çıxışında Aqamemnonun həm bir insan, həm də bir hökmdar kimi şər mahiyyətini üzə çıxaran diqqətəlayiq ifadələr var. O, Aqamemnona deyir ki, bir sərkərdə kimi ölkənin, xalqın ümumi məsələləri ilə məşğul olmaq əvəzinə, daim düşərgələri gəzib adamların sənə münasibəti ilə maraqlanır, sənə qarşı duranları ayırd etməyə çalışırsan. Əlinə bəhanə keçən təki isə adamları qarət edirsən.

Nəzəri fikir heç bir zaman cəmiyyət həyatının, dövlətin, hökmdar durumunun mürəkkəbliyindən yan keçməmiş. Bunlar var və daim nəzərə alınmalıdır. Lakin bu mürəkkəblikdə dövlətin, eynilə də başda dayanan bir nömrəli mənsəb sahibinin ümdə vəzifəsi əqidə səviyyəli işlərlə, ümumi-ictimai məsələlərlə məşğul olmasıdır. Lakin bu məqamı görə bilməmək üzündən unudub adamları izləmək cəhdi, şəxsi münasibətləri saf-çürük etmək, qabiliyyətsizlik, kütbeyinlilik, ona görə də şər əlamətidir.

Şəxsi münasibətlərsiz keçinimir. Lakin hökmdarın adamlarla rəftarını ictimai işlərdə onların iştirakı, fəaliyyət dairəsi müəyyən etməlidir.

İzləmək, izləmək şəbəkəsi dövlət işlərində nəzərdə tutulur. Lakin bu, baş xətt deyil. İzləmə baş xəttə çevriləndə kütlələrin səciyyəsində pozulma, minüzlülük, yalan, böhtan və s. baş alıb gedir. Hökmdar işlərə ümumi mənafe baxımından qiymət vermək səviyyəsinə yüksəldikdə, xəbərçilərin gətirdiyi məlumatdan daha çox, həqiqəti əqlin gözü ilə görür.

Aqamemnonda bu keyfiyyətin əksi var. İzləmə pozulma obyektiv səbəbdən başqa, həmin üsluba görə subyektiv surətdə, süni şəkildə də baş verməli idi.

Lakin Axillesin çıxışından bəlli olur ki, Aqamemnonda “xain xoflu olar” məsəlinə uyğun izləmə keyfiyyətindən başqa nəfsbazlıq

da var. Burada o adamların ona mənfi münasibətinin qayğısına və qeyrətinin dərdinə qalmağı buraxıb, fürsətdən istifadəylə dərhal qarətə başlayır.

Başçıda bu keyfiyyət müşahidə ediləndə isə ölkədə ictimai işlər bərbad hala düşür, dünya çal-çap durumunda qalır, xeyrə qulluğun çətinliyi baş alıb gedir. Burada Aqamemnonun şər xislətindən başqa Axillesin öz ülvi və qəhrəman mahiyətini üzə çıxarması, xeyrə, bəşəriyyətə qulluğunun nə qədər çətin durumda olması da aydınlaşır.

Biz Nestorun qəhrəman sifətlərini, müdrikliyini, ağlını müdafiə etdik. Lakin Axillesin çətinliyini ifrata vardıran cəhətlərdən biri də ondadır, onda elə keyfiyyətlər var ki, hətta bu Nestor kimi müdrik, qocaman şəxsiyyət üçün də anlaşılmaz qalır.

Nestor Aqamemnona və Axillesə ilahi bir dillə müraciət edir. O, hər iki şəxsiyyəti layiqincə qiymətləndirir. Nestor Aqamemnona deyir ki, filan-filan səbəblərə görə Axillesə güzəştə get. Axillesə də deyir ki, sən də itaət göstər. Çünki Atreid, yəni Aqamrmenon səndən güclüdür.

Bu hamıya belə gəlir. Üzdən də belə görünür. Burda bəşəri özgələşmə hökmü-rəvadır. Şəxsi ləyaqətlə mənsəbin yaratdığı üstünlük üz-üzə dayanmış.

Bəlkə də burada bir həqiqət var. Bu, hamıya belə gələ bilər.

Amma Nestor kimi adamın vəziyyəti belə qoyması təəccüb doğurur.

Öncə seçki, sonra vərəsəlik hüququ, sonra yenə də seçki ölkənin və kütlələrin taleyini bir dəstəyə, ya da bir nəfərə tapşırır. Bu bir dəstə və ya bir nəfər fövqdə görünür. Madam ki, ölkənin, bölük-bölük insanların taleyi bir nəfərdən asılıdır və bu bir nəfər də hökmü-rəvandır, onun nə isə fərqli cəhətləri də olmalıdır. Lakin əksinə durum yarandığını və əksinə sonuc alındığını elm izah etmiş. Burada da Aqamemnonla Axilles üz-üzə dayanmış. Əgər fövqdə dayanmaq üçün ikisindən birini seçmək lazım gəlsə idi, bunlardan hansı birində – Aqamemnonda yoxsa Axillesdə daha çox fərqli cəhətlər seçilə bilərdi?

Cavab aydındır.

Necə olmuş ki, Nestorların, Axilleslərin, Diomidlərin, Odisseylərin, Ayoksların, Patroklların və s. dolaşdığı aləmdə “fövqə” qalxmaq üçün onlar yox, Aqamemnon seçilmiş?!

Çünki dövlət nəzərdə tutlan görəvi ifa etməkdən daha çox zorakılıq, haqsızlıq, həyasızlıq, vicdansızlıq aparatı olmuş. Bunlar isə

şər mahiyyətlidir. Dövlət də bütün fərqli cəhətləri ilə yanaşı bu səmtdə tarixin naqisliyinə, insanın da zəifliyinə uyğun şər mahiyyətli olmalıdır. Adını çəkdiyimiz qəhrəmanlar içərisində isə Aqamemnon daha artıq şər xislətlidir. Ona görə də kütlələr onu seçmişlər.

Axilleslərin faciəsinin məğzi burasındadır.

Axilleslərin bütün mündəricəsi insana, xalqa, həqiqətə, tərəqqiyə qulluq zamanı üzə çıxır. Dünya isə ilk baxışda Axillesləri atıb Aqamemnonları tutmuş.

Amma Nestor bu yolla getməməli idi. O, deyir ki, hünərimlə, cəsarətimlə, fədakarlığımla, gücümlə, ağlımla fərqlənmişəm, üstün gəlmişəm, məni eşitmişlər. Bəs bu cür adam necə olmuş, Axilles qüdrətinə qarşı Aqamemnon mənsəbinə üstünlük verib deyir ki, onun mərtəbəsi daha uca, mündəricəsi daha artıqdır, – diqqətəlayiqdir.

Bu çətin nöqtədir. Bu çətin nöqtəni, hətta bütün üstün cəhətləri ilə yanaşı Nestor da həzm eləyə bilmir. Əgər o, bu müşkülü həzm edə bilsəydi, Nestor çevrilib Axilles olardı.

Nestor bütöv bir tarix kimi səslənir. Onun ağlı və qəhrəmanlığı da var. Lakin bu müşkülü həzm etməkdə Axillesdən geri qalır.

Axilles isə andır. Amma nəzərdə tutulan müşkülü həzm etmək qabiliyyətinə, onun bütün varlığı bu müşkülün həzmi keyfiyyətində olduğuna görə, Axillesin anda törətdiyi hadisə bütün zamanları və məkanları, məkanları və zamanları əhatə edir.

Axilles-Aqamemnon əhvalatı tarixi müşkülün ifasıdır. Bu isə hələ bu günə qədər də nəsihət, kəlam, ağsaqqallıq götürməyən müşküldür. Nestor isə kəlamlarla işə təsir göstərmək istəyirdi.

Nestor kəlamlara müraciət etdi. Lakin ülviyyətə, hünərə qarşı mənsəbə üstünlük verərkən qəbahət elədi.

Bu, müşkülün mahiyyəti ilə bağlıdır.

Təmiz qalmağın yeganə yolu o müşkülə qarşı dayanmaqdır. Həmin müşküllə hər hansı dil tapmaq meyli cinayətə, qəbahətə və bunlardan doğan fəlakətlərə meydan açmaq deyən sözdür.

Ona görə də Nestor hansı varianta əl atsa idi, yanlış nəticə alınacaqdı.

Əlbəttə, Nestor bir ağsaqqal kimi başçıların yığıncağında Aqamemnonun kənar edilməsi və yeni sərkərdə seçilməsi məsələsini qoya bilərdi. Bu yeganə düzgün yol kimi görünərdi.

Lakin bu mülahizədir, sillogizmdir. Reallıq isə Aqamemnon-Axilles müşkülüdür. Tarixi gerçəkliklə bu variant dürüstdür.

Aqamemnon-Axilles müşkülü isə tarixin ölüm-dirim durumudur.

Ölüm-dirim tarixdə müşahidə edilən ən ümumi mənzərədir.

Ölüm-dirim durumu burada öz ifadəsini onda tapır ki, Aqamemnon Axillesə məxsus qızı – Briseidanı tələb edir.

Hər bir zaman, hər bir yerdə, bütün tayfa, xalq millətlər sentimental aləmə qıraqdan uzadılan əlləri cəzaya layiq bilmiş, intiqam tələbi yaratmış. Burada əsaslandırmaq üçün ikinci rəyə yer qalmır. Briseida Axillesə məxsusdur. Buna adi qənimət də, sevgili, ailənin başqa tərəfi gözü ilə baxmaq olar.

İlk baxışda Briseida qənimətdir. Aqamemnon da onu əldən çıxan payın əvəzinə istəyir. İlk baxışda Axilles də özünün Briseidaya münasibətini bu cür izah edir. O, şərəfinin tapdanmasına işarə vurmadan Aqamemnonun acgözlüyünü, haqsızlığını üzünə çırpır. Başa salır ki, bu cür vəziyyətdə bizim birlikdə olmağımız, birgə fəaliyyətimiz mümkün deyil. Biz döyüş vəziyyətində, ölkə güclü düşmənlə üz-üzə dayanmış haldadır. Ona görə də sənə layiq cavabı vermirəm, istəmirəm ki, dəstəmiz artıq dərəcədə pərən-pərən düşsün.

Axilles sözünü bu cür tamamlayır:

*Bir qız üçün nə səninlə, nə heç kəslə vuruşmaram,*
*Verdiyiniz mükafatı özünüz də alırsınız...*
*Amma mənim qara gəmim duran yerdən, icazəsiz*
*Heç bir şeyi aparmağa haqqın yoxdur, gücün çatmaz!*
*Hünərin var, buyur sına, qoy bunlar da görsün hamı*
*Onda sənin qara qanın mizrağımı necə boyar!..”*

*(“İliada”, səh. 28).*

Çıxışdan belə çıxır ki, Briseidanın bir qənimət kimi götürülməsinə, müşkülümüzə görə, səsimi çıxarmaram. Amma həddin var, mənə məxsus başqa şeylərə toxun. Burada deyilir ki, haqqın yoxdur. Lakin burada ifadə (çox güman tərcümədə) dəqiqsizliyi var. Sonra ifadəyə əlavə deyilir ki, gücün çatmaz.

Bəli, gücün çatmaz. Axilles elə gücə malikdir ki, hətta mənsəb də Aqamemnonu onunla bərabərləşdirə bilmir. Üstəlik Axillesin mənəvi keyfiyyətlərinə, idraki gücünə, ülviyyətinə söz ola bilməz.

Bəs nə üçün sərkərdəlik üçün Axilles yox, Aqamemnon fərqləndirilmiş?

Lakin bu nəzəri götür-qoydur. Fakt odur ki, tarixi gerçəkliyə uyğun Axilles yox, sərkərdəlik üçün Aqamemnon fərqləndirilmiş. Axilles deyir ki, bir qız üçün nə səninlə, nə heç kəslə vuruşmaram.

Bu sözdür!

Amma Axilles işdə bu hadisədən elə sarsıntı keçirir ki, Briseida adi qənimət həddini aşıb həm sentimental aləmin pozulması (şərəf), həm də prinsip – əqidə səviyyəsinə yüksəlir. Axı başqa bir yerdə həmin Axilles yenə də deyir ki, qılınc gücünə götürsəm də, mən o qızı sevirdim.

Qılınc gücünə götürsəm də mən o qızı sevirdim – deyir Axilles. O bu nidasına daha heç bir şey əlavə etmir. Lakin Axilles elə vəziyyət yaradır, bu nidanı köksündən elə qopardır ki, sanki bu bir nidada ilahiyyatın bütün həyəcanı öz ifadəsini tapır...

Belə gümün edək ki, Briseida bir qənimət önəmi daşıyır.

Lakin qənimət hər nə olsa da, qızdır, insandır, alışdığın, ondan ayrılması çətin olan bir dünyadır.

Burada qəlbin arzularından ayrılmağın çətinlikləri ilə üzləşmək zəruriyyəti, həm qısqanclığın törətdiyi neştərlərə dözmək, həm də şərəfin tapdanmasından doğan ağrılara tab gətirmək lazımdır.

Ən başlıcası da odur ki, haqq tapdanırdı.

Hər cür haqqın tapdalanması vicdanda həyəcan doğurur. Bu bəşəri mülahizələrin başlanğıcıdır. Lakin burada əslində zəif tərəf daha güclü, üstün səmtin haqqını tapdalayır. Ona görə vicdanda həyəcana təkan verən amil daha güclüdür.

Amma Axillesin uğradığı haqsızlığa özünün münasibəti daha çox diqqət cəlb edir. Yunanlar Troyanın qapısı ağzına şəxsi məsələləri həll etməyə gəlməmişdilər. Burada konkret, həm də milli vəzifə qarşıdadır. Axilles isə bu məsələdə xüsusi vəziyyətdədir. Onun sıradan çıxması və ya əsərdə müşahidə edildiyi kimi, küsüb getməsi yunanların mövqeyini sarsıdırdı.

Başqa tərəfdən, hər kəs konkret şəxsiyyətdir. Əgər o, ən həzin anda ləyaqətinin qayğısına qalmayacaqsa, ictimai işdə onun fəaliyyətinin mündəricəsi nə ola bilər?!

İndi Axilles həm ictimai işə zərbə vurmamalı, həm də ləyaqətini qorumalıdır. Haqsızlığa cavab verməlidir. Axillesin bu cavabı küsüb öz çadırına çəkilmək kimi öz ifadəsini tapır.

Bu, daha ağılauyğun, optimal, daha idraki cavab ola bilərdimi?!

Axı vəziyyət ölüm-dirim həddindədir. Bu vuruş, daha dərin düşmənçilik, intiqam, qan, xəyanət şəklində də meydana çıxa bilərdi.

Küsmək özü ümumi işə zərbə endirir, lakin başqa variantların hamısından az.

Axilles ən idraki, ən optimal variantdadır. O bunu təkcə götür-qoyla, mülahizələrlə seçməmiş. Axillesin şəxsiyyəti elədir ki, o, hər şeyə ən ali şəkildə impulslar verir.

Bizim qədim Midiya əfsanələrindən uyğun müqayisələr aparmaqla fikrimizi izaha çalışa bilərik.

"Astiaq" əfsanəsində deyilir ki, filan-filan səbəbə görə hökmdar Astiyaq öz qohumu və saray əhlindən olan Harpağın qəlbinə sağalmaz dağ basır. Bir məclisin sonunda onun qabağına üstü örtülü qabda çərəz əvəzinə öz gözəl, yetişməkdə olan sevimli oğlunun qana boyanmış, kəsilmiş başını qoyurlar. Harpaq da vəziyyətə cavab verməli idi. Lakin Harpaq Axilles kimi ölkənin, millətin xatirinə özünü təcrid yolunu tutmur. O, intiqam planlaşdırır və bu işdə də şəxsi imkanlarına yox, xəyanətə əl atır. Nəticədə ölkənin mövqeyi əldən gedir, millət məhkum vəziyyətə düşür. Harpaq Astiyaqa cavab verir. Lakin onunla yanaşı doğma xalqı ayaqlar altına sərməyin hesabına. Əgər tərəflərdən (ikisindən) biri mütləq əsarətdə qalmalıdırsa, bu "pay" kimə düşməlidir? Lakin bu sualın cavabı tarixin ziddiyyətidir. Fakt odur ki, Harpaq haqsızlığa cavab verərkən, intiqam alarkən, bunu milli prinsipi tapdalamaq hesabına başa gətirir.

Lakin insan, millət, bəşəriyyət, haqq, idrak, tərəqqi hər məndəricədə olsa da, heç şeyin, xüsusən də şəxsi məsələlərin muzdu ola bilməz.

Axilles haqsızlığa cavabı, küsməklə məhdudlaşdırır. Amma sonrakı hadisələr göstərir ki, Axilles küsməklə yanaşı doğma xalqının taleyinə də biganə qalmır. Bəlkə də o, özünü küsmüş kimi göstərməyə məcbur idi. O, çadırına çəkilsə də, daima, bu və ya başqa şəkildə hadisələrin gedişi ilə maraqlanır, bu və ya başqa şəkildə məlumat toplamağa çalışır.

Axilles sarsıntı keçirirdi. O, küsmüşdü də. Lakin bu cür küsməyi özünün Aqamemnonla münasibətini tənzimləmək üçün bir taktiki gediş, düzmə kimi də mənalandırmaq olar.

Hadisələrin sonrakı gedişi bizim mənalandırdığımız şeyi doğruldur da...

Dediyimiz kimi, duruma görə Axilles hadisələrə cavab verməyə məcbur olmuşdu. Ən optimal variant isə özünü ictimai gedişlərdən, heç olmasa müəyyən dövr üçün təcrid etmək idi. O, bu cür də yol tutur.

Axilles bu cür yol tutur. Amma bütün diqqəti hadisələrin inkişafını izləməkdə, gözü yolda, qulağı səsdə idi.

Hələ icraçılar Axillesdən qızı aparmağa gələrkən üzüqara durum yaranmışdı. Bu icraçılar qulluq görəvini yerinə yetirirdilər. Lakin icraçılar da insandılar. Və bir də Axilles öz şəxsi keyfiyyətləri ilə nüfuzunun elə bir məqamında idi ki, bu ülviyyətlə dolu əzəmətə kimsə laqeyd qala bilməzdi. İcraçılar görəvlərini yerinə yetirməyə gəlmişdilər. Lakin başlarını qaldırıb Axillesin gözlərinin içinə baxa bilmirdilər.

Duruma Axillesin verdiyi qiymət də, onun icraçılara xitabı da hər şeyi söyləyir.

*"Siz, ey dostlar, siz ey Zevsin, insanların qasidləri!*
*Yaxın gəlin, bütün suçlar sizdə deyil, Atriddədir.*
*Qızı alıb aparmağa o göndərib sizi bura.*
*Get, ey Patrokl, gətir qızı, ver onlara aparsınlar.*
*Ancaq o, pak allahların, yer övladı insanların,*
*Bir də ki, o, ən insafsız hökmdarın hüzurunda,*
*Hər ikiniz şahid olun, – yerdə qalan axeyliləri*
*Bu qırğından qurtarmağa ona lazım olacağam!*
*Bəd niyyətə uyaraq o, ağlasığmaz işlər görür,*
*Əvvəl-axır bilmir, ancaq sahildə son vuruşmada*
*Axeyləri qurtarmağa çarə tapa bilməyəcək".*

*("İliada", səh. 29).*

Axilles başıaşağı dayanmış icraçılara "Siz ey, dostlar" deyə müraciət edir. Bu, onun qəlbinin harasındasa gizlənib qalan bir ülviyyətin hıçqırığı, xitabıdır. Ancaq bundan sonra o, mətləbə keçir, açıq-açığına özünün gərəkliyini nəzərə çarpdırır.

Aqamemnon başçı seçilmişdi. Həlledici səs onda idi. O da kütbeyinliyi, dargözlüyü, heyvanlar təki nəfsinin öhdəsindən gələ biməməsi, xudpəsəndliyi üzündən sıralarda pərən-pərənlik saldı. Bu halın geniş yayılmaması Axillesin mənəvi ucalığı və idrakının gücünə görə mümkün oldu.

Lakin burada nəzəri cəlb edən bir mühüm cəhət var: Allahlar qəhrəman üçün, daha mühüm mükafat vədləri ilə olsa da, Aqamemnona Axillesi təhqirə və ona qarşı haqsızlığa meydan vermişdilər.

Bunu necə başa düşməli, necə izah etməli?

Əslində allahlar Axillesin tərəfindədir. Lakin biz təhlildən allahları çıxarsaq, insanın, bəşərin, "Yaxşı, pis"anlayışı yerində qalır.

Bəşər bir an üçün fərdi güclərdəki fərqə əhəmiyyət verir. Bu şərtlə ki, gücün tətbiq edildiyi nöqtə onun ürəyindən olsun. Onun qiymətləndirdiyi şey idrakın gücü və mənəvi qüdrətdir. Buraya həya, məhəbbət, ədəb, görən göz, eşidən qulaq, danışan dil, zəka, daim artan bilik, təcrübə vasitəsiylə kamala yetmək, əqidə və b.k. daxildir. Bunların əksi olan şeylər pisdir. Amma pillələr var. Biz açıq görürük ki, Axillesin "yaxşı"anlayışına verdiyi cavab şübhə üçün heç bir yer qoymur. Aqamemnon isə bütün üstün cəhətləri ilə pisə meyil edir. Üstəlik onun əqidəsi bəşəri mündəricədən məhrumdur. Bəşəri əqidə nəfsi boğmaq, fərdi keyfiyyətlərdən imtina etmək, bütün fəaliyyəti ictimai işə xidmətə yönəltməkdə ifadə olur. Axilles buna canlı misaldır. Aqamemnonda isə biz gördük ki, onun üçün ictimai amalın önündə nəfsin və təkəbbürün təmin olunması başlanğıcdır. Əgər Axilles də ictimai işə qulluğa qarşı şəxsi ləyaqətini qorumağa məcbur oldusa, buna təkanı da istibdad, – Aqamemnon verdi. Halbuki Axillesin bütün fiziki və mənəvi gücü həm amalın, həm də Aqamemnonun özünün sərəncamında idi. Bir sözlə, Aqamemnonun hədsiz dərəcədə "Mən" deyib bağırmaq ehtirası işlərin qaydasınca gedişini alt-üst elədi.

Az qala belə çıxır ki, istibdad – ağılsızlıq bir şeydir.

Bəs nə üçün allahlar istibdada, ağılsızlığa meydan verdilər? Bu, bəşər tarixi üçün dövlər qurğusunun zəruriliyi, əhəmiyyəti ilə bağlıdır.

Dövlət bəşərin ən böyük hadisələrindən, kəşflərindən biridir. Əgər o çevrilib antidövlət olmasa... Lakin antidövlət özü belə, dövlətsizlikdən üstündür. Ona görə də allahlar, bir an üçün olsa da, Axillesə qarşı Aqamemnonun tərəfində durmağa məcburdurlar. Zira, allahlar Aqamemnonu buraxıb Axillesi hökmdar təyin edə bilməzdilər. İnsanın zəifliyi, tarixin naqisliyi, antibəşəriliyə meydan verməsi tələb edir ki, hadisələrin başında şər dayansın, Aqamemnonlar dayansınlar.

Bunun əvəzində allahlar üçün sevimli və bizdən ötrü üstün olan Axileslərin qismətinə müsibət və xidmət, – yaratmaq ehtirası vermişlər.

Bu şərtlər, tarixin özünün baş-ayaqlığı olmasa idi, allahlar bir an üçün də Axillesi buraxıb Aqamemnonu tutmazdılar. Əgər allahlar an üçün olsa da buna məcburdurlarsa, belə çıxır ki, bəşər həyatında, tarixi hərc-mərclikdə allahdan da böyük olan nəysə varmış!

Axilles Briseidanı – qızı verib ordunu tərk edir. Bunun yunan cəbhəsi üçün nəticəsini sonrakı hadisələrdən asanlıqla müşahidə etmək mümkündür.

Fəaliyyət və əqidə səviyyəli bir məhəbbət, – qız eldən getdikdən sonra Axilles öz aləminə qapılmağa, şəxsiyyətinə vurulan zərbələrdən aldığı yaraların acısını duymağa imkan tapır.

İndi bütün aləm onun əlinin altında idi. Adamlar, dostlar, düşmənlər, doğmalar, vətən, qəriblik, həsrət, cəbhə, döyüşlər, məğlubiyyətlər, qələbələr, qəhqəhələr, hıçqırıqlar, rəqabət, ahəng və s. və i.a. sevgi, munislik, can yanğısı, ülviyyət buna əlavə olunur.

Səndə güc var, bunların hamısını əlində saxlaya bilərsən. Lakin anlaşılmaz bir şey səni məğlub edir, özündən zəifə güzəştə gedir, müflis qalırsan. Herakl – Evrisfey münasibətlərində olduğu kimi...

Axilles öz aləminə qapılır və onu elə bir qüssə, elə bir kədər bürüyür ki, qopardığı fəryad qulaqları batırır, beyin dumanlandıran qışqırığın qopardığı haray fəlakətlərə çatır, tükləri ürpəşdirir.

Bəşərin həyatında nə qədər könül açan səadət, bol-bol nemətlər var?! Həyatın özü, doğuluşu, işıqlı dünya, günəş, nəvaziş, məhəbbət, nəfsi itiləyən dadlı nemətlər, nəfsə hüdudlar qoyan ülviyyətlər, idrak və fəaliyyət... Lakin Axilles faciəsi bir nümunədir. Müsibətlər, faciələr səadəti üstələyir.

Axillesin qüssədən qəlbi sıxılır, partlamaq dərəcəsinə gəlir.

Axilles hönkürür, fəryad qoparır. O, dərdlilər, zəiflər, əlacsızlar təkin anası ilahə Fetidaya müraciət edir.

Axillesin kökü allahlara bağlanırdı.

Hər şeydən əvvəl Axillesin əcdadı allahlar içərisində insanlara ən yaxın olan, sənətkar, bilici, öyrədən, təlim edən və ən mərhəmətli kentavr Xirona gedib çıxırdı.

Yunan əsatirlərində və incəsənətində kentavrlardan adətən yaxşı danışmırlar. Əsasən, orada kentavrlar kəmfürsət, ziyan vurub qaçan, qələbəlikdə təhlükə törədən, xəbislər kimi pinti, pintilər kimi xəbis həyat sürən bir məxluq kimi göstərilir.

Aşağıdan at, yuxarıdan insan olan bu məxluqlar, bəlkə də əsatirlərdə yarımçıqlığı və həfrayi məssəbliyi simvolə edirlər. Lakin bu cür yarımçığı həfrayiməssəb kütlənin içərisindən Xiron kimi ülviyyət nümunəsi peyda olursa, yaxşı və pis haqqında daha diqqətlilik gərəkdir. Məhz ona görə mütləq pis yoxdur. Hər şeyin mayasında bir ülviyyət də gizlənmiş.

Axillesin kökü Xirona bağlansa da artıq o təmizlənmiş, kentavr deyil. Lakin o, haradasa ulu babası kentavr Xirona varislik edir. Əgər Xiron öz humanizmi, mərhəməti ilə fərqlənirdisə, Axillesdə fədakarlıq, qəhrəmanlıq fövqə qalxır. Həm də o atlar kimi sürətlə qaçır, itiayaqlıdır.

Biz bilirik ki, Axilles itiayaqlıdır. İnsanlar içərisində ən sürətlə qaçan odur. Bəlkə də bu qəhrəmanlığın, bütün işlərdə, bütün səmtlərdə qələbələrin sürətə bağlılığına bir işarədir. Elmin inkişafı, texniki tərəqqi isə sürəti ilahi bir səviyyəyə çatdırır.

Biz yenə də Yunan mədəniyyətinin bəşər tarixini fikrən qabaqladığını görürük.

Kentavrlar aşağıdan at, dördayaqlı olduğuna görə sürətdə fərqlənməlidir. Axillesdə ulu babası Kentavr Xirona xas olan bu cəhət də özünü göstərir.

Biz haradasa işarə vurmuşduq ki, Axilles Zevsin öz oğlu Heraklla da bağlanır.

Herakl Xirondan yaxşılıq görmüşdü. Xiron onu həm yetişdirib tərbiyələndirmiş, həm də Herklın qarşısında Prometeyi azad etmək kimi bir vəzifə dayanmışdı. Lakin bunun üçün bir çox şərtlərdən başqa, Prometeyin azadlığı naminə həyatını güzəştə gedən, könüllü surətdə o dünyaya keçməyə razılıq verən başqa birisi lazım idi. Xiron isə naqəfil surətdə öz yetişdirməsi Herakldan yara almışdı.

Xiron allah olduğuna görə ölə bilməzdi. Aldığı yaranın əzablarına isə dözmürdü.

Herakl Prometeyin azad olması ilə bağlı şərti müəllimlərinə deyir. Xiron şərtlə razılaşır.

Yunan əsatirlərindəki bu vəziyyətdə yenə iki fikir simvollaşır.

Xiron xidmət göstərdiyi səmtdən sağalmaz yara almışdı.

Xiron xidmət göstərmişdi. Həmin səmtdən də yara almışdı. Xəsarət gətirən şəxs isə günahkar deyildi.

Deməli, dünyaya xidmət göstərən şəxs nəinki mükafat gözləməməlidir, həm də o, hər cür fədakarlığa, məhrumiyyətə, cəzaya hazır olmalıdır. Xidmətin mükafatı xidmətin özündən yüksək ola bilməz. Başqa sözlə, ən böyük mükafat elə xidmətin özüdür.

Başqa tərəfdən allahlar arasında kentavrların kökü kəsilməlidir. Zira, allahlar arasında kentavr qalsa idi, onu insanların içərisində təmizləmək olmazdı.

İnsanlar arasında yarımçıqlığın, natamlığın kökü kəsilməli idi. Ona görə, nə qədər sənətkar, mərhəmətli olsa da, Xiron bu və ya başqa münasibətlə ölməli idi.

Lakin Xiron xidmət göstərmişdi. O, unudulmamalı idi. Xironun xatirəsini əziz tutmaq, hörmətləndirmək üçün Allahlar, Heraklın təklifi ilə, ilahə Fetidanı insanlar arasından seçib Xironun nəvəsi Peleye verirlər. bu izdivacdan da Axilles dünyaya gəlir.

Peley oğlu Axilles!

Zevsin oğlu Herakl Axillesin ata-anasının izdivacında yaxından iştirak etmişdi.

Axillesin kökü allahlara bağlanırdı. O, ilahə Fetidanın öz oğlu idi.

Nəhayət, Axilles baş allah Zevsin sevimlisidir də.

Zevs nə üçün Axillesi sevirdi?

Axilles ictimai görəvlər qarşısında qalarkən aldığı yaralara və izzəti-nəfsinin təhqir olunmasına dözürdü. Lakin o, bunları başından atıb, bir an üçün öz aləminə qapılarkən fəlakəti hiss etdi, haqsızlığın acısını duymağa başladı.

Axilles inildəyirdi.

Güclü, vüqarlı kişinin, qəhrəman fəaliyyəti başa gətirən şəxsin, hünərin inildəməsi ağır, tükləri ürpədən bir hadisədir.

İşin ən dərdli cəhəti o idi ki, Axilles daha güclü olduğu halda, zülmə, haqsızlığa uğramışdı. Çünki o, naqisliyin törətdiyi bir şeyə, istibdada ilişmişdi.

Axilles inildəyərkən kobud aləmə qarşı zərif dünyanı – anası ilahə Fetidanı imdada çağırır:

*"Əziz anam! Sən ki məni doğubsan çox ömrü qısa,*
*İndi, bir bax, məhrum oldum ən cüzi bir nemətdən də*
*Hökmürəvan Aqamemnon ən qəddar bir ədavətlə*
*Mənə çatan qəniməti alıb məğmun etdi məni!"*

*(orada, səh 30).*

Burada Axilles tamamilə öz fərdi həyatına qapılıb. Həm də haqlı surətdə, ədalətli şəkildə.

O nə deyir? Deyir ki, onsuz da insanın idraki qüvvəsi, zamanı və məkanı qavrama imkanına görə ömrü qısadır. İnsan bu əlacsız dərdi hiss edir. Lakin işə bax ki, tale məni fərqləndirmiş, məni güclü və qəlbi təmiz, mənəviyyatca uca doğmuş. Amma tale həmin mükafatla yanaşı mənim ömrümü daha qısa hədlərlə məhdudlaşdırmış. Axilles

özü də deyir, “məni doğubsan çox ömrü qısa”. Bu məhdud həyat ümuminsanın ömrüqısalığı mənasını daşımır. Bu həmin qısa həyatdan qırılıb qalan ömürdür.

Axilles bütövlükdə ictimi xidmət, amal üçün dünyaya gəlmiş. Lakin həyat təkrar olunmur. Fədakarlığın hüdudu nə qədər geniş olsa da, ən ülvi insan belə, heç olmasa, bir an üçün fərdiyyətinə qayıtmalı, səadət qapısını açıb içəriyə baxmalı, dadmalıdır ki, tamamilə kamsız qalmasın. Bunsuz amal da, ülviyyət də solğunlaşardı.

Axillesin qopardığı fəryad haqsızlığa uğraması ilə yanaşı ömürdən qopan son səadət qırıntılarının da əldən getməsi ilə aydınlaşır.

Əlbəttə, Axilles səadəti, bir an üçün belə, hər cür şərtlərlə qəbul etmirdi (biz bunu bir qədər sonra müşahidə edəcəyik). Onun üçün bu bir anın səadəti özü də prinsipdir, əqidədir. Əqidə səviyyəsinə yüksəlməyən səadət Axillesin xörəyi deyildi. Burada qəhrəmanın fərdi səadəti, təhqirdən və məhrumiyyətdən doğan fərdi fəryadı, hıçqırıqları, hönkürtüləri də bəşəri mündəricə daşıyır.

Bəşəriyyətin xeyirə nisbətən şəri belə asanlıqla həzm etməsinin eybəcər yekunu bura gedib çıxır. Ora ki, Axilles kimi haqqını götürməyə və təqdirə layiq qəhrəman özü etiraf edir ki, “məni məğmun etdilər”.

Əzəmətli insanın qaldırdığı acınacaqlı təslim bayrağı!

Fetida, dəryalar yavrusu, Poseydonun öz qızı, Axillesin anası övladın harayına gəlir, onun göz yaşlarının, fəryadının şahidi olur, yalvarışlarını eşidir.

Bu çox kədərli ana-bala görüşü idi. Hər halda Axillesin taleyində bir faciə gizlənmişdi. Onun atası Yer, anası isə Göylər yavrusu idi. Fetidanın məkanı sulara bağlansa da, bu onun atasına məxsus sərəncamın bəhrəsi idi. Əslində isə Fetida ilahə, ölməz olduğuna görə göylərə məxsusdur.

Deməli, Axillesin taleyi Göylərlə yeri birləşdirir, belə bir vəhdətdən irəli gəlirdi. Bu, valideyn-övlad həyat tərzi əsil isti ocaqdan, ardıcıl ailə həyatından ibarət ola bilməzdi...

Lakin bu hərc-mərclikdə göylərlə yerlərin bir nəfərin simasında vəhdət tapması asanlıqla başa gələrdimi?!

Ona görə də hər cür şəraitdə Fetida ilə Axillesin bu ana-bala görüşünü şirin bir kədər bürüməliydi. Bir halda ki, acınacaqlı, könül bulandıran bir durum da yaranmış.

Fetida oğluna vədlər verib ayrılır. İlahə birbaşa baş allah Zevsin hüzuruna daxil olur.

Bəzən bir adamın və ya bir xalqın, ya bütöv bəşəriyyətin taleyində elə mənzərə yaranır ki, "bu müşkülün həlli allaha qalıb" deyərlər. Biz həmin vəziyyəti indi Axillesin taleyində görürük.

Zevslə Fetidanın arasında müşkül bir işin xatirəsi var idi.

Həris, doymaq bilməyən, şorgöz Zevs Fetidaya sahib olmaq istəyirdi. Lakin tale, allahdan böyük allah, yəni daha gözə görünməz allah bunu Zevsə qadağan etdi. Zevs hakimiyyət xatirinə Fetidadan əl götürdü. Lakin ürəyində bir yanğı qaldı.

İndi Fetida ikinci bir müşkül xahişi ilə Zevsin yanına gəlir.

Bəli, Axilles taleyindəki kələ-kötürlük o qədərdir ki, bunu həll eləmək allahın özü üçün də çətindir.

Fetida Zevsdən xahiş ediridi ki, Axillesin qədir-qiymətinin üzə çıxması üçün Aqamemnonu və onun qövmünü, yunanları troyalılara qarşı bərkə çək.

Fetida Zevsin dizlərini qucmuş, yalvarır və mütləq razılıq cavabı almağa çalışırdı.

İnsanın sevdiyi adama müqəddəs bir güzəşti müşahidə edilir. Bu şərtlə ki, tələbdə qəbahət və haqsızlıq olmasın.

Lakin burada bir nəfər – Axilles, orada isə bütöv bir cəbhə, xalq – yunanlar var. Zevs bərkə düşür, hələ xalq taleyini həll etmək, həm də tamamilə yunanların tərəfində dayanan arvadı Hera ilə münasibətləri nizamlamaq məsələsi meydana çıxır.

Müşkülün məğzi bundadır.

Fetidanın yalvarışı, xahişi qarşısında Zevs bir an üçün müvazinətini itirir:

*"Bu pis işdir, Hera ilə aramızı vurursan sən.*
*Acı-acı deyinərək məni təngə gətirəcək.*
*Onsuz da o, allahların hüzurunda deyir ki, mən –*
*Guya kömək eyləyirəm troyalı qoşunlara.*
*İndi çıx get, yoxsa gəlib burda görər səni...*
*Yaxşı, sənin dediyini düzəltməyə çalışaram".*

*(Orada, səh. 34-35).*

Hadisə isə Heranın gözündən qaçmamışdı. Ona görə də Fetida aradan çıxan təki o, öz qadın tərzində ərinin üstünə qolaylanır.

Homer onun qadınlığına və gözəlliyinə işarəylə "əli dümağ", ya "inəkgözlü Hera" epitetləri ilə təqdim edir.

Ümumiyyətlə, Homer dastanlarında Hera üçün "əli dümağ" epiteti baş alıb gedir.

Biz qadın gözəlliyi ilə bağlı yanaq, üz allıq, bəyazlıq, qaş, göz, saç, yeriş, duruş, dil, dodaq, qamət və s. əlamətlərlə vəsflərə şahidik. Əllərin ağlığına, şəffaflığına da müəyyən işarələr ola bilər. Lakin Heranın əlinin ağlığından burada xüsusi vurğu ilə danışılır. Bu qadınlığa və qadın gözəlliyinə elə bir əlamətdir ki, cazibədarlığın fövqündə dayanmalı, allahlara məxsusluğa işarə olmalıdır. "İnəkgözlülük" də həmçinin.

"Öküz kimi gözünü bərəltmə" hiddətində bir həqarət də var. Öküz və ya inək isə paralel surətdə gözə gəlməlidir. Lakin işin müsbət yönündə bu qədər aydın vurğu ilə danışılmasında yenə də fərq və Allaha məxsus fikir nəzərə gəlməlidir.

Həmin "öküzgözlü", "ağəlli" Hera vəziyyəti duymalı ki, kinayələrlə ərinə deyinir:

*"Eh hiyləgər, yenə kimdi orda sənlə söhbət edən?*
*Yaman xoşun vardır sənin məndən gizli iş görməyə.*
*(orada , səh. 35).*

Zevs bu mühüm nöqtədə gördükdə ki, daha yeri deyil, arvadı ilə açıq danışmağa başlayır. Söyləyir, ey mənə hamıdan daha yaxın adam, bil ki, fanilər və ya ölməzlər arasından sirrimdən bir kəsin bilməsi lazım gələcəksə, sən birinci olacaqsan. Lakin müəyyən şeylər var ki, ona heç kəsin ağlı girmir. Bu zaman mən özümə məxsus fikri izahlarla heç kəsə çatdıra bilmirəm. Adamlar müəyyən hadisələrin baş verdiyini anlayır. Lakin işin mahiyyətinə girə bilmədiklərinə və müdaxiləyə cəhd göstədiklərinə görə işi korlayır, ayağa dolaşırlar. Məni halətimdən çıxartmağa və cəzaya əl atmağıma cəhd göstərməyin.

Zevs yunanların, yoxsa troyalıların tərəfindədir? Bunu şeylərin zahiri görünüşünə görə, adi ağılla başa düşmək çətindir. Zevsin işlərini isə çox vaxt zahiri əlamətlər üzrə ilkin ağılla mənalandırmağa çalışırlar.

Zevs Allahdır. Ona yunanların və ya troyalıların tərəfində dayanmaq lazım deyil. Ona lazımdır ki, işlərin yekununda bir yaradıcılıq, bir hünər başa gəlsin. Həmin nöqtədə isə ər ilə arvad vahid fikrə gələ bilmədiyindən Hera narahatlıqla deyir:

*“Qorxuram ki, Axillesə kömək edib, axeyləri qıracaqsan”*

*(Orada, səh. 36).*

Zevs arvadındakı bu hissiyyata, ərinin ruhuna bu qədər girməsinə, duyuq düşməsinə heyrətini bildirir. Sonra hədələrlə Heraya xəbərdarlıq edir ki, baş allahın işinə qarışmasın, ziyan çəkər. Amma heyrətdən, məftunluqdan sonra gələn xəbərdarlıq, hədə-qorxu öz qüvvəsini zəiflətməyə bilməz.

Burada qəribə tərzdə bir sıra incəliklər özünü göstərir. Hadisələrin gedişinə açıq şəkildə üstün gələrək və ya düzmələr şəklində qadının veridyi yön, ər hökmü, qadınına qarşı kişi zəifliyi, hadisələr gedişinin dolanbaclığı və tamlığı, həm də natamamlığı və s. hamısı meydana çıxır.

Deyirlər səadət saçan, əxlaqi və kamil ailədə məhəbbət əsasında iki bir olur. Lakin biz burada, hətta allahların təşkil elədiyi ailədə də bunu bütöv şəkildə görmürük.

Hera bir qadın kimi özünəməxsus sirri daim gizli saxlamağa çalışır, onu özündən asılı olan bütün anlarda heç bir zaman ərinə vermir. Həm də bu vasitə ilə o, ərinə üstünlük etməyə, bu yolla ərinin əli ilə öz məqsədlərinə çatmağa çalışır.

Zevs də özünü elə göstərir ki, guya Hera onun ortağıdır. O, öz işlərində arvadının iştirakını nəzərə alır, onunla məşvərətə boy verir, hüququ və ləyaqəti təmin edilir. Əslində biz Zevsi həm ailədə, həm də ailədən qıraq işlərdə hər vasitəylə öz ər üstünlüyünü saxlamağa çalışdığını və buna nail olduğunu görürük.

Əgər ailədə qadın qəlbinin ən həzin hissəsi ərin üzünə bağlıdırsa, ər hökmünə, üstünlüyünə də ehtiyac hiss edilirsə, burada tamlıqdan söhbət gedə bilməz.

Ailədə bu cür tamlıq müşahidə edilmirsə, əsil səadət xəyalına düşmək başa gəlməz.

Hələ bu allahlara məxsus ailədir. Əsatirlərdə!

Əsil həyatda isə biz bütün səmtlərdən ifrat acınacaqlı vəziyyətlə üzləşirik.

Ailə adi intim münasibətlərin məcmuu deyil. Bu olsa-olsa ailədə ünsürdür. Qadın uzana-uzana birinə can atır və ya ona arvad olmağa razılıq verir. Lakin qəlbinin qapılarını intixab etdiyi şəxsə bağlayırsa, daha burada intibaha boylanmağa dəyərmi?!

Ən pis münasibətlərdə belə, heç kəs ər-arvad qədər bir-birilərini hiss edə bilməz. Arvad hiss edir və etimad da göstərirsə, burada heysiyyatda da gözübağlılığa yer qoya bilər.

Ailə tamının pozulması kişilərdə daha artıq müşahidə olunur. Kişi sevərkən özünü unudur, arzularını kimdə isə birində tapır. İntixabda isə ən azı, seçdiyi adamı öz həyatına ortaq edir. Lakin ümumi halda, kişi həyatda özünə düşən payı qıraqda axtarmağa başlayır. Əks halda, nəsibsizlik təsəvvürü və fərsizlik yükü daşıdığı gümanına gedir.

Lakin ər, səadəti tamamlamaq üçün ailədən qırağa boylanırsa, burada bütövlükdən söhbət gedə bilməz.

Bəşərin həyatında heç bir zaman çətin problem müşahidə edilməmiş. Görünür, ailə bəşərin qətiyyətlə həllinə çalışdığı son problem olacaq...

Çünki ailə ikinin birə çevrilməsi, tamlaşması deyən sözdür. Bu isə başa gəlmir.

Həyatda çata bilmədiyini bəşər arzu, idrak, sənət vasitəsiylə başa gətirir. Belə arzunun başa gətirdiyi ən böyük ideya Leyli ilə Məcnun əhvalatıdır.

Lakin orada da bütövlük tam olmadığından ən mühüm anda Məcnun Leylini buraxıb qaçır. Çünki Məcnun öz Leyli gümanında yanıldığını görür. Hətta Puşkin də heyrətlənib demişdir ki, Tatyana Onegindən əli çıxdıqdan sonra ruhuna yad olan bir adama ərə gedib. Halbuki Onegin bunu edə bilmirdi.

Leyli qızların ən yaxşısı idi. Lakin Məcnun onunla bütövlüyə çata biləcəyi gümanında yanıldığını görür. Çünki Məcnunun və Leylinin səadət, məhəbbət, ülviyyət anlayışları başqa-başqa idi.

Uzun müsibətdən sonra Leyli ilə Məcnun qovuşurlar. Lal bir səadət Məcnun üçün hər şey idi. Məcnun hiss edirdi ki, Leyli ona məxsusdur, onun yanındadır. Məcnun məhəbbətin, ülviyyətin, səadətin haləsinə bürünmüşdü. Leyli isə ətəyini Məcnuna göstərib deyir ki, ömrü boyu məhəbbətdən danışmısan, bəs nə üçün səadətə cəhd göstərmirsən?

Məcnun anı əbədiyyətə çevirirdi. Leyli isə burada onu, əbədiyyəti anın bataqlığına qərq etməyə çağırırdı.

Ailə ikinin bir olmasıdır. O isə hələ bu günə qədər müşahidə edilmir.

Bu baş-ayaqlıq isə hər şeydən artıq Zevs-Hera qolunda müşahidə edilir. Bütövlüyün pozulmasının ən mühüm anı ilə isə indicə üzləşdik.

Ər ilə arvad arasında münasibətlər o qədər kəskinləşir ki, övlad – Zevslə Heranın öz oğulları, sənətkar, dəmirçi Hefest, o Hefest ki, Prometey ondan odu oğurlayıb insanlara gətirmişdi, – işə qarışır. O, vəziyyəti yumşaltmaq üçün atasına yox, anasına ümid bağlayır. Ona görə də anasına müraciətlə deyir ki,

*”Ana, özün çox bilsən də, yenə sənə yalvarıram,*
*Gəl atamla xoş rəftar et, hirsləndirmə onu nahaq,*
*Bais olma, pozulmasın bizim gözəl şən ziyafət...”*

*(Orada, səh. 36).*

Bu gün insanın bəşəri mündəricəsi zəifdir. O, xırda hisslərinin qulu olub qalıb. İnsan gözü dumanlı və qorxaqdır. Xəbis duyğular ünsiyyət ehtiyacını, təkəbbür məhəbbəti üstələyib. Ən ali nemətlər, idrak, ləyaqət, mənəviyyat, ədəb, əxlaq, heyvani düşüncələrin, xırda ehtiyacların tozu, zibilliyi altında qalıb. Tarix naqisliklər seylabının dolanbaclarından sürünüb keçir. O, öz-özünü əsarət altına almış, ictimai təzyiqin, aldatmaların, təcavüzün – zorlamaların, təhqirin, qarşı-qarşıya durmaların nəticəsi altnda əzilir, bəzən özü üçün tam ölüm vəziyyəti yaradır. O, özünü o şəklə salıb ki, ağlının və idrakının yaratdığı nemətlərdən, möcüzələrdən insancasına bəhrələnə bilmir.

Pis həyat ülviyyəti, əxlqı, məhəbbəti və s. boğur. Pis həyat qəddarlığa, təkəbbürə, nəfsbazlığa, ehtirasa, şəhvətə meydan verir. Bütün bunlara və daim izaha çalışdığımız bir sıra səbəblərə görə ailədə ikinin bir olması başa gəlmir, əsil səadət, ülviyyət əldə edilmir. Orada, ailədə intim tələblər və gündəlik güzəran mütləq zərurətə çevrilir.

Amma ailənin bəşəri sütunu möhkəmdir. O, hətta bu vəziyyətdə belə övlad kimi heç bir şeylə əvəz edilə bilməyəcək bir məhsul verir.

Beləliklə, övlad ər ilə arvad arasında, nadir hallarda, çox çətinliklə qırıla bilən bir körpü yaradır.

İndi tarix xeyiri buraxıb şəri asanlıqla həzm edərkən və Axilles problemi yaradarkən, Zevslə Hera arasında ixtilaf baş qaldırarkən övlad həmin körpü vəzifəsini yerinə yetirdi.

Övladın körpü vəzifəsini necə ifadə etməsini və Şərq tarixində buraxdığı izin mənzərəsini başqa yöndə, daha qətiyyətlə, M.S.Ordubadinin yaradıcılığını bilavasitə araşdırarkən bir daha görəcəyik. İndi isə biz şəri asanlıqla həzm edən, Axillessiz dünyanın özünü nə şəklə salması ilə ardıcıl tanış ola bilərik.

Axilles aradan çıxanda nəinki insanların, hətta allahların da əli-qolu açılır, bununla da tam bir qəflət dünyasının hökmranlığı başlayır. Müsibətlər tədriclə şahə qalxır.

Axillessiz dünya yuxulu dünya kimi məna edilir. Dünya yuxuludur, antidünya isə ayıq.

İstibdad özünü yuxu, qəflət vasitəsiylə təsdiqə çalışır. Zevs işləri sahmana salmaq üçün ilkin vasitə kimi Aqamemnona ağır bir yuxu göndərməkdən başlayır.

Bu boyda dünyanın səlahiyyət cilovlarını əlində toplayan Aqamemnon isə Axillesi küsdürübdür. İndi də dərin bir yuxunun ağuşuna qərq olur. Bu yuxunu Allah – Zevs özü göndərmişdi. Bu da adi yox, ikiqat yuxu idi. Belə ki, Zevs Aqamemnonu yuxu ilahəsinin əli ilə dərin uyqulara qərq eləmişdi, həm də aldadıcı vədlərlə uğursuz bir savaşa, hüdudu görünməyən bir qırğına təhrik edirdi.

Zevsin həmin ilahəyə tapşırığı belədir:

*"Ey yuxu! Get axeylilərin gəmiləri qarşısında,*
*Düşərgədə səssizcə gir Aqamemnon yatan yerə.*
*Tapşırdığım bu sözləri eynən yetir ona bütün.*
*De ki, bütün axeyləri tez savaşa hazırlasın.*
*De ki, indi Troyanı asanlıqla ala bilər,*
*Ölməzlərin arasında bir ixtilaf yoxdur daha,*
*Hera xahiş-minnət ilə yumşaltmışdır hamısını*
*Fəlakətlər bürümüşdür Troyanın üzərini.*

*(Orada, səh. 39-40).*

Bu, qəflətin ikiqat olmasındandır ki, həm gözlər yumulub, həm də düşmənin zəifliyi, özünün gücü, saxta qələbələri haqqında yalan vədlər verir. Bu yalan o qədər mükəmməl uydurulmuş, o qədər şirin-şirin tüllərə bürünmüş ki, ayılan təki Aqamemnon yuxunun yönləndirdiyi səmtdən işə başlayır.

O, ağsaqqalları toplayıb bir məşvərət aparır, xalqla isə başqa. İşə bax ki, Nestor kimi müdrik, qocaman, qəhrəman bir ər də Aqamemnonun qəflət yuxusunun şirnikdirici yalanına uyur. Bizcə, Axilles belə tora düşməzdi.

Axilles bəşəriyyəti təmsil edir. Bəşəriyyəti isə fiziki və mənəvi güclə, qəhrəmani hünərlə, dünyanı araşdıran idrakla təmsil edirlər.

Axillesdə bunlardan təmizlik, güc, mərdlik və qəhrəmani hünər müşahidə edilir. Təhlil isə nadir hallarda özünü büruzə verir.

Axilleslərin başqa prototiplərindən Hamlet isə məhz bu cəhətdən, dünyanı təhlil yönündə fərqlənir.

Adi halda Allah fikri qarşısıalınmazdır. Lakin Hamlet də ona görə Hamletdir ki, yalan hətta allahların əli ilə ayaq açdıqda da aldanmır. Nestor özü tora düşdüsə, əgər Hamletlə Axilles bu və ya başqa şəkildə bir-birilərinin prototipidirsə, deməli, Axilles tora düşməzdi.

Zevs bir nəfərə, Axillesə kömək naminə, ona haqq qazandırmaq üçün Aqamemnonu, bütöv qövmü, kütlələri tora salır, qırğına sürükləyir.

Biz demişdik ki, hər cür allah ideyası ziddiyyətlidir. Məsələn, o necə allah ideyasıdır ki, bir nəfərin naminə dünyanı fəlakətə sürükləyir, özülü ayaqlarının altından götürür? Lakin bu bütöv dünya hələ bundan əvvəl xeyrə nisbətən şəri daha asanlıqla həzm etmişdi. Zira, bu gediş özü də allahın nəzarətindən qıraqda qala bilərdimi? Allah elə edə bilərdimi ki, bu başdan xeyrin təntənəsi bərqərar olsun?!

Lakin bu yolla dilemmanın sonuna çatmaq mümkün deyil. Fakt odur ki, bəşəriyyət xeyirə qarşı şəri daha asanlıqla həzm etdi. Bu, allah ideyasının ziddiyyəti idi. İndi də bir nəfərin, amma daha burada xeyirin naminə bütöv dünya, şərlə qaynayıb-qarışan aləm qırğına verilir. Bu da allah ideyasının ziddiyyətidir.

Lakin üst-üstə qalanan bu ziddiyyətlər allah ideyasının bütövlüyünü qoruyur. Burada son an üçün xeyirin bütövlüyü bərqərar olur.

Homerin təsvirində ölümə can atan saysız-hesabsız insanların dalğasından gözümüz qaralır:

*...Qoşunlar da toplaşmışdı.*
*Dağlardakı kahalardan yığın-yığın uçub gələn,*
*Yazda üzüm tənəkləri üzərində vızıldaşan,*
*Ordan-burdan tökülüşən arılartək, hər bir yandan,*
*Dərin, gömgöy liman boyu gəmilərdən, düşərgədən*
*Say-hesabsız qəbilələr dəstələrlə, axın-axın*
*Axışırdı camaatın yığıncağı olan yerə...*
*Hamı gəlib yığışmışdı, qaynayırdı gur yığıncaq.*
*Adamların altında yer inləyirdi ağırlıqdan,*
*Yeri-göyü titrədirdi coşub-daşan çığır-bağır.*
*Aqamemnon qalxdı bu dəm, əlində də zərli əsa*
*Hefest xeyli zəhmət ilə qayırmışdı bu əsanı.*

*Ulu hakim Zevsə təqdim eləmişdi əvvəl onu,*
*Zevs əsanı arqovuran Hermesə lütf eləmişdi,*
*Hermes vermiş mərd Pelopsa, Pelops Atrey hökmdarı,*
*O da vermiş Fiyest adlı varlı maldar bir dostuna –*
*Fiyest isə Arqos ilə adalara hökm etməkçün*
*Bu əsanı Aqamemnon Atrendə bəxş etmişdi".*

*(Orada, səh. 42).*

Homer sənətini, bu bitkin, bütöv aləmi bu və ya başqa səmtdən tərifləmək onun üzərinə kölgə salardı. Bütövlükdə Homer məhsulu hər şey üçün bir nümunədir. Təfərrüata girmək lazım gələrsə bu saysız-hesabsızdır. Bunlardan biri də bədii bənzətmələr, müqayisələrdir.

Bəzi dəyərsiz qələm çalanlar bənzətmə məharətinə uyub, dəridən-qabıqdan çıxır, göz də qamaşdıra bilirlər. Əlbəttə, hissin, idrakın dayaz olduğu yerlərdə. Homerlərdə isə bənzətmələr, bədii müqayisələr dünya əlamətlərini, dünyanın sirlərini lay-lay bizim gözümüzdə açır, aləmi mənalı dərketmə işinə kömək göstərir.

Homer yaradıcılığında bu cəhəti əlahiddə izləmək mümkündür. Bu istiqamətdə gedənlər bütöv bir bənzətmələr, müqayisələr dəryasına qərq olarlar. Lakin biz müəyyən bir fikri əsaslandırmaq naminə Homerə müraciət etmişik. Ona görə də bənzətmə, müqayisə faktına üzləşdiyimiz durumu diqqətə salmaqla yetərlənəcəyik.

Homerə lazımdır ki, yunan ordusunun çoxluğunu gözümüzdə canlandırsın. O, hələ yunan qoşununun sayına varmamış dərhal bənzətməyə gedərək söyləyir ki, bu, yaz vaxtı dağlardakı kahalardan üzüm üstə yığın-yığın uçub gələn arılara, arı ailələrinə bənzəyirdi.

Gözümüz qabağında dəstə-dəstə qaynaşan, vız-vız vızıldaşan, həşarat dəryası canlanır. L.N.Tolstoy da Borodino döyüşü zamanı qoşunların yeriməsini, hərəkətini, dəstə-dəstə dalğalanmasını belə təsvir edirdi.

İnsanlar pis bir məqsədi (fərqi yoxdur, ixtiyari, ya qeyri-ixtiyari) həyata keçirmək üçün bir yerə o qədər toplaşır, qaynayıb-daşır, haray-həşir, bağırışma salır ki, daha o insanlıqdan çıxıb həşarat timsalında qalır.

Homer deyir ki, bir yerə toplaşan insanların ağırlığından yer inildəyirdi. Lakin yeri ağırlığı ilə inildədən insan kütləsi, bu bir yerə toplaşan insanların sayı nə qədər olmalıdır ki, yeri inildətsin?!

Homer bənzətmələrinin, Homer müqayisələrinin gücü bundadır!

Bəşəriyyət özünü pis günə qoymuş. Onlar dəstə-dəstə qaynayıb-daşır, sürüyür, yürüyür, qırğına doğru.

Bəşər tarixini bir an üçün gözümüz qarşısında canlandırarkən acınacaqlı bir mənzərənin şahidi oluruq.

Deyirlər, bütün xalqlar, eynilə onların dilləri də, mənşəcə yad bir kökə bağlıdır. Xalqların, onların dillərinin də sonradan parçalanması, qruplaşması, yenidən çarpazlaşması, yeni-yeni çarpazlaşması, yeni-yeni tayfaların, dilləri bu və ya başqa şəkildə təşəkkül tapması sonranın işidir. Burada bir yerdən başqa səmtə keçmək, yenidən məskunlaşmaq, məskunlaşma və yenidən başqa yerə keçmək başlanğıc üçün əsas rol oynamış. Sonralar çapqın, döyüşlər, çarpışmalar, müharibələr, hərci-hərciliyi artırmış, istila prinsipində ifrata vardırmış. İstila dünyanı çalxalayır, qan və pərakəndəliyə aparıb çıxarırdı. İstilada bir yerə toplama zahiridir. Əslində o parçalayır və istilanı yaradan xalq bu pərən-pərən dünyanın içinə hopub qalırdı. Daima parçalanma – toplanma, qalaqlanma, cılızlaşma, peyvəndləşmə və s.

Deyirlər, ibtidai assosiativ yaşayış tərzində qəbilə daxilində bir ahəng varmış. Burada yalnız düşmən qəbilələr arasında didib-parçalanma hökm sürürdü. Qəbilələrin arasını vuran amil isə məskunlaşma, maldarlıq, ov yerləri uğrunda mübarizə, çapqın döyüşləri idi. Bunların qohumlaşması və dostlaşması təsadüfi xarakter daşıyırdı. Qəbilə daxilində ahəngin pozulması istisna kimi müşahidə edilirdi.

Cəmiyyətin ibtidai assosiativ yaşayış tərzi pozulan təki hərci-hərclik ikiləşib ifrata vardı. Mənafe mübarizəsi və xudpəsəndlikdən gələn keyfiyyətlər daxili didib-parçalayırdı. Bir tayfa, bir xalq daxilində isə o qədər iqtisadi və inzibati mərkəzlər yaranırdı ki, bu qövmü bütöv şəkildə təsəvvürə gətirmək işi çətinləşir. Bu iqtisadi və inzibati vahidlər yad xalqlar təki rəqabət, mübarizə aparır, saysız müharibələr çaxnaşma salır, qırır və dağıdırdı.

Şərqdə bəyliklər, xanlıqlar, Qərbdə qraflıqlar, knyazlıqlar arasında durum belə idi. Bu durum həm Şərqdə, həm Qərbdə hələ lap dünənə, XVIII əsrə qədər sürünüb gəlmişdi.

Bu gün millətlər bu daxili çeynəşmədən əsasən xilas olmuş. Hətta ayrı-ayrı xalqların arasındakı döyüşlər belə, dünya hadisəsi kimi özünü büruzə verir.

Vaxtı ilə xalqlar daxilində müşahidə edilən qarmaqarışıqlıq indi bəşər həyatında müşahidə olunur. Hətta bu özü də əsrin əvvəlindəki şəkildə deyil. Məsələn, Avropada Lüksemburq, İslandiya, Belçika,

Hollandiya, Danimarka kimi ölkələr otuz ildən də artıqdır ki, güclü qoşunların qapazını görmədən, zağasını dadmadan keçinirlər.

Təkcə bu fakt onu göstərir ki, bəşəriyyət xalq daxilində olduğu kimi, millətlər, beynəlxalq qruplaşmalar, cəbhələr arasındakı çarpışmalardan da təmizlənəcək. Kamilləşmə müəyyən həddə çatandan sonra.

İndi çaxnaşma ehtimalı ayrıca xalqlar yox, beynəlxalq qruplaşmalar əsasında üz-üzə dayanır. Buraya müxtəlif ictimai sistem deyilən şeydən başqa, ayrıca bağlaşmalar da daxildir. Çinin SSRİ və Vyetnamla üzləşməsi, Pakistanın Hindistandan ötüb Çinlə dilbir olması, Hindistanın Amerikaya nisbətən SSRİ ilə bağlaşmalara (sazişlərə) daha artıq yaxınlaşması mənzərəni mürəkkəbləşdirir.

Elm vəd etmişdi ki, dünya sosializmə qədəm qoyduqda sinfi və milli problemlər, eynilə müharibə müşkülü də öz həllini tapacaqdır. Zira, Çin-SSRİ, Vyetnam-Çili durumu yaranıb. Burada sosializmin nəzəri və elmi cəhətdən hərəkəti bu cür başa düşməsinin, anlamada səviyyələrin müxtəlifliyi həlledici arqument deyil. Burada mənafe mübarizəsi, siyasətbazlıq baş alıb gedir.

Təkrar edirik, deyirlər, yeni sistem deyilən cəmiyyətin yaşayış tərzi, beynəlxalq münasibətlərdə bəşəri müşkülləri açmalıdır. Lakin bu yeni sistem yolun lap başlanğıcındadır və o haraya qədər gedib çıxacaq, öz gedişində nələr göstərəcəyini indi qətiyyətlə söyləmək çətindir.

Hər halda, indi ayrı-ayrı xalqlar deyil, cəbhələr üz-üzə dayanmış, dünyanı ölümə sürükləyir.

Öncə belə göründü ki, çağdaş hərbi maşın sonra heç kəsə qələbə vəd eləmədiyinə və tam bir ölümün ucu göründüyünə görə, tərəflər ağıl və təmkin göstərməyə məcburdur. Üzdən belə görünürdü ki, bəşəriyyət güclə, pisliklə də olsa, bu yol ilə addımlayır.

Ancaq birdən əllər açıldı və qumar vərəqələrinin üzü göründü. Bəlli oldu ki, sakitlik üzdədir. Ağıl və təmkindən söz belə, gedə bilməz. Kütbeyinlik, həyasızlıq tüğyan edir.

Nə qədər ağlasığmaz, dəhşətli görünsə də, bu gün dünya ölümə sürüklənir. Dünən ehtimalla ümid bağlanan şeyin bu gün özülü uçub tökülür.

Doğrudanmı bu gün artıq bəşəriyyətə çıxış yolu qalmamış, ölümdən xilas üçün bir işıq ucu qalmamış?

Ölüm halı bu və ya başqa mülahizələrdən yox, təhrikedici iç qüvvələrdən törəyir. Bu təhrikedici qüvvələr faktdır. Ağıl və təmkin isə

işin öhdəsindən gələ bilmir. Burada canavar iştahası ağzını açıbdır, kütbeyincəsinə və həyasızlıqla məqsəd ardınca qoşur. Bəlkə elə belə də lazımdır?! Əgər canavar iştahası fakt isə, ölüm halı əsil xilasın yeganə yolu olmalıdır. Ölüm halı müşkülü tamamilə, bütöv şəkildə aldanışlarsız, hiylələrsiz, qətiyyətlə həll etmək zərurətini irəli sürür.

Ölüm qarşısıalınmaz olduqda, qətiyyətlə başımızın üstünü kəsdirdikdə, bəşəriyyətin bir yolu qalır: ölümün üstünə yerimək və müşkülü aradan götürmək.

Homerin təsvirində insanlar həşarat kimi qaynaşır, üst-üstə qalanır, axışıb bir yerə toplaşır, nəşələnir, çığır-bağır salır – qırılmaq üçün!..

(İnsan adı – filan-filan göstəricilərə görə nə qədər qüdrətli səslənir...).

İnsan bəzən özünü nə qədər dəyərsiz, rəzil, miskin, iyrənc şəklə salır! Təkcə həşarat kimi qaynaşmasında, üst-üstə qalanmasında yox, xırda məqsədlər arxasınca kütbeyincəsinə, həyasızcasına qoşmasında, insanın insana, birdən-birə doğma adamlara yad olmasında da!

Aqamemnon əlində dəyənək tutmuş. Bu dəyənək idarəetməyə xidmət göstərməlidir. Ancaq o, indi insanı əzmək vasitəsinə çevrilmiş. Həmin dəyənəyin də ucu Zevsə, Allaha gəlib dirənir.

Deməli, dəyənəyin məntiqinə Allah təkan verir və ya Zevs özü bununla razılaşır.

Zevs işləri Axillesin xatirinə sahmana salır. Lakin bundan öncə isə o, Aqamemnona dəyənək təqdim etmişdi.

Hər halda, bu iş üçün Allah Axillesi yox, Aqamemnonu seçmişdi. Çünki bəşəriyyət şəri daha asan həzm edir. İnsan xeyiri daha asanlıqla həzm etsəydi, Allah dəyənəyi Axillesə verərdi və ya dəyənəyə heç ehtiyac olmazdı.

Məsələlərin bu şəkildə qoyuluşunda biz Allah anlayışındakı ziddiyyəti yaddan çıxartmamalıyıq. Onsuz da Allah – ziddiyyətsiz gerçəkliyə, tarixi həqiqətə də uyğundur.

İş gətirməsinə görə, indi Zevsə lazımdır ki, Axillessiz, – şər mündəricəli dünyanı, onun aqibətini açıb hamıya göstərsin. Bu iş üçün də ən yaxşı vasitə sərkərdə Aqamemnonun əli ilə yunanları döyüşə qızışdırmağı hesab etdi. Yunanlar onsuz da bu işdən ötrü bura gəlmişdilər. İndi isə müharibə uzanır, üzüntülü döyüşlər, köçəri həyat və s. orduda dağınıqlıq yaradır. Nə etmək lazım gəldiyi qərarı isə müəyyənləşməmişdi. Lakin bir halda ki, Allah özü onları döyüşə qızışdırır, daha burada tərəddüd etməyə dəyməzdi ki? Aqamemnonda

da o ağıl yox idi ki, Allahın bu döyüşə qızışdırmasının əsil mündəricəsini anlaya biləydi.

Hər halda, Aqamemnon yunanlar kimi, dövrünə görə yetişmiş, klassik bir xalqın rəhbərləri içindən sərkərdə seçilmişdi. Bu işdə Allahın da əli vardı. Ona görə də o, Axillesə nisbətən və bizim idealımızca naqis şəkildə nəzərimizdə canlansa da, hər halda, sərkərdəyə layiq keyfiyyətləri olmalı idi.

O, döyüşlərdən qabaq ordunun əhval-ruhiyyəsini yoxlamaq eşqinə düşür. Aqamemnon Nestorla məsləhətləşir. Belə qərara gəlirlər, aldadıcı şəkildə orduya elan etsinlər ki, daha Troyalılarla döyüşü bitirmək, evə dönmək qərarına gəlmişlər.

Bu zaman yaxşı olardı ki, xalq – ordu özü buna etiraz edəydi. Söyləyəydi ki, filan, filan səbəblərə görə, biz döyüşü kəsə, məqsədimizə çatmadan geri dönə bilmərik. İşlər belə getsəydi, yaxşı olardı: onda bütün məqsədlər birləşər, bütün əllər vahid zərbəyə çevrilərdi. Yox, əgər xalq sərkərdənin, rəhbərin təklifini düzünə başa düşüb, dağılışmağa başlasalar, rəhbərlər dağınıq düşən xalqın qabağını almalı, onları yenidən bir yerə toplamalı...

Lakin hadisə baş verərkən xalqda sərkərdənin arzuladığı şey başa gəlmədi, orduya pərən-pərən düşdü.

Tarixin naqisliyi üzündən indi xalq pis məqsədlərə yönəldilib. Lakin bütün işlər əyri olduğu halda, yalnız bir tərəfdən düzlük tələb etmək, tarixin bütün naqisliklərindən yan keçməyi bir xalqdan, burada yunanlardan gözləmək – tarixi məntiqlə hesablaşmamaq olardı. Ona görə də burada yunanları döyüşə çağırış – əqidə, ictimai amal timsalındadır. Yetişmiş, kamala çatmış, klassik adlanan xalq isə əqidədən, amaldan yan keçməməli idi. Zira, belə mühüm anda yunanlar kimi bir xalqda dağınıqlıq görünürsə, bütöv bəşəriyyət haqqında hansı qənaətə gəlməliyik?!

Aqamemnon döyüşə atılmamışdan öncə xalqın, ordunun bu işə nə qədər hazır olduğunu sınaqdan keçirmək istədi. O, kütlə qarşısında çıxış edib dedi ki, Yelenanı xilas etmək üçün başladığımız yürüşdən, atıldığımız döyüşdən, apardığımız müharibədən bir şey çıxmadı. Biz gözlədiyimiz nəticəni əldə edə bilmirik. Müharibə yubanır. Səfilsərkərdan qalmışıq. Bölük-bölük insan dəstələri elindən-obasından, yurdundan, ailəsindən ayrı düşmüş və s.

Məsləhətdir ki, vuruşdan əl çəkək, hər kəs dağılışıb getsin öz elinə-gününə.

Dərhal adamlar dağılışır, hər kəs öz gəmisinə tələsir. Hər şey unudulur və canfəşanlıqla yır-yığış başlayır.

Bu vəziyyət o qədər qabarır ki, yunanlara rəğbət bəsləyən allahlar da təşvişə düşürlər.

İlahə Hera Afinaya deyir:

*"Doğrudanmı argivlilər qaçıb gedir ana yurda?*
*Doğrudanmı qoyacaqlar burda gözəl Yelenanı, –*
*Troyanın sakinləri baxıb ləzzət alsın ondan?"*

*(Orada, səh. 44).*

Beləliklə, yunanlar dağınıqlıq göstərir.

Dağınıqlıq naqisliyə, mütəşəkkillik yetkinliyə işarədir.

Xalqın özünü qoruması və hər hansı bir amalı həyata keçirməsi üçün mütəşəkkillik ən yaxşı göstəricidir. Söhbət burada xeyir və ya şər məqsədin həyata keçirilməsindən getmir...

Məsələ ondadır ki, mütəşəkkil olmayan, dağınıq xalqın xirtdəyinə istədiyin mayeni tökə, başına ip salıb istədiyin səmtə də sürükləyə bilərsən. Belə də var. **Bu zaman öz həyatını xalq taleyi ilə bağlayan adamlar tapılmazsa, müşkül fövqə qalxmalıdır.**

Əlbəttə, dağınıqlıq da xidmət göstərir. Yuxarıdan şər bir məqsədi həyata keçirməyə təşəbbüs göstərilərkən yunanlar qaçışır. Aqamemnon bu səviyyədə deməmişdi. O, hətta başçılarla bağlaşmışdı ki, dağınıqlıq baş verərsə, siz bunun qarşısını alarsınız. Ancaq başıpozuqluq o səviyyədə olmalı ki, Afina özü onların arasına enir, yunanların arasında tədbiri, müdrikliyi, diltapması ilə seçilən Odisseyə yan almalı olur:

*"Ey Allahın yetirməsi, Layert oğlu mərd Odissey!*
*Doğrudanmı indi hamı birbaş evə qaçırsınız?*
*Hər bir şeyi burda atıb, dolursunuz gəmilərə?*
*Doğrudanmı qoyursunuz burda gözəl Yelenanı.*
*Ki, Troya sakinləri baxıb ləzzət alsın ondan?*
*Axı onu aparmaqçın axeyalı bu qədər gənc*
*Tələf olmuş yurddan uzaq – eldən uzaq bu torpaqda!*
*Tez ol, get, o mis yaraqlı axeylilər arasına,*
*Şirin dillə hər igidin könlünü al, – qoyma onlar*
*İkiyanlı avar vuran gəmiləri salsın suya.*
*Odissey də eşitdi o ilahənin gur səsini,*

*Ridasını tullayaraq, qaça-qaça çıxıb getdi".*

*(Orada, səh. 44-45).*

Zevs başqa məqsəd üçün yuxu vasitəsiylə Yunanları döyüşə sürükləyirdi. Bundan Aqamemnonun huşu çaşdı, qələbə üçün havalanmağa başladı. Qoca, ağsaqqal, müdrik Nestorun məsləhətləri də Allahın aldadıcı yuxusunun təhrik etdiyi məqsədə uyğun gəlirdi. İndi də Hera – Afina xətti də eyni fikri təlqinlə çağırışa başlayır.

Zevsin müəyyən məqsəd üçün atdığı tora nəinki Aqamemnon, hətta Nestor da düşdü, bu aldadıcı fikrə yatdılar. İndi də ilahələr, Hera və Afina da həmin fikri təlqinə başlayıblar. Tora düşmək, dibsiz bir quyunun dibinə yuvarlanmaq üçün daha nə lazımdır (bəşəriyyətin özü kimi)?!

Məqsəd də odur ki, Axilles üçün haqq öz yerini tutsun.

Axilles nə üçün haqsızlığa uğrayır? Bir nəfərə bəraət qazandırmaq üçün Allahın əli ilə bu qədər insan kütlələri niyə qırğına verilsin? Bir halda ki, işlər Allahın öz əlindədir. Lakin biz səbəblər, nəticələr silsiləsinin ardınca qaçsaq, dolaşıq yollarda itib qalarıq. Fakt odur ki, indi vəziyyət belədir: Homerin dili ilə desək, yunanlar arı kimi vızıldaşır, haylanmış şəkildə qırğına sürüklənirlər.

Burada incə bir şey də var. Hera-Afina xətti yunanlara nüfuz etmək, qəlblərinin ən dərin qatlarını tərpətmək üçün Yelena vaqeəsindən istifadə edir.

Söhbət təkcə Yelenanın qadın varlığından getsə idi, müəyyən təhlillərin üzərinə varmaq, baş sındırmamaq da olardı. Məsələyə mənəviyyat, ya şəxsiyyət azadlığı, fərdin öz hərəkətlərindəki sərbəstliyin (Yelena təkcə qaçırılmamışdı, həm də qoşulub qaçmışdı), səhv buraxmaq. Günaha yuvarlanmaq və s. kimi də baxa bilərdik.

Lakin burada Yelenanın qadın varlığından daha böyük bir şey var. Burada söhbət xalqın oğurlanan səadətindən, pozulan ismətindən, tökülən abırından, təhqir edilən ləyaqətindən gedir. Başqa sözlə, buradakı söhbət xalqın əsarət durumundan bəhs edir.

Əsarət, təkcə məruz qalan xalqın yox, bəşəriyyətin də dəhşətli vəziyyətidir.

Ağa-qul münsibətlərinin mürəkkəbliyi, ziddiyyətləri var. İtirən harada isə qazanır, tapan harada isə itirir. Beləliklə, tarix haradasa, haqqa uyğun, məqsədə yaxın blans çıxarır.

Lakin əsarətə düşən xalq elə müsibətə düçar olur, elə zəlil günə qalır ki, bəzən ondansa ölmək yaxşıdır. Zira, bu xalq fəlakətinin

dəhşəti orasındadır ki, o, nə ölən kimi ölür, nə də qalan kimi qalır. Buna canbəsərlik də deməzlər. Bu daha betər bir şeydir. Təsəvvür etməli ki, səni lüt qoymaq istəyən, sənin bədxahın birisi boynuna saldığı xaltanı bütün dərdlərin dərmanı kimi dünyaya car çəkir.

Səni öz torpağında iflic olana qədər işlədir və başa gələn məhsulun da hamısını vurub əlindən alır. Beləliklə, üstündə oturduğun torpaq dolayısı ilə əlindən alınıb, sənə zindana, göz dağına çevrilir.

İstilaçılıqda soyğun var. Lakin istilaçının son məqsədi xalqları, sonunu hesablamadan kütbeyincəsinə məhv etməkdir. O, açıq ya gizli şəkildə qırır, tökür, ittiham edir, tutur, basır. Lakin əfkari-ümumiyyənin gözü qabağında açıq şəkildə ifrata vara bilməyəndə, tər tökdürən əmək və aclıq, ifrata varana qədər işlətmək və qidasız qoymaq əsarətə düşən xalqı məhv etməyin ən hiyləgər, rəzil, ən həyasız, qəddar formasıdır. Buraya həm iqtisadi və həm də qeyri-iqtisadi təzyiq, zor daxildir. Xalqın bir para qeyrətsiz oğulları da tikə, haray-həşir, mənsəb, "şöhrət" və s. naminə bu duza gedir. Bu saxta yolla başa gələn sədəqələr isə bəşərə xəyanətə, boynu balta altına qoyulan xalqı məhv etmək əməliyyatında iştiraka verilən muzddur. Əsarət şəraitində də bu cür rəzil adamların tapılması hər bir yerdə mümkün bir şeydir. Bu vəziyyətə düşən xalqa ölüm daha yaxşıdır.

Hera-Afina xətti Yelena vaqiəsindən istifadəylə yunanları döyüşə qızışdırmağa çalışarkən, bizim, təsvirinə çalışdığımız mənzərəyə yaxın bir şeyə işarə vururdular.

Qaçışan xalqın başını bir yerə toplamaq üçün əlverişli rəhbər – hər işdə, hər kəslə dil tapmaq ustası olan Odissey ən əlverişli adam idi.

Odissey işə girişir. O, vəziyyəti sahmana salmaq üçün çağırışdan, vəziyyəti izahdan, nəsihətdən, töhmətdən, hətta zordan da istifadə edir. Məhz o, bu zaman deyingən, hər şeydə pis axtaran, nöqsan tapan, tənqid edən acı dilli Fersitin çıxışı ilə üzləşir. Haqq naminə demək lazımdır ki, dağınıq düşən xalqın başını bir yerə yığmağa nisbətən Fersitin məntiqə əsaslanan aşağıdakı tənqidi çıxışına üstün gəlmək daha müşkül idi.

*"Çox keçmədən, hamı gəlib qərar tutdu öz yerində.*
*Yalnız bircə Fersit hərzə-hərzə deyinirdi.*
*Mərifətsiz, çərən-pərən sözlər boldu sinəsində,*
*Hakimlərə pis sözlərlə lağ etməyə xoşu vardı,*
*Təki burada ləzzət alıb hırıldaşsın eşidənlər,*
*Qoşunların arasında yoxdu ondan kafir adam:*

*Gözləri çəp, özü axsaq, beli donqar, sinəsi dar,*
*Başı yastı, kəlləsi daz, qulaqları palaz-palaz,*
*Həm Odissey, həm Pelidlə qanlıbıçaq düşmən idi.*
*Onları hey pisləyirdi, indi isə bağıraraq*
*Baş hökmdar Atreidə hücum edib deyinirdi.*
*Axeylilər özləri də narazıydı Atreiddən,*
*Fersit isə onu söyüb-yamanlayıb bağırırdı:*
*"Sən ey Atrid, yenə nədən narazısan, qəsdin nədir?*
*Düşərgədə misin bol-bol, gözəl-göyçək qadınlar var,*
*Şəhərləri talayanda, ən əvvəl sən ayırırsan,*
*Əsir qızlar arasında bütün seçmə gözəlləri.*
*Yenə qızıl istəyirsən? mən, ya başqa bir qəhrəman*
*Troyalı bir nəfəri qolu bağlı versin sənə.*
*Sən də onun əvəzində atasından pul alasan?*
*Yoxsa yeni gözəl qadın istəyirsən kef çəkməyə?*
*Yaraşarmı sərkərdəyə məğmun ola igidləri?*
*Siz, ey qorxaq zavallılar! Siz kişi yox, arvadsınız*
*Gəlin, minib gəmilərə çıxıb gedək! qoy tək qalsın,*
*Qoy burada tək otursun o qəsb etdiyi qəniməti*
*Qoy görsün ki, bizim ona köməyimiz dəyir, ya yox!*
*İndi budur, ondan qat-qat yaxşı olan Axillesi*
*Təhqir ilə qəniməti olub ondan mənimsəyib.*
*Axilles çox dözümlüdür, həddən artıq təvazökar!*
*Yoxsa bir də, sən ey Atrid, belə qələt eləməzdin!"*

*(Orada, səh. 46).*

İbrətli çıxışdır! Həm bəşərin istila vəziyyətinə, həm də istibdad-xalq münasibətlərinə dair!

Homer dastanları tarixin əbədi sütunları ilə bağlı müşküllər üzərində qurulsa da, bilavasitə bəşəri nöqsanlara qarşı çevrilməmiş. Dastanlarda həm üslub, həm forma və həm də möndəricə başqa yöndədir. Lakin Fersitin buradakı çıxışı nöqsanlara qarşı ittihamlar nümunəsidir.

Bəşərin böyük bir dərdi burada qabarır.

Orada deyilir ki, şəhərlər talanır. Amma Fersid Aqamemnonu burada ittiham etmir. Sanki bu belə də olmalıdır. Bu, yaşayışın adi şərtlərindən biridir. Viran qoymaq, qırğın yaratmaq yolu ilə qaçqın yaşayışın ümumi halıdırsa, onda bəşəri heç bir səmtdən müdafiə etmək mümkün deyil.

Deyirlər, “oğrudan oğruya halaldır”. Fersidin çıxışında çapğına toxunulmur. Bu ittihamlar çapğından əldə edilənin bölüşdürlməsindəki fərqə qarşıdır. Burada qovmlər, əməkdaşlar, dostlar arasındakı qeyri-səmimi, naqis, insani olmayan münasibətlərdən hiddət də var. Ona görə də istilanı adi hal hesab edən bəşəriyyətlə hər kəs, imkanı daxilində necə istəyir, elə də rəftarda olursa, vəziyyət nə ilə isə bərabərləşir.

Əlbəttə, durum lap da belə deyil. Naqisliklərlə yanaşı üstün mənəvi, bəşəri keyfiyyətlər də addımlayır, dirəniş göstərir. Ona görə də şər hər dəfə axıra qədər əl-qol aça, özünü hakimi-mütləq təki göstərə bilmir.

İstibdad – xalq münasibətindəki durum daha acınacaqlıdır.

Fersit deyir ki, əlinə səlahiyyət tapşırılan və ya fürsət düşən kimi hər kəs azğınlığa, ağılsızlığa başlayır. Xalq deyilən şeyin içindən isə bircə nəfər kişi tapılmır ki, bir dəfə öz haqqını savunsun və ya vicdana işarə kimi öz insani varlığını təsdiq etməklə həqiqətin səsini ucaltsın.

Lakin biz hər zaman insan, xalq, bəşər deyilən nəsnənin bu cəhətinə görə söyləmişik ki, həmin səbəbdən də xiyar əyri bitir.

Bu cür çıxışına görə Fersidi haqqın tərəfdarı, əqidə, amal adamı hesab edə bilərdik. Lakin dastan söyləyir ki, onun xasiyyəti deyinməkdir. Fersid haqq-nahaq axtarmır. Onun üçün özünə yaxın-uzaq adam yoxdur. Fersidə fürsət lazımdır ki, deyinsin. Bu gün bu fürsət Aqamemnon tərəfdə müşahidə edilib. Ona görə də ona hücum çəkir, guya xalqa, Axillesə görə. Halbuki həmin Fersid hələ dünən xalqın Odissey, Axilles kimi oğulları ilə düşmənçilik aparırdı.

Bunlara görə də Fersidi əqidə adamı yox, biz məcazsız, çıxışını da prinsipial tənqiddən daha çox deyingənlik kimi təhlil etməliyik.

Hər kim olsa da, burada Fersidin ağzından Quranın qırağına yazılası, müqəddəs sözlər çıxır. Amma dastan bu yönü dərhal vurdu. Üstəlik, “İliada” Fersidi zahirən də bərbad gündə təqdim edir.

Biz, xüsusən bu zahiri əlamətlə mənəvi qüsur – deyingənlik arasındakı əlaqəni qəbul edə bilmirik.

İnsanın zahiri ilk baxışda müəyyən bir fikir aşılaya bilər. Mülayimlik, mərhəmət üzündən-gözündən iş tökülən və ya üzündən “zəhrimar” yağan adamlar olur. Burada da istisnalar var. Xüsusən ailə tərbiyəsi (buna “ot kökü üstə bitər” deyirlər) və həyatın sonra da öncəki sürdüyü şərtlər hər şeyi alt-üst edir.

Bu dediyimiz yalnız ilkin təsəvvürə aid ola bilər. Zahiri görkəm yaxşılığa, pisliyə yol deyil. Pisliyi nişan vermək üçün çəplik, axsaqlıq, donqarlıq, sinəsi darlıq baş xətt ola bilmədiyi kimi, mələk sima arxasında da hiylə, yalmanmaq, – şər gizlənə bilər. Ələlxüsus, böyüklüyü, istedadlılığı, dahiliyi vermək üçün əlamətdar, zahiri görkəm tərtib olunur. Amma təcrübələr göstərir ki, dahilik tərtib edilən hər cür əlamətlərdən uzaqdır. O, inadla ilk baxışdan gizlənir, adilik, sezilməzlik içərisinə batıb qalır. Bir çox halda dahidən başqa hamı əzəmətli görünür. Faciəvilik də elə burdan irəli gəlir. Çox vaxt hamı üçün müşahidə edilən müsibəti faciə ilə qarışdırmamalı. Bu fəlakətdir. Faciəvilik isə dahiliyin əkiz qardaşıdır.

Ona görə də biz, Fersidə belinin donqarlığına yox, hərəkətlərinə və çıxışına əsasən qiymət verəcəyik.

Fersid Aqamemnonu talan naminə çapqında, acgözlükdə, azğınlıqda, xalqın ləyaqətinə ehtiramsızlıqda, kəmfürsətlilikdə ittiham edərkən haqlıdır. Xüsusən indiki mühüm anda. Burada xalqın taleyi həll olunur, onun izzəti-nəfsi qorunmalıdır. Aqamemnon isə mənafeni və şıltaqlığı ön plana çəkərək qövmünü təhlükəyə sürükləyir.

Lakin dastan dərhal bizi ayıq salıb söyləyir ki, Fersid çıxışındakı həqiqət tonunun toruna düşməyin. O, hələ dünəndən Axilles və Odisseylə düşmənçilik aparırdı.

Müəyyən naşükür, deyingən, hər şeydə nöqsan görən adamlar olur. Onların tənqidləri prinsipdən yox, diqqət cəlb eləmək arzusundan doğur. Bir də bu cür deyingənlər özləri haqqında elə müştəbeh olurlar ki, yörəsindəkilərdən kimsənin üstünlüyünə dözmür, özlüyündə kinlilik başlayır.

Dastan Fersidin donqarlığına, çəpliyinə işarə verir. Amma Fersid nəinki Odisseylə, Axilleslə düşmənçilik aparır, Aqamemnonu lənətləyir, dindirsən özü haqqında da söyləyər ki, dünyada məndən gözəl, ləyaqətli vücud yoxdur. (Hərçənd mündərəcə üçün "gözəl", "çirkin" söhbətlərinin dəyəri yoxdur. Bu ət tökən işin fərqinə varmağa bizi dastanda qoyulan "Donqar" məsələsi məcbur edir).

Yörədə hər hansı birinin təqdiri Fersidlərdə təəccüb doğurur. Çünki onlar özlərinə məftundurlar, özlərinə vurulmuşlar. Onların öz vücudlarına bəslədikəri bu aşırı vurğunluğu bəzən gizli də qala bilər. Lakin yersiz şəkildə və daim yörəyə ağız büzmələrdə bu öz ifadəsini aydın şəkildə tapır.

Bu, həmin adamların bilavasitə fəaliyyət göstərmələri yox, bu yolla özlərini təsdiq vasitələridir.

Homerin dastanlarında adlı-sanlı adamlar çoxdur. Eynilə Odissey, Aqamemnon və başqalarında. Onların hərəsi bir yolla təsəvvürlərdə iz buraxır. Bəs Fersid bizim yaddaşımızda nəyi ilə qalır? Yalnız həqiqətən məharətli, üsyankar, mərdanə, coşğun, pafoslu çıxışı ilə...

Fersidlər həyata lazımdır – zəif səmtləri görmək üçün. Lakin bu çıxışlar əsil xəlqi, demokratik deyilən şeydən uzaqdır. Belə adamlarla prinsipial fəaliyyətə bel bağlamaq olmaz. Ona görə də Fersidlər nə qədər süərtlə gözə dəysə də, hamının biridirlər.

Fəaliyyət üçün məqbul yol Axillesin prinsipial mövqeyidir. Bu səbəbdən də baxmayaraq ki, Axilles kübar zümrəyə mənsubdur, demokratizmi, xəlqiliyi o təmsil edir. Başqa şərtlərdən də həmçinin.

Dastanlarda Axilles yeganə adamdır ki, bütün səmtlərdən bütövdür, tamdır. Təkcə Axilles öz tamlığı ilə bütöv bəşəriyyəti təmsil etdiyi halda, dastanlarda o qədər şöhrətli qəhrəmanlar hamısı birlikdə bütöv şəkildə vahidi ödəyə bilmədiklərinə görə, nəinki bəşəriyyəti, heç özlərini də təmsil edə bilmirlər.

Çox qəribə mənzərə yaranıb. Odissey müdrikliyi bütün bəşər tarixi üçün bir ibrət dərsi kimi səslənir. Padşah Menelay, Priam, sərkərdə Aqamemnon, qəhrəman Hektor, gözəl Yelena, sədaqətli Andromaxa, Nestor, Ayakse, Diomed, Paris, Menelopa, Telemax və s. qəhrəmanların şöhrətinin yaratdığı gurultulu dastanları başına götürmüş, həyatda da belədir. Biri qaməti, cəsarəti, üstün qüvvəsi, sərvəti, sənətkaranə fəaliyyəti, dilavərliyi, quruculuğu, canıyananlığı, səxavəti, xidmət göstərməsi, aradüzəldənliyi, qəsdlər etməsi, mənsəbə çatması, ödüllər alması, fitnələr törətməsi, göz yaşlarına bais olması, tutmalar, asmalar, basmalar, həsrətlər, qırğınlar yaratması ilə haray qoparır. Adama elə gəlir ki, onlar hər şeyə çatmışlar. Adamın ağlına sığmır ki, bu cür ”əzəmət” həyatın başa çatması, zamanın ötməsi ilə izsiz silinib gedə bilər.

Lakin izin qalması, görünür, ciddi tələbdir. Haray-həşir, öz-özünü rövnəqləndirmə, az-çox xidmət, sərvət, mənsəb bu tələbi ödəyə bilmir. İzin qalması arzunun, xidmətin, bəlkə də məhək daşıdır. Arzuda, xidmətdə zərrəcə xılt varsa, yəni burada bu və ya başqa şəkildə şəxsi tələblər güdülürsə, qəlbin dərinliyində birinci olmaq, faydalanmaq məqsədi gizlənirsə, bu, işin saxta cəhətinə işarədir.

Böyüklük, iz qoymaq – bəlkə də eyni sözdür. Bu isə fitrətən özündən keçmənin, qayğı göstərməyin, sevməyin, xidmət deyilən şeyin məcmuudur. Burada məhəbbət və xidmət “iz” xatirinə və ya hər hansı tələbin ödənilməsi naminə başa gəlmir. Fədakarlıq,

yaratmaq fitri keyfiyyət kimi qarşısıalınmazdır. "İz qoymaq" sonra öz-özünə gəlir; bu, taleyin xidmətə verdiyi haqdır, haray-həşir qoparmaq, tullanıb-düşmək, əllaməlik, min bir rəngdən çıxmaq burada işə kömək eləməz.

Axilles yeganə adamdır ki, tale ona kainatın özündən böyük, sonsuzluğu, zamanın və mənanın hüdudlarını aşan bir məhəbbət, ona görə də fədakarlıq və xidmət arzusu bəxş etmişdir. Axilles təbiəti, mənəvi ucalığı idealizəyə yol qoyur.

Fersidlər, Odisseylər, Nestorlar, Aqamemnonlar, Priamlar, Nektorlar, Andromaxalar, Penelopalar idraklı, qəhrəmani, məhəbbətli görünürlər. Lakin onlar bütöv bir məhəbbətə və xidmətə lazım olan vahidi hamısı birlikdə ödəyə bilmirlər. Onlar sadəcə olaraq ümumi ölçüdən fərqli, təpərlidirlər. Axilles isə təklikdə bunların hamısını vurub keçir və bəşərə lazım olan vahidi tam şəkildə ödəyir.

Sərvəti yaradan bilavasitə əlləri ilə işləyən adamlardır. Onların assosiativ yaşayış tərzi də mənəvi özüldür. Fersidlər, Odisseylər, Aqamemnonlar həmin əllərin yaratdıqları üzərində rəqs edib öz müvazinətlərini nizamlayıb gözə soxulurlar. Tarixin naqisliyi, insanın zəifliyi üzündən.

Burada tər tökən xalq və bir də cilovları əldə tutan imtiyazlı dəstə yaranır. Bunların qarşılıqlı münasibətini və mündəricəsini elm izah etmiş. Lakin təbiətin böyüklüyü məhəbbətin ucalığı ilə bunların hər ikisindən qıraqda qalan, yalnız dünyaya xidmət üçün yaranan müstəsna şəxsiyyətlərin taleyi faciələr dəryasına qərq olur.

Sərvəti yaradan əllərin sahiblərinə assosiativ yaşayış tərzi ilə mənəvi özül yaradanlara fitrətən bağlı olan, cilovsuz məhəbbətinin, fədakarlığının qarşısını ala bilməyən, daim xidmətə can atan yeganə adam varsa, o, Axillesdir.

Axilles xəlqiliyi, demokratizmi deyilən şey buradan irəli gəlir.

Ona görə də haray-həşir salanlar, əzəmətli görünənlər üçün nəinki ömrün başa çatması, sadəcə kənara tullanması ilə hər şey başa çatır. Olmuşdu, indi yoxdur. Elə bil o, sanki olmuşdu.

Belə bir yekun üçün bu qədər haray-həşir qoparmağına, müsibətlərə bais olmağına dəyərdimi?!

Həyatın özülünün harasındasa, bir məntiq gizlənmiş. Şahlıq deyilən şey və ya bu yöndə mənsəblər xalqa, bəşərə, insana xidmət üçün yaranmış. Xidmət və xırda hisslərin təsirinə düşmək, şəxsi arzuların qayğısına qalmaq, həyatın bu günə qədərki gərdişi elədir ki, ikisi bir yerə sığmır. Xidmət həm fəaliyyəti bütövlükdə tələb edir,

ikinci şeyə vaxt qoymur. Həm də əllərə böyük səlahiyyətlər verildiyinə görə, mənsəbli adamın hərəkəti ondan sonra gələnlər üçün yol qoya, axın yarada bilir. Tarixdə buna aid zəngin mənzərə müşahidə etmək mümkündür. Ən betəri odur ki, işin pis təsadüfündə şər, qəbahət, mənəvi düşkünlük, soyğun, qəddarlıq axın yaratmaqla cəmiyyətin səciyyəsini pozaraq eybəcər şəklə salır. Xalqın mütiləşməsi – qoyunlaşması, dözümlüləşməsi, qanmazlaşması – eşşəkləşməsi, hiyləgərləşməsi – tülküləşməsi, acıqlaşması – canavarlaşması bir vahimə yaradır.

Həm səlahiyyət var və bu səlahiyyət də paylanaraq, zəncir kimi uzanıb gedir, şəbəkə yaradır. Həm də mənsəb sahibi göz qabağındadır. Başqalarının elədiyinin ondan biri, bəlkə də görünmür. Mənsəb sahibi isə, göz qabağında olduğuna görə, onun elədiyi on dəfə artıq haray salır.

Həmin iki səbəbə, yəni xidmət ehtirasına və göz qabağında dayanıb öz hərəkətləri ilə nümunə göstərmək imkanına görə, başçı hamı kimi yaşaya bilməz. O, özündən keçməlidir.

Deyəsən, biz kefdən, tarixən nadir hallarda müşahidə edilən şeylərdən danışırıq. Əslində isə vəziyyət bunun tam əksinədir.

Söhbət burada ləyaqətdən, hünərdən, mənəvi şərtlərdən getmir. Həyat qorunmalıdır, gündəlik güzaran başa gəlməlidir. Hələ biz insanın keçib gəldiyi yolu demirik, rifah imkanının bu qədər artdığı bu günün özündə belə, həyat şərtləri amansızdır, güzəran min bir məşəqqətlərlə üzləşməli olur. Beş nəfər harının atı dördnala çapması ölçü deyil.

Halbuki xidməti bir tərəfə buraxsan, xırda hisslərlə yaşayıb, şəxsi arzuları başda qoysan, pərdəli yollarla mənsəb özünü mühafizə üçün ən yaxşı vasitədir.

Güzəran naminə bölük-bölük insanlar həşarat kökünə düşür, misilsiz hünər cüzi bir maddi şərtə ilişib qalır, burada isə hüdudsuz imkanlar sərəncamındadır, harınlıq baş alıb gedə bilər. Fürsət düşdükdə, "belə deyil, başqa cür" hərəkət edənlər ağılsız, fərasətsiz görünür, gülünc vəziyyətdə qalır. Yöndəmsizlik, yadlaşma tarixi belə bir səmtə yönəldir.

Dastanda Aqamemnona münasibət bu qədər sərt deyil. Lakin o, özündən də keçmir. Ağılsız, fərsiz görünmək, gülünc vəziyyətdə qalmamaq üçün fürsəti əldən vermək istəmir. Döyüşü uduzmaq, Yelenanı – xalq səadətini əldən vermək, ləyaqəti həqarətdə qoymaq, qövmü təhqir etmək, Axilles kimi qəhrəmanla özü arasında təhlükəli

bir kin yaratmaq hesabına olsa da!.. Aqamemnon fürəsti əldən vermək istəmir.

Ona görə də nitqinin axırında Fersidin "Axilles çox dözümlüdür" deməsi, hər an baş verə biləcək fəlakətə tutarlı bir işarədir.

Aqamemnon mənsəbində özündən keçmədi. Həm də o, haqsız idi. Axilles isə qəhrəmandır. Haqq da onun tərəfindədir. Əgər üz-üzə dayansaydılar, güman ki, üstünlük də Axilles tərəfində olardı. Lakin bu zaman Yunan ordusunun başı pozulardı.

Aqamemnon etməli olduğunu yerinə yetirmədi, özündən keçmədi. Axilles isə nəinki özündən keçmək vəziyyətində deyildi, həm də indi o, bir-birinə zidd iki vəzifə qarşısında qalmışdı: mənafeni və şərəfini qorumaq; bir də özündən, – həm mənafeyindən, həm də izzəti-nəfsindən keçib xalqın taleyini təhlükədən uzaqlaşdırmaq. Özündən keçmək Axillesdən bilavasitə tələb olunmurdu. O, başqa cür hərəkət etsə idi belə, qınamazdılar. Amma Axilles başqa yolla getdi. O, özündən keçdi. Ona görə Yunan qövmü aşırı fəlakətdən bir qədər sovuşdu...

Dağınıq düşən xalqın başını bir yerə yığmaq görəvi Odisseyin boynuna düşür. Odissey də yerinə görə, dəyənəyini və iti dilini işə saldı. Adamların başı bir yerə yığılırdı. Odissey təsirli, ibrətli bir nitqlə Yunanların qarşısına çıxmağa başladı. Həmin çıxışa falçı Kalkas, qocaman, ağsaqqal Nestor, Aqamemnon özü də qoşulur. Çıxışların hamısı eyni nöqtəni vururdu. Onların hamısının səfərbəredici, qorxuducu, hədələyici tonu var idi. Yerinə görə!..

Nestor öz çıxışının bir yerində xatırladır:

*"...Troyalı arvadlarla bir yataqda yatmayınca,*
*Yelenanın əzabının əvəzini almayınca..." – deyir.*

Sonra öz çıxışını hərbi məsələlərlə bağlı Aqamemnona taktiki məsləhətlərlə davam etdirir:

*"Əşirətlər, qəbilələlər üzrə böl sən qoşunları,*
*Bir-birinə kömək olsun hər aşirət, hər qəbilə.*
*Belə etsən Axeylilər tabe olsa əgər sənə,*
*Onda özün görərsən ki, rəhbərlərdən, ya xalqlardan,*
*Əlbir olub vuruşmaqda qoçaq kimdir, qorxaq kimdir".*

Aqamemnonun çıxışını da əvvəlki nitqlərin davamı kimi səslənir:

*"...Təəssüf ki, mən hirslənib acı sözlər dedim ona*
*Əgər xoş bir fürsət düşsə, Axilleslə barışsaq biz*
*Troyanı fəth etməkdə ləngimərik bircə an da!...*
*Əgər görsəm bir nəfəri döyüşlərdən uzaqlaşan,*
*Dikburunlu gəmilərin arxasında daldalanan, –*
*Yəqin bilin, – ac itlərə, qurda-quşa yem olacaq!"*
*Nəticədə xalqın başı bir yerə yığılır, havalanmış hala gəlir:*
*"Cavabında arqivlilər çığırdılar.*
*Yalnız güclü küləklərdə aşıb-daşan boz dalğalar,*
*Sahillərə axışaraq, qayalarla çarpışaraq,*
*Fasiləsiz gurlar belə şiddət ilə, dəhşət ilə...".*

*(Orada, səh. 49-51).*

Nestor aldanış içərisində belə müdrik, təsirli çıxış edir. Bu müdrik, təsirli sözlərin içərisində, nümunə gətirdiyimiz yer yunanların lap yaralı yerinə toxunur. O deyir ki, əldən gedəni qaytarmaq, şərəfimizi qorumaq üçün biz bu müharibəyə məcburuq. Bir çox dinlərin təlqin etdiyi kimi, ardıcıl surətdə şərə güzəştə getmək, bir küncə qısılıb biqeyrət şəkildə yaşamaq da olar. Bu məntiq də özünü axıra qədər doğrulda bilməzdi. Güzəşt, güzəşt... hara qədər?! Nəticədə həmin dinlərin dediyi alınardı: sən bu dünyanı güzəştə get, əvəzində o dünyada məst-xumar olarsan. Lakin bu şərtlər özü də dünyanı islah etməzdi. Şər daimi hücumdadır. Əgər xeyir ardıcıl güzəşt yolu tutub, özünü tükəndirsəydi, o zaman həmin didib-parçalanmanı şər öz daxilində həyata keçirərdi. Halbuki həyatda belə möcüzələr baş vermir. Fakt odur ki, amansız müharibə vəziyyətində qalmışıq. Buradan qaçıb getmək bizi müharibə gedişinin törətdiyindən daha ağır hala salır. Çünki şər ortaqsız hərəkətə başlayar və zərbəni zərbə üstə endirər.

Mübarizədə bir dayanıqlıq var. Birtərəfli güzəşt dayanıqlığı pozar, şər güclənərdi. Halbuki tarix şərin deyil, xeyrin güclənməsi hesabına yaşayır. Deməli, dayanıqlığı saxlamaq üçün nəinki döyüşdən qaça bilmərik, həm də tarixi təmin naminə mübarizənin gedişinə daim idrak ünsürləri qatılmalıdır. Bu zaman şər silinməsə də, amma xeyrin xüsusi kütləsi üstünləşərdi.

Nestor deyir ki, biz talan olmaqdan başqa, mənəvi yük də daşıyırıq. Yadlar bizim bakirəliyimizə toxunmuşlar. Əvəzində biz də, bütün məsələlər bitəndən sonra Troyalı arvadlarla bir yataqda yatmalıyıq.

Nestorun bu təlqini cinsi ehtirası qıcıqlandırmaq yolu ilə, bir çox halda ixtiyarı əldən alan, iradəni sarsıdan intim dünyanın barıt anbarını alışdırmaq deyil. Bundan daha böyük şeydir. Çünki cinsi alovu bir an üçün söndürmək, müvəqqəti təskinlik şəxsi haldır (məsudluq, müvazinət yalnız üzürlü halda – qarşılıqlı məhəbbətdə başa gələ bilər). Mənəvi yükün tullanması isə ümumi iç olub əqidə səviyyəsinə qalxan bir gedişdir. O deyir ki, mənəvi zərbəyə qarşı mənəvi zərbə endirməklə ruhumuzdakı yükü tullaya bilərik.

Qızların, bacıların, arvadların və s. ələ gətirilməsi nadir hallarda öcalma amacı güdür. Zina və şəhvani qarışıqlıq şəbəkəsi isə daha genişdir. Bu gediş o qədər şaxəlidir ki, oraya öcalma duyğusunun qarışmasına ehtiyac qalmır. Təkcə gizli bağlaşmalarda yox, zorlama hallarında da belədir. İntiqam məcburiyyətindən yox, güclü tərəf nəfsinə hədd qoya bilmir. Lakin bununla da o, qəbahətini, həyasızlığını, yəni qeyri-insaniliyini meydana çıxarır və cinayət başa gətirir. Korlanmış təbiətdən irəli gələn ehtirasın bir an üçün sakitləşməsi qeyri-insani kökə düşməyin muzdu ola bilərmi?

Biz məsələni xeyir baxımından deyirik. Şərə gəldikdə lazımi yerində qeyd etdiyimiz kimi, o, kəlamlarla yaşamır.

İnsanın bir mövcudat, bir canlı kimi qaçılmaz tələbləri var. Mədəsinin, qıçlarının və s. bütün canlılarda olduğu kimi.

Lakin birdən idrak və ülviyyət müşahidə edildi. İnsan başqa canlılardan seçilməyə başladı, mədənin, qıçların yoğun yerinin törətdiyi harınlığın və s. tələbləri səviyyəsində qalmadı. Onda qarşısındakına hörmət etmək, bununla ünsiyyətə can atmaq kimi tələblər yarandı.

Bu daha böyük aləmdir – insan olduğuna görə. Lakin hisslə qavranılan deyil. Ona görə də idrakın zəiflədiyi bütün nöqtələrdə bu böyük aləm – xülya, aldanış kimi qələmə verilir. İşin qabaq tərəfləri isə ancaq diribaşlara nəsib olan "səadət" həyatın yeganə özülü kimi məna edilir.

Tarix hələ naqisdir. İstənilən əldə edilmir. Qatışıq-bulaşıqdır. Amma sevgi, barışıq, ailə münasibətlərindən qıraqda arvadlarla bir yataqda yatmaq, hətta intiqam alan tərəf üçün də idrak, ülviyyət mövqeyindən alçaqlıqdır, rəzillikdir. Çünki burada sən başqasını heyvan kökünə salmaqla, özün də heyvanlaşırsan.

Yox, bu təkcə heyvanlaşma deyil. Bu, heyvanlaşmanı, insani prinsipə qarşı qoyub, onu fövqə qaldırmaqdır.

Biz amansızlıq vəziyyətində dini, güzəşti müdafiə etmədik. Lakin başqa tərəfin arvadları ilə bir yataqda qıvrılma o zaman baş verir ki,

artıq məsələ həll olunub. İndi zərərdidə özü güclü tərəfdir. Məğlub tərəfin qadınları isə ikiqat məzlumdur. Çünki qadın qorunmağa, nəvazişə, qayğıya ehtiyacı olan, zəif tərəf hesab edilir.

Qələbədən sonra yunanlar güzəşt yolu ilə gedərək, troyalılar kimi hərəkət etməyib qadınları amanda saxlasaydılar, daha böyük nəticə alınardı.

Biz kəlamlarla danışdıq. Buna məcburuq. Çünki biz Aqamemnonların yox, müdrik, ağsaqqal hesab edilən Nestorun çıxışı ilə üzləşdik.

Lakin Nestorun özü bu yöndə çıxış edirsə, onda gör biz nə durumdayıq.

Bununla belə, Nestorun çıxışı gerçəkliyə uyğundur. Ona görə də dağınıq düşən xalqın başını bir yerə yığmaq işində təsirsiz ola bilməzdi.

Nestor çıxışının içərisində hərbi taktikaya aid diqqətəlayiq nöqtə var. O, sərkərdəyə tövsiyə edir ki, ordunu tayfalara, qəbilələrə görə tərtib etsin.

Bu, adi, zahirən sadə görünən bir tövsiyyədir. Lakin hərbi işin keçib gəldiyi yolların hamısında bütün çoxtayfalı, xalqlı, millətli, çoxdilli ordularda bu taktika özünü doğrultmuşdur. Bizim şahidi olduğumuz müharibələrin özündə belə, XX əsrin yekəbaşları da müharibənin gedişində bu taktikadan istifadə etdilər.

Biz nə deyirdik?

Biz deyirdik ki, bir sıra xalqların bədii təfəkkürü, xüsusən yunan mifologiyası tarixin sonrakı gedişini qabaqlaya bilmiş.

Biz onu iddia etmirik ki, hərbi xadimlər öz gedişlərində Nestorun tövsiyyələrini Homer dastanlarından öyrənib sonra öz işlərində nəzərə almışlar. Yəqin ki, bu cür məqsəd bu vaxta qədər bir kimsənin ağlına gəlməmiş. Xüsusən XX yüzilin yekəbaşları bəşəriyyətə ehtiyac hiss etmirdilər. Onlar belə güman edirdilər ki, onların bəşəriyyətə yox, bəşəriyyətin onlara ehtiyacı var... Yekəbaş elə belə də düşünməli, hərəkət etməli, xəsarətliklər törətməli, iflasa da uğramalıdır.

Yekəbaş bəşər təcrübəsinin və idrakının keçib gəldiyi yolu addabudda, əvvəlcədən hazırlanmış müəyyən məntiq əsasında öyrənirdi. Onlar müəyyən bir istiqamətdə ardıcıl və məntiqli idilər. Bu birtərəflilik, ardıcıllıq, məntiqilik həlim beyinləri dumanlandırır, gözləri qamaşdırırdı. Müəyyən dövrdə bir anın qələbəsi üçün bu cür məntiqlər ilə də keçinə bilir.

Əgər Nestor tövsiyyələri Yekəbaş məntiqində də müşahidə olunursa, Yunan mifologiyasının təbii özülünü təsdiq edən bundan da ibrətli fakt ola bilməz.

Zevs Aqamemnonu aldadır, onu müharibəyə qızışdırırdı. Hadisələrin inkişafı da Aqamemnonun coşğunluğunu gücləndirirdi. O, Nestorun məsləhətlərindən də lap məst olur. O, söyləyir ki, bu cür məsləhətçilərin bir az artıq olsa idi, məqsədə çoxdan çatmışdıq.

Lakin Aqamemnon burada dəyyusluq edir. Nəfsinə toxunan məsləhətlər nə qədər müqəddəs məqsəd güdsə də, ölkə taleyi üçün nə qədər önəmli olsa da, qulaq asmırdı. Aqamemnon da adi yekəbaşlar təkin bütün təsadüflərdə ağıllı sözlərə qulaq asanlardan deyil.

Burada məsləhət ona yalançı bir qələbənin müjdəsini verdiyindən qulaq asır və qızışır. O qədər ki, fikrə gedib Axillesi xatırlayır, bir an üçün peşmançılığını büruzə verir.

Bir vaxt Axilles deyirdi ki, mənə nə qədər əziz olsa da, şərəfimi təmsil etsə də, bir qız üçün ölkənin taleyini aşırı dərəcədə zərbə altında qoymaram. İndi Aqamemnon da həmin sözü deyir. Tamamilə fərsizcəsinə və əks yöndə. Söyləyir ki, bir qız üstündə Axilleslə bərk söyüşdük. O, etiraf edir ki, indiki şəraitdə Troya müşkülü asanlaşar. Sonra o, sızıldayanlara qarşı amansız tədbirlərdən dəm vurur.

Ordu həyəcana gəlir.

Homer bu coşğunluğu, çığır-bağırı, dalğalanan insan dünyasını yenə də təşbehlərlə bədii müqayisələrlə izah edir. Dastanda deyilir ki, arqivlilər çığırdılar. Bu bağırtı güclü küləklərdə, tufan zamanı boz dalğaların sahillərə axışaraq qayalara çırpıldığı zaman aramsız, inadcıl, şiddətli gurultusuna bənzəyirdi...

Xalqda başa gələn yalançı bir coşğunluğu təsəvvür etmək üçün bu təşbehlər, bədii müqayisə bəs edir.

Görünür, təşbehlər, bədii müqayisələr sənətin ayrılmış hissəsidir. Başqa sözlə, istedad müşahidə edilən hər yerdə təşbehlər, bədii müqayisələr təbiidir. Bu şərtlə ki, təşbehlər, müqayisələr təbii surətdə, gedişatdan doğsun. Burada təşbehlər, müqayisələr saxtalıqdan uzaqdır; bu dünyanın əlaqəli, az qala bütöv, dolğun şəkildə qavranılmasının məhsuludur. Bunda azı üç şey iştirak edir: istedad, bilik, zəngin həyat, təcrübə.

Biz demirik ki, təşbeh və müqayisə sənətdə, bədii yaradıcılıqda başlanğıc, həm də sondur. Yox, çox da belə deyil. Lakin o, yaradıcılıqda mühümdür, ayrılmaz keyfiyyətdir. Bu o qədər ciddidir ki, təbii istedad verilməmiş, lakin təşbehin, müqayisənin önəmini hiss edən

bəzi qələm sahibləri təşbeh, bədii müqayisə üçün dəridən çıxır, heç bir fürsəti əldən vermir. Burada istənilən şey əldə edilmirsə, bu yalnız ondandır ki, təbii istedad yoxdur. Dünya istedad, bilik, təcrübə əsasında bütöv dərk edilmir. Burada müəyyən dərəcədə qələm təcrübəsi, ağıl, görmə var. Əlamətlər seçilir və süni surətdə assosiativ tərtibata cəhd göstərilir. Böyüklüyə gedən yol üçün isə bu azdır.

Biz dedik ki, ilk təkanda xalq dağınıq düşmüşdü. Sonra onun başı müəyyən tədbirlərlə, vasitələrlə bir yerə yığıldı, mütəşəkkillik alındı. O qədər ki, yalançı bir bağırtı qopardı.

Biz kamil adlandırdığımız qədim yunanların bir anda həm dağınıqlığını həm də mütəşəkkilliyini görürük. Həm də axın şəklində.

Mütəşəkkillik bir tərəfə!

Dağınıqlıq, axın zəncirinə ilişmək isə naqislik əlamətidir. Bu halda, bəs yunanları necə kamil xalq adlandıra bilərik? Nə etmək olar, bu bəşərin taleyidir!

Bəşərə aid ümumi naqisliyi götürdükdə və bunu gözardı etdikdə, yunanlar mütəşəkkil, kamil xalq idilər.

Pərakəndə xalq odur ki, o, ancaq pərakəndə olur. Heç bir şeylə onda mütəşəkkillik başa gəlmir. Müəyyən vasitələr xalqın başını bir yerə yığa, nəticədə mütəşəkkillik yarana bilirsə, həmin milləti kamil, mütəşəkkil hesab etmək olar.

Mütəşəkkillik xalqın böyük keyfiyyətidir. İstibdad azğınlığını bu cürə xalqın taleyinə axıra qədər pərçimləmək mümkün deyil. Əsarətə gəldikdə isə zəncir çox əhatəli, axın düşüncəsiz və güclü olduqda kamil, mütəşəkkil xalq da təpik altında qala bilir.

Lakin bu cür xalqı əsarət öldürə bilməz.

Dağınıq xalq da qəhrəman verə bilir. Lakin bu, faciəvi qəhrəman olur. Çünki o, uğrunda mübarizə apardığı xalq tərəfindən kömək görmür. Burada uğrunda qurban getdiyin şeyin özü də çox vaxt sənin əleyhinə çevrilir; sənin yağına və özünün yağısına qoşulur.

Mütəşəkkilliyə, epikliyə qarşı bu əzablıdır. Lakin faciəvilik, eyni zamanda idrakilikdir, bu da çox böyük gələcəyə işarədir.

Vay o gündən ki, xalq dağınıq ola, faciə də törətməyə. Onda o, xalq deyil, bir sürüdür. Bu cür xalq öz gələcəyinə inam oyatmır.

Mütəşəkkil xalqın axını özü qəhrəmani və idrakidir. Bu cür xalqın içərisində seçilən şəxs müşahidə edilərsə, o mütləq epik qəhrəman kimi yaranmalıdır – Axilles!

Lakin Axilles də yunanlar kimi kamil xalqa mənsub olub, öz qövmündən o qədər ayrıldı ki, epiklik onun taleyində ardıcıl surətdə faciəviliklə qaynayıb qarışdı, fəlakətlə yekunlaşdı.

Bu cür kamil, idraki xalqın Yelenasını axıra qədər əsarətdə saxlamaq olmaz.

Lakin lap başlanğıcda Yelenanın oğurlanması, indicə yunanların yalançı qələbə ehtirası ilə coşdurulub döyüşə sürüklənməsi başqa səbəblərlə izah edilir. Bu bəşəri naqisliklərlə bağlıdır ki, Aqamemnon-Axilles münasibətlərində üzə çıxırdı.

Dastan indiki an üçün başqa tərəfin, Troyalıların da hərbi vəziyyətini təsvir edir. Burada da ibrətli, idraki səhnələr çoxdur. Xüsusən vəziyyətin, hadisənin, dünyanın bütöv dərki baxımından önəmlidir. Lakin paralelçilik var. Təkrar ehtimalına yer verilməsin deyə, həmin səhnələrin araşdırılmasına getmirik.

İndi əsil mənzərənin üstə gəlirik. Sonrakı hadisələr Axillessiz döyüşlərin, müharibə meydanının təsvirini verir. Müharibə də bir həyatdır. Onu da insanlar başa gətirir. Bəşərə aid keyfiyyətlər bu və ya başqa şəkildə özünü büruzə verməlidir. Biz döyüşlərin bütöv mənzərəsini, onun tarixi, idraki, – dastani önəmini izləmirik. İdeyamız üçün lazım olan anları gözdən keçirəcəyik.

Zevsə lazımdır ki, insanlar kütlə yaradıb qarşı-qarşıya dayansın, bir-birini didib-parçlayan, qırıb-tökən qoşunlara çevrilsin. Həmin iş də başa gəlir. Qanlı ziyafətlərin ardı-arası kəsilmir, qırğının ucu-bucağı görünmür.

Səhnələr o qədər ehtiraslı təsvir edilir ki, insanın müsibətli dünyasını unudub, sənətin törətdiyi həyəcanın təsirinə düşürük.

Bir döyüşün mənzərəsi:

*“Zefirin bərk küləyilə dənizin yeni dalğaları*
*Sahillərə necə qorxunc gurultuyla çırpılırsa,*
*Dənizdə dik qalxa-qalxa, bir-birini qova-qova,*
*Qayalardan açıb necə gurultuyla qaynaşırsa,*
*Necə köpük saça-saça hər tərəfi bürüyürsə, -*
*Axeylərin qoşunu da belə coşğun bir dəhşətlə*
*Axışırdı alay-alay Troyanlar üzərinə.*
*Sərkərdələr əmr edirdi hər biri öz qoşununa.*
*Qalanları susurdular, bu axışan orduların*
*Sanki dili-ağzı, nə də səs-səmiri yoxmuş əsla.*
*Hamı dinməz yeriyirdi başçıları qorxusundan*
*Yalnız misdən zirehləri, silahları parlayırdı.*

*Amma böyük bir ağılda sürü-sürü qoyunları*
*Sağan zaman quzuların səslərinə səs verərək*
*Sürü necə küy qoparıb fasiləsiz mələşərsə,*
*Troyanın qoşunu da eynən belə bağrışırdı.*
*Ancaq hərə başqa cürə bağrışaraq danışırdı:*
*Qarışmışdı bir-birinə başqa-başqa xalqın dili...*

*Axır gəlib bir meydanda qarşılaşdı iki qoşun*
*Mis geyimli igidlərin qalxanları, nizələri*
*Bircə anda bərk toqquşdu şaraq-şaraq, taraq-taraq,*
*Hər tərəfi fasiləsiz bir uğultu çulğaladı,*
*Öldürənin nərəsiylə, ölənlərin fəryadları*
*Bir-birinə qarışdıqca, qanlar axdı sellər kimi.*
*Dolub-daşan dağ çayları daş-qayalı yatağından*
*Aşıb sonra gurultuyla gen dərədə birləşən*
*Bir-birilə toqquşaraq nərildəyər, uğuldayar,*
*Bu gurultu uzaqlarda gedib çatar çobanlara, –*
*Bax, beləydi qoşunların dəhşət saçan uğultusu!..*
*(Orada, səh. 96-97).*

Tarixin naqisliyi, insanın zəifliyi deyilən şey gündəlik hadisələrdə, münasibətlərdə, milyardlarla, kəmiyyətcə sonsuz surətdə təkrar olub, axıb gedir. Həyat təzyiq göstərir. Xüsusən maddi amillər və inzibati-siyasi oyunbazlıqlar. Mənəvi şərtlər! Ən yaxın, qohum adamlar arasında yad münasibətlər. Dillər bir söz danışır, işlər isə başqa cürdür. Dillər "sən mənim atamsan, anamsan, qardaşımsan, bacımsan, övladımsan, həmcinsimsən" deyir, gözlərin soyuq-soyuq parlayan, daş aynaya dönmüş baxışı "sən yadsan" deyib amansız bir hüdud qoyur.

Azacıq ünvan verilən şərin kiçicik ünsürü budur ki, onu da deyirdik, bəşəriyyət tərəfindən asanlıqla həzm edilir.

Lakin şər toplanır, aşır-daşır, öz ifadəsini üz-üzə dayanan qoşunlarda, qanlı döyüşlərdə – müharibələrdə tapır.

Biz sənətin ecazkar təsvirinin təsirinə düşüb bir an üçün acınacaqlı vəziyyəti unutsaq da, ayıq başla mənzərəni qiymətləndirə bilərik. Burada söhbət insandan, xalqdan, bəşəriyyətdən gedir. Söylənir ki, insanlar, xalqlar, bəşəriyyət başsız bir axına çevrilib ayrılır, toplanır, bir-birinin üstə yeriyir. Nə üçün? Qırmaq, əzmək, qanlardan, göz

yaşlarından axan çaylar, dəryalar yaratmaq üçün! Bu halda o, insanlıqdan, xalqlıqdan, bəşərlikdən çıxıb sürüləşir.

Əlbəttə, qan, xüsusən göz yaşları təkcə müharibənin meyvəsi deyil. O, gündəlik hadisələrdə daha inadla başa gəlir. Lakin müharibə hamısını bir yerə toplayır, üzə çıxarır.

Sürüləşmə isə lap acınacaqlı haldır. Zira o da təkcə müharibədə deyil, müstəqilliyin, şüurluluğun itdiyi, yalanın, həyasızlığın, ağılsızlığın, məntiqsizliyin, amansızlığın hökm sürdüyü hər yerdə müşahidə edilir.

İstibdada xalqın sürüləşməsi lazımdır. Xüsusən, o istila maşını ilə çulğalaşdıqda.

Susdurulmuş könüllər, kilidlənmiş dillər, tapdanmış beyinlər keyfiyyətdən salınır, dünya işlək əllər dəryasına çevrilir. Sürüləşmə ləyaqət ölçüsü kimi məna edilir. Sürüləşən xalqın qabağına tikə də deyil, qırıntılar tullanır. Ən rəzil, simasız zümrədən də tələb edilir ki, sürüləşdirmə mexanizmində iştirak etsin və bunu bəşərin amalı, arzusu ilə mənalandırsın, qışqırıb haray salsın, dünyaya yaysın. Burada murdarlanan, ləkələnən ləyaqət meyarı da yaranır.

Təltiflər sürüləşmədə iştirakın dərəcəsinə görə verilir.

Beləliklə, bir tərəfdə sürüləşən insan dəryası, başqa tərəfdən xalqın sürüləşməsi, ətinin şişə çəkilib yeyilməsi gedişatında iştirak edən imtiyazlı, rəzil zümrə yaranır. Bu isə oyuncaq, müstəqillikdən məhrum, verilmiş, məqsədə vasitə olan, azacıq səhvə görə əldən alınan imtiyazdır. Aydın məsələdir ki, Axilleslər bu cür qazanda qaynadıla bilməzdi. İxtilaf, ayrılıq olmalıydı.

"İliada" döyüşə yürüyən insan kütləsinin mənzərəsini canlandırmaq üçün bir tərəfdən coşub-daşan, şahə qalxan, qayalara çırpılıb haray salan dəniz dalğalarından istifadə edirsə, başqa tərəfdən sağmal qoyun sürülərindən, analarına can atan quzuların mələşməsindən qopan uğultunu xatırladır.

Lakin buradakı sürüləşmədən məna etdiyimiz şeyin izi də görünür. Bir halda ki, sürüləşmə gündəlik həyatda və tarixdə baş verən adi şeydir.

İnsan, şəri həzm etmə, xüsusən müharibə, döyüşün törətdiyi qırğın qan dəryası ilə heç tutmur.

Dastanın təsvirində insanlar qoşun halında üz-üzə gəlir (şaraq-şaraq, taraq-taraq) bərk toqquşurlar. Öldürənin nərəsi, ölənlərin fəryadları bir-birinə qarışaraq bir uğultu kimi qulaqlara çırpılır. Qan sel kimi axır. Nə qədər qırğın olmalı, qan axmalı ki, onu dolub-

daşan, daş-qayalı yatağından çıxıb ətrafı basan, gen dərələrdə birləşərək nərildəyən, uğuldayan dağ çaylarına bənzətmək olmaz.

Biz dastanda saysız-hesabsız bu cür mənzərələrin təsvirləri ilə üzləşirik.

İnsanın müharibələrə, bu cür qırğınlar törətməyə bilavasitə ehtiyacı varmı?

Deyir, həyat amansızdır. Bu amansızlıq birrəngli olsaydı, onu başa düşmək asandı. Lakin amansızlıq adlandıdığımız şey güman edildiyindən daha çalarlı, əhatəlidir. Əgər burada təkcə o olsaydı ki, mövcudluq nə isə başqa bir şeyin hesabına başa gələr, izahatı müəyyən səmtdə aparmaqla bir iş görmək mümkün olardı. Demək mümkün idi ki, mövcudluq basqı etmək və basqıya uğramaqla bağlanır.

Basqının dərəcəsi isə saysız şərtlərdən asılıdır. Amma mövcudluqla bağlı basqının ən adisi belə dərhal amansızlıq törədir. Yenicə ayaq açan quzu dırnaqları arasında qalan bitkiləri və mikroorqanizmləri əzir, bir çoxunu məhv edir. Bu gedişdə basqıya dözüb, həyat qüvvəsini qoruyanlar öz dayanıqlığını daha da möhkəmləndirirsə, bu tamamilə başqa məsələdir. Həmçinin bu özü də onu sübuta çatdırır ki, həyat amansızlıqlar seylabından süzülüb axır...

Amansızlığın başqa şərti ondan ibarətdir ki, yenilik köhnənin qəbirstanlığı üzərində yüksəlir. Bu "yeni", "köhnə" münasibətlərinin mürəkkəblikləri ilə bağlı söhbətləri burada uzatmağa ehtiyac yoxdur. Yalnız onu xatırladaq ki, "yeni", "köhnə" münasibətlərinin izahı elm tərəfindən birtərəfli aparılmış.

Amansızlığın ən böyük özülü tələblərin irəli sürülməsi, ehtiyacların ödənməsi zərurətindən başa gəlir. Adətən canlılar bir-birinə yemdir. Ən adi halda heyvanlar bitkilərlə, insanlar isə bitkilər və heyvanlarla qidalanırlar. Bəzi heyvanların bitkilərlə yanaşı bir-birilərinə də yem olması faktı amansızlığı yırtıcılıq həddinə gətirib ifrata varır. İlkin pillədə müşahidə edilən həmin keyfiyyəti insan bu günə qədər də özündə saxlayır.

İnsan həm yaradıcılığa başlamaqla, həm də ülviyyət yaratmaqla heyvanatdan qəti şəkildə, fərqli surətdə ayrılmış. Lakin bitkidən başqa ət də yeməsi ilə insan yırtıcılarla bağrıbadaşlığını büruzə verir. Və s. və i.a.

Bu, amansızlığın ilkin, ibtidai, açıq şəklidir. Amansızlığın insan üşün aşırı, daha əzablı forması ictimai gedişatda başa gəlir ki, dini, bədii, fəlsəfi, sosioloji fikir bunları ətraflı işıqlandırmış.

İnsan ehtiyaclarını ödəmək üçün istehsalla məşğul olur. İstehsalla bağlı planetimizdə gedən abadlıq və məhsul kütləsi göz önündədir. Bu, həm zəruri, həm də fərəhlidir. Lakin insan bir-biri üçün yem olmadığına görə adam kəsmək, qan axıtmaq, müharibə, qırğın həm zəruri deyil, həm də fərəhsizdir. Ona görə də bəşəriyyət kəsmənin, qan tökmənin, müharibənin, qırğının qarşısını almaq problemləri irəli sürür.

Müharibələr zəruri tələblərdən irəli gəlmir, qaçılmaz da deyil. O, tarixin, cəmiyyət həyatının qarmaqarışıq (xaotik) hərəkətlərinin məhsuludur. Ziddiyyətlər haradan başlayır, haralara doğru gedir, nəticə nə olur, elm tərəfindən izah edilmiş. Burada yalnız onu söyləmək mümkündür ki, iradə hadisələr məcmusunun qarşısını ala bilmir. Buna saxta arzular, azğın ideyalar da qoşulub aşırı hal yaradır, müharibə şərtləri tüğyan edir.

Sözün qısası, hadisələr çoxluğu məntiqsizliklər çoxluğu ilə bağrıbadaşlığa başlayarkən ağıl çatışmamazlığı da başlayır.

Müharibə nəinki ehtiyacların ödənilməsi üçün bilavasitə lazım olan şeyi vermir, həm də o, hərbi iş deyilən sahə yaradaraq, aşırı izafi xərclər dünyasını başa gətirir.

Hərbi xərclərin nə demək olduğu bu gün təşkilatçıların özünə daha artıq məlumdur. Amma ehtiyacların ödənilməsində həmin zəruri olmayan olan hərbi xərclərin nəticələri, yəni hərbi vasitələr döyüşlərin aparılmasına meydan verir.

Müharibələrin gedişi bolluğu qıtlığa çevirir, firavanlıq səfalətlə əvəz olunur, həyasızlıq güclənir, mənəvi düşkünlük baş alıb gedir, cəmiyyət fəaliyyətsizlik girdabında boğulur. Dəhşətli qırğın, dağıntı!

Biz dastandan gətirdiyimiz parçada həmin lüzumsuz qırğının kiçicik bir mənzərəsini gördük. Bu mənzərənin bizə aşıladığı fikir Zevs-Aqamemnonlar, Axilleslər çərçivəsindən qırağa çıxdı.

Amma Aqamemnon-Axilles münasibətləri elədir ki, ordan tarixi görmək üçün də pəncərə açılır.

Zevs Axillesə bəraət qazandırmaq üçün Aqamemnonu sonu qələbə ilə təmin edilməyən bir döyüşə sürüklədi. Lakin burada nəticədən əvvəl bədii cəhətdən cazibəli qanlı bir ziyafətlə qarşılaşırıq. Həm də biz dastanda təsvir edilən qanlı ziyafətlərin lap başlanğıcındayıq.

Əlbəttə, izlədiyimiz ideya elədir ki, döyüş səhnələrini küll halında araşdırıb müharibələrin tam antibəşəri mahiyyətini burada üzə çıxara bilmərik.

Lakin müharibələr bəşər həyatında tam hadisədir və həyatn bir hissəsidir. Ona görə də bəzi cəhətlərə müraciətlə izlədiyimiz fikrə yaxınlaşmaq məcburiyyətimiz var.

Müharibənin gedişatı hadisələr çoxluğu yaradır. O, təkcə insanları deyil, allahları da üz-üzə gətirir. Bu hadisələr çoxluğunun gedişi və yekunu isə təkcə yer adamlarına, insanlara deyil, göy sakinlərinə, Zevsi çıxmaqla başqa allahların özünə də bəlli deyil.

Burada müəyyən allahlar döyüşlərin gedişində yunanlara, başqaları isə troyalılara xidmət göstərir. Zevs isə qıraqda dayanmışdır, gedişatı idarə edir, hadisələri üz-üzə qoyur.

İş o yerə çatmış ki, hadisələrdən baş açmayan bəzi allahlar və hətta Zevsin ortağı – həm bacısı, həm arvadı ilahə Hera sıx-sıx çaşqın halda Zevsə müraciət etməli olur.

Dənizlər sahibi Poseydon yunanların müdafiə tədbirlərindən, gördüyü işlərin əzəmətindən təşvişə düşüb Zevsə bu cür müraciət edir:

*“Allahlarsa toplaşaraq Ulu Zevsin dövrəsinə,*
*Axeylərin gördükləri bu işlərə baxırdılar.*
*Yer titrədən pak Poseydon söz alaraq belə dedi:*
*“Ey atamız, Gen dünyada indi fani insanlardan*
*Kimdir, söylə, ölməzlərə yalvararaq niyaz edən?*
*Görürsənmi, axeylilər gəmilərin dövrəsində*
*Necə hasar çəkib, dərin xəndəklər də qazımışlar?*
*Bəs nə oldu, hanı, söylə, allahlara qurbanları?*
*Bu hasarın şan-şöhrəti yayılacaq hər tərəfə,*
*Apollonla biz – qəhrəman Laomşdont xatirinə,*
*Məşəqqətlə tikdiyimiz hasar yaddan çıxacaqdır!”*

*Bərk qəzəblə buludyığan Zevs cavab verdi ona;*
*“Yer titrədən qadir allah, söylə görüm, qəsdin nədir?*
*Allahlardan darda səndən zəif olan biri əgər*
*Bu sözləri söyləsəydi, bəlkə haqlı sayılardı.*
*Axı sənin adın-sanın yayılmışdır hər bir yana!*
*Heç qəm çəkmə! Axeylilər ordan üzüb gedən kimi,*
*Dalğalarla o hasarı eyləyərsən yerlə-yeksan,*
*Yenə parlaq dəniz qumu basar həmin dik sahili,*
*Axeylilər hasarından qalmaz əsla bir əlamət!”*

*(Orada, səh. 160).*

Poseydonun giley-güzarı burada, zahirən, fanilərin, adi insanların gördükləri işlərin əbədilər olan, allahlarınkını üstələmək ehtimalından gedir. Əslində troyalıların tərəfində olan Poseydonu yunanların müdafiə tədbirləri və bu yolla da üstünlük qazana bilmə ehtimalı narhat edirdi.

Zevsə isə döyüşdə, bu qırğın – qan dəryasında hələlik tərəflərdən birinin üstünlüyü yox, dayanıqlıq lazım idi.

Dayanıqlıq qələbə gətirmir, işi uzadır, qırğını artırır, qan dəryasının hüdudunu tükənib bitməz edir, həyatı əzaba çevirir. Bəşəriyyətin başını aşağı dikməsi, bir nəfərə – Axillesə haqq qazandırması üçün Zevsə bu lazım idi.

Poseydonu həyəcanlandıran şeyə Zevs sakitliklə cavab verir ki, narahat olma, yunanlar işlərini başa çatdırandan sonra oradan çıxıb gedəcəklər. O zaman bir dalğa oraları yuyub hasardan əsər-əlamət qoymaz, təbiətin bakirəliyini bərpa edərsən.

Buradan çıxan iki nəticə mənalıdır. İstila hər zaman yekunsuz qalır, nəticələri isə silinib gedir. İkincisi isə odur ki, insan öz mühitini yaradarkən təbiətin ilkinliyini, bakirəliyinin qorunmasını nəzərə almalıdır.

Zevsin tədbirlərini kamil şəkildə anlamayan, hövsələsizlik göstərən Hera onu təmin etməyən, narahatlıq törədən işlərlə bağlı Zevsə dönə-dönə müraciət edir:

*“Yelqanadlı atlarını qamçılayıb sürdü Hera,*
*Səmaların darvazası tez açıldı qarşısında.*
*İlahələr çapa-çapa keçdilər bu darvazadan.*
*Ulu Zevsi tez tapdılar... Ölməzlərdən uzaqlarda*
*Olimpin dik zirvəsində o, tək-tənha oturmuşdu.*
*Hera orda saxlayaraq gərdunənin atlarını,*
*Kronion ulu Zevsə xitab edib belə dedi:*
*“Aresin bu fitnələri toxunmurmu sənə, ey Zevs?*
*Axeylərdən gör nə qədər igidləri həlak etdi!..*
*Həm də tamam nahaq yerə... mən lap yanıb tökülürəm*
*Ancaq xəbis Apollonla Afrodita qanun pozan*
*Bir axmağı qırğınlara təhrik edib zövq alırlar.*
*Ey atamız! Söylə görüm, mən Aresi o meydandan*
*Həqarətlə qamçılayıb qovsam, sənə toxunmaz ki?”*

*Buludyığan Kronion ona belə cavab verdi:*

*“Yaxşı olar bu işi sən Afinaya tapşırasan*
*Ona əzab verməyi o çoxdan adət eləmişdir”.*

*(Orada, səh. 124).*

İki tərəf vuruşur: troyalılar və yunanlar. Allahların da tərəf-tərəf olması məlumdur. Yunanlar tərəfində dayanan Hera troyalılara kömək edən Aresi baş Allahın gözündən salmaq üçün yarı hiddətli, yarı çaş-baş şəkildə Zevsə dil açır.

Lakin Zevs həqiqətən baş allahdırsa, o, həm yunanlara, həm də troyalılara mərxsusdur. Beləliklə, məntiqə görə, baş Allah tərəfindən ancaq birinin yox, hadisələrin hamısının başında dayana bilər. Belə də var. Hera da, Afina da, Hermes də, Apollon da, Poseydon da, Ares də, Afrodita da söz-söhbətdir. Hadisələrə təkan verən Zevsin özüdür. O, elə də, belə də fəaliyyət göstərir. Düzmələr tərtib edir (yəni kombinasiyalar qurur), işləri elə gətirmək istəyir ki, sonda Axillesin haqqı təmin olunsun.

Biz yenə də hadisələr – allah, allah – hadisələr çalarlarında məzmunsuzluq qarşısında qalırıq. Əgər Zevs həqiqətən baş allahdırsa və özü də Axillesin tərəfindədirsə, dünyanı bu qədər qana çalxalamaqdansa, daha ilahi (ülvi), yəni bəşəri yolla Axillesin ləyaqət və qüdrəti başa gələrdi. Bir halda ki, hər şey Allahın öz əlindədir.

Lakin biz lap başlanğıcda söyləsək ki, hər cür Allah ideyası ziddiyyətdir.

Təkcə çoxallahlıqda yox, təkallahlıqda da belədir.

Monoteist dinlərdə insanlar ibadət və dua edir. Lakin hər şeyin yaradıcısı, hadisələrin, dünyanın cilovlarını əlində tutan Allah işləri elə tərtib edə bilməzdimi ki, ibadətə, duaya ehtiyac qalmayaydı? Çünki duada Allahın işinə qarışmaq imkanı var. Halbuki təkallahlıqda tanrının ortağı yoxdur... Və s. və i.a.

Ən “mükəmməl” dinlərdə Allah ideyası ziddiyyətlidir. Onda ki, çoxallahlıq ola...

Fakt budur ki, Zevs Axillesə haqq qazandırmaq üçün sonsuz qırğınlardan, geniş qan dəryasından ibarət bir “ziyafət” təşkil etmiş (bir bəşəriyyətin öz-özünü sürüklədiyi “ziyafətə” bax!). Nəinki insanlar, Zevsin əsil məqsədindən baş açmayan allahlar da çaş-baş qalmış. İndi müxtəlif səmtlərdən onlar Zevsə müraciət edirlər.

Zevs gətirdiyimiz əvəvlki nümunədə Poseydonun ağzını yelə verdi. Burada da Heranın köpünü alaraq önəmsiz bir iş kimi söyləyir ki, bu işi sən Afinaya tapşır.

Zevs hərəyə bu cür təskinlik verir. Özünün tərtib etdiyi işlər isə davamındadır. Müharibə uzanır. Döyüşlər, qırğınlar baş alıb gedir. Nə qələbə kimi bir qələbənin, nə də məğlubiyyət kimi bir məğlubiyyətin sonu var.

Vəziyyətə dözməyən Hera məsələni daha da qəti şəkildə qoyur və açıqlıqla Zevsə müraciət edir:

*“Hera isə qəzəbini gizlətməyib belə dedi:*
*“Nə zalımsan, ey Kronid! Bu nə sözdür danışırsan!*
*Biz çox yaxşı bilirik ki, sən güclüsən, qüdrətlisən!*
*Ancaq yanır ürəyimiz nizəvuran danaylara*
*Amansız bəd taleləri onları məhv edəcəkdir*
*Əmr edərsən, – əsla hərbə qarışmarıq heç birimiz*
*Ancaq sənin qəzəbindən hamısı məhv olmamaqçün*
*Arqivlərə qoy faydalı bir məsləhət verək barı”.*

*Buludyığan Zevs ona cavab verib belə dedi:*
*“Sən ey öküzgözlü Hera, istəyirsən günü sabah,*
*Görərsən ki, qadir Zevs nizəvuran arqivlərin*
*Yığın-yığın qoşununu necə həlak edəcəkdir!*
*İgid Hektor o günədək hücum edib qıracaq ki,*
*Gəmilərin qarşısında Pelid birdən ayılaraq*
*Görəcək ki, qoşunları gəmilərin lap yanında*
*Vuruşaraq Patroklun da cəsədini tapdalayırlar.*
*Hökm budur! Sən qəzəblən, heç vecimə deyil mənim!”*
*(Orada, səh. 179).*

Hera məsələni Zevsin qarşısında bu cür açıq və qəti qoyur. İş belə olanda Allah dərhal məqsədini açır və hər cür təklifi rədd edir.

Bütün bu şəlpəşiklər hamısı Axillesin ləyaqətini üzə çıxarmaq, hüququnu qaytarmaq, haqqını ödəmək üçündür.

Bir bu məqsədin, bir nəfərin, – Axillesin naminə fani adlanan bölük-bölük insan dünyası qırğına verilir və müharibənin tələblərindən irəli gələn başqa vəhşətlər başa gəlir. Adama deyərlər nə olub, nə xəbərdir? Hər kim olsa bir nəfərdir. Nə üçün bu bir nəfərin ucundan dünya bada verilir? Yenə bu bir nəfər allahların öz sırasından olsaydı, vəziyyəti anlamaq asanlaşardı. Amma Axilles də fanilərdəndir. Məsələnin məğzi də elə bundadır. Məsələ ondadır ki, Axilles müşkülü bəşəriyyətin lap başlanğıcından bu günə qədərki

vəziyyəti təmsil edir. Biz buna tarixin xeyrə nisbətən şəri daha asanlıqla həzm etməsi demişdik.

Tarixin gedişi özü şər dünyasına verilən qulaqburmasıdır.

Deyə bilərlər ki, burada xeyir də zərərdidə olur. Lakin xeyir onsuz da çarmıxdadır. Bəlkə verilən cəzalar vəziyyətdən çıxışın hələlik yeganə yoludur. Çünki yarımçıqlıq, ağılsızlıq, məntiqsizlik, həyasızlıq o həddə çatmış ki, başqa vasitələr vəziyyəti islah üçün təsir qüvvəsinə qabil deyil. İslaholunmaz cani və hər cür ölçünü itirmiş həyasızla onun özü kimi rəftar etmək lazım gəlir.

Xeyrə nisbətən şəri daha asanlıqla həzm edən bəşəriyyətə əkdiyindən bir az yedirmək lazım gəlir. Əks təqdirdə özünü və vəziyyətini zərrəcə anlamaq işi əbədi müşkülə çevrilər (guya ki, bəşəriyyətin gözü görüb, ağlı kəsəndir, əbədi müşkülə də düşməyib). Nə qədər ki, insanlıq ilahi vəziyyətə yüksəlmir, allahın mövqeyində dayana bilmir, onun içərisindən çıxan istedadlı, güclü şəxsiyyətlər, heç olmazsa özləri üçün bu mövqeyin qayğısına qalmır – şər meydan sulayacaq. Halbuki biz Axilles-Aqamemnon telində və Zevs-Fetida vaqeəsində gördük ki, Allah özü belə, ilahi mövqedən sürüşür. Ona görə də kamilləşmə müşküllərin törətdiyi çarpışmalar və daimi tərəqqi yolu ilə başa gəlməlidir.

Zevs, yəni hadisələrin gedişi heç bir təklifi nəzərə almır. Döyüşlər, qırğın isə baş alıb gedir. O qədər ki, müharibənin naşirləri belə bu sonsuz çarpışmalardan təngə gəlirlər: həm troyalılar, həm də yunanlar!

Troyalıların çaşqınlığından:

*“Şəhərdə də Priamın sarayının önündəki*
*Akropolda haylı-küylü bir yığıncaq toplaşmışdı*
*Orda belə söyləyirdi Antenor – o müdrik qoca:*
*“Ey troya övladları, eşidin, ey müttəfiqlər!*
*Qəlbim sizə bu sözləri söyləməyə vadar edir.*
*Qərar verin! Yelenanı, gəlin böyük qənimətlə*
*Menelaya qaytaraq biz, – andı pozan biz olmuşuq!*
*İnanın ki, savaşmaqdan heç bir fayda yoxdur bizə*
*Mən deyəni etmədikcə, asudəlik olmayacaq!”*
*Belə deyib oturdu o, həmin saat dik qalxaraq*
*İpək saçlı Yelenanın allahsifət əri Paris*
*O qocaya cavab verib, belə dedi saymazyana:*
*“Ey Antenor, dediklərin heç xoşuma gəlmir mənim!*

*Əgər yaxşı düşünsəydin, başqa cürə danışardın!*
*Onda yəqin pak allahlar oğurlayıb dərrakəni!*
*Troyalı igidlərə budur mənim son sözlərim:*
*Açıq-aşkar deyirəm ki, arvadımdan əl çəkmərəm!*
*Gətirdiyim sərvətlərin üstünə də artıraraq,*
*Hamısını axeylərə qaytarmağa hazıram mən".*

*(Orada, səh. 159-160).*

Antenorun təklifləri ilə bağlı demək mümkündür ki, burada da ağıllı sözlər qulaqlara çatmadı.

Qulaqlar müdrikləri dinləmədi. Nəticə isə birdir. Qırğın davam etdi, Troya – vətən də viran qaldı. Dastandan isə bilirik ki, Yelena da əldən çıxır.

İndi məsələnin, başqa təsadüfün gümanına gedək. Əgər qulaqlar müdrikləri dinləsəydi, bundan nə alınardı? Kim təminat verə bilər ki, yunanlar dinc yolla istədiklərinə çatandan sonra sülh şərtlərinə hörmətlə yanaşacaq və təcavüzün yeni dalğası aləmi bürüməyəcəkdi...

Parisin Antenora cavabı ilə bağlı demək mümkündür ki, Aqamemnon nəfsini güzəştə getməyəndə Axillesi küsdürdüyü kimi, burada da Paris bütün Troyanı nəfsinə fəda edir. Dünya da viran olur, xəsarət alır.

Lakin Yelenaya hələ bu başdan ölkə-xalq səadətinin simvolu kimi baxmışıq. Hərçənd ki, Yelena Yunanıstana, yunanlara məxsusdur. Bu baxımdan da həmin yavru onların şərəf və səadətinin simvoludur. Lakin həmin Yelena indi Parisin evindədir. O da məsələni belə qoya və Yelena da indi Troyanın, Troyalıların şərəf və səadətinin simvoluna çevrilə bilər. Axı dastanda Menelaya olduğu kimi, Parisə də Yelenanın əri deyilir.

Burada səadət simvolunun iki sahibliliyi meydana çıxır və səadətdə oynaqlıq, bir müşkül yaranır. Tarixdə müşahidə edildiyi, bəşərin taleyində olduğu kimi...

Əgər belə isə Yelenanı itirən tərəf istilaya uğrayan, əsarət boyunduruğuna düşən tərəf kimi mənalandırılmalıdır.

Filan, filan səbəblərə görə, demək mümkündür ki, əsarətə düşməkdənsə, ölüm yaxşıdır. Bunun üçün də şərəf və səadətin mühaifizəsi yolunda ölüm-dirim vuruşuna atılmaq düzgün yoldur.

Zira, hələ başlanğıcda şərlə döyüşün və ya ona güzəştlə təslimin – hər ikisinin dolanbaclarını (metamorfozlarını) gördük.

Ona görə müxtəlif mülahizələri və tarixin məntiqini bir anlıq gözardı edib, indicə qarşımızda dayanan vəziyyətə qayıtmalıyıq.

Burada isə qırğın hökmü-rəvandır. O qədər ki, troyalıların diltəngliyini gördük, yunanlar da həmin vəziyyətdədir.

Yunanların çaşqınlığından:

*“Troyanlar keşikdəydi... Axeylərsə basılmağın*
*Ən qorxulu əlaməti – bərk həyəcan içindəydi.*
*Dərddən-qəmdən boğulurdu ən cürətli mərd igidlər.*
*Uzaqlardan – Frakyadan əsən Borey ya da Zefir*
*Balıq dolu dənizləri necə birdən coşdurursa, –*
*Nəhəng, qara, dik dalğalar kimi ucalaraq;*
*Necə alt-üst eləyərsə dənizdəki yosunları, –*
*Tunc geyimli axeylərin qəlbləri də bax, beləydi!..*

*Qəlbi qəmlə-dərdlə dolu Aqamemnon gəzə-gəzə*
*Uca səsli carçılara əmr edirdi bircə-bircə*
*Axeyləri səs-səmirsiz yığıncağa toplasınlar.*
*Carçılara qoşularaq özü də çox zəhmət çəkdi.*
*Yığıncaqda hamı qəmgin... birdən qalxdı Aqamemnon*
*Təkələrin dırmaşdığı dik qayadan damcılayan*
*Qara sulu çeşmə kimi süzülürdü göz yaşları*
*Dərindən bir ah çəkib o, belə dedi Axeylərə:*
*“Ah, a dostlar! Siz ey əziz sərkərdələr, müşavirlər,*
*Böyük Zevs düçar etdi məni böyük fəlakətə!*
*O daşqəlbli vəd etdi ki, möhkəm bürclü Troyanı*
*Darmadağın eləyərək dönəcəyəm vətənimə...*
*İndi isə vədə xilaf çıxıb, mənə əmr edir ki,*
*Minlərcə can qurban verib bomboş qaçım Arqosa mən!*
*Qadir Zevsin kefi indi bizdən bunu tələb edir.*
*Çox-çox möhkəm qalaları viran edib Kronion,*
*Hələ yenə edəcəkdir, – qüdrətinin yoxdur sonu...*
*İndi gəlin, hamı bircə mən deyənə əməl edək*
*Ləngimədən gəmilərə minib dönək ana yurda!..*
*Gen küçəli Troyanı almaq bizə qismət deyil!”*

*Belə dedi. Hamı susdu, sükut çökdü ağır, dərin*
*Xeyli sakit oturdular dərdli-qəmli axeylilər.*
*Onda birdən qalxıb dedi uca səsli, mərd Diomed:*

*“Sənin bu boş sözlərinə ən əvvəl mən zidd gedirəm!*
*Yığıncaqda qayda budur, – heç hirslənmə, ey hökmdar!*

*Bir az əvvəl danayların hüzurunda rüsvay edib*
*Məni qorxaq adlandırdın... haqqın varmı sənin buna!*
*Qoca-cavan axeylilər məni yaxşı tanıyırlar!*
*O hiyləgər Kronoğlu sənə bir şey verib ancaq:*
*Hökmdarlıq əsasıyla, hörmət-izzət, hökmranlıq,*
*İradəsə, verməmişdir...*

*(Orada, səh. 185-186).*

Onda ki, Zevs Aqamemnonu qələbəyə inam hissi ilə döyüşə həvəsləndirirdi, ardını düşünmədən uğur alovları ilə alışıb-yanır, ətrafı duymur, laqqırdayır, bir çəpiş, bir buzov kimi şıllaqlayırdı. Həqiqətən şıllaq atmaq idi ki, yüngülməcazlıqda xalqın ağlını yerindən eləmək, məcazı, əhvalı ilə oynamaq yolu ilə eli-günü sınamaq eşqinə də düşmüşdü. İndi də qəti məğlubiyyəti hələlik söyləmək olmaz. Lakin Aqamemnon rəzilliyindən doğan miskinliyi ümidsizlik iqlimi yaradır.

“İliada”da qəhrəmanlar çoxdur. Axillesdən başqa Odissey, Ayaks, Diomed və s. bunların heç birinin hakimiyyəti Aqamemnonunkuna bərabər deyil. Lakin onlar uğur anında Aqamemnon qədər laqqırdamır, uğursuzluq da miskincəsinə baş aparmır, hadisələrin tələblərinə uyğun cavab verirlər. İndi uğursuzluq anıdır. Lakin Aqamemnonun hakimiyyəti əlindədir. Hakimiyyət isə ictimai gücü fərdi keyfiyyət kimi üzə çıxarır. Deməli, Aqamemnonun hələ laqqırdamaq imkanı qalır. O, elə qeyrət sahibi deyil ki, hakimiyyətdən doğan ümumi məsuliyyətin qayğısından özünü itirsin. Axı bu cür məsuliyyət sahibləri iflas anında da özlərini itirmir, öləndə də kişi kimi ölürlər.

Belə çıxır ki, əgər uğursuzluğun ardınca hakimiyyət də Aqamemnonun əlindən alınsa idi, onda o ictimai və fərdi keyfiyyətin bataqlığına qərq olardı.

Beləliklə, Aqamemnon özünü kiçicik uğurda laqqırdayan, ilk uğursuzluqda sızıldayıb baş aparan dəyərsiz, ürəklərə əzab verən ləyaqətsiz, rəzil adamlar kimi aparır.

Biz demirik ki, Aqamemnon diqqət cəlb edən şəxsi keyfiyyətlərdən məhrumdur. Xüsusən onun təkbətək döyüşləri və s. var. Amma o bərk ayaqda sınaqdan çıxan, dar günün qəhrəmanı deyil.

Əksinə, Aqamemnonlar hakimiyyətin cilovlarını əllərində bərk-bərk tutarkən təşəxxüs satan, dünyanın taleyi ilə oynayan, müştəbeh və əfkari-ümumiyyəni də müştəbehlikdən irəli gələn tələblərə məcbur edən, dar günün sınaqlarından çıxıb bərk anda qəhrəmanlıq göstərən Axilleslərə şıllaq atan pəzəvənglərdəndir.

Biz troyalıların çaşqınlığı zamanı gördük ki, xalq döyüşü saxlamağı təklif etdiyi halda, Paris güzəştə getmir. Burada isə vəziyyət əksinədir. Aqamemnon özü vuruşmadan üz çevirmək qərarına gəlir. Amma yunanlar troyalılardan fərqli olaraq sərkərdə ilə razılaşmır, döyüşü axıra qədər davam etdirmək əzmində olduqlarını bildirirlər.

Bəli, Zevs belə istəyirdi. Zevs istəyirdi ki, döyüş olsun, qırğın davam etsin, nə qələbə qələbə kimi başa gəlsin, nə də məğlubiyyət məğlubiyyət təkin...

Zevs bunları Axillesin xatirinə tərtib edir. Aqamemnon Axillesə şıllaq atmışdı. İndi ona həddini göstərmək lazım idi. Lakin ortada xalq qırğını gedirdi. Onun günahı nədir?

Çünki xalq xeyirə nisbətən şəri daha asanlıqla həzm edir, təqdir üçün hünərdən çox, hakimiyyətin rəyinə diqqət yetirir. Onun mütiliyi məhəbbətindən üstündür. Onun xeyrinə idrak fəaliyyətdədir, ürək çırpınır. Lakin o, ağlın hökmlərinə qulağını tıxayır, həmin qulaqları hakimiyyətin şüarlarına şəkləyir. Bununla da o, nəinki qəhrəmanı meydanda tək qoyur, həm də öz taleyini tufanın, küləyin qabağına verir.

Şəri asanlıqla həzm edən dünyanın əsas leytmotivi qan və bundan irəli gələn bəhrələrdir. Talan, qəbahət, təcavüz, cinayət, yalan, hiylə, ağılsızlıqlar, məntiqsizliklər seylabı, göz yaşları, irin, qan, fəlakət, faciələr, viran qalan dünya, şikəst olan insan, mənəvi qırıqlıq... Zira, müəyyən fikri həyata keçirmək üçün Allah – Zevs özü belə istəyirsə, daha burada nə etmək olar?

Sərkərdə işi yarımçıq qoymağa, fəaliyyəti saxlamağa hazırdır. Əfkari-ümumiyyə onunla razılaşmır. Qələbə isə görünmür, qırğın baş alıb gedir.

Bəs nə etməli?!

Hadisələrin gedişi, hər şey Axillesin mövqeyinə, ləyaqətinə ehtirama, haqqının müdafiəsinə yol açır.

Deyir, ağılsız baş sahibinə donuz güddürər. Aqamemnon hökmdardır. Onun hər cür şəraitdə laqqırdamaq və guruldamaq imkanı var (hərçənd yekun bu cür hərəkətləri cəzalandıran şeydir). Bu şərtlə ki, heç olmasa pirinə təpik atmasın. O isə hər cür şəraitdə, yəni müha-

ribə vəziyyəti ilə yanaşı, pirinə də təpik atır, yəni Axilleslə özü arasında uçurum yaradır.

Bu zaman Zevs qələbə vədi ilə onu döyüşə həvəsləndirirdi. Aqamemnon da bu ümidlə laqqırdayır və guruldayır. Bu isə indi mümkün deyildi.

Qaydasınca həyat və fəaliyyətə laqqırdamaq və guruldamaq lazım deyil. Başqa sözlə, laqqırdamaq və guruldamaq antihəyatdır. Lakin biz tarixə nəzər yetirdikdə talan, qan, irin, müsibət və s. ilə yanaşı laqqırdamaq və guruldamağın ümumi mənzərəsini müşahidə edirik. Barmaqla sayılan nadir hallar sərf-nəzər edilərsə, laqqırdamaq və guruldamaq dövlətlərin, hökmdarların ümumi keyfiyyəti olmuş.

Ona görə də kəlamları bir tərəfə buraxıb hökmdarlara söyləyirik ki, guruldamağınız da, Homerləri, Nizamiləri, şəninizə mədhlər yazmağa məcburiyyətə davam edin. Homerlərin, Nizamilərin də sətirarası danışmağa məcbur olmaqları ilə yanaşı, mühitdə simasız, zavallı, rəzil məddahlar sürüsü də yaransın. Bu şərtlə ki, pirinizə təpk atmayın. Yəni laqqırdamağı, guruldamağı pirinizə təpik atana qədər edin. Pirinizə təpik atdınız, bu iş başa çatmış olur.

Aqamemnon isə pirinə təpik atmışdı, laqqırdamağı və guruldamağı da davam etdirirdi. Beləliklə də, oynaq vəziyyətə düşdü. Aqamemnon Axilleslə özü arasında uçurum yaratmaqla səhvə yol vermişdir.

Aqamemnon Zevsin aldadıcı qələbə vədi ilə haylanaraq döyüşə atılmaqda da səhv etmişdi.

İndi də aldadıldığını və səhvlər silsiləsində dolaşdığını başa düşdükdə yeni səhvlər etməklə döyüşü buraxıb geri qayıtmağı buyururdu. Bununla da o, özünü əyalı tərəfindən töhmət altında qoydu...

Biz Diomedi dinlədik. Diomedin çıxışı nə qədər bəyənilməli ki, onu müdrik qoca hesab edilən Nestor davama başlayır.

Nestor Aqamemnona məsləhət verir ki, zəngin bir süfrə açsın, adamları toplayıb bir məclis düzəltsin. Yaranmış vəziyyəti birlikdə müzakirə edək:

Çünki:

*“...Bizə indi ən lazım olan şey –*
*Yaxşı, gözəl məsləhətdir. Gəmilərin qarşısında*
*Saysız düşmən tonqalları alov saçır üfüqlərə*
*Bu, əlbəttə, aramızda heç bir kəsi sevindirməz...*
*Bu güc ya xilas, ya da məhv edəcək ordumuzu”.*

*(Orada, səh. 187).*

Yəni fikirlərin söylənilib dinlənilən an, müəyyən düşüncəni bərqərar vəziyyətə gətirən gecə taleyin düyün nöqtəsidir.

Adama deyərlər, gördün, Aqamemnon, vəziyyət səni ağıllı sözlərə qulaq asmağa, məsləhətləri dinləməyə məcbur etdi! Yığıncaqda birinci çıxışda bulunan Nestor da Aqamemnona həmin istiqamətdə söhbət açır:

*"...Zevs sənə hökmdarlıq*
*Bəxş etmiş ki, bu xalqların zəhmətinə qatlaşasan, –*
*Həm danışmaq, həm dinləmək ən çox sənin vəzifəndir,*
*Ağıllı söz desə hər kəs, etməlisən ona əməl.*
*Yaxşı, pisi ayırd etmək, əlbət sənin hökmündədir...*
*Sən, ey Zevsin törəməsi, həmin gün ki sən Pelidin*
*Qəzəbinə bais olub, zorla aldın qızı ondan,*
*Dinləmədin sözümüzü, – nələr dedim onda sənə!..*
*Sən isə, öz qüruruna aldanaraq, allahların*
*Hörmətinə layiq olan bir igidi təhqir etdin,*
*Aldın ondan qənimәti... indi gəlin, çarə tapaq*
*Ürəkaçan hədiyyəylə, ən səmimi xoş sözlərlə*
*Ürəyini ələ alaq, qane edib razı salaq".*

*(Orada, səh. 188).*

Təkcə bu qədər mühüm bir məsələdə deyil, hər işdə ağıllı sözü dinləmək, görünür vacibdir. Bir halda ki, vəziyyət özü başlanğıcda eşitmək belə istəmədiyini sonda zəruriyyətlə qəti şəkildə başa gətirməyə aparıb çıxarır. Necə ki, indi Aqamemnon Nestorun məsləhətini acgözlüklə dinləyir və dərhal həmin tövsiyyələrə qoşularaq daha geniş şəkildə öz qərarını bəyan edir.

Aqamemnonun peşmançılığının etirafı və barışıq üçün rəmmallıq edib rəml atması ibrətlidir:

*"Sən ey qoca, sözün düzdür, məni haqlı daşlayırsan*
*Günühkaram! Danmayıram! Ulu Zevsin bəyəndiyi*
*Tək bir insan yenilməyən bir orduya bərabərdir.*
*İndi onu ucaldaraq, alçaltmışdır axeyləri.*
*İndi ki mən bədbəxtlikdən hissə uyub səhv etmişəm*
*Ona saysız peşkəş verib, düzəldərəm öz səhvimi*
*Qarşınızda bir-bir sayım ona layiq bəxşişləri*
*Düz on talant xalis qızıl, düz iyirmi parlaq ləyən,*
*Yeddi ədəd od görməmiş mis səpayə, on iki də*
*Yarışlarda qalib gəlmiş yeyinayaq ən yaxşı at...*

*O atların mənim üçün qazandığı mükafatlar*
*Kimdə olsa, yoxsulluqdan korluq çəkməz, bu dünyada.*
*Ən qiymətli qızıla da ehtiyacı olmaz əsla.*
*Verim ona öz işini yaxşı bilən yeddi arvad, –*
*Gözəl, abad Lesbosda mən bir-bir seçib bəyənmişdim.*
*Gözəllikdə tayları yox, gözəllərin gözəlləri, –*
*Üstəlik o, Briseyin qızını da qaytarmıram.*
*Hamınızın hüzurunda and içərək deyirəm ki,*
*Onunla mən baş yastığa qoymamışam bir yataqda,*
*Aramızda arvad-kişi əlaqəsi olmamışdır...*
*Bütün bunlar istəyərsə, günü bu gün çatar ona.*
*Allahların köməyilə Priamın şəhərini*
*Alanda da qoy doldursun gəmisinə bil mis, qızıl, –*
*Özü gəlsin qəniməti biz ayırıb bölən zaman.*
*Troyalı qızlardan da, Yelenadan başqa bütün*
*Gözəllərin arasından iyirmi qız seçib alsın.*
*Biz bir zaman vətənimiz Arqosa da qayıdanda*
*Mənə damad ola bilər... naz-nemətlə böyütdüyüm*
*Doğma Orest kimi mən onu da əzizlərəm.*
*Mənim gözəl sarayımda üç qızım var, adları da*
*Xrisefemida, İfiapassa, laodika... – təmənnasız*
*Bəyəndiyi qızı alsın, aparsın öz sarayına.*
*Üstəlik mən bol cehiz də bağışlaram, o qədər ki,*
*Bu vaxtadək hələ heç bir qız qismət olmamışdır.*
*Əhalisi bol və zəngin yeddi şəhər bağışlaram:*
*yaşıl otlu Gira ilə Kardaeşli, Yenelu da,*
*Çox müqəddəs Feri ilə bol çəmənli Aifeynı,*
*Üzümlüklü????? Pedas ilə baş görkəmli Epeyanı, –*
*Bütün bunlar sahildədir, qumlu Pilos civarında.*
*Əhalinin qoyun-keçi, inək-öküz, – hər şeyi bol*
*Allah kimi bol hədiyyə verəcəkdir hamı ona,*
*Hökmdarlıq xəzinəsinə bol-bol vergi axacaqdır,*
*Qəzəbindən əl çəkərsə, bax, bunları verim ona;*
*Qoy qəlbini ələ alsın. Bircə Aid inadkardır.*
*Buna görə insanlar da ən çox ondan nifrət edir.*
*Gərək mənə güzəşt etsin mərd Axilles... çünki ondan*
*Həm hökmdar kimi, həm də yaşda xeyli böyüyəm mən".*

*(Orada, səh. 189-190).*

Aqamemnonun Axilleslə barışıq barədə çıxışı, təklifləri, güzəştləri, hədiyyələri peşmançılığına, günahını etirafına və məhz buna görə də tam təslim bayrağı qaldırdığına bir sübut kimi səslənir.

Əslində isə bu zahirən belədir.

Əvvəl Aqamemnon nə elədi? O, Axillesə söylədi ki, sənin varlığın və ya yoxluğun mənim hökmranlığım, yunanların da taleyi üçün fərqsizdir. İndi isə bu işdə düzgün yol tutmadığını, Axillesə sağlam münasibət bəsləmədiyini boynuna alır. O, hətta açıqcasına söyləyir ki, "Zevsin bəyəndiyi tək bir insan yenilməyən bir orduya bərabərdir". Bu sözü bugünkü mənada belə də başa düşmək olar ki, öz işini bilən tək bir nəfər, öz işini bilməyən bütöv bir xalqa bərabərdir.

Elm qəhrəman, xalq kütlələri müşkülünə bütün səmtlərdən, dönə-dönə baxmışdır. Burada isə bütün deyilənlərə aşağıdakıları əlavə etmək olar. Madam ki, bir nəfər nə etdiyini bilir, yerdə qalan hamı isə, o bütöv bir xalqdan üstündür. Lakin həmin o öz işini bilən bir nəfəri də, həmin o öz işini bilməyən xalq doğmuş və bu nəfər o xalqın içərisində yetişmişdir. O, bütün kökləri ilə öz xalqına və bəşəriyyətə bağlıdır. İndi isə o cürə oğlu doğan xalq bu gün bilməməzlik bataqlığında boğularkən, öz işini bilən bircə kişi xalqı həyatın yeni pilləsi üçün yenidən doğur.

Beləliklə, öz işini bilən tək bir nəfərlə, öz işini biməyən bütöv bir xalq arasında qarşılıqlı münasibətlər silsiləsi yaranır.

Aqamemnonun peşmançılığı, etirafı səmimi deyil, təslim bayrağı qaldırması bütöv səciyyə daşımır.

Bütün bu peşmanlıqlar, etiraflar, güzəştlər, hədiyyələr, vədlər müəyyən şərtlər müqabilindədir. Ən başlıcası odur ki, Aqamemnonun qatı xudpəsəndliyi yerində qalmalı, təsdiq olunmalıdır.

Üstəlik onun bu xudbin düşüncəsini, müdafiə edən hökmdar əsası da var ki, onu da Zevs özü vermiş.

Əslində Aqamemnonun etirafı və hədiyyələri o deyən sözdür ki, möhtərəm Axilles, mən səni tamamilə heç hesab etməkdə səhvim var imiş. Sən bütöv bir dünyasanmış. Sənin bu dünyalılığın, əzəmətin o qədərdir ki, məndən sonra ikinci adamsan. Mən özüm haqqımda böyük fikirdəyəm, ağlım, qanacağım, hünərim, ləyaqətim olsa da, olmasa da! Özüm də hökmdaram.

Bu cür iddia isə Axillesin ağlına belə gəlmirdi. Axilles üçün kimin birinci, kimin ikinci olması anlayışı yox idi. İndi bunların yeri deyildi. Burada birinci, ikinci məsələsi deyil, bütöv bir xalqın taleyi

qarşıda dayanmışdı. Bir də ki, Axilles üçün birinci, ikinci söhbəti ilə onu cəfəng bir sicillətməyə cəlb edirdilər.

Xalq taleyinin cilovlarını əlində tutanlarla xalq arasında elə başıpozuq vəziyyət yarandı ki, Axilles təcrid vəziyyətində qaldı. Çünki Axilles xalq ilə idi, xalq isə Aqamemnon ilə.

Axilles tək qaldı.

Bu vəziyyəti güzəştlərlə, hədiyyələrlə, vədlərlə islah mümkün deyildi.

Axilles hədiyyə adamı deyildi. Prinsip, ideal, xeyrə xidmət ehtirası onu fəaliyyətə təhrik edirdi. Burada cilovsuz bir coşğunluq var idi. Bu coşğunluğu cəza tədbirləri ilə, söndürmək, mükafatlarla artırmaq olmazdı. Axilles dünyasının maddi dəyəri yoxdur, o, alınıb-satılmır.

Axilles çapqın naminə də fəaliyyət göstərmirdi.

Axilles bütövlükdə amala – insana, öz millətinə, bəşəriyyətə xidmət üçün dünyaya gəlmişdi. Bütün insanlar Axilles üçün doğma idi. Bütün xalqlar Axillesin doğma xalqı idi. Bütün ölkələr Axilles üçün doğma vətən idi.

Madam ki, belədir, onda bəs nə üçün Axilles birini müdafiə naminə digərinə əl qaldırır, bir xalqa qoşulub o biri xalqa basqın edir, ölkələrin, vətənlərin üstə yeriyir, özü üçün qənimət, bir pay da götürür? Çünki Axilles gözünü açarkən qarmaqarışıq bir dünya ilə üzləşdi, şəri asanlıqla həzm edən insanların içərisinə düşdü, ilk pillədə dostunu ayaqları altına salıb, düşmənini əlləri üstündə başı üzərinə qaldıran xalqına xidmət etmək məcburiyyətində qaldı.

Axilles dünyaya gələrkən aləm parça-tikə edilmiş, bir-birinə qarşı duran ölkələr şəklində idi.

Pozğun dünya ilə insana xidmət üçün yaranmış Axilles üz-üzə dayanmışdılar.

Axilles insana xidmət naminə xeyrə qarşı şərə əl qaldırmalı, bir milləti müdafiə naminə bəşəriyyətə xidmət etməli, bir bölük ölkə ona dünya timsalı olmalı idi.

Axilles talandan pay götürürdü. Lakin əldə edilən hissə dərhal onun üçün doğma aləmə çevrilir, ləyaqət, namus, şərəf, ülviyyət timsalı olur. Ona görədir ki, əldən gedən Briseida nəinki prinsipə çevrildi, həm də Axillesin həyatından bütöv bir dünya uçdu. Təsadüfi deyil ki, prinsiplə bağlı mübahisə bitən təki, - yəni Briseida Axillesin əlindən gedən kimi, o, elə bir fəryad qoparır ki, göy üzü tutulur, naləsindən tüklər ürpəşirdi.

Dünyanın nizamsız, həm də talançı vəziyyəti ilə bağlı bütün hesabatı tək bircə nəfərdən, o nəfər Axillesdən ibarət olsa belə, çəkmək məntiqə düz gəlməzdi.

Aqamemnon öz qızını Axillesə ömür yoldaşı və misilsiz cehiz şirnikdirmələri ilə verməklə də vəziyyəti islaha çalışır. Bu isə heç yerinə düşmürdü – Axilles ailəni hamınınkı kimi tərtib edə bilməzdi.

Ailədə qarşılıqlı məhəbbət ümumi haldır. Bunu əsas qanun bildiyini hamı söyləyir. Bu təpə-dırnaq başa gəlsəydi, yaxşı olardı. Amma ailələrin məhəbbətlə qurulması, xüsusən bu əsasda davamı real həyatda istisnadır.

Ailələr isə qurulur – hər necə olsa da!

Axilleslərə isə ailə ürəyincə olmalıdır. Əgər ürəyincə deyilsə, hökmdar qızı, gözəllik, cehiz əlavəsi Axilleslərdə ailə həvəsi oyada bilməz.

Axillesin özünəməxsus sifətləri var. Axillesə meyil salan və ona arvad olub, onunla ailə qurmaq həvəsinə düşən adam da ondakı özünəməxsus keyfiyyətlərə göz yumub həyatda haray salan hökmdarlıq, sərvət, nüfuz kimi sifətləri axtarsa, bu qəhrəmanı öldürməyə bərabərdir. Axillesin bu öz keyfiyyətləri və ürəyincə olan işin dəyəri yoxdur. O da satılmır – heç bir şeyin müqabilində!

Ona görə də ailə Axilles üçün ən böyük problemdir. O ya ‘ ürəyincə ailəni başa gətirər, ya da ailə qurmaz, bir dəfəlik həyatdan, – ailə həyatından imtina edər.

Yığın-yığın zahiri şərtlər həyatın dəyəri ola bilərmi?

Axillesin ətrafında müxtəlif zümrədən qızlar var. Bunların hər biri qəlbi ilə Axillesi sevər, sahibləri də həvəslə onunla qohum olmağa uyğunlaşardılar. Bir halda ki, hökmdar da qızını ona təklif edir.

Briseida əsir qızdır. Amma hansı səbəbdənsə Axilles ona meyil salmış. Dastanda Axilles-Briseida xəttində tuş gəlmə müşahidə edilir. Tarixdə və real həyatda isə bu, nadir halda başa gələn keyfiyyətlərdir. Çünki Haniballar, Babəklər, Harribaldilər, Səttar-xanlar – Janna d’Arklar ilə dünyaya bir vaxtda gəlmirlər.

Budur, indi Aqamemnon barışıq üçün Brisein qızını da qəhərmana qaytarır. Həm də “namusla” söyləyir ki, onunla bir yastığa baş qoymamışam, aramızda kişi-arvad əlaqəsi olmamış.

Biz müəyyən üsluba əsasən Aqamemnonun qıza həqiqətən toxunmamasına inanırıq. Lakin namusla sözünü ona görə dırnaqda veririk ki, Aqamemnonların namus ölçüsü özü naqisdir.

Aqamemnon barışıq üçün böyük hədiyyələr vəd etdi, Briseidanı qaytarırdı, qızını böyük cehiz əlavəsi ilə ona təklif edirdi. Vədlər göz qamaşdırır, səadət əlçatmaz səviyyədə görünür. Zira, Axilles bu cür səadəti götürə bilməzdi. Bu səadət Axillesin özünün deyildi, ona qıraqdan verilirdi. Burada Axilles kimi böyük şəxsiyyətin səadəti alınr-satılır, mənliyi çeynəlinirdi.

Qıraqdan gələn səadət bədbəxtlikdən daha betərdir. Təcrübələr göstərir ki, bu cür səadətlər ölümdən daha ağır olur. Ucu başqasının əlində toplanan səadətə bağlanmaqdansa, ölümün üstə yerimək daha yaxşı çıxış yoludur. Bu halda, könüllü surətdə ölümü qəbul etmək lazımdır.

Həmin şərtlərdə ölüm özü qələbədir!

Axilles o qədər də aciz deyildi. Briseidanı əldən verməyə bilərdi. O, Aqamemnonun onun Briseida tələblərinə təslim olarkən, oradaca deyir ki, hünəriniz var, mənim özüməməxsus başqa şeylərimi də ələ keçirməyə təşəbbüs göstərin. Onda mənim cavabımın zəhmini dadarsınız.

Axilles Briseidanı vətənin taleyi naminə güzəştə gedir və bu boyda qurbanın, hünərin müqabilində duz-çörək adamı ilə nankorun fərqini bilməyən xalqdan üz çevirir.

Aqamemnon görüləsi lazım olan işi buraxıb, gərəksiz tədbirlərə əl atır.

Məsələ onda idi ki, sırasında Axilles dayanan orduya Aqamemnon bir başçı kimi yaramırdı. Vəziyyət tündləşəndə gərək o istefaya çıxaydı. Barışıq üçün isə xalq öz tələbləri, öz təklifləri ilə qəhrəmanın yanına gəlməli idi.

Ya da, dastanda müşahidə edildiyi kimi, elə bir hadisə baş verməli idi ki, Axilles inadından dönməyə məcbur olaydı...

Aqamemnon qənimətlər içərisində Xrisin qızını özü üçün götürmüşdü. Sonra gücsüz görünən, lakin toxunulmaz olan dünyaya əl uzandığı üçün bu qənimət ölkənin taleyi ilə üz-üzə dayandı. Aqamemnon hətta bununla da, ölkənin taleyi ilə hesablaşmadan da, qəniməti əldən vermək istəmirdi. Aqamemnonun xudpəsəndliyi, az qala yunan ordusunda çaxnaşma salacaqdı. O, güzəşt etməsə də, bir qədər geri çəkilməyə məcbur oldu. Xrisondanın əvəzinə Briseidanı götürdü.

Dediyimiz kimi, dövlət həm haqsızlığa, həm ziddiyyətə yol qoyur. Lakin bəşəriyyət tarixin müşahidə edildiyi mənzərələrində dövlətsiz keçinə bilmir. Ona görə də universal mənafenin qorunması naminə

dövlər mənafeni və şərəfini qorumalıdır. Buraya şəxsi arzular, şıltaq müdaxilə etsə də...

Bəşəriyyət dövlətsiz keçinə bilmir. Amma o, daim dövlətə dirənişə cəhd göstərir. Elektrik maqnit sahələrində və başqa qütbik hərəkətlərdə olduğu kimi, burada da ictimai gərginlik yaranır. Obyektiv vəziyyət deyilən şey budur. Ağıl hansı qüdrətdə, hansı dəqiqlikdə olmalı ki, müdaxilə gedişində işə fayda verə bilsin.

Lakin bu obyektiv gedişə, dövlət kabusuna daim şəxsi arzu, şıltaq əlavə olunur. Bir adam bütöv bir dünya kimi və bəlkə daha artıq görünür. Bir adam, ya intizam və yaradıcılıq tələblərindən irəli gələn sərəncamlar verir, ya da şıltaqcasına hayqırır. Bütöv bir dünya isə gücsüz halda cilovunu itirmiş tərəfin öhdəsindən gələ bilmir. Hər halda, müəyyən an üçün vəziyyət belə görünür. Ayrı-ayrı dənələr – onlar fərd adlanır, şəxsiyyət, xalq, bəşəriyyət keyfiyyətini itirir, dəyər aradan qalxır, həşaratlar dünyası yaranır. Heç olmasa, Axilleslər varsa, onların təsdiqi üçün də mühit lazımdır.

Xudpəsəndlik, özündən müştəbehlik, bədgümanlıq bu və ya başqa şəkildə hər bir kəsdə vardır. Həm də bunun dərəcəsi olmur. Zahirən müti və minüzlü, məzlum, şəxsiyyətini itirmiş, əfəlləşmiş, mənəvi təslim bayrağını qaldırmış adamlarda belə, özü haqqında müştəbehlik, özünü məğrur aparanlardan heç də əksik deyil. Həm də özü haqqında yekəxana fikrin hüdudu yoxdur. O, "səndən əksik deyiləm"lə başlayır, "ondan da əksik deyiləm"lə davam edir, "heç kəsdən əksik deyiləm"lə isə sona da varmır. Burada "mən" misilsiz vücudun iddiası yaranır. Mən hər şeyəm, yerdə qalanlar mənim müqabilimdə heç bir şey. Həm də müştəbehlik demişdik də ki, bir keyfiyyət kimi hər kəsin qəlbində yatıbdır, oranı canavar kimi sökür. Çox maraqlıdır ki, müştəbehlər başqa tərəfdə də özünün özü haqqında təqdirini müşahidə etdikdə, bu onun böyük təəccübünə səbəb olur, həm mənafe mübarizəsi, həm də bir-birinə qarşı dayanan iddialar. Bu vəziyyətdə hər hansı bir kəsin əlinə dövlət keçdikdə azğınlığın hüdudu olmaması təbiidir...

Dövlətin imkanı, nüfuzu iddialının sərəncamında olarkən dünyaya qarşı azğınlığın qarşısı alınmır, Dünyada oynaq vəziyyət yaranır. Aqamemnon fərdlərin, şəxsiyyətin, xalqın, ordunun, dünyanın taleyi ilə oynayır, Axilles hünərinə hökmlər verməyə cəhd göstərir, idealı təhlükə altında qoyur. Bəşəriyyət oynaq özül üzərində atılıb-düşməyə, silkələnib titrəməyə başlayır.

Bu da ondan irəli gəlir ki, dövlətsizlik bu vəziyyətdən daha acınacaqlı hallara aparıb çıxarır.

Tarixin yada gələn dövründən bəri mütləq dövlətsizlik heç bir yerdə, heç bir zaman müşahidə edilməmiş. İlkin assosiasiyanı ya mütləqiyyət, ya cılız demokratiya əvəz etmiş. Dərəbəylik bu şəraitdə, mütləqiyyətin və ya cılız demokratiyanın zəiflədiyi yerlərdə müşahidə edilmiş.

Mütləqiyyət və ya cılız demokratiya ifrata vardıqda istibdad mövqeyinə qədəm qoymuş, zəiflədikdə dərəbəylik müşahidə edilmiş. Dövlətsizlik adı verdiyimiz şey budur.

Yaranan acınacaqlı mənzərəyə əsasən söyləmək mümkündür ki, dərəbəyliyə qarşı istibdad arzu edilən bir şeydir. Burada güclü qorxmur və utanmır.

Ümumiyyətlə, bəşəriyyət ülviyyətə can atan, sevən, ədəbli və yaradan varlıqdır. Təbii tələbləri ödəmək zəruriyyətindən irəli gələn bəzi qəbahətli və cinayətkar ünsürə qarşı bəşər idrakı, bəşər amalı ülviyyətə gedən yoldur.

Lakin bu cür ilahi dünyanın içərisində həqiqətən utanmayan, qəddar təbiətli fərdlər müşahidə edilir. Bu tiplilər səlahiyyət kəsb etdikdə bir cür, dövlətin zəiflədiyi yerdə isə başqa cür qəbahət və cinayət iqlimi yaradır, əfkari-ümumiyyəni elə bataqlığa qərq edir ki, bu, bütün dünyanın, bəşərin, insanın keyfiyyəti kimi meydana gəlir.

Utanmadığına, dirənişə rast gəlmədiyinə, cilovlanmadığına, cəzasız qaldığına görə ismət pərdəsini asanlıqla aradan götürə, təcavüzün açıq formasına keçə, əllərdən tikələri qapa, zorlama işini çəkinmədən başa gətirə bilir. Çünki utanmır və dirənişə rast gəlmir...

Ayrı-ayrı ocaqları, obaları talan edir, zorlayır, əzir və kəsir – qadınları, kişiləri, körpələri, ahılları.

Çünki dövlət zəifləmiş – insan və həya isə yoxdur.

Bütün bu qəbahətlər, cinayətlər dəryasına başı pozuqluğu, intizamın pozulmasını, qarmaqarışıqlıqlar dünyasını əlavə etmək də mümkündür.

Beş nəfərin törətdiyi iqlim bəşərin keyfiyyəti kimi görünür. Bu zaman yarımçıq ağılların, quduz dairələrin bəşəriyyətin mahiyyətinə dair naqis nəzəriyyələri yaranır: insan cinayətkardır, o, ehtirasının quludur, ictimai hədd ədəb formasına girir. Əslində isə o, bacısını zorlamağa, qardaşını talan etməyə, anasını mayalamağa, atasını qətlə çatdırmağa qabildir. Amal, işıqlı fikirlər zəiflikdən, avamlıqdan doğan öz qabiliyyətsizliyini doğrultmaq üçündür.

İstibdadı başa çıxaran şərtlər bunlardır. Bu şərtlərə isə Axilleslər yox, Aqamemnonlar uyğundur.

Təsadüfi deyil ki, Zevs özü Axillesi sevdiyi, tərəfində durduğu halda, hökmranlıq əsasını Aqamemnona verməkdən başqa (hərçənd ki, Axillesliyin hökmdarlığa ehtiyacı yoxdur) qəhrəmanın məzlum qalmasına, hətta təhqirinə belə göz yumdu.

Çünki bu, tarixin düşdüyü vəziyyətdir.

Ziddiyyət isə orada özünü göstərir ki, bəşəriyyət zəruri tələblərə mütləq şəkildə tabe olmur.

Aqamemnon hökmdar idi. Onun tələbləri yerinə yetirilməli idi, sözü yerə düşə bilməzdi. Yoxsa, "dövlətin zəiflədiyi yer" deyilən şeyə yol qoyulardı.

Axilles də şəxsiyyət idi. O da amalı, bəşəriyyəti təmsil edirdi. Ona görə Axilles də haqsızlığı, həqarəti, şərtsiz-qeydsiz axıra qədər qəbul edə bilməzdi. Bu amalın, bəşərin iflası, xeyirin şər qarşısında təslim bayrağı qaldırması olardı.

Aqamemnon vədlərlə, hədiyyələrlə vəziyyəti islaha çalışır. Lakin tarixin sərt düyününü bu cür asan yollarla açmaq mümkün idimi?

Başqa tərəfdən, burada heç bir şeyin müqabilində satılmayan, güzəştə gedilməyən dünya var idi. Hamıya misilsiz, böyük görünən dünya Axilles üçün heç idi. İndicə tələb edilən güzəşt Axillesin özünü heçləşdirərdi.

İstibdada da elə bu lazımdır.

İstibdad adamların, bütöv bir xalqın, xalq içərisindən çıxan oğulların, qızların ancaq istifadə üçün yarayan bir şeyə çevrilməsini istəyir. Təki bunun müqabilində özü daxilən, fərdi keyfiyyətcə olmasa da, ünvanca hər şey kimi görünsün. İstibdadın dünyaya vədləri böyükdür. Lakin onun tərtib etdiyi planların, canfəşanlığın, dəridən-qabıqdan çıxmanın, minüzlülüyə qarşı milyardüzlülüyün bir məqsədi varsa, o da ondan ibarətdir ki, onun sərəncamında qalan insan dəyərini itirsin, xalq sürü vəziyyətinə düşsün.

Dünyanın sürüləşməsi, onunla istədiyi kimi rəftar edə bilmək üçün, istibdada gərəkdir.

Aqamemnonun barışıq, hədiyyə oyunbazlığı istibdadın bu keyfiyyətini ayaqda saxlamaq şərtilə başa gətirilirdi. Onun bütün cəhdi – məndəricəsini yuxarıda açmağa çalışdığımız kimi, heç şeylə hər şeyin yerini dəyişmək idi. Axilleslər bu cür təklifləri bu başdan qəbul etməzdilər. Lakin onlar taleyə boyun əyib və ya səhvə yol qoyaraq, buna meyil göstərmiş olsaydılar da, uğurlu nəticə alın-

mazdı. O, həqiqətən Axilles idisə, şərə qovuşmaq, istibdad hökmlərinə boyun əymək, onun iqliminə qaynayıb-qarışmaq, bataqlığına qərq olmaq ixtiyari bir iş də deyildi. Görünməz bir əl Axillesləri naqisliklərdən, şərdən qoruyur. Axilles prinsipi Axilles şəxsiyyətini təsdiq edir və insanlik səlahiyyətinin daha üstün, ülvi olduğunu bərqərarlaşdırır.

Təkcə hədiyyələr deyil, dil tapa bilsinlər deyə, Axillesə elçilik üçün yunan başçılardan xüsusi dəstə tələb edirlər. Feniks başçı olmaq şərtilə bu dəstədə Böyük Ayaks, Odissey kimi Axillesə yaxın, iç bilən adamlar da bardı.

Dostların gözlənilməz gəlişi Axillesin həm heyrətinə, həm də sevincinə səbəb olur. Lakin gəlişin məqsədi aydınlaşan təki həzmə getməz vəziyyət yaranır.

Söhbəti Odissey başlayır. O, yunanların vəziyyətini çox vahiməli təsvir edir. Burada haqq məğmun qalır, güc basılırdı. Iş elə gətirmişdi ki, troyalıların lovğalıqla atılıb düşməsi, hədələri tüğyan edirdi. Zevsin müəyyən məqsədlə zahiri havadarlıq göstərməsi, Axillesin meydanda olmamasından istifadə imkanı Hektorun hədələrinin hüdudunu genişləndirirdi.

Vəziyyəti almaq üçün nümunə gətirdiyimiz bu üççə misra yetərlidir.

*“Deyir bütün gəmilərin dağıdacaq bəzəyini,*
*Hamısını oda verib, yandıracaq, – bizləri də.*
*Tüstü-alov arasında boğa-boğa qıracaqdır.*

*(Orada, səh 192).*

Odissey Axillesi yumşaltmaq üçün Troyaya yola salarkən atası Peleyin qəhrəmani söylədiyi müdrik nəsihətləri də yada salır. Bu nəsihətlərdən aydın olur ki, ata oğlu üçün yaranacaq vəziyyəti sanki əvvəlcədən duymuşdu:

*“Ey əzizim, məgər səni atan Peley Fetiyadan*
*Troyaya göndərəndə öyüd verib deməmişdi:*
*“Oğul, arzu eləsələr, Afinayla Hera sənə*
*Qüvvət, cürət verəcəklər, sən dikbaşlıq etmə əsla.*
*İnsanlara xeyirxah ol, uyma fitnə-fəsadlara.*
*Onda sənə, qoca-cavan, bil ki, bütün arqivlilər*
*Daha artıq rəğbət bəslər, daha da çox hörmət edər”...*

*Atan belə tapşırmışdı. Unudubsan bunları sən...*
*Heç olmasa, indi yumşal, əl çək bu sərt qəzəbindən"*
*(Orada, səh. 193).*

Bütün bu vaqeələrdə həyatın qalaq-qalaq ziddiyyətlərindən başqa, dahi təbiətin törətdiyi əlahiddə dolaşıqlıqlar, anlaşılmazlıqlar da var.

Dahi müstəsna vücuddur. Hamıya məxsus bütün müştəbeh oyunbazlıqlarla yanaşı, onda həm özünü anlamamaq, həm də başqaları üçün anlaşılmaz keyfiyyətlər də olur.

Dahi təbiətdə felən ideal daşıyıcısı olan insan anlayışı qarşısında mütilik, insana məhəbbət, ünsiyyətə canatma ilə başlanğıcda hamının biri olmaq meyli güclüdür. Adamlarda isə müştəbehlik baş keyfiyyət olduğuna görə dahi təbiətə, onun "zəif" damarından istifadəylə hamının birindən də aşağı münasibət bəslənilir. Heç olmasa dahinin özünün "mən hamının biri deyiləm, mən hamı kimi yaşaya bilmərəm" fikirnə gəlməsi, "mənim ən adi tələblərimin ödənməsi üçün adamlar arasında mühitim yoxdur" qənaətinin peydası üçün gərək "xamır çox su aparmalı" olur.

Bu, dahi təbiətin qarşısına çıxan ilkin müşküldür.

İkinci müşkül hakimiyyətin törətdiyi aldanışdır. Hakimiyyət müstəsnalıq təsəvvürü yaradır. Əsil mahiyyəti və vəziyyəti isə dönə-dönə izaha çalışmışıq.

Beləliklə, hakimiyyətin dahiliyə parodiyası alınır.

Bəlkə də burada həm mühitin, həm dahi təbiətin xeyrinə "əqlin hiyləsi" deyilən şeyin təsir qüvvəsi var.

Hakimiyyət – bərqərar vəziyyət qarşı mövqe, dahilik – idraki təzyiqdir. Hakimiyyətə qarşı müqavimət hərəkatı, dahiliyi təkləmək, sonra isə ona naqis pərəstiş ümumi haldır.

Buradan da bütün səmtlərdən bərabərləşməyə, demokratizm adlanan şeyə yol açılır.

Bütün hadisələr hakimiyyətin gətirdiyi üstünlüyün ziyanına, amma dahi adlanan dünyanın xeyrinədir.

Hadisələr çaları hakimiyyətin gətirdiyi üstünlüyü iflasa sürükləyir, dahiyə isə mövqeyini dərk etmək, ictimai həyatı təcrübi cəhətdən bütün səmtlərdən dişinə vurmaq, onu görmək imkanı verir.

Peleyin nəsihəti bu vəziyyətin qarşıya çıxacağına işarə idi. Tövsiyyə sanki vəziyyəti nəzərə alırdı. İşə başlayarkən müqəddəs tapşırıqları, müdrik tövsiyyələri eşitmək nəzəri-elmi baxışları nəzərə almaq lazımdır. Amma bunlarda bütün təfərrüat əhatə olunmur. Ona

görə hər bir əlahiddə hadisəyə yerinə və məqamına görə tələb olunan münasibəti bəsləmək lazım gəlir.

Dünyanın cilovlarını küçədə doğulanların əlinə tapşır, haqqı tapdalanan, haqqı tapdanan, təhqir edilən dahi təbiət də profilaktik tədbirə əl atarkən ona de ki, "fitnə-fəsada uyma".

Bütün səmtlərdən baş tutan sövdə deyil!

Ona görə də islah olmur...

Tövsiyyələrə, hədiyyələrə Axillesin cavabı və münasibəti idrakidir:

*"Yeyinayaq Axilles də belə dedi Odisseyə:*
*"Sən, ey nəcib, aqil Leyert oğlu mərd Odissey!*
*Sənin bütün sözlərinə açıq cavab verəm gərək;*
*Buna necə baxıram mən, necə etmək istəyirəm.*
*Sizə aydın söyləyim ki, yaxamdan əl çəkəsiniz.*
*Qövlü-feli bir olmayan ikiüzlü adamlardan,*
*Mənfur And qapısıtək zəhləm gedir mənim, bəli!*
*Mən ən yaxın məsləhəti sizə aydın söyləyirəm:*
*Bilirəm ki, nə Atreid, nə də başqa danaynılar*
*Məni qane edə bilməz. Canla-başla, yorulmadan*
*Düşmənlərlə vuruşmanın mükafatı gördüm nədir!*
*Vuruşanla gizlənənin heç bir fərqi yoxdur sizdə.*
*İgidlərlə qorxaqlara eyni qiymət verirsiniz.*
*Ya qəhrəman, ya avara olsun, – sizcə fərq eləməz.*
*Hər an keçdim öz canımdan, təhlükəli vuruşlarda,*
*Əvəzində nə mükafat, nə yaxşılıq gördüm sizdən.*
*Quş – nə qədər çətin olsa, – yorulmadan, usanmadan,*
*Cəhd edərək öz qanadsız balasına dən gətirər*
*Mən də bu cür, neçə gecələri sübhə qədər,*
*Gecə-gündüz qanlı savaş meydanında vuruşaraq,*
*Onların öz arvadları uğrunda qanlar tökdüm!*
*Gəmilərlə düz on iki böyük şəhər fəth elədim,*
*Quruda da çox məhsuldar Troyada da on bir şəhər...*
*Hər şəhərdən bol xəzinə, cəvahirat toplayaraq,*
*Təhvil verdim hamısını burda hakim Atreida*
*Özü isə gəmilərin arxasında daldalanıb,*
*Qəniməti qəbul edib, hakimlərə, əyanlara*
*Azdan-çoxdan pay verərək, çoxunu da mənimsədi.*
*Hamısının mükafatı özündədir... yalnız məndən*

*Zorla aldı bəyəndiyim, çox sevdiyim gözəl qızı...*
*Qoy alıb öz qucağına, kef eləsin yatağında.*
*Bəs axeylər Troyaya niyə gəlib vuruşmağa?*
*Bəs nə üçün yığıb bura Aqamemnon qoşunları?*
*Bircə gözəl Yelenanın xatirinə!.. düz deyilmi?*
*Məgər bütün fanilərdən namusunu – arvadını*
*Sevən bircə Atridlərdir?.. axı hər bir qeyrətli ər*
*Məntək sevir hifz eləyir öz sevimli arvadını.*
*Mən o qızı silahla da almış olsam, çox sevirdim*
*İndi ki, o hiylə ilə aldı məndən qəniməti,*
*Daha əbəs cəhd etməsin...”*

*(Orada, səh. 194-195).*

Bir vaxt biz Heraklla bağlı əsatiri, oradakı vaqeələri araşdırarkən demişdik ki, məsələn, Antey söhbəti hər cür izahatdan daha çox şey nəql edir. Biz Nizami haqqında rəyimizi də buna əlavə etmişdik. Demişdik ki, orada həqiqətlər çox qabarıq, aydındır, məzmun... mündəricə özü-özünün izahını verir. İndi Axillesin nitqi də vəziyyətə bu qədər aydın cavabdır.

Lakin Antey vaqeələrində olduğu kimi, Nizami də, Axillesin buradakı cavabında da izahatsız ötüşmür.

Görünür, izahat hər cür şərt daxilində təbii hadisədir.

Aqamemnon barışıq təkliflərini irəli sürərkən hikmətlə işarə vurmuşdu ki, “yaşda və mənsəbdə Axillesdən böyüyəm. O gərək buna diqqət yetirsin və güzəştə getsin. İfrat kinli olan, öz inadından qəti şəkildə dönməyən yalnız Aiddir” – yəni cəhənnəm qapısıdır, qəbirdir. Bu təklifdən asılı olmayaraq, indi Axilles də eyni nöqtəni vuraraq deyir ki, işi-sözü bir olmayan ikiüzlü adamlardan Aid qapısı kimi zəhləm gedir. İstibdad isə daha mürəkkəb, daha məkrli, murdar, ifrata varmaqla universal şəkildə “Aid qapısını” təmsil edir. Əgər bəşər özü də bu istiqamətdə deyilsə...

Görünür, canlı həyatın ülviyyət tarixində bəşərilik incəsənətin ünsürləri ilə başlamış. Ritmik hərəkətlər – rəqs, ahəngli səslər, – musiqi canlılarda müşahidə edilən ümumi haldır. Canlı, insana çevrilən tək rəqs və nəğmə həyatın tərkib hissəsi kimi özünü göstərir. Sonra təsərrüfat və ilahiyyat başlayır. Nəvaziş, məhəbbət, humanizm, fədakarlıq, ümumi tərəqqi və kamillik bugünkü səviyyəyə qədər gəlib çıxmış.

Bütün bunların qaynağı bəşəriyyətdir.

Lakin öz naqisliyi, zəifliyi ilə bəşəriyyət istibdada da yol vermiş, bununla da “Aid qapısına” bənzəməkdə istibdadla ortaq olduğunu büruzə vermiş.

Axilles deyir ki, sizin dünyanızda vuruşanla gizlənənin, igidlərlə qorxaqların heç bir fərqi yoxdur. Sizin üçün fərq eləməz qəhrəman ölüb, ya avara...

Bəli, tarixin naqisliyi, insanın zəifliyi də elə buna deyirlər. Yəni cəmiyyət həyatı! İnsan nə etdiyini kəsdirmir. O, lazım olanı buraxıb, tamamilə lazımsız işləri başa gətirir. Xaos, qarışıqlıq baş alıb gedir. Qüdrətli, yaradıcı adamlar bu qarışıqlıq içində başa gələrkən bir qövs-quzeh naxışı kimi ötüb keçir.

İdrak, fəaliyyət adamının, qəhrəmanın qarışıqlıq dünyasındakı hərəkəti dadsız, zərbələrsiz, həqarətsiz, baş-ayaqlıqsız ötüşə bilməz. Bu bəzən dərk edilir, bəzən də yox.

Axilles deyir ki, çətinliklərə, məşəqqətə baxmayaraq, quş qanadsız balaları üçün yem daşıyır. Mən də öz xalqım, onların hökmdar seçdiyi Atridlər üçün gecəmi bu cür gündüzə qatmışam.

Naqis dünyada insan, xalq, bəşəriyyət, xeyir, həqiqət üçün xidmətin başqa yolu yoxdur. İdrak sahibi, xadim, qəhrəman meydana atılarkən bunu hesablamalıdır. Deməli, bu zaman o üzləşdiyi naqisliklərə, zərərdidələrə, həqarətə dözməlidir. Əks təqdirdə yarımçıqlığa yuvarlanmaq qorxusu var.

Amma Axilles bütövlüyü təmsil edir. Bəs onda onun indi müşahidə edilən inadına nə ad verək?

Hər halda, qəhrəman da insandır. Vəziyyət ifrata varanda o dirəniş göstərməli, özünü qorumalıdır. Yoxsa, həqiqət pozuntuya uğrayar, fəaliyyət yarımçıq qalar.

Axilles inadı yunanları müvəqqəti zəif salır. Əvəzində mühüm bir həqiqəti onların şüuruna çatdırır. Bu isə yetişdirir, qüvvələri toplayır və səfərbər edir.

Biz cəmiyyət həyatındakı naqisliyin özülünün və ifadəsinin böyük qismini onda görürük ki, dünya üçün edilən xidmətin yekunu daha çox bir nəfərin sərəncamına keçir – çox vaxt layiq olmasa da...

Axilles deyir ki, onların – Atreidlərin arvadları uğrunda qanlar tökdüm, gəmilərlə on iki, quruda da – Troyada da on bir şəhər fəth etdim. Əldə olunan bol xəzinədən, cəvahiratdan başçılara azdan-çoxdan pay verib Aqamemnon hamısını mənimsədi. Üstəlik, indi də mənim könlümü fəth eləyən bir qızı zorla əlimdən aldı.

Bu “zorla əlimdən aldı” sözü düzünə anlam daşımır. Aqamemnon hökmdar olsa da, bu yolla ictimai qüvvəni əlində toplasa da, kütlələr hakimiyyət fetişinə hipnoz olaraq Axilles ləyaqətinə laqeydliklə baş sərkərdənin ətrafında birləşsə də, zor yolu ilə Axilleslə üz-üzə durmaq üçün ikinci qüvvə yox idi. Aqamemnon hakimiyyətin zor maşınından daha çox yaranmış ictimai müşkülə nəinki güzəştə getmədi, əksinə, bu gedişdən istifadəylə Axillesin əlindəki qəniməti çırpışdırdı. Çünki Aqamemnon öz məkrli sövq-təbiisi ilə hiss edirdi ki, hər yerdə güclü olan Axilles əqidə, ideya, amal, xidmət zərurəti qarşısında acizdir. “Zor” söhbəti bu məna ilə bağlıdır.

Briseida fatehliyin məhsulu kimi Axillesə çatmışdı. İndi isə fəth olunan gözəl özü qəhrəmanın qəlbini fəth etmişdir.

İlahi bir fatehlik!

İnsanı qoşuna çevirən, xalqları – dünyanı üz-üzə qoyan, ölkələri tapdaq edən, insanları istehsaldan ayıran, qəhətlik, başıpozuqluq, qidasızlıq, qırğın-ölüm, şikəstlik, yetimlik, yesirlik, dulluq, təcavüz, haqsızlıq, təhqir, xarabazarlıq yaradan fatehliyin yerinə, uzağı yaxın edən, barışdıran, nəvazişə yol açan, məhəbbəti, qayğını – humanizmi bərqərar vəziyyətə gətirir və döl arzusunu başa gətirən, əxlaqı, davranışı ülviyyət səviyyəsinə yüksəldən bir fatehlik.

Ən güclü imkanlarla yürüyən fatehliyi, yaxını uzaq edən bir çaşbaşlığı ən gücsüz bir həqiqətlə təslimə çatdıran bir fatehlik.

Zahirən Axilles fateh idi.

Lakin Axilles ülviyyəti, onun qəlbində yatan həzin bir duyğu imkan verdi ki, zəif bir varlıq – Briseida onun özünü fəth etsin.

Briseida Axillesi fəth etmişdi. Bu əsarət Axilles üçün həyatın özü idi. İnsanı ilk öncə özündən, sürüdən ayıran, aqibəti ülviyyətə yol açan bir həyat!

Briseida fatehliyi!

Ona görə də Briseida Axilles üçün artıq qənimət deyildi. Orada insani amal, ləyaqət, namus, şərəf cövlan edirdi.

Axilles buradaca söyləyir ki, biz hamımız, bütün millət yad bir əldə Atridlərin namusunu müdafiə etmək, oğurlanmış arvadlarını – Yelenanı xilas üçün vuruşmuruqmu? Əvəzində, Atreidlər də dalını-qabağını gözləmədən bizim ismət, abır, həya, namus dünyamızı hərraca qoyurlar.

Bir sən, ictimai-bəşəri qarışıqlığın mənzərəsinə bax!

Axilles o qədər yaralanmışdır ki, dönə-dönə demək, daim Briseida əhvalatının üzərinə qayıtmaq onun ürəyindəkilərin hamısını boşaltmır.

Nəhayət, o söyləyir: silah gücünə alsam da mən o qızı sevirdim.

Eşqin bütün həyəcanlarını, əhatə dairəsini, sonsuzluğa qədər ötüb keçməsini bildirmək üçün Axillesin bircə kəlmə "sevirdim", deyib dodağını bükməsi bəsdir.

Axilles deyir ki, onu da hiylə işlədib Aqamemnon əlimdən aldı. İndi də mənə yeri-göyü dolduran hədiyyələr əlavəsi ilə barışıq təklif edir.

Bu mümkünmü?

Briseida əhvalatında Axilles Aqamemnonun yuxarıda zor işlətdiyini söyləyir, aşağıda isə hiyləsinə işarə vurur. Qəniməti qəhrəmanın əlindən çırpışdıran Aqamemnon da inad eləyir ki, mən o qızla bir yataqda olmamış, aramızda qadın-kişi münasibətləri baş verməmiş.

Məsələnin bu cür qoyuluşu vəziyyəti bütöv almaq imkanı verir.

Əgər Briseidanı Aqamemnon təkcə zordan istifadə ilə ələ keçirsəydi, çalarlı götür-qoya ehtiyac qalmazdı. Amma indi zora hiylə söhbəti də əlavə olunur. Bu da bir qədər dərininə varmağa aparıb çıxarır. Hiylənin mahiyyəti ondan ibarətdir ki, Briseida əvvəlcədən də Aqamemnonun ağzını sulandırmalı ki, ilk fürsətdə hökmdarın bu niyyəti özü tərəfindən əsaslandırılır – kafi olmasa da... Lakin bir mənsəbbazı öz "əsasında" necə "kafiliyə" məcbur etmək olar?

Başqa tərəfdən sərkərdə əvvəlcədən də ağzını sulandıran "tikəni" zor və hiylə ilə ələ keçirəndən sonra ona toxunmur. Bu isə "ağzı sulandırdı", "hiylə" işlətdi gümanını alt-üst edir. Qalır nə? Onu da yuxarıda əsaslandırdıq ki, hökmdar nüfuzunun qorunması.

Əgər bu ehtimalların hamısı əsaslıdırsa və kafi əsaslıdırsa?

Deməli, Aqamemnonun bu gedişində həm hökmdar nüfuzunun qorunması və həm də "ağzın sulanması" iştirak etmiş. Lakin anlaşılmaz, ilahi bir keyfiyyət sərkərdəni qəhrəmanın mənəvi dünyasına axıra qədər nüfuz etməkdən saxlamış.

Dünya laxlamış, lakin tamamilə də məhvərindən qopmamış. Yoxsa o, özül tapa bilməzdi ki!..

Axilles qızı sevirdi. Ona başqa heç bir şey lazım deyildi – lap bütün dünyanı versəydilər də. İndi Aqamemnon böyük hədiyyələr

əlavəsi ilə qızı da qaytarırdı. Bəs nə üçün Axilles həm hədiyyələrdən və həm də qızın özünün qaytarılmasından da imtina edirdi.

Axilles qızı sevirdi. Amma bu müşküldə bir prinsip də var idi.

Aqamemnon Axillesə hər şeyi güzəşt etməyə hazır idi. Hətta dünyanın özünü də. Əgər Axilles bu iş üçün şərt qoysaydı, Aqamemnon onun yolunda dünyanın külünü belə, göyə sovurmağa hazır idi. Yalnız bir şərtlə: Axilles Axilleslikdən əl çəksin.

Eybi yoxdur, Axilles qəhrəmanlığında qalsın. Vuruşsun, qırsın, töksün, dağıtsın, fəth etsin, qələbələr çalsın. Lakin Axilleslik keyfiyyəti itib-batsın.

Axilleslik keyfiyyəti isə qəhrəmanlıq, hünər, döyüş, qələbə çərçivəsinə sığmır. Burada qəhrəmanlıq prinsiplə birləşib, hətta dahilikdən də uca bir hal yaradır.

Axilles qəhrəmandır. Axilles sevir, hünər göstərir, pərəstiş edir, qurban gedir. Axilles haykırır və birdən hönkürür. Axilles cingiltili səslə gülür, şaqqanaq çəkir, bəzən də məzlumcasına tərzdə gözünü döyür. Axilles bu deyən sözdür və s. və i.a.

Beləliklə, "Axilles olma" gedişi özünü doğrulda biməzdi, lap dünyanı da versən. Çünki Axilles satılmırdı. Özünü satanlar yalnız dünya boyda sərvətə, xəzinələrə, milyardlar deyil, hətta təsadüfdə qəpiyə də satılar. Satılmayan şeyləri almağa cəhd göstərənlər başqa təsadüfdə həmin sərvətləri – özünü, müqəddəs münasibətləri də özü sata bilər.

Axilles satılmırdı və satmırdı. Nəinki Briseida kimi mənəvi dünyanı, hətta ən adi əlaqəni, insani bağlılığı da satmırdı. Heç bir şeyin müqabilində.

Aqamemnon minbir qabıqdan çıxır ki, Axilles Axilles olmasın. Bu isə mümkün deyildi. Çünki o əbədi Axilles yaranmışdı.

Məsələni bir dəqiqəlik belə qoyaq ki, baş verən bu sonsuz üzüntüləri mötərizə xaricinə çıxarmaq naminə Axilles vəziyyətlə razılaşmaq, çox zaman "dəyişilmək" deyilən şeyi etdi, özündən keçmək qərarına gəldi. Bundan nə alınırdı? – Heç nə!

Çünki Axilleslərin bütün gedişlərində Axilles olub qalması heç onların şəxsi səylərindən də asılı deyil. Burada işə şüurlu, səbatlı, kamil münasibət bəsləyib asanlaşdırmaqla, əksini edib müşküllər seylabı yaratmaqdan söhbət gedə bilər.

İlk baxışda adama elə gələ bilər ki, Axilles burada güzəştə getsəydi, yaxşı olardı. Bu qədər hədiyyə, hökmdarla qəhrəman arasında doğma münasibətlərin yaranma imkanı, qızın qaytarılması

və ən başlıcası, ölkənin müsibətdən, həqarətdən, nə bilim, nədən xilası naminə barışıq təklifi qəbul ediləydi.

Adamlara asan gəlir: hər şeyi elə, sonra da özünü bilməməzliyə qoy, unutqan ol, arsızlığa qoy!

Zira, Axilles bu gedişi edə bilməzdi. Barışıq bir büküm halla deyil ki, hop eləyib udasan. Burada barışıq qəbahətin və şərin qələbəsi olardı – ülviyyət və xeyirin ziyanına.

Tarix xeyirə nisbətən şəri daha asan həzm edir. Bununla da o, müsibət dəryası yaradır – işin gündəlik, həyati məzmunu ilə birlikdə. Lakin şər qələbə çala bilmir. Çünki həyatın mayasında bir Axillеslik də var. Axilles asanlıqla güzəşt etsə idi, ülviyyət bir an belə duruş gətirməzdi. Bununla da insanı insan edən, ülviyyətlə, mərdliklə, mənəviliklə bağlı bütün imkanlar aradan götürülərdi.

Zahirən adi görünən şeyin arxasında dayanan müşkül bundan ibarətdir. Ona görədir ki, Allah – Zevs özü bir nəfərin, – Axilles şəxsiyyətinin, haqqının təsdiqi naminə dünyanı külə verir. Burada ziddiyyət var. Çünki Axilles özü bəşəriyyətin balasıdır. Bunları bir-birindən ayırmaq qeyri-mümkündür. Lakin Zevsin, fəlsəfi dillə desək, hiyləsində bütöv bəşəriyyət yox, Axilles şərtdir. Axilles burada bəşəriyyəti onun özündən daha geniş təmsil edir.

Bu boyda dünya adi görünən bir şeyi – Briseida səddini aşa bilmir. Cəbhələri dağıdan, ordular basan Axilles bu səddin qarşısında aciz qalmışdı. Çünki bu səddə, Axilles Briseida münasibətlərini öz haləsi içərisinə almış bu mənəvi aləmdə ülviyyətin özü, insan adlı alınmaz qala dayanmışdı.

Əsil böyüklük burda üzə çıxırdı – zəiflikdə! İnsan, ülviyyət, Briseida qaşısında peyda olan zəiflikdə!

Axilles cəbhədə, ordular qarşısında güclü idi. Bu qədər kəlləleş-mələrin, üz-üzə gəlmələrin yox, adi münasibətlərdə belə, Briseidadan da zəif məxluq təsəvvürə gətirmək olmazdı. Lakin bu zəiflikdə nə böyük qüvvə yerləşib (qanan üçün) ki, Axilles aciz qalmış.

Burada Axilles acizliyi Axilles qüdrətinin mayasıdır.

Əgər biz əsil Axillеslikdən ibarət olan Axilles zəifliyini müşahidə etməsəydik, o, güclü tərəfdən başqa bir şey olmazdı. Güclülük isə nisbidir. Halbuki insaniliyin gücü onun özündədir. O, heç bir qüvvə ilə üz-üzə durmur. Əksinə, bu duyğu insani olan hər bir şeyə daxili bir güc verir.

Axillеslik – zəifliyin içərisindən peyda olan, boy qaldıran qüdrət.

Axilleslər yox, ümumiyyətlə, insanlar öz intim dünyaları qarşısında acizdirlər. Adi zina arzusu ilə fürsəti əldən verməyən, qəbahət çuxuruna yuvarlanan, rüsvayçılığı yaxasından asan, cinayət edən, qövmünü üzü qara edən, həyatını təhlükədə qoyanlar müşahidə edilmiş. Ailədə yaxını-uzağı, hətta ata-ana kimi müqəddəs varlığı belə, öz intim aləmlərinin, xudbinliklərin güdazına verənlər var.

Bu Briseida səddi deyil, burada nəfs səddi var. Burada Briseida səddi deyil, adamlar, əlində əsir olduqları nəfslərinin səddini aşa bilmirlər.

Söhbət təkcə Briseidadan getsə idi, Axillesə onu qaytarardılar.

Axilles Briseidanı güzəştə getmədi. Ona görə yox ki, Briseida qəhrəmanın intim dünyası ilə bağlı idi. Ona görə ki, Briseida həyata Axilleslə bağlı ən yaxın insan idi.

Axilles Briseidanı olduğu kimi, atanı, ananı, yaxını, uzağı da güzəştə getməzdi. Axilles insani prinsiplə üz-üzə gəlsəydi, düşmənin özünü də güzəştə getməzdi. Çünki Axilles üçün burada düşmən olan bir adam haradasa insan idi. Dediyimiz kimi, Axilles tərəfindən insan satılmır, əvəz edilmir, güzəştə verilmirdi.

Briseida özü ideala qarşı dayansaydı, onda o daha Briseida olmazdı və Axilles Briseidaya qarşı dayandığı tərəfə meyil göstərər, qadının özünü isə yumşaq rəftarla islaha çalışardı və ifrat vəziyyət yaranardısa, qəhrəmanın amansızlıqdan başqa yolu qalmazdı.

Aqamemnon istədiyini başa gətirir, sonra isə asanlıqla daxilən bir barışığa ümid bəsləyir. Çünki o, belə vərdiş etmişdi. İnsanlar, həyat ona belə təcrübə, belə təlim vermişdi. Lakin onun güman etdiyi kəs Axilles deyildi.

Hamı tərəfindən asanlıqla həzm edilən şəri Axillesin mədəsi götürmürdü.

Əsil böyüklük bu cür adilikdə özünü göstərir!

Bir də bu böyüklük kimə lazımdır? Axı İNSAN olmaq gərək!

Herakl qəziyəsini biz bilirik. O, Allahın oğlu idi. Həm də şahzadə. Amma hakimiyyət onun əlindən alınıb zavallının birinə verilmişdi. Üstəlik, Herakl da ona muzdur təyin edilmişdi.

Herakl o zaman dodaqlarını büzmədi.

Sonra Herakl qəhrəmanlıqlar göstərdi. Hakimiyyətin itirilməsi qəhrəmani hünərlərlə tamamlanarkən ən böyük sərvətə çevrildi. Bu boyda dünyası olan adam əmisinin intiharını eşitdikdə, dodaqlarını büzmək nədir, həyat onun gözündə zülmətə çevrildi.

Adi bir insan həyatın tam mündəricəsi, öz dəyəri miqyasında meydana çıxmışdı.

Həmin hadisə daha aydın, daha sanballı şəkildə Axillesin həyatında təkrar olunurdu.

Axillesin əcdadı allahlara gedib dirənsə də, o, Zevsin öz oğlu deyildi.

Axilles Herakl səviyyəli şahzadə də deyildi.

Hakimiyyət taxtı da onun altından sürüşdürülməmişdi.

Lakin Axillesin qəhrəmani hünəri bütöv bir ölkənin, millətin taleyi ilə birləşirdi. Burada Briseida vaqeəsi ilə bağlı, fəaliyyətsiz qalmaq millətin taleyindən üz çevirməyə bərabər idi.

Briseida adi bir yavru idi, lakin o, eyni zamanda, prinsipə çevrilib dünya yaratdı.

Şərdən təmizləndikdə insan nə böyük məna kəsb edə bilərmiş?!

Biz haradasa demişdik ki, müştəbehlik adamlara xas olan ümumi sifətdir. Bu adamlar böyüklük anlayışını çox da ayırd edə bilməyərək o qədər əndazəsizdirlər ki, məsələni daim "mən və yerdə qalan hamı" şəklində qoyurlar.

İndi gəl bunlardan birinə dünyanı oynaq vəziyyətə gətirən hakimiyyət ver. Bu hakimiyyət aləmi bir ələ tapşırır və o fərdi keyfiyyət kimi üzə çıxır. İki yol, iki yelbeyinlik birləşib eybəcərliklər, harınlıqlar, cinayətlər havasını zilə qaldırır.

Axilleslər fitrətən böyük, yəni adi yaranmışlar. Onlar böyük, yəni adi hünərləri də başa gətirirlər. Burada zahiri bir təvazökarlıq imkanı bu başdan aradan götürülür.

Axileslərin qədəmləri böyükdür. Amma "mən hamıdan böyüyəm, fərqliyəm" fikri heç də onların ağlına da gəlmir.

Aqamemnonların böyüklük iddiasına bir balaca şübhə edildikdə, şıltaq və ifrat qəddarlıqlar baş alıb gedir. Amma işinə, hünərinə görə Axillesin böyüklüyü ilə bağlı təqdir də müşahidəyə başladıqda bu, Axilleslərin təəccübünə səbəb olur: bu adamlar məndə üstün sifətlər görürlər ki!..

Bəşəriyyət xeyirə nisbətən şəri daha asanlıqla həzm edir. Bu, xeyir üçün çətinlik törədir. O, bəşəriyyətin özünü müsibətə salır, pis günə qoyur. Çünki şər göz qabağındadır və əzəmətli görünür. İnsanlar isə hakimiyyətə, – Aqamemnona, o haqsız tərəf olsa da, boyun əyməyi vicdani cəhətdən özlərini borclu sayırlar.

Nəyin əsil xeyir olduğunu ayırd etmək üçün isə baş sındırmaq, dirəniş vəziyyətinə dözmək, zərərdidə olmaq gərəkdir. Axilles tənhalığı, xeyrin çətin həzm edilməsi buradan irəli gəlir.

Xeyir-şər müşkülü o səviyyədədir ki, yunan qəhrəmanlarından biri, birüzülülüyü, təhlükənin üstə şığıması, cəsarətliliyi ilə seçilən Diomed kimi igid də Aqamemnon – Axilles müşkülünü ayırd edə bilmir:

*“Uca səsli mərd Diomed birdən qalxıb bərkdən dedi:*
*“Ey şövkətli Atreyoğlu, hökmrəvan Aqamemnon!*
*Sən gərək heç hədiyyələr vəd edərək Axillesdən*
*Heç nə xahiş etməyəydin! Onsuz da çox dikbaşdır o,*
*İndi isə sən bir az da qudurtdun o qudurğanı”.*

*(Orada, səh. 205).*

Diomedin o vaxt mühakiməsi ona çatmazdı ki, vəziyyətinə görə Axillesin o ülviyyətini və bəşəriyyəti təmsil etdiyini anlayaydı. Məsələ bu həddə çatsaydı, şərin nə qədər qatı olduğu bir o qədər aydınlaşardı. Lakin heç olmasa Diomedə o kifayət etməzdi başa düşsün.

Yunanlar ölkələr aşıb Troyaya gəlmişlər ki, oğurlanmış səadəti, tapdalanmış namusu xilas etsinlər. İndi isə Briseida ilə bağlı öz aralarında daha böyük oğurluq, təcavüz baş vermişdir...

Həmin anda yunanlar, bəşəri bir naqisliyə yol verib, Axillesi lazımi səviyyədə müdafiə etmədilər. ona görə də biz deyirik ki, insan xeyrə nisbətən şəri daha asan həzm edir və acısını da dadır.

Böhranlı anda yunanlar Axillessiz qalmışdı. Müşkül nə həddə çatmalı ki, onlar Axillesin qarşısında öz haqsızlıqlarını boynuna alsın, ümidsiz şəkildə, az qala, təslim bayrağı qaldırsınlar.

Həzmə gedən şər baş-ayaqlıq yaratdı, şərin mədədə yaratdığı ağrı, sancı o qədər sarsıdıcı idi ki, mədə sahibləri heç qışqırıq da çəkə bilmir. Acınacaqlı vəiyyətin yaratdığı seylab isə davam edir.

Yunanların düçar olduqları sonrakı müsibətləri, uğursuzluqları dolğun təsəvvürə gətirmək üçün gərək dastanın özünə bütöv nəzər salasan. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, indi döyüşlər yunan gəmilərinin önündə gedir. Bu isə o deyən sözdür ki, bir anda onlar üçün tam bir fəlakət baş verə bilər. halbuki onlar bunu əvvəlcədən hesablamamışdılar.

Amma bir qənaət almaq heç olmasa solğun bir təsəvvürün başa gəlməsi üçün bircə mənzərəyə ötəri nəzər salaq:

*"Od qüdrətli İdomeney silahları par-par yanan*
*Yoldaşıyla görünəntək, troyanlar hamı birdən*
*Qıy vuraraq, tökülüşdü düz onların üzərinə.*
*Gəmilərin lap yanında alovlandı qızğın savaş.*
*Necə bürkü olan zaman qalın tozlu yollar üstə*
*Vıyıldayan qasırğalı külək qopub, bircə anda*
*Bulud kimi yığın-yığın tozu çırpar ora-bura,*
*Eləcə də iki tərəf qoşunları bir-birilə*
*Tunc silahla çarpışaraq şığıyırdı hər tərəfdən.*
*İgidqıran qanlı savaş qızışdıqca tunc nizələr*
*Qalxır-enir, dəlib-deşir bədənləri, vurur-yıxır,*
*Parıldaşan, şimşək saçan sərpuşların, qalxanların,*
*Şələsindən göz qamaşır, axıtdıqca döyüşçülər...*
*Bu dəhşətli mənzərədən, qəm-qüssəyə qapılmadan,*
*Nəşə-fərəh duyan olsa, qəhrəmandır o doğrudan...*

*İki qadir Kron oğlu, hərəsi öz məqsədilə*
*Ayrı-ayrı igidlərçün bədbəxtliklər törədirdi.*
*Axillesə təntənəli qalibiyyət hazırlayan*
*Zevs Hektora – Troyaya zəfər arzu eləyirdi.*
*Ancaq bütün axeyləri orda qırmaq istəməyib,*
*Fetidayla oğluna haqq qazandırmaq fikrindəydi*
*Poseydonsa, gur dənizdən gizlin çıxıb, axeylərə*
*Qoşularaq sövq edirdi cəsarətlə qələbəyə;*
*Axeyləri süstləşdirən Zevsə qəzəb yağdırırdı*
*Ataları-nəsilləri birdisə də, ancaq Zevs*
*Ondan əvvəl doğulmuşdu, biliyi də ondan çoxdu,*
*Buna görə Poseydon da açıq-aşkar kömək etmir,*
*İnsan şəkli alıb, gizlin coşdururdu axeyləri,*
*Allahlar sərt düşmənçilik toru qurub insanlara*
*Gah bu yana, gah o yana atıb həmən möhkəm toru*
*Bir çox igid döyüşçünün qol-qıçını qırdırırdı.*

*(Orada, səh. 283-284).*

Dastanda bəşəri-bədii fikirlər elə toplanmış ki, əsərin özünə, ondan götürülən nümunələrə, çıxan mənalara bütövlükdə varmaq

uzun bir söhbət olardı. Bu vəziyyətdən bizə lazım gələn qədər, xəsisliklə istifadəyə çalışırıq.

İnsan dünyaya yaşamaq üçün gəlib. Həm də digər canlılardan fərqli şəkildə. Çünki insanın geniş dərketmə qabiliyyəti, təhlili, qiymətləndirməyi var.

İnsan dünyaya yaşamaq üçün gəlib. Buna yaratmaq arzusu, arzudan doğan fəaliyyəti də əlavə edilsəydi daha yaxşı olardı.

Amma şər tərkibli işlər həyatı məşəqqətə çevirir, dünyanı insanın başına dar edir.

Dastan döyüşün gedişində insanın taleyindəki vəziyyəti elə təsvir edir ki, buradan bir toz-duman, həşarat güzaranı alınır. Bürkü, qalın tozlu yollar, vıyıldayan qasırğa, ora-bura çırpılan zir-zibil yığını – İnsan. Şər yığılır, gizli çarpışmaları aşkara çıxarır, müharibə-döyüş törədir. İnsan da qasırğa qarşısında aciz qalan, daşa-divara çırpılan zir-zibil vəziyyətinə düşür.

Budur bax, xeyrə nisbətən şəri asanlıqla həzm etməyin yekunu!

Zevsə bu döyüşdə üstünlüyü troyalılara vermək lazım idi – Axillesə haqq qazandırmaq naminə. Bunun üçün Allah döyüşün qızğın vaxtında yunanları süstləşdirirdi. Bu "süstləşdirmə" ifadəsində "Allah" ideyası reallaşır, tarixin – ictimai vəziyyətin törətdiyi bir anı ehtiva edir.

Əhvali-ruhiyyənin arxasında güc və haqq dayanmalıdır – hər ikisi birdən. Yunanlar isə Axillesə münasibətdə şəri həzm edərkən öz aralarındakı bəşəri tellərdə haqqı itirmişdilər. Zevsin işlərə münasibəti bu vəziyyəti ifadə edir.

Deyilir ki, Zevs döyüşün gedişində yunanları süstləşdirirdi. Lakin tamamilə qırılıb qurtarmasınlar deyə müharibədə qüvvələr nisbətindəki müvazinəti saxlayırdı. Bu fikrin başqa üzü də ondan ibarətdir ki, deməli, başqa təsadüfdə yunan ordusu bütövlükdə məhv də ola bilərmiş!

Göstərdiyimiz nümunələrin sonunda deyilir ki, allahların insanlar arasında ayrı-seçkilik salması, gah bu, gah da o tərəfə havadar çıxması nəticəsində qanlı döyüşlərdə bir çox igidin qol-qıçı qırılırdı.

İnsan qırıntılarından tərtib edilmiş qanlı bir nahar, mey, məzə, bəzədilmiş süfrə!

Şəri asanlıqla həzm eləməyin məntiqi yekunudur bu...

Yunan allahları arasında Troya müharibələri ilə bağlı cəbhələşmə düşmüşdü. Yunanları müdafiə eləyən allahlar Zevsin işlərindən baş açmayaraq çaşbaş qalmışdı. Zevsin kiçik qardaşı Poseydon

yunanların düşdüyü vəziyyətdən o qədər həyəcanlanmış, başını itirmişdi ki, baş Allaha – ən böyük qardaşı Zevsə lənətlər yağdırırdı.

Bundan nəticə: Axilles bəşəriyyət üçün o qədər çətin bir müşküldür ki, allahların özlərinin də vəziyyətində gərginlik yaradır.

Allahlar yaranmış hala görə, Zevsin işlərindən baş açmayaraq onu yayındırmaq üçün düzmələr hazırlayırlar – xırdalar birləşib böyüyə tor qururlar. Bu hadisə də Axilles müşkülünün allahların arasında nə qədər böyük təzyiq yaratdığını açıb göstərir. Bu gərginlik təpədən dırnağa hər yeri əhatə edir, aşağıdan yuxarıya doğru baş alıb gedir.

Hər şeydən əvvəl yunanların vəziyyəti müsibət həddinə gəlib çatıb. Müharibənin törətdiyi dəhşətləri, döyüş gedişatında başa gələn qətlin eybəcər amansızlığı, qılıncla vurulan baş, parçalanan kəllə, yırtılan qarın, dağılan içalat, sınan bel, qol, qıç, boyunu mıxlayan və nizəyə tikən zərbə, tüpürülən qan və s. və i.-ni indi burada dolğun tərtib etmək məqsədimizin səmtini dəyişir. Amma bir şey faktdır ki, hazırda yunanlar uğursuz vəziyyətdədirlər, ümidsizliyə düşmək üçün hər cür əsas var.

Vəziyyəti almaq üçün bir-iki mənzərəyə yüngülcə müraciət bəsdir:

*“Axeylər çox pozğun halda qaçır, – məğrur troyanlar*
*Dabanbasdı qovurdular. Bürclər tamam dağılmışdı...*
*Bu zamansa, qanlı savaş meydanında qırhaqırdı,*
*Qılıncların, iti uclu nizələrin zərbəsindən*
*Parıldaşan mis zirehlər, tunc qalxanlar gurlayırdı.*

*Nestor gördü sahildən düz ona sarı gəlir birbaş*
*Ulu Zevs yetirməsi, yaralanmış üç hökmdar:*
*Odisseylə Pideyoğlu, bir də Atrid Aqamemnon...*
*Hökmürəvan Aqamemnon o qocaya belə dedi:*
*Neleyoğlu müdrik Nestor, ey Axayın iftixarı!*
*Qanlı savaş meydanını qoyub niyə gəldin bura!*
*Qorxuram ki, qadir Hektor hədəsinə əməl edə, –*
*Troyanlar məclisində təhdid edib demişdi ki,*
*Bizim bütün gəmiləri yandıracaq, özümüzü qırmayınca,*
*Bu meydandan dönməyəcək İliona...*
*Müdrik Nestor, indi ki, hərb gəmilərin yanındadır*
*Hamımızın özümüzə – gəmilərə möhkəm pənah*
*Saydığımız, əlbir olub, min zəhmətlə qurduğumuz,*
*Bürclər bizə əsla kömək eləməzdi, – onda yəqin*

*Qadir Zevsin hökmü budur ki, axeylər yurddan uzaq*
*Bu ölkədə şərafətsiz həlak olub getsin tamam.*
*Bilirdim: Zevs bir zamanlar arqivlərə havadardı,*
*Bilirəm ki, indi ölməz allahlartək düşmənləri*
*Əzizləyib, axeyləri məhrum etmiş mətanətdən.*
*Çarə nədir, gəlin indi mən deyənə əməl edək!*
*Gəlin burda dənizə ən yaxın olan gəmiləri*
*Bu saatca sürükləyib salaq bir-bir gur dənizə*
*Lövbərlərə bənd eləyək. Əgər gecə troyanlar*
*Bizə hücum etməsələr, onda qalan gəmiləri*
*Bir-bir çəkib saldıq suya... Hətta gecə qaçmağın da*
*Eybi yoxdur... Burda tələf olmaqdansa, bir təhərlə*
*Qaçmaqla da can qurtarmaq, əlbəttə ki, yaxşı olar".*

*(Orada, səh. 302-304).*

Buna həm inildəmək, həm də haray-həşirlə çaşqınlıq salmaq deyərlər. Adətən ölkənin ağır anında, xüsusən müharibə zamanı inildəyənlər, ruh düşkünlüyü yaradanlar, haray-həşir salanlar ziyançılar təki məsuliyyətə cəlb olunurlar. İndi iş o yerə çatıb ki, ölkənin başçıları özləri belə inildəyir, haray salırlarsa, bu istibdadın, müstəbidin ağıllı, şəxsiyyətli, təmiz, qəhrəmani adamlara pis münasibətin, başqa sözlə, Axilleslərə şıllaq atmağın ən əyani nəticəsidir...

Yunan başçıları divarlardan, bürclərdən tərtib edilmiş son istehkamların dağıdılmasından, döyüşün gəmilər arasında vətəndən ibarət quru deyil, dənizlərdən, ucsuz-bucaqsız sulardan söhbət gedir. Amma troyalılar öz vətənlərindədir. Fəlakətin, tam həlakətin mənzərəsi göz önündədir.

Yunanlar Troyaya yürüşlərini oğurlanmış Yelenanın xilası ilə əsaslandırırlar. Yelenanın da ki, biz xalq taleyinin, səadətinin, şərəfinin, ismətinin, gözəlliyinin simvolu kimi mənalandırmışıq. Yalnız bu münasibətlə yunanları istilaçı adlandırmaq olmur.

Amma onlar uzaq diyarda, mavi sularda cövlan edən gəmilərə, özgə torpağında qurduqları istehkamlara arxalanırlar. Bu istilaçı mövqeyidir. Yelenaya gəldikdə isə indi burada belə istiqamətləndirə bilərik ki, imperiya eşqinə düşənlər öz yürüşlərini, istilalarını uydurma bir müqəddəsliklə əsaslandırmalıdırlar.

Zira, bizə işin əsli yox, dastanın istiqamətləndirdiyi ideya lazımdır. Yekun da ora gəlib çıxır ki, yunanlar troyalılar tərəfindən məğmun olublar. Axillesə şıllaq atıblar, ölümlə də üz-üzə dayanıblar.

Ölkənin başçısı, Axillesə şıllaq atanın özü, – Aqamemnon təklif edir ki, hər şeyin daşını atıb qaçaq.

İstibdad başında dayanan əsil müstəbid siması.

Aqamemnon hökmdar taxtında, qələbəyə ümid olanda amansızdır və coşub-daşır, bərk ayaqda isə daim qaçmağı üstün tutur.

Aqamemnon qaçmağı təklif edir, bu da birinci olaraq digər başçıları, öz əməkdaşları Odisseyi, Diomedi təəccübləndirir.

Deyir ki, Odissey qəzəbləndi. Söylədi, yunanların yox, qorxaq bir qoşunun başçısı fərarilik tövsiyə etsəydi, nə isə bir şey başa düşmək mümkün idi. Allah bizi çarpışmaq, beləcə də ölmək üçün yaratmış. Dünya arzuolunmaz şəkildə ölüm-dirim vəziyyətindədir. Qaçqınlıq təkcə özümüz deyil, hər şeyimiz üçün həqarət olardı...

Diomed daha cəsarətli, daha həzin, ürək parçalayan çıxış edir.

İlkin çıxışlardan, yüngülcə töhmətlərdən Aqamemnon silkələnir, ayılır, o ayılır və başçılarla döyüşə girmək üçün razılaşır.

Axilleslə üzləşərkən fınxıran Aqamemnon orta məsləhətlərlə razılaşır. Ona görə də o, başçı seçilmişdi. Aqamemnon bu cür adamların başçısıdır. Axilles tənhadır. Bunlar isə çoxluq təşkil edir.

Axilleslərə qarşı dayanan çoxluğu birləşdirən şəbəkə sürü instinqtinə əsaslanır.

Axilles sürüdəkilərdən biri ola bilmirdi.

Sürünün öz məntiqi var idi. Sürü bu məntiqlə "irəliləyir" və Axillesi aciz vəziyyətdə qoyurdu.

Lakin Axillesi aciz vəziyyətdə qoyan, Axilles məntiqini tullayıb öz məntiqi ilə irəliləyən sürü nəyə çata bilərdi. Bir halda ki, onların işini bu başdan Allah özü pozmuş. Allah Axillessiz döyüşlərdə onlara qələbə vəd etmirdi. Hələ bu harasıdır, nəinki adi, orta insanlar, hətta allahlar özləri də Zevsin qardaşı, dənizlər, okeanlar hakimi Poseydon, Zevsin ortağı Hera özü belə, toyuq "uzaqgörənliyi" ilə qoşuna qarışıb yunanları qələbə vədləri ilə döyüşə həvəsləndirir.

Poseydonun məntiqi sadədir: Zevs, mən və Aid Kronun oğluyuq. Var biz üç qardaşın arasında bölünmüş. Səma Zevsin, sular mənim, yerin altı isə Aidin. Qurunusa üç qardaş birlikdə idarə etməliyik. Ona görə də mən öz hərəkətlərimdə sərbəstəm.

Lakin Poseydon unudurdu, gözəgörünməz, müstəsna keyfiyyət var ki, bu Zevsi adi ilahi bölgüdən qırağa çıxarırdı, bu onu allahlar içərisində allah edirdi.

Məsələnin məğzi bunda idi.

Bu cür düşüncələrlə Poseydon məsləhətçi qocaya çevrilib qoşuna qarışır. O, Aqamemnonu döyüş üçün həvəsləndirir, Axillesi ümidsizlikdə ittiham edir.

Adam istər-istəməz "bu da allahın qanacağı" demək istəyir.

Qardaşı və qaynı Poseydonu yunanlarla bir sırada görən Hera sevinir, özü də bir tədbir düşünməyə başlayır.

Hera ilk addım kimi ərinə qarşı aldatma tədbirinə əl atır. Bunun üçün onun ən yaxşı silahı cinsi, qadın cazibədarlığı idi.

Lakin Allah özü nəfsinin öhdəsindən gələ bilməyib cinsi heysiyyatın cazibə toruna düşəcəksə, burada dünyanın müşkülü üçün beyinlər qırılıb tökülməlidir.

Allahın xilas ola bilmədiyi bir şey, deməli, çox qüvvətli amildir. Başqa tərəfdən çıxış yolu bu təsirdən yayınmaqdan, mənən ondan yuxarı qalxmaqdan, onu idrakın nəzarəti altına almaqdan ibarətdir.

Axilles müşkülü allahların da arasında gərginlik yaradır, – tərəf-tərəf salır. Məsələn, Poseydon, Hera, Afina yunanlarladır, Ares, Apollon, Afrodita troyalılarla, Zevsin isə bütün düşüncəsi Axilles üzərində mərkəzləşmiş. Zevs üçün yunanların hücumu, troyalıların müdafiəsi, əvvəlcə bir səmtin üstünlüyü, başqasının uğursuzluqları və əksinə, gedişlər, döyüşlər, qırğınlar, başsız axınlar, qışqırıqlar, hıçqırıqlar, fəryadlar, sınmalar, qırılmalar, parçalanan bədənlər, başlar, budlar, qarınlar, axan qanlar, fəryadlar Axillesə əzəmətli, şərəfli bir qələbə hazırlamaq üçündür. Zira, burada Zevsdən aşağı pillədə dayanan allahların tərəf-tərəf düşməsi doğmalar arasında baş verir. Hera Zevsin bacısı və arvadı, Poseydon qardaşı, Afina qızıdır – yunanlara arxa dururlar, Apollon oğlu, Afrodita qızıdır, – troyalılara qəmxar çıxırlar.

Gedişin mürəkkəbliyi burasındadır.

Yunanları pis gündə görən Hera silsilə aldatma tədbirlərinə əl atmaq qərarına gəlir. Bunun üçün o, hər şeydən əvvəl Zevsi özünə cəzb edib yuxuya verməlidir. Bu zaman Poseydon asanlıqla yunanlar arasına qarışa və köməyini göstərə bilər. Hera ilə Poseydon arasındakı bağlaşma elə bu yöndə idi:

*"Öküz gözlü Hera onda şimşəksaçan ulu Zevsi*
*Aldatmaqçın fikirləşib axır belə bir yol tapdı:*
*Mümkün qədər gözəl-qəşəng geyinərək-bəzənərək,*
*Getsin bir baş İdaya, o qadir Zevsi cəlb etməyə*
*Bəlkə onda bir yataqda uzanaraq, bədənindən*

*Ləzzət almaq həvəsini oyandırsın – sonra isə*
*Şirin yuxu səpsin onun gözlərinə, şüuruna”.*

*(Orada, səh.306).*

Hera daha da cazibəli olsun deyə yuyunub təmizlənməkdən, bədənini hamarlamaqdan, ətirləməkdən, bəzənib-düzənməkdən başlayır. Sonra qızı məhəbbət ilahəsi Afroditanı yanına çağırır. Onu da aldadaraq söyləyir ki, mənim atam-anam, sənin baban-nənən olan Kron ilə Reya küsüşüblər, çoxdandır bir yatağa uzanmırlar. Onlar məni yaxşı böyütmüşlər. İndi onlara baxarkən ürəyim yanır. Onları barışdırmaq arzusu ilə yanlarına gedirəm. Əgər yunanlara arxa durduğuma görə məndən tamam üz döndərməmisənsə, bu işdə mənə kömək etməlisən. O da ondan ibarətdir ki, ölməzləri, faniləri ram edən cazibəli məhəbbət qüdrətini mənə ver. Afrodita aldanır və anasına kömək arzusu ilə kövrələrək söyləyir ki, mən nə karəyəm, səni rədd edim. Sən ulu Zevsin qucağında yatırsan. (Təəssüf ki, bir çoxları kimi allahlar da cinslər arasında, eləcə də ailədə də baş münasibəti yataqda uzanmaqda görürlər). Afrodita özü söyləyir ki, mənim məhəbbət sehrim ən ağıllı adamları başdan edən, aldadıcı, cazibəli sehrə malikdir.

Heranın çöhrəsində ikibaşlı, çoxmənalı təbəssüm cövlan edir – öz ərinə, qızına qarşı. Sehri qoynuna qoyur.

Bir zaman Herakl vaqeəsində Zevsi aldatmaq üçün Hera huş allahı Atedən istifadə etmişdi. İndi isə cinsi cazibədarlığın bütün gedişi başa çatandan sonra Hera ərini dərin bir yuxuda xumarlandırmaq üçün yuxu allahının yanına gedir.

Burada işi başa gətirmək üçün təkcə Allah yuxunu dilə tutmaq az idi. Şirnikdirmək, vəd etmək, hədiyyə bağışlamaq lazım gəlirdi.

Əvvəlcə Hera Yuxuya sənətkaranə işlənmiş qızıl bir taxt vəd edir, – dəmirçi allahı Hefestin qayırdığı. Hefes Heranın öz oğlu idi. Yuxu Zevs xofunu xatırladıb qorxunu əsaslandıraraq təklifdən boyun qaçırmağa cəhd göstərir. Lakin Hera aman vermir, hələ Yuxu nəfəsini dərməmiş Hera ikinci hədiyyə ilə vəd verir:

*“Sənə ən gənc xarita verərəm mən, –*
*Çoxdan sevib həsrətində olduğun o Pasifeya*
*Sənin olsun, al özünə arvad elə, həmişəlik!”*

*(Orada, səh. 309).*

Sevgi – Pasifeya adı eşidən Yuxunun yadından qorxu, təklifdən boyun qaçırmaq çıxır. Əksinə, indi o, özü vədinə xilaf çıxmaması üçün Heraya müqəddəs andlar içdirir.

Bağlaşma baş verir...

Qəribədir, Hera Allahın, – Zevsin gözünü toranlaşdırmaq, onu məqsəddən yayındırmaq üçün öz cinsi varlığını əsas götürür, bundan bir silah kimi istifadəyə çalışır. Lakin hələ işlər gedib Zevsin özünə çatmamış bu işin əsas iştirakçılarından biri olan Yuxu özü heysiyyatın, cinsi aləmin cəzbetmə qüvvəsinin təsirinə düşür.

Bəşəri bir qüsur, naqislik tüğyan edir. Amalla nəfs üz-üzə durur.

Əlbəttə, ilkin şərtlərin ödənilməsi, fəaliyyət göstərməkdən əvvəl mövcud olmaq tələbi başa gəldikdən sonra nəinki nəfs, heç bir şey amalı, əqidəni üstələməməlidir. Əgər çox mühüm, prinsipial vəziyyətidirsə, (xalqın, bəşərin taleyi, həqiqətin qorunması təkin) onda ilkin şərtlərdən, mövcud olmaq tələbindən də imtina edib ölüm-dirim meydanına atılmaq, canından keçmək lazım gəlir. Lakin biz bunun əvəzində ümumi hal təkin nəfsi itələyən bir "pay" peyda olduqda hər şeyin yaddan çıxdığını görürük. Nəinki insanlar, allahlar arasında da. Ona görə də şər bu qədər inadcıldır.

Hələ mündərəcə belə, səviyyə bu həddədir.

Yuxunun sevimli Pasifeyanın adını eşidərkən qorxu hissini də, Allah hökmünü də unutmasını məhəbbətin qələbəsi kimi də qiymətləndirmək mümkündür. Lakin burada mübarziə yox idi, məhəbbət şərtlərinə əsasən verilirdi. Ona görə də bu qarşılıqlı meyildə ülviyyət anlayışından daha çox, insani zəiflik meydana çıxır.

Hera ilə Yuxu bağlaşan təki dərhal allahın – Zevsin yanına yollanırlar.

Zevs ilə Hera cinsi mündəricədə tərəfi müqabil idilər. Həm də onlar arasındakı rəftar mərhəm münasibətlərdi. Həmin səbəbdən meyli, arzunu məhdudlaşdıracaq səddlər bu başdan yox idi.

Amma Hera aldadıcı gedişlərlə Zevsin yanına gəlmişdi. O, ərinin ehtirasını coşdurmaq üçün bütün oyunlardan çıxmış, süni bir canfəşanlıq, qılıq, mehribanlıq, yaxınlıq, doğmalıq göstərirdi. Burada hər şey ikinin bir olmasına bənzəyirdi. Ona görə də dastan deyir ki,

*"Şimşəksaçan gördü onu,*
*Görən kimi ehtirası coşdu, əqli-huşu getdi".*

*(Orada, səh. 310).*

Yalançı cazibədarlıq, yalançı rastlaşma Zevsin – Allahın hisslərini taramlaşdırmış, ehtirasını coşdurmuşdu. Heysiyyatına qapılıb Allahın da ağlının başından çıxması, dünyanın ağılsız bir dayağa pərçimlənməsi nəticəsində aləmin acınacaqlı mənzərəsi ilə işimiz yoxdur. Zevs Heranı görərkən həyəcan, ehtizaz, təəccüb, çaşqınlıq içərisində arvadını dilə tutur. Hera da eyni dillə, qızı Afroditanı olduğu kimi, ərini də aldatmağa başlayır. Söyləyir ki, dünyanın o başına, bir-birindən soyumuş ata-anamızı barışdırmağa gedirəm. Lakin cinsi ehtizaz Allahın ağlını başından çıxarmışdı. O, karıxmış halda arvadını yığışdırır (elə bil, əlinə özgə malı keçirmək kimi bir fürsət düşmüşdü) və altına basır. Bu hal o qədər açıq, qabarıq halda baş verir ki, hadisə Heranın özünün də təəccübünə və məqsədinə doğru addımın qələbəsindən doğan sevincə səbəb olmalı ki, deyir:

*"Ay aman! Ay Kron oğlu!..*
*Məni elə buradaca ağuşuna alacaqsan!*
*Bu İdanın zirvəsində, göz önündə, açıq-aşkar?"*

*(Orada, səh. 311).*

Allah da eyni malbaşlıqla, "Malbaşovlar" təkin, yelbeyinliklə cavab verir:

*"Hera, inan, nə ilahə, nə də fani gözəllərə*
*Bu vaxtadək belə coşğun bir ehtiras duymamışam!"*

*(Orada).*

Zevs sonra da ehtirasa qərq etdiyi nunuşuna çatdığı dünyanın mənzərəsini rəsm etməyə, gözəllərin, onlardan törətdiyi övladların adlarını sadalamağa başlayır. Bu söhbətin arxasında dayanan real dünyanın özünə nəzər yetirə bilsək, qarmaqarışıq, murdar bir mənzərə alınar. Tarixdə və gündəlik həyatda müşahidə edildiyi kimi. Lakin biz vəziyyətə bu başdan malbaşlıq, "Malbaşovlar", yelbeyinlik deyiriksə, bununla hər şeyi söyləmiş oluruq. Burada artıq baş sındırmağına yer qalmır.

Heranın bütün diqqəti ərində – Zevsdədir. Zevs də bir çox yerlərə boylansa da, Hera onun əsas arvadıdır. Həyatı onunla bağlanmışdır. Deməli, onların həyatlarının mündəricəsi, səadətləri, kamiyablıqları, taleləri qarşılıqlı rəftarlarından, ittifaqdan, barışıqlarından asılıdır.

İndi Heranın cazibəli dona girib şirnikdirici şəkildə ərinə yanaşması bu cür səmimiyyət, qarşılıqlı anlaşılma, barışıq, ikinin bir olması cildinə girmişdir. Lakin bu həyatı təslim etmək haqq-sayı, məhəbbətin törətdiyi itaətlə ixtiyarsızlaşmaq yox, məqsəd naminə şirnikdirməyə əsaslanırdı...

Tam məsudluq, ülviyyət əvəzinə, aldanış və bütöv bir iflas!..

Həyat şərtləri mövcuddur, amansızdır. O, səni hər daim, hər addımda güzərana pərçimləyir. Lakin insan özü də axmaq gedişə həyatı yalana dəyişir. Beləliklə də, səadətin fəlakətlə əvəz edilməsinə gedib çıxır...

Zevs aldanır, ehtirasın da ağuşunda xumarlanır, gözlərinə də Yuxu öz əllərini çəkir. Bu halın qabarıqlığını dastan belə təsdiq edir:

*"Yuxu ilə eşqə uyub şirin-şirin yatdı Zevs".*

*(Orada, səh. 812).*

Beləliklə, xırdalar böyüklərə müxalif çıxır və müvəqqəti də olsa bir müvazinət yaradır.

Heraya da elə bu lazım idi. O, Poseydonu fəaliyyətə həvəsləndirərək deyir:

*"Ey Poseydon, indi bol-bol kömək elə danaylara!*
*Nə qədər ki, Zeves yatır, – qoy qələbə çalsın onlar.*
*Mən o qadir hökmdarı şirin-şirin yatırmışam".*

*(Orada).*

Poseydon yunan ordusunun sırasına qoşulur. İndi Allahların müəyyən qrupu onlar tərəfində idi. Gücsüzlükdən, ardıcıl məğlubiyyətlərdən özünü itirmiş yunan ordusu özünə gəlir, rəngi-ruhu üstünə qayıdır.

Tərəflər döyüş üçün özlərini yığışdırmağa başlayırlar. Üz-üzə gələn qoşunları Dastan belə təqdim edir:

*"İki Qoşun dəhşət ilə qıy vuraraq qarşılaşdı,*
*Bareyin sərt nəfəsilə sahillərə hücum edən*
*Köpüklənən boz dalğalar qayalara çırpıb gurlar,*
*Meşələrə od düşəndə azğın yanğın alovları*
*Yaxıb-yıxar ağacları, nərə çəkib dəhşət saçar*
*Uca-uca palıdları sarsıdaraq coşan külək,*

*Ən qorxunc bir uğultuyla lərzə salar yerə-göyə...*
*Ancaq bütün bu dəhşətli gurultular-uğultular*
*Tay olmazdı qarşılaşan qoşunların nərəsinə..."*

*(Orada, səh. 313).*

Qoşunlar üz-üzə gələn zaman ilkin olaraq, sərkərdələr, qəhrəmanlar döşləşirlər. Hektor əlində nizə bir uğultu törədir. Vahimə! Amma Ayaks məharətlə müdafiə olur. Təhlükə sovuşur. Hektor özünü itirir və dabanına güc verir. Elə bu vaxt:

*"Telamoni Ayaks isə, ayaq altda bol-bol olan,*
*Yekə bir daş alıb yerdən atdı onun arxasınca, –*
*Həmən daşı fırfıratək hərləyərək tolazladı*
*Gedib dəydi düz Hektorun sinəsinə – gərdəninə*
*Necə qadir Zevsin zərbəsindən nəhəng palıd*
*Öz kökündən qopub düşər, acı kükürd qoxusunda*
*Dəhşət alar adamları...*
*Beləcə də Hektor yerə sərələndi, ağır qalxan,*
*Sərpuş düşdü üzərinə, cingildədi zirehləri...*
*Mərd Hektoru qaldıraraq apardılar o meydandan, –*
*Bir kənarda – atlarıyla yaraşıqlı gərdunəsi,*
*Sürücüsü duran yerə... İnildəyən qəhrəmanı*
*Ordan birbaş çapa-çapa apardılar İliona.*

*Ancaq qadir ulu Zevsin yaratdığı pak Ksanfin*
*Sahilinə yetişəndə, mərd Hektoru gərdunədən*
*Düşürərək, üzərinə çay suyundan səpən kimi,*
*Hektor dərin nəfəs alıb gözlərini azca açdı.*
*Çöməlrək qan tüpürdü, – laxta-laxta qapqara qan...*
*Həmin saat yenə yerə sərələndi, gözlərinə*
*Zülmət çökdü: güclü zərbə onu yaman sarsıtmışdı".*

*(Orada, səh. 313-314).*

Təsvirdən Hektor, troyalılar üçün acınacaqlı bir mənzərə alınır. Buna Hektor müsibəti də demək mümkündür. Lakin bu adi müsibət deyil. Bütöv bir aləmi təmsil edən qəhrəmani bir hünərin, parlaq bir şəxsiyyətin müsibətidir. Bu müsibətdən tam bir qövmün məğlubiyyəti, troyalıların həlakəti görünür.

Hektor müsibəti iniltiylə məhdudlaşmır. Müsibətin arxasında hünər və şəxsiyyət dayandığına görə buradakı dərd həm faciəvidir, həm də epik.

Biz təsvirlə, hadisələrlə bağlı bir çox mənzərələrin ibrətli rəsmini çəkməyə, hikmətlər söyləməyə çalışardıq. Lakin mətləb uzanmasın deyə burada onu deməklə kifayətlənək ki, "arxalı olmaq" necə də "yaxşı" şeydir. Çətin asan olur, rahat-rahat qələbələr çalırsan, hünərin, şöhrətin bayrağı da göyə qalxır... Lakin vəziyyət belə olduqda, daha burada arxa kəraməti və şəxsiyyətin başa gətirdiyi hünər haqqında çalarlı söhbətə yer qalmır.

Zevsi yuxuya verirlər, yuxuya gedən dünya yaranır.

Ölən xalq – ölən bəşəriyyət!

Xalq o zaman ölür ki, yəni ölüyə misal görünür ki, atını dördnala çapır və uzun sürür. Bu zaman xalqı tərpətmək, oyatmaq, özünə gətirmək işi çətinləşir. Sanki hər cür fəaliyyət, xeyirin özü kəsərdən düşür, hadisələr dəhşət nöqtəsinə çatana qədər.

Fərdi təşəbbüslər, fəaliyyətlər dəyərsiz deyil. Lakin ölü timsallı xalqların özünə gəlməsi, yenidən dirilməsi daha tarixi hadisə olur. Bu vəzifə tarixin boynuna düşür.

Bu iş Zevsin özünə qalıb. Poseydonlar, Heralar girən meydan deyil.

Zevsi isə bir anlıq da olsa yuxuya vermişlər. Qanlı, acınacaqlı döyüşlər baş alıb gedir. Elə qanlı hadisələrin, eybəcər ölümlərin şahidi oluruq ki, insan öz-özünə deyir: görəsən biz bu dünyaya nə üçün gəlmişik? Və ya vəziyyət belə isə, bəs nə üçün bizi insan adlandırırlar?!

Saysız faktlardan ikisinə diqqət yetirək:

*"Başla-boyun bitmişliyi yerə dəyib sivri nizə,*
*Boynundakı damarları, əsəbləri qırıb-tökdü.*
*Dodaqları, burnu üzü – bütün başı, üzüquylu*
*Yıxılanda bərk dəyib, tamam batdı toz-torpağa"*

*(Orada, səh. 315).*

*"Atrid – hökmürəvan Kiperenrun*
*Qasığından vurdu, nizə qarnını da yarıb, bütün*
*İçalatı töküldü...*

*(Orada, səh. 317).*

Eybəcər işlərin variasiyaları tükənmir, xüsusən insana qarşı nalayiqcəsinə, zalımcasına – qəddarlıqla başa gətiriləndə. Bu iki nümunə tarixdə və gündəlik həyatda müşahidə edilən mənzərədən cüzi hissədir. Lakin insan taleyindəki bu kələ-kötürlükdən, dönüklükdən könüllərin bulanması üçün müraciət etdiyimiz faktlar da kifayətdir. Ölüm haqdır. Lakin kimsə bu cür həlakəti istəməzdi. Belə də söhbət var ki, özünə arzu etmədiyini başqasına da rəva görmə. Amma şərin asanlıqla həzm olunduğu dünyada bunlar bir faktdır... hələ onda ki, allahlar aldadıla, yuxuya verilə.

Amma allahların aldadılması, yuxuya verilməsi, heç olmasa bir an üçün mümkündür.

Zevs oyanır. Yunanlarla vuruşda troyalılar üçün yaranmış acınacaqlı vəziyyəti Allah görür. Zevs arvadına, – Heraya tərs bir nəzər salır. O, hiyləni başa düşmüşdür. Lakin Hera burada da qadın dəyanətsizliyi göstərib bütün işləri Poseydonun üstə yıxıb deyir:

*"Poseydonun öz qəlbidir onu buna vadar edən".*

*(Orada, səh. 320).*

Zevs Heranı və onun əlaltılarını ağır şərtlərlə hədələyir. Yunanlara havadar çıxan Poseydonu Allahın adından geri çağırmaq, troyalıları hərbə ruhlandırmaq üçün İrida və Apollonu vuruşun qızğın yerinə göndərir.

Burada bütün qüvvələr üz-üzə gəlmişdi. Zevs öz məqsədini bəyan edir, qumar dili ilə desək, əlini açıb kartı arvadına – Heraya göstərir.

Bu "final oyunlarına" girişdir.

Qanlı final! Sən bir insan taleyindəki mənzərəyə bax! Lakin bundan əvvəl o şəri asanlıqla həzm etmişdi. Bunu möhkəm yadda saxlamaq lazımdır.

Zevs əlini açarkən qumar vərəqlərində görünənlər aşağıdakılardır:

*"Feb – Apollon mərd Hektoru yenə hərbə təhrik etsin,*
*Unutdursun ona indi əzab verən ağrıları,*
*Qollarına – ürəyinə yeni qüvvət-cürət versin,*
*Danayları qorxudaraq qaçırtsın qoy sahil sarı,*
*Onlar qaçar Axillesin öz gəmisi duran yerə,*
*O da dostu mərd Patroklu öz yerinə döyüşməyə,*
*Göndərəndə, – ondan əvvəl mənim oğlum Sarpedonla,*
*Bir çox başqa igidləri həlak etmiş qoçaq Hektor*

*Nizəsilə Patroklu da vurar... buna mərd Axilles*
*Qəzəblənib həlak edər qoç Hektoru... Ancaq onda*
*Mən də elə edərəm ki, Troyanın qoşunları*
*Gəmilərin qarşısında tamamilə məğlub olar,*
*Axeylər də Afinanın müdrik hökmü sayəsində,*
*O müqəddəs, gözəl, abad İlionu fəth edərlər.*
*Pak Fetida gəlib mənim dizlərimi qucaqlayıb,*
*Yalvararaq öz qəhrəman oğlu üçün şərəf-izzət*
*Diləyəndə, mən başımla təsdiq edib verdiyim söz, –*
*Axillesin arzuları, – öz yerinə yetməyincə,*
*Qəzəbimi yumşaltmaram, allahlardan heç birinə*
*Əsla izin verməram ki, kömək etsin danaylara".*

*(Orada, səh. 321).*

Hera cinsi mövqeyinə əsaslanaraq müxtəlif cazibədar oyunlarla Zevsin ruhunu ələ alır, Allah Yuxu vasitəsi ilə huşunu yenə verir və beləliklə də yunanlara havadarların əl-qolu açılır.

Bu kişi zəifliyinin, naqisliyinin daha dərin, çalarlı mənzərəsini sarsıdıcı irticası ilə birlikdə biz M.S.Ordubadinin "Qılınc və Qələm" romanı üzərinə gələrkən Atabəy Məhəmməd – Qətibə qolunda görəcəyik.

İndilik isə Zevs ayılır, silkələnir və özünə gəlir. O, hədələrlə iradəsinə qarşı duranlara mövqelərini göstərir, əvvəlki mövqeləri bərqərar etmək üçün uyğun sərəncamlar verir.

Allah üzərində qələbə ancaq bir an üçün ola bilərdi. Allahın hökmü mütləqdir – bütün çevrilmələri, zahiri baş-ayaqlığı ilə birlikdə...

Zevsin son məqsədi, əlbəttə, yunanlara kömək canfəşanlığı göstərən allahların xeyrinədir. Lakin Zevs işin korlanmaması və uğurun daha sarsıdıcı yekunu naminə özünəməxsus fikri gizli saxlayır. İndi məqam çatmışdı – sonuncu zərbəni vurmaq üçün hər şey hazır idi. Zevs taktikasının bəzi cizgilərini özünə yaxın olanları göstərə bilərdi ki, onlar bir az sakitləşsin, əl-ayağa az dolaşsınlar.

Beləliklə, Zevs əlini açır və qumar vərəqələrinin üzünü göstərir... onun da məqsədi Axillesə ilahi bir qələbə hazırlamaq idi.

Hektor haqqında isə hər yerdə parlaq sərpuş, Zevsin sevimlisi və s. epitetləri işlədilir. Hadisələr Axillesə çatana qədər də Zevs hamıya qarşı Hektorun üstünlüyünü təmin edir. Əslində isə Hektor Zevs üçün şahmatçının əlində tutduğu və rəqibin şahını mat naminə qurban verməyə fürsət axtardığı fiqur mövqeyindədir.

Zevs şahmat oynayır. Yaxın adamları isə onun şahmat gedişlərini başa düşmür, naşılıq göstərir. Hövsələdən çıxır, yüngülməcazlıqla işə qarışmağa can atarkən əl-ayağa dolaşırlar.

Axı bu Axilles əslində kimdir ki, onun ətrafında Zevs bu qədər baş sındırır, onu toxunulmaz bir dünyaya çevirir? O qədər ki, hətta Zevsi çıxmaqla başqa allahlar da Axilles prinsipi önündə aciz qalır, solğunlaşırlar.

Məsələ ondadır ki, Zevs özlüyündə allah ideyasını bütöv, kamil şəkildə ifadə edə bimir.

Zevs güclüdür, idraklıdır, yaradıcıdır. Başqa tərəfdən, tədbirlərində amansızlığa yol verir – qəddardır, ehtiraslarının da öhdəsindən gələ bilmir. Zira, Allah ideyasının təsdiqi üçün gücə qarşı qüdrət, qəddarlığa qarşı məhəbbət cövlan etməlidir.

Natamam bir şey haradasa tamamlanmalıdır.

Axilles isə ülviyyət və hünər mücəssəməsidir – Allah da elə buna deyərlər.

Zevs Heraya deyir ki, Axillesin qələbəsi üçün Fetida dizlərimi qucarkən onun arzularını qəbul etdiyimi başımı tərpətməklə göstərmişəm.

Başın tərpənməsi, başın qiyməti, verilən sözü tutmaq budur – Allah məqamı.

Zevs özü haradasa Fetidanın qarşısında acizdir. Fetida Zevsin ruhunu oxşayırdı. Lakin Fetida toxunulmazdır.

Deməli, elə doğma hədlər var ki, onu heç allahlar özləri də aşa bilməzlər. Aşarlarsa, bu, cinayətin, bəşəri qəbahətin, azğınlığın, həyasızlığın ifrat forması olmalıdır. XX əsrin "azmanlarının" etdikləri kimi!

Axilles ata tərəfdən kentavrlar arasında yeganə Allah Xirona dirəndiyi kimi, ana tərəfdən də Poseydonun nəvəsi kimi kök gedib Zevsin atası Krona çıxırdı.

Beləliklə, Axilles Zevsin başlandığı kökün şaxələrindən idi.

Zevs aldanışdan qayıdır. İndi həlledici an, şərin bəhrələri bütöv şəkildə başa gəlməli, naharın qanlı mənzərəsi tüğyana başlamalı idi. Bunun üçün Zevs Heradan olan oğlu Apollon qan qusmaqda olan Hektora havadar çıxmazdan əvvəl İrida vasitəsi ilə Poseydonu vuruş meydanından çıxarmalı olur.

Poseydon əvvəlcə Zevsin qələbəsindən alınır. Ona qarşı öz bərabər hüququndan dəm vurur, inadından dönməyəcəyini söyləyir, mündəricəsiz şəkildə xoruzlanır.

Zira, Zevsə qarşı durmaq həm faydasız, həm də fəlakətli idi. İrida da Poseydona bu şəkildə nəsihət verir. Poseydon bu imkandan istifadə edir, təslim olur və meydandan çıxır.

Beləliklə, "Poseydon prinsipsizliyi" deyilən şey baş verir.

Poseydon müəyyən bir işi başlamışdı. Bir allah təkin o, yeni fəaliyyət üçün yaranmış idrak adamı, şəxsiyyət kimi girişdiyi işin idrakiliyini və həqiqiliyini əvvəlcədən hesablamalı idi. Belə çıxır ki, o, bunu əməlli-başlı götür-qoy etməmişdi. Sonra Zevs ona xof gəlməyə başlayanda Poseydon əvvəlcə kişiləşir. Lakin bunun ardınca yüngül vəziyyətə təslim olur. Halbuki təklifə müqavimət qərarına gələrkən gərək o, mövqeyində dayanıb-dayana bilməyəcəyini də əvvəlcədən hesablaya idi. Təslim lazım idisə, bu başdan bunu etməlidir. Yox, müqavimət qərarına gəlmişdisə, geri çəkilmək üçün başqa tərəfin güclü olması əsas şərt deyildi. Öz işinin həqiqiliyinə və idrakiliyinə inanan adam bənzəri vəziyyətdə, hətta ölüm gözlənilsə belə, təhlükənin üstə şığımaqdan çəkinmir.

Poseydon fəaliyyəti hələ bu başdan bu cür idrakilikdən, qəhrəmanilikdən və deməli, prinsipdən məhrumdur. Ona görə də o, Zevsə müqavimət iqtidarına malik deyildi.

Atasının, baş Allah Zevsin tapşırığını başa gətirmək üçün Apollon işə Hektoru özünə gətirməkdən başlayır. Bu işdə Zevs özü də ona kömək edir:

*"Ağır-ağır töyşüyürdü, tanıyırdı dostlarını,*
*Qadir Zevsin köməyilə ayılırdı yavaş-yavaş".*

*(Orada, səh. 326).*

Lakin bunu Hektora qarşı Zevsin həqiqi qayğısı hesab etmək mümkünmü? Bir halda ki, Allah onu sonra başqasına yem eləmək üçün indi cana gətirirdi.

Zevs əlini açıb "qumar vərəqələrini" Heraya göstərdiyi zaman olduğu kimi, indi Apollona tapşırıq verib Troya ordusu sıralarına yollayarkən də deyir:

*"Hektorun da qayğısına, ey Apollon, sən özün qal,*
*Ona elə qüvvət ver ki, qarşısından Axeylilər*
*Qaçıb-gedib Hellespontun sularına yetişsinlər.*
*Ondan sonra işlə-sözlə özüm tədbir görərəm ki,*
*Axeylər də nəhayət bu əzablardan dincəlsin".*

*(Orada, səh. 326).*

Özünə gələrkən işlərin yenidən bu cür sürətlə dəyişməsi Hektorun özünün də təəccübünə səbəb olmalı ki, gözləri bərələ halda Apollona deyir:

*"Ey xeyirxah allah, kimsən, özün mənlə danışırsan?*
*Bilmirsənmi, gəmilərin arasında arqivləri*
*Qırarkən mən, gursəs Ayaks Telamoni yekə daşla*
*Sinəmdən bərk vurub mənim, taqətimi aldı əldən?"*

*(Orada, səh. 327).*

Bu zaman Apollon özünü Hektora nişan verir. Deyir ki, qorxma, Zevs bizimlədir.

Deyirəm, Allahın işdə adama yar olması necə də yaxşı şeydir! Zevsin havadarlığı, Apollonun əməkdaşlığı Hektorun ruhunu özünə qaytarır, həm də ikiqat gücü ilə. Dastan bu vəziyyəti elə epitetlərlə, bənzətmələrlə, pafosla təsvir edir ki, sənətin qüdrəti insanı heyran qoyur, titrədir. Dastan söyləyir ki, köhlən bir at tövlədə bağlı qalıb bol-bol yeyəndən sonra çəmənliyə, açıq havaya çıxarkən necə harın halda şahə qalxar, əsib-coşar, kükrəyər, noxtasını qırıb düzlərə qaçarsa, büllur sularda çiməndən sonra silkələnər, yalı dalğalanar, başını dik tutub lovğalanar, öz hüsnünə aşiq olub, baxa-baxa ləzzət alar.

İşdə allah əli var idi! Hektor coşğun halda idi. O, pafosla atlıları döyüşə haraylayır. Bir anda coşğunluq aləmi bürüyür. Döyüşün vüsətindən, taraqqıltıdan göy üzü tutulur. Hadisələr sürətlə dəyişir. Dastan müqayisəli şəkildə mənzərəni belə canlandırır. Necə ki, bir cüyürü, ya maralı kəndlilər qova-qova, izləyə-izləyə tələyə salanda dik qayalar və ya qalın meşə xilas edərsə, burada da yunanlar eyni vəziyyətə düşdülər. Çünki Hektorun ikiqat qüvvə ilə peyda olması onların sırasını pərən-pərən saldı. Dastan söyləyir ki, ovun ən mühüm anında qıllı-yallı bir aslan görünə, ovçuların sırasına başı pozuqluq sala bilər.

Eyni vəziyyət burada iki ordu arasında yaranır:

*"Danaylar da, bax beləcə, əvvəl əldə iti nizə,*
*Dəstə-dəstə izləyərək qovurdular düşmənləri,*
*Ancaq görcək mərd Hektoru troyanlar arasında*
*Bərk qorxuya düşüb hamı güc verdilər ayaqlara".*

*(Orada, səh. 327)*

İşdə Allahın havadarlığı bu deyən sözdür! Həm də burada allah anlayışının tarixi vəziyyəti və mənası daha çalarlıdır.

Rahat gündə yelbeyinliklə Axillesə şıllaq atan yunanların əsil müsibəti, əsil fəlakəti də burda fövqə qalxır. Bu isə Axillesin yenidən fəaliyyətə qayıtmasını, haqqının qaytarılmasını, mövqeyinin təsdiqini yaxınlaşdırırdı:

*"Necə zülmət bir gecədə çobanlardan ayrı düşmüş*
*Bir sürüyə, ya naxıra iki vəhşi soxulanda,*
*Qoyun-inək pərən-pərən düşüb qaçar, hara gəldi, –*
*Eləcə də qaçırdılar axeylilər... Feb-Apollon*
*Onları bərk qorxudaraq, şöhrət verdi Hektorgilə*
*Axeylərsə, xəndək ilə hasarlara sığınaraq,*
*Pərən-pərən düşüb, hərə bir tərəfə qaçışırdı".*

*(Orada, səh. 329).*

Vəziyyət yunanları diz çöküb fəryad qoparmağa, yalvarmağa məcbur edir.

*"Axeylərin ümidgahı, Gerenli mərd müdrik Nestor*
*Əl qaldırıb, hamıdan bərk dua etdi hərarətlə:*
*"Ey atamız! Bol buğdalı Pak Arqos da bir zamanlar*
*Yağlı öküz, qoyun budu yandıraraq, sağ dönməkçün*
*Duamızı yaxşı qəbul etdiyini yadına sal!*
*Fəlakəti uzaq elə bizlərdən, ey ulu tanrı,*
*Qoyma qırsın arqivləri İlionlu qəhrəmanlar!*
*Belə dedi yalvararaq... Kronion gurultuyla*
*Bildirdi ki, qəbul etdi pak Nelidin duasını..."*

*(Orada, səh. 330).*

Zevsin "yola gətirilməsi", yunanların qələbəsi əsasında qırğının dayandırılması müşkül bir işə çevrilmişdir. Burada vəziyyətin antibəşəri mahiyyəti ilə ümumiyyətlə qırğının yox, yunanlara qələbə gətirəndən sonra döyüşün dayandırılmasından gedən söhbətlə işimiz yoxdur. Halbuki Allahın gözündə hər bir xalq eyni dərəcədə qayğıya layiq idi. Zira, Allahın özündə, işin kökündə çaş-başlıq varsa, buna bütövlükdə mövzu özü cavab verir. Diqqətimizi cəlb edən şey isə odur ki, Zevsin tərsliyi o səviyyədədir, onu allahlar özü yola gətirə bilmirlər. İndi isə o, Nestoru eşitdi.

Biz Nestorun yunanların qəhrəman keçmişini təmsil etdiyini demişdik. O, müdrikliyinə görə baş məsləhətçi idi. Ağsaqqallıq onu müəyyən dərəcədə müqəddəslik tülünə bürümüşdü.

Beləliklə, Axilles nə qədər seçilsə də, əslində "İliada"da hər nəfərin öz yeri var. Bu cəhət bəşəri balansın toxunulmazlığından irəli gəlir. Dastan həqiqəti nə qədər də dəqiq tutmuş!

Zira, biz müəyyən münasibətlə Nestorun idraki cəhətcə tora düşməməkdə və prinsipdə Axillesdən geri qaldığını söyləmişdik. Amma həzin anda Zevsin yenidən Nestoru eşitməsi ağsaqqalı gözümüzdə ucaldır.

İşlərin bu yöndə getməsi Zevsin öz düzməsi idi. Onun yunanların mövqeyinə qayıtmasına bir bəhanə lazım olacaqdı. Lakin həmin bəhanənin ucunun məhz Nestora bağlanması özü nə isə söyləyir.

Zevs yunanlara qarşı qəlbinin yumşaldığını ildırım çaxması ilə işarə verir. Amma bu işin başa gəlməsi üçün hələlik qırğının azalması, troyalıların hücumunun zəiflədilməsi, yunanların sıxışdırılmasının azaldılması deyil, hadisələr daha da qızışdırılır. Çünki Zevsə lazımdır ki, fəlakət yunanların başının üstünü daha da kəsdirsin, Axilles özü deyilsə də, işə qarışmaq üçün Patroklu döyüşə göndərməyə məcbur olsun.

Hadisələr belə də cərəyan edir. Zevsin vədinin ardınca qırğın zəifləmək deyil, daha da şiddətlənir, fəlakət tam şəkildə yunanların başının üstünü alır. Döyüşün acınacaqlı mənzərəsinin təfərrüatına varmaq imkanımız yoxdur. Amansız zərbələrlə həlak olan qəhrəmanların adı çəkilir, yığın-yığın cəsədlər üst-üstə qalanır. Həmlələr yunanların yeganə sığınacağı olan istehkamların və gəmilərin önündə getməyə başlayır. Troyalılar istehkamları dağıtmaq, gəmiləri yandırmaq, yunanları küll halında sulara qərq etməklə hədələyirdilər.

Axilles isə etidalını pozmurdu... O, özünə arxayın idi. İstəyirdi ki, ona hörmətsizliyin müqabilində hamı məhv olsun, qələbəni döyüşə girib təkbaşına özü başa gətirsin. Lakin döyüş səslərinin lap qulağının dibindən gəldiyini, istehkamların və gəmilərin təhlükə qarşısında qaldığını gördükdə hadisələr Axillesin diqqətini cəlb edir. O, əsil vəziyyətdən xəbər tutmaq üçün Patroklu vuruşların getdiyi yerə göndərir.

Döyüş nə qədər fəlakətli olmalı ki, Patrokl ona yaxın bir yaralını köməksiz buraxıb getməli olur:

Patrokl da əllərini dizlərinə bərk çırpır:

*“Acı-acı ufuldayıb belə dedi Yevripilə:*
*“Ah, Yevripil, sən nə qədər istəsən də, çox heyif ki,*
*Dahi ola bilmərəm mən! Başlanır ən qəti savaş!*
*Qoy yoldaşın baxsın sənə. Mən tez gedib düşərgəyə,*
*Axillesi bir təhərlə təhrik edim vuruşmağa...*

*Belə deyib yeyin getdi. Arqivlilər hücum edən*
*Düşmənlərin qarşısında möhkəm durmuş, – ancaq yenə*
*Az olsa da gəmilərdən uzaq qova bilmirdilər.*
*Troyanlar özləri də danaylara üstün gəlib,*
*Gəmiləri, düşərgəni ələ ala bilmirdilər...*

*(Orada, səh. 331).*

Bu ötəri nümunədə irəli sürülən fikirləri tutmaq üçün imkanlar var. Hər şeydən əvvəl burada Axillesə şıllaq atanların çaşqınlığının ifrata varması özünü göstərir. O qədər ki, yaralı yoldaşı yerə tirlənmiş qoyub qaçırlar.

Digər tərəfdən, hadisələr zirvəyə yaxınlaşmalı ki, Axillesə ən yaxın adam – Patrokl hadisələrlə qaynayıb-qarışmağa başlamış.

Ən betəri budur ki, bir tərəf amansızlıqla hücum edir, o biri acınacaqlı müdafiə olunur. Qələbə isə heç biri üçün görünmür. Bu isə hər hansı birinin yox, bəşərin özünün ölüm, ya da canbəsər vəziyyətidir. Bunun ən kədərli nümunəsi “otuzillik müharibə” deyilən hadisədir. O zaman bütün Avropa viran qalmışdı, əhali dolu vurmuş ağac kimi “çılpaqlaşmış”, seyrəkləşmənin hüdudu yox idi, yetimlik, başsızlıq baş alıb gedir, şil-küt, sınıq-sökük insanlarla yerin üstü inildəyirdi. Ən betəri isə istehsalın dayanması, qəhətlik-aclıq idi. Bu müsibətdə ən dəhşətli şey xəlvət yerdə iki insanın bir-birinə rast gəlməsi idi. Xəlvət düşəndə güclünün basıb zəif insanları diri-diri dişləməsi, yeməsi haqqında şaiyələr canlara üşütmə salırdı...

Bəli, şər asanlıqla həzmə getsə də, sonra mədədə bu cür mərəzlər yaradır!..

Biz uyğun (müvafiq) səhifədə troyalıların amansız hücumu, yunanların məzlumcasına vəziyyəti haqqında bu cür sətirlər oxuyuruq.

*“Axeylərin ürəyi də belə tir-tir əsməkdəydi,*
*Hektor isə şığıyırdı inəklərə cuman şirtək.*
*Ləng tərpənən inəkləri coşğun-azğın vəhşilərdən*

*Qorumağı bacarmayan naşı çoban gen düzəndə*
*Saysız inək naxırını otaranda qorxusundan*
*Gah arxada, gah da öndə vurnuxanda, qızmış aslan*
*Naxırın tən ortasına atılaraq bir inəyi,*
*Parçalayar, qalanları pərən düşüb qaçışarlar,*
*Axeylər də Zevs ilə mərd Hektorun qabağından*
*Qorxub belə pərən-pərən qaçırdılar hara gəldi.*

*(Orada, səh. 338).*

Zevsin şahmat oyunu sona yaxınlaşır. Əvvəllər fiqurlar ləng tərpənir, orda-burda, tək-tük götürülür, yıxılırdı. İndi isə bütün fiqurlar üz-üzə dayanmış, fiqurların götürülməsi, yıxılması baş alıb gedir. Lakin Zevsin ovcun içində saxladığı və qurban verib qələbəni təmin edən əsil fiqur var. O, indi əzilən yunan ordusudur, yoxsa çapar vəziyyətinə gətirilmiş, şahə qalxan Hektor?

Cavab almaq üçün dastanın özünə müraciət daha məqsədəuyğundur:

*"Troyanlar Ulu Zevsin fərmanına əməl edib,*
*Aslanlartək cumurdular gəmilərin üzərinə.*
*Zevs onlara qüvvət verib, qələbəyə ruhlandırır,*
*Danayları zəiflədib, məhrum edir qələbədən,*
*Hektora şan qazandırmaq istəyirdi: belə ki, o*
*Sönmək bilməz gur məşəllər yağdıraraq gəmiləri*
*Odlandırsın, – beləliklə Fetidanın xahişini*
*Tamam-kamal təmin etsin... Zevs bir şey gözləyirdi:*
*Yandırılan ilk gəminin şöləsini görsün aşkar.*
*Bu andansa, qalib gəlmiş troyanlar məğlub olub –*
*Qayıdacaq, danaylara çatacaqdı şanlı zəfər...*
*Bu məqsədlə Zevs Hektoru sövq edirdi gəmilərə,*
*O özü də cəhd edirdi. Nizə atan Ares kimi,*
*Meşələri yaxıb-yıxan alov kimi coşan Hektor*
*Tüğyan edir, dodaqları köpüklənmiş, qaş çatılmış,*
*Gözlərindən şimşək çaxır, başındakı tunc sərpuşun*
*Qotazları gicgahında dalğalanır, uçurdu o, –*
*Fəzalarda onun qadir qorucusu Zevs vardı...*
*İgidlərin hamısından artıq onu sevirdi Zevs.*
*Ancaq onun sonu çatır, az qalırdı ölümünə,*
*Pak Afina artıq ona mərd Pelidin əli ilə*

*Həlak olmaq hökmü verən günü yaxın gətirirdi".*

*(Orada, səh. 337).*

Nümunə vəziyyəti özü elə izah edir ki, əlavə söhbətə ehtiyac qalmır. Hektor şahə qalxmış, döyüş vəziyyətində səmalarda uçur. Yer adamı səma sakininə qarşı dayana bilərmi? Bir halda ki, Hektorun haylanmasının arxasında Zevsin şahmat oyunu dayanırdı. Bir halda, dastan özü də söyləyir ki, Zevs igidlər içərisində ən çox Hektoru sevirdi. Zira, o necə sevgi idi ki, seviləni başqasının şanlı qələbəsini təmin etmək üçün bəsləyir, üfürüb şişirdir. Zevs şahmatının sirri bundan ibarətdir.

Zevsin əsil məqsədindən baş açmayan Hektor isə son qələbənin üstə sadəlövh bir inamla şığıyır:

*"Ölənlərin əllərindən çoxlu qəşəng qılınc-qalxan,*
*Düşür yerə, ayaq altda, seltək axıb gedirdi qan.*
*Hektor isə möhkəm tutub buraxmırdı o gəmini.*
*Arxadakı bəzəklərdən yapışmışdı möhkəm-möhkəm,*
*Uca səslə çağırırdı troyalı qoşunlara:*
*"Tez od verin, hamınız da bərk qıy vurun bir ağızdan".*

*(Orada, səh. 340).*

Halbuki Axilles oyunun belə toruna düşməzdi. O, heç kəsin, hətta Zevsin öz toruna da düşmürdü.

Axilles fiziki cəhətdən güclü, sürətli, iti, cəld, cəsarətli idi. Lakin onun əsil qəhrəmani gücü idrakında idi. Onu nəinki heç kəs, Zevs də, hətta özü-özünü də aldada bilmirdi. Əsil "axilleslik" də elə buradan irəli gəlir. Ona görə də Axilles Zevsdən – Allahdan daha artıq allah idi. Əsərin birbaşa və ya dolayısı ilə Axillesin yörəsində fırlanmasının sirri bundadır.

Hektorun həlakına görə Axillesə də ölüm tapılır. Lakin bu daha tora düşməyin məhsulu deyildi. Axilles öz aqibətini şüurlu surətdə qəbul etmişdi. Bütöv-bütöv ömürlərin an timsalı əhəmiyyəti yoxdur. Axilles anı isə ölkələrin hamısında başa gələn dövrlərdən daha artıq əhəmiyyətə malikdir.

Zevsə lazımdır ki, yunanların taleyi troyalıların əlində böhran səviyyəsinə çatsın – troyalılar yunan gəmilərindən heç olmasa birinə od vura bilsinlər. Bu, basılan tərəf üçün çaşqınlığın zirvəsi olardı.

Lakin bu hadisə o qədər vahiməli addım idi ki, Zevsin özünü də büdrədir.

Troyalılar məqsədə – gəmilərə od vurmağa yaxındılar. İndicə bir hadisə baş verə bilərdi. Zevsin belə bir planı da vardı. Lakin həmin anda Zevs tərəddüd edir, bu və ya başqa qəhrəmanın əli ilə troyalıların əlindən bu imkanı alır.

Dastan söyləyir ki, Ayaks yunan gəmilərinin ətrafında əlində məşəl dolaşan troya igidlərindən on ikisini daşla vurub yerə sərdi.

Bu isə dünyanı tam həlakətə gətirən dayanıqlığı son həddə çatdırır.

Ona görə də hər hansı bir gəmiyə od düşməsinə ehtyac qalmır. Döyüşlərin hənirtisi o qədər yaxında baş alıb gedir ki, vəziyyət Axillesin diqqətini cəlb edir. Bu zaman Patrokl bir ətək söz-söhbətlə, əlləri ətəyindən uzun, ağzının-burnunun suyu axa-axa, gözləri yaşlı Axillesin yanına gəlir.

Döyüş yerindən adamın gözüyaşlı qayıtması vəziyyətin dastanıdır, həm də necə göz yaşı! Dastan yenə də müqayisələrlə, bənzətmələrlə söyləyir ki, "keçilərin dırmaşdığı dik qayadan axıb gələn büllur sulu bulaqlar tək" Patrokl gözlərindən yaş axıdırdı. Amma Axilles özünü bilməzliyə qoyur. Vəziyyət onun ürəyindən olmalı ki, dostunun göz yaşlarının mənasını qıraq səbəblərlə sorğu-suala tutur. O deyir ki, nə olub, anasının qucağına can atan bir körpə qızcığaz tək ağlayırsan? Bəlkə ana yurddan bir bəd xəbər eşitmisən? Amma bilirəm ki, valideynlərimiz sağdır. Onlar ölsəydilər, əlbəttə, bu ağır dərd olardı!

Halbuki Axilles qulağını "cəbhədən" gələn səsə şəkləmişdi. Bu, onun zəif cəhətidir. Zira, döyüşün gedişində nə qədər marağı olmalı ki, bu cür zəiflik göstərsin.

Halbuki Patrokl birbaş mətləb üstə gəlir, döyüş yerindəki ağır vəziyyətdən danışır. Axillesə tənələr vurur:

*"Sən hələ də əl çəkmirsən qəzəbindən-inadından!*
*Sənin kimi kinli adam görməmişəm ömrümdə mən!*
*Cürətin də faydasızdır. İndi kömək eləməsən,*
*Hətta gələn nəsillərə sənin faydan nə olacaq?*
*Daş qəlblisən... sanki atan o mərd Peley, anan isə*
*Pak Fetida deyil... yəqin sən dənizlə sərt qayadan*
*Doğulubsan, – ona görə soyuqqanlı, daşqəlblisən!"*

*(Orada, səh. 344).*

Patrokl bəd məndərəcəli falı da Axillesə xatırladır. Bu falda isə deyilirdi ki, Axilles döyüşə girib Hektoru öldürsə, qələbəni təmin etsə, çox qısa ömrü olacaq. Patrokl deyir, onda icazə ver, döyüş paltarımı geyib vuruşa mən gedim. Bəlkə vətəni xilas mənə qismətdir.

Patroklun ittihamlarında, təkliflərində bəzi nöqtələr diqqəti cəlb edir. O, Axillesə söyləyir ki, sən hədsiz dərəcədə daş qəlbli, kinlisən. Bu vaxt Aqamemnon da barışıq üçün Axillesə elçilər göndərəndə deyirdi ki, təkcə ölüm dünyasının amansız hakimi o Aid kinlidir.

Patrokl da Aqamemnon kimi Axilles prinsipiallığını kinlilik ilə qarışdırırlar. Əgər Axilles prinsipiallığını kinlilik də adlandırsaq, adamlar ittihamlarında haqlı çıxmazdılar. Onlar heç özlərində axtarmırlar. Nəfslərinə dünyanı qurban verir, şıltaqları ilə yelbeyincəsinə oynayır, xəbis hisslərlə yaşayır, sonra müştəbehliklə gümana gedirlər ki, hamı biz deyəni etməli, dünya bizim nazımızla oynamalıdır.

Əsarətə düşmək ağırdır, hücumdan, istiladan qorunmaq lazımdır. Lakin ən böyük bəla nəfsə qurban gedən dünyanın düşdüyü ağır vəziyyət, yaxın adamların xəbisliyi, xudpəsəndliyi, şıltağı və müştəbehliklərinin başa gətirdikləri işlərdir.

Dünya istiladan daha çox bu keyfiyyətlərə qurban gedir. İnsanın zəifliyi adlandırdığımız şey də elə budur, bir də xalqın pərakəndəliyi. Elə naqisliklər pərakəndəliyə boy verməlidir.

Mənafeyinə, şərəfinə toxunan şeylər təsirsiz deyil. Amma naqisliklər seylabında Axilles prinsipial mövqeyə gələcək idi. Özlərində görmədən həm Aqamemnon, həm Patrokl Axillesi kinli adlandırırlar.

Bu cəhət o qədər mühümdür ki, Axilles öz mövqeyini özü də anlamır. Axilles mövqeyi Axillesin özünə qiymətindən daha önəmlidir. Odur ki, Patrokla cavab verərkən ittihamlara yataraq Axilles də dərdlərini xatırlayır, kinliliyini özü də müəyyən dərəcədə boynuna alır.

Əlac yoxdur. Axillesin çıxışını bütöv bura köçürməliyik:

*"Sən, ey Allah yetirməsi igid Patrokl, bu nə sözdür?*
*Eşitdiyim xəbərdarlıq heç vecimə deyil mənim.*
*Zevsin qəsdi barəsində anam heç nə söyləməyib,*
*Ancaq qəlbim dözməyir ki, bir-birinə tay olanlar*
*Bir-birini talasınlar, – hökmürəvan olan biri*
*Başqasının qismətini zorla qapıb alsın ondan!*

*Mənim dərdim çox böyükdür; nə əzablar çəkmişəm mən!*
*Axeylərin mənə paytək bəxş etdiyi gözəl qızı,*
*O qızı ki, öz nizəmin gücü ilə qazanmışdım,*
*Hökmürəvan Aqamemnon zorla aldı məndən geri, –*
*Guya ki, mən yad ellərdən gəlmiş alçaq sərsəriyəm!*
*Yaxşı, bunu qoyaq qalsın! Mən də gərək belə kinli*
*Olmayaydım... Əvvəl fikrim beləydi ki, qızğın savaş,*
*Hay-küy mənim düşərgəmə, öz gəmimə çatmayınca,*
*Öz inadlı qəzəbimdən əl çəkməyim, möhkəm durum...*
*Ancaq bəsdir... get gey mənim məşhur döyüş libasımı*
*Apar bizim mirmidonlu qoşunları o meydana.*
*Troyanlar qapqara bir bulud kimi axıb gəlir,*
*Arqosun mərd övladları axeylərsə, dar sahilə*
*Sıxışaraq, ölüm-dirim savaşına girişsinlər.*
*Troyanın bütün xalqı hücum edir axeylərə,*
*Azğınların qarşısında sərpuşumun parıltısı*
*Xeyli var ki, görünməyib... Hökmürəvan Aqamemnon*
*Əgər mənə o cəzanı etməsəydi, onlar çoxdan*
*Dərələri cəsədlərlə dolduraraq qaçmışdılar,*
*İndi isə, mühasirə eləyiblər düşərgəni?*
*İndi daha Diomedin mərd əlində iti nizə*
*Hərlənərək axeyləri qorumayır fəlakətdən.*
*İndi daha Atrendin mənfur başı qürur ilə,*
*Ucalaraq səsləməyir igidləri sərt vuruşa.*
*Yalnız qanlı Hektor gur-gur guruldayır, troyanlar*
*Axeyləri qıra-qıra bürüyüblər düzənliyi...*
*Durma daha, igid Patrokl, var gücünlə cum düşmənə,*
*Gəmiləri xilas elə, yol vermə ki, yandırsınlar,*
*Bizi məhrum eləsinlər doğma yurda qayıtmaqdan.*
*Eşit, sənə bu sözləri nə məqsədlə deyirəm mən:*
*Danayların arasında mənə elə ad qazan ki,*
*Gözəl qızı, ən qiymətli hədiyyələr ilə birgə,*
*Minnət ilə, hörmət ilə qaytarsınlar yenə mənə.*
*Düşmənləri gəmilərdən qovan kimi, qayıt geri,*
*Qadir Zevs sənə şanlı zəfər qismət etsə yenə,*
*Mənsiz əsla təqib etmə o döyüşdə düşmənləri.*
*Əgər etsən, onda mənim şərəfimi zədələrsən.*
*Qanlı savaş həvəsilə coşub məhv et düşmənləri,*
*Ancaq əsla qoşunlarla İliona yaxınlaşma.*

*Yoxsa, bizə Olimpdəki allahlardan biri qızar,*
*Hərbə girər... Feb-Apollon onlara çox tərəfdardır.*
*Gəmiləri xilas etdin, – qayıt birbaş yanıma gəl,*
*Qoy düzəndə onlar yenə bir-birilə vuruşsunlar...*
*Ey ulu Zevs, ey Apollon, ey Afina!... Əgər bütün*
*Axeylərlə troyanlar bir-birini həlak etsə,*
*Əgər təkcə biz salamat qala bilsək bu savaşda,*
*O müqəddəs Troyanı fəth edərik təkbaşına".*

*(Orada, səh. 345-346).*

Beləliklə, Axilles Patrokla əslahəsini geyib gəmilərin qorunmasına icazə verir. Vəziyyətin ifratlığı məcbur edir ki, ilk planın başa çatmasını gözləmədən inadından dönsün. Nə qədər ağır olmalı ki, qövmün – yunanların ağır vəziyyəti Axillesin də gözünü qorxutsun. Axilles özü də deyir ki, indi Diomedin əlində nizə fırlanmayır, Aqamemnonun mənfur başı məğrurluğunu itirib.

Qəribədir, Diomedə məxsus məğrurluqla, Aqamemnon mənfurluğu qoşa dayanır. Lakin mənfur başın məğrurluğu saxta mahiyyət daşımalıdır. Ona görə də onun məğrurluğunu itirməsi tamamilə təbiidir.

Həmişə belədir, dahi ruh ətrafa sirayət edir, izlim yaradır. Orada azca təpərli hər bir kəs nəhəng kimi görünür. Bu vəziyyəti biz tarixdə də, – Şah Abbasın taleyində də, Napoleonunkunda da, sənət aləmində də – Axillesin də, Koroğlunun taleyində də müşahidə edirik. Axillesin meydanda olması nəinki yunanların, hətta troyalıların da arasında bölük-bölük qəhrəmanlar yaradır.

İndi yaranan zəlil vəziyyət Axillesin yüngülcə qırağa çəkilməsi ilə bağlıdır. Zəlillik o qədərdir ki, Axilles özü də deyir ki, yol vermə gəmiləri yandırsınlar. Yoxsa, qövmümüz doğma yurda qayıtmaqdan məhrum olar. Halbuki Axillesin ilkin məqsədi idi ki, gəmilər yandırılsın, yunanların başını itirməsi son həddə çatsın (guya, indi son hədd deyil).

Budur, bax, bu! Axillesə şıllaq atmağın acı bəhrələri!..

Axilles özü də söyləyir, məni yandıran odur ki, bir-birinə tay olanlar payı bir-birilərinin əlindən qapır.

Əsil şər, şərin mahiyyəti də elə bundadır. Bir-birinin payına göz dikməkdə, əllərdən payların çırpışdırılmasında insaniyyətdən, ülviyyətdən söhbət gedə bilməz. Bundan başqa, çırpışdırmada tühaf bir pozuculuq var.

İnsaniyyət – qüvvələri toplamaq yolu ilə ülviyyətə yol açır, ünsiyyət başa gətirir, abadlaşdırır. Payları qapmaq "üslubu" isə qüvvələri parçalamaq yolu ilə əbədi ünsiyyətin yerinə axırı amansızlığa aparıb çıxaran sərtlik yaradır, intizamı pozur, qarma-qarışıqlıq salır, zəiflik iqlimi ətrafı bürüyür, laqeydlik, fəaliyyətsizlik, düşkünlük, viranəlik baş alıb gedir.

Qüvvələrin toplanması insanı təsdiq edir, qarşı-qarşıya durmağı aradan qaldırır.

Axilles bir daha Briseida əhvalatını xatırladır. Öz müsibətini, kədərini, hiddətini əsaslandırmaq üçün yenə də söyləyir ki, mən o qızı nizəmin gücü ilə almışdım.

Əvvəllər daha yaxşı söyləyirdi: "Qılınc gücünə alsam da mən o qızı sevirdim".

Məsələ heç də sözün elə, yoxsa belə deyilməsində deyil. Ondadır ki, ürəkdə qıvrılıb yatan, sənə həyat bəxş edən, ya da əzab verən bir duyğu yaşayır, yoxsa yox!

Axillesin Briseidaya münasibəti belədir. Onun ruhunda, qəlbində fəhm edilməz bir dünya yaşayır. Bu dünyanın mahiyyətini bircə kəlmə "sevirdim" daha mükəmməl ifadə edir.

Ən başlıca şey isə qızla bağlı Axillesdə yaranan prinsip idi.

Axilles deyir, vəziyyət elə böhran anına yaxınlaşmalıdır ki, qızı hədiyyələrlə, minnətlə yenə mənə versinlər. Biz yuxarıda da görmüşdük ki, Briseidanı Axillesə həm minnət və həm də tufan hədiyyələr əlavəsilə özünə qaytarırdılar. İndi tələb edilən şey onda da başa gəlirdi. Deməli, Axilles yenə də mahiyyəti dəqiq ifadə edə bilmədi. Məsələ onda idi ki, Axilles inad göstərirdi ki, ülviyyət, insaniyyət, müqəddəslik, – Briseida toxunulmaz dünya kimi təsdiq edilsin.

Axilles Patroklun "bəlkə sən falın xəbərdarlığından qorxursan" eyhamını da təkzib edir.

Qəribədir, özlərində heç axtarmır, özünü müdafiə edən tərəfi isə hey təhlilə çalışırlar... Ona görə də Axilles həmin eyham ətrafında başını çox da sındırmayıb bircə kəlmə deyir ki, bu heç mənim vecimə də deyil. Və dərhal keçir ona qarşı dayanmış dünyanın kobud mahiyyətini açıb göstərməyə.

Ölümdən qorunmaq lazımdır ki, yersiz hadisə baş verməsin. Amma ölüm qətiyyətlə başın üstünü kəsdirdikdə bu Axilleslərə gülünc görünür. Onlar fəaliyyətin zərurətində ölüm söhbətini mötərizə xaricinə çıxarıb diqqəti məsələnin əsil həllinə yönəldirlər.

Axilles müəyyən hadisəni başa çatdırmalıdır. Ölüm isə bundan sonra baş verə bilər. Bu və ya başqa münasibətlə.

Deməli, ölüm bir faktdır – tez, və ya gec. Fəaliyyətin başa çatması isə hər kəsə qismət olmayan nadir bir səadətdir.

Axillesin adi yolla, dabanından yaralanıb əfəlin biri (Axilleslə müqayisədə) tərəfindən öldürülməsi isə onu göstərir ki, mütləq güc, mütləq üstün vəziyyət yoxdur.

Daban söhbəti isə hər kəsin, hətta Axilleslərin də mütləq zəif cəhətinə işarədir.

Axilles hərbi paltarlarını geyməyi, silahlarını götürməyi Patrokla icazə verir. O deyir ki, mirmidonlu döyüşçülərlə gəmiləri qoru və ondan o yana gedib baş verəcək əsil şərəfli döyüşü zədələmə.

Göründüyü kimi, indi Axilles də Zevsin onun üçün tərtib elədiyi planı təkrarlayır. Bircə nöqtədən başqa. O da ondan ibarət idi ki, Patrokl ilk qələbədən haylanıb yelbeyinlik göstərməməli, "axilleslik" xəyalına düşməməlidir. Yəni Axillesə məxsus qələbəni öx ayağına bağlamaq hava-həvəsilə döyüşü davam etdirməməlidir.

Axı Patrokl Axillesin yanına döyüşə atılmağa icazə üçün gedəndə dastan söyləyirdi, yazıq bilmir ki, bununla da öz ölümünü yaxınlaşdırır.

Zevsə isə bu lazım idi. Zevsə bu lazım idi ki, Axillesin bütün bəşəri mündəricəsi ilə bağlandığı qohumu və dostu Patrokl troyalılar tərəfindən öldürülsün və qəhrəmanda Briseida prinsipinə qarşı Patrokl prinsipi yaransın.

Axilles mövqeyinə tikilən gözlər çoxdur. Dastanda bu, əvvəldən-axıra bir xətt kimi ötüb keçir. Və hadisələr də, adamlar da həmin nöqtədə ilişirlər.

İkinci cəhətə diqqət yetirək.

Hələ qabaqda bir fəsil var idi. Dastanın o nəğməsi, onuncu nəğmə, "Doloniya" adlanırdı. İndi burada, üzərində dayandığımız fəsil də, on altıncı nəğmə də "Patrokliya" adlanır.

O Dolon kimdir, nə istəyirdi ki, indi burada Patroklla onun arasında eyniyyətə bənzər bir vəziyyət, analogiya yaranmış?

İş Aqamemnondan başlayır.

Troyalılar yunanları döyüşdə əzib, qırıb-tökür, gəmilərə qədər sıxışdırıblar. Biz bu mənzərəni yetərincə izləmişik. Söyləmişik ki, şəri asanlıqla həzm edən insan, kütlə, bəşər özünü pis günə qoyub. Bu yolda baş allah – Zevs nə isə bir fikri başa çatdırmaq üçün hələlik troyalılara boy verir. O vaxta qədər ki, Axilles inadından dönüb

döyüşə qayıtsın. Allah nəfəsilə cilalanmış bir nəfərin nə qədər böyük mənaya malik olduğu, ancaq bu yolla aydınlaşa bilərdi.

İndi biz geriyə qayıtmağa məcburuq. Bu da onun üçündür ki, Patrokl Axilles cildinə girib döyüşə atılır. Bu ona müəyyən mərtəbədə uğur gətirə bilər. Lakin o, Axilles deyildi. Ona görə də Patrokl "axilleslik" xəyalına düşməməlidir. Çünki bu uğursuz bir şeylə yekunlaşar.

Axilles qismətinə göz dikməyin aqibətini biz yuxarıda adını çəkdiyimiz öncəki nəğmədə – "Doloniya" nəğməsində, onuncu nəğmədə görə bilərdik. Lakin uyğun hadisələri şahid şəklində birləşdirmək məcburiyyəti tələb edirdi ki, vəziyyətə indi diqqət yetirək.

Döyüşlərdən Aqamemnonun gözlədiyi nəticə alınmayıb. O, həyəcan içindədir, dərd çəkir və bir həyana, məsləhətçiyə, bir məşvərətə ehtiyac hiss edir.

Axı Aqamemnon Axillesi küsdürəndən sonra Zevs sərkərdə ilə oyuna başladı. Onu yuxularla, aldatmalarla, qələbə vədləri ilə döyüşə həvəsləndirdi. İndi isə məğlubiyyət məğlubiyyət, uğursuzluq da uğursuzluq ardınca gəlir. Aqamemnon tam məyusluq içində düşünür ki, Hektor nə Allah, nə də ilahə oğludur. Bəs onun döyüş meydanlarında bu qədər geniş və təsirli meydan oynaması nə ilə bağlıdır? Yəni qurbanlarla allahları, Zevsi ələ alıb, yoxsa bir adamın bir orduya, həm də indi Axillessiz olsa da, o boyda yunan dünyasına qarşı üstünlüyünü nə ilə izah etməli?!

Bu gümanda bir kədərli cəhət də var. Deməli, hədiyyələrlə allahları da prinsipindən döndərmək, ələ almaq olar. Yalnız axilleslərdən başqa!..

Zira, bu müddəada nə qədər həqiqət olsa da, yadda saxlamalıyıq ki, Aqamemnon Axillesi küsdürməklə bərkə düşüb. İndi çıxış yolları axtarır. O, hər tədbirə əl atsa da, vəziyyət yoluna qoyulmur. Çünki ünvana düşmür. Bunun üçün özündən başlamlı idi.

İctimai iş özündən keçməyi tələb edir – Axilles səviyyəli.

Aqamemnon gecənin qaranlığında, dərinliyində, tənhalığında həyəcan içindədir. O, bir həyana, məsləhətçiyə ehtiyac hiss edir.

Aqamemnon bu anında lazımlı həmdəm Nestoru sayır. Onunla görüşür, dərdləşirlər.

Nestorun fikri bu olur ki, təklifimizi bildirmək, məsləhətləşmək üçün başçıları bir yerə toplamaq lazımdır.

Başçıların çadırlarına adamlar yollanır. Hamı yığılır, – bizə tanış sərkərdələr, qəhrəmanlar. Məşvərət başlayır.

Nestorun təklifi, çıxışı aşağıdakından ibarətdir:

*“Dostlar, deyin, aramızda elə igid yanılarmı,*
*Hünərinə güvənərək düşmənlərin arasında,*
*Bir nəfəri tutub bura gətirməyə cürət edə?*
*Ya da gizlin qulaq asıb düşmənlərin söhbətini*
*Öyrənə ki, qəsdi nədir həriflərin: hələ burda*
*Çox qalacaq, yoxsa artıq axeyləri məğlub sayıb,*
*Tezliklə Troyaya qayıtmağa tələsirlər?*
*Əgər bunu kəşf eləyib, sağ-salamat qayıdarsa,*
*Yer üzündə insanların arasında ad qazanar...”*

*(Orada, səh. 216).*

Sərkərdələr ağır vəziyyətdən çıxmaq üçün işə kəşfiyyatdan başlamaq istəyirlər. Bu, hərbi sənət deyilən fəaliyyət sahəsinə, hərbi iş deyilən elmə aid bir məsələdir.

Üz-üzə duran cəbhələrdə qələbənin taleyini qüvvələr nisbəti, təcrübə, yoxsa elm, fərasət həll edir, bu yöndə mülahizə söyləmək bizim maraq sahəmiz deyil. Tarixi naqisliklərə yelbeyin bir dəstə, hər tərəfdə yelbeyin, azğın dəstələr əlavə olunub bəşər övladlarını cəbhələrə ayıraraq üz-üzə qoyursa, mülahizə özü antibəşəri şeydir, hələ qalsın onunla bağlı tələblər.

İş ondadır ki, ağır vəziyyətdə yunanlar işə kəşfiyyatdan başlamaq istəyirlər. Başçılar da yığışıblar bir yerə, məşvərətdə də Nestor bu vəzifəni kimin boynuna götürmək istəməyi barədə sual verir. Meydana ilkin olaraq Diomed atılır.

Hələ lap başlanğıcda başçıları məşvərətə yığmaq üçün hərə bir səmtə gedərkən Diomedin arxasınca Nestor özü getmişdi. Bu, hətta Diomedin özünün də təəccübünə səbəb olmuşdu. Lakin Nestorun özünün Diomedin arxasınca yollanması qəhrəman haqqında çox şey söyləyir.

Böyük Ayaks, Odissey yunanlar arasında Axillesdən sonrakı qəhrəmanlar hesab olunurdu. Lakin qorxmazlığı, cəsarəti, itiliyi, düşmən üstə yeriməsi, düzxətliliyi ilə Diomed çox fərqlənir. Öz hünəri ilə Diomed Axillesə hamıdan yaxındır. Lakin Diomeddə qəhrəmanlıq güc və cəsarətdən o yana getmir. O, aldığı hər bir tapşırığı təhlil etmədən işə başlayır.

Təəssüf ki, bütöv söz söyləmək üçün dastanlar Diomedi hərtərəfli işləyib vahid bir fikri inkişaf etdirmir. Xüsusən, hadisələrin "Odisseya" hissəsində.

Biz "Odisseya"da müəyyən münasibətlərlə, az qala bütün qəhrəmanlarla bağlı xatirələrin şahidi oluruq, Diomeddən başqa. Ona görə, ardıcıl fikrə əsaslanıb əslində Axillesdən sonra Diomedin ikinci qəhrəman olması ideyasının sübutuna girişmək olmur.

Fakt odur ki, indi troyalıların arasına kəşfiyyata getək təklifinə yunanlar arasından birinci Diomed cavab verir. Və təklif də edir ki, yanıma bir həyan da əlavə etsəniz pis olmaz. Onun bu arzusu insanın insana gərəkliyi baxımından da diqqətəlayiqdir. O deyir ki, hər bir tədbiri həyata keçirməzdən əvvəl tədbir tökmək üçün "iki ağıl bir ağıldan üstün olar" (Orada, səh. 216). Bir çox qəhrəmanlar, o cümlədən iki Ayaks, Odissey də Diomedə qoşulmaq arzusunda olduqlarını bildirirlər.

Diomed Odisseyi götürür. Əsası da budur ki:

*"İndi ki, mən yoldaşımı, deyirsiniz, özüm seçim,*
*Elə isə, allah dostu Odisseydən necə keçim?*
*O, hər işə bərk girişir, hər işi də mərdanədir*
*Pak Pallada – Afina da havadardır daim ona.*
*O mənimlə getsə əgər, hər ikimiz yanar oddan*
*Sağ-salamat çıxarıq biz, – o, həm igid, həm zirəkdir!*
*(Orada, səh. 216-217).*

İş ondadır ki, həmin vaxtda yunanlar təki troyalılar da eyni məqsədlə məşvərətə toplaşmışlar. Yunanlarda Aqamemnon-Nestor başçılara, hansı məqsədlə müraciət etmişdisə, indi Hektor da özününkülərə həmin prinsiplə dil açır:

*"Aramızda elə igid tapılarmı, ən qiymətli*
*Bir mükafat əvəzində çox faydalı bir iş görsün.*
*Bu mükafat çox böyükdür: bir gərdünə, bir cüt köhlən*
*Axeylərin atlarından seçilmiş ən yaxşı atlar...*
*Kimin buna cürəti var, həm mükafat, həm şöhrət*
*Qazanmaqçün axeylərin arasına gedib, ordan*
*Bizə xəbər gətirsin ki, onlar yenə əvvəlkitək*
*Gəmiləri qoruyurlar, yoxsa ruhdan düşüb daha*
*Məşəqqətdən təngə gəlib, gecə keşik çəkməyirlər,*

*Ya məşvərət eyləyirlər burdan qaçıb getmək üçün.*

*Belə dedi, hamı sakit-səssiz durub dinləyirdi.*
*Yığıncaqda Yevmedoğlu Dolon adlı biri vardı.*
*Atası həm tək bir qasid, həm mis-qızıl sahibiydi,*
*Dolon üzdən çəlimsizdi, amma yaman bərk qaçandı.*
*Beş qız övlad arasında tək oğluydu atasının*
*Hektor ilə yığıncağa belə dedi həmin Dolon:*
*"Hektor, məni cəsur qəlbim sövq edir bu rəşadətə,*
*Gəmilərin yaxınına kəşfiyyata gedərəm mən,*
*Ancaq xahiş edirəm ki, sən əsanı qaldıraraq,*
*And içəsən ki, Pelidin gərdunəyə qoşduğu,*
*Yelqanadlı atlarını mənə ənam verəcəksən!*
*Bil ki, mənim kəşfiyyatım çox faydalı olacaqdır.*
*Düşərgədə Aqamemnon Atreidin gəmisinə*
*Çatanadək gedəcəyəm... qaçmaq və ya vuruşmağı*
*Sərkərdələr yəqin orda müzakirə edəcəklər...*
*Belə dedi. Hektor alıb əsasını and içdi ki,*
*"Şimşəksaçan ulu Zevs şahid olsun bu andıma!*
*O atları troyalı heç bir nəfər sürməyəcək, –*
*Söz verirəm, tək bircə sən sürəcəksən, and içirəm!"*
*And saxtaydı. Ancaq Dolon ürəkləndi bu sözlərdən*
*Həmin saat sadaq ilə yayı salıb çiyninə,*
*Bir boz qurdun dərisinə möhkəm-möhkəm bürünərək,*
*Başına da bir xəz papaq qoyub, nizə aldı ələ,*
*Gəmilərə sarı cumdu..."*

*(Orada, səh. 218-219).*

Bizə Axilles olmadığı halda, "axillesliyin" öz payını buraxıb Axilles qismətinə can atanların aqibətini izləmək lazım idi. Burada Patrokl bir az irəli buraxılırdı, Axilles sifətində. Amma ona xəbərdarlıq edilirdi ki, bundan beyni qızınıb "axilleslik"xəyalına düşməsin. Onun taleyini izləyəcəyik. İndi Zevs Hektorun arxasında dayanıb, qələbələr də baş alıb gedir. O da haylanmış şəkildə bəzən xəyalında Axilles üzərində qələbəsi ilə xumarlanır. Ona görə biz dərhal əvvələ qayıdıb "Dolon" vaqeəsinə müraciət etdik.

Böyük mükafatla düşmən səflərini kəşfiyyatdan söhbət gedir – ən yaxşı at, gərdunə... həmin Dolon meydana atılır. Dastan xəbər verir ki, onun atası pak adam idi, çoxlu sərvəti vardı. Qasidlik də peşəsi

idi. Dastan deyir ki, bu adam üzdən çəkilməzdir. Amma bir cəhətdən Axilles keyfiyyətinə malikdi – bərk qaçandı.

Lakin dərindən təhlil etsək, Axillesdə itiayaqlılıq simvoludur. Dolonda isə keyfiyyət. Amma nalayaqlılıq bir keyfiyyətdir. Təkcə bu keyfiyyətlə axilleslik eşqinə düşmək xəyaldır və bundan daha pis şeydir.

Dolon Hektorun tapşırığını boynuna götürür. Şərt də qoyur ki, Axillesin gərdunəyə qoşduğu yelqanadlı atlarını mənə ənam verəcəksən.

Biz "Dolon" əhvalatına ötəri olsa da, əvvəldə də müraciət etmişdik. Hələ o vaxt Odissey bu iştahanı müşahidə edərkən gözləri bərələ qalmışdı və "Peley oğlu Axillesin atlarını?!" deyə heyrətini bildirmişdi.

Hektor söz verir və vədini andlarla möhkəmləndirir. Lakin dastan oradaca deyir ki, "and saxtadır".

Siyasətdə, fəaliyyətdə yalan, aldatma nə isə bir iş görür. Amma böyük adamların böyük işləri başa gətirməsi üçün yalan mənfi keyfiyyətli bir şeydir. Yalan anı uda bilər. Zira, yalan siyasətin baş həddinə çevrilərsə, bu bütövü uduzmaq deməkdir.

Biz indicə Dolonun aqibətini görəcəyik. Amma bu eyni zamanda Hektor siyasətinin, yalan anda əsaslanan "fərasətin" yekunu olmalıdır.

Hektor Dolona Axillesin atlarını və gərdunəsini saxta andlarla vəd etmişdi. Əlavə edib demişdi ki, "O atları troyalı heç bir nəfər sürməyəcək".

Hektor Axillesdən, onun atlarından, gərdunəsindən elə bir dillə danışır, elə həvəslə, ehtirasla, yağlı-yağlı andlar içir, dərhal hiss edirsən ki, axilleslikdən ötrü Axilles atları, Axilles gərdunəsi, bir sözlə, Axillesə məxsus keyfiyyət və qismət üçün bu Troya qəhrəmanının da ağzı sulanır.

Bu qarmqarışıq, yelbeyin, əndazəsiz, saxta arzuların, andların nəticəsi nə olur?

Dolon ilk addımda, ilk təhlükədə, ilk təhrikdə, ilk hədədə tapşırıqdan dönür, vətəni prinsipi, səmti, əqidəni təpə-dırnaq satır, sirləri ələ verir.

Hektor güclü, cəsarətli idi. Onda qəhrəman alicənablığı, vüqarı vardı. Lakin sərkərdəlik üçün, görünür, hərtərəfli keyfiyyətə malik deyildi. Yoxsa Dolon iştahalı adama bu qədər mühüm tapşırıq verməzdi.

Onlar yelbeyincəsinə özlərinə o qədər arxayındırlar ki, yetərincə dalını-qabağını gözləmədən, hər hansı təsadüfdə hesaba almadan dərhal məqsədə doğru irəliləyirlər və Dolon dərhal tora düşür:

*“Gəmilərə yaxınlaşıb keşikçilər arasına*
*Qarışmağa az qalanda, pak Afina Diomedə*
*Güc verdi ki, axeylərdən bir nəfər də ondan əvvəl*
*Troyalı o hərifi vurub ad-san qazanmasın.*
*Mərd Diomed bərk çığırdı nizəsini qaldıraraq:*
*“dayan, yoxsa bax bu iti nizəm ilə vurub səni*
*Bircə anda öldürərəm, canın çıxar boğazından!”*

*Çığıraraq nizəsini qəsdən bir az uzaq atdı,*
*Sağ çiynindən ötüb nizə dik sancıldı düz önündə.*
*Bunu görcək, donub qaldı yerindəcə, hərəkətsiz,*
*Tir-tir əsdi qorxusundan, bir-birinə dəydi dişi,*
*Rəngi qaçdı... onlar çatıb yapışdılar qollarında*
*Göz yaşları tökə-tökə yalvararaq dedi Dolon:*
*“Məni əsir edin! Sizə bac verərəm əvəzimə:*
*Evimdə bol mislə qızıl, möhkəm dəmir, hər bir şey var,*
*Atam burda sağ-salamat olduğumu bilsə əgər,*
*Əvəzimdə sizə saysız dövlət verər, sərvət verər...”*
*“Hektor mənə mərd Polidin yaraşıqlı gərdunəsi*
*İlə yeyin atlarını vəd eləyib, buyurdu ki,*
*Bu zülmətli gecə vaxtı gəlib burda güdüm sizi.*
*Ona xəbər aparım ki, siz yenə də əvvəlki tək*
*Gəmiləri güdürsünüz, yoxsa ruhdan düşüb daha,*
*Məşəqqətdən təngə gəlib, gecə keşik çəkmirsiniz*
*Ya məşvərət edirsiniz burdan qaçıb getmək üçün”.*

*Odissey də gülümsünüb belə cavab verdi ona:*
*“Görürəm ki, bu şahın başından da çox yekədir:*
*Arzuya bax, – Peleyoğlu Axillesin atlarını!...”*

*(Orada, səh. 220-221).*

Dolon, hər nə məqsədlə olsa da, düşmən düşərgəsinə gedib onların vəziyyəti haqqında səhih məlumat gətirməli idi. Amma özü elə düşür və hadisələrin sonrakı inkişafında öz tərəfləri, düşərgələri, vəziyyətləri, yerləşmələri, fikirləri barəsində ətraflı məlumat verir.

Lakin heç şey troyalını ölümdən xilas etmir. Yunan qəhrəmanları özlərinə lazım olan məlumatları Dolondan təfsilatı ilə alandan sonra başını da itiliklə və amansızlıqla bədənindən ayırırlar.

*“Mərd Diomed sərt-sərt baxıb ona, sonra dedi:*
*“Ey Dolon, bil bu məlumat hər nə qədər gözəlsə də,*
*Ancaq burdan sağ-salamat qurtarmağı umma bizdən*
*Əgər səni əlimizdən sağ buraxsaq, sonra yenə,*
*Bu tərəfə kəşfiyyata, ya da elə açıq-aşkar*
*Bizə qarşı qılınc çəkib vuruşmağa gələcəksən,*
*Ancaq səni indi yox eləsəm öz əlimlə,*
*Onda heç vaxt ziyan dəyməz səndən bizim axeylərə!*

*Dolon onun çənəsinə əl uzadıb yalvaranda,*
*Diomed öz qılıncını çəkib vurdu, bircə anda*
*Başı qopub bədənindən mırıldana-mırıldana*
*Diyirləndi...”*

*(Orada, səh. 223).*

Dolon öz elinin vəziyyətini, düşərgəni yerli-yataqlı təsvir etmişdi. Ona görə də ikicə nəfər Yunan igidi çadırlardan birinə soxulur, gözətçini boğur, yatanları qılıncdan keçirir, məlumatlarının dürüstlüyünün sübutu üçün qənimət də götürüb gəlirlər.

Dolon iştahının, Hektorun bu qədər mühüm işdəki saxta adının, nəfsdən-iştahdan, saxta anddan dönüb fəaliyyətə təhrik edən coşğunluğun yekunu belə olur.

Xidmətdə mükafat umulursa, o saxtadır və nəticə də bu və ya başqa şəkildə uğursuzluqla nəticələnməlidir. Burada xidmətdə təmiz niyyətliliyin dəyəri var. Mükafat və təltiflər onun dəyərini aşağı salır. Xidmətin dəyəri görülən işin yekunundan qırağa çıxa bilməz. Bu cəhətdə mükafat naminə xidmətin də antibəşəriliyi öz ifadəsini tapır.

Dolon niyyətli xidmətə can atırdı. Lakin niyyətli, niyyətsiz həmin iş görülməli idi. Həm də bu uğursuz təsadüfdə ömür səviyyəli təhlükə ilə bağlanırdı. Dolon niyyətsiz bir xidmətə can atsa idi, o bunu hesablayardı. Xidməti prinsipinə çevirənlər təhlükəyə rast gələndə ölümü qəbul edir, prinsipi satmır. Lakin Dolon niyyətli idi. O, məsələni belə qoyurmuş: mümkün olsa qələbə çalmaq və mükafatı götürmək. Yox, əgər baş tutmasa, satmaq və xilas olmaq.

Lakin Dolon heç bir uğura çatmır. Ən başlıcası isə o idi ki, onda arzu var idi, ancaq qəhrəmani bir iş üçün yaranmamışdı.

Dolon vəziyyətində ölümə getmək tələb olunurdu. Bəlkə onda bir şey əldə edilərdi. Onsuz da ölüm hadisəsi baş verdi ki...

Anın tələbləri var. Hadisələrin sonrakı inkişafı, çox vaxt bu anın necə nizamlanmasından asılı olur. Ölümə gedib anı udanlar seyrək müşahidə edilir. Ölümdən qaçanlar və ya başa gəlmiş hünəri alayarımçıq istedadından istifadəylə öz adına çıxanlar gündəlik həyatda və tarixdə daha çox müşahidə edilmiş.

Bu faciəvilikdir.

Nə edəsən ki, əsil böyüklük faciəviliklə üst-üstə düşür. Faciəviliyin də məğzi bundadır ki, məşəqqətlə və ya iztirablarla dolu həyat keçirəsən, məhrumiyyətlər seylabı qismətin olur, əfkari-ümumiyyə isə səni yox, haray-həşir salanları, gözdən pərdə asanları, onu aldadıb öz müvazinətini tərtib edənləri tutur. Elə bizim əvvəlcədən dediyimizin bir cəhəti də budur ki, dünya xeyrə nisbətən şəri daha asan həzm edir.

Dünya şəri həzm edir, qoy etsin! Nəticəsi göz önündədir...

Hər halda son söz xeyrin və böyüklüyün, təmənnasız xidmətindir. Həyatın zırıltısı ötəndən sonra yeganə qalan şey böyüklük və xeyirdir.

Yaradıcılıq kimi, ümumi işə xidmətlə bağlı fəaliyyət də nəfs tərkibli niyyəti sevmir. Niyyəti yaradıcılıq, nəfsin təhrik etdiyi fəaliyyət uğurla nəticələnən təsadüfdə də, nə vaxtsa işin saxta cəhəti zərərli yekuna aparıb çıxarır.

Onda ki, özgə qismətinə göz dikəsən. Xüsusən də yaxın adamların.

İndicə bizə Dolon və “Dolon” əhvalatı lazım deyildi. Lakin Dolon və Dolon əhvalatı bizə o zaman lazım oldu ki, söhbət Patrokldan gedirdi.

Troya-Yunan döyüşlərinin gərgin anında ehtiyac yarandı ki, Patrokl Axilles cildində döyüşə atılsın. Amma Axilles qohumu və dostu olan Patrokla məsləhət bildi ki, mənim cildimə gir, məqamımı isə zəbtə cəhd göstərmə.

Beləliklə, orada Doloniya, burada da Patrokliya paraleli yarandı. Həmin mərama görə Patrokliyanın mündəricəsini daha dərindən anlamaq üçün Doloniya ilə bir qədər məşğul olduq. İndi bu iş arxada qalmış.

Növbə Patrokliyanındır.

Allahın planı necə idi? Zevs istəyirdi ki, troyalılar yunanları son istehkamlarına, gəmilərə qədər sıxışdırsın və burada çaş-baş qalsınlar. O qədər ki, troyalılar yunanların bir-iki gəmisinə od vura bilsinlər. Bu zaman Axilles özü olmasa da, qohumu və dostu Patroklun başçılığı ilə öz ordusunu döyüşə buraxsın. İndi budur, dastan deyir ki, axeylərin gəmisinə ilk od-alov düşüb. Alovun məşəlləri Axillesin də gözlərini qamaşdırmalı ki, həyəcanla deyir:

*"...Həmin saat troyanlar od vurdular,*
*Nəhəng gəmi alovlandı, alov coşdu-dalğalandı.*
*Bunu görcək, əllərini çırpa-çırpa dizlərinə,*
*Axilles bərk çığıraraq mərd Patrokla belə dedi:*
*"Sən, ey Allah yetirməsi, igid Patrokl, durma, tələs!*
*Açıq-aşkar görürəm ki, gəmilərə od vururlar!*
*Gəmiləri alsa onlar, heç qayıda bilmərik biz!*
*Sən silahlan, mən də gedib qoşunları tez toplayım...*

*(Orada, səh. 347).*

Plan belə idi: gəmilərə od düşsün. Axilles özünün döyüş paltarlarını və silahlarını Patrokla təqdim edib vuruşa girməyə icazə versin. Patrokl bu döyüşdə ölsün. Axilles intiqam alovu ilə alışıb yansın və Briseida prinsipinə qarşı Patrokl prinsipi yaransın.

Biz gördük ki, Briseida prinsipi Axillesdə necə böyük dünya yaratdı. Qız təbii və bəşəri cəhətdən Axillesə çox lazım idi. İlk baxışda qız qəhrəmanın yataq, mətbəx, ünsiyyət tələblərini ödəyirdi, ali ölçüdə ailə, sevgi, şərəf məsələləri meydana çıxırdı. Briseida prinsipinin arxasında bu keyfiyyətlər dayanırdı.

Zira, Axillesə dedilər ki, sən prinsip göstərmə, yəni kişi, adam olma, qızı da sənə qaytararıq, misilsiz hədiyyə əlavələri ilə...

Axilles şərtləri qəbul etmədi. Çünki kişi idi, insan idi.

İndi Patrokl necə hadisə olmalı ki, yaratdığı prinsip Briseida şərtlərini üstələsin. Axı burada ilkin, təbii tələblər yox idi. Burada bəşərilik xalis şəkildə peyda olurdu.

Axilles bu deyən sözdür! Axillesə məxsus bütün prinsiplərin arxasında bəşərilik, bəşəriyyət dayanır.

Axillesə əlaltdan çırpışdırılmış qızı və hədiyyələr verdilər. O sıraya qayıtmırdı. İndi özü əli ilə ordunu döyüşə haraylayır. Bu isə o deyən sözdür ki, hələ Patroklun ölümü nəticəsində intiqam alovları

şöləlğnmədən də qövmün yollanması Axillesin vuruşa qayıtmasına yol açır.

Hələ döyüşə girməmiş biz aşağıdakı təsvirdən Axillesin canfəşanlığını müşahidə edə bilirik:

*“Axilleslə, düşərgədə gəzə-gəzə qoşunlara,*
*Əmr edirdi, silahlanıb hərbə hazır olsun hamı.*
*Qana həris canavartək cürətliydi bu igidlər –*
*Canavarlar bir meşədə bir maralı ovlayanda,*
*Parçalarlar, ağızları – pəncələri batar qana.*
*Sonra hamı sürü ilə bir bulağa yaxınlaşıb,*
*Qandan doyub gəyirərək, boz-bulanıq su içərlər.*
*Qarınları dolub şişər, dişlərini qabardarlar,*
*Əsla qorxu-hürkü bilməz bu qan içmiş canavarlar –*
*Eynən bu cür mirmidonlu sərkərdələr, müşavirlər,*
*Qanlı savaş həvəsilə, qorxu-hürkü bilməyərək,*
*Axillesin mərd dostunun dövrəsinə toplaşdılar.*
*Mərd Axilles qıy vuraraq coşdururdu qoşunları”.*
*(“İliada”, səh. 348).*

Biz yenə, Homer təşbehləri, Homer müqayisələri ilə üzləşirik və heyrət içərisində qalırıq – sənətin, idrakın qüdrətinə!..

Canavar yaşayış tərzi, təbiət-maral, təbiətin ahəngi!... Üzərinə qan çilənmiş, ağız-burunları, pəncələri qana batmış sürü, toxluq, qandan sonra bulanıq suya susamaq, içmək, doymaq, gəyirmək və parçalanmış canlı həyat, təbiət, gözəllik vasitəsilə yoxluq əldə edildikdən sonra sinəni qabağa verib məğrur-məğrur dayanmaq.

Dastanda dünya, təbiət, ahəng, insan, tarix, yaşayış tərzi təsvirlərlə, izahlarla, təşbehlərlə, müqayisələrlə bütöv verilir. Elmlər, fəaliyyət sahələri bu qədər inkişaf etmiş, biliklər toplanmış, amma dünyanın bütöv qavranması üçün “İliada” əvəzsiz mənbədir.

Lakin söhbət bundan getmir. Söhbət idrak – ülviyyət təcəssümçüsü və daşıyıcısı insanın müharibə işlərini başa gətirərkən canavar yaşayış tərzini ifrata vardırmasındadır. Həm də insan öz “əzəməti”, “hünəri” ilə sürü yırtıcılığını vurub keçməlidir. Çünki o, insan kimi, əlavə vasitələrlə də silahlanır. Həm də iş ondadır ki, Axilles də tarixin bu təmayülünün bataqlığından yan keçə bilmir.

Biz, əvvəlcə, insanın necə böyük həsrətdən, necə əziz arzudan, necə çətinliklə yarandığının şahidi oluruq. Belə deyilir ki, filankəs

Sperxeyin oğludur. Filankəs Peley qızı Zolidara ilə cütləşərək doğulmuşdu. Atası da Perierin oğlu Bor sayılırdı. Çay ilə külək bol xərc çəkib, minnət ilə evlənmişdilər.

Başqa qəhrəman daha böyük arzu və məşəqqətlə dünyaya gəlmişdi:

*"...Yevdar idi, – bu igidi*
*Filand qızı şux rəqqasə Polimela doğmuş idi*
*Qolu zorlu Arqovuran Hermes onu ov tanrısı*
*Artemida məclisində rəqs edərkən görən kimi,*
*Bir könüldən min könülə vurulmuşdu o gözələ,*
*Gedib onun otağına gizli-gizli cütləşmişdi,*
*O da sonra doğmuş idi həmin igid qəhrəmanı*
*Doğanların havadarı İlifyanın köməyilə*
*Doğularaq, gün işığı görən kimi həmin körpə,*
*Aktor oğlu mərd Yexekley bol xərc çəkib minnət ilə*
*O qadınla evlənərək öz evinə gətirmişdi.*
*Oğlanı da qoca Filant öz sevimli oğlu kimi*
*Qayğı ilə yetişdirib sevə-sevə böyütmüşdü..."*

*("İliada", səh. 348-349).*

Biz dedik ki, arzuyla, çətinliklə insan dünyaya gəlir (əsasən). Bu arzu o qədər böyük olmalı ki, insan qadağan sədləri aşar, risqə də gedər. Lakin qadağan işin məhsulu məhəbbət oyadır. Risqə gedilən işlə dünayaya gələn, məhəbbət oyadan məhsul müharibə əjdahasının ağzında qəddarcasına, amma asanlıqla udulur.

Tərtib edilmiş mənzərələrdən birini ötəri biçimdə göstərə bilərik:

*...Möhkəm vurdu, ombasını*
*Darmadağın etdi bizə zülmət çökdü gözlərinə,*
*Nestor oğlu Antiloxsa, Atimniya hücum edib,*
*Nizə ilə qasığından vurub sərdi onu yerə.*
*Qardaşının ölümünə qəzəblənən Mari isə,*
*Nizə ilə qolaylanıb hücum etdi Antiloxa.*
*Qardaşının cəsədinin yanındaca durdu. Ancaq*
*O, nizəni endirməmiş, allahsifət Frasimed*
*Qabaqlayıb vurdu onu nizəsilə düz çiynindən.*
*Nizə qırıb sümükləri, əzələni parçaladı.*
*Tappıltıyla yıxıldı o, zülmət çökdü gözlərinə.*

*Beləliklə, hər ikisi iki qardaş tərəfindən*
*Göndərildi bircə anda qara Aid aləminə, –*
*Hər ikisi Sarzedonun mərd əsgəri, ziyansevər*
*Ximeranın havadarı Amisodor oğluydular.*
*Oileyin oğlu Ayaks şığıyaraq, basırıqda*
*Yıxılmış gənc Geobulu diri tutdu, ancaq o dəm*
*Qılıncıyla boğazını üzüb orda həlak etdi.*
*Dəstəsinə qədər qızdı qılınc onun tünd qanından.*
*Kleobulun gözlərini qanlı zülmət çulğaladı.*
*Şığıyaraq qarşılaşdı Peney ilə Pikon, – ancaq*
*Boşa çıxdı bir-birinə atdıqları nizələri.*
*Əl atdılar qılınclara – Pikon vurdu Peneleyin*
*Sərpuşunun təpəsindən, qılınc sındı qəzəbindən.*
*Peneleysə, vurdu onun qulağının lap dibindən*
*Qılınc kəsdi qoydu, təkcə dərisindən asılı baş,*
*Əzaları düşdü gücdən, canı çıxdı bədənindən,*
*Mərd Merion şığıyaraq, gərdunəyə minən zaman,*
*Çatıb vurdu nizə ilə Akamantın kürəyindən*
*O yıxıldı gərdunədən, zülmət çökdü gözlərinə,*
*İdomeney Pirimantın düz ağzından vurdu, – nizə,*
*Beyninin alt tərəfindən keçib dəldi sümükləri,*
*Dişlərini qırıb tökdü, gözlərini qan bürüdü,*
*Ağzından da, burnundan da fəvvarətək fışqırdı qan.*
*Qara ölüm bulud kimi çökdü onun üzərinə...”*
*(“İliada”, səh. 352-353).*

Biz görürdük ki, insan dünyaya necə ülvi münasibətlərin nəticəsi kimi gəlirdi. O, çətinliklə boya-başa çatırdı. İnsanlar bu məhsulun həsrətini çəkir, həmin məhsul sevincə, səadətə səbəb olur. Lakin gətirdiyimiz nümunədəki təsvirdən də göründü ki, müharibə əjdahası bir anda onu udur. Həm də zalımlıqla, qəddarlıqla, eybəcər şəkildə. Kamillik, gözəllik, ülviyyət mücəssəməsi insan ürəkbulandıran, acınacaqlı bir mənzərə alınır. Gətirdiyimiz nümunəni bir də oxuyun və insana vurulan zərbələrin səmtinə, zərbədən alınan mənzərəyə diqqət yetirin, bu hər şeyi özü sizə söyləyər.

Zevsin hökmü mütləqdir. Onun tərtib etdiyi planlar addım-addım həyata keçir. Yunanlar acınacaqlı kökə düşdülər. Troyalılar onların qabaq gəmilərinə od vurdular. Yunanlar istehkamlara və dibsiz

quyulara yaxın yerdə bir küncə qısıldılar. Fəlakətin daha qaşı olmaz, gözü olmaz, onun özüdür ki, yunanların başı üzərini kəsmiş.

Axilles isə özü son, qəti döyüşə atılmasa da, öz əsləhəsində Patroklun döyüşə başlamasına razı olur. O qədər ki, bu iş üçün özü belə allahlara qurban verir, dua, səna edir. Həm də o arzu edirdi ki, bu vuruşda, bu üstünlükdə Patrokl həm də sağ qalsın!

Lakin:

*"Belə deyib yalvardı o, Zevs qəbul etdi bunu*
*Ancaq igid Axillesin rədd etdi bir xahişini,*
*Düşmənləri qovmaqda o, kömək etdi mərd Patrokla*
*Ancaq onun sağ qayıtmaq xahişini rədd elədi..."*

*("İliada", səh. 350).*

Allah – Zevs, yəni hadisələr gedişinin üzdə olmayan, ilk baxışda görünməyən, alt qatda olan, gizli-daxili əlaqələri deyən sözdür. Biz Allah – Zevs söhbətlərinə bu mündərəcədə yanaşırıq. Biz də bilirik ki, Zevs Patrokl üçün ilkin uğurların ardınca əsil qələbə yox, ölüm hazırlayırdı.

Həyatda, cəmiyyət və tarixdə haqq var, nahaqq var, doğru və əyri gedişlər var. Burada zərərdidə olanlar, faydalananlar müşahidə edilir. Zəiflər, ayaq altında qalanlar, güclülər – basıb keçənlər dünyası baş alıb gedir. Zira, zəif, güclü zərərdidə, faydalanan anlayışları müstəqim deyil, daxili ziddiyyətlərlə doludur. Məsələn, burada zəif dediyimiz, ayaq altında qalan haradasa güclü ola, başa çıxa bilərdi...

Və s.

Yekun isə həyatın özü –Zevsdir!

Müxtəlif insan qüsurları var. Bunlardan biri də nəfsin hüdudsuzluğu, haqqından artıq qoparmaq cəhdi, özgə qismətinə əl uzatmaq meylidir. Bunlar ümumi işə, başqalarına ziyan vururlar. Amma ən böyük xəyanəti özlərinə edirlər. Çünki yekunda həyat, yelbeyinliyi və xəbisliyi bağışlamır. Əlimizdə ən qabarıq örnək Patroklun taleyidir. O, Axilles rolunda ilk uğurlarla yetərlənmək istəmir. İlk uğurdan sonra roldan adlayıb "axilleslik" xəyalına düşür. Bu isə mümkün deyildi. Çünki o, Axilles yaranmamışdı. Lakin "axilleslik" xəyalına düşərkən həm başqasının qismətinə əl uzatmaqla onu korlayır, həm də ləkələnən amal onu həlakətlə cəzalandırır.

"Zevsin fikri" deyilən şey bundan ibarətdir. Zevs belə istədiyinə yox, daha artıq, Patrokl özgə qismətinə əl uzatdığına görə, Axillesin

onun vuruşlardan sağ qayıtmaq arzusu, bu yöndə Zevsə duaları baş tuta bilməzdi.

Amma bu, sonranın söhbətidir. Hələlik isə o, Axilles rolunda Mirmidonlu döyüşçüləri vuruşa aparır. Uğurlar da baş alıb gedir. Bu yolda Axillesin qızışdırıcı, səfərbəredici çağırışları da təsirsiz deyil. Bunun mündəricəsini aşağıdakı nümunələr göstərə bilər:

*"Bəzi dəcəl uşaqlar bərk cırnadarlar arıları*
*Bundan ancaq ziyan çəkər yoldan ötən biçarələr*
*Əgər ordan gedən yolçu təsadüfən toxunarsa,*
*Arılar öz yuvasını düşmənlərdən qorumaqçün,*
*Hamı birdən bərk qəzəblə tökülüşər üzərinə –*
*Mirmidonlu qoşunlar da belə azğın arılartək*
*Gəmilərin qarşısına axışaraq şığıdılar*
*Qəzəblə, sıx cərgələrlə troyanlar üzərinə*
*Coşğun döyüş nərələri çulğaladı hər tərəfi".*
*("İliada", səh. 351).*

Yenə də Homer təşbehləri, Homer müqayisələri! İş ondadır ki, bir uşağın arı qövmünü cırnatması, ağlının başından etməsi, ölümə sürükləməsi bəsdir. Təəssüf oyadan odur ki, bəşər də özünü başsız axın şəklində o günə salmış, taleyini özülsüz, oynaq etmişdir. Bu faktın müşahidəsi insanın dəyəri ətrafında düşüncələri qüvvədən salır.

Lakin indi bu yöndə mülahizələr bizim izlədiyimiz ideyanı zəiflədərdi. Fakt odur ki, yunanlar – Mirmidonlular coşğunluqla troyalıların üzərinə şığıyırdılar. Burada Zevsin şahmat oyunu da baş tuturdu. Troyalılar Patroklu Axilles zənn edirdilər.

*"Troyanlar Patrokl ilə sürücünü o meydanda*
*Parıldayan tunc zirehdə görən kimi bərk qorxdular*
*Onların sıx cərgələri seyrəkləşdi bircə anda.*
*Elə gümün etdilər ki, qəzəbindən əl çəkərək,*
*Yeyinayaq Pelid yenə dostlaşmışdır Atreidlə".*
*("İliada", səh. 351).*

Zevs də belə istəyirdi, həmin şey də baş verir.

İndi biz addım-addım Patroklun uğurlarını izləyə və aqibətini yekunlaşdıra bilərik. Dastan orada ona "Doloniya", burada da buna "Patrokliya" adı vermişdi.

Patroklun hələ ilk addımı öz işini bu cür görür:

*“Onların mərd rəhbərini*
*Öldürməklə bərk sarsıtdı Patrokl bütün neonları.*
*Gəmilərdən uzaq qovub, yanğını da tez söndürdü.*
*Yarı yanmış gəmi qaldı öz yerində. Troyanlar*
*Çığıraraq qaçışdılar”.*

*(“İliada”, səh. 352).*

Bununla da Axillesin Patrokla tapşırığı başa çatmışdı. Lakin Patrokl ilk uğurdan haylanmışdı. O, Axillesin zirehini əyninə geymiş, silahlarını əlinə götürmüş, gərdunəsini minmiş, atlarını çapır, qarşısındakı düşmən də başını itirmiş, dağınıq halda qaçışır. Bədgümanlıq, özünü aldadıcı – böyüdücü güzgüdə görmək, beləliklə də, “axilleslik” xəyalına düşmək üçün də hər cür əsas var. Nöqsanlı ağıllar üçün.

Patrokl da ilk uğurun ardınca dərhal axilleslik xəyalına gedir və onun qismətinə əl uzatmağa başlayır. O, öldürmək üçün Hektorun izinə düşür:

*“Şimşəksaçan sərt fırtına qoparanda, pak Olimden*
*Sıx buludlar necə birdən axışarsa göy üzündə, –*
*Eləcə də troyanlar gəmilərdən hay-küy ilə,*
*İntizamsız qaçışırdı. Yeyin atlar mərd Hektoru*
*Çıxardılar tez aradan... Troyanın qoşunları*
*Xəndəklərdən keçə bilmir, gərdunələr parçalanmış,*
*Sərkərdələr pay-piyada qalmışlar o meydanda.*
*İgid Patrokl danayları haylayaraq, cəsarətlə,*
*Düşmənləri qovmaqdaydı. Troyanlar pərakəndə*
*Qaçışaraq səpilmişdi yollar boyu hər tərəfə*
*Toz qalxırdı bulud kimi... gəmilərdən, düşərgədən*
*Troyaya qaçan atlar dağılmışdı geniş düzə.*
*Troyalı qoşunları sıx toplanmış görən kimi,*
*İgid Patrokl atlarını çapırdı düz üstlərinə.*
*Gərdunələrdən yıxılanlar təkərlərin altda qalır,*
*Taqqıltıyla parçalanıb dağılırdı gərdunədən.*
*Olimpdəki allahların mərd Peleyə bəxş etdiyi*
*Ölməz atlar xəndəklərin üzərindən uçurdular.*
*İgid Patrokl tələsirdi Hektoru tez həlak etsin.*

*Hektor isə atlarını çoxdan çapıb yox olmuşdu.*

*("İliada", səh. 354).*

Basılmaq nə acınacaqlıdır! Lakin bir tərəfin basılması, o birinin üstünlüyü burada allahın planı olduğu üçün başa gəlirdi. Allah anlayışının mündəricəsini də söyləmişdik: hadisələrin gizli, təkanverici qüvvəsi, insanın hələ dərk etmədiyi və ya öhdəsindən gələ bilmədiyi, bir çox hallarda gəlmək də istəmədiyi təbii gedişat. Məsələn, burada Patroklun yelbeyinliyi, şıltaqlığı, yekəxanalığı və nəfsi. Nadir ağıllar gözardı edilərsə, insanlar əsasən nəfslərindən və şıltaqlarından əl çəkmirlər və tora düşürlər.

Gətirdiyimiz nümunədə basılmaqda olan troyalıların acınacaqlı vəziyyətini görməkdən başqa, allahların indi Axillesə məxsus Peleyə bəxş etdiyi atların, onların uçurumların üzərindən yel kimi uçmasının da adı çəkilir. Həm də deyilirdi ki, Patrokl Hektoru gəzirdi.

Allahlar Patroklu qurduqları tələnin lap ağzına sürükləyirlər...

Zevs Axillesin haqqını təsdiq üçün hətta öz oğlu Sarpedonun ölümünə də yol verir. Ona görə ki, cəsəd üzərində döyüş daha ağılsız, qızğın şəkil alsın, – Patroklun ölümü real biçimdə başa gəlsin.

Biz Patroklun kütləvi döyüşlərinin, həm də təkbətək vuruşlarının şahidi oluruq. İnsan qırıntıları, qışqırıq, fəryad, hıçqırıq, tükürpədən səhnələr hüdudları aşır.

Onlarla igid ilə təkbətək döyüşdən tək bircəsinə diqqət yetirsək, ümumi təsəvvür əldə edə bilərik:

*"İgid Patrokl kədərləndi öz dostunun ölümündən,*
*Ön cərgədən şığıdı o, – dolaşalar, sığırçınlar*
*Dəstəsinə şığıyan gözü qızmış bir qırğı kimi...*
*Sən də, ey mərd, igid Patrokl, dost yolunda qəzəblənib*
*Troyanlar, midiyalılar üzərinə belə cumdun...*
*Vurub yıxdı? İfemenin igid oğlu Sfoneli*
*Daşla vurdu boğazından, qırdı bütün bəndlərini.*
*Hektor ilə troyanlar, yarış vaxtı, ya savaşda*
*Bir igidin qolaylanıb var gücüylə tulladığı*
*Uzun mızraq məsafəsi dönüb geri çəkildilər".*

*(Orada, səh. 360).*

Davamlı üstünlük əldə etmək üçün təkcə Axilles rolunda çıxış etmək azdır, şəxsi keyfiyyət də gərəkdir. Biz bir çox döyüşlərdə Patroklun Axilles yaxınlığına layiq cəhətlərini görürük.

Təəssüf ki, biz də tarixə və dastana yatıb döyüşün, döyüşdən irəli gələn qəhrəmani hünərin poeziyasına yal yatdırırıq.

Bir qəhrəmani hünərə, poeziyaya bax!!!

Deyir ki, bir insanın boğazından daşla vurdu, boğazın da bütün bəndləri qırıldı... paralanmağın, ölməyin heyvanlığa layiq, eybəcər forması! Lakin o insan bundan əvvəl şəri asanlqıla həzm etmişdi. Burada biz "həzm edilən şər" dedikdə özgə payına göz dikməyi, bir xalqın başqa xalqın səadətinə əl uzatmasını, şərəfini tapdamasını nəzərdə tuturuq. Tarixdə müşahidə edilən bu naqis cəhət təəssüf ki, fərdlər və xalqlar arasındakı münasibətlərdə bu günə qədər müşahidə edilir.

Şər dünyanı qarmaqarışıq yaradıb aləmi qərq etməyə cəhd göstərirsə və şərlə yanaşı, xeyir də yırtıcılıq bataqlığına qərq olursa, bu başqa məsələdir. Elm, bu yöndə düşünən başlar işin bu cəhətinə daha artıq diqqət verməkdənsə, vuruşlar, fitnələr, siyasətbazlıqlar, qırğınlar – hadisələr yığınından ibarət bir salnamə tərtib edir, bunun da adını tarix qoyurlar.

Gözümüz qarşısında daim "ülvi" adlandırmağa alışdığımız rəzil bir dünya alınır!

Şər mütləq qırğın dəryası yaradır (gündəlik hərc-mərclikdən başqa). O qırır, öz məhvini də mütləqlşdirir:

*"Patrokl isə, gözü qızmış sürücüylə, atlarını,*
*Haylayaraq, qovmaqdaydı troyalı qoşunları.*
*Mərd Pelidin dediyinə əgər əməl eləsəydi,*
*Yazıq, qara həlakətdən bəlkə də can qurtarardı.*
*Ancaq Zevsin hökmü insan zəkasından çox üstündür.*
*Gah igidi qorxudaraq, məhrum edər qələbədən,*
*Gah da özü qızışdırıb təhrik edər savaşmağa.*
*İndi də o, qızışdırıb coşdurmuşdu mərd Patroklu".*

*("İliada", səh. 363).*

Patrokl haqqını müdafiə edən tərəfin döyüşçüsüdür. Ona gprə o, şər dünyasına daxil olmamalıdır. Lakin burada söhbət haqq-nahaqdan getmir. Söhbət insan xırdalığı, naqisliyi üzərindədir. Şər isə xırdalığın, naqisliyin hökm sürdüyü yerdə paydadır. Madam ki,

Patrokl özgə payına, Axillesə məxsus hünərə göz dikir, bununla da şərə boy verməlidir. Şərin də taleyi aydındır. O, ziyan vurur, ölüm gətirir. Dastan bu cəhəti Zevsin hökmü, Axilles tövsiyyəsinin pozulması adlandırır.

Patroklun hücumları, döyüşlər, qırğınlar baş alıb gedir. Biz dönə-dönə insanın eybəcər şəklə düşməsinin, acınacaqlı tərzdə ölümünün şahidi oluruq:

*"Mərd Patroklun atdığı daş yayınmayıb getdi birbaş*
*Dəydi onun sürücüsü – Piriamın kənar oğlu*
*Kebrionun düz alnından, qaşlarının ortasından,*
*Başı davam gətirməyib parçalandı, iki gözü,*
*Çıxıb düşdü ayağının altda yerə, suya cuman,*
*Üzgüçütək hoppandı o gərdunədən, çıxdı canı..."*

*("İliada", səh. 365).*

Hamlet deməsin, insan nə qədər də miskinləşər, rəzilləşərmiş?! "Baş parçalandı", "iki göz yerindən çıxıb, ayaq altına düşdü", "gərdunədən yerə sıçradı..." və s. ifadələr hər şeyi söyləyir. Yazıq, acınacaqlı bir mənzərə alınır.

Lakin məlum səbəblərə görə, Patroklun uğurları ardıcıl ola bilməzdi. O, müəyyən həddə məhdudlaşmalı idi. Dastanda bu iş allahların əli ilə başa gəlir. Əslində isə müəyyən məqsəd naminə Zevs şahmat oynayırdı. Bu oyunda Patrokl da qurban gedən fiqur yerində qalmalı idi.

Qarışıq mənzərə yaranır. Troyalılarla yunanlar arasında havaxtsa yaxşı tellər, qaynayıb-qarışma var imiş. Yoxsa aralarında nə get-gəl olardı, nə də yaxşı münasibətlərin pozulub müharibəyə səbəb olan Yelenanın oğurlanması.

Sonra müharibə baş verdi. Aqamemnon tapdalanan şərəfin ayaqlar altından götürülməsi işinə başçılıq etməli, səadətin qaytarılması uğrunda vuruşmalı idi. Lakin o, nəfsə uydu...

Hektor müdafiə qayğılarına qalmalı idi. Lakin sonra görəcəyik ki, axillesvarilik onun da qəlbinin dərinliklərinə işləyir.

Dolon və s. aralıq adamların da könlündən bu qəbil şeylər keçir.

Patrokl haqqında nə demək olar?

O, döyüşə can atanda, ilk uğurlar üçün, ona açıq-açığına dedilər ki, sən Axilles rolunda çıxış et. Bu çıxış bütöv bir aləmə çevrilə bilməzdi. İşlər o cürə də gedirdi. Lakin sonra uğurlardan Patroklun

beyni alovlandı, hər şeyi unutdu, qabağa şığıdı, az qala Axilles olacaqdı.

İşin qarmaqarışıqlığı bundadır və allah, – Zevs deyilən şey də bu qarmaqarışıqlığı nizamlayan, düz yerə çıxan yolun özüdür.

Patrokl hökmləri qarşısıalınmaz biçim alanda işə Apollon qarışır. O, xəbərdarlıqla Patroklu çəkindirmək üçün haraylayır:

*"Ey allahın yetirməsi, igid Patrokl, çəkil geri!*
*Öz nizənlə troyanı fəth etməyi tale sənə,*
*Nə də səndən güclü olan Axillesə hökm etməyib!"*

Hadisələrin yekununda Troyanın fəthi durur. Böyük qismət də Axillesə vəd edilib. Əgər ən böyük qələbə Troyanın fəthi deyilsə, nədir?

Yoxsa, böyük qismətlə qələbə arasında vahid, ardıcıl bağlılıqlar yoxdur?!

Bu başqa məsələdir.

Fakt odur ki, indi Apollon Patroklu çəkindirmək istəyir. Lakin allah xəbərdarlığın gərəkən təsirini görmədikdə əməli işə keçir:

*"Ah, ey Patrokl, burda artıq igid ömrün çatdı başa!*
*Çıxdı sənin qarşına o, dəhşət saçan Feb-Apollon.*
*Ancaq Patrokl vurhavurda tanımadı o allahı:*
*Qatı zülmət pərdəsində yaxınlaşdı o, Patrokla.*
*Arxasında durub, birdən o dəhşətli yumruğuyla*
*Vurdu onun kürəyindən, zülmət çökdü gözlərinə...*
*Mərd Patroklun möhkəm iti nizəsi də parçalandı.*
*Qalın-möhkəm qayışlarla bənd olunmuş qalxanı da,*
*Düşdü yerə... Zevsin oğlu Feb-Apollon*
*O igidin əynindəki zirehi də söküb atdı...*
*Bir döyüşçü – Ganfoyoğlu Yevforb iti nizə ilə*
*Arxasından vurdu...*
*Hektor igid, mərd Patroklun nizə ilə yaralanıb,*
*Meydanı tərk etidyini görən kimi, cərgələrin*
*Arasından cumub ona sürətlə yaxınlaşdı,*
*Düz qarnından vurub dəldi uzun iti nizəsilə.*
*Tappıltıyla yıxıldı o...*

*("İliada", səh. 366-367).*

Müəyyən məqsəd üçün Patroklu allahlar əvvəlcə qaldırırdı. Əlbəttə, bunun üçün Patroklun özünün də şəxsi keyfiyyətləri var idi. Deyir, quyuya su tökməklə dolmaz, özündə gərək olsun. Patrokl isə müəyyən dərəcədə, sulu quyu idi. Yenə də söylənilir, allah deyir səndən hərəkət, məndən bərəkət. Göründüyü kimi, Patrokl da hərəkəti olanlardandır. Yoxsa, allah hamını qaldıra bilməz ki... yersiz qalxanlar böyük yox, eybəcər görünür, oyuncaq vəziyyətdə qalırlar.

Lakin allahların məqsədi Patroklu, ümumiyyətlə, qaldırmaq yox, bu yol ilə məqsədi həyata keçirmək idi. Ona görə də allahlar Patroklu qaldırmaqla yanaşı onun ağlını da başından alırdılar ki, bu adam yelbeyinliklə həddi aşsın. Bu da əsas verirdi ki, allahlar Patroklun "ucalığa" doğru hərəkətinə hədd qoysunlar, dirəniş müşahidə edilən kimi də vurub salsınlar.

Bunlar da, baş verdi. Lakin bu zaman ümumi qələbənin təkcə öz adına çıxdığını görən Hektor Patroklun uğursuzluğuna qarşı laqqırdamağa başlayır.

Həyatla ölüm arasındakı son işıltıda Patrokl ayılır, hadisələrin gedişinə təkan verən allah əlini anlayır.

O, ölüm ayağında Hektorun laqqırtısına aşağıdakı cavabı verir:

*"Bəd taleyin hökmü ilə məni əvvəl Feb-Apollon,*
*Sonra Yevferb vurdu, – sənsə, üçüncüsən.*
*Mən də sənə bir söz deyim, bunu özün yaxşı düşün.*
*Bil ki, sənin öz öpmrün də uzun deyil bu dünyada,*
*Öz qüdrətli hökmü ilə artıq qarşındadır*
*Axillesin əlində sən mütləq həlak olacaqsan!*

*("İliada", səh. 368).*

Allahlar belə yönəldirdi, Patrokl üçün uğurlar uğurların ardınca gəlirdi. O zaman allahlara belə lazım idi. Patrokl da, ona əvvəlcədən edilən tövsiyələr və xəbərdarlıqlara önəm vermədən guruldayırdı. İndi allahlar Patroklun yürüşünü saxlayır. Nəinki yürüşü saxlamaq, indi də ona qarşı Hektora üstünlük verir, qələbələr gətirir. Çünki vahid məqsədi həyata keçirmək üçün allaha bu gərəkdir. Lakin onda Patrokl olduğu kimi indi də Hektor laqqırdamağa başlayır.

Özünün uğursuzluğu, düşmənin üstün gəlməsi anında Patrokl etidalını pozmur, idrakına vurur. Patrokl taleyin gedişinə qarşı həyat hikməti üçün atılır və özü laqqırtısına qarşı Hektoru xəbərdarlıq edir.

Təəssüf ki, ayılma, idrakilik uğursuzluqda və ya ömrün son anında, ölüm məqamında başlayır. Zira, işin daha artıq qatılığı orasındadır ki, həyatın ibrəti hadisələrin inkişafı və insanın sonrakı nəsli üçün dərs olmur. Bəşəriyyət hər dəfə sanki sıfırdan başlayır. Şərin gücü və davamlılığı da bundan ibarətdir.

Çünki hər bir zaman həyatın müəyyən həddi, öz məqamı var. Biz nə isə bir işıq görür, tərəqqiyə, xeyrə can atır, tələsirik. Xüsusən dahilər, bir çox halda xeyri bütöv, az qala mütləq biçimdə qavrayırlar. Bu özü pis deyil, əmniyyətdə həyəcan yaradır, tarixdə narın da olsa bir qat qoyub gedir. Lakin həyat təmkinlidir. O, kamala doğru səbrlə addımlayır, ləng yetişir.

Patrokl qalxırdı, indi enməyə başlayır. İndi də Heltor qalxır və laqqırdayır. Zira, onu da Patrokl xəbərdar edir ki, bu gündən, mənim aqibətimdən sənə də var.

Deyir, fələk iki dəfə gülür: o zaman ki, birini allah qaldırır, adamlar da təsirsiz şəkildə həsəd və ya düşmənçilik hissinin təsirilə badalaq gəlir. Lakin allahın qaldırdığı adam yıxılmır ki, yıxılmır. Bu zaman allah gülür və deyir, ay axmaqlar, onu mən qaldırıram, siz yıxa bilməzsiniz.

Bir də allah birini yıxır. Bu da insan psixologiyasıdır: qalxana həsəd aparır, pisliyinə çalışır, yıxılana ürəyi yanır, qaldırmağa can atır. Lakin bütün cəhdlər boşa çıxır və allah da ürəyində gülərək deyir, ay axmaqlar, onu mən yıxıram, siz qaldıra bilməzsiniz.

Çox vaxt həyatda deyirlər ki, filankəsinki gətirir, ya gətirmir. Ya da qismət deyilən şeydə, az qala mütləq vəziyyət müşahidə edilir.

Bu həyatın, insanların müəyyən məqamı və uyğun gələn, gəlməyən təbiətlər məsələsidir. Bunun ən bariz nümunəsi böyük təbiətlərin daha çox qismətə layiq olduğu halda, gündəlik işlərdə gətirməməsi, xırda şeylərdə daim uduzmasıdır.

Sanki hər şey bu böyük təbiətin əli altındadır, o istəsə hər şeyi bir anda nuş edər.

Əvvəla, hər cür şərtlə nuş etməyi böyük təbiət götürmür. Dünyamızın açdığı süfrənin yığışdırılması üçün təkcə bu fakt bəsdir. Lakin yanlışlıq üzündən idrakın təhriki ilə böyük təbiətləri üçün düzülmüş nemətlər əlin altından qaçıb dağılışırlar.

Çünki təbiətlər tuş gəlmir.

Burada faciəvilik var. Lakin burada ilahi keyfiyyət böyüklüyü naqislikdən təmizləyir və həmin böyük təbiəti naqisliyin verə

biləcəyində itirdiyini xeyrə xidmətdə tapır. Böyüklüyü həyatın ardıcıl məntiqi qoruyur.

Patrokl taleyi üçün Hektora xəbərdarlıq edir. Lakin Hektor idrakın səsini dinləmək istəmir və laqqırdamağında davam edir. Burdan da, dastan söyləsə də, söyləməsə də, "Hektoriya" alınır:

*"Məni ölüm xəbərilə hədələmə, sən, ey Patrokl,*
*Kim bilir ki, – bəlkə elə Fetidanın oğlu Pelid*
*Özü mənim nizəm ilə burda həlak olacaqdır!"*
*Belə deyib o Patroklun sinəsinə ayaq basıb*
*Çəkib aldı nizəsini, üzüquylu yıxdı onu*
*Həmin saat, əldə nizə, cumdu Pelid Axillesin*
*Allahsifət sürücüsü Avtomedont üzərinə*
*Ancaq onu ölməz atlar çıxardılar o meydandan, –*
*O atlar ki, olimplilər bəxş etmişdi mərd Peleyə".*

*("İliada", səh. 370).*

Əvvəlcə Hektor orada Dolona iş tapşırdı. Dolon da görəcəyi işin müqabilində "Axilleslik" iddiasına düşdü, hətta Hektordan vəd də umdu. Hektor da öz vədi üçün and içdi. Lakin elə buradaca dastan söylədi ki, and saxtadır.

Söhbət burada hələ əldə edilməyən və əldə olunacağına da qəti təminat verilməyən qənimətin bölüşdürülməsindən gedir. Lakin məsələni belə qoyaq ki, qənimət əldə edilib. Bu işdə də Dolonun müəyyən xidməti var, Hektor da and içib. Lakin qənimətə hansı səlahiyyətli, hansı daha hökmlü adamın gözü tikilməli ki, bu başdan saxta andlarla fikirlər yayındırılsın. Hələ biz onu demirik ki, saxta yolla, bəlkə də bir an üçün üstünlük mümkündür. Əsil qələbə isə yox. Deməli, Axilleslik arzusu ağılları o qədər başdan etmişdi ki, kamil görünən adamların belə dərrakəli tədbirlərdən əlini çıxarır.

İzahat özü yol açır, anlayasan ki, "Axilleslik" arzusu Hektoru sağlam döyüş əvəzinə saxta andlarla məcbur edir. Burada da ölüm xəbərdarlığına qarşı dalını-qabağını düşünmədən gözü qızışmış şəkildə söyləyir ki, bəlkə elə Axillesin özünü də mən öldürəcəm.

Tarixi gerçəkliklərə uyğun dastanın ümumi gedişindən aydınlaşır ki, bütün əzəmətinə baxmayaraq, Axillesi Allahın hökmü çatanda hər bir kəs, eynilə Hektor da öldürə bilər. Necə ki, bu işi Hektorla müqayisədə qat-qat cılız olan Paris başa gətirir. Amma bu iş Heltora

vəd edilməyib. Zira, "Axilleslik" Hektorun gözünü o qədər dumanlandırıb ki, o, heç taleyin hökmü ilə də hesablaşmaq istəmir.

Hektorun "Axilleslik" arzusu dastanda birbaşa söylənməsə də əsaslı əlamətlər var. Ən mühüm anlarda da, Hektoru Axillesə məxsus şeylərlə döyüşə həvəsləndirirlər. Bir döyüşə ləngiyən Hektoru vuruşa girişmək üçün silahdaşlarından biri ona deyir ki, hələ bu hünərlə də Axillesin atlarına yiyələnmək istəyirsən:

*"Hektor, nahaq Axillesin atlarına yiyələnmək*
*Xəyalına düşübsən sən, onlar yaman dəhşətdir!"*
*("İliada", səh. 373).*

Hətta sonrakı səhnələrdə Hektor Axillesin zirehlərini geymək arzusunu özü də gizlətmir.

*"Ey Troyan, ey likiyalı, ey dardanlı qəhrəmanlar!*
*Kişi olun, dostlar, mənə bu savaşda yar olun ki,*
*Öldürdüyüm Patrokldan qəniməttək aldığım o*
*Axillesin şərafətli zirehini geyə bilim".*
*Belə deyib çığıraraq igid Hektor o meydandan*
*Çıxıb cumdu var gücüylə İliona sarı birbaş.*
*Gedib çatdı məşhur igid Axillesin zirehini*
*Troyaya aparan o sədaqətli dostlarına.*
*O meydandan xeyli kənar dəyişdirdi libasını –*
*Özünkünü dostlarıyla göndərərək İliona,*
*Axillesin zirehini alıb geydi öz əyninə.*
*Bu zirehi mərd Peleyə pak allahlar vermişdilər.*
*Qocalanda o da oğlu Axillesə bəxş etmişdi.*
*Ancaq ata zirehində qocalmadı igid oğlu!..*

*Buludyığan Zevs döyüş meydanından uzaqlarda*
*Axillesin zirehini geyən görüb mərd Hektoru,*
*Bulayaraq başını o, belə dedi öz-özünə:*
*"Ax, ey bədbəxt! Ölümünü duymur sənin qəlbin hələ*
*Ölümünsə çox yaxındır. İndi elə bir igidin*
*Zirehini geyirsən ki, hamı ondan qorxub-əsir!*
*Onun igid, üzügülər yoldaşını öldürüb sən,*
*Nalayiq bir halda soydun sərpuşunu zirehini*
*İndi sənə böyük qüdrət verəcəyəm, ancaq bil ki,*

*Bu savaşdan sağ qurtarıb, bu şərəfli zirehləri,*
*Arvadına təqdim etmək sənə nəsib olmayacaq!”*
*(“İliada”, səh. 376-377).*

Burada Hektor açıq-açığına deyir ki, baş məqsəd, əsas arzum Axillesə məxsus keyfiyyətlərə sahiblənməkdir. Yəni mündəricədə mümkün deyilsə də, biçimcə belə görünsə, pis olmaz... Bu cəhət o qədər qüvvətlidir ki, müharibənin ilk səbəbi, vətən şərəfi, xalqlar səadətinin simvolu olan Yelena qəziyyəsi də unudulur, arxa plana keçir.

Belə bir kəlam var ki, heç kəs ağlından narazı deyil. Bu da hər kəsin qəlbinin dərinliyində bir müştəbehliyin yatdığını söyləməyə əsas verir.

Ağıldan razılıq, ağlım vardır, başqalarından artıqdır, mən üstünəm iddiasına əsas verir. Əgər belədirsə, bu hər şey deyən sözdür. Bu cəhətdən “talesiz” görünənlər, səfillər, zəlillər də özlərinə məxsus bir şey tapıb onun arxasında daldalanır, az qala onunla fəxr edir. Talesiz ifadəsini ona görə dırnaqda yazdıq ki, fəxr etməli bir şey varsa, talesizlikdən söhbət gedə bilməz.

Deməli, hər kəsdə özü olub qalmaq imkanı var. Başqa tərəfdən də, biz görürük ki, heç kəs özü olub qalmaq istəmir. Burada həm başqasının daxili ləyaqətinə mırtdamaq, həm də başqasının qismətinə göz dikmək məsələsi var. “Mən əskik deyiləm” iddiası ilə, “mən də o olacağam”, çırpışdırmaq, müftəxorluq arzusu, xidmətdən yayınmaq, həsəd hissinin pəncəsi altında qıvrılmaq və s. heç tutmur. Amma bu, yumşaq desək, bəşəri məntiqi pozur, sərt desək, hərcayilik, cinayət yolu ilə dünyanı ağzıaşağı qapamağa sürükləyir.

Nəinki düşmənlər, hətta öz qövmündə də Axillesə bu cür münasibət müşahidə edilir. Onunla Aqamemnon arasında dadsızlığa diqqət yetirək. Nə olmuşdu? İndiki şəraitdə və ümumiyyətlə, bu boyda dartışmaya ehtiyac var idimi? Axilleslə Aqamemnon arasındakı uçurumda Axilles şəxsiyyətinin, Aqamemnon mənsəbinin yaratdığını üstələmək ehtimalından doğan dözümsüzlük, hərcayilik var.

Hektor Axillesin zirehlərini geyməyə yaman yerikləyir. Dastan burada həmin zirehin tarixçəsini söyləyir və oradaca deyir ki, həmin zireh öz yiyəsinə də qismət deyil. Biz burada xüsusi hikmət axtarmalıyıq, – vuruşların antibəşəri mahiyyəti haqqında.

Biz bilirik ki, Axillesə ömrünün qısalığı haqqında xəbərdarlıq edilib. Həmin fikri bir daha xatırlamaq naminə, Axilles ilahi hədiyyə

olan zirehdə qocalmayacaq iniltisi kimi melodramatik sözlər demək yunan dastanlarının bədii sambalına yaraşmır...

Hektor Axillesə məxsus zirehi geyinir. Əslində bu onun fəlakəti idi. Çünki Zevs bunu özü hazırlamışdır ki, hadisələr Axillesi qızışdırsın, inadından, qəzəbindən əl çəksin, peşmançılıq duyğusu, intiqam alovları ilə döyüşə atılsın və çırpışdırılmış haqqı ikiqat artıqlaması ilə özünə qaytarılsın, əzəməti bütün tutumu ilə təsdiq edilsin. Zevs daha ucadan yerə çırpmaq üçün Hektoru qaldırırdı. Hektor da, dalını-qabağını düşünmədən, qanad açıb uçurdu. Bu cəhət o qədər qabarıq idi ki, öz törətdiyi mənzərəyə və Hektorun haylanmasına baxıb allah özü də həyəcanla, kədərlə başını bulayır.

Lakin allahın, – Zevsin özünü belə, fikrə qərq edən, başını bulamağa vadar edən vəziyyət hadisələri böhran anına aparıb çıxarır.

İndi bu yöndə fikirlərimizi inkişaf etdirə bilərik.

Patrokl öldürülmüşdü. Axillesi tərpətmək üçün məqsəd də bu idi. Amma "İliada"da ölüm görülən qəhrəmani işin yarısıdır. Döyüş vasitələrindən başqa, əlavə cəsəd də qənimət götürülməlidir. Bir qəhrəman, bir sərkərdə, bir başçı yaralananda və ya öləndə onun üstə vuruşlar heç də ümumi məqsəd uğrunda döyüşlərdən geri qalmır.

Bu prinsipdir!

Beləliklə, Patroklun həlakı məqsədi başa çatdırmır. Cəsədin ələ keçirilməsi üstə döyüşlər və vuruşun başa gətirdiyi qırğın baş alıb gedir.

Hər halda, insanların bir-birini qırmaq məcburiyyətinin bəşəri yaşayış tərzinə çevrilməsindən başqa qəniməti prinsipə çevirib nəşi təpiklər altına salmaq acınacaqlı bir təsəvvür oyadır:

*"Pelaskarlardan Lefin oğlu mərd Kippofoy qoç Patroklun*
*Topuğuna möhkəm qayış salıb, onu çəkə-çəkə*
*Qanlı döyüş meydanından sürüməyə başlamışdı.*
*O, Hektora, Troyaya çox yarınmaq istəyirdi.*
*Ancaq ani həlakətdən onu xilas etmədilər:*
*Telamoni igid Ayak birbaş cumub üzərinə,*
*Nizəsilə möhkəm vurdu qabarıq tunc sərpuşundan,*
*Ayaksın tunc nizəsinin bu amansız zərbəsindən*
*Sıx qotazlı sərpuş çöküb parçalandı bircə anda*
*Qanlı beyni axıb gəldi tunc nizəsinin ağacına.*
*Qolu gücdən düşən kimi, mərd Patroklun ayağı da*
*Sürüşərək əllərindən tappıltıyla düşdü yerə.*

*Özü isə üzüquylu sərələndi o meydanda.*
*Həlak oldu bərəkətli larisadan uzaqlarda*
*Ata-ana haqqını da ödəmədi, gənc yaşında*
*Əzəmətli mərd Ayaksın nizəsilə bitdi ömrü".*

*("İliada", səh. 380).*

Biz əvvəllər də döyüşlərdə acınacaqlı, dəhşət doğuran, insanı eybəcər şəklə salan ölüm səhnələrinin üstə dayanmışıq. İndi burada, Patroklun cəsədi də beləcə aqibətə yetir. Dastanda uzun səhifələr bu gedişin təsvirindən bəhs edir. Bunu əldəki vasitələrlə hər kəs özü istədiyi kimi təsəvvürə gətirə bilər. Bir baxın, deyir ki, qanlı beyni tunc nizəsinin ağacına axıb gəldi. Sonra dastan melodramatik , kədərli şəkildə fikrini tamamlayıb söyləyir ki, ata-ana haqqını ödəmədən, uzaqlarda ömrü bitdi.

Bütünlükdə bütün xalqları ümumi səadətə aparmayan, artım yaratmayan, abadlığa xidmət göstərməyən bir fəaliyyətdə çiçəklənməkdə olan bir ömür sönür. Bu fərd özü üçün hər şeyə sahibdi. Mündəricəsiz şəkildə öldü və özünə məxsus hər şeyi itirdi. Əlavə deyilir ki, ata-ana haqqını da ödəmədi. Bununla da haradasa, bütöv həyatın ümumi ahəngi də pozulur. Birinin gənclikdə həyatı sönür, kimlər isə ömürlərinin sonunda əlləri boşda qalır, haqları ödənilmir, haqqı ilə yaşayanlarsa, acınacaqlı həyata məhkum olurlar. Lakin bundan betəri odur ki, ölən ölür, qalanlar isə insan ölümündən, yaxın adamın itirilməsindən ibarət əbədi müsibətə qərq olurlar. Onlar bundan sonra bir qədər həyata alışa, unutqan görünə bilərlər. Lakin ömürləri boyu sinə dolusu sevinə bilərlərmi?

Şərin mündəricəsi bundan ibarətdir.

Halbuki bu fərd bütöv ömrü başa vura, ilahi dərgahda ola, bəşəri çiçəklənmədə də iştirak edə bilərdi. Heç bunlar olmasın, duyan, düşünən, eşidən, görən, hiss edən, təhlil qabiliyyəti olan, ünsiyyətə can atan, sevişən, gülən, kədərlənən, ağlayan və s. bir dünyaya gəliş. Onun qaydasınca yaşamaq və ömrünü başa çatdırmaq haqqı var...

"İliada"da Axilles ülviyyəti bərqərardır. Orada ülviyyəti təsdiq edən bir çox şəxsiyyətlər, hadisələr də vardır. Hektor-Andromaxa, Priam-Axilles və s. və i.a. üzləşmələrini xatırlamaq bəsdir.

Lakin "İliada"ya əsasən tarixə nəzər yetirsək, qırğın sanki bəşər həyatının ümumi mənzərəsi, başlıca xəttidir.

O yerdə ki, insan davranışı, münasibəti, düşüncə tərzi, fəaliyyəti ilə ülviyyəti təsdiq edir, orada həlakətlər həyəcan, göz yaşı törədir.

Lakin insanın pisə meyli, naqis-alçaq düşüncə tərzi və hərəkəti qırğın və başqa bədxahlıqları təbii özülə gətirir. İctimai-bəşəri mədə korlanıbsa və o ancaq zir-zibili asanlıqla həzm edirsə, həm də bu qədər dərdin önündə duyğusuzluqla arsızlığa boy verirsə, insana, insan taleyinə, bəşəri dərdlərə laqeyd, duyğusuzdursa, idraki, insani bir fikir onda istehza doğurursa, onun yaman günə qalmasının qayğısını çəkməyinə dəyərmi?! İnsan şəri asanlıqla həzm edir, yaman günə qalanda da inildəyir, müqəssir axtarır və heç bir zaman da müqəssirçiliyin bir ucunu özündə görmür...

Bu sonsuz qırğında biz bir həlakətə ötəri nəzər yetirdik. Zevsin təhriki ilə Afina bir, Apollon isə başqa tərəfi qızışdırır, qırğın baş alıb gedir. Həm də bir-birindən acınacaqlı.

Dastan da deyir ki:

*“Beləliklə, yanğın kimi alovlandı yenə savaş,*
*Deyərdin ki, bu savaşda tələf olub gün də, ay da”.*

*(“İliada”, səh.382).*

Əgər savaş yanğın kimi alovlanırsa, o da ayı, günü belə öz alovlarına qərq edirsə, döyüşün, qırğının mənzərəsi aydındır.

Döyüşün, qırğının məcrasını aşması naminə Zevs bəzən əlaltılarının fəaliyyəti ilə yetərlənməyib özü də “işə” əl qatır:

*“Həmin anda Kronion hər tərəfi saçaq-saçaq*
*Parıldayan qalxanını dik İdanın zirvəsindən.*
*Dəhşət ilə silkəyərək Troyaya şanlı zəfər,*
*Axeyalı qoşunlara məğlubiyyət hökmü verdi...”*

*(“İliada”, səh. 389).*

Bir qırğında ki, allahın adı ola, onun şiddətini əlavə ifadələrlə təsvir etməyə ehtiyac varmı? Burada deyilir ki, Zevs döyüşdə üstünlüyü yunanlara yox, troyalılara verirdi. Halbuki allahın məqsədi bu deyildi. O idi ki, sonda yunanlar qalib gəlsin. Lakin Axillesin əzəmətinin təsdiqi yolu ilə.

Yenə də bir insanın – bəşəriyyətə qarşı dayanması meydana gəlir.

Bu iş üçün Patroklun ölümü lazım idi. Əlavə cəsəd üstə qızğın vuruş gedir. Zevs də yunanları bucağa qısır ki, yunanlar müəyyən yollarla Axillesin qabağına əlləri ətəklərindən uzun getsinlər.

Qırğın, savaş baş alıb gedir. Amma Axillesin hələlik əsil vəziyyətdən xəbəri yoxdur.

*“Zevs o gün mərd Patroklun cəsədinin ətrafında*
*Mərdlərə də, atlara da yaman əzab çəkdirirdi.*
*Axillessə bixəbərdi mərd Patroklun ölümündən*
*Gəmilərdən çox uzaqda, Troyanın qarşısında*
*Gedirdi hərb... Axil güman edirdi ki, onun dostu*
*Darvazaya çatan kimi, dönüb geri qayıdacaq.*
*Pelid yaxşı bilirdi ki, igid Patrokl İlionu*
*Əsla onsuz fəth etməyib dağıtmağa cəhd eləməz.*
*Ulu Zevsin niyyətindən ona daim xəbər verən*
*Anasından bu barədə dəfələrlə eşitmişdi.*
*Ancaq həmin fəlakətdən – əziz dostu mərd Patroklun*
*Öləcəyi barəsində ona bir söz deməmişdi.*

*Meydandasa, o cəsədin üstündə qəhrəmanlar*
*Nizələrlə fasiləsiz qırırdılar bir-birini”.*

*(“İliada”, səh. 383).*

Axilles üçün dostluq başqa bəşəri keyfiyyətlər kimi həyatın təbii halıdır. Üstəlik burada o, əqidə səviyyəsinə də yüksəlmişdi.

Amma dostluq qarşılıqlı münasibətlərin cəmidir. Başqaları üçün də, Patroklda da dostluq keyfiyyəti var. Elə bu mündəricədə – dostluq mündəricəsində.

Patrokl dostu Axillesin dəyərini özü üçün bilməmiş deyildi.

Amma nəfs-mənafe və müştəbehlik imkan yaranan kimi bəşəri keyfiyyətləri üstələyir. Axilles kimi, Patrokl da qohumuna dostluq münasibəti bəsləyir. Lakin bu adamlar üçün, eynilə Patrokla da dostluğun kəsarəti özünə aid bir üstünlüyün peyda olmasına qədərdir.

Bu isə təkcə təmizliyi deyil, aşırı ucalığı, ülviyyəti ucundan Axillesin ağlına da gəlmir. Ona görə də Axilles güman etməzdi ki, Patroklun ilk uğurdan başı haylanıb Axilleslik xəyalı ilə döyüşü davam etdirəcək. Məhz bu səbəbdən də Axilles Patrokl üçün ölüm ehtimalını hesablaya bilməzdi.

Xəbərsizliyin kökü bura bağlıdır.

Amma Zevsin hələlik havadarlıq elədiyi troyalılar yunanları o kökə salmışlar ki, Ayaks kimi qəhrəman da imdad üçün Axillesi yad eləyir.

O deyir:

*“Nə olaydı, bir mərd yoldaş bütün burda olanları*
*Axilesə çatdıraydı”*

*(“İliada”, səh. 390).*

Sonra Ayaks Menelaya məsləhət verir:

*“Ey Zevsin yetirməsi Menelay, bir ətrafa bax!*
*İşdir, bəlkə görə bildin Antiloxu, – sağsa əgər...*
*Qoy çaparaq gedib igid Axillesə söyləsin ki,*
*əziz dostu mərd Patroklu öldürüblər bu meydanda”.*

*(“İliada”, səh. 390).*

*Menelayın da Antiloxa tapşırığı bu yöndədir:*
*“Ey Zevsin yetirməsi, mərd Antilox, bir bəri gəl!*
*Əsla arzu edilməyən bəd xəbərlər deyim sənə:*
*Ətrafına göz gəzdirib yəqin özün bilibsən ki,*
*Allah bizim danayları düçar edib fəlakətə.*
*Troyanlar qalib gəlir. Axeyalı mərd Patroklu*
*Öldürüblər, böyük bəla üz veribdir danaylara...*
*Dostum, tez get ordugahda o qəhrəman Axillesi*
*Xəbərdar et... bəlkə gəlib mərd Patroklun cəsədini*
*Xilas edə... zirehini çoxdan soyub onun Hektor...”*

*Bu sözləri eşidəndə, donub qaldı mərd Antilox,*
*Səsi batdı, gözü doldu, qəhər boğdu boğazını,*
*Xeyli müddət bircə kəlmə danışmadı... ancaq yenə*
*Menelayın buyruğunu tez yetirdi o yerinə...”*
*(“İliada”, səh.391-392).*

Qırğın baş alıb gedir. Belə halda insan gərək ölüm hadisəsinə alışsın. Amma burada Patroklun ölümü, görün, nə böyük bir müsibətə səbəb olub?! Bu antik aləmdə insanın dəyəridir. Bu qədər müsibət, haqsızlıqlar, qəbahətlər, qırğın antik aləmin insanlarını ülviyyətdən məhrum edə, onu dəyərdən sala bilmir. Patroklun ölümü bütün yunan əhlini ayağa qaldırıb. Bu həlakəti Antilox eşidəndə dastan deyir ki, “donub qaldı”, “səsi batdı”.

İnsanın dəyəri Patroklun ölüm xəbəri Axillesə çatarkən fövqə qalxır. Müsibətdən doğan şivən səmaları titrədir. Xüsusən, Axillesin özünü və ona yaxın olan hər bir kəsi...

Biz ilk müşahidəni Briseidadan başlamaq istəyirik.

Biz gördük ki, Axillesə həm prinsipə, həm də qızın qəlbindəki yerinə görə Axilles necə qiyamət qopardı. Amma Briseidanın Axillesə münasibətini biz heç yerdə müşahidə edə bilməmişik. İndi Patrokl müsibətində Stresində seçildi.

Bu, hər şeydən əvvəl, Briseidanın yaxşı qadın olduğunu sübut edir. Ər qövmünə bu qədər bağlı olmaq böyük məhəbbətin əlamətidir. Başqa tərəfdən, Briseida fəryadı Axilles müsibətinə qoşulmaqdır, ona məhəbbətin ifadəsidir.

*“Qızılsaçlı Afrodita kimi gözəl Briseida,*
*Həlak olmuş mərd Patroklun cəsədini görən kimi,*
*Qonub onun üzərinə acı-acı fəryad ilə*
*Sinəsini, gərdənini, yanağını cırmaqladı.*
*İlahəyə bənzər gözəl hönkürərək belə dedi:*
*Mən bədbəxt bu düşərgədə ən çox səni sevmişdim!*
*Səni burda sağ-salamat qoyub getdim, indi isə,*
*Ey ellərə hökmürəvan Patrokl, gəlib ölü gördüm,*
*Hara getsəm, dərd-bəla da mən ərimi şəhrimizin*
*Qarşısında vurularaq ölmüş gördüm öz gözümlə.*
*Doğma əziz üç qardaşım dayaq idi ürəyimə,*
*Onlar üçü bircə gündə həlak oldu vuruşmada.*
*Yeyinayaq mərd Axilles gənc ərimi həlak edib*
*Şəhrimizi dağıdanda, son təsəlli verdin mənə.*
*Vəd etdin ki, allahsifət Pelid mənə evlənəcək,*
*Qaraçapaq gəmilərdə aparacaq Fetidaya,*
*Mirmidonlar arasında qaydayla toy eləyəcək*
*Sən də öldün, ey əzizim!... Öz günümə ağlayıram!...*
*Belə deyib hönkürdü o...”*

*(“İliada”, səh. 423-424).*

Dastanda Patroklun həlakəti (bu nə səbəbdən başa gəlsə və ölənin özü “müqəssirsə” də) Axillesin müsibəti kimi mənа edilir.

Biz gördük, Axilles Briseida qəziyyəsindən nə qədər fınxırdı və söylədi ki, mən o qızı sevirdim. Amma Briseidanın Axillesə münasibətini bu vaxta qədər müşahidə etmək imkanı yox idi. İndi budur,

Briseida Axillesə yaxın adamın müsibətindən hönkürür. Briseidanı isə Patrokla Axilles bağlayırdı.

Deməli, Briseidanın hönkürməsi bağlı müstəqim məna daşımaqla yanaşı, Axillesin dərdlərinə şərik çıxdığını da büruzə verir. Bu isə qızın Axillesə məhəbbətini ifadə edir.

Lakin qızın hönkürməsi, şivən salması başqa daha böyük bir şeyin də əlamətidir. Bu Axilles müsibətinin böyüklüyünün təsdiqidir. Çünki Axillesə yaxın adamların ona məxsus müsibətə qoşulmaları dərdin yaratdığı ümumi iqlimin dairəsini göstərir.

Briseida Patroklun həlakətini özünün şəxsi müsibəti kimi məna edir. O deyir ki, mənə əziz adamlar qırılarkən, yurdum viran qalıb kökümdən ayrılıb bu yad yerə sürüklənərkən ilk dəfə mənə Patrokl qahmar çıxdı, təskinlik verdi. Patrokl dedi ki, sənin taleyin, ləyaqətin əllərdə hərrac olmayacaq. Layiq bir kişi ərin olacaq, Axillesin arvadı kimi bir səadətə sahiblənəcəksən.

Briseidanın bu hökmündə Patroklun bir yaxşı cəhəti də üzə çıxır. Deməli, o, qadın ləyaqətinin, bəşəri keyfiyyətlərin qoruyucusudur və təklənmiş, məzlum vəziyyətə düşən adamların müdafiəçisidir. Onun özgə payına əl uzatması, Axilleslik xəyalına düşməsi isə yalnız onu göstərir ki, Patrokl yaxşı insansa da, ilahi deyildi.

Ayrıca fakta diqqət yetirdikdə həqiqətən vəziyyət belədir. Ümumi halda isə biz ilahi olmayan şeyləri təqdir etmirik...

Briseida deyir ki, hara getsəm fəlakət də mənimlə sürünür. Döyüşdə yurdum dağıldı, Axilles üç qardaşımı və atamın öz əli ilə mənə verdiyi halal ərimi öldürdü. İndi də bu yad diyarda yeganə təsəllim Patroklun nəşini qarşımda görürəm.

Briseida yurdunda, ata, ər evində itirdiyini, üç qardaşın, ərin verdiyi səadət əldən çıxanda Yunan qəhrəmanının qəlbində tapacağı yerdə hər şey bərqərar olurdu. Burada yara sağalmasa da, bir şey başqa şeylə əvəz edilirdi. Artıqlaması ilə!..

Amma bu cəhətdə bəşər taleyinin dolaşıqlığı, ülvi keyfiyyətlərin önündə dolaşan kölgəli cəhətlər də sürünür.

Biz heç bir zaman Axillesə irad tutmamışıq. İndi isə Axilles Briseidaya yaxın adamları qana boyayıb içindən isə yerə-göyə hakim kəsilən bir məhəbbət çıxardır, nəfsi də bu səadəti çəkir.

Böyüklüyü qoruyan, bu böyüklüyün özündən daha qüvvətli ilahi keyfiyyətlər var. İndicə diqqət yetirdiyimiz cəhətdə Axillesi şərdən qoruyan həmin cəhəti görmədik.

Tarixin naqisliyi çapqını istehsalın ünsürü kimi həyata pərçimləmiş. Biz yerindəcə bu cəhəti ətraflı izaha çalışmışıq. Burada da sındırılan bütün qabların xərcini Axillesdən tələb etməzdik. Lakin ilahi keyfiyyət qanlar dəryasında Axillesi qorumalı və müsibətlər dəryasında onun nəfsi sevgi səadətini çəkməli idi.

Zira, vəziyyətə görə biz bu cəhəti gözardı edirik.

Patroklun ölümü ilə bağlı Axillesin müsibəti böyükdür. Bu müsibətin təsirindən torpaq, dağlar, daşlar belə, inildəyir.

Biz Briseidanın qopardığı şivəni müşahidə etdik.

Axillesə yaxınlardan anası ilahə dənizlər hakimi Zevsin qardaşı Poseydonun qızı Fetidanın dərdi daha böyükdür. O, öz fəryadında həm Axillesin müsibətinə qoşulur və həm də vəziyyət oğlunun ölümünü yaxınlaşdırdığına görə özünün də müsibəti buna əlavə olunur.

Axilles Patroklun həlakətini eşitdikdə fəryad qoparır. Bu fəryad yeri-göyü titrətməli ki, Fetida oğlunun çılğın səsini dənizlərin altından eşidəydi.

Axillesin fəryad qopardığı vaxt dastan deyir:

*“Dənizdə öz atasının*
*Yanında o pak anası Fetida da duydu bunu.*
*O da bərkdən fəryad etdi. Gur dənizin dibindəki*
*Nereida ilahələr yığışdılar dövrəsinə...*
*Bunlar ilə doldu suyun dibindəki qəşəng gaha*
*Hamı birgə sinə vurur, Fetidasa oxşayırdı:*
*“Ey ilahə bacılarım, bir dinləyin dərdlərimi,*
*Görün nələr çəkirəm mən, nə böyükdür müsibətim;*
*Eyvah, mən ki, bədbəxt igid bir oğulun anasıyam,*
*Bir oğlum var, tərtəmiz, pak, qəhrəmanlar qəhrəmanı*
*Qol-budaqlı bir ağactək yetmişdir o boya-başa.*
*Bağda bitmiş bir ağactək bəsləmişəm-böyütmüşəm.*
*Dik çanaqlı gəmilərdə göndərmişəm Troyaya,*
*Vuruşmağa... bir də geri dönməyəcək o savaşdan*
*Bir də onu mərd Peleyin sarayında görmərəm mən!*
*Yer üzündə yaşayaraq günəş nuru gördüyündən*
*Gərək əzab çəkə...”*

*(“İliada”, səh. 396-397).*

Ana dərdlərinin qaynayıb-qarışması Axilles müsibətini şiddətləndirir.

Çox ağırdır: ana olasan, Axilles kimi oğul böyüdəsən, qarşısıalınmaz surətdə də əli boş qalasan. İlahə adlanan, kökü Zevsə, Zevsin əcdadına bağlanan, allah qızı kimi dünyaya gələn ana oğlunun fəlakətini əvvəlcədən bilir və heç bir şey də əlindən gəlmir. Bu, əslində müharibənin özünün antibəşəri məzmunu ilə bağlıdır.

Fetida öz müsibətini başqa bir yerdə, başqa bir münasibətlə belə izah edir:

*"...Olimpdəki allahlardan mənim qədər*
*Ağır əzab, dərd-qəm çəkən heç bir nəfər tapılarmı?*
*Bütün dərdi-qəmi ancaq mənə verib Şimşəksaçan!*
*Dənizdəki ilahələr arasında təkcə məni*
*Bir insana – Eak oğlu mərd Peleyə tabe edib,*
*Öz ərimlə bir yatağa istəmədən girərəm mən,*
*İndi oğlu ehtirasdan bitab olub yatır evdə...*
*Ancaq dərdim başqa dərddir: Zevs atamız mənə oğul*
*Lütf eləyib, – qəhrəmanlar arasında ən qəhrəman...*
*Onu bağda bir ağactək boya-başa çatdırmışam,*
*Dik çapaqlı gəmilərdə göndərmişəm Troyaya.*
*O meydandan bir də geri dönməyəcək igid oğlum,*
*Onu ata ocağımda görmək mənə qismət deyil.*
*Yer üzündə yaşayıb o, al günəşi gördüyündən,*
*Gərək daim əzab çəkə...*

*(Orada, səh. 408).*

Bu kiçik parçada müxtəlif səmtli çoxlu mənalar tapmaq mümkündür. İnsanı yatağa sürükləyən amil burada "aciz ehtiras" adlandırılır! Burada bir dastan məna var. Günəş sevinc – həyat mənbəyidir. Burada isə günəşi görməklə insanın əzaba məhkumluğu qoşa səslənir.

Bunlar hamısı doğrudur. Lakin bizim diqqətimizi cəzb edən şey Axilles taleyi ilə bağlı tüğyan edən dərd-ələmdir!..

Patroklun ölümü ilə bağlı müsibətin Axilles atlarında müşahidə edilən kədəri daha böyükdür:

*"...İgidqıran parlaq sərpuş mərd Hektorun qoç Patroklu*
*Vurub yerə sərdiyini görən zaman, Axillesin*
*Atları da o meydanda bir kənarda bağladılar.*
*Mərd sürücü Dioreid, Avtomedont gah qamçıyla,*

*Gah xoş sözlə, gah çığırdı hər nə qədər çalışdısa,*
*Yerlərindən tərpənməyib, nə Hellespont sahilinə –*
*Düşərgəyə, nə axeylər arasına getmədilər.*
*Ölmüş kişi, ya qadının məzarında ucaldılan*
*Sütunlartək hərəkətsiz durub orda dayandılar.*
*Başlarını aşağıya sallayaraq, yaraşıqlı*
*Gərdunənin yanındaca durmuşdular... Mərd Patroklun*
*Qüssəsindən odlu yaşlar tökülürdü gözlərindən*
*Toz basmışdı ipək kimi uzun yumşaq yollarını,*
*Boyunduruq döşəkçəsi altından o tozlu tellər,*
*Uzanaraq tökülmüşdü qara torpaq üzərinə.*
*Atları da belə ağlar görən ulu Kronion*
*Rəhmə gəlib öz ruhuyla özü belə söhbət etdi:*
*"Ah yazıqlar! Axı siztək nə qocalmaz, nə də ölməz*
*Atları biz ömrü qısa insanlara niyə verdik!*
*Bədbəxt fani insanların əlində dərd çəkməyəmi?*
*Kainatda doğrudan da ən bədbəxti insanlardı!"*

*(Orada, səh. 384).*

Briseidadan, Fetidadan sonra atların müsibətdən bu qədər sarsılmaları dərdi şiddətləndirməlidir. Bu, doğrudan da belədir.

Lakin bəzi heyvanların, məsələn, atların, itlərin, dərin heysiyyatları, öz sahiblərinə qarşı həssas, həmdəm olmaları bəşəriyyətə, hər bir təcrübəli kəsə məlumdur. Onlar hətta, uzaq məsafədən belə sahiblərini, onların əhvali-ruhiyyələrini, başlarında fırlanan qəziyyələri hiss edir və müəyyən əlamətlərlə büruzə də verirlər. Heç bir xəbər olmadığı halda, haradasa sahibinə bir bədbəxtlik üz vermişsə, itlər zingildəyir, dırnaqları ilə yeri cırmaqlayır, ulayır; atlar isə fınxırır, kişnəyir, ayaqlarını yerə döyür, ya da qulaqlarını, quyruğunu sallayır, məzlum-məzlum gözlərdən gilə-gilə yaşlar tökür. Elm buna telepatiya adı verir. Amma işin ülvi mündəricəsi daha dərindir.

Dastanın məharəti tipik şəraitdə vəziyyəti bu qədər təsirli şəkildə təqdim etməsidir. Bizim üçün əhəmiyyətli cəhət isə odur ki, Axillesin ətrafındakı halət bu qədər sarsıdıcıdır. O qədər ki, o, dağları, daşları belə inləməyə, göz yaşları axıtmağa məcbur etmiş. Hətta allah özü müsibətdən olmasa da, məxluqların – atların kədərindən həyəcan keçirir. Halbuki sahibkar özüdür.

Dünyanın nizamını allah özü düzüb. Amma o hadisələrin məntiqsizliyi qarşısında çaşqınlıq göstərir. Söyləyir ki, ülviyyəti bu boyda,

mükəmməl şəkildə təmsil edən heyvanları, insan kimi ömrü gödək, fani kəslərin ixtiyarına nə üçün verdik!

Ümumiyyətlə, yunan incəsənətində, mifologiyasında bütün əzəmətinin, ülvi cəhətlərinin təsdiqi ilə yanaşı, bəşəri naqisliklər, insani xırdalıqlar, adamların fəlakətliliyi dönə-dönə xatırladılır.

Zevs dünyanın sonsuzluğuna, əqlin gücünə qarşı insanın ömrünün qısalığını, faniliyini qeyd edir, başqa bir münasibətlə Hera da deyir:

*"Əqli gödək fani insan hər bir zaman açıq-aşkar*
*Pislik edib bir-birinə, zülm eləyər, şər də atar".*

*(Orada, səh. 406).*

İnsan yaradıcılığın, quruculuğun, nəvazişin naşiridir. Lakin burada onun ömrü qısalığına, faniliyinə şər mahiyyəti də əlavə olunur.

Əzəmətli, vüqarlı, daim xidmətə və məhəbbətə can atan Axillesin insanlar arasındakı mühiti, həyatda onun üçün ayrılan bəşəri iqlimin mündrəicəsi bundan ibarətdir. Ona görə də bu və ya başqa şəkildə Axillesi daim fəlakətlər, çaşbaşlıqlar, faciələr izləməlidir.

Briseidanın, Fetidanın, atların keçirdikləri sarsıntılar Patroklun ölümü ilə bağlı Axilles çılğınlığını fəhm etmək üçün bir giriş idi. Bunu tərəqqinin nüfuz göstərdiyi yerlərdə müqəddimə, proloq, uvertüra da adlandırırlar.

İndi biz Axillesin özünün üzərinə qayıda bilərik.

Patroklun ölüm xəbəri Axillesə o zaman deyilir ki, müharibənin törətdiyi dəhşətlər ifrata varmışdı. Təkcə ona görə yox ki, bu döyüşlərdə Axillesə yaxın bir insan, Patrokl həlakətə yetirilmişdi. İş onda idi ki, Zevs Axillesin bütün qəzəbini üzə çıxarmaq, yatar qüvvələrini hərəkətə gətirmək üçün döyüşlərdə müvazinət yaradır, müharibə ürəkaçan tərzdə uzanır, qırğın tükənib bitmirdi. Həm də yunanlar üçün döyüşlər mürəkkəb vəziyyətdə, onların dövrəsində, gəmilərin də həndəvərində gedir.

Nesteroğlu Antilox bəd xəbəri Axillesə çatdırmaq ərəfəsində yunanların taleyi, Patroklun aqibəti ilə bağlı Axilles bir həyəcan keçirirdi. Bu fəlakətin təsir qüvvəsini artırmalıdır. Doğrudan da bəd xəbəri eşidən təkin Axilles elə çılğınlıq göstərir ki, onun müsibətli təsiri dağları belə yerindən oynada bilər:

*"Axillesə qasid gedən mərd Antilox çatıb gördü,*
*Oturub o axeylərin gəmiləri qarşısında,*

*Fəlakəti duymuş kimi, acı-acı ah çəkərək,*
*Öz yenilməz qəlbi ilə söhbət edir, belə deyir:*
*"Nə var orda? Saçı uzun axeylilər yenə neçün,*
*Belə pozğun qaçışırlar üzü bəri, düşərgəyə?*
*O allahlar yoxsa mənə bir bəd xəbər gətirirlər.*
*Təsdiq üçün anam mənə bu sözləri söyləmişdi:*
*"Mən sağ ikən mirmidonlu igidlərdən ən yaxşısı*
*Gün nurundan ayrılacaq Troyada savaşlarda...*
*Ah, yoxsa o mərd qəhrəman Mentoğlu həlak olub?*
*Yazıq, bədbəxt!.. demişdim ki, yanğını dəf edən kimi*
*Tez qayıtsın, girişməsin Hektor ilə vuruşmaya!*

*Belə qəmgin fikirlərə qərq olduğu halda, gəlib*
*Adlı-sanlı Nestoroğlu göz yaşları tökə-tökə,*
*Yaxınlaşıb xəbər verdi ona müdhiş fəlakəti:*
*Eyvah, ey mərd Peleyoğlu! İndi sənə arzulanmaz,*
*Fəlakətdən faciəli bəd bir xəbər verəcəyəm!*
*Həlak oldu Patrokl, indi savaş gedir dövrəsində,*
*Özü çılpaq!.. Soyub onu parlaq sərpuş zalım Hektor!"*
*Kədər qara bulud kimi çulğaladı Axillesi...*
*İkiəlli qapıb bulud kimi çulğaladı Axillesi...*
*İkiəlli qapıb yerdən hisli-tozlu qara külü*
*Öz başına səpib, yaman günə qoydu sifətini.*
*Xoş ətirli xitonunu buladı o qara külə.*
*Saçlarını yola-yola acı-acı inləyərək.*
*Uca, nəhəng qamətilə kül içinə sərələndi.*
*Yeyinayaq Pelid ilə mərd Patroklun döyüşlərdə*
*Aldıqları əsir qızlar axışaraq düşərgədən,*
*Axillesin dövrəsinə yığışaraq ağlaşdılar,*
*O tərəfdən Antilox da acı-acı hönkürürdü.*
*Fəryad edən Axillesin bərk tutmuşdu əllərini.*
*Qorxurdu ki, dərd əlində kəsməsin öz boğazını.*
*Axilles bərk hönkürürdü..."*

*(Orada, səh. 395-396).*

Briseidanın, Fetidanın, atların kədərləri baş verən müsibətdən çox, Axillesə müsibətlə bağlıdır. Bütün mühit hiss edir ki, Patroklun ölümü Axillesi sarsıdacaq. Özlüyündə Patroklun həlakəti müsibətdir. Lakin hər bir şey, hadisə Axillesdə elə sarsıdıcı vəziyyət törədir ki,

mühit bunu hiss etməyə və həyəcan keçirməyə bilməz. Bəd xəbəri eşitdikdə isə, göründüyü kimi, Axillesdə çılğınlıq yaranır, onun fəryadı, hönkürtüləri əsil müsibətə çevrilir.

Patroklun ölümü ilə bağlı insanın düşdüyü müsibətli vəziyyətdə bizim izlədiyimiz cəhətdən başqa insanın dəyəri də öz ifadəsini tapır. Vay o halda ki, insan dəyərdən düşə, adamların heysiyyatı kütləşə, toy ilə yası seçmək işi az qala müşkül bir məsələyə çevrilə!..

Burada deyilir ki, Patroklun ölüm xəbərini eşitdikdə, Axilles çılğınlığını gördükdə onların döyüşlərdə öz əlləri ilə aldıqları qızlar müsibətin mərkəzinə toplaşırlar. Qızlar şivən qoparır, dırnaqları ilə üzlərini, sinələrini cırırlar.

Bu cəhət Axilles müsibətini şiddətləndirir. Lakin əsir qızların müsibətə bu qədər ürəkdən qoşulmaları qadının zəlillikdən doğan naqisliyini də üzə çıxarır.

Patrokl və Axilles bu qızları əsir alarkən onların qövmünü, ən yaxın, doğma adamlarını qana qəltan etmişdilər. Bunun kədəri və doğurduğu intiqam hissi sinələrdə yurd salmalı idi.

Hər kəs əsir düşə, zora müəyyən dərəcədə təslim ola bilər. Amma bu vəziyyətdə yad yerdə sahibini tapmaq, yerliləşmək, müsibətini unudub dərhal doğmalaşmaq – insanın zəifliyi, naqisliyi hesab edilməlidir.

Antiqona belə etməzdi.

Biz vətənin, ananın, qadının, sevginin və s. müqəddəsliyindən dönə-dönə yazmışıq. Hər kəs kimi. Lakin bəzən bu müqəddəs dünyalar özlərini pis aparırlar. Bir çox hallarda müqəddəs ana – vətən özünü hərrac malı kimi aparır – zora təslim olması və yalan toruna düşməsi üzündən. Bu zaman heç bir şeylə onun özünə inamını qaytarmaq, xirtdəyinə tökülən ardıcıl yalanlardan xilas etmək olmur. Vətən əsil oğullardan sanki üz çevirir, ancaq qatillərin, rəzillərin, oğraşların, fahişələrin, – onu hərrac malına çevirənlərin qucağına atılır.

Fahişənin özü belə, ana vəzifələrinin başında dayandıqda müqəddəsləşir – öz fədakarlığı və ixtiyarı əlindən alınmış məhəbbəti ilə.

Biz indi fahişə vəziyyətini unudaq. Qadın ana vəzifəsinin başında möhkəm dayanır. Amma bir çox hallarda o "ana hamının anasıdır, öz balasına göstərdiyi qayğı vasitəsi ilə bütün övladlara münasibətini ifadə edir" anlayışını unudur. Ana öz balasından ayrıla bilmir, başqa

balaların ülviyyətini hiss etmir, yadlıq, yadlıqdan irəli gələn naqisliklər müşahidə olunur.

O məhəbbət təqdir edilir ki, hüdudları aşıb hər şey olsun, Məcnun anlamı kəsb etsin. Bu zaman məhəbbətin göstərdiyi təzyiq idrakilik yaradır, ülviyyət təcəssüm edir. Lakin xudpəsənd və zəif adamlarda məhəbbətin təzyiqi zərbəyə çevrilir, altındakını əzib zəhləkar bir iniltiyə dönür.

Qadın məhəbbət oyadır və çox vaxt ixtiyarı əlindən alınmış bir eşqlə sevir. O, ana vəzifələrinin başında dayanır və bətnində məhsul bəstələyir. Qadın bütöv bir keyfiyyətlə körpənin həyatına bağlıdır.

Bu, onun müqəddəs cəhətləridir.

Qadın bətnində bəslədiyinə və körpə həyatına bağlı olduğuna görə, müqəddəsliyindən başqa həm də müstəsna vəziyyətdədir! Ona görə də xüsusi qayğıya möhtacdır. Bir çox halda mühit bu cür qayğının zəruriliyini unudur. Xüsusən bu vəziyyətdə qadını naqisliklərin heç birində ittiham etmək olmur.

Lakin işin başqa üzü də var. Hətta məhəbbət yetirilən, qayğı göstərilən qadın belə, bəzən bunları qiymətləndirmir, özündə qadınlara məxsus ləyaqəti təmsil etdiyini unudub mənafe təhrikinin aşırı toruna düşür, ona tuşlanan doğma münasibətləri soyuq qarşılayır, nəfsbazlıq edir, şıltağı baş alıb gedir.

Hər bir cəmiyyətin öz imkanı, öz şərtləri var. Biz bunu inkar etmirik. Fərd çox vaxt bu hərəkətlərində sərbəst olmur. Bu nəinki qadınlar, hətta kişilər üçün də belədir. Amma heç olmazsa, doğma adamlar arasında, məhəbbət yetirildiyi, qayğı göstərildiyi bir təsadüfdə qadın mənafe naminə yadlıq iqlimi yaratmamalı, soyuqluğa meydan verməməlidir. Axı ən böyük mənafe insandır, doğmalıq və ülviyyətdir.

Əsir qadınların şivən qoparması Axilles müsibətinin nə qədər şiddətli olduğunu göstərsə də, biz onu təqdir etmirik.

Qadın doğma adamların müsibətini unutmur. Lakin o daima yiyəsini axtardığına görə, hətta əsir vəziyyətlə də hesablaşır.

Bu naqislikdir!

Əsirliyin şərtləri ilə hesablaşmağın bir yolu var, - o da müstəsna şərait yarandıqda ölümü qəbul etməkdir.

Medeyanın doğma balaları qətlə yetirməsi hamının gözünü qorxutmuşdu, biz isə bunu müstəsna şəraitdə ölümü götürüb antihəyatdan imtina kimi mənalandırdıq, müdafiə də etdik.

Medeya mürəkkəbliyini yerində izaha çalışmışıq. Burada onu əlavə edib deyə bilərik ki, vətən kimi müqəddəs varlıq olan ana ona görə öz keyfiyyətini itirib hərrac malına çevrilə bilir ki, o, həyatının nəticəsindən qorxub müstəsna vəziyyətdə ölümü qəbul etmir, güzəştə gedir, təslim olur. Bununla da şər meydan sulayır.

Şərin gücü reallığında, xeyirinki idrakiliyində, insani-bəşəriliyində, ülviliyindədir...

Patrokl müsibətində haqsız cəhətlər də müşahidə etmək mümkündür. Deyirlər ki, "zalım Hektor Patroklu yaman günə qoymuş", halbuki burada söhbət müharibədən, döyüş vəziyyətindən gedir, nəinki mərhəmət və zalımlıqdan. Döyüşə təsir edən cəhət isə mərhəmət, zalımlıq yox, güc, qüvvələr nisbəti və ağlın başa gətirdiyi fərasətdir.

Müharibə aman vermir. Heç "ədalətli", "ədalətsiz" müahribələr söhbətində də müharibə üçün aman gözləmək mümkün deyil. Ona görə də müharibədə tərəflər bir-birini təcavüzdə ittiham etsələr, bunu başa düşmək asandır. Lakin itirən tərəfin udan tərəfi "zalım" adlandırmasında bir zəlillik də var. Zəlillik isə bütün şərtlərdə Axilles tərəfə yaraşmır.

Deyə bilərlər ki, dastanın çoxlu köçürmələri, tərcümələri var. Bəlkə də əslində məsələ başqa cür qoyulur. Lakin mümkün variantlara nəzər yetirdikdə eyni şeyə işarə, bir giley-güzarlıq gördük. İndi əldə olmayan ilk variantın necəliyi haqqında isə dəqiq söz demək çətindir.

Hər halda döyüş vəziyyətində tərəflərin bir-birini yırtıcı, təcavüzkar və s. adlandırması ümumi haldır. Ona görə də heç bir zaman real qüvvədə olmasa da, müharibə, döyüş şərtləri ilə bağlı beynəlxalq qanunlar tərtib edilmiş.

Müharibə on ilə başlamışdı ki, troyalılar yunanlara təcavüz etmişdi. Bunu müstəqim mənada şərəfə toxunmaq, bir ailənin qaydasınca həyatını pozmaq, simvolik cəhətdən isə xalqın oğurlanmış, əlindən alınmış səadəti kimi də mənalandırmaq olar. Amma döyüşün gedişində zərər görmüş tərəf özü öz içərisində bu cür dəyyusluğa yol verdi. İctimai qüvvəni əlində toplayan hökmdar, – sərkərdə qəhrəmanın şərəf və səadəti üzərində əl gəzdirdi.

Qəhrəman – Axilles döyüşün ağırlığını çiyinlərindən tulladı. Hadisələrin gedişi göstərdi ki, tarixdə istisna var: təkcə bir fərdi qüdrət bütöv bir ictimai qüvvəyə bərabər ola bilər.

Bu həqiqəti üzə çıxarmaq üçün allah – Zevs uzun müsibətlər silsiləsi tərtib etdi. İndi budur, Zevsin istəyi başa gəlmiş, yunanlar Axillesin qarşısında ictimai qüvvələri ilə birlikdə öz gücsüzlüklərini etiraf etmişlər. Axillesə də minnətçilər yox, bu lazım idi.

Axilles minnətə görə yox, öz daxili qüvvəsinin, daxili təkamülünün təsiri ilə döyüşə qatılmaq qərarına gəlir.

Axilles ilkin olaraq Hektorla döyüşməlidir. Dastandan da biz bilirik ki, bu döyüşdə o, Hektoru həlak edir. Buna da Axilles fəaliyyətinin zirvəsi kimi məna verilir. Lakin döyüş zamanı ikisindən birinin üstün gəlməsində qəhrəmanlıqdan daha çox çempionluq var. Bu çempionluq döyüşdə də ola bilər, yarışda da. Halbuki qəhrəmanlıq fərdi qüdrətin ictimai qüvvəyə qarşı dayandığı yerlərdə üzə çıxır. Ona görə də Axillesin qəhrəmanlığı Hektoru öldürməsindən daha çox, Aqamemnonun təcavüzünə, haqsızlığına qarşı öz müstəqilliyini saxlamağındadır.

Bir çox çempionlar var ki, ictimai qüvvə qarşısında boyun əyir, verilən tikələrə ağız suyu axıdır. Bu cür çempionların simasızlığı daha artıq ikrah doğurur. Fiziki cəhətdən zəif, iradəcə qüvvətli adamlar da var ki, onlar ictimai haqsızlıqlarla barışmır, bir çox halda ağlın gücü ilə haqsızlığa qarşı döyüşürlər. Belə adamların çempionluq imkanları yoxsa da, qəhrəmanlıq göstərirlər. Qəhrəmani mündəricədən məhrum çempionluq heç nədir. Hər cür qəhrəmanlıq ən böyük çempionluqdan müqayisəyə gəlməz dərəcədə üstündür.

Amma Axillesin Hektoru öldürməsində mənalar çoxdur. Tale tərəfindən Axillesə xəbərdarlıq edilmişdi. Ona deyilmişdi ki, sən Hektoru həlak etsən də, son qələbə sənin əlinlə başa gəlməyəcək və özünün də ölümünü yaxınlaşdırmış olacaqsan. Lakin heç bir şey, hətta taleyin təhdidi belə, Axillesi döyüşdən çəkindirə bilməzdi. Bütün şərtlər daxilində Axillesvari qəhrəmanlıq da məhz budur.

Üstəlik, yunanların troyalılara qarşı apardıqları bu müharibənin bir ağırlıq mərkəzi var idi ki, yunanlar üçün də bu, Hektor problemi idi. Axilles bu müşkülü aradan götürməklə, əslində müharibənin taleyini yunanların xeyrinə həll etmiş olurdu.

"Dumanlı Təbriz" romanında belə bir yer var. Səttarxan Təbrizdə birdən-birə mühasirəyə düşür. Özündən deyən qəhrəmanların hamısı sükuta dalır. Səttarxan gözünü əməldaşlarının üzünə, onlarsa qabaqlarına zilləyir. Dar gündə bir kömək, həmdəm görməyən Səttarxan silkinir, ayağa durur və deyir: mən altı adamla dövlət çevrilişi edən

Səttaram. Mən bərk günlərin Səttarıyam. Qələbələr gedişində hamı Səttar ola bilər!..

Axilles Hektoru həlaka çatdırmaqla müharibənin taleyini yunanların xeyrinə həll etmişdi. Odisseylər döyüş meydanlarında istədikləri cövlanları başa çatdırarlar.

İndi biz finala yaxınlaşa, Axillesin döyüşə qatılmasının gedişini izləyə bilərik. Əsas məqsəd Axillesi döyüşə qaytarmaq və müharibənin taleyini yunanların xeyrinə həll etmək idi. Hektorun da həlaka yetirilməsi qələbəyə yol açırdı. Axilles-Hektor qüvvələr nisbətindəki fərq o qədər böyükdür ki, bu iş bir anda baş verə bilərdi. Lakin bu hadisə asanlıqla dərhal əmələ gəlmir. Ara vəsilələr seylabı baş alıb gedir və görünməmiş bir qırğın “meydan sulayır”.

Çox vaxt, belə halda, deyərdilər ki, əsərin baş qəhrəmanı Axillesdir, mövzu da Yunan-Troya müharibəsidir.

Yunanlarla Troyalılar arasında əhd pozuldu. Yelena oğurlandı, müharibə başlandı. Döyüş uzanır. Namus, şərəf üzərinə düşən ləkəni yumaq, azadlığı qorumaq uğrunda döyüşlər uzanır, işə nəfsdən irəli gələn murdarlıqlar müdaxilə edir. “Haqlı tərəf” döyüşün adi qanunlarını aşıb müqəddəs nöqtələrə əl uzatdıqlarına görə (xris-xrisiada) allahlar cəza verməyə başlayır. Axilles ikinci vəzifə qarşısında qalır: özünü daxildə baş verən murdarlıqdan qorumaq. Bu daxili bəla xaricini üstələyir.

Təkcə dəfələrlə dediyimiz kimi, Briseida məsələsi deyildi. Sonradan onu əlavə hədiyyələrlə Axillesə qaytarırdılar. Lakin Axillesin murdarı götürməyən təbiəti vəziyyəti olduqca çətinə saldı – bu, əsas mövzuya çevrildi.

İndi budur, həmin çətinlik arxada qalmış, müşkülün də öz həllini tapması üçün yollar açılmış.

Lakin məsələ həll olunmur. Bunu həll etmək üçün, bu vaxta qədər baş alıb gedən qırğınlar az imiş kimi, yenidən qırğın seli aləmi bürüyür.

Burada qırğın əvvəli və axırı öz ətrafında birləşdirib əsas mövzuya çevrilir. Qırğın, sanki, bəşər həyatının baş leytmotividir – real dünyada müşahidə edildiyi kimi... bu fikrin həqiqətini təsdiq üçün statistlərin tarixə ötəri nəzər yetirməsi bəsdir.

Qırğın isə şərin zahiri ifadəsidir, gündəlik həyatda onun çalarları rəngarəngdir.

Hələ insan lap başlanğıcdan güzəranına pərçimlənməli olmuş. Bu isə hər gün onun qarşısına cari çətinliklər çıxarmış. Qarmaqarışıq

məqsədlər, hərəkətlər, qida çatışmazlığı, bürünəcək, sığınacaq qəhətliyi, ehtiyacın məqsədi üstələməsi, beş nəfərin harınlığı, insanların ehtiyacı olan şeylərdən onların bir üstünlük kimi istifadə etmələri, onu dəbdəbəyə çevirmələri, eqoizm, xəbislik, bu tələblərdən irəli gələn şər dünyası, – yalan dünyası, harınlıq qəbahəti, insafsız, tükürpədən, qəddarcasına başa gələn işlərin törətdiyi cinayətlər, üstünlük hoqqabazlığı, yekəxanalıq, həsədin törətdiyi məkrlər, insani səmimiyyətin ələ salınması, əxlaqı üstələmək, isməti zorlamaq, ləyaqəti tapdalamaq, zəifin əlindəkini qoparmaq, yazıqlığı hiss etməmək, insafdan qıraq işlər, qəddarlıq – əzmək, təhqir etmək, qana, göz yaşına bais olmaq, mənəvi irinə laqeyd qalmaq və s. baş alıb gedir.

Şərin ifadəsinin ən böyüyü odur ki, insan naqisliyi üzündən çoxrəngli ictimai gücü yaratdı və onda axtarmağa başladı. O, idrakdan gələni deyil, güclünün dediyini dinləməyə çalışdı, idealını orada tapmağa təşəbbüs göstərdi.

Xalq zorlanıldı, aldadıldı və tora salındı. Əslində bunların hamısı bir şeydir – zorlanmaq. Dövlət zorlamaqla iş görür. Lakin ona müxalif əllaməlikləri də əlavə edir: siyasətbazlıq, incəsənətdən istifadə, təbliğat və s. belə də güman edir ki, dəfələrlə qeyd etdiyimiz kimi, ağıl əlaməti göstərir. Lakin zor sərf-nəzər edilərsə heç bir siyasətbazlıq və s. iş görə bilməz?!

Dövlətə qarşı şübhə və narazı qruplar başlayır. İctimai idraka ehtiyac hiss edir. Hətta ən məhdud "arzularda" fəaliyyət göstərib şəxsi həyatını təmin etməyə çalışanların "fəaliyyətində" ictimai nəticə tapmaq mümkündür. Amma ayrıca xidmət adamları da müşahidə edilir.

Eynilə ən geniş xidmət arzuları ilə fəaliyyət göstərən şəxslərin də nəticədə şəxsi payını görmək mümkündür. Lakin burada, işin sağlam təsadüfündə, xidmət mütləq vəziyyətdədir.

Xidmət müstəsna hadisədir. Burada həm idrakın və gücün qüdrəti, cazibəsi özünü göstərir, heyrət yaradır. Həm də narazı ünsürlər üçün bu bir təskinlikdir.

Zira, xalq burada da asanlıqla tora düşə bilir. İdraki işlər və müxtəlif fikir çalarları cazibəlidir. Xalq buna cəzb olunur. Ona görə də "Seçilən adamlar", "Seçkinlər" cəbhəsinə axın başlayır. Burada biz yenə də xalqın sağlam işdən daha çox cazibəli şeyin dalınca gedib daha asan tora düşdüyünü görürük.

Dərin idraki fikir çətin fəhm edilən olur. Bunu şahmat gedişinə bənzətmək mümkündür. Əsil şahmatçı çoxlu gedişlər içərisində

bircəsini axtarır və düşünür. Ətrafdakılar isə açıq gedişləri görür və şahmatçının ləngiməsindən hövsələdən çıxır.

Şahmatçı isə ətrafdakıların arzularına uysa uduzar. Amma bu ətrafdakılara cazibəli görünərdi...

Ona görə də "seçkinlər" həqiqi, lazımlı, idraki işlər görmək, sözlər söyləmək, fikirlər yaymaq yox, xalqı öz ardınca aparmaq üçün aldadıcı işlər görməyə və sözlər söyləməyə başlayırlar.

Beləliklə, həqiqi xidmət adamları ilə xalq və xidmət arasında pilləli sədlər yaranır.

İstibdada rəzillər zümrəsi gərəkdir. O xidmətin qabağını al – əlindəki ictimai zorun vasitəsi ilə. Lakin xadimi müdafiə etməli, dövlətin əksinə vəziyyət yaradaraq, xidmətə imkan verməli olan xalq, ilkin görünənlərdən, aldadıcı parıltılardan haylanıb xidmət adamını görmür, idraki fikri fəhm etmir. Bununla da hünər təcrid vəziyyətinə düşür...

Zorla xəlqi naqislik qarşılıqlı münasibət yaradır, – istibdad cövlan edir.

Bu böhran vəziyyətidir və bu həyatı tükəndirdiyinə görə istibdadın özünü də, onun yalançı pəhləvanlarını da iflasa aparır.

İflasın mənası, sağlam işin zəruriliyi və gücü bundadır.

Ən böyük şər isə xalqın dövlət mexanizminin sehrinə hipnoz olmasıdır.

Dövlət-xalq bağları çalarlıdır. Burada ən böyük mənzərə milli dövlət və istila mexanizminin dolanbaclarıdır.

Milli dövlət bir tərəfdən ictimai intizamın keşikçisi və yaradıcılıq silahıdır, başqa tərəfdən əzmək vasitəsidir. O, intizama və yaradıcılığa xidmət göstərəndə belə, həm beyinə, həm də zora əsaslanmalıdır. Lakin dövlət mexanizmi cılızın birinə ifrat səlahiyyət, hakimiyyət verir. Bu zaman o, bədgümanlığa, şıltağa, xudbin ehtiraslara ilişdikdə nifrəti aşıb ikrah doğuran qəbahətlər, tükləri ürpəşdirən qəddarlıqlar da edə bilər.

Bu, özlüyündə şərdir. Lakin şər darıxdırıcı şəkli orada alır ki, əfkari-ümumiyyə (bu çox vaxt bütün xalqı əhatə edir) üçün dövləti rəy bütün gedişlər üçün meyar, əsas sayılır.

O dövlət fikrinin kütbeyin və cinayətkar olduğunu bilir.

O, özünü insana, xalqa, bəşəriyyətə, haqqa xidmətə həsr edən adamın düşüncə tərzini, arzu, istək və fəaliyyətini seçir.

Lakin əfkari-ümumiyyə hər şeyə dövlət fikrinin təqdiri gözü ilə baxdığına görə insani səmtə deyil, dövləti fikrə daha artıq önəm verir.

Burada xeyirin bütün qapıları bağlanmış kimi görünür.

Haqqında danışdığımız şər istila şəraitində ifrata varır.

Əvvəlki halda dövlət, hər nədirsə, milli çərçivədədir. Hünər hətta müstəbidin özünün də damağını aça, fərəhinə səbəb ola bilər. Bıçaq sümüyə dirənəndə isə çevriliş birbaşa hadisədir.

İstila şəraitində bu imkan aradan qalxır.

Soyğun istilanın ilkin məqsədidir. Burada ən böyük şərt odur ki, asılı xalqlardan heç biri özü olmasın. Özü olmamaq bəşərilikdən imtinadır.

Deməli, ölümdür.

Burada bəşəri fikrin təqdir edilməsi, yaradıcı məqsədin həyata keçməsi imkanları tamamilə aradan qalxır. Burada yalnız istilaçı bir fikir milli məziyyət və səadət kimi yeridilir.

İstilaçı fikir isə ölümü qəbuldur. Deməli, təqdir edilən şey əslində ölümdür. İstilaçı bu cür cinayətkar fikri həyata keçirməyə səs verən istedadsız, qabiliyyətsiz, vicdansız, – küçədə doğulan adamları hər yerdə tapır. Para və təltiflər özünə xəyanətin dərəcəsi ilə ölçülür. Cəza da zəkanın, vicdanın, xidmətin miqdarı qədər olur.

Şər ordadır ki, əfkari-ümumiyyə üçün saxta haqq, qəhrəmanlıq ölçüsü yaranır. Əsil xidmət isə gözdən yayınır.

Çıxış yolu xidmətdən qıraq bütün şeylərdən imtina etməkdir. Lakin real dünya da, xəlqi aləm də, əfkari-ümumiyyə deyilən şey də onun yaratdığı dövlət də gerçəkdir. Xüsusən dövlət ictimai imkanları əlində tutmuşdur. Təkcə imtina ilə onu bütövlükdə silə bilməzsən.

Şərin gücü reallığındadır.

Zira, reallıq nisbidir. Orada başa gələn üstünlüklər, əldə edilən paralar veriləndir. Başqa təsadüfdə onları əldən almaq da olar.

Amma xidmət mütləqdir. O, verilmir, özününküdür. Onu çarmıxa çəkmək mümkündür, əldən almaq isə – yox!

Qırğın alt qatdakı şərin üzərdəki ifadəsidir. Əgər Axilles döyüşə qayıdarkən qırğın bütün hadisələri üstələyib boş mövzuya çevrilirsə, bu, şərin ən böyük təzahürüdür.

Başqa sözlə, baş alıb gedən, sel yaradan qırğının əsas mövzuya çevrilməsi göydən düşmür.

Lakin Axilles döyüşə qayıdarkən, onda yaranan qəzəb hissinin arxasında o vaxt dayanan həmin şəri gözardı edir və indi hadisələrin gedişi ona təəccüblü görünür:

*"Öz oğluyla ağlayaraq cavab verdi pak Fetida:*

*Bu sözündən görünür ki, az qalıbdır ömrün, oğlum!*
*Hektor ölcək, həmin saat sən də həlak olmalısan".*

*Yeyinayaq Axilles də qəmli-qəmli dedi ona:*
*"Bir halda ki, xilas edə bilmədim mən öz dostumu,*
*Bu an ölsəm, xoşdur mənə! Doğma yurddan-eldən uzaq*
*Həlak oldu, yetişmədim darda onun köməyinə!*
*Doğma yurda qayıtmaram əsla, çünki nə Patrokla,*
*Nə də ki, o parlaq sərpuş Hektor həlak etdiyi*
*İgidlərə mənim əsla bir köməyim dəyməmişdir.*
*Axeylərin arasında, – məclislərdə çox olsa da, –*
*Döyüşməkdə məndən güclü adam yoxdur, mənsə, burda,*
*Dünyaya bir boş yük olub, faydasızca oturmuşam,*
*Ah, məhv olsun allahlarda, fanilərdə kin-ədavət,*
*Ah, məhv olsun hirs-qəzəb ki, dəli edir ağıllını!*
*Baldan şirin olub əvvəl ləzzət verir, ancaq sonra,*
*Acı tüstü kimi yaxıb qövr eləyir sinəmizdə".*

*(Orada, səh.398).*

Hadisələr Axillesi inadından əl götürməyə, qəzəbindən dönməyə məcbur edir. O, fəaliyyətə qayıdarkən ilkin rastlaşdığı adam da anası ilahə Fetidadır. Ana-bala arasındakı söhbət də çox hüzünlüdür, xüsusən ana və oxucu üçün!.. Fetida oğlunun ölümünün yaxınlaşdığını bildiyindən, fəhm edilməz bir kədər dünyasına qərq olur.

Yarananın, indiki halda, bizim üçün bütün insanların öləcəyi mütləq vəziyyətdir. İşin xoşbəxtliyi isə orasındadır ki, bu mütləq hadisənin havaxt baş verəcəyini heç kəs bilmir. Başqa sözlə, heç kəsə aydın deyil, o, nə vaxt öləcək. O öləcək. Lakin o, hələlik yaşayır və nə vaxt öləcəyini bilmir. Bu yeganə təskinlikdir. Hər kəsin özü və yaxın adamları üçün.

İndi isə ana şümal oğlunun ölümünün yaxınlaşdığını bilir, Qismət sahibi isə bu yöndə həyəcan keçirmir. O da indicə qəlbinə yaxın bir adamı, Patroklu itirmiş. Axilles də bunun dərdini çəkir.

Biz bir çox adamların, Dolonun, Patroklun Axilleslik xəyalına düşdüyünü demişik. Bir qədər sonra Axilleslik xəyalı Hektorun da başına nə oyun açdığını görəcəyik.

Axilles də dostu Patrokla tövsiyə etmişdi ki, Axilleslik xəyalına düşməsin.

Biz Axilleslik xəyalına düşdüyünə görə adamları danladıq. Bəs burada Axilles öz şöhrəti üçün sədd çəkdiyinə görə ona münasibətimiz necə olmalıdır?

Məsələ ondadır ki, hər kəsin həyatında bir qisməti var. Dolon, Patrokl, sonradan görəcəyimiz kimi Hektor özlərininkini axtarmayıb Axilles qismətinə boylanırdılar. Onlar özləri yox, Axilles olmaq istəyirdilər. Axilles isə Axilles yaranmışdı. O, Axillesliyi yaşadarkən özü olaraq qalırdı. Belə idi ki, Patrokl, hətta dostunun tövsiyəsini keçib "Axilleslik" iddiasının nəticəsi kimi həlak olduqdan sonra belə, Axillesin ona münasibəti dəyişmir.

Başqa sözlə, Axilles Patrokla Axilleslik etməməyi məsləhət bilmişdi. Bu o demək deyil ki, o, öz qismətinə qısqanır. Belə olsaydı, Patrokl Axilleslik iddiası ilə həlaka getdiyinə görə, nəinki onun münasibətindən kədərlənməz, əksinə, "lap əcəbdir" – deyə kam da alardı.

Göründüyü kimi, vəziyyət lap əksinədir. Axilles həmin cəhəti heç ürəyinə salmayaraq böyük müsibətzadə kimi çıxış edir. Müsibət o qədərdir ki, bu, balasının ömrünün sona yaxınlaşdığını hiss edən ananın fəğanına bənzəyir.

Axilleslik təkcə qeyri-adi güclə, ordular basmaqda yox, bu cür insani məsələlərdə daha artıq ifadə olunur.

Ondakı kədər o qədər böyükdür ki, Axilles özünün fəaliyyətindən imtinasının ilk səbəbini, riyasətin törətdiyi bu ilk şeyi sərf-nəzər edir və qəzəbinə görə özünü danlamağa başlayır. O deyir, allahlarda, fanilərdə müşahidə edilən kini, ədavəti görüm məhv olsun. Əvvəl bu insana baldan da şirin gəlir. Lakin hadisələr ötəndən sonra kədərli nəticənin öhdəsindən gəlmək olmur.

Əlbəttə, qələbənin, təqdirin gətirdiyi fərəh, qəlbin oxşanması yaxşıdır. Lakin zərbəyə qarşı inildəmək əvəzinə qəzəblə qəhrəmani şığımaq heç də ondan pis deyil. Vəziyyət prinsip və ləyaqət məsələsini ortaya atır. Son anda hər şeyin daşını qıraq eləyir və hər nə olur-olsun deyib cumursan.

Bu həmin anın hökmüdür.

Zira, bu hökm üçün həmin anda bir yelbeyinlik işə müdaxilə etmiş, yoxsa əsaslı səbəb olmuş? Məsələ bundadır!

İndi Axilles öz qəzəbinə və qəzəbdən irəli gələn hərəkətlərinə peşimandır. Çünki bunun nəticəsi kimi yunan ordusunun fəna günü və Patroklun həlakı Axillesi titrədir.

Amma qəzəbə səbəb olan amil əsassız idimi?

Axilles Aqamemnon qövmünün ləyaqətini müdafiəyə gəlmiş, Aqamemnon isə keyfini aramaqdadır. Bu yolda hətta o, Axilles kimi şəxsiyyətin ləyaqətini tapdalamaqdan çəkinmir. Aqamemnon deyir ki, burada bizim ləyaqətimiz tapdalandısa da, indi biz o ləkəni yumağa gəlmişiksə də, siz də bu yolda özünüzün hər şeyinizdən keçib bizə xidmət edirsinizsə də, mən öz keyfimdən qala bilmərəm. Bu bütün xalqı, vətəni təhlükə qarşısında qoysa belə, sən Axilles şəxsi qüdrətinə güvənib mənə qarşı durmağa cəhd göstərirsənsə, onda səni təhqir edər, ləyaqətini tapdalayaram.

Vəziyyət belə qoyulduğuna görə, o zaman Axilles deyirdi ki, qoy Aqamemnon güman etməsin ki, namus yalnız onlarda var.

Aqamemnon məntiqinin qəzəbə səbəb olan cəhəti onun "səlahiyyətimə görə hər şey mənə məqbuldur" deməsiydi.

Bəlkə də onun məntiqi bir çox yerdə işə keçərdi, çox vaxt tarixdə müşhaidə edildiyi kimi, – sonradan tərs nəticə versə də... Amma Axilleslə rastlaşarkən bu məntiq işə keçmədi.

Qəzəbə səbəb olan amil bu idi. Axilles isə o qədər ədalətli adamdır ki, indi həmin amili unudub "özündə görür".

Bu, xeyirin öz mövqeyindən bir an geri çəkilməsidir. Bu da ifrat ədalət və güzəşt, barışığa getmək arzusundan irəli gəlir.

Xeyirin mövqeyi belədir.

Şər isə başqa cür düşünür.

Şər qəzəbə bais olur. Müqəssir olmadığı halda, xeyir özündə suç axtarır, şər isə səbəbkarı xeyirdə görür. O, heç özündə axtarmır.

Şər deyir, mən müəyyən qəbahəti və ya cinayəti eləyim. İşlər çətinliyə rast gələrsə, başqa müqəssir axtararaq, vəziyyəti də islah etməyə çalışarkən başqa bir çıxış yolu tapaq. İxtilafa səbəb olmasın, qəzəbə aparıb çıxarmasın deyə, mənimlə də razılaşır. Əks təqdirdə siz müqəssirsiniz.

İxtilafın, qəzəbin səbəbi mənim qəbahətlərim, cinayətlərim yox, sizin mənim törətdiyim vəziyyətlə razılaşmamağınızdır.

Xeyir üçün darıxdırıcı vəziyyət ondadır ki, düşmən düşməndir, şərdən ibarət dost isə düşməndən də düşməndir. Bu çıxılmaz durum yaradır. Axı dost düşməndən murdar olsa da, dostdur və müdafiə edilməlidir.

Biz görürük ki, şər öz mövqeyindən dönmür. Bəs xeyir nə üçün dönsün? Amma Xeyir mücəssiməsi olan Axilles burada öz qəzəbinə lənətlər yağdırır və qarşısındakı şər də insan cildində dayanmışdır. Xüsusən, başqa çıxış yolu da qalmamış. Təsadüfi deyil ki, Axilles

uzun fasilədən sonra Aqamemnonla görüş zamanı qəzəbə qarşı ilkin söhbətdən belə başlayır:

*"Ey Atreid Aqamemnon, bir qız üstə nahaq yerə,*
*Qan qaraldıb, qəzəblənib küsüşməyin, söylə görək,*
*Sənə, mənə – hamımıza azacıqsa xeyri dəydi?*
*Kaş ki, onu mən Lernessi fəth eləyib, əsir qızlar*
*Arasından seçdiyim gün Artemidə öldürəydi!*
*Bu inadım ucbatından gör nə qədər axeyalı*
*Həlak olub, dişlərilə gəmirmişdir bu torpağı!*
*Bu da ancaq Hektor ilə düşmənlərə fayda vermiş...*
*Axeylilər bu nifaqı yəqin əsla unutmazlar!*
*Hər nə qədər acısa da, bunlar qalsın bir kənara...*
*Bu zərurət qarşısında gəl, ram edək qəlbimizi.*
*Sənə olan qəzəbimdən əl çəkirəm..."*

*(Orada, səh.417).*

"İliada"da bu fəsil, on doqquzuncu nəğmə elə beləcə də "qəzəbdən həzər" adlanır. Doğrudan da hövsələni basa bilməmək, qarşılıqlı surətdə anlaşma lazımi səviyyədə olmadığından ən yaxın adamlar arasında belə mənasız ixtilaf, toqquşma və uzun ayrılıqlar baş verir. Bu, işin subyektiv cəhətidir. Axilles cavabında Aqamemnon da elə hadisələri bu cür yönləndirir, gedişi tale ilə bağlamağa çalışır:

*"Axeylilər tez-tez mənə qəzəblənir, guya ki, mən*
*Taqsırkaram... ancaq əsl taxsırkarlar Tale ilə Zevs*
*Bir də daim zülmətlərdə gəzən zalım Erinyadır.*
*Mən Peliddən həmin qızı özbaşına aldığım gün.*
*Yığıncaqda onlar mənim gözlərimi kor etdilər.*
*Mən neyləyə bilərdim ki? Allahların öz qəsdi var.*
*Zevsin qızı Ata bütün gözləri kor edə bilər,*
*İncə-zərif ayaqları yerdə deyil, insanların*
*Başlarında gəzə-gəzə, əqli-huşu alır tamam.*
*Yəqin bizim birimizə qənim olub həmin gün o*
*Allahların, insanların hamısından güclü olan*
*Zevs özü də kor olmuşdu arada bir..."*

*(Orada, səh. 418).*

Biz indi Axilleslə Aqamemnon arasında baş verən hadisəyə iki münasibəti müşhaidə edə bildik. Axilles günahın böyük hissəsini öz üzərinə görürərək deyir ki, “bu inadın ucbatından” və s. Aqamemnon isə dövranın gərdişini, taleyi günahkar tutur. Halbuki biz gedişata ilkin baxışla yanaşıb günahkar seçməyə başlasaydıq, Aqamemnonun üzərinə daha artıq yük düşərdi. Məhz ona görə də deyirdik, şər heç bir zaman özündə axtarmır. Elə edir ki, bir çox halda kövrəkliyi üzündən ləyaqət qəbahətdən üzr istəməli olur.

Bu tarixin çəlpəşikliyidir.

Danmırıq ki, anlaşılmazlıq və ya hövsələsizlik üzündən iki adam arasında “toqquşma” baş verə bilər. Lakin Axilleslə Aqamemnon arasındakı duruma səbəb bu idimi?

Burada tarixin şah sütunundakı naqisliyin zühur etdiyini görürük, – bəşərin istibdada və müstəbidə ilişməsini.

Müstəbid, – Aqamemnon nəfsbazlıq etdiyinə, ictimai imkanından istifadəylə müqəddəs pərdəyə əl atdığına, kahin Xrisin şərəfinə toxunub onun yuvasından qızı götürdüyünə görə, xalq, ölkə bəlaya düçar olub.

Aqamemnon heç olmasa bu durumda ayıla, anlaya, güzəştə gedə idi.

Amma müstəbid və anlamaq – bir yerə sığan şey deyil. Müstəbidin allahı onunla özü təkin rəftarın başa gəlməsidir.

Aqamemnonun buradakı şərinin baisi tale deyil. O, burada da tutduğunu buraxmır və Xriseidadan adlayıb Briseidaya qədəm basmasındakı üzr günahından da betər olur.

Belə bir açıq şərin qarşısında tale nə edə bilərdi ki?

Nəzəri fikir əsasən hərəkətlərin kökünü şəraitə bağlayır. Halbuki burada mütləq vəziyyət yoxdur. Şərait o zaman əsasdır ki, obyektiv cəhətdən çıxış yolu olmasın. Halbuki Aqamemnonda çıxış yolu var idi.

Əksinə bu cür çıxış yolunun qabağı Axillesdə kəsilmişdir. Vəziyyət o qədər prinsipial qoyulmuşdur ki, heç orada Axillesin Aqamemnona “ey Aqamemnon, bir qız üstə qəzəblənib küsüşməyimiz sənə, mənə – hamımıza xeyir verdi” deməsi də əsas məsələ deyil. Əsas amil o idi ki, istibdad, onun naşiri bəşəri yaşayış tərzini murdarlayır, pozurdu.

Halbuki Aqamemnonun vəziyyətdən çıxış üçün yolu var idi – tutduğunu buraxmaq.

Sonda buraxdı ki!..

Biz burada dastanın pozduğu bir məntiqi islah etməliyik.

Bilirik ki, filan-filan şeylərlə əsaslandırıb Aqamemnon Axillesin kənizini yatağından sürükləmişdi. Kəniz deyirik. Əslində Axilles söyləyir ki, qılınc gücünə alsam da, mən o qızı sevirdim. Belə olduqda, Aqamemnon çirkli əlləri ilə qəhrəmanın ülvi dünyasını pozmuşdu. Amma o, sonralar barışıq üçün rəml atanda və ya indi qaytararkən söyləyir, tanrı bilir ki, mən o qızla bir yataqda olmadım. Dastan özü də bizi buna inandırmağa çalışır.

Lakin söylənilləndən və dastanın inandırmağa çalışdığından başqa tarixi həqiqət, tarixin mənzərəsi də var. Tarixi həqiqət tamamilə bunun əksinədir və məntiq başqa bir şeyi sübuta çatdırır.

İstibdad dünyası, onun naşirləri, müstəbid möcüzəyə, ülviyyətə meydan vermir. Onun bəhrəsi azğıncasına tükləri ürpəşdirmək, dünyanı qəbahətlər, böhtanlar, cinayətlər, çamırlığında boğmaq, irin, göz yaşı, qan dəryası yaratmaqdır.

Aqamemnon – Axilles yolları ayrılandır, birləşən deyil. Zira, dastan müəyyən fikri başa çatdırmaq üçün onları birləşdirməli və ülviyyəti də "saxlamalı" idi...

Müəyyən saziş əldə edilirdi. İndi Axilles döyüşə qayıda bilərdi. Amma Patrokl həlaka yetirilərkən Axillesin əsləhəsi əldən getmişdi. İndi yeni əsləhə hazır edilməli idi. Bu işdə ona anası ilahə Fetida köməyə çatır. Fetida üçün isə bu, çətin iş deyildi. Axı onun mənşəyi, kökü allahlara, Zevsin özünə çatırdı. Onlar hamısı bir babanın nəvələridir.

Silah, əsləhə əldə edilir. Burada diqqəti cəlb edən şey silahın özünün mündəricəsi, ifadə etdiyi simvolik məna, onu qayıran ustanın taleyindəki mənalardır.

Axilles qalxanının təsviri məşhurdur. Bu bütün dünyada o qədər populyardır ki, mədəni dünyada əlavə izahata o qədər də ehtiyac qalmır. Ona görə, çox da əylənməyinə dəyməz. Orda əngin dünyanın mündəricəsi ifadə edilmiş və sanki bəşər həyatına aid nə varsa, hamısı öz əksini tapır. Başqa sözlə, dastan qalxanın təsvirində sənətin dili ilə bəşər həyatının bütün çalarlarını nəzərə alıb!.. Bu təsvir hər şeyi qavrayan, bütöv bir əsər, epopeya təsiri bağışlayır.

Ona görə nə qədər populyar olsa da, bəzi nöqtələrə diqqət yetirməyə ehtiyac hiss edirik.

Fetida elm evinə, Zevsin oğlu Hefestin sarayına bir qədər ehtiyatla yanışır. Amma onu əmi gəlini və Hefestin özü çox məhəbbətlə qarşılayırlar.

Hefestin arvadı ərinə xəbər verir ki, Fetidanın qədəmləri bizim evdədir. Bundan hətta Hefest riqqətə gəlir:

*“Necə? O pak saf ilahə məgər mənim evimdədir?*
*O ki, mənim xilaskarım olmuş... Bəli, bir zamanlar*
*O insafsız anam Hera atdırmışdı məni göydən*
*Ayaqlarım şikəst idi, istəmirdi hamı bilsin...*
*Fetidayla Okeanın o pak qızı Yevrinoma*
*Onda məni gizlətdilər...”*

*(Orada, səh.407).*

Fetidanın taleyində həm toxunulmazlıq, həm də əmioğlusu Prometey təki xilaskarlıq var. Hələ mistik, sehrli, sirli bir dünyadan gedən səslər şorgöz Zevsə xəbər verdi ki, sən allah olsan da, Fetidaya toxuna bilməzsən. Zora əsaslanıb dini təhqir etsən, ülviyyətə toxunsan, bu sənin özünün fəlakətinlə yekunlaşar. Bununla da cinslər arasındakı münasibətlərə ilahi bir sınıra işarə edilir.

İndi də deyilir ki, Fetida atılmış bir körpəni risqə gedərək himayəsi altına götürür.

Prometeyin xilasında da Fetida telinin iştirakı var. Peleyin ulu babası kentavr Xiron həyatını vermiş, Prometeyin xilası üçün güzəşt etmişdi. Əvəzində Heraklın təklifi ilə Fetidanı Xironun nəvəsi Peleyə vermişdilər. Beləliklə, dolayısı ilə olsa da, Fetida teli Prometeyin xilasında iştirak etmişdir.

Burada bir cəhət də mənalıdır. Ana, Hera şikəstliyi üçün öz oğlu Hefestdən xəcalət çəkir və bunu gözlərdən gizləmək üçün onu göydən tullamışdı.

Söhbət burada kökü istibdada, Zevs dünyasına gedib çıxan işlərin qəddarlığında deyil. Bu o qədərdir ki, qadın olmaq, analıq, körpə kövrəkliyi, oyatdığı riqqət, köməyə qayğıya olan ehtiyac belə, onu tükləri ürpədən bu məşum işdən saxlamır. Zor insani bir düşüncədən məhrumdursa, o sınır tanımır, içdən səs gəlmir, ictimai nəzarətə isə etina eləmir.

Söhbət ondadır ki, zahiri görkəminə görə Hefestdən hətta doğmalar da xəcalət çəkirlər. Lakin Hefestin bu zahiri xələfliyinin arxasında fəxr etməli nə böyük qabiliyyət gizlənibmiş.

Bax, bəşəriyyət də saysız həqiqətlər içərisində daha çox bu cür yanılmalar çamırlığında çabalayır.

Göründüyü kimi, Hefest – filan, filan səbəblərə görə və yaradıcı, xilasedici təbiətilə Fetidanın diləyinə qoşulacağını böyük sevinclə bildirir.

Fetidanın isə həm diləyi vardı və taleyindəki kölgəli yeri, dərdini söyləməyə doğma bir adam da tapmalı idi.

Onun Hefestlə görüşü həm doğmaların, həm də yaxşı adamların qarşılanması idi. Əlavə burada haqq-say da vardı.

*"Olimpdəki allahlardan mənim qədər*
*Ağır əzab, dərd-qəm çəkən heç bir nəfər tapılarmı?*
*Bütün dərd-qəmi ancaq mənə verib Şimşəksaçan!*
*Dənizdəki ilahələr arasından təkcə məni*
*Bir insana – Eak oğlu mərd Peleyə tabe edib,*
*Öz ərimlə bir yatağa istəmədən girirəm mən.*
*İndi aciz ehtirasdan bitab olub yatır evdə...*
*Ancaq dərdim başqa dərddir: Zevs atamız mənə oğul*
*Lütf eləyib – qəhrəmanlar arasında ən qəhrəman...*
*Onu bağda bir ağactək boya-başa çatdırmışam,*
*Dik çanaqlı gəmilərdə göndərmişəm Troyaya.*
*O meydandan bir də geri dönməyəcək igid oğlum,*
*Onu ata ocağında görmək mənə qismət deyil.*
*Yer üzündə yaşayıb o, al günəşi gördüyündən,*
*Gərək daim əzab çəkə..."*

*(Orada, səh. 408).*

Fetida əmioğluna söyləyir ki, Olimp sakinlərindən təkcə mən ərə verilərkən mühitimdən qoparıldım, mən yad bir adama ərə verildim.

Yadlar arasında nikah tövsiyə edilmir. Əsasən belə də var. Lakin ümumi iqlim və özəllikcə məhəbbət yadlığı aradan götürür. Burada heyvani cəhətlər arxa plana keçə, heyvani cəhətlər yumşala bilər. Hərçənd ki, tarixin mənzərəsində və gerçək aləmdə biz işin mənfi cəhətinin daha qabarıq olduğunu müşahidə edirik.

Amma Fetida ilə Peley arasında bəşəri iqlim başqa-başqadır, Peleyə hansı əzəmət işarə verilsə də. Üstəlik Fetida açıqcasına söyləyir ki, ərimlə bir yatağa istəmədən girirəm. Ona görə də indi ərim evdə "aciz ehtirasdan" bitab yatır.

Bu "aciz ehtirası" nə mənada başa düşək? Ülviyyət, insan mənəviyyatı, bəşəri mündəricə, məhəbbət, ailə birliyinin, ünsiyyət və böyük vahidliyin qarşılığında cütə gəlməkdən qaça bilməmək kimi

zəiflikmi, ya könülsüz təmasdan məyus olub, əli boşda qalıb ümidsizliyə qapılmaq mənasındamı?

Hər halda Fetida-Peley telində hər ikisi var.

Cinslərin təmasında, duyan adamlar üçün, heyvanlaşma başa gəlir. Bu ümumi haldır. Alçaldıcı həqarətin dərk edilməsi isə müstəsna iş-dir. Amma təması böyük məhəbbət izlədikdə və arzu ilə başa gəldik-də bu həqarət hiss edilməyə də bilər, təhqir – dərd arxa plana çəkilər.

Zira, təbiət deyəsən bizi darıxdıran şeyləri islah eləyir. Çünki o, könülsüz görüşdən belə, Axilles təkin bəhrə verir.

Fetida söyləyir ki, ailə birliyində bir qadın kimi öz dünyamı itirmişəm. Lakin Zevs atamız əvəzində mənə övlad bəxş eləyib. Buna əsasən belə gümana getmək mümkünmü ki, istibdad zor mahiyyətli deyil, o, bəhrə də verə bilir.

Axı istibdad ictimai sərvəti və imkanı əlində toplayır. Burada kimin payına nə düşürsə, elə təsəvvür oyanır, bunu istibdad paylayır. Əslində ağılların və əllərin yaratdığıdır ki, zərrələri özünə tökülür, qırıntılardan ona da çatır.

Bu çəlpəşikliyi idrak dünyası izaha çalışıb.

Ailə ictimai gediş olsa da, övladla bəhrələnməsi təbii haldır. Görüşlərin uşaq törəməsi ilə yekunlaşması böyük təskinlikdir. Lakin bəzən bəhrəsizlik də maşahidə edilir. Amma insanların övlad arzusu o qədər güclü bir şikəstlik, yəni bəhrəsizlik baş verdikdə, bu ona ümumi hal, bəhrə isə müstəsna kimi görünür. Burada vahimə ilə fərəh, ümidsizliklə sevinc sürətlə yer dəyişir. Ona görə də övlada sahib olmaqda istibdad "səxavəti" ilə tanrı payını bir-birindən seçmək lazımdır. Bunun üçün Zevsin mütləqliyində, özbaşınalığında zorunda təkcə istibdadı yox, bəhrəni də görə bilirik. Çünki onun istibdadını mistik dini bir cəhət, ülviyyətdən doğan nəvaziş və yaradıcılıq da izləyir.

Fetida həyatı uduzub. Amma əvəzində tale ona övlad verib. Müsibətin böyüklüyü ondadır ki, indi də övlad əldən çıxır, ölüm onu haqlamışdır. Bu o qədər qarşısıalınmazdır ki, hətta ana özü bu işin sürətlənməsində iştirak etməyə, ana döyüş üçün silah hazırlatmağa məcburdur.

Fetida öz kədərinə ibrətli bir yekun vurur. Söyləyir ki, yer üzündə yaşayan, günəş üzü görən hər bir kəsin həyatının əsil məndəricəsi əzabdır. Bəzi yerlərdə müşahidə edilən firavanlıq, sevinc, səadət zahiridir, ilkin görüşün təkan verdiyi aldanışdır.

Bəli, doğuluş, yer üzündə yaşamaq əslində nadir təsadüfdür. Günəş isə həm rəmzi və həm də müstəqim mənada həyat, sevinc, poeziya, fərəh mənbəyidir. Amma deyilir ki, həyata gedən, günəşə baxan, duyan, düşünən hər bir kəs əzab çəkməlidir. Əzabın mənbəyi isə həyat və günəş yox, bəşəri qüsurlar, – şərdir. Həyati məcburiyyətdən irəli gələn yamanlıqlardan başqa hər kəs, özündən asılı yerlərdə, pis işin bir üzünün heç olmasa, özündə yox, daima başqasında axtarır. Bu, ümumi haldır. Burdan da şərin vahid seylabı yaranır – həm obyektiv, həm də subyektiv cəhətdən.

Ona görə deyilir ki, həyata gələn, günəşə baxan hər kəs əzab çəkməlidir. Olimp sakini Fetidanın da taleyi müəyyən tellərlə bu cür dünya ilə bağlanmışdır.

Fetida fəlakətinin mündəricəsi bundan ibarətdir. Buna görədir ki, əmisi oğlu, dəmirçi allah Hefest Fetidanın diləyinə cavab verərkən dərdə şərikliyini belə ifadə edir:

*"Ey ilahə, bu barədə tamamilə arxayın ol!*
*Ona, bütün görənləri heyran edən qəşəng, möhkəm,*
*Yaraq-yasaq qayırmağı bacarantək, ah, kaş ki, mən*
*Peleyoğlu Axillesi qanlı döyüş meydanında*
*O dəhşətli ölümdən də qurtarmağı bacaraydım".*

Fetida dərdinin böyüklüyü orasındadır, burada Axillesin ölümü qarşısıalınmaz şəkildə elə fəlakət səviyyəsinə qalxmış ki, allahlar da onun qarşısında acizdir. Lakin Axilles, hələ ölümdən əvvəl vuruşmalı, özünü göstərməlidir. Hefest bu işdə iştirak edə, ona silah hazırlaya bilər. Buna da ki, söz verir. Onun söz verdiyi, – qəşəng, möhkəm, hamını heyran edən vədi, qalxanın bütün mənasını ifadə etmir.

Məsələ ondadır ki, qalxanın təsvirində "İliada" vaqiəsinin bütün cövhəri öz əksini tapır.

Hələ lap başlanğıcda biz iki şəhərin təsviri ilə qarşılaşırıq: birində həyat, birində ölüm; birində təbiət, birində cəmiyyət, birində insanlıq, birində heyvaniyyat, hamısı birlikdə isə həyatın özü:

*"O qalxanda təsvir etdi Hefest fani insanların*
*Yaşadığı iki şəhri – bir-birindən gözəl, abad,*
*Birincidə şadyanalıq, hər yanda toy, ziyafətlər,*
*Evdən gəlin aparırlar, bütün şəhər çilçıraqban,*
*Toy nəğməsi oxuyaraq gəzir hamı meydanlarda...*

*Cavanlar da xor oxuyur, rəqs edirlər dəstə-dəstə.*
*Forminqlərin, tütəklərin şənlik yayan xoş səsləri,*
*Eyvanlardan şən xanımlar seyr eləyib ləzzət alır.*
*Geniş şəhər meydanında toplanmışdır xeyli adam.*
*Orda qan bahası üçün bəhs eləyir iki nəfər:*
*Biri xalqa and içərək deyir guya verib pulu,*
*O birisə, rədd eləyir, almır bunu heç boynuna*
*Məhkəməyə müraciət edir axır hər ikisi...*
*Dairədə iki qızıl talant vardır, bunu ancaq*
*Hər kim haqlı olduğunu sübut etsə, o alacaq".*

*(Orada, səh. 410).*

Bu yaşayışın bəşəri mündəricəsini təmsil edən şəhərin həyat tərzidir. Toy-düyün, sevinc, mütəşəkkil şənlik, dəstə-dəstə adamlar, vahid ünsiyyət və s. Lakin hələ burada da şər bəşəri işlərin gedişinə müdaxilə edir, ümumi ahəngi qarışdırır. Burada qan davasından da yox, qan bahasından söhbət gedir.

Qan özü bəşəri ahəngin pozulmasıdır, – heyvani həyat tərzinə işarədir. Lakin şər o qədərdir ki, nəfsin təhriki ilə düşünmək, ancaq mənim olsun, çox olsun, tez olsun tələbi doğma adamın tökülən qanından əmələ gələn çılğınlığı, qəmin-qüssəsini unutdurur, qoparmaq arzusu ehtirasa çevrilir.

Biz demişik ki, ehtiyac şərə təkan verən ilkin amil olsa da, lap cüzi amildir. Burada ehtiyacın təmini üçün əməyin haqqının ödənilməsi tələbi ilə yetərlənilmir. Burada heç deyilmir də ki, mənimki çox olsun. Deyilir ki, hamısı mənim olsun. Bu "hamısı" mənə lazımdır, deyil, – bunun fərqi yoxdur, təkcə tez olsun və çox olsun.

Vəssalam!

Bu maddi üstünlüyün ardınca mənəvi üstünlük, insana nifrətli münasibət (məhəbət əvəzinə), onu zəlil görəndə sevinc və fərəh (kədər əvəzinə) işlərə təkan verir, şər tüğyan edir.

Biz bir qədər qabaqda demişdik ki, müharibələr, qırğın, qan dəryası tarixin mənzərəsində baş mövzu kimi görünür.

Lakin buna müharibədən əvvəl, gündəlik həyatda üz-üzə gətirib çıxaran şər dünyasını da əlavə etmək lazımdır. Çünki işləri qırğına, qana, müharibəyə aparıb çıxaran "Mənim olsun"un ifrata varması, şərin şahə qalxmasıdır.

Biz bəşəri yaşayış tərzini təmsil edən şəhər həyatının təsvirində bunun müəyyən cəhətini görürük. Halbuki ikinci təsvir müharibə, döyüş, qırğın, qan vəziyyətinə gətirilmiş şəhərin təsviridir:

*"Şəhərlərdən ikincini dövrələyib iki qoşun,*
*Silahları parıldaşır... bilmirlər ki, neyləsinlər:*
*O şəhəri dağıtsınlar, yoxsa gözəl şəhərdəki*
*Var-dövləti alıb sonra bir-birilə bölüşsünlər...*
*İnsanlarsa – cılız, miskin...*
*Pusqu üçün seçdikləri yerə gəlib çatır qoşun,*
*Heyvanların su içdiyi bir sahildir həmin bu yer*
*Parlaq tuncdan zireh geyib, hamı, orda otururlar.*
*Qoşunlardan kənar iki əsgər güdür özü də gizlin...*
*Onlar gələn mal-qaranı, sürüləri pusur orda...*
*Bir az sonra sürü ilə şən-şən tütək çala-çala,*
*İki çoban gəlir, – onlar bixəbərdir bu hiylədən*
*Gizlənənlər şığıyaraq, basmarlayır cəld onları,*
*Aparırlar inəkləri, gümüş yunlu qoyunları...*
*Cavanları öldürürlər..."*

*(Orada, səh. 411).*

Qalxanın təsviri tarixin mənzərəsini, həyatın "bəşəri" mündəricəsini simvolik tərzdə qavrayır. Simvol isə, bir qayda olaraq, bütün təfərrüatı təsvir etmir.

Birinci şəhərin təsvirində bəşəri həyatın ahəngdar mənzərəsi öz əksini tapmalı idi. Lakin orada toyu, düyünü qan izləmiş (bu nə səbəbdən baş verdiyi söylənilmir və yəqin də ki, bunun o qədər önəmi yoxdur), bundan istifadə edən nəfs mübahisəli şəkildə məkrə meydan verir.

Biz də demişdik ki, dinc halda naqisliklər, qaynar anda müharibə qırğını bəşər həyatının baş leytmotivinə çevrilir.

Eynilə, ikinci şəhərin təsvirində də birincidə müşahidə etdiyimiz nəfsbazlıq insanları qırğın üçün üz-üzə dayanmış qoşuna çevirir.

Deyilir ki, iki qoşun üz-üzə durmuş, iki fikir arasında dayanmış: soyğunla yetərlənsinlər, yoxsa üstəlik yadların şəhərini də viran qoysunlar...

Əslində ikisi də bir şeydir: bəşər həyatını yerindən tərpənməyə qoymayan, uçuruma yuvarlandıran dəhşətli fakt!..

Çünki soyğun da, dağıtmaq da, üstün gəlmək də növbə ilədir. Ümumi yekun isə bəşərin taleyidir.

Hamlet deməsin, “fikir işə keçmir, sus, Ofeliya,
Öz dualarında mənim də günahlarımı xatırla!”

Biz Hamletin məşhur atmacasını istəyimizə uyğun tərzdə yığcamlaşdırdıq.

Dəhşət aşağıdakından ibarətdir: çoban şəklində iki nəfər təbiətin ılıq nəfəsini alır, xəbərsiz şəkildə öz iş-peşələrindədir. Lakin insanların pusqusunda dayanmışlar. Bu pusqu isə günahsız tərzdə insanı həyatdan məhrum etmək, yırtıcı kimi qamarlamaqdır.

Deyilir ki, iki çobanı basmarlayır, inəkləri, gümüş yunlu qoyunları sürür, cavanları da öldürürlər.

Burada iki vəziyyət var. Ölüm faktdır. Bu havaxtsa baş verəcək. Lakin həyat da şirindir.

Ölüm faktdır. Ona görə də bu ətrafda geniş baş sındırmağına dəyməz. Amma təəssüf oyadan şey odur ki, ölüm əsaslandırılmadan, fərəhin özü ilə üz-üzə dayandığı anda, heç bir qəhrəmani hadisəyə çevrilmədən, xəbərsiz, günahsız surətdə vaxtsız baş verir.

İkinci vəziyyətsə ondan ibarətdir ki, insan kimi dünyaya gəlmək var, bir də sonrakı pillə – kamala yetmə! Hamının biri kimi dünyadan getmə ilə kamala yetmiş, idrak dünyasının nümayəndəsi tək ölmək arasında fərq olmalıdır.

Amma həyat-ölüm məsələsində günahsız dünyadan getmədə bu fərq aradan götürülür. Hamı yaşamalıdır. Hər bir günahsız insanın həyatdakı yerini, dəyərini heç kəs müəyyənləşdirə bilməz. Bəşəri mündəricə eynidir.

Təəssüf oyadan şey məhz taleyin fərq qoymadan qıyması, bəşər həyatını təhlükə altına almasıdır.

Günahkar da şərə qida verən bəşəri naqisliklərdir.

Qalxanda zəmi, şumlanan yer, yer şumlayan əkinçi həyatının poeziyası, qara şumla əlvan, qızılı çölün sınırı, işini başa vurmağa cəhd göstərən insanın coşğunluğu və s. ardınca bol məhsullu, gen zəmi, biçənək, biçinçilər, biçilən taxılın yerə yatması, dərziçilərin onu yığışdırması, uşaqların istehsala qoşulması, dəstə-dəstə sünbül yığması, nəticənin böyüklərə verilməsi, sahibkarın üz-gözündən tökülən fərəh, fasilə üçün qadınların yemək hazırlamasının və s.-nin təsviri baş alıb gedir.

Əkinçiliyin ardınca bağçılıq, qızılı salxımda saçaqlanmış üzüm bağı gəlir:

*"Gözəl hörmə səbətlərdə gedir üzüm toplamağa,*
*Gülüşərək keçib gedir, bağdan üzüm daşıyanlar.*
*İçlərindən bir gənc incə formiqini çala-çala*
*Gözəl səslə nəğmə deyir, gözəl Linin şərəfinə.*
*Cavanlar da halay vurub oxuyurlar-oynayırlar,*
*Atılırlar, hoppanırlar, gülüşürlər dəstə-dəstə".*

*(Orada, səh. 412).*

Deyərdik ki, dastanda ən ürəkaçan, ən fərəhli mənzərənin təsviridir, – belə ola həmişə, söyləmək mümkündür. Lakin şərin, qırğının insan həyatında başlanıb getdiyi, günahsız, xəbərsiz adamların pusqusunda dayana, bir dünyada bu gözlənilməzdir – məntiqi itmiş, əsil qarmaqarışıq dünya!..

Sonra maldarlıq gəlir:

*"Nəqş etmişdi yenə orda həm qızıldan, həm qalaydan,*
*Şeşəbuynuz inəklərdən ibarət bir böyük sürü.*
*Böyrüşərək otlamağa gedir sürü yeyin-yeyin*
*Sahilində qamış bitmiş bol ələfli bir çaylağa.*
*Bu sürünün arxasınca saf qızıldan dörd çobanla.*
*Doqquz köpək yeyin-yeyin gedir onu qoruyaraq.*
*Ön səflərdə iki aslan cumur birdən bu sürüyə*
*Bir öküzü yıxır onlar, öküz bərkdən böyürdükcə,*
*Aslanlar da sürükləyir. Köpəklərlə çobanlar da*
*Bunu görcək yüyürürlər o öküzü qurtarmağa,*
*Aslanlarsa parçalayıb yeyirlər heç çəkinmədən*
*İçalatı uda-uda, qanını da yalayırlar.*
*Çobanlar hey haraylayır, qısqırdırlar köpəkləri*
*Onlar qorxub hürüşürlər, tez qaçırlar yenə geri".*

*(Orada, səh. 412).*

Əvvəl götürdüyümüz nümunədə iki əsgər, – insan sürünü güdən çobanı pusur və qəfildən atılıb onları məhv edirlər. Burada isə iki aslan həmin hadisəni başa gətirirlər.

Orada insanın hücumuna uğrayan insanlar aciz, əlacsız, gücsüzdürlər. Burada da heyvanlar, yırtıcılar, aslanlar insanların başına həmin vəziyyəti açmışlar. İndi söhbət heç də inkişafın müəyyən pilləsində insanın təbiətin amansızlığına qarşı artıq çılpaq qalmasında deyil. Məsələ heyvan-insan paralelindədir.

Aslanlar çobanların, itlərin gözü qarşısında sürüyə soxulur, bir öküzü sürüyür. İnsanlar, onların itləri vəziyyəti islah eşqinə düşürlər. Aslanlar isə çəkinmədən parçalayır, yeyirlər.

Gücsüzlüyün, əlacsızlığın məğzi bundadır. Amma yırtıcılıq, ictimai mündəricədə, bu parçalanmaların daha eybəcər formalarını meydana çıxarır. Bu da ictimai məngənənin arasına alıb sıxmaq, – ayaqları zəmanədən üzmək, ictimai vakuuma salmaq, aclıq təhlükəsi, iqtisadi təzyiq, təklənmək, qırağa atılmaq, baxımsızlıq və s.-dən ibarətdir.

Təbii qida çatışmamasından başqa bir cəza kimi tətbiq edilən iqtisadi təzyiq daha eybəcər şəkildə başa gətirilir.

Həbsə düşmək, işgəncəyə uğramaq, dara çəkilmək yolu ilə başa gələn parçalanmaq, zor qarşısında aciz qalıb, əlacsız şəkildə təslim olmaq gözlə görünəndir. İqtisadi, maddi imkandan məhrum edilməkdə bir əlacsızlıq və gözləgörünməzlik var. Müsibətin ən böyüyü budur.

Lakin söhbət işlərin ictimai mündəricəsində yox, insan-heyvan paralelinin tüğyan etməsindədir.

Bu gücdə, qüdrətdə, əzəmətdə qəddarlıqdan, amansızlıqdan başqa içalat yeməkdə, qan yalamaqda bir iyrənclik də var.

---

Amma simvolik məna daha dərindir. Aslan gücünün, qüdrətinin nümayişkaranə təsviri Axillesə hazırlanan qalxana nəqş edilmişdir.

Doğrudan da Axilles döyüşə qoşulmaq məcburiyyətində qaldıqda aslan kimi qüdrətli və amansızdır. Lakin o, "İliada"nın başqa qəhrəmanları kimi qəddarlıqda iyrəncliyə qədər varan, içalat yeyən bəşəriyyətdən deyil.

Məsələn, biz gördük ki, Patroklu məhv edib nəşini abırdan salarkən vəziyyəti yumşaltmaq heç bir şeylə mümkün olmurdu. Bu əməli indi troyalılar başa gətirir. Lakin fərqi yoxdur, başqa təsadüfdə yunanlar da həmin yolun yolçusudurlar – bütövlükdə "İliada" qəhrəmanları – təkcə Axillesdən başqa.

Axilles qüdrət, qəddarlıq, iyrənclik həddini aşa bilir və birdən-birə xalis insan kimi üzə çıxıb bəşəri mündəricəni təmsil etməyə də başlayır.

Troyalılar Yelenanı çırpışdırarkən yunanların həm səadətlərini oğurlamışlar, həm də təhqir etmişlər. Səadəti geri qaytarmaq və mənəvi ləkəni silmək üçün Axilles qəddar idi və iyrəncliyə qədər də varırdı. Lakin Briseida vaqeəsi ilə bağlı təkcə Troya deyil, bəşəri

eybəcərlik qarşısında qaldıqda öz ilkin mövqeyindən imtinaya başlayır və bəşəri məqamda qərar tutur.

Axillesin məhəbbət yetirdiyi, yaxınlıq saxladığı Patroklu həlak etmişdilər və nəşinə də aman yox idi. Amma Axilles intiqam yolu ilə həmin işi Hektorun başına gətirərkən müsibətdə Priamla üzləşdi.

Priam silahsız idi. Yırtıcılıq, qələbə və məğlubiyyət indi onun üçün önəmini itirmişdi. Priam ülviyyəti, ilahi keyfiyyəti – insani məqamı xilas üçün özünü düşmənə təslim etmişdi. Burada Axilles nəinki yırtıcı vəziyyəti, iyrəncliyi islah etdi, həm də o vəhşətin başa gətirdiyi müsibət qarşısında şivən qopardı. Bu təkcə Patroklun, Hektorun, Priamın, Peleyin, Hekubanın, Fetidanın yox, insanın düşdüyü fəlakət və həqarət dəryasının əmələ gətirdiyi çıxılmazlığın şivəni idi.

Yox, Axilles təkcə aslanlar kimi qüdrətli deyildi. O, insan kimi özünü təsdiqə daha artıq qabildir.

Bilindiyi kimi, qalxanın təsvir etdiyi aləm zəngin, əhatə dairəsi geniş, sənətkarlıq ucadır, həm də qalxan. Qızıl, gümüş və dövrünə görə qiymətli sayılan başqa metallarla haşiyələnmişdi. Böyük xərc çəkilmişdi. Özü də niyə? Yekunda bəşəriyyət üçün heç olan müharibə vasitəsinə. Bu isə insanın hədər gedən vaxtı, zəhməti, külü göyə sovrulan sərvətini simvollaşdırır – müharibəyə tökülən küllü xərcləri.

Axillesin başa gətirəcəyi qırğına yollar açılmışdı – Hefestin hazırladığı, Fetidanın gətirdiyi əslahə meydanda idi.

Dastan deyir ki:

*"...Heç kəs həmin silahlara*
*Dümdüz baxa bilməyirdi... Axillessə, görən kimi*
*Daha da bərk qəzəbləndi. Dəhşət yağdı gözlərindən".*

*(Orada, səh. 416).*

---

Silahın döyüşçünü belə vəcdə gətirməsi bir tərəfdən əslahədəki sənətin, bu sənəti yaradan ruhun gücüdürsə, başqa tərəfdən hərbçinin yırtıcılığına meyil edən təbiətindən irəli gəlir.

Biz hər zaman Axillesdə ülvi cəhətlər görmüş, inadla bunu açıb göstərməyə çalışmışıq. Amma Axilles dastan üçün müharibə vasitəsidir. O, hardasa mövqeyinə sadiq qalmalıdır.

Axilles mövqeyi ilə bağlandığı yerdə yırtıcı dünyadan ayrıla bilmir. Amma o, elə qüvvətli şəxsiyyətdir ki, tamamilə də ictimai zəmin içərisində əriyib itmir, sıx-sıx üzə durma halları baş verir (buna şablon dilində “ziddiyyət təşkil edir” deyirlər). Bu zaman mövqeyindən qopur və özü peyda olur – müharibənin gedişindən imtina edib çadırına qapıldığı və ya Priama qoşulub şivən qopardığı kimi.

Lakin indi söhbət bundan getmir. Söhbət ondan gedir ki, indi Axilles döyüşə atılmalı və qırğın seli yaratmalıdır. Bunun üçün də əslahə meydanda, qəhrəmanla sərkərdə arasında da ümumi saziş əldə edilmək üzrədir.

Əvvəlcə Axilles dedi ki, ey Aqamemnon, bir qız üstə küsüşməyimiz kimə xeyir verdi?” Aqamemnon da cavab qaytardı ki, taleyin əlində aciz qalıb səhv buraxmış, əlimdən xəta çıxartmışam. Amma vəziyyəti islah etməyin yolu var:

*“Onda gördüm, Zevs almışdı şüurumu – indi isə*
*Sənə bol-bol ənam verib qoy düzəldim bu səhvimi.*
*...Odisseyin düşərgəsində*
*Vəd etdiyi hədiyyəni nə vaxt desən, təqdim edim*
*İstəyirsən indi verim, ancaq hərbə tələsirsən.*
*Qasidlərim gəmimdən o ənamları gətirərlər,*
*Hamı görsün qoy, nə qədər qiymətlidir həmin şeylər”.*
*Yeyinayaq mərd Axilles belə dedi Atreidə:*
*“Ey şöhrətli Atreyoğlu hökmürəvan Aqamemnon!*
*Mənə layiq hədiyyələr ver, ya vermə, – öz işindir.*
*İndi isə, ancaq hərbin gedişindən danışaq gəl...*
*İndi yenə ön xətlərdə görərsiniz Axillesi.*
*Tunc nizəylə dağıdacaq troyalı qoşunları,*
*Sizlərdən də hər biriniz vurun-yıxın rast gələni!”*
*Müdrik, qoçaq Odissey də belə dedi mərd Pelidə:*
*“Ey allahabənzər Axill, sən igidsən, ancaq indi*
*Axeyləri troyalı qoşunlarla vuruşmağa,*
*Acqarına göndərmə gəl... əgər allah hər qoşuna*
*Eyni qüvvət versə, onda iki tərəf bir-birilə*
*Xeyli müddət vuruşacaq. Uzun çəkər belə savaş.*
*Əmr elə ki, axeylilər gəmilərin qarşısında*
*Yeyib-içsin: bu insana qüvvət verər, cürət verər.*
*Hansı igid düşmənlərlə səhərdən ta axşamadək*
*Acqarına vuruşmağa davam edib tab gətirər?*

*Hətta ruhən möhkəm olub, vuruşmağa cəhd etsə də,*
*İxtiyarsız ac və susuz bədən özü gücdən düşər,*
*Əli-qolu süstləşərək, ləng tərpənər ayaqları.*
*Şərab içib möhkəm yemiş cəngavərsə – yorulmadan*
*Bütün günü düşmənlərlə vuruşmağa hazır olar.*
*Qəlbi möhkəm, əli-qolu cəld tərpənər, gücdən düşməz,*
*Hamıdan da sonra çıxar qanlı döyüş meydanından.*
*Ey Axilles, indi burax hamı getsin yeyib içsin...”*
*Yeyinayaq Axilles cavab verdi:*
*“...Qadir Zevsin köməyilə Priamid qoç Hektorun*
*Nizəsilə həlak olan igidlərin cəsədləri*
*Meydandaykən, siz yeməyə çağırırsız?.. məncə gərək,*
*Axeyli mərd igidlərə əmr edək ki, acqarına*
*Girişsinlər vuruşmağa, düşmənlərdən qisas alaq,*
*Sonra: axşam ləzzət ilə yeyib-içək ziyafətdə.*
*Bu olmamış öz dostumun cəsədinin qarşısında*
*Bir tikə də, bir damcı da keçməz mənim boğazımdan!..*
*Düşərgədə tən ortada, ayaqları qapıya sarı*
*Uzanmış o, sinəsində dərin yara... mən indi yemək deyil,*
*Ölüm və qan, ölən düşmən fəryadları istəyirəm!”*
*Belə dedi Axillesə müdrik mərd Odissey*
*“Ey Peleyin nəcib oğlu, ey Axeya qəhrəmanı!*
*Sən məndən çox cürətlisən, çox üstünsən savaşlarda,*
*Ağıl-kamal sarıdansa, mənə çata bilməzsən sən...”*
*...Axillesin başınasa toplaşaraq sərkərdələr*
*Yalvarırdı yeyib-içsin... osa, fəryad edib dedi:*
*“Dostlarımdan mənə qulaq asan varsa, – yalvarıram,*
*Mənə hələ üz vurmayın, yemək-içmək barəsində...*
*Buna mənim halım yoxdur, dərdim-qəmim çox böyükdür.*
*Gün batana qədər hələ səbr eləyib dözəcəyəm”.*
*Belə deyib qalan bütün başçıları azad etdi,*
*Qaldı ancaq iki Atrid, allahsifət mərd Odissey,*
*Nestor ilə İdomeney, bir də mahir atbaz Fenike.*
*Hamı onu təskin etmək istəyirdi. O isə qanlı*
*Savaşlara girməyincə, sakit ola bilməyirdi”.*

*(Orada, səh.419-424).*

Zahirən biz barışıq mərasimini izləyirik. Əslində isə burada hər şey qırğına doğru gedir. Elə bir qırğın ki, onu insan özü törədib, bu,

onun həyatının baş leytmotivinə çevrilib. Və insan, indiki pillədə, öz naqisliyi ilə buna layiq olduğunu da hər addımda büruzə verir.

Bu fikirləri söyləyərkən biz səbəblər – nəticələr silsilələrini sərf-nəzər edirik.

Aqamemnon barışıq mərasimində Axillesə vəd etdiyi hədiyyələri təqdim tapşırığı verir – hər şeyi nəticə ilə ölçən insan! Axilles də deyir ki, indi mənim qarşımda duran vəzifənin önündə hədiyyələr diqqətimi cəlb etmir. Çünki onu fəaliyyətə nəticə deyil, əqidə səviyyəsinə qalxan prinsip təhrik edirdi.

Əlbəttə, lap yaxşı olardı, Axilles insanlara söyləyərdi ki, hədiyyə söhbətləri ilə məni alçatltmayın, dünyanın – insanın dərdi daha böyükdür. Axilles bunu demir, lakin tutduğu yön doğrudur.

Axilles bunu demir. Çünki bəşəri fikir bütün aydınlığı, məntiqilə sistemli şəkildə onun başında formalaşmamış. Çünki o kim olsa da, hələ tamamilə tarixi meyildən qıraqda deyil.

Çapqın istehsalın ünsürü kimi yaşayış tərzinə daxildir, o da bu boyunduruğa qoşulur. Əsarət altına alma, kəniz götürmə ümumi haldır, o da əsarət altına alır və kəniz götürür. Həmçinin xidmətin önündə dayanan və ya şirnikdirici vasitə olan hədiyyələr onun da nəzərlərinə toxunur. Amma o daim hamının sırasında qalmayıb, dərhal hər şeydə öz bəşəri məzmunu ilə tüğyan edir.

Məsələn, o da kəniz götürür. Lakin kəniz götürmənin ardınca ülviyyət baş qaldırır, kənizinə vurulur. Əsarətə götürdüyünün əsarətinə düşür, ona halal münasibət bəsləyir.

Və s. və i.a.

Hədiyyələrin antibəşəri məzmununu və aqibətini biz Dolonun simasında gördük. Eynilə başqalarının qismətinə göz tikməyin də – Patroklun simasında.

Qənimətlər, hədiyyələr şəbəkəsi, "fəaliyyətə" təhrik edən nəfsin bəşəriliyi hədələməsi idi ki, Aqamemnon – Axilles münasibətində bu qədər müşküllər yaratdı.

Başqasının qismətinə göz tikmək, o olmağı təsdiqə çalışmağın nə demək olduğunu Patroklun acı aqibəti göstərdi.

Bu cəhət Hektor "arzularında" necə baş verir və nə ilə nəticələnir, bu tale ilə də üzləşəcəyik.

Aqamemnon çevrilmələri isə bütünlüklə tarixi naqislikləri təmsil edir. Bu söhbət xeyli müddət davam edəcək.

Axilles hədiyyədən imtinanı sistemli səviyyəyə qaldırmır. Amma ona laqeyd münasibət bəsləyib fəaliyyət, yaradıcılıq, məhsuldarlıq,

ülviyyət üçün əqidənin mühüm, bəşəri amil olduğunu öz mövqeyi və hərəkətləri ilə təsdiq edir.

Axilles deyir ki, hədiyyə söhbətini bir tərəfə buraxaq. Bunun əvəzində gəlin döyüşü başlamaq prinsiplərindən danışaq.

Öz "fərasəti" və "müdrikliyi" ilə seçilən Odissey işə başlamazdan əvvəl rahatlanmağın, aclığı dəf etməyin önəmindən danışır.

Qarının hökmü!

O, ibrətli ibarlərlə qarın problemi qaldırır.

Aclıq, ifrat aclıq, kütləvi aclıq, uzun sürən aclıq və s.-nin hökmünü dəfələrlə açıb göstərmiş.

Qidasızlıq – əhvalın pozulması, süstlük, beynin kütləşməsi, gicgahların sancması, mədədəki ağrılar, zorakılığa, həqarətə, haqqın tapdanmasına, təhqirə, tükləri ürpədən işlərin başa gəlməsinə, mənəviyyatın pozulmasına, iyrənc əxlaqa açılan yollar!!!

Lakin bütün bunlar bəşəri mündəricə üçün namusu, şərəfi, xüsusən əqidəni əvəz etmir.

Namus, şərəf tapdalananda fərdi timsalda ləyaqət ümumi təmsil edilir. Prinsip tarixə şahidlik verir – bu zaman dünya uçuruma yuvarlanır, quyunun dibinə düşür.

Di gəl, indi onu aradan çıxar.

Odissey deyir ki, döyüşdən əvvəl qoşun yeyib-içərsə, bu, ona qüvvət verər, cürət verər. Odisseyin fikrincə tox, şərabla hazırlanmış döyüşçü bütün günü axşamadək vuruşar yorulmaz, gücdən düşməz, qəlbi möhkəm olar, əli-qolu da cəld tərpənər. Amma ac qarına cəsarətin içindən bir şey çıxmaz. O, cəhd göstərə bilər. amma ac bədən ixtiyarsız gücdən düşər, əl-qolu süstləşər, ayaqlar da ləng tərpənər. Ona görə işlərdə başlanğıc qarın məsələlərində diqqətli olmaqdır.

Odissey Axillesin inadının güc gətirdiyini gördükdə pərdəni bir qədər aralayır və kəlamlarını əsaslandırmağa başlayır. Söyləyir ki, allah bir adama hər şeyi vermir. Kimsə nədə isə üstün, nədə isə zəifdir. Məsələn, sən Axilles sürətlisən, amma ağıl sarıdan mənə çata bilməzsən.

Bu kəlam Axillesə öz inadında bir qədər düzəliş aparma təkanı verir. O, deyir ki, qoy ordu səni dinləsin, toxluq, qarın qanunlarına əməl eləsin. Mən isə indi yemək deyil, ölüm və qan, ölən düşmən fəryadları istəyirəm.

Göründüyü kimi, Axillesdə intiqam hissi, qəzəb qarının tələblərini üstələyirdi. Burada xeyir-şər metamorfozları, qarşılıqlı təsir

münasibətlərində ümumi mənzərə yaradaraq qanlı bir nahara meydan verir.

Beləliklə, məsələ kimin daha cəsarətli və ya cəsarətsiz, kimin daha ağıllı və s. olmasında deyil. Burada iki bir-birinə uyğun gəlməyən məntiqin mənzərəsi var. Bu ayrı-ayrı məntiqlər isə çox çalarlıdır. Odissey məntiqində qanlı nahar da, qarın məntiqi də ümumi balansa daxildir. Axilles məntiqində isə qarın məntiqi miskin görünür, intiqam eşqi ilə alovlandıqda isə qanlı nahara sürükləyir, sonra hönkürür, insanın əməlləri ona dəhşət gətirir.

İndilik Axilles ağzına təam götürmək üçün ağsaqqalların onu dilə tutmasına təslim olmur, fəryad edir, açıq bildirir ki, qanlı savaşlara girməyincə heç olmazsa bir döyüşdən çıxmayınca, bir düşmən iniltisi eşitməyincə ağzıma tikə ala bilməyəcəm.

Hər halda, tikə problemi axıra qədər aradan qalxmır. Ən yaxşı halda arxa plana keçir, ilkin qanlı naharın ardınca tikə naharı da gəlir.

İndi qan dəryasına yollar açıqdır. Axilles, mirmidonlar, bütövlükdə yunanlar döyüşə axın edir. Yürüşün "əzəməti" baş verəcək qırğının mənzərəsini əks etdirə bilər:

*"Axeylilər axışdılar gəmilərin qarşısından*
*Səmaları saflaşdıran Borey bulud qovan zaman*
*Necə saysız-yağarsa qar dənələri göydən yerə,*
*Axeylər də, bax, bu sayaq sərpuşları, qalxanları,*
*Davamlı tunc zirehləri, ucu iti nizələri*
*Parıldaşa-parıldaşa cumurdular gəmilərdən...*
*Axilles də ortalıqda silahlanır-geyinirdi.*
*Dişləri bərk qıcırdayır, od yağırdı gözlərindən*
*Kin və qəzəb ürəyində qövr edirdi için-için".*

*(Orada, səh. 426).*

Dastan yürüşün əzəmətini yarım misra ilə bildirib deyir ki, gurlayırdı əsgərlərin addımları, əsgərlərsə qar kimi meydana səpələnirdi. Axillesin də qəzəbdən dişləri bərk qıcırdayır, gözlərindən od yağır, kin və qəzəb ürəyində qövr edirdi.

Axilles döyüşə girməmişdən bir daha qarşıda duran müsibəti xatırlayır, Patroklu yad edir:

*"İndi nəşin yatır burda...*

*...İnan, doğma qoca atam ölsəydi də*
*Dərdim bundan çox olmazdı...*
*Və ya uzaq Skirosda iki gözəl, əziz oğlum*
*Neoptolem ölsəydi də, belə qəmgin olmazdım mən.*
*Əvvəl ümid edirdim ki, Arqosdan çox uzaqlarda,*
*Bu Troya torpağında tək mən həlak olacağam.*
*Sənsə burdan sağ-salamat dönəcəksən Fetidaya,*
*Oğlumu da Skirosdan yeyin gedən bir gəmidə*
*Öz evimə aparacaq...”*

*(Orada, səh. 424-425).*

Müharibə əjdahası həyatın, səadətin, sevincin ağzını birdəfəlik qapayır. O, yad, tənha yerdə ölüm başa gətirir, işləri yarımçıq qoyur, ömürləri qırır, qocalar uğursuz, ümidsiz vəziyyətdə qalır.

Ona əziz adamın nəşinin başı üstə şivən qoparan Axilles (Axilles kimi şəxsin şivən qoparması ən böyük müsibət sayılmalıdır) açıqcasına söyləyir ki, atam yəni Peley kimi əzəmətli qoca, ya oğlum ölsəydi, dərdim bundan çox olmazdı.

İş onda idi ki, Patrokl Axillesə çox yaxın adam olmasından başqa onun ölümü qocanı və uşağı da sahibsiz qoyurdu. Bu mühribədə Axillesin ölümü mütləqdir – bəli, şər yaxşılara daha artıq zaval gətirir, – Patrokl isə sağ qala bilərdi. Lakin şər onu da haqladı, qoca və uşaq himayəsiz qaldı.

Döyüşdən əvvəl Axillesin atlarla məşvərəti daha kədərlidir. Axilles özünə daha yaxın olan atlarına dil açır ki, bu döyüşdə mənə həmdəm, arxa olun. Məni döyüş meydanında düşmən əlinə verməyin. Atlar da ona qısa cavab verir:

*“Ey qüdrətli Peleyoğlu, bu gün səni qurtararıq,*
*Ancaq ömrün sona çatır...”*

*(Orada, səh. 427).*

Bu lakonik cavabda müsibətlərin müsibəti ifa olunur. Həmin atlarla Axilles arasında qarşılıqlı bağlar təkcə ömür vərdişləri, həmdəm olmaqla qalmır, burada taleləri həll edən müştərək fəaliyyət də var. Bu cəhət atlarla qəhrəman arasında böyük bir mənəvi aləm yaradır.

Üstəlik, məxluqlar arasında heç bir heyvanda itlər və atlar kimi həmdəm olduğu insana bağlılıq yoxdur. İtlər və atlar sahibinin vəziyyətini hər kəsdən qabaq bilir. Onların keçirdiyi kədər hissini,

sarsıntını heç şeylə ifadə etmək olmaz. Bəzən bu heyvanlar sahibini itirdikdə ya odur ki, qəribələşirlər, ya odur, həyatları sönür. Bir də ola ki, Axillesə bəxş edilmiş ilahi atlar!..

Burada Axillesin ömrünün qırılması qətidir. Atların müsibəti isə fəhm edilməzdir. Ona görə də atlar yığcam cavab verib dodaqlarını qapayır, dodaqlar kilidlənmiş halda qalır. (Adətən dodaq yox, dişlər kilidlənir).

Axillesin döyüşə qayıtması ilə bir vahimə yaratmalı ki, bütün əsəbləri ilə birlikdə Zevsin özünü belə bir addım geri durmağa məcbur edir. Dastan söyləyir ki, çayların, meşələrin, buludların, çəmənlərin Zevsə məxsus "ilahi" sakinləri Zevsin ətrafında sıxlaşdılar. Zevs onlara həyəcanla söylədi ki, aman, tez hamınız tərəflərə bölünün və döyüş meydanına gedin. Siz tarazlıq yaradın. Yoxsa Axilles bir zərbə ilə hər şeyin axırına çıxar.

Lakin Zevs başa düşürdü, müharibədə ən üzücü, öldürücü şey odur ki, qüvvələr bərabərləşsin, tarazlıq yaratsın.

Bu işin bir tərəfidir.

İşin ikinci tərəfi odur ki, allahlar yığılıbdır, Axilles ətrafında baş sındırırlar. Belə çıxır ki, başda Zevs olmaqla, allahlar özləri belə Axilles üçündür, onun qulluğundadırlar.

Zevs deyir, qarmqarışıqlığı və s. üzündən bəşəriyyət dəstələr, tayfalar, xalqlar şəklində üz-üzə dayanmış, müharibə, qırğın təbii haldadır. O söyləyir ki, insanların ölümündən təəssüflənir. Lakin siz döyüş meydanına gedin, vuruşu qızışdırın, tarazlıq yaradın:

*"Ancaq özüm dik Olimpdə oturaraq, elə burdan,*
*Baxıb ləzzət alacağam"*

*(Orada, səh. 430).*

Burada Zevsin yırtıcı mahiyyəti də üzə çıxır.

Dövlət o zaman istibdad həddinə çıxır ki, artıq o, öz vəzifəsini yerinə yetirə bilmir. Bu da ondan irəli gəlir ki, o, baştutmaz məqsədin ardınca qoşur və ya özü gərəksizləşmişdir. Dövlət əlindən gələn tədbirlərə əl atır. Amma işlər sahmana düşmək yox, günügündən xarablaşır. İstibdadın beyni isti vurmuş toyuq kimi gic olur və hər yerdən sancmağa başlayır. O, özünü ancaq qan və təhqirlə sakitləşdirə bilər. Belə bir obyekt isə zəif düşmüş, zəlil günə qalmış xalqdır.

İstibdad bir iş görür, amma başqa şeylər danışır. O, yeddi qat dəridən çıxır, xalq, qulluq, səadət harayından qulaqlar tutulur. Lakin dövlət – istibdad uğursuzluqda özünü yox, xalqı suçlu tutur. Zəlillik, zəiflik əl verdiyinə görə, əlindəki vasitəylə bu durumu saxlamağa, gücləndirməyə çalışır.

Dövlətin – istibdadın bir dediklərinə, bir də etdiklərinə diqqət yetirin.

Xalq məhəbbət oyadan şeydir – ən cinayətkar, küt dairələrdə və ya fərdlərdə belə. Amma o işləri ki, istibdad xalqa qarşı həyata keçirir, xalqa dərindən nifrət etmədən o işləri başa gətirmək olmaz.

Dövlət – istibdad xalqa nifrət edir! O, öz ağrısını sakitləşdirmək, qəzəbini yatırmaq, nifrətini axıtmaq üçün xalqı təhqir etməli, tük ürpədən qəddar işləri başa gətirməlidir.

Dövlət-xalq münasibətlərindəki mürəkkəblikləri bu cür fəhm etmək lazımdır.

Döyüşə müdaxilə edən allahlar ilkin olaraq Axilleslə Eneyi qarşılaşdırır.

Meydanın qızışması üçün bu ən yaxşı vasitə idi.

Axilles ata tərəfdən kökü həm allah Xirona və həm də Zevsin özünə gedib çıxırdı. Amma o, ana tərəfdən Zevsin qardaşı allah Poseydonun qızı ilahə Fetidanın oğlu idi.

Bir çox igidlərin və qocaman ərlərin kökü Zevsin özünə dirənir. Eney də bu cəhətdən istisna deyil. Amma o da ana tərəfdən Zevsin öz nəvəsi, Zevsin qızı ilahə gözəl Afroditanın oğlu idi.

İki döyüşçü üz-üzə gələrkən Axillesin durumunu dastan belə təsvir edir:

*“Çıxdı onun qarşısına coşğun aslan mərd Axilles –*
*Bir aslan ki, bütün bir kənd cumur onu öldürməyə,*
*Osa gəlir vüqar ilə heç bir kəsi saymayaraq,*
*Ancaq bir gənc nizə ilə vurub onu yaralarsa,*
*O çöməlib inildəyər, köpüklənər qorxunc ağzı.*
*Quyruğuyla qamçılayıb öz-özünü qızışdırır.*
*Düşmənlərlə ölüm-dirim savaşına təhrik edər,*
*Gözlərindən od saçaraq birdən-birə şığıyar ki,*
*Ya düşməni parçalasın, ya da özü həlak olsun, — ....”*

*(Orada, səh.434).*

Burada haşiyə çıxıb demək mümkündür ki, gör dünya nə qədər irəliləmiş, insan-təbiət münasibətlərində hələ dünən adi bir vəhşinin, yırtıcının əlində aciz qalan bəşər bu gün göylərə meydan oxuyur. Bu əsaslı və yaxşı patetika kimi səslənərdi. Bu qədər müdrikcəsinə əlavə də etmək mümkün idi ki, dik dayanmaq hələ tezdir. Bir çox cəhətlərdən insan bu gün də təbiətin qabağında acizdir.

Lakin bu yöndə öcəşmək qonumuzdan qıraqdır. Məqsəd burada Axillesin döyüşə hərisləşmiş durumunu təsvirlərlə qavramaqdadır. Bu yöndə isə "İliada" əvəzsizdir. Bu yöndə təkcə yaralı aslanın quyruğu ilə özünü qamçılaması, öz-özünü qızışdırması, ölümün üstə şığıyıb düşməni parçalamaq arzusu ilə kükrəməsi ifadələrinə diqqət yetirmək bəsdir.

Təbiətinə, vəziyyətinə görə qəddar adamlar var. Bəşərə qəddarlıq, heyvanlara isə biz yırtıcılıq işarə veririk. Axillesin döyüşə yerikləməsinin yaralı aslanın parçalamağa sıçraması paraleli insanın bu cür yırtıcı xislətini üzə çıxara bilər.

Gündəlik həyatda, cəmiyyət qaynarında, tarixdə insanlardakı yırtıcı cəhətləri sıx-sıx müşahidə etmək mümkündür. Lakin biz Axillesin də buna cəlb olunduğunu görürük. Onun "axillesliyi" daha çox həzin anlarda, ülviyyətlə qarşılaşanda, həqarəti dərhal hiss etməsində güclü olduğu halda kövrəkləşməsində və s. üzə çıxır. Amma buradakı insan-aslan paralelindən biz qarşıdakı döyüşlərin, qırğının mənzərəsini asanlıqla anlaya bilərik.

Allahlar Eneyi Axilleslə döyüşə təhrik edirlər. Bir qədər tərəddüddən sonra Eney də döyüşə atılır. Lakin qüvvələr nisbətindəki fərqin nəticəsi allahların da gözünü qorxutmalı ki, onlar özləri Eneyi döyüş meydanından qaçırırlar.

Bütün bunlar hamısı Axillesi əsil döyüşlər üçün qızışdırmaqdır. (Bir insanın məcburi surətdə həyata keçirdiyi vəzifəyə bax!..) – İdman dilində buna formaya düşmə deyirlər.

Eney gözdən itəndə Axilles özünü qoşuna vurur:

*"Axillesin üzərinə cumanda o, nizəsilə*
*Düz başından vurub, yardı kəlləsini bir zərbədə,*
*Sərələndi o torpağa... Bərk çığırdı qoçaq, ey Otrintid,*
*Öldün burda yurddan uzaq, qaldı Gigey sahilində*
*Balığı bol Gillə coşğun Germe yaxın ata mülkün –*
*Ev-eşiyin, ana yurdun bir də səni görməyəcək!"*

*Belə deyib qürurlandı. İfitionsa həlak oldu.*
*İlk cərgədə çapan axey atlıları cəsədini,*
*basıb keçdi. Sonra isə, mərd Axilles nizəsilə*
*Adlı-sanlı Antenorid Demoleont qəhrəmanı*
*Sərpuşunun üstündən düz gicgahından vurdu, nizə,*
*Dəlib keçdi sərpuşu da, başını da, onun beyni*
*parçalanıb darmadağın oldu tamam bircə anda;*
*Özü hücum etdi, amma həlak oldu bir zərbədə...*
*Sonra isə gərdunədən düşüb qaçan Kippodamant*
*Qoçağı da nizəsilə vurdu Axill kürəyindən*
*Can verərkən bərk böyürdü, – cavanlardan pak Kemika*
*Hökdarı Poseydonçün qurbangaha çəkdikləri*
*Öküz kimi... – Yersarsıdan bu qurbandan ləzzət alar.*
*Ölən bərk böyürdü, elə orda çıxdı canı.*
*Pelid cumdu Priamın oğlu gözəl Polidora.*
*Ata onu qanlı döyüş meydanına qoymayırdı, –*
*Övladların ən cavanı, əziziydi atasının, –*
*Bərk qaçmaqda daim üstün gələrdi o, yarışlarda, –*
*Coşğun uşaq həvəsilə o da hünər göstərməkçün*
*Ön səflərdə bərk qaçarkən, elə orda həlak oldu,*
*Yeyinayaq mərd Axilles nizsəilə arxasından*
*Vurdu onu, – o yerdən ki, qızıl toqqa zireh ilə,*
*Birləşərək ikiqat bərk qoruyurdu bədənini.*
*Kürəyindən dəyən nizə çıxdı onun göbəyindən*
*Bərk çığırdı, duman çökdü gözlərinə, əllərilə*
*Çölə çıxan bağırsağı sıxa-sıxa çökdü yerə.*
*Hektor onun əllərilə yarasını sıxa-sıxa*
*Çökdüyünü görən kimi, qəm bürüdü gözlərini".*

*(Orada, səh. 141).*

Priam hökmdardı. İndicə ölən, acınacaqlı, əzilmiş, bağırsaqları tökülmüş cavan, hökmdarın öz oğlu idi. Həm də bunu çox sevirdi. Lakin heç şey, heç kəsi müharibə əjdahasının ağzından çıxara, qırğın selindən qıraq edə bilmir.

Beləliklə, sevinc parçalanıb tökülmüş, heç bir ailədə də bütöv bir səadətə çıxış yolu qoyulmamış.

Axilles başa gətirdiyinə görə guya bu acınacaqlı səhnələr yaxşı işdir. Amma onun arxasında insan taleyinin mənzərəsi durur. Belə olsa, başa düşmək mümkün deyil, insan bu dünyaya nə üçün gəlmiş?!

Bəli, şər dünyasının, şəri asanlıqla həzm eləyən bəşəriyyətin məntiqi qarışmış.

Hektor boynuna düşən vəzifəyə görə, xüsusən də sevimli qardaşının indicə başa gələn həlakı üzündən döyüşə atılmalı idi. Belə də edir. Lakin bu an allahlar işə qarışır, – Hektoru aradan götürürlər. Çünki allahlara lazım idi ki, Hektorla Axilles üz-üzə gələnə qədər, hələ əsas məsələ həll edilməzdən əvvəl, qırğın seli aləmi bürüsün – tarixin mənzərəsində müşahidə edildiyi kimi...

Hektor da nizədən yayınandan sonra Axilles yenə qoşuna baş vurur:

*“...Axilles tunc qılıncını vurdu birdən*
*Dalağını parçaladı, qapqara qan fışqıraraq,*
*Axdı onun xitonuna, zülmət çökdü gözlərinə,*
*Çıxdı canı... Axilles, tez Muliyə hücum edib*
*Vurdu, – nizə bu qulaqdan dəyib, çıxdı o birindən*
*Sonra iti qılıncıyla Axenorid Yexeklin də,*
*Təpəsindən vurdu. Qılınc isti qandan dəstəyədək,*
*Qızdı bütün... bircə anda Yetoklin də gözlərini*
*Bəd taleli qıpqırmızı ölüm yumdu o meydanda.*
*Bundan sonra vurdu iti nizəsilə Devkali onu*
*Qolunun düz dirsəyindən, oynağın tən ortasından.*
*Asılaraq qaldı qolu, ölüm çökdü gözlərinə,*
*Axillessə qolaylanıb qılıncını qaldıraraq,*
*Vurub onun kəlləsini sərpuşuyla saldı yerə.*
*İlikləri səpələndi, cəsəd yerə sərələndi...*
*Necə quru bir meşədə yanğın coşub alışanda,*
*Bütün meşə alovlanıb odlanarsa bircə anda,*
*Külək yarar; çulğayarsa, coşğun alov hər bir yanı, –*
*Eləcə də allahsifət mərd Axilles, əldə nizə,*
*Şığıyaraq qırıb-tökür, qan axırdı yerdə seltək, –*
*Qan çilənsin gərdunənin oxlarına, dəstəklərə,*
*Qan sıçrayır təkərlərdən, atlarının ayağından, –*
*Pelid isə, hey şığıyır, qanlı şöhrət qazanırdı,*
*Yenilməyən əl-qolundan qara-qızıl qan damırdı...”*

*(Orada, səh. 443).*

Bütün bunlar dediyimiz həmin müharibə allahının başa gətirdiyi qırğın selidir. Dəhşət odur ki, biz adi ölümlə üzləşmirik. Bu var.

Lakin burada bundan daha kədərli fakt özünü göstərir. Ölümlə yanaşı insanın eybəcər şəkil almağı, acınacaqlı durumu tükləri ürpəşdirməsi, ürəyi bulandırmasıdır.

Deyir ki, zərbədən dalaq parçalandı (halbuki dalaq bədənin daxilində yerləşir), (qapqara qan fışqırdı, nizə kəllənin (baş yox) bu qulaq yerindən keçib o birindən çıxdı, bədənə yeriyən dəmir, qılınc qandan dəstəyinədək qızdı, qola dəyən zərbə dirsəyi parçaladı – qol asılı qaldı, zərbə kəlləni parçalayır, içindəki ilik yerə səpələnir.

Bütün bunlar hələ qəbirstanlıq yox, qırıntılardan yaranan ət parçaları, yığnağıdır, – acınacaqlı mənzərə!..

Qırğın selini dastan çox sadə təsvir edir. Deyir ki, bu quru meşəyə yanğın düşməsi və alov dəryasının aləmi basması kimi bir şeydir. Ona görə, biz buna qırğın seli adı verdik. Dastan da fikrini tamamlayıb deyir ki, Axilles qırıb-tökür, qan yerə seltək axır.

İnsan qanından əmələ gələn acınacaqlı mənzərəsə belədir: qan gərdunənin oxlarına, dəstəklərə çilənmiş, təkərlərdən, atların ayağından qan süzülür, qan tökənin əl-qolundan da qan damırdı.

Dostluq, mərhəmət, yaratmaq vasitəsi olan əllərdən qan damır.

Şər dünyası üçün bunu bir qədər anlamaq mümkündür. Amma burada həmin şər işi xeyir başa gətirir. Hünər, istək, canatma, nəvaziş, sevgi, kövrəklik, dostluq, yaratmaq, qüdrət dünyası olan Axilles nə üçün bu cür mündəricə kəsb etmiş? Lakin əsər bütövlükdə elə bu suala cavab verir.

Ksanf çayı eyni zamanda ilahi bir ad daşıyır. Lakin Ksanfı dastanda qırğın mayası adlandırmaq olar. Orada biz sadəcə qırğın seli ilə üzləşmirik, bu aləmi basan və məcraya sığmayan qırğındır.

Axillessiz qalan yunan qoşunları daim geri dönür, qaçışır və öz düşərgələrinə sıxışırdılar. İndi vəziyyət əksinədir. Axilles döyüşə atılmışdır. İndi də Troya ordusu geri dönür, qaçışır – həmin yunanların qaçışdığı yolla, şəhərə doğru sıxışırlar.

Dastan söyləyir ki,

*"Pelid qaçan qoşunları dağıdaraq, bir qismini*
*Hələ dünən qoç Hektorun qarşısından Axeylərin*
*Qaçışdığı həmin yolla qovdu birbaş şəhərə sarı...*
*Qalanını qovdu Axill dərin çayın sahilinə.*
*Çay qaynaşır, fəryad qopur sahillərdən... Troyanlar*
*Çığırtıyla vurnuxaraq girdablarda boğulurdu.*
*Necə düzlər odlananda, çəyirtkələr qanad çalıb*

*Cumar çayın sahilinə, ancaq alov güc gələndə*
*Yığın-yığın tökülərlər gur dalğalı dərin çaya...”*

*(Orada, səh.445-446).*

Adamın heç gətirilən nümunəyə izahat verməyə dili gəlmir. Təsvir hər şeyi özü söyləyir. Lakin arzu edərdik ki, buradakı qırğın selini, məcraya sığmayan qan axınını canlı təsəvvür etmək üçün yanğınla, alov dəryası ilə üz-üzə dayanan çəyirtkə dəstəsinin durumu göz qabağına gətiriləydi. Orda bütöv bir çəyirtkə dünyası iki ölüm arasında özünə çıxış yolu axtarır. Bu isə yoxdur. Ona görə də burada daha acınacaqlı durum yaranır.

Amma Axilles acınacaqlı vəziyyətə düşənin həm də (o kim olsa da) insan övladı olduğunu indi fəhm etmirdi. Ona görə də o haylanır və əliyalın qılınca şığıyaraq insanın çıxılmaz, acınacaqlı durumunda antibəşəri hadisənin ən böyük iştirakçısına çevrilir:

*“...Çaldı iti qılıncını,*
*Fəryad qopdu hər tərəfdən, çayın suyu al qan oldu,*
*Mərd Patroklun qisasını almaq üçün axar çaydan*
*Düz on iki gənc döyüşçü seçib tutdu diri-diri”.*

*(Orada, səh 446).*

Axilles bu troyalı döyüşçüləri Patroklun dəfn mərasimində qurban kəsmək üçün əsir götürdü.

Hər halda dəhşətdir.

Müharibənin başa gətirdiyi döyüşlərdəki qırğında kütləvilik və haylanma var. Orda döyüş cazibədarlığı və yarış da müşahidə etmək mümkündür. Lakin ayrıca qətl mərasimi müharibənin başa gətirdiyi bütöv bir qırğından daha vahiməlidir.

Burada ayrıca tale var. Haylanma, yarış, tamah arxada qalmış. İndi dəhşət göz qabağında dayanır və taleni saf-çürük etmək üçün fikrə dalmağa fürsət düşmüşdür.

Ona görə də ayrıca qətl hadisəsi dəhşət yaratmalıdır – həm qətlə yetənin və həm də hər bir tamaşaçının öz qisməti, öz taleyi baxımından. Bu gün sənə, sabah mənə. Və ya bu gün mənə, sabah sənə. Başqasının əzabını hiss etməyi və bunu duymağı buna əlavə lazımdır.

Bütövlükdə isə insana qarşı dayanan qəddarlıq.

Ayrıca qətlin törətdiyi dəhşətin mayası buradadır.

Bəşərin keçib gəldiyi yolun darıxdırıcılığı orasındadır ki, bəşərilik mücəssəməsi olan Axilles antibəşəri gedişlərdə bəşəriyyətə qoşulmalı, azğınlıqda hətta onların özlərini də üstələməlidir.

Ayrıca qətl vahiməlidir. Lakin hələ müharibəyə qədər də gündəlik hadisələr fərdləri üz-üzə qoyur, ölüm-dirim vəziyyəti yaradır.

Edam edilmək, qətlə çatdırılmaq, güllələnmək, işgəncəyə uğramaq, tonqalda yandırılmaq, dabanından soyulmaq hər bir an, hər bir kəsin başına gələ bilər – haqlı, haqsız.

Vahimənin, qorxunun təsirindən hər kəs müvazinətini itirə, çaşqınlıq yarada, süstləşə və s.-ə dönə bilər. Xoşbəxt o adamdır ki, sağ günlərində gördüyü işlərlə xatirələrdə xoş təsir buraxıb və elə xarakterə malikdir. Elə qüdrətli fəaliyyət yolu keçib gəlmiş ki, özlüyündə dəhşətli hadisə olan qətlin vahiməsi onun fantaziyasına yol tapa bilmir, bu, onun dodaqlarında istehzalı gülümsəmə yaradır.

Bu, yaxşı məqamdır. Lakin bu yoxdursa, qətl qarşısında qalan adam buna ağrıyan dişi çıxartdırmaq məcburiyyəti kimi baxmalıdır. İdrak bunu bütünlüklə fəhm etsə, qətl qətl olunan yox, şahidlər üçün vahiməlidir...

Amma burada qətl hadisəsi, antibəşəri işlər sonraya saxlanılır. Hazırda isə Axilles qırğın selinin "baş memarına" çevrilmiş. Burada ömrü başa vurmaq yoxdur. Əslində indi qırğınla başa gələn ölüm özü sanki bir əyləncədir.

Ölüm haqdır. Axillesin başa gətirdiyi qırğında əcəli-mayallıq da ona qoşulmuş. Burada heç bir təsadüfdə, heç bir kəsə aman yoxdur. Axilles özü də aman istəyənlərə deyir ki:

*"Nə qədər ki, Patrokl sağdı, troyalı əsirləri,*
*Əfv eləmək mənə bəzən xoş gəlirdi...*
*İndi isə bu şəhərin qarşısında bir troyan,*
*Xüsusilə Priamın övladları girə düşsə,*
*Yox, yox, əsla xilas ola bilməyəcək həlakətdən,*
*Atam adlı-sanlı əyan, anam da ki, – pak ilahə,*
*Ancaq tale hökmü verib, mən də bir gün ölməliyəm..."*

*(Orada, səh. 448).*

Axilles aman vermir. Bunu da o, intiqam hissi ilə, Patrokla əvəz "məntiqi" ilə izah edir. Halbuki müharibədə qarşı duran tərəflərdən hər kəs üçün bir Patrokl qəziyyəsi ola bilər. Belə də var.

Budur bax, xeyrə qarşı şəri daha asanlıqla həzm edən bəşərin ağlının mənzərəsi, başa gətirdiyi taleyin gərdişi.

Hətta Axilles qarşısında dayanan qurbanlara təlqin etmək istəyir ki, ölümə, qətlə çatdırılmağa alışın, buna adi gözlə baxın. Atam filankəs, anam ilahə olsa belə, bu gün-sabah mənim özümün də tale ulduzum sönəcək, mən də adi bir insan oğlunun əli ilə həlaka çatdırılacağam.

Tale xəbər verib ki, Axilles müharibə hay-küyünə qarışsa, daha aydını, döyüşə girib Hektoru öldürsə, özünün də ömrü yarımçıq qalacaq, qırılıb düşəcək. Ona deyirdilər ki, əgər bütöv ömrü başa vurmaq istəyirsənsə, Hektoru öldürmə, – yəni döyüşə atılma.

Adam həlli müşkül durum qarşısında qalır: həm Axillesi iş başında görmək istəyir, həm də istəyir ki, onun ömrü vaxtsız başa çatmasın. Halbuki tale ona Axillesliyi təsdiq üçün müharibəni meydan vermiş. Hərçənd ki, bizim üçün Axillesin bəşəri mündəricəsi başqa münasibətlərlə üzə çıxır.

Axilles döyüşlərdə cövlan edir. Ağıllı atalarımız da deyiblər ki, su sənəyi suda sınar. İşin ilahiliyi elə orasındadır ki, gərdiş şərlə qaynayıb-qarışarkən heç kəsə fərq qoymur. Heç olmasa simvolik mənada...

Axilles burada qətlə çatdırmaq zərurətində olan dünyaya, dediyimiz, diş ağrısı gözü ilə baxır...

Çay qırağındakı döyüşlərdə insanlar Axillesin əli ilə balıqlara yem olur. Balıqlar suya tökülən yaralıların böyərklərini basmış piylərə daraşırlar.

Axilles özünü haqlı sayır:

*"Biz Müqəddəs İlionu alanadək siz qaçınız,*
*Mən də qovub hamınızı arxanızdan vurub, qırım!*
*Məşum tale məhv edəcək sizi burda, həm Patroklun*
*Həm də mənsiz gəmilərin yaxınında qırdığınız*
*Axeylərin əvəzini alacağam hamınızdan!"*

*(Orada, səh. 449).*

Xüsusi izaha ehtiyac yoxdur. Adi qırğın selidir, davam edir. Ağla əzab verən cəhət odur ki, Axilles kütləvi qırğınlarla yanaşı eybəcər, acınacaqlı fərdi şaqqalama da başa gətirir:

*"Göbəyinin lap yanından vurdu, bütün içalatı,*
*Axdı yerə..."*

*(Orada, səh.450).*

Bu kökə düşənin də kim olmasının heç bir önəmi yoxdur.

Lakin indicə üzərində dayandığımız gedişlərdə əsas məsələ qırğın selidir, eybəcərlik bu məcrasız fəlakətin önündə cüzi görünür.

Axilles öz Zevs xisləti ilə (yalnız burada) kükrəyir və qırmağında davam edir:

*"Mirmidonda qəbilələr hökmdarı Eak oğlu*
*Mərd Peleyin oğluyam mən, – Zevs oğludur babam Eak""*

*(Orada, səh.451).*

*"Dəhşət ilə gördülər ki, başçıları Asteropey*
*Axillesin pəncəsində həlak oldu bircə anda.*
*Orda bir-bir Fersiloku, Midon, Mnpes, Eni, Frazi,*
*Astipilp, Ofelesti vurub yıxdı mərd Axilles.*
*Əgər çayın bərk qəzəbi tutmasaydı, yəqin hələ*
*Teonlardan çoxlarını qıracaqdı igid Pelid*
*Fani insan surətində bərk çığırdı dərindən çay.*
*"Ey Axilles! Qüvvətdə də, cürətdə də hər igiddən*
*Üstünsən sən, allahlar hifz edir səni məhəbbətlə,*
*Kronion sənə bütün troyalı qoşunları*
*Qırmağı əmr eləmisə, burdan qovla, get, çöldə qır*
*Mənim saf sularımı doldurubsan cəsədlərlə.*
*Daha axıb pak dənizə getməyə yol tapmıram mən.*
*Cəsədlərlə dolub yolum, sən hələ də hey qırırsan!*
*Daha bəsdir, bir əl saxla! Mən qorxuram ey qəhrəman!*
*Yeyinayaq Axilles də belə dedi axarçaya:*
*"Ey Zevsin yetirməsi Skamandır, elə olsun!*
*Ancaq Məğrur troyanlar İliona qaçmayınca,*
*Qırmaqdan əl çəkmərəm mən. Gərək lovğa Hektor ilə*
*Qarşılaşam, – ya o mənə qalib gəlsin, ya mən ona!"*

*...Qorxubilməz qoç Axilles dik sahildən,*
*Tullandı gur dərin çaya... qəzəbli çay çalxalandı,*
*Dibindəki cəsədləri qaldırdı su üzərinə.*
*Qızmış öküz nərəsiylə ölüləri atdı kənar.*
*Diriləri sahilboyu gurhagurla axıb gedən,*
*Saf suların qaynadığı burulğanlar arasında*
*Gizlədərək, hifz elədi Axillesin qəzəbindən.*
*Axillesin dövrəsində dəhşətli bir dalğa qalxdı,*

*Qapdı onun qalxanını, alahsifət Axilles də*
*Bu təkandan yıxılanda, əl ataraq sahildəki*
*Qocaman bir qarağacı qopardı lap kötüyündən,*
*Dik sahil də uçdu birdən, ağacdakı sıx budaqlar,*
*Çökdü suya körpü kimi bu sahildən – o sahilə.*
*Axilles də burulğandan var gücüylə qaçdı birbaş düzənliyə*
*Eləcə də Axillesin arxasınca gələn dalğa,*
*O, nə qədər bərk qaçsa da, – çatıb onu haqlayırdı,*
*Çünki ölməz allahlar çox qüdrətlidir insanlardan,*
*Yeyinayaq Axilles bir neçə dəfə qayıdaraq,*
*Baxdı görsün bu nə işdir, bəlkə onu təqib edən,*
*Allahlardır, – hamı birdən qəzəblənib bəlkə ona?*
*Birdən Zevsin güc verdiyi nəhəng dalğa qalxaraq*
*Çökdü onun üzərinə... qorxudan bərk sıçradı o.*
*Dalğa onu dizlərini büküb cumdu hər tərəfdən.*
*Ayağının altından da sanki torpaq qaçdı birdən.*
*Səmalara üz tutaraq fəryad etdi mərd Axilles:*
*"Ey Zevs ata! Mən bədbəxtə rəhm eləyin, ey allahlar!*
*Xilas edin çaydan! Sonra hər cəzaya dözərəm mən.*
*Allahların heç birindən şikayətim yoxdur, ancaq*
*Doğma anam yalan sözlə azdırmışdır məni yoldan,*
*Söyləyib ki, möhkəm bürclü Troyanın qarşısında,*
*Məni yalnız Apollonun iti oxu öldürəcək.*
*Kaş ki, məni adlı-sanlı igid Hektor öldürəydi,*
*Şanlı igid öldürəydi barı şanlı bir igidi!..*
*İndi isə, burda sarsaq bir ölümlə ölməliyəm:*
*Qışda çaydan bala donuz çobanıtək*
*Sürükləyib aparacaq, öldürəcək məni bu çay!"*

*(Orada, səh. 451-453).*

Gətirdiyimiz nümunələr heç də, hər dəfə olduğu kimi, müəyyən fikri əsaslandırmaq üçün deyil. Burada məqsəd bilavasitə qırğın selini, onun təsir dairəsini, ətraf üzərindəki ağalığının mənzərəsini göstərməkdir.

Bununla yanaşı diqqət cəlb edən cəhətlər də var.

Sitat yığımının lap başlanğıcında Axilles söyləyir babam Eak Zevsin oğludur. Bir adam ki, iş məqamında babasının allah oğlu olduğunu nəzərə çatdırsa, bunun məna çalarlarını izaha ehtiyac varmı?

İş ondadır ki, bu allah əcdadlı insan işi o yerə çatdırmış ki, təbiət – yəni axar çay deyir, daha pak dənizə getməyə yol tapmıram.

Deməli, müharibə, onun yaratdığı qırğın seli, cəmiyyət həyatındakı müxtəlif eybəcərliklərdən, təsərrüfatsızlıq, aclıq, dağıntı, yesirlik-yetimlik, şikəstlik, mənəvi düşkünlük, pozuqluq, dərəbəylik və s. başqa, təbiəti də kor qoyur, söndürür, murdarlayır.

Atalar deyir, axar su murdar olmaz. Çay da fəryad qoparır ki, qırğın əlindən daha axmağa yer tapmıram.

Deməli, pak, müqəddəs şeylərin murdarlanma təhlükəsi başın üstünü kəsdirmiş.

Atalar söyləyir, dəniz murdar götürməz.

Çay da fəryad qoparır ki, dənizlə, – yəni təmizin təmizlə qovuşmaq imkanı aradan götürülmüş.

Deməli, təmizliyin ərşə çəkilmə və dünyanın murdar selinə qərq olma təhlükəsi başın üstünü kəsdirmiş...

Diqqəti cəlb edən şeylərdən biri də budur ki, çayların birləşib, – yəni canı boğazına yığılan təbiətin günahkarın, – Axillesin üstə yeriməsidir.

Elm də ki, bu eyhamı izah etmiş: təbiət vurulan zərbələri cavabsız buraxmır, intiqam alır.

Ən diqqəti cəlb edən şey təbiətin hücumu qarşısında Axillesin, bir an üçün olsa da, başını itirməsidir.

O, dalğalar kükrəməsindən, qolaylanmasından vahimələnir və “ey Zevs ata, mən bədbəxtə rəhm elə!” deyə bağırır.

Halbuki hər cür təhlükə, müxtəlif rəngli qismətlərin əldən çıxma ehtimalı qarşısında özünü itirməmək üçün ölümü və qismətsizliyi bu başdan bir fakt kimi qəbul etmək lazımdır.

Əgər bu yoxdursa, onda İdeal da, qəhrəmanlıq da ola bilməz.

Axilles isə ideal adamdır və qəhrəmandır, – həm ruhunda, həm qolunda!

Madam ki, Axilles təkin adam da haradasa özünü itirir, fəryad qoparır, deməli, qəhrəmanlıq mütləq biçimdə deyil, – başqa sözlə, özündən zəifə qarşıdır.

Belə isə, əslində qəhrəmanlıq yoxdur. Çünki kamil adam güclüyə qarşı eləyə bilmədiyini zəifə də etməməlidir: birinə gücü çatmadığına, o birinə həmin səbəbdən haqqı olmadığına görə...

Bu söhbət əslində qol qəhrəmanlarına aiddir.

İradi qəhrəmanlar üçün güc yox, haqq var. Onlar haqqı heç bir güc, təhlükə qarşısında güzəşt etməz, özlərini itirib fəryad da qoparmazlar.

Görünür, dastan Axillesə burada ümumi hal mövqeyindən baxmış və dürüstlüyü itirmiş...

Lakin indicə bizim diqqətimizi cəlb edən şey qırğının məcrasızlığıdır. O isə bütün söhbətlərdən sonra aşağıdakı mənzərədədir:

*"Su üzündə çox-çox qəşəng zirehlərlə cavanların*
*Cəsədləri üzməkdəydi..."*

*(Orada, səh. 454).*

Bu, Zevsin planının təntənəsidir. Başqa sözlə, kökü üzülməsə də, zəifləməsi üçün şər ifrata varmalıdır.

Şər var. Lakin bu kimin üçündür?

Ümumi vəziyyət baxımından Axilles fəaliyyəti xeyirdir. Lakin xeyir olan Axilles Troya qövmünə şərdir. Bu şər onlar üçün nə şəkil almalı ki, qoca Priam başını itirməyə başlayır:

*"Bir qüllədə sakit durub çox qocalmış mərd Priam*
*Gördü qoç Axillesdən, – nəhəng kimi, – dəhşət ilə*
*Troyalı qoşunların qaçmasını: artıq onun*
*Qarşısında duran yoxdu... hönkür-hönkür ağlayaraq,*
*Enib gəldi, bərk çığırdı darvazada duranlara:*

*"Açın, açın darvazanı! Qaçan qoşun gəlib girsin,*
*Sonra möhkəm durun yenə! Axilles çox yaxındadır!*
*Qovur bizim qoşunları, qorxuram ki, məhv olaq biz!*
*Bizimkilər şəhrə dolub asudə bir nəfəs alcaq,*
*Örtüb möhkəm darvazanı, yenə daldan bərk bağlayın!*
*Qorxuram ki, şəhərə də gəlib girə qəddar Axil!"*
*"Ayağında taqət olan*
*Soxulurdu tez şəhərə, öz canını qurtarmağa".*
*"Hürkmüş ceyran sürüsütək doldu şəhrə troyanlar...*
*Hektorusa, məşum tale bənd etmişdi... bürcdən qıraq,*
*Möhkəm Skey darvazası qarşısında qalmışdı tək..."*
*"...Ancaq Hektor Axilleslə bərk vuruşmaq,*
*Arzusuyla tək dayandı darvazanın qarşısında.*
*Qoca ata yazıq-yazıq yalvararaq belə dedi:*

*...Oğul, cəld ol, qaç qalaya, heç olmasa, sən sağ qal ki,*
*Troyalı cavanları qoruyasan, – Pelid ad-san*
*Qazanmasın... öz canına qıyma nahaq, qaç, xilas ol!*
*Oğul, mənə rəhmin gəlsin, – ağlım-huşum yerindədir,*
*Nə bədbəxtəm mən yazıq, ah!... Atam Zevs son nəfəsdə,*
*Nə bəd tale vermiş mənə... Ah, mən nələr görəcəyəm!*
*Oğlanlarım həlak olur, qızlarımsa əsarətdə,*
*Evim yağma ediləcək, dil bilməyən körpələri*
*Amansızca qıracaqlar, çırpacaqlar sərt daşlara,*
*Gəlinlərim axeylərə qul olacaq yad ellərdə!..*
*Özümü də öldürəcək, atacaqlar, cəsədimi*
*Öz qapımın ağzındaca o qaniçən ac köpəklər*
*Parça-parça didişdirib, qapışdırıb yeyəcəklər, –*
*Öz süfrəmdən yemək verib bəslədiyim o köpəklər*
*Al qanımı içib, orda məst yatacaqlar...*
*Döyüşlərdə həlak olan bir gənc necə düşüb qalsa,*
*Eyb eləməz, çünki cavan bədəninin hansı yeri*
*Açıq qalsa yenə gözə xoş görünür, gözəl olur.*
*Ancaq qoca cəsədinin boz tük basmış üz-gözünü*
*Ya eybəcər yerlərini ac köpəklər gəmirərsə,*
*Fanilərçün bundan iyrənc bir mənzərə ola bilməz!*

*...Ancaq Hektor yenə əsla dönmədi öz qərarından*
*Sakit durub gözləyirdi nəhəng igid Axillesi...*
*Bu zaman o, öz cürətli ürəyinə belə dedi:*
*"Vay halıma, burdan qaçıb darvazaya girsəm əgər,*
*Ən əvvəl Pulidamant danlayaraq deyəcək ki,*
*Axilles bu döyüşlərə qoşulduğu həmin gecə,*
*Qoşunları Troyaya qaytarmağı söyləmişdi, –*
*Mənsə əməl etməmişdim... çox faydalı məsləhətmiş!..*
*İndisə, öz inadımla xalqı darda qoyduğumdan*
*Utanıram Troyalı kişilərdən, qadınlardan, –*
*Qorxuram ki, məndən alçaq biri töhmət edib deyər:*
*"Öz gücünə güvənərək, xalqı bədbəxt etdi Hektor!"*
*Yəqin belə deyəcəklər... bundan isə, xoşdur mənə*
*Təkbaşına vuruşaraq Axillesi həlak edim,*
*Ya da onun pəncəsində şan-şərəflə həlak olum!*
*Bəlkə qalxan-sərpuşumu tamamilə qoyum yerə,*
*Nizəmi də söykəyərək bu divara, dümdüz gedim.*

*Nəcabətli Peley oğlu Axillesə söyləyim ki,*
*Yelenanı qaytararaq Atridlərə, üstəlik də*
*Bu savaşa bais olan Gibrisin öz gəmisiylə,*
*Qarət edib gətirdiyi o tükənməz sərvəti də,*
*Veririk biz... bundan başqa təklif edim, bu şəhərdə,*
*Olan bütün sərvəti də yarı bölüb verək ona.*
*Sonra isə troyalı başçılara and içdirib*
*Tapşıram ki, şəhərdə olan bütün sərvətləri*
*Gizləməyib, sədaqətlə iki yerə ayırsınlar...*
*Ancaq... nədir ürəyimə əzab verən bu duyğular?*
*Danışmağın nə mənası! Yalvarışı dinləməz o!..*
*Mən silahı, zirehimi yerə qoysam, – rəhm etmədən*
*Elə çılpaq bir qadıntək öldürəcək məni yəqin.*
*Bir-birilə görüşəndə palıd ilə daş haqqında*
*Söhbət açan gənc qızlarla olanlartək bizə əsla,*
*Mümkün deyil bir də başdan başlayaq bu söhbətlərə.*
*Ən yaxşısı budur ki, cəld işə salaq silahları,*
*Sonra görək kimə verir qadir Zevs şan-şöhrəti".*
*...Axilles də Enşalı*
*Allah kimi dəhşət saçan sərpuşuyla şığıyırdı...*
*Onu görcək qorxu düşdü qoç Hektorun ürəyinə,*
*Darvazaya dal çevirib qaçdı onun qarşısından".*

*(Orada, səh. 461-469).*

Zevsin istəyi başa gəlir. İndi Allahların insanlar üçün tərtib etdiyi müharibə oyunu (həm bəndələr üçün ölüm qərəvəllisi tərtib edəsən, həm də haqqın, ədalətin simvolu kimi allah adlanasan!!!) elə nöqtəyə çatır ki, Axilles Hektorla üz-üzə qalmalıdır.

Ardıcıl gətirdiyimiz nümunələr göstərir ki, troyalılarınkı bura qədərmiş, onlarınkı başa çatıb...

Beləliklə, kütləvi qırğının ardınca hamının üz çevirib başıpozuq şəkildə qaçması başlayır. Bu özü, əslində, kütləvi qırğının acınacaqlı davamıdır ki, təkbətək döyüşə yol açırdı.

Biz burada müharibəyə başlayan tərəf, daha doğrusu döyüş sərsəmliyinə səbəb olan cəhətlər haqqında uzun-uzadı mühakimələr qura, mühakimələr sicilləməsi apara bilərik. Ən azı onu demək mümkündür ki, döyüşə birinci atılan tərəf, heç olmasa yekunu bu başdan görməlidir. Lakin işin antibəşəriliyi, qeyri-idrakiliyi orasın-

dadır ki, bizim gümanımız yönündə keyfiyyət hələ heç bir yerdə müşahidə olmayıb.

Hər kəs müharibəyə qələbə arzusu ilə başlayır. Bir çox halda isə hadisələr məhz müharibəni başlayan tərəfi məğlubiyyətə aparır. Qalibi isə müəyyən etmək işi müşküldür. Çünki onun sonradan düşdüyü quyunun içində bu qələbənin də əli olur.

Müharibə hamını uduzdurur, məğlubu indi, qalibi sonra.

Biz xalqlar, insan, bəşər haqqında böyük fikirdəyik. Amma onun mühakimələrindəki tutqunluqlar, hər bir addımındakı naqis gedişlər bizi məyus etməyə bilməz. Bir gündəlik hadisələrə, iki adam arasındakı münasibətlərin gedişinə, bəşər tarixinin mənzərəsinə diqqət yetirin... İşlərin də axırı istibdad və istilaya çıxır.

İstibdad, sonra da onun başa gətirdiyi istila, bəşərin naqisliyinin ən böyük ifadəsidir.

Burada diqqətimizi cəlb edən ən mühüm cəhət Hektorun heç bir çəkindirici tələbləri, tövsiyələri eşitmədən nəfsin və vüqarın təhrikiylə qüvvələrin bərabər olmadığı şərtlərlə döyüşə can atmasıdır. Xüsusən, ata yalvarışlarında və Hektorun Axilleslə üz-üzə gəldiyi mənzərədə müharibənin antibəşəriliyi, eybəcər mənzərəsi daha artıq üzə çıxır.

Qoca Priam, ata məğlub tərəfin acınacaqlı, tükləri ürpədən, eybəcər durumunu belə ifadə edir. Deyir ki, evimi yağma edəcəklər, dinc insanları qıracaqlar, körpələri daşa çırpacaqlar, özümü də öldürüb, qapımda bəslənən itlərə atacaqlar. İtlər ətimi yeyəcək, qanımı içib məst olacaqlar. Abrım da töküləcək. Döyüşlərdə bir gənc ölər. Onun gənc cəsədi göz qabağında lüt qalsa mənzərə o qədər də acınacaqlı olmaz. Cavan bədənin hər hansı yeri açıq qalsa yenə gözə xoş görünər. Amma qoca cəsədi tük basmış boz üz-gözünü, ya eybəcər yerlərini köpəklər gəmirərsə, bu, çox iyrənc mənzərədir.

Müharibənin antibəşəri məzmununun haqqında, daha heç bir şey demirik: həm müsibət və həm də hüduda sığmayan həqarət yağışı.

Bəşərin müharibə müşkülünün əsil mənzərəsi Hektorun Axilleslə üz-üzə qaldığı anda daha qabarıq görünür.

Biz zahiri əlamətlərə əsaslansaq, Hektor üz-üzə durmaq təhlükəsindən yan keçmək, döyüş zərurətindən sürüşmək imkanını tapa bilərik.

Biz gördük ki, ata – qoca Priam Hektoru Axilleslə üz-üzə gəlməkdən, təkbətək döyüşdən çəkindirmək üçün ona necə bir dil açdı. Sonra ana da eyni, hətta daha yanıqlı surətdə oğluna yalvardı. Biz bu

səhnədən istifadəyə ehtiyac hiss etmədik. Lakin bunlar o vaxtlar idi ki, artıq iş-işdən keçmiş, bıçaq xirtdəyə dayanmışdı. Həm də burada valideyn-övlad sövq-təbiissi də vardı...

Bir zaman Andromaxa da ərini – Hektoru heç vuruşa getməməyə çağırırdı. Biz həmin əhvalatlara müəyyən münasibətlə bir də qayıdacağıq. Ölkənin taleyi həll edildiyi, döyüşdə tərəflərdən hansının üstün olduğu bilinmədiyi, vuruşun qızğın vaxtında fərarilik etmək olmazdı.

Lakin dostu Polidamant Hektora və qoşuna elə bir vaxtda ağıllı məsləhətlər verməyə başladı, onda hadisələrin yekunu göz qabağında idi. Troyalıların işi bitmişdi: Axilleslə Aqamemnon arasında saziş bərpa olunmuş, qəhrəman döyüşə atılırdı.

Bu anda Polidamatın tövsiyyələrini eşitmək həm vaxt, həm də bu qədər əlverişli mövqe qazandırırdı. Bu isə çıxılmaz vəziyyəti, ümidsiz olsa da, allaha təvəkkül şəklində bir daha götür-qoy imkanı verirdi.

Bu ibrətli səhnəni bütöv buraya köçürürük:

*“Çoxdan bəri hərb etməyən*
*Axillesin görünməsi onları bərk qorxutmuşdu.*
*Çox ağıllı Polidamant danışırdı bu barədə.*
*Bircə oydu dünəni də, sabahı da aydın görən.*
*Hektor ilə dostdu. Onlar bir gecədə doğulmuşdu.*
*O, nitqdə mahir idi, Hektor-nizə savaşında.*
*Ən xeyirxah bir niyyətlə belə dedi yığıncağa:*
*“Dostlar, gəlin yaxşı-yaxşı fikirləşək. Mən deyirəm*
*Sübhü düzdə gözləməyib, ricət edək biz şəhərə.*
*Çünki bizim möhkəm qala burdan xeyli uzaqdadır.*
*Nə qədər ki, düşmən idi Aqamemnon ilə Axil,*
*Axeylərlə vuruşmaq da bizim üçün çox asandı.*
*Bu düşərgə qarşısında mən özüm də sevinərək,*
*Deyirdim ki, gəmiləri asanlıqla alacayıq.*
*İndisə, o yeyinayaq Axillesdən çox qorxuram:*
*Qüdrətinə güvənərək, əsla razı olmayacaq,*
*Düzənliyin ortasında bu vaxtadək bu meydanda*
*Durduğumuz yerdə qalıb, axeylərlə vuruşmağa, –*
*Troyanı qadınları almağa cəhd edəcəkdir...*
*Tez şəhərə! Qulaq asın! Yoxsa işlər pis olacaq.*
*Xoş ətirli gecə indi mane oldu Axillesə,*

*Əgər sabah, əldə silah, bizə möhkəm hücum etsə,*
*Onda yəqin çoxlarımız tanıyırıq mərd Pelidi!*
*Kim canını qurtararaq Troyaya qaça bilsə,*
*Sevinəcək... Troyalı igidlərdən bir çoxları*
*Qurda-quşa yem olacaq... kaş mən bunu görməyəydim!*
*Nə qədər də acı olsa, mən deyəni etsək əgər,*
*O şəhərin divarları, qüllələri, darvazalar,*
*Uca, hamar, möhkəm bürclər bizə yaxşı sığnaq olar.*
*Səhər tezdən yaxşı-yaxşı silahlanıb geyinərək,*
*Qüllələrdə dayanarıq... Onda Axil gəmilərdən,*
*Uzaqlaşıb Troyaya hücum etsə, vay halına.*
*Nahaq yerə bürc önündə uzunboylu atlarını*
*Qova-qova əldən salıb boş qayıdar düşərgəyə.*
*Bürcü aşıb girməyə o, cürət etməz, divarları*
*Yıxa bilməz... Özü burda ac itlərə qismət olar!"*

*Bərk qəzəblə baxıb ona parlaqsərpuş Hektor dedi:*
*"Polidamant! Heç xoşuma gəlmir sənin bu sözlərin*
*Deyirsən ki, gedib yenə sığınaq biz Troyaya!*
*Doymadınız dörd divarın arasında oturmaqdan?*
*Bir zamanlar Priamın yurdu – bu pak Troyanı*
*Hamı misi, qızılı bol şəhər kimi tanıyırdı.*
*İndi isə, evlərindən yox açıxıb mislə qızıl*
*Zevs bizə qəzəbliykən Frikyaya, Monyaya*
*Satılmışdır bizim bütün var-yoxumuz, sərvətimiz!*
*İndi isə o, hiyləgər Kronoğlu axeyləri*
*Qovub şöhrət qazanmağa mənə imkan verən zaman*
*Xalq önündə belə axmaq söz danışma nahaq-nahaq...*
*Buna heç kim qulaq asmaz, mən də buna yol verməræm!*
*Yetər daha!... İndi gəlin, mən deyənə əməl edək!*
*Hissə-hissə əyləşərək indi hamı yemək yesin.*
*Keşikçilər qoyun gecə, ayıq dursun hər keşikçi.*
*Troyalı varlılardan kimin bolsa var-dövləti,*
*Qoy pay versin xalq işinə bizim ellik qonaqlığa.*
*Bu bəxşişdən düşmənə yox, bizə versə yaxşı olar!*
*Səhər tezdən hamı geysin möhkəm döyüş libasını,*
*Gəmilərin qarşısında bərk vuruşaq axeylərlə*
*Allahsifət Axillessə, doğrudan da hərbə girsə*
*Bu arzusu ona xeyli baha tamam olacaqdır.*

*Qabağından qaçmayıb mən, şığıyaram düz üstünə.*
*Əgər dursa qabağımda, görərik kim üstün gələr!*
*Ares birdir hamı üçün: əzəni də əzir, bəli!”...*
*Belə dedi – Troyanlar qəbul edib qıy vurdular...*
*Ay axmaqlar! Əqlinizi alıb sizin pak Afina!*
*Hektor yanlış söz söylədi, təsdiq etdi onu hamı,*
*Polidamant düz söz dedi, amma heç kəs bəyənmədi...*

*(Orada, səh. 402-404).*

Ananın, atanın, arvadın Hektora dedikərindən başqa Polidamantın ümumə və Hektora tövsiyələri həm daha əlverişli vaxtdadır və həm də bitərəf çıxışdır.

Zahirən burada çıxış yolu göstərilir. Lakin açıq cəbhəni buraxıb qalaya sığınmaq əsil çıxış yoludurmu?

Bədii, nəzəri fikirdən başqa tarixin təcrübəsi də var. Bu təcrübədə isə yadda qalan odur ki, hündür divarlar, maneələr, səngərlər, qalalar, sığınacaqlar müəyyən dövr üçün üstün tərəfin qabağını ala bilməmiş!

Deməli, göstərilən yollarda, edilən tövsiyələrdə əsil çıxış yolu yox idi. Əksinə, indi Hektorun dara düşdüyü anda bu tövsiyələr Hektorun vəziyyətinin ağırlığını daha da artırırdı. Hektor indi Axillesin cəngində özünü sıxmağa yer axtarır. Amma o qalaya, Troyaya qaçıb girə bilmir. Çünki Pulidamant bunu əvvəlcədən tövsiyə edən zaman Hektor qulaq asmamışdı. Hetor özü də deyir ki, burdan qaçıb qalaya girsəm, ən əvvəl vəziyyəti Pulidamant başıma qaxacaq.

Bu gərgin anda Hektor təslim, təzminat, barışıq variantlarını götür-qoy edir. Lakin o, burada da çıxış yolu görmür. Deyir ki, bizim tərəf Yelenanı qaçırmaqla bütöv bir qövmü təhqir etmiş, sinəsinə sağalmaz yara vurmuş, Patroklun vaqeəsini isə Axilles heç bir zaman bağışlamaz. O deyir ki, mən yarağı, zirehi yerə qoysam, Axilles rəhm etmədən çılpaq qadıntək məni öldürər.

Bəşərin naqisliyi gündəlik ixtilafları, insanlar arasında barışmaz vəziyyəti və müharibəni labüd edir. Beləliklə, insan özünü çıxılmaz vəziyyətə salır...

Biz haradasa söyləmişik ki, xalq əsarətə düşməkdənsə, ölsə yaxşıdır. Halbuki təslim götür-qoyunda əsarət mütləqdir.

Ölümə getmək nədir?

Əzarət əzabına dözmək və həqarəti udmaq nədir?

İstila təkcə əsarət altına almaqla qalmır, onun son məqsədi, bu və ya başqa şəkildə, bu və ya başqa yollarla məhv etməkdir. Lakin bu,

birdən-birə deyil, – tədriclə, açıq şəkildə yox, məkrli, qəddar bir hiylə mexanizminin başa gətirdiyi pərdələnmiş üsullarla başa gətirilir. Hər addım əsarətə düşən xalqı aldadır, tora düşmək üçün saysız “imkanlar” ayaq tutub gəzir.

Bu, ölüm vəziyyətidir.

Bunu bütün xalq bu başdan fəhm etsə və qabaqcıl oğulların ardınca gedib ölümün üstə şığısa, əsarətə düşməkdən bu yaxşıdır.

Tarixi təcrübə göstərir ki, ən “fərasətli” görünən xalq da əsarətə düşə bilər. Ona görə də əsarətdən xeyli təmkinlə danışmaq lazımdır. Bu səbəbdən də vəziyyətə görə ölümü qəbul etmək həm əsarətə düşməmək və həm də qəhrəmani-idraki surətdə ölümdən xilas olmaq üçündür.

Şər – idrakdan və mərdlikdən qorxan şeydir.

Lakin ölümə şığımağın başqa bir üzü də fəlakətdir. Tarix bütöv-bütöv xalqların edam vəziyyətinə də şahidlik verir.

Amma ölümün üstə şığımaq və bir zərbə ilə əsarətdən xilas mümkün deyilsə, mütləq ölüm vəziyyəti yaranırsa, onda əsarət əzabına dözmək və həqarəti udmaq lazım gəlir. Çünki ölümün üstə şığımaq ölmək üçün deyil, qurtulmaq üçündür.

Doğrudan da əsarət süründürücü, əzablı, çürüdücü, həqarətli şeydir. Lakin səbr hər cür yaranı sağaldır. Deməli, belə halda səbrlə dözmək, gözləmək, hazırlamaq lazımdır. Bir halda ki, sonra istila özü məhv olan şeydir. Belə halda əsarət məktəbini keçmiş xalq mətinləşir, mütəşəkkilləşir, bərkdən-boşdan çıxmış olur. Sanki əsarət gedişi xalqın mətinləşməsi, kamala çatması üçün muzddur və ya bu rolu oynayır.

Biz görürük ki, Hektor Axilleslə üz-üzə gələrkən çıxılmaz vəziyyətə düşür, müxtəlif vəziyyətləri götür-qoy edir. Lakin o, ictimai məqsədə deyil, özünə nə qədər bağlı olmalı ki, deyir: bəlkə Axilleslə təkbətək vuruşa girim, ona qalib gəlib şan-şöhrət qazanım.

Bəli, ictimai şərtlər hər kəsdən özündən keçməyi tələb edir. İnsanlar da sözdə bu yöndə şüarlar irəli sürürlər, işdə isə hər kəs öz şəxsiyyətinə və məqsədlərinə aşırı bağlı olub qalır. Bu isə həm onları və həm də ictimai məqsədi ölüm qarşısında qoyur.

Axilles kimi öz şəxsiyyətinə bağlı olub qalmayan, ancaq ictimai məqsədlər üçün alışıb yananların da başına Briseida məndərəcəli oyunlar açılır, onlar quru yurdda qalır, təhqir edilirlər.

İctimai işə xidmət müşkülə çevrilir.

Polidamantın tövsiyələri dövrü də Hektor dedi ki, Zevs bizim tərəfdədir, yunanları qova, hətta Axillesə üstün gələ bilərəm.

Qəribədir, heç kəs özü olmaq istəmir. Hamıda bir "axilleslik" azarı müşahidə olunur. Bu isə işləri mürəkkəbləşdirir və həlakətli vəziyyət yaradır.

Biz hələ lap başlanğıcda gördük ki, Aqamemnon baş sərkərdə seçilməsinə baxmayaraq, Axilles qüdrətinə qarşı narahatdır. Bu da öz ifadəsini heç bir fürsəti əldən vermədən Axillesin üstə "qolaylanmasında" tapır. Nəticədə sərkərdə ilə qəhrəman arasında kəskin qarşıdurma yarandı, işlər də fəhmi çətin bir axara düşdü.

"Axilleslik" azarının başqa bir qabarıq ifadəsini biz Dolonun əhvalatında gördük. O, çaya çatmamış çərmələnərək, xidmətə qarşı şərt qoyaraq tələb etdi ki, Axillesin atları ona çatacaqdır. Özü tora düşərkən isə Dolon boynuna aldı ki, onu yunanlar arasında Axillesin atlarına sahib olmaq arzusu gətirib. Bu o qədər ağlasığmaz olmalı ki, bunu eşidən Odissey "Arzuya bax, – Peleyoğlu Axillesin atlarını!.." deyə köksündən bir nida qoparmışdı. Bu yelbeyin arzu Dolonun boynunun üzülməsi ilə sonuclandı.

Patrokl da "axilleslik" arzusu ilə həddi aşdı. Bu da onun qanlara qəltan olması ilə sonuclandı.

Biz bu və ya başqa şəkildə "axilleslik" arzusunun Hektorun da qəlbini sökdüyünü görürük. O, hələ Polidamantın tövsiyyəsinə çəmkirib dedi ki, tale mənə qələbə vəd etdiyi, hətta Axillesə üstün gəlib şan-şöhrət qazanmaq imkanı yarandığı anda bu cür məsləhətlərə əməl edə bilərəmmi?

O, hələ o zaman Dolona da vəd verirdi ki, "Axillesin atlarını troyalı heç bir nəfər sürməyəcək. Nadir qənimətin ünvanına tuşlanmış bu inadlı hökmün arxasında Hektorun özünün də qəlbinin dərinliyini sökən bir istək gizlənməlidir. Təsadüfi deyil ki, bu hökmün arxasında dastan dərhal deyir ki, "And saxtaydı".

Hektor Patroklu öldürür. Ölüm ayağında Patrokl Hektora söyləyir ki, çox da məğrur olma. Məni sən yox, tale həlak etmiş, belə bir aqibət səni də gözləyir. Bu vəziyyətə cavabda Hektorun "axilleslik" arzusu tamamilə açıq şəkildə üzə çıxır:

*"Məni ölüm xəbərilə hədələmə sən, ey Patrokl!*
*Kim bilir ki, – bəlkə elə Fetidanın oğlu Polid*
*Özü mənim nizəm ilə burda həlak olacaqdır!"*

*(Orada, səh. 368).*

Görürük ki, ölkə ölüm-dirim durumunda qaldığı şəraitdə Hektor xudbin düşüncələrdən yaxa qurtara bilmir. Halbuki burada ölüm-dirim döyüşünə girmək mütləq idisə, sağlam şəraitdə "axilleslik" və başqa bu sayaq istəklərdən əl çəkmək gərəkdi. Burada ya Herakl yolu tutub qəhrəmani itaət göstərməli, (şərait ötdüyünə görə indi bu imkan aradan qalxmışdı), ya da vuruşa-vuruşa həlak olmaq qərarı ilə döyüşə atılmaq gərəkdi.

Zahirən belə görünür ki, yuxarıda göstərdiyimiz şərtlərdə Hektor özü səlamətliyin qabağını alır, işıq gələn yerlərə barmağını soxur.

Halbuki tərəfləri (güclü və zəifi, qalibi və məğlubu) döyüşə cəlb edən şərtlər dərində daha güclüdür.

Təsadüfi deyil ki, arvadı ilə vida anında Andromaxanın ərini döyüşə girməkdən çəkindirdiyi tövsiyələrinə qarşı Hektor ibrətli cavablar verir:

*"Bundan özüm xəbərdaram, özüm də hiss etmişəm ki,*
*Bu müqəddəs Troyamız bu gün-sabah dağılacaq,*
*Nizəvuran Şriam da məhv olacaq, təbəsi də...*
*Ancaq yenə nə sevimli Troyanın fəlakəti,*
*Nə də düşmən pəncəsində əziz atam Priamın,*
*Əldən düşmüş qoca anam Hekubanın fəlakəti,*
*Bütün qoçaq igidlərin, dostlarımın, əqrabamın,*
*Dərdi mənə tədir etmir, inan, sənin dərdin qədər!*
*Tuncgeyimli bir axeyli səni burdan əsir alıb,*
*Göz yaşların axa-axa aparacaq, qul edəcək,*
*Yad qadına iplik-qumaş hörəcəksən Arqosda sən,*
*Kəniz kimi Messeida, Kiporeya bulağından,*
*Yadlara su daşıyacaq, min məşəqqət çəkəcəksən.*
*Ehtiyacdan hər əzaba dözəcəksən: "Bax, bu qadın*
*İlionda igidlərin arasında ad qazanmış*
*Ən qəhrəman mərd Hektorun arvadıdır – bu pis gündə!*
*Bu sözləri eşitdikdə sənin yaran qövr edəcək,*
*Bu əzabdan qurtarmaqçın salacaqsan məni yada... –*
*Səni belə əsir görmək, fəryadını duymaqdansa,*
*Ölüb qara yerə girmək mənə qat-qat xoşdur, inan!"*

*(Orada, səh. 144-145).*

İnsanın belini qıran, qəlbinin başını göynədən, xirtdəyi qəhərlərlə boğan dərdli söhbətlərdir.

Ölkələr, ordu biçiminə düşən insanlar üz-üzə gəlmiş. Tərəflərdən birinin üstünlüyü qəti şəkildə üzə çıxır. Zəif tərəfə tövsiyə edilir ki, gizlənmək lazımdır. Hələ gizlənməyin simasız mündəricəsi bir tərəfdə qalsın. Məgər belə halda quyruğu çöldə qoyub başı ilə kol dibində eşələnmək xilas yoludurmu?.. Üstəlik, biz Hektoru ona ayrılmamış qismətdə şöhrət axtarmasında da ittiham etdik. Halbuki, burada o özü açıq-aydın söyləyir ki, biz məğlub olacağıq. Troya dağılacaq, Priam məhv olacaq. Qocalar – atam Priam, anam Hekuba fəlakətə düşəcəklər. Bundan xəbərdaram. Amma ən ağırı, Andromaxa, əziz zövcəm, sənin dərdindir. Düşünəndə ki, tunc geyimli yunan səni burdan sürükləyəcək, sən orada yad qadına iplik-qumaş hörəcəksən, ya da sənə bulaqdan su daşıdacaqlar, elə bil başımdam qaynar tökürlər. Sənə baxıb deyəcəklər: qəhrəman Hektorun arvadıdır – bu pis gündə. Və s.

Xatırınızdadırsa, Priam da Hektoru döyüşə girməkdən çəkindirməyə çalışarkən öz taleyi ilə bağlı bu cür dərdli dastanlar açırdı. Deyirdi, məni öldürüb qapımda bəslənən itlərə yem edəcəklər. İtlər də vali-nemətlərinin ətindən-qanından məst olub ağız-burunlarını yalayacaqlar. Qoca itlərə yem olmuş çılpaq bədəninin eybəcər yerləri çöldə qalacaq.

Hektor özü də ifrat böhranlı vəziyyətdə təslim variantını götür-qoy edərkən vahiməyə gəlirdi və söyləyirdi ki, heç şey Axillesin qəlbini yumşaltmaz. O, mənimlə bir azğının müdafiəsiz, çılpaq qalmış qadınla etdiyi kimi davranar.

Dərdli söhbətlərdir!

Lakin bu ağır vəziyyətin diqtə etdiyi həyəcanlardır. Halbuki həmin Hektor nəinki Patroklu tərəddüdə yol vermədən məhvə çatdırdı, hətta onun nəşini rüsvay edərkən "hökmü" islah üçün ona heç yan almaq da mümkün deyildi.

Bir müharibə allahı – Ares var. İnsan döyüşçüyə, xalq orduya çevriləndə dastan "Ares övladları" kəlamı işlədir.

Amma şəri asan həzm edən insan özü "Aresin övladına" çevrilməyə yol qoyur.

Ares dünyasında insanilikdən qıraq, qəddar, acınacaqlı durumu mühakimə eləmək də mümkün deyil. Ömrün qırılması, ölüm, qanlı olaylar yaşamın başlıca xəttinə çevrilir.

Elə isə insan dünyaya nə üçün gəlir? O, çiçəkləndiyi bir vaxtda Ares qanunlarının qurbanı olacaqsa, insanın dəyəri nədir?

Burada təkcə bir ömür yox, vətənin taleyi, xalqın əsarət problemi meydana çıxır.

Zira bu, mexanizmdir, bəşərin düçar olduğu mexanizm.

İstila cilovları hər hansı bir xalqın istilaçı dəstəsinin əlində toplandıqda, o, çox haylanır. Halbuki istila və əsarət gedişindən bu vaxta qədər yaxa qurtaran bir xalq müşahidə olunmur: bu və ya başqa vaxtda, bu və ya başqa şəkildə!

İstər istilanın, istər xilas olmanın, istər hücumun və istərsə də müdafiənin başa gətirdiyi müharibə məhsulu dəmirə, alova, maşına, zərbəyə çevirir. Bu əjdaha maşın, dəmir, alov şəklində ağzını açıbdır insanın, şəhərlərin, kəndlərin, ellərin, obaların üstə yeriyir. Dağılır, ölür, yanır, həlak olur. Vətən xarabazarlığa çevrilir. Ölkə qısır qalır. Qalan əlillər, zəlillər uzun müddət özünə gələ bilmir.

Amma özünə gəlməyə başlayanda onunla yanaşı təhlükə də boy atır.

Beləliklə, durum bütövlükdə bəşərin taleyinə müncərdir.

Biz hadisələrdən Hektorun Axilleslə üz-üzə dayandığı nöqtədə ayrılmışdır.

O zaman ki, Hektor Axilleslə özü arasındakı məsafəni müəyyənləşdirə, qüvvələr nisbətindəki fərqi çox da ayırd edə bilmirdi, inadla üz-üzə gəlməyə və təkbətək döyüşə can atırdı. Lakin bu hadisə baş verəndə bəlli olmayan bir həqiqəti təlqin etdiyi hikmət nəticədə Hektor özünü itirdi, qıçları titrədi, çənəsi şaqqıldadı, sarılığını udmağa başladı.

O, təslim gedişini götür-qoy etmək istədi. Amma qənaətə gəldi ki, yalvarışı dinləməz o!..

Yalvarış insanın acınacaqlı halıdır. Əgər söhbət insandan gedirsə, onu dinləmək mümkünmü? Zira, bu yalvarış nə zaman, nə münasibətlə, kim tərəfindən başa gəlir. Sən xalqı təhqir et, qırğının, viranəliyin, haqsızlığın, mənəvi düşkünlüyün – pozuntunun baisi ol, özündə qüvvə görəndə baş alıb get, heç kəsi dinləmə, bərkə düşən təki isə barışıq yolları ara, yalvar, təslim bayrağı qaldır!

Bu isə mümkün deyil. Çünki vaxtında üz yeri qoyulmamışdır.

Bu ibrətli mənzərəni bütün səmtlərdən izah etmək mümkündür. Fikirlərin variasiyaları, hikmətin təsir gücü heyranlıq doğurur. Lakin tarixi təcrübə və gündəlik hadisələr göstərir ki, hikmət ağla çatmır, işlə söz arasındakı məsafə uzundur, ibrətin sonrakı hadisələrə təsiri ümumi hala çevrilmir – bu arada yalnız nadir ağıllar müstəsnalıq

təşkil edir. Bəşəriyyət isə hər şeydə, hər zaman sıfırdan başlayır. Bütün işlərdə sanki əvvəllər heç bir hadisə olmamış.

Hektor indi deyir ki, Axilles mənimlə azğının lüt qalmış qadınla rəftarı təkin davranacaq. Amma həmin Hektor yaralı Patrokl və onun nəşi ilə necə rəftar edirdi. Hələ Hektorun və başqalarının, elə Axillesin özünün də Patrokl qəziyyəsinə qədər başa gətirdikləri bir yana qalsın...

Lap Patroklun özü! O, dırnağı ovcuna batdığını hiss etdikdə troyalıların və Hektorun üstə bərk şığıyırdı, nə xəbərdarlıq, nə də hikmət ona təsir etmirdi.

Onlarla nəsil dastanlar söyləyir ki, Axilles onların qövmünü necə həlakə yetirmiş, müsibət yaratmış, qalanlar da zəlil vəziyyətdədir. Hətta Axillesin özünün indi könül parası olan Briseida da müəyyən münasibətlə öz qövmü haqqında belə danışdı.

Bununla belə, yenə Axilles müəyyən anlarda həm üz yeri, həm diz yeri qoyurdu. Onun böhran anında Priamla üzləşməsi və nəinki güzəştə getməsi, həm də düşmənlə həmdəm olub fəryad qoparması bəşəri mündəricəyə malik misilsiz hadisədir.

Lakin Axilles onlarla xanimanı viran qoyanda da bəzən hadisələrin gedişinə təsir göstərir, öz hərəkətində bir addım da geri atırdı. O, Briseida qövmünü qırdı. Amma bir də gördü ki, qəlbində bu qövmün yavrusuna fəhm edilməz duyğu yurd salır.

Andromaxa da Hektorla vida anında Axilles haqqında bir əhvalat danışır:

*"Andromaxa yaxınlaşdı, – yanında da dayəsinin*
*Qucağında məsum-məsum gülümsəyən körpə uşaq, –*
*Bu, onların balasıydı, bircə bala, gözəl-göyçək,*
*Hektor ona Ekomendr ad qoymuşdu, ancaq hamı*
*Astianaxt çağırırdı atasının şərəfinə.*
*Ata gedən öz oğluna baxa-baxa gülümsədi.*
*Andromaxa yaxın gəldi ağlayaraq həzin-həzin*
*Mərd ərinin sərt əlini sıxa-sıxa belə dedi:*
*"Ay insafsız! Bu cürətin məhv edəcək səni yəqin!*
*Nə oğluna, nə də mənə rəhmin gəlmir zərrə qədər.*
*Çox keçməz ki, mən yazığı bədbəxt edib dul qoyarsan.*
*Axeylilər əlbir olub səni yəqin öldürəcək.*
*Səndən sonra kimim vardır? Onda mən də öləm gərək,*
*Sənsiz mən də bu dünyadan zövq almaram, gün görmərəm.*

*Nə atam var, nə də anam... tək-tənhayam bu dünyada.*
*Yeyinayaq o Axilles Kilikyanı dağıdanda,*
*Yazıq qoca atamı da həlak etdi bir həmlədə.*
*Öldürdüsə, ancaq onun yarağını, zirehini,*
*Yığışdırıb aparmağa daha cürət eləmədi.*
*Görünür ki, rüsvay olmaq qorxusu güc gəldi ona:*
*Gözəl yaraq-geyimiylə yandıraraq həmin yerdə*
*Uca məzar təpəsi də qalatdırdı mərd Axilles.*
*Qalxan tutan ulu Zevsin qızları – dağ pəriləri*
*Dövrəsində bol qarağac əkdi həmin pak təpənin.*
*Yeddi doğma qardaşım da vardı mənim bir zamanlar,*
*Hamısı da bircə gündə girdi qara torpaqlara,*
*İnəklərin, ipək yunlu qoyunların yanındaca,*
*Yeyinayaq o Axilles hamısını qırdı birdən.*
*Sıx meşəli gözəl Plak diyarına hökm eləyən*
*Anamı da əsir edib aparmışdı düşərgəyə, –*
*Ancaq sonra xeyli qızıl alıb azad etdi onu.*
*Sonra evdə Artemida həlak etdi anamı da.*
*Hektor, indi sən mənimçün həm atasan, həm də ana,*
*Mənim təkcə qardaşımsan, həm də gözəl əziz ərim...*
*İnsaf elə, gəl bizimlə burda möhkəm qalada qal!*
*Yetim qoyma uşağını, dul qalmasın arvadın da...”*

*(Orada, səh. 143-144).*

Biz burada dastandan uzun bir nümunə gətirdik. Halbuki bizə burada Axilleslə bağlı bir işarə lazımdır. O da ondan ibarətdir ki, insanlar əllərində imkan olanda və ya belləri harasa bağlı isə fürsət vermir, azğınlıq edir, diz yeri qoymur – insanlıqlarını unudurlar. Axilles də bu cəhətdən ümumi axının içindədir. Orada Briseida söyləyirdi ki, Axilles ata yurdumu viran qoydu. Burada da Andromaxa dastan açır ki, elim-obam, atam, anam, qardaşlarım, Axillesdən nə bəlalar çəkmiş.

Lakin Briseida onunla təskinlik tapır, həm də bu onun üçün xoşbəxtlik idi ki, Axilles ona halal münasibət bəsləyir.

Andromaxa da söylədi ki, Axilles atamı öldürdüsə, amma nəşini rüsvay etmədi. Halbuki “İliada” hərbində bu, vəzifənin yarımçıq yerinə yetirilməsidir.

Zira, Axilles vəzifədən daha çox insanlığına bağlı idi. Qəhrəman – yəni adi insan Andromaxanın atasını öldürdükdən sonra onun nəşini

nəinki rüsvay etmədi, hətta hörmətli bir dəfn mərasimini başa çatdırdı.

Bax, insanlığa imkan qövr elədiyi anda diz yeri qoymaq buna deyərlər.

Bax, bu cəhəti ancaq Axillesdə müşahidə edirik. İndi dara düşən Hektor çıxış yolu axtarır. Amma imkanı geniş olanda həmin Hektor hamının biri kimi hərəkət edirdi, diz yeri qoymurdu.

Biz dastandan bizə lazım olandan daha artıq nümunə gətirdik. Çünki burada insanın taleyinin mənzərəsi və insan şərinin, zahiri ifadəsi olan müharibənin vəhşi qanunları özünü çox aydın göstərir.

Andromaxanın özünü dulluq, körpəsini isə yetimlik təhlükəsi gözləyir və dastandan aydınlaşır ki, orada dul qalmaq belə vəziyyətdə yetim olmaq adi haldan daha müsibətlidir. Deyir ki, mənim atam-anam da eyni mənbədən müsibət çəkmiş, həlaka yetirilmişlər. Axilles onlarla birlikdə yeddi qardaşımı da öldürüb. Briseida "dastanında" ata, ana, qardaş vaqeəsinə gənc ərin ömrü də əlavə edilir.

Bütün bunlar qırılan, yarımçıq qalan ömür, qırğın, qan dəryasının cüzi əhvalatlarıdır.

Bizim əlimizdə bəşərin keçib gəldiyi yolu öyrənmək üçün başqa vəsaitlər, tarixi faktlar da var. Təəccüb edirsən ki, bu ölüm, hücum, qırğın qarşısında insan necə də yenə sağ qalıb, bəşər bu günə qədər gəlib çıxıb.

İki adam və insanlar arasındakı münasibətlərin qarışıqlığı, kütbeyinlik, pozğun məntiq və tarixi meyil müharibəni və onun qanunlarını hələ də saxlayır.

Deyirlər ki, müharibəyə talan və liderlik arzuları da təkan verir.

Bircə bunların hamısı birlikdə götürülməlidir.

Gəlin, dastanın vasitəsi ilə talana diqqət yetirək.

Biz təzminat, girov verilməsi və qənimətlərin bölüşdürülməsi zamanı meydanda küllü sərvət görürük. Amma bu sərvəti biz istehsalatda yox, qırğın yerində müşahidə edirik.

Bunun nə demək olduğunu aydınlaşdırmağa ehtiyac varmı?

Müharibə yaratmır. O, bölük-bölük insanları istehsalatdan, "idrakdan" və yaratmaq işindən ayırır, bir qovum adamların istehsalatda yaratdığının külünü göyə sovurur.

İnsanlar müharibədə təkcə qırılmır, müsibətə düçar olmur; dünya viran qalmır, həm də ümumi halda götürüldükdə burada itirilir.

Bugünkü hərbi ölçünün nə demək olduğunu siyasətçilər və hərb maşınının başında duranlar daha yaxşı bilir. Bu siyasətbazlar, hərb

maşınının naşirləri özləri haqqında böyük fikirdədirlər; müştəbehdirlər. Lakin bilməlidirlər ki, onlar allahların insanlar üçün tərtib etdikləri müharibə və siyasətbazlıq oyununun kosalarından başqa bir şey deyillər.

Allahların “bəşərə bəxş etdiyi qismət” – müharibə oyunu!!!

Lakin Axilleslər sərf-nəzər edilərsə insanlar sabitqədəmdirlər – onlar öz şər mahiyyətlərinə sadiqdirlər. Kəlamlar vəziyyətə təsir göstərmir. Bir problem qurtaranda ardınca daha dəhşətli müşkül başladığını nəzərə almasaq, onu fəlakətli hadisələr həll edir. “Sən insan oğlunun taleyinə bax! Ona göz dağıdır yerdə yaşamaq!...” deyən şair bu baxımdan dərdli bir həqiqətə işarə vurmuş...

Hektora çıxış yolu yoxdur. O, burada ağıllı söz söyləyir, təslim olsam mənimlə çılpaq qalmışlar kimi rəftar edərlər. Belə vəziyyətdə yeganə düzgün qərar ölümü qəbul etməkdir. Yəni vuruşa-vuruşa ölməkdir.

Hektor haradasa deyirdi, bilirəm Troyanın işi bitib-dağılacaq, biz qırılacağıq, şəhər talan olacaq, qocalar, körpələr başsız qalacaq. Amma o, Axilleslə təkbətək döyüşə atılmaq gedişində ar-qeyrət təhriki ilə yanaşı, bəlkə qalib gəldim, ehtimalına da yer qoyurdu.

Bu isə yelbeyinlikdir.

Budur, Axilleslə üz-üzə qalmış, təkbətək döyüş başlanmışdır. Bayaq bütöv bir ordunu lərzəyə salan, qəhrəman hesab edilən, qırıbtökən Hektor məzmunsuz xilas arzusu ilə təhlükənin qarşısından çaşqın şəkildə qaçır. Halbuki igidlik üçün burada qolun gücündən çox, idrakın qüvvəsi lazım idi.

Deməli, qəhrəmanlıq üçün güc əsas şərt deyil. Ona görə yox ki, mütləq güc heç yerdə müşahidə edilmir. Hektor bayaq kükrəyirdi – indi başqa bir gücün qarşısında titrəyir. Axilles də hər zaman kükrəmiş. Lakin o da Ksanfla Skamandr çayları birləşib üstünə yeriyəndə özünü itirməyə başladı. Deməli, gücün qəhrəmanlığı zəifə qarşıdır. İdrak isə özünü həmişə azğınlığa və gücə qarşı qoyur. Bəzi istisnalar sərf-nəzər edilərsə, biz Axillesdə daim qoldan daha artıq ruhun qüdrətini müşahidə etmişik. Hektorda isə işin fiziki cəhəti daha üstündür. Odur ki, o, bir hadisə baş verəntək dabanına tüpürməyin zəlilliyini anlamaq üçün imkan tapa bilmədi – başını itirdi.

Dastan söyləyir ki, Hektor dal çevirib qaçdı.

Lakin hara?

Söylənilir ki:

*"Yeyin çapan atlılartək onlar üç yol Priamın,*
*Gözəl-abad şəhərinin dövrəsinə hərləndilər".*

Bu isə çıxış yolu ola bilməzdi. Çünki çevrə qapalıdır, güc isə tükənməz deyil. Qovan və qaçanlardan da Axillesin daha dözümlü olduğunu bilirik.

Vəziyyət o qədər vahiməli şəkil almalı ki, işlərin naşiri Zevsin özünə də təsir göstərir:

*"Ölməzlərin, fanilərin atası Zevs birdən dedi:*
*"Eyvah! Mənə əziz olan bir igidi bərk qovurlar..."*
*(Orada, səh. 470).*

Lakin Zevsin bu həyəcanının allahların, azmanların öz törətdiklərinə qarşı nazlanmalarından başqa heç bir mündəricəsi yoxdur.

Odur ki, ölüm Hektorun başının üstünü kəsdirir:

*"Yalnız boynu bədəninə bitişdiyi yerdən azca,*
*Ayıq idi... can almağa ən qorxulu yerdi ora...*
*Mərd Axilles nizəsini tuşladı düz həmin yerə.*
*Zərif boynu dəlib keçdi iti nizə bircə anda.*
*Nizə onun hulqumunu tamamilə üzmədi ki,*
*Son nəfəsdə Axillesə bir neçə söz deyə bilsin.*
*O, yıxıldı... Axil isə bərk qışqırdı qürur ilə:*
*"Mərd Patroklu öldürüb sən sağmı qalmaq istəyirdin?*
*Mən döyüşdən kənardaykən, heç məndən də çəkinmədin?*
*Yox, ey sarsaq! Mərd Patroklun arxasında, düşərgədə,*
*Gəmilərin yaxınında igid dostu – mən vardım, mən!*
*Bükdüm sənin dizlərini! İndi səni itlər, quşlar*
*Didəcəklər...*
*Parlaqsərpuş Hektor ona belə dedi zarıyaraq,*
*"And verirəm öz canına, əziz ata-anana, gəl,*
*Məni axey itlərinə yem eləmə...*
*Yeyinayaq Axil ona qəzəb ilə baxıb dedi:*
*"Köpək! Məni ata-anama, öz canıma and vermə sən!..*
*Diri-diri doğrayaraq çiy ətini yeyəm gərək!"*

*Parlaqsərpuş Hektor ona belə dedi can verərkən:*
*"...Paris ilə oxatan Feb, – nə qədər də güclü olsan,*

*Səni Egey qapısında bir gün həlak edəcəklər!"*

*Axill onun cəsədinə xitab edib belə dedi:*
*"Sən öl get! Qoy ulu Zevsin, allahların*
*Hökmü ilə ölüm nə vaxt gəlir-gəlsin, hazıram mən".*

*Belə deyib çəkdi onun cəsədindən nizəsini,*
*Qana batmış zirehini soyundurdu... bircə anda,*
*Axeylilər axışaraq Hektorun o gözəl, uca*
*Qamətini seyr edərək, ona heyran qaldı hamı*
*Hərə onun bədəninə nizə ilə vurdu".*

*Yeyinayaq Axill onun zirehini soyundurub,*
*Axeylərin arasında dayanaraq belə dedi:*
*"...Əziz Patrokl düşərgədə hələ də dəfn edilməmiş*
*Qalır... hələ nə qədər ki, canlıların arasında*
*Canım sağdır, onu əsla unutmaram bircə an da.*
*Hərçənd Aid aləmində bir-birini yad etmirlər,*
*Mən ölsəm də orada da yad edərək əziz dostu!..*

*Belə deyib, Hektorla o, çox nalayiq rəftar etdi.*
*Onun iki ayağını vurub dəldi dabanından,*
*Qayış salıb uclarını bənd elədi gərdunəyə,*
*Çiyinləri, başı qaldı toz-torpağın üstə yerdə.*
*Zirehini dik qaldırıb, gərdunəyə qoyub, mindi,*
*Qamçıladı atlarını... yeyin-yeyin çapdı atlar.*
*Bulud kimi toz ucaldı, süründükcə cəsəd yerdə.*
*Qara saçlar, o gözəl baş batdı tamam toz-torpağa,*
*Şimşəksaçan Kronion düşmənlərə imkan verdi,*
*O cəsədi öz yurdunda belə təhqir eləməyə.*

*Başı tamam toz içində... ana yolub saçlarını,*
*Öz oğluna baxa-baxa başdan gözəl örtüyünü*
*Tullayaraq: şivən salıb fəryad etdi yana-yana...*
*Atası da yazıq-yazıq ağlayırdı... bütün şəhər*
*Bircə anda doldu fəryad, ah və nalə səsləriylə.*
*Sanki qat-qat bütün uca Troyanı başdan-başa*
*Coşğun yanğın alovları bürümüşdü hər tərəfdən.*
*Priamı zorla tutub saxlayırdı öz dostları,*

*Vurnuxaraq can atırdı bürcdən kənar çıxmaq üçün.*
*Toz-torpaqdan çırpınaraq, hər birinə öz adıyla*
*Müraciət edə-edə, yazıq-yazıq yalvarırdı:*
*"Aman, dostlar, qoyun gedim təkbaşına bu şəhrədən!*
*Qoyun gedim axeylərin gəmiləri duran yerə!*
*O insafsız zalıma mən yalvararam-yaxararam,*
*Bəlkə rəhmi gələ mənim bu yaşımda göz yaşıma!*
*Axı onun özünün də evdə məntək atası var.*
*Qoca Peley bunu bizə bir qənimtək böyütmüşdür,*
*Hamıdan çox mənə qənim oldu ancaq onun oğlu,*
*Neçə-neçə gənc oğlumu həlak etdi döyüşlərdə!*
*Hamı mənə dərd olsa da, ancaq yenə hamıdan çox*
*Mərd Hektorun dərdi məni yəqin həlak edəcəkdir!*
*Barı mənim qucağımda can verəydi! Onda yenə*
*Yazıq, bədbəxt anası da, məni də barı ağlayaraq,*
*Göz yaşımda söndürərdik qəlbimizin alovunu!"*

*(Orada, səh. 475-478).*

Biz gətirdiyimiz nümunələrdə Hektor taleyinin acınacaqlı yekununu görürük. Burada həm həlakət, həm başsız qalan ailə, valideyn-qohum münasibəti, həm təhqir-həqarət və həm də rüsvayçılığın törətdiyi ümumi mənzərə ilə tanış oluruq.

Biz bu söhbətləri istilanın bəhrəsi və onun törətdiklərinin cavabı kimi də qiymətləndirə bilərik. Məsələni belə qoysaq, səbəb-nəticələr zəncirində itib-batmaq imkanı yaranar. Lakin Hektor vaqeəsində səbəb-nəticələr əlaqəsi birdən qırılır, qırğın seli, qəhrəmanların həlaki Hektora çatanda hər şey unudulur və bu intiqam hissinin yerinə yetirilən qərarı kimi üzə çıxır. Qətlə çatdırılanın yerinə suçlu öldürülür. Xüsusən, intiqam qanunlarında bu belədir. Axilles də Hektorun başının üstünü kəsdirəndən lap axıra qədər bu cür intiqam hökmləri ilə çıxış edir. O, Hektora zərbə endirib deyir ki, Patroklu öldürüb sən sağmı qalmaq istəyirdin?

Hektorun cəsədi ata-anasına qaytarılması üçün yalvarışlarına da eyni qəzəbli cavab alınır. Köpək – deyir, diri-diri doğrayaraq ətini də çiy-çiy yemək lazımdır. Hektor Axillesə təsir edə, inadından döndərə bilmir. O, burada da deyir ki, eybi yoxdur, sən öl get, allahların qərarına mən hazıram.

Mən öz qəlbimin tələblərinə, məhəbbətimin təhrikiylə, dostluq təəssübümə əsasən hərəkət edirəm. Patrokl hələ də dəfn edilməmiş.

Onu heç bir zaman, hətta o dünyanın özündə belə unutmaram. Hərçənd həmin məkanda adamlar bir-birilərini yad etmirlər.

Daha doğmalıq, dostluq təəssübünün, intiqam hissinin bundan o yanası yoxdur.

Lakin intiqam hissinin mündəricəsizliyi orasındadır, onun sonu görünməz. İntiqam hissi tələb edir ki, qatili qanunsuz-məhkəməsiz həlak edəsən. Lakin burada intiqam naşiri özü yenidən qatil durumunda qalır. Ölənin adamları yenidən eyni təəssüblərlə hərəkət edə bilər və s. və i.a.

Beləliklə, intiqam tələblərinin, qırğının sonu görünməz.

Belə də var.

Patroklu həlak etdilər. Cavabında Hektoru öldürdülər. Lakin ölüm vaqeəsi Patrokldan əvvəl başlanmışdı, Hektorla da qurtarmayacaqdı. Ona görə də vəziyyət daha dərindən düşünməyi tələb edir.

Ən acınacaqlısı müharibə oyununun vəhşi qanunları, qırğın selindən başqa həqarət dəryası da yaratmasıdır.

Dastan deyir ki, Axilles Hektorun yerə sərilmiş nəşini soyundurdu. O, özü də adamları öldürəndən sonra beləcə lüt qoyurdu.

Dastan söyləyir ki, Hektor bu vəziyyətdə də gözəl idi. Onun qaməti başına toplaşan düşmənləri belə heyran qoydu. Lakin gözəllik belə onları öləni təhqir etməkdən saxlaya bilmədi. Deyir ki, hərəsi onun bədəninə bir nizə vurdu.

Gözəllik hər kəsi lal edir. Hamı, hər şey gözəlliyə can atır. Xüsusən yaradıcılıq gözəlliyi getdikcə artırmaq üçündür.

Lakin gözəlliyin dəyəri ona bəslənilən yad münasibətə qədərdir. Münasibət yad isə gözəlliklə murdar tikə arasında heç bir fərq yoxdur.

Bəzən özgəyə məxsus gözəlliyə insanların laqeydliyi heyrət doğurur.

Bu da insanın naqisliyi, şərin başlanğıcıdır.

Dastan özü deyir ki, Axilles Hektorun cəsədi ilə çox nalayiq rəftar etdi. O, meyidin dabanından gərdunəyə bağlayıb tozun-torpağın içində sürüyür. Söyləyir ki, baş toz-torpağa bulaşdı. O gözəl baş bu hala düşdü. Hektorun cəsədi öz yurdunda, öz elinin-gününün gözü qabağında təhqir edildi. Bu hadisə də doğma ata-ananın gözü qabağında baş verirdi. O cür oğlun bu cür vəziyyətinə qarşı valideyn-lərin nə günə qaldığını təsəvvürə gətirmək çətin deyil. Ana saçlarını yolur, yana-yana şivən qoparır. Bütün şəhər ah, nalə səsiylə dolur. Ölkə yasa batmışdı. Dözümsüz qalan ata da həmçinin... deyir ki, o,

quru yerdə çırpınırdı. Bəli, xeyrə nisbətən şəri insan daha asanlıqla (indiki halda) həzm edir. Amma bu, göründüyü kimi, çox müşkül nəticə də verir.

Beləliklə, fəlakəti, onun törətdiyi kədərin ağırlıq mərkəzi tədriclə Axillesdən və Axilles vasitəsiylə bütün qüvvəsi ilə Hektor qövmü səmtə keçir. Xüsusən, bu da Andromaxa müsibət yerinə gələrkən fövqə qalxır:

*"Bədbəxt atam uşaqlıqdan məni bədbəxt böyütmüşdür,*
*Heç dünyaya gəlməsəydim, daha yaxşı olardı, ah!*
*İndi Aid aləminə – yer altına gedərək sən*
*Məni burda sarayında dərdə-qəmə qərq eləyib,*
*Dul qoyursan... bizim bədbəxt oğlumuz da*
*Hələ körpə bir uşaqdır... sən də öldün, nə sən ona*
*Havadarlıq edəcəksən, nə o sənə... ah, ey Hektor!..*
*Axeylərin qan-qadalı qırğınından sağ qalsa da,*
*Yalnız zəhmət, cövr-cəfa olacaqdır onun payı...*
*Yadlar onun tarlasının mərzlərini pozacaqlar,*
*Yetim uşaq yoldaşdan da, oyundan da məhrum olar.*
*Üzü qara, gözü yaşlı olar daim yazıq yetim.*
*Atasının dostlarının evlərini gedib əgər,*
*Onun-bunun ətəyindən tutsa, bəlkə bəziləri*
*Rəhm eləyib bircə qədəh şərab verər, – o bədbəxtin*
*Dodaqları islansa da, damağına dadı çatmaz,*
*Valideynli yaşıdları məclislərə qoymaz onu,*
*Döyüb-söyüb qovlayarlar içlərindən həqarətlə:*
*"Rədd ol burdan! Sənin atan bu məclisdə qonaq deyil!"*
*"Əvvəlləri atasının qucağında yalnız idik,*
*cızdaq yeyən Astianakt məlul-məlul ağlayaraq*
*yazıq bikəs anasının qucağına sığınacaq...*
*Əvvəlləri şirin yuxu gələn zaman oynamaqdan*
*əl çəkərək dayəsinin qucağında dadlı-dadlı*
*yemək yeyib, yatağında mışıl-mışıl yuxulayırdı.*
*Troyalılar sevə-sevə "astianakt" dedikləri*
*Uşaq indi yetim qalıb nə cəfalar çəkəcəkdir!.."*

Bir baxın, insan həyata gəlib – Andromaxa olub, yəni ictimai özüllü atanın qızı, bir şahzadənin, – Hektorun, qəhrəmanın arvadı idi. Biz işin insani cəhətindən söhbət açmırıq. Danışıq mövqedən gedir.

Mövqe isə insana rahat, “şirin” həyat, aldadıcı hörmət və s. gətirir. İndi elə bir vəziyyət yaranıb ki, bu adam ah çəkir, heç bu dünyaya gəlməsəydim – deyə qəlbindən bir nida qoparır.

Pis günə qalmaq hamı üçün betərdir və çətindir. Bunun üstə əziz ikən boyat olmağı da gəl.

Andromaxa söyləyir ki, indi mən dul, körpə isə yetim qaldı. Bu körpə yadların qırğınından yaxa qurtarsa da, onu həyatda ancaq zəhmət, cövr-cəfa gözləyir. Yetim uşaq yoldaşdan da, oyundan da məhrum olar. Həm əzab çəkəsən, həm təhqir olunasan, laqeydlik səni əhatə edə, həm də daima aşağı sayılasan. Halbuki hələ dünən bütün nəzərlər səndə idi. Deyir ki, yadlar sənin mərdlərini pozacaqdır. Yetimin üzü qara, gözü yaşlı olar. Yaxşı bəhrədir. Müharibənin həm də gözlə görünməyən. Ona para verərlər. Lakin bu tikənin getdiyi “yol” dodaqla dilin arası olar, yuvası da dişlərin arası.

Yetimi, imkansızı, mövqesizi döyərlər, söyərlər, içlərinə buraxmazlar, ona rədd ol deyərlər. Sevincsiz, fərəhsiz, qanıqara, iztirablı bir həyat!

Zəlilliyə müsəllət olan adam köməyə, qayğıya, mərhəmətə möhtacdır. Biz inkar etmirik: insanın haqqı, hüququ var. Onun taleyi mərhəmətdən asılı deyil. Lakin həyat yolu rastə xətlərlə hərəkət etmir. Buna görə biz mərhəmətdən söhbət saldıq.

Lakin biz mərhəmət əvəzinə təklənmək, kömək əvəzinə köntöylük, bir təskinlik əvəzinə “rədd olma” ilə üzləşirik.

İctimai pəyədən yıxılmağın yekunu, meyvəsi belədir. Xüsusən yetimlər, dullar üçün! Yazıq vəziyyət, – baxımsızlıq, həqarət!

Lakin bütün bunlar Axilles-Patrokl xəttində dostluğun qiyməti kimi səslənir.

Dostluqdan müxtəlif rəngli söhbətlər gedir. Onlardan biri də odur ki, guya həyat dostluğu doğrultmur. Qısa şəkildə də deyirlər ki, dost yoxdur. Özünü dostluğa həsr edən adam sadəlövh bir həvəsin qurbanı olur.

Doğrudan da biz görürük ki, dostluqla bağlı sarsıdıcı bir hiss Axillesin qəlbinə hakim kəsilib. Halbuki Patrokl fürsət düşən təki qohumunun, dostunun, – yəni Axillesin payına boylanmağa başladı – “axilleslik” xəyalına düşdü. Onun üçün yaranmadığına görə, bu mümkün də deyildi. Patrokl kimilər müstəqil yox, Axilleslərin yanında fəaliyyət göstərərkən, nəticə verən adamlardır. Bu gedişdə dostluqlar da müşahidə edilir. Lakin Axillesin bəzi dostları, Axillesdən bəhrələnənlər minnətdarlıq əvəzinə kökslərini gəmirən bu

hissin qurbanı olurlar. Belə vəziyyətdə dostluğun qarşılıqlı məzmunundan söhbət gedə bilməz.

Deyirlər əsil dostluq əqidə ilə bağlıdır. Bizcə işin mənəvi təhrik gücü daha çoxdur.

Əgər deyildikdə ki, dost yox, məqsəd, bir-birinə kəf gəlmə, aldatma var, burdan istənilən adı vermək mümkün olan çox pis şey alınır.

Dost – həm də ünsiyyətdir. Dost yox isə, deməli, insan yoxdur. Təsadüfi deyil ki, hər kəsin müəyyən yaxın adamı, yoldaşı, ünsiyyət bağladığı azı bir, iki dostu olur. Lakin burada Axilles səviyyəli dostluq müşahidə edilmir.

Bu Axillesdə müşahidə edilən insana layiq əsil dostluqdur. İnsanların "yoxdur" deyə işarə verdiyi isə həmin keyfiyyətdir.

Axilles təkin adamlarda dostluğa təkan verən cəhət təkcə insana hiss edilən ehtiyacdır. Bu da mənəvi yaxınlıq və intellektual səviyyənin müəyyən dərəcədə uyğunluğu ilə bağlıdır. Bu cəhətdən isə Axillesə tay yox idi. Ona kim isə az-çox uyğun gəlməlidir. Bu cəhətdən Patrokl haradasa ona yaxın səviyyə hesab edilə bilər. Amma tam bərabərlik yoxdur. Həm də təbii təvazökarlıq böyüklüyün mütləq peykidir. Bu və zəruriyyət imkan verir ki, axilleslər hər şeyə göz yumsunlar və birtərəfli surətdə dostluğu saxlasınlar. Biz Axillesdə məhz bunu müşahidə edirik.

Beləliklə, əfkari-ümumiyyənin varlığına şübhə ilə yanaşdıqları dostluq Axillesdə kamil şəkildə meydana çıxır. Bu cür təklər – axilleslər bəşəriliyi daha artıq təmsil edirlər.

Hər kəsin bir-iki dostu olur. Lakin dostluqların ardınca naqisliklər də sürünürsə, bu, başqa şeydir. Çünki ictimai şərtlərlə yanaşı, şəri xeyrə nisbətən daha asan həzm edən insan özü də naqisdir.

Həmin sözləri valideynlik, övladlıq, qohumluq, qonşuluq, yoldaşlıq, vətəndaşlıq haqqında da demək mümkündür. Bunların hamısının ardınca bir naqislik sürünür. Ona görə də dünya aldatma, yalan, cinayət, qəbahət seylabında süzür və istibdad kimi universal azğınlığı bərqərar vəziyyətə gətirir...

Patroklun gömmə mərasimi Axilles dostluğunun təsdiqinin bariz ifadəsidir. Bu mərasim intiqam tələblərinin başa çatmasından sonra gəlir. Bu da qarşılıqsız deyil. Ona görə də dəfn mərasimindən daha çox qələbənin təntənəsinə bənzəyir.

"Hektorun, onun nəşinin acınacaqlı aqibəti ilə bağlı troyalılar yasa batmışdır" desək, bu əsil vəziyyəti göstərən çox da tutarlı ifadə

olmaz. Amma bunu ki, duyuruq, deməli, vəziyyəti almışıq. İlk addım atan, başqasının səadətini ələ keçirən, – yəni Yelenanı qaçıran troyalıların halı, vəziyyəti, güzəranı indi belə idi. Yunanlar isə sanki vəzifələrini yerinə yetirmiş, dərindən nəfəs alır, dincəlmək üçün gəmilərə dağılışırdılar.

Yeri gəlmişkən deyək ki, dastanda təsvir edilən Troya müharibələrində istilaçının izi itir, istila anlayışı bir-birinə qarışır.

Yelenanın oğurlandığına görə troyalılar müqəssirdir. Müharibə özgə torpaqlarında getdiyinə və daima qənimət bölüşdürdüklərinə görə isə yunanlar istilaçıdır.

Bu, məntiqin çıxardğı nəticədir.

Lakin dastan vəziyyəti başqa cür qoyur və biz də onun izi ilə getməyə məcburuq.

Axillesin başı ayazıyan təki yenidən şivən qoparır və Patrokla gömmə mərasiminə başlayır: "Mirmidonlu qoşunları buraxmadı mərd Axilles.

Döyüş sevən dostlarına xitab edib belə dedi:

*"Siz, ey mənim mərd dostlarım, yeyinatlı mirmidonlar*
*Biz atları hələ açıb dincəlməyə buraxmayaq.*
*Gərdunəli – atlı, hamı mərd Patroklun cəsədinə*
*Yaxın gedib, şərəfinə ləyaqətlə yas saxlayaq,*
*Ağlayaraq, oxşayaraq təskin edək qəlbimizi,*
*Atları da açıb orda, oturub şam eləyərik".*
*Axilles ilk başlayınca hamı birdən nalə çəkdi".*

*(Orada, səh. 483).*

Yaxın adamı itirən hər bir kəs müsibətzadədir. Ölüm kədər doğurur. Həm ölüyə ehtiram, həm də kədəri ovutmaq üçün yas saxlamaq, gömmə mərasimi təbiidir.

Lakin müharibədə ölən hər bir kəsə bu ölçüdə yas saxlamaq, mərasim təşkil etmək imkan dışındadır.

Zahirən Patroklla bağlı şivənlər, mərasimlər müsbət bir cəhəti təsdiq edir. Əslinə baxdıqda isə işin antibəşəri cəhəti dərhal aydınlaşır. Sual meydana çıxır ki, bəs başqaları insan deyil, başqa ölənlər müsibət doğurmur?!

Xüsusən döyüş qəhrəmanının, neçə-neçə igidi qana boyayan, o dünyaya göndərən adamın buna o qədər də haqqı yoxdur.

Lakin bütün hisslər Axillesdə kəskin cərəyan edir. Onda valideyn-övlad münasibətləri də, insanlarla rəftarı da, xalqına, vətəninə

münasibəti də, ovçuluğu, döyüşə ehtirasla atılması da, həqarətlə bağlı keçirdiyi həyəcanı da, kinliliyi, məhəbbəti, dostluq münasibətləri və s. də belədir. Ona görə də xeyir timsalı kimi, biz Axillesi izləyərkən, başqa məntiqləri diqqətdən keçirə bilərik.

Müsibətin dərəcəsini göstərmək üçün dastan bir misrada deyir ki:

*"Göz yaşları islatmışdı paltarları, torpaqları".*

*(Orada, səh. 484).*

Lakin heç şey Axillesi sakitləşdirmirdi:

*"Bu vaxt başqa sərkərdələr Axillesin qəzəbini*
*Çətinliklə yatızdırıb, minnət ilə apardılar,*
*Baş sərkərdə Aqamemnon Atrendin hüzuruna.*
*Aqamemnon Atrendin çadırına gələn kimi,*
*Əmr olundu od qalayıb, sərpayədə su qoysunlar,*
*Bəlkə Pelid razı olub, qan-tərini yuya təmiz.*
*Ancaq Axill qətiyyətlə rədd eləyib, bərk and içdi,*
*"Allahların ən ulusu qadir Zevsə and olsun ki,*
*Öz dostumun cəsədini yandıraraq, üzərində*
*Uca təpə qalamamış, saçlarımı kəsdirməmiş,*
*Mən başıma bir damcı da su vurmaram, yuyunmaram.*
*Nə qədər ki, bu dünyada hələ sağam, əmr edirəm,*
*Bir də mənə belə böyük matəm qismət olmaz".*

*(Orada, səh. 484).*

Bəli, Axilles dostunun müsibəti ilə bağlı söyləyir ki, bir də mənə belə ağır matəm urcah olmaz. Halbuki ona daha doğma adamlar həyatda var: atası, oğlu, Briseida, və s.

Necə olmuş, dostluq ən doğma duyğuları üstələmiş?

Lakin təəccüb edilməməlidir. Bizim lap başlanğıcda imkanımız və tələbimiz bu olmuş ki, insani mayadan məhrum olan qohumluq təəssübləri də naqis hesab edilməlidir. Şıllaq, mənafe, ayrı-seçkilik təsir göstərməzsə, bu belədir.

Lakin bu, ümumi qayda deyil. İstisna hal isə, təəssüf ki, ancaq axilleslərdə müşahidə edilir. Buna görə də biz burada bəşəriliyi bəşəriyyətin özündən daha çox Axillesdə axtarırıq...

Patroklun müsibətini eşidən, sonra da görən Axilles günlərlə dinclik bilmir, özünü döyür, şivən qoparır, yeyib-içmir, rahatlanmır,

çalışır-vuruşur, intiqam vəzifələrini yerinə yetirir. Yalnız tamamilə haldan düşəndə bir an gözünə yuxu gedir. Lakin Patroklla bağlı Axillesin ruhunun dərinliyində elə sarsıdıcı dostluq duyğuları yaşayır ki, müsibəti o, yuxuda da hiss edir:

*“Hamı yedi... Sonra bütün sair sərkərdələr*
*Çıxıb getdi düşərgədə rahat yatıb dincəlməyə...*
*Axillessə, ləpələrin axışdığı qum sahildə,*
*Quru yerdə uzanaraq, dərindən ah çəkməkdəydi.*
*Toplaşmışdı dövrəsinə mirmidonlu yoldaşları...*
*Birdən bədbəxt mərd Patroklun ruhu əyan oldu ona:*
*Boy-buxunu, səsi, gözü, tamam ona bənzəyirdi...*
*Axillesin başı üstə durub belə dedi ona:*
*“Rahat-rahat yatırsan!.. Ah, unudubsan məni, Axil!*
*Sağlığında sən mənə heç belə laqeyd olmamışdın!*
*Tez dəfn elə, keçə bilim mən də Aid qapısından!*
*Ölənlərin ruhları hey qovur məni o qapıdan”.*

*(Orada, səh. 455).*

Bu yuxunun müstəqim mənası Axilles ruhunun zənginliyi, dərinliyi, bəşəri mündəricəsi ilə bağlıdır. Onun yaddaşı məhəbbətindən, məhəbəti yaddaşından böyükdür. Ən önəmlisi də Axillesin özünün insana bu qədər bağlı olmasıdır. Dostun müsibətinin yaratdığı kabus, Patroklun surəti Axilles ruhunun dərinliyində hələ də qıvrılıb yatır. O, orada ölməyib.

Ruhun ölməzliyi də bu deyən şeydir!

Ruhun ölməzliyi – canlının qoyub getdiyi izlərdə və yaddaşlarda, universal yaddaşdadır.

Patrokl yuxuda dostuna deyir ki, dərhal məni basdırın, bunsuz ruhum o dünyaya, ruhlar aləminə daxil ola bilmir.

Biz görürük ki, “İliada”da müharibədə ölənlərin müsibətinin iki pilləsi var: həlak olmaq və bir də basdırılmamaq. Xüsusən, ölüm hadisəsi intiqamla bağlıdırsa, cəsədin təhqir olunması, basdırılmaması mühüm şərtdir. Edip mifinin bütövlükdə “Antiqona” ilə bağlı hissəsi bu mövzuya həsr olunur.

Adam çox əziz adamından ayrıla bilmir. Xüsusən, bu ayrılıq firavanlıq anında, ömrün gənc, gözəl vaxtında baş verəndə. Ölünün yaxın adamlarının dərhal gömmə mərasiminə başlamaları təəccüb doğurmalıdır. Lakin orada qaçılmaz məcburiyyət var. Bu da ondan ibarətdir ki, mistik fikrə görə, ölənin ruhu sakitləşməlidir. Xüsusən islam dininin basdırmaq qanunu sabitqədəmdir.

Amma işin mistik cəhətindən başqa həyati amili də var. Meyid saxlanarsa, eybəcər kökə düşə, məhəbbət oyadan varlıq iyrəndirə bilər.

Sən bir insanın aqibətinə bax! O, sağlığında məhəbbət oyadırdı və ya şəxsi qüvvəsi, ictimai mövqeyi ilə guruldayırdı. İndi isə sakit dayanmış və iyrəndirmək təhlükəsi var.

V.Hüqo "Səfillər"ində daha ibrətli mənzərə təsvir edir. Janvaljan yaralı, bayılmış Mariusu kanallarla babası evinə aparır. Bu Parisin altıdır.

Parisin üstü – təbiət, şəhər gözəl, insanlar iddialı və s.-dir. Altı isə iyrəncdir. Həm də bu iyrəncliyi iddialı insanların içərisindən ifraz olunmuş həşəvər yaratmış.

İnsanın çölü o, içərisi də bu!..

Düşünməyinə dəyər.

Bütün hallarda ölüm arzuolunmazdır. Lakin ölən adam daha özünü və sonrakı hadisələri hiss etmir. Bu, onun ruhuna da aiddir. Bu fikrin həqiqətini dəfələrlə ölüb-dirilən adamlar təsdiq edə bilər... Lakin qalanlar üçün cəsədin aqibəti həm önəmli və həm də prinsipialdır. Ölümlə bağlı mistik cəhətlərin kökü burasındadır.

Patroklun dəfni, ehsanlar ibrətlidir. Xüsusən, ona verilən qurbanlar göz bərəldir. Burada öküzdən, qoyundan tutmuş hər cür heyvanlar dəst-dəst kəsilir və tonqala atılır. Gör işin harasıdır ki, Patroklun itlərindən də ikisi qurban gedir.

Dəhşət doğuran odur ki, it qurbanlıq deyil və kəsilmir. Burada isə kəsildi də, odlara da tullandı.

Orada döyüşlər zamanı deyildi ki, Axilles 12 (on iki) troyalı "nəcib gənci" Patroklun gömmə mərasimində qurban kəsmək üçün əsir götürdü. Bu qəddar hadisənin iyrənc, ürək bulandıran cəhəti haqqında danışmışdıq. Ən betəri odur ki, hər biri bir dünya olan insanın 12-si birdən burada tək nəfərin zərrəsinə çevrilir. Halbuki qəlbinin dərinliyində hər kəs yenilməzliyi, yeganəliyi heç kəsə vermir.

Axilles, o Briseidanı sevən, qəbahətə qarşı fırtına törədən, Priamı bağışlayan, düşməni insan hesab edən, onun müsibətinə yanan, bağrına basan, şivən qopardan, göz yaşlarına qərq edən həmin Axilles ömrə qıyır, həm qəddar, həm də murdar iş görür – baş kəsir.

Bu, bəşərin ümumi axına düşməyinin "məhsuludur".

Patroklun dəfni şərəfinə "möhtərəm" adamlara və yarış qaliblərinə təqdim edilən hədiyyələrin kütləsi, bolluğu göz bərəldir. Belə göz

qamaşdıran dəyər-qiymət bir də bizim "Koroğlu" dastanında Qıratın ünvanına söylənilir.

Qıratı başa düşmək asandır – hər halda o da davardır.

Lakin insanla bağlı pay, hədiyyə, mükafat ifrata vararsa, bu, onun dəyəri kimi, onun qiymətləndirilməsi təkin səslənir.

Bunu isə başa düşmək çətindir, – çünki insan davar deyil. Paya, hədiyyəyə, mükafata meyil edənlər bunu hesablamalı, özlərini davar yerinə qoymamalıdırlar.

İnsan satılmır, nə az, nə də çox məbləğə.

Tarixi mənzərəsində firavanlıq XX yüzilə qədər orda-burda rast gəlinən müstəsna hadisədir. Buradahamıya pay düşmür, – "seçilmiş" adamlar fərqlənir.

İstibdadı qeyri-kamillik, məşəqqət, qarmaqarışıqlıq, qəhətlik yaradır. Orada firavanlıq müstəsna keyfiyyətdir. Hətta bir qarın çörək, bir doyumluq yemək hər zaman müşkülə verilmiş. Ona görə də, ən yaxşı halda belə. Bəşərin "İliada" dövründə də, bu, nəzərə çarpacaq dərəcədə fərqli ola bilməzdi.

İşin göz bərəldən cəhəti burasındadır.

Dindirəndə də deyirlər ki, biz bütün işləri xalqın xeyrinə, onun səadəti, rahatlığı, firavanlığı naminə edirik.

Əslində onlar aldatma, zorlama, sürükləmə yolu ilə daim xalqı tərləməyə məcbur edir, onun ləyaqətini hərraca qoyur, təhqir baş alıb gedir, müsibət dəryası yaradırlar. Burada insanın nəfəs alması üçün nəzərə çarpan bütün dəliklər tıxaclanır.

Böyük şər, onun asanlıqla həzm edilməsi böyük də müsibət yaratmalı idi.

Yarışların təşkili, qalibin müəyyənləşdirilməsi, mükafatların nizamla, haqla bölüşdürülməsinin burada önəmi yoxdur. Lakin bəzi keyfiyyətlər, cəhətlər Axilles, yunan, insan anlayışını tamamlayır.

Həmin cəhətlərə diqqət yetirməyə ehtiyac hiss edirik:

*"Belə görcək, Axillesin yaman rəhmi gəldi ona.*
*Arqivlərin arasında durub belə xitab etdi:*
*"Ən birinci sürücümüz ən axırda gəlib çıxdı!*
*Ancaq gəlin haqq iş görək, biz ikinci mükafatı*
*Ona verək, – birincisi Diomedə qismət olsun".*

*Belə dedi. Axeylilər bəyəndilrə bu təklifi.*
*Atı ona verəcəkdi Axill xalqın rizasilə.*

*Ancaq bunu təhqir sayan Nestor oğlu mərd Antilox*
*Qalxıb birdən Axillesə belə haqlı sözlər dedi:*
*"Ey Axilles! Dediyini etsən, mən bərk inciyərəm!*
*Mükafatı məndən alıb, belə güman edirsən ki,*
*Gərdunəni atlar qırıb, oysa əla sürücüdür?*
*Axı neçün allahlara dua edib yalvarmadı:*
*Yoxsa o da bu yarışda belə sonda qalmazdı heç!*
*Əgər ona rəhmin gəlir, çox ürəyin yanır, – onda*
*Sənin ki, öz düşərgəndə az deyildir qızıl, ya mis,*
*Qoyun, at, ya əsir qızlar... – hər nə desən vardır səndə.*
*Onlardan seç, daha böyük mükafat ver, ya indicə,*
*Ya da sonra, – onda səni alqışlayar axeylilər.*
*Bunu isə mən vermərəm! Axeylərdən kim istəsə,*
*Gəlsin görüm vuruşmağa, – bax, bu meydan, bu da ki, mən*
*Belə dedi. Cavabında mərd Axilles gülümsədi.*
*Antiloxdan xoşu gəldi, onun əziz dostu idi.*
*Çox mənalı sözlər ilə belə xitab etdi ona:*
*"Ey Antilox, deyirsən ki, mən Yevmelə başqa bir şey*
*Bəxş eləyim, – sevə-sevə, gülə-gülə eləyərəm.*
*Asterepoy düşmənimin zirehini verdim ona,*
*Parlaq misdir, haşyəsi də işıldayan ağ qalaydan,*
*Ən şöhrətli igidlərə layiqdir bil, bu ərməğan".*
*(Orada, səh. 499).*

Burada ümumi vəziyyəti izah üçün diqqəti cəlb edən şeylər var.

Zahirən belə görünür ki, Axilles rəyinə, hökmünə qarşı çıxmaq ağlasığmazdır. Hətta bütöv bir dövlət sistemi, istibdad məntiqi pozduqda, az qala dünya ağzıaşağı qapanacaqdı.

Lakin məsələ təkcə bunda yox, haqqın kimin tərəfində olmasında imiş...

O zaman güclə yanaşı, haqq da Axillesin tərəində idi. İndi isə nizam pozulurdu və Axilles haqsız çıxa bilrədi, daha bir addım atılsaydı, Antilox üzə duracağına işarə vurur.

Antilox əvvəlcə deyir ki, Axilles, səndən inciyərəm ha!... Sonra da əlavə edir ki, qan tökülə bilər. Kim istəyir, bu meydan, bu şeytan...

Deyirlər, dünyada haqq, ədalət yoxdur. Bu bəlkə də gündəlik işlərdə, ayrı-ayrı hallarda belədir. Lakin ümumi işlərə yön verən, son sözü deyən haqqdır, ədalətdir. Qəhrəmanlıqda fiziki gücə mənəvi şərtlər əlavə olunmasa, o, yarımçıq qalar.

Antiloxun cəsarətinə qarşı Axilles gülümsəyir və dərhal haqqı bərpa edir.

Axilles gülümsəyirdi. Çünki o, Antiloxun cəsarətində Herakla, Admetə, Yazona, Peleyə, Layertə, özünə məxsus Yunan qəhrəmanlığının gələcəyini görürdü.

Axillesə sərt üz göstərmişdilər. Lakin o, gülümsəyirdi və kövrəlmişdi. Çünki xəta eləmişdi və bununla da vicdanındakı ağırlığı atırdı. O, Antiloxun tələbinə qarşı baş üstə deyir. Söyləyir ki, sənin tələbini sevə-sevə, gülə-gülə yerinə yetirərəm.

İfadədəki kövrəkliyə, həlimliyə bax!

Bu qəhrəmani sifətə daha heç bir şey əlavə etmirik.

Çox ibrətli hadisədir. Antilox indicə haqqını tələb edirdi. Lakin həyəcanın odu soyumamış, bir başqası onun yarış zamanı etdiyi xətasını üzə vurmuşdu. Çünki Antilox yarışda Menelayı əyri yolla üstələmişdi.

İndicə çaşqınlıq göstərən Antilox dərhal geri dönür, indi də o, Axillesə məxsus həlimlik göstərir:

*"Ürəyini sakit elə! Mən ki səndən çox cavanam,*
*Sən – hökmdar, Atreyoğlu yaşda, adda çox üstünsən.*
*Bilirsən ki, cavanlıqda adam hərdən həddi aşır,*
*Gəncin ağlı çaşqın olar, düşüncəsi zəif, cılız...*
*Qəzəblənmə!.. aldığım o mükafatı öz xoşumla*
*Verim sənə..."*

*(Orada, səh. 500).*

Deməli, söhbət heç də yarışda, qənimətdə yox, haqda – prinsipdədir.

Prinsiplilik – idrakilikdir. Bu şərtlə ki, o, şıltaqla, xudpəsəndliklə qarışdırılmasın. Orada bir an da Antiloxun üzə durmasına, Axillesə "meydan oxumasına" idrakiliklə haqq birləşib imkan yaratdı. Həmin anda Axilles də işin bərkindən tutsaydı, yəni o, "axilleslikdən" məhrum olsaydı, yəqin ki, Antilox basılardı. Lakin Antilox haqq üçün yaranıb. O, haqq yolunda ölümə gedərdi.

Orada haqq yolunda ölümə gedən Antilox burada haqlı tərəfə güzəşt edir, bir addım geri çəkilir, mərdlik göstərir.

Bir anda ölümə getmək, başqa təsadüfdə güzəşt etmək üçün yaranmaq lazımdır. Bu hamıda baş tutmaz. Bu iş üçün yaranmayanlar lazımlı anda həqiqətən ölümə getmək əvəzində cəsarətlilik

roluna girib haray-həşir salsalar, başlarını itirməkdən başqa bir şey qazanmazlar.

Eynilə güzəşt iflasla, mərdlik dikbaşlıqla, təvazökarlıq yaltaqlıqla, dil tapmaq aldatmaqla asanlıqla əvəz oluna bilər. Axı ikincilər birincilər rolunda çıxış etməyi daim sevir.

Antilox haqqı yolunda üzə durur, cəsarət göstərir. Lakin haqqı ödənilən təki ardıcıl surətdə vəziyyəti yumşaldan adamlar atır. Birincini indicə gördük. Aşağıda diqqət yetirəcəyimiz hadisə isə heç də bundan geri qalmır.

Başqa bir yarışda Antilox üçüncü mükafat alır. O, tədbirli tərpənir və şirin dillə işi aşağıdakı şəkildə yoluna qoyur və bu da hamının razılığına səbəb olur.

*"Nester oğlu Antiloxsa, alaraq son mükafatı,*
*Gülümsünə-gülümsünə belə dedi arqivlərə:*
*"Dostlar, yaxşı bilirsiniz deyəcəyim sözləri siz:*
*Allahlar da hörmət edir hələ yaşlı kişilərə.*
*Ayaks məndən az böyükdür. Odisseysə, xeyli yaşlı,*
*Bizdən əvvəl doğulanlar nəslindəndir.*
*Deyirlər ki, o, qoca da olsa, – əsla qocalmayıb!*
*Axillesdən başqa heç kəs onu əsla ötə bilməz!"*

*Belə deyib təriflədi yeyinayaq Axillesi,*
*Cavabında Peleyoğlu belə dedi Antiloxa:*
*"Bu tərifin mükafatsız qalmayacaq, əziz dostum!*
*Yarım talant qızıl da mən artırıram mükafata".*

*(Orada, səh. 506).*

Şirin dilə aldanmaq acınacaqlıdır, – burada aldadıcılıq var. Belə də olur. Şirindil bilərəkdən, hazırlıqla başa gəlirsə, onun naşiri asan addımlar atır.

Bilirsinizmi, münasibət – başqasına yan almaq, yol tapmaq bəzən müşkülə çevrilir. Çox təəssüf ki, şərin küdurətindən, taleyi qüdrətdən daha artıq bəzən münasibət həll edir. Səmimi, sağlam münasibətlə başqasına yanaşmağa can atan adamda bir ürkəklik də müşahidə edilə bilər. Lakin qorxaq fikir, müəyyən mənada uğursuz fikirdi də. Bu, təəssüf ki, belədir. Halbuki bu ürkəkliyin arxasında bəşəri qüvvə dayanır. Deməli, ürkək yanaşmanı daha asanlıqla yaxına buraxmalıdır.

Halbuki biz çox vaxt bunun əksini müşahidə edirik. Məqsədli şirindil qarşısındakına hörmət eləmir, onun hərəkətləri mənəvi ürkəklikdən məhrumdur. Ona görə də cəsarətlidir.

Ürkəkliyə laqeyd qalan əfkari-ümumiyyə oynaqlığın qarşısında bir addım geri çəkilir. Burada ürkəkliyin haqqı gözdən yayınır. Bu, məntiqin pozulmasıdır.

İctimai məntiqin pozulması səmimi adamlarda prinsip yaradır. Prinsip olan yerdə isə müşkül var. Səmimi adamın kamala yetib şirindil səviyyəsinə yüksəlməsi ömür sərf edib görə bilmədiyi işi adi bir müraciətlə başa gətirir.

Biz bir anda Antiloxda hər iki sifəti – üzə durub sinə qabartmağı və üst-üstə şirin dillə böyüklərə müraciət etməyi gördük.

Bu, özlüyündə bir adam üçün biçimli simadır, sifətdir, – həm qəhrəmanlıq, həm müdriklik!

Lakin Antilox sələfsiz deyil. Onun Herakl, Peley, Admet, Yazon, Axilles kimi qəhrəmani, Xiron, Nestor, Odissey təkin müdrik əcdadı var.

Antilox nəyə isə varislik edir. Amma özü kimi o, tumurcuq halındadır. Qönçə – açılmamış güldür.

Varis kimi o, surətə, əvəzediciyə oxşayır. Kimsə şübhə etmir ki, surətlə əsli, əsasla əvəzedicini yanaşı qoymaq olmaz. Biz deyirdik ki, surət və ya əvəzedici əslində heçdir. Çünki surət əslə çevrilmir, əsil iş isə əvəzedici yox, əsas kimi meydana çıxır. O, əvəzedici rolunda belə, əsaslığını büruzə verir.

Ona görə də Yunan azmanlarının yanında Antiloxun nəyəsə varislik etməsi çox da böyük şey deyil.

Lakin dediyimiz kimi, Antilox təkcə varis deyil. Onun özünəməxsus nəyisə var. Bu var olan şeyi də biz tumurcuq, qönçə – açılmamış gül adlandırdıq.

Gətirdiyimiz nümunədə Axillesə məxsus bir cəhətlə də üzləşdik. Antilox, əvvəlcə, haqqını müdafiə edərkən sinəsini qabartdı. Bu iş ümumi halda ahəngin pozulmasına aparıb çıxarmadı. Çünki ixtilaf qüdrət, idrak, haqq, ədalət – xeyir mücəssiməsi Axilleslə üzləşdi. Haqqı ödənilən Antiloxda isə dərhal üst-üstə xam sifətlər müşahidə edildi: o, qılığını, təmkinini, şirin dilini işə saldı. Bu şirin dildən Axillesə də pay düşdü. Axilles də bundan xoşhallandı.

Tənqidə dözməyənlər var. Tərifdən xumarlananlar da yox deyil. Bu vəziyyətə təcrübi həyat və nəzəri fikir qiymət vermiş. Amma real olduğuna və haqlılığına görə, Axillesin ömründə bir dəfə ürəyi

açılmasına bəraət qazandırmaq mümkündür. Burada tənqid və tərifdən çox insanın özünəməxsus real cəhəti görməsi daha artıqdır. Amma, hər halda, Axillesdə tərifdən xoşlanma müşahidə edildi. Bu isə nöqsana bənzər sayılmalıdır. Çünki tərif eşitməyə meyil göstərmək bütün münasibətlərdə nöqsandır.

Bir qədər əvvəl maşahidə etdiyimiz kimi, Antilox incə şəkildə Axillesin üzünə onun üçün xoş söz dedi. Biz gördük ki, bu xoş söz də Axillesin qəlbini oxşadı. O qədər ciddi həyat keçirən, alicənablıq, qüdrət, yaradıcılıq timsalı Axillesin, hər halda həmin o cürə, həmin biçimdə tərifdən xoşlanmağa haqqı var.

Ümumiyətlə götürdükdə isə, dediyimiz kimi, tərif etmək nöqsandır.

İlk baxışda təriflə xumarlanmaq təvazökarlığa zərbə vurur və xüsusən, öz zəif yerlərini görməkdən məhrum edir.

Tərifin təsir dairəsinin geniş mənasını götürdükdə isə onun vurduğu ziyan ictimai əhatənin miqyasından asılıdır.

Tərif sevən deyir ki, daim mənə bəraət qazandır, mənə qol-qanad ver, adamlarla, kütlələrlə üzləşərkən mənim müstəsnalığımı təsdiq et, yırtıcılığıma, qəbahətlərimə, cinayətlərimə göz yum, şıltaqlarıma boy ver...

Amma tərifdə ən böyük cəhət haqqından daha artıq və hətta haqqı olmayan şeyləri də qoparmağa meyildir. Mən heç şey yaratmayım, mənə toxunmayın, bütün ləyaqətləri mənim ayağıma yazın, yırtıcılığıma meydan verin!..

Və s. və i.a.

Tərif ictimai səlahiyyət kəsb etdikdə isə, o, tarixi və gündəlik zəmanəsi ilə birlikdə istibdada yol açır. İstibdadın cinayətkar, həqarətli mahiyyəti ilə isə məşğul oluruq. Təkcə onu bir daha xatırlada bilərik ki, tərif sevmək riyasət kürsüsündə əlahiddə olaraq misilsiz müsibətlərə bais olmuş. Burada kiçicik bir ehtiyatsızlıq, məharət deyilən naqis şeydə üstəlik özünü göstərən yarımçıqlıq, məntiqsizliyin yenidən məntiqsizləşməsi dərhal edam və yurdun yağmalanması hökmünə aparıb çıxarmış.

Tərif sevənin qarşısını almaq imkanı ərşə çəkildikdə o, tərifləyəni daim şərtlər qarşısında qoyur, necə deyərlər, daim onun beyninə döyərək gic halına salır.

Tərif ehtirasının hüdudu yoxdur.

Zira, işin saxta cəhəti bir də ondadır ki, tərif sevən əməlli-başlı bir dirənişə rast gəldikdə daha pəzəvənglikdən əsər-əlamət qalmır, indi o, “vüqarlı” adam ən simasız məxluqa çevrilir.

Tərifdən xoşlanmağın axırı bura qədər gəlib çıxır. Ona görə də, nə qədər haqqı vardısa da, Axillesdə müşahidə etdiyimiz ölçülü bu cəhətə də dözmədik.

Zira, bunun ardınca biz Axillesi dərhal bəşəri vəzifələr, ictimai müşküllər qarşısında görürük. Burada o, yenidən düşmənlə üzləşməli və ona güzəştə getməli olur.

Düşmən insan imiş – müşkülün məğzi bundadır.

Düşmən insan imiş. Və vəziyyət elə gətirmiş ki, sən təhlilə yol vermədən daim onu məhv etmək haqqında düşünür, çalışırsan – bütün gücünlə, qüdrətinlə, aman vermədən.

İndi ömrü boyu məhvinə çalışdığın həmin düşmənlə üzləşərkən içərisində aqamemnonların cövlan etdiyi dostların arasında tapmadığın bir özünə bənzər cəhətlərlə üzləşirsən.

Axilles dostlar arasında yad idi. Düşmənlə, qoca Priamla üzləşərkən orada özünə bənzər sifətlər gördü. Bu düşmən ona nə qədər doğma idi!

Daha burada biz bəşərin ilişib qaldığı şər, onun asan həzmə getməsi, müşküllər, faciələr haqqında heç bir şey demirik...

“İliada” – Axilles ideyası Hektor cəsədinin geri alınması əhvalatı ilə başa çatır. Burda onu da əlavə etmək lazımdır ki, Hektorun fəlakəti – yası bəşərin faciəsi şəklini alır.

Deyir ki, Axilles Patrokla gərəkən qədər təziyə saxlayandan, ləyaqətlə göməndən və bol-bol ehsanlar verəndən sonra da sakitləşə bilmirdi.

Onun sevinci əlindən alınmışdı.

Hamletin atası ölmüşdü (məhv edilmişdi). Həyat yenə də qaydasınca gedirdi. Bu, Hamletin heyrətinə səbəb olmuşdu və təkcə bu səbəbə görə bəşər onun gözündə itirmişdi. Düşünən və zərifliklə davranan (işin yaxşı təsadüfündə) insan bir anda elə heçə çevrilə bilər və insanların beşgünlük yaddaşına etibar yoxdur, uzaq başı altı ay. Ondan sonra hər şey unudulur.

Axilles-Patrokl xəttində isə insanın itirilməsi tam həyat məsələsinə çevrilmiş. Baxmayaraq ki, Patrokl hələ Axillesə o qədər də layiq deyildi. Lakin burada söhbət ləyaqətdən getmir. Söhbət bundan gedir ki, insanlar arasında bəşəri münasibətlər həyatın əsas mənasıdır.

Bu şərtlə ki, hamının haqqı, hüququ hesablansın. Axilles burada Patrokl üçün sakitləşə bilmir, daim kədərlənir. (Fərhad Şirin üçün, Hamlet atası üçün olduğu kimi), amma dalını-qabağını hesablamadan daim orada Hektorun cəsədinə əzab verir. Anlamır ki, Hektor da haradasa, kimə isə bu cür əzizdir.

Bu cəhət o qədər ifrata varır ki, Axillesin hərəkətlərinə allahlar da dözmür. Ona görə allahların arasında həyəcan başlayır və cəsədin geri qaytarılması haqqında hökm verirlər.

Burada allahlar və onların hökmü bəşəri cəhətləri qoruyub saxla-yan, onu yaşadan gizli bir sirrin varlığına işarədir.

İlkin olaraq Priam mərdlik göstərir. O, cəsədi götürmək üçün düşmənə təslim qərarına gəlir. Düşmənin alicənablığına ümid bəsləyən adamın özü belə olmalıdır. Yoxsa o, bu yolun varlığına inanmazdı.

Priam bu inamla düşmən səflərinin mərkəzində peyda olur:

*“...Səs-səmirsiz içəriyə*
*Girib qoca mərd Priam yaxınlaşdı Axillesə,*
*Qucaqlayıb dizlərini, əllərindən öpdü bir-bir, –*
*O əllər ki, boyanmışdı mərd oğlunun mərd qanına... –*
*Bir nəfər öz vətənində hiddətlənib, bir kişini,*
*Öldürərək yad ölkəyə qaçıb, – orda bir varlıya,*
*Sığınanda, –- necə hamı heyrətlənib mat qalarsa, –*
*Axilles də Priamı birdən görcək heyrətləndi,*
*Orda hamı təəccüblə nəzər saldı bir-birinə...*
*Priamsa, yalvararaq belə dedi Axillesə:*
*“Sən, ey allahsifət Axill, yad et əziz pir atanı!*
*Məntək o da qocalığın astanası ağzındadır.*
*Bəlkə elə indi onun düşmən alıb dövrəsini,*
*Heç kimsəsi yoxdur, onu fəlakətdən qurtarmağa, –*
*Ancaq bilir, heç olmasa, eşidir ki, sən dirisən!..*
*Buna qəlbən sevinərək, daim ümid bəsləyir ki,*
*Əziz oğlu Troyadan bu gün yurda qayıdacaq...*
*Mən bədbəxtsə, Troyada çox oğullar böyütmüşdüm.*
*Ancaq indi bircəsi də qalmamışdır bu dünyada!...*
*Axeylilər gələn zaman əlli oğlum vardı mənim,*
*On doqquzu bir anadan doğulmuşdu, – qalanları*
*Başqa-başqa arvadlarım doğmuşdular sarayımda.*
*Zalım Ares çoxlarını savaşlarda həlak etdi.*
*Bircə Hektor qalmışdı ki, Troyanı təkbaşına*

*Qoruyardı... – onu da sən həlak etdin bu günlərdə!..*
*Mən onunçün gəldim axey gəmiləri qarşısına, –*
*Bol-bol fidyə gətirmişəm cəsədini almaq üçün...*
*Rəhm et, Pelid, allahlara hörmət elə, öz atanı*
*Yadına sal!.. ondan artıq layiqəm mən mərhəmətə!..*
*Heç bir insan edə bilməz bu işi ki, mən edirəm:*
*Öz oğlumun qatilinin əllərini öpürəm mən!...”*

*Axilles də ağlamsındı yad edib öz atasını,*
*O qocanın əllərindən tutub sakit kənar etdi.*
*İkisi də ağlayırdı... Axillesin ayağına*
*Düşüb qoca, ağlayırdı igid oğlu mərd Hektora,*
*Axilles həm atasına, həm Patrokla ağlayırdı, –*
*Yayılmışdı bütün evə ikisinin ahu-zarı...*
*Allahsifət Pelid bol-bol göz yaşları tökə-tökə,*
*Ağlamaqdan doyub qəlbi, əzaları sakitləşdi, –*
*Cəld durub öz kürsüsündən Priamın bir əlindən*
*Tutub onu tez qaldırdı. Ağ saçına-saqqalına*
*Baxa-baxa, köyrəlib o, Priama belə dedi:*
*“Ah, ey bədbəxt! Nə bəlalar çəkib sənin dərdli qəlbin!*
*Söylə, bizim ordugaha, – neçə-neçə mərd oğlunu,*
*Həlak etmiş bir adamın qarşısına nə cürətlə*
*Gələ bildin, sən, ey qoca? Dəmirdənmiş qəlbin sənin?*
*Di sakitləş, otur-dincəl!... hər nə qədər acı olsa,*
*Dərdimizi qəlbimizdə pünhan edək, gizli qalsın!*
*Hər nə qədər fəryad etsək, heç bir fayda verməyəcək.*
*Allahların fanilərə lütf etdiyi qismət budur:*
*Gərək daim dərd çəkələr, - dərdsiz yalnız allahlardır?*
*Ulu Zevsin sarayında iki nəhəng saxsı küp var, –*
*İçi dolu: – biri bədbəxt, biri xoşbəxt hədiyyələr...*
*Zevs onları qarışdırıb, bəxş etdiyi fani insan*
*Hərdən bədbəxt, hərdən xoşbəxt olur daim həyatında.*
*Ancaq bədbəxt hədiyyələr qismət olan insan isə, –*
*Yurd-yuvasız; aclıq çəkər bu dünyada o dərbədər;*
*İnsanlar da, allahlar da onu daim təhqir edər.*
*Peley də, bax, bu gündədir, – gəncliyində pak allahlar,*
*Bol nemətlər vermiş ona: xoş bəxtilə, sərvətilə*
*Seçilmişdir insanlardan, hakim olmuş Mirmidona.*
*O faniyə pak allahlar bir ilahə qismət etmiş...*

*Ancaq allah bədbəxtlik də vermiş ona: öz evində*
*Bir övladı qalmayıb ki, varis ola dövlətinə.*
*Bir oğlu var ömrü gödək... heç indi də o qocaya*
*Bir təskinlik vermirəm mən. Vətənimdən uzaqlarda*
*Burda sənə, övladına min əziyyət verməkdəyəm...*
*Bilirəm ki, sən də əvvəl çox bəxtiyar ömr edibsən:*
*Lesbosdan ta şimaladək – bütün Makar diyarında,*
*Frikiyada, uc-bucaqsız Hellespontda, bir zamanlar*
*Sərvətin, mərd oğulların geniş şöhrət qazanıbmış.*
*Ancaq sonra o allahlar bir əbədi fəlakət tək*
*İlionu döndərmişlər qanlı savaş meydanına...*
*Dözümlü ol, dərdlə-qəmlə üzmə əbəs öz canını.*
*Oğlun üçün dərd çəkməyin bir faydası yoxdur sənə.*
*Ölən bir də dirilməz, sən öz canının hayına qal!".*

*Allahsifət Priamsa belə dedi cavabında:*
*"Yox, ey Zevsin sevimlisi, – hələ Hektor məzarda yox,*
*Quru yerdə yata-yata, – mən oturub dincəlmərəm.*
*Tez ver, onu görsün gözüm!... Özün də get, gətirdiyim*
*Bol fidyəni qəbul elə... Qoy sən mənə aman verib*
*Gün işığı görməyimə müsaidə etdiyinçün,*
*Vətəninə qayıdarkən, bunlar sənə şadlıq versin!"*

*Qəzəblənib Priama belə dedi mərd Axilles:*
*"Qoca, məni hirsləndirmə!... Mən Hektoru fidyəsiz də*
*Qaytararam... Dənizlərin hökmdarı Poseydonun*
*Qızı – anam, Zevs adından tapşırıbdır mənə bunu,*
*Ey Priam, heç gizlətmə, bilirəm ki, səni bura*
*Gətirən də, əlbəttə ki, ölməzlərdən biri olub?!*
*Yoxsa, adi insanlardan ən coşğun bir cavan belə,*
*Keşikçilərdən yayınaraq ordugaha girə bilməz,*
*Darvazanın bəndini də, aça bilməz əsla heç kəs,*
*Bəsdir, mənim bu cəfakeş ürəyimi coşdurma sən!*
*Yoxsa, burda bir dilənçi olmağına baxmayaraq,*
*Zevsin əmri xilafına, sənə aman verməram, bil!"*

*(Orada, səh. 525-528).*

Burada diqqəti cəlb eləyən cəhət müsibətlərin qanlı vəziyyətində, müsibətin qəhərə çevrildiyi, hirsin, intiqam alovunun coşduğu bir

anda Priamın bizə bəlli məqsəd üçün düşmən alaylarına qədəm basması və burada Axillesin bəşəri mövqeyi, yəni düşməni nəinki bağışlaması, pənahına götürməsi, həm də bir insan, bir müsibətzadə kimi qarşılamasıdır.

Deyir ki, tərəfləri buna allahlar, Zevs təlqin etmiş. Amma biz ilahi mündəricəsi bizə məlum olmayan, hələ aydınlaşdıra bilmədiyimiz sirləri mistika ilə izah etmişik. Burada Priamı risqə, təhlükəyə təhrik eləyən, Axillesi alicənablığa sürükləyən şey hər ikisinin ruhunda qərar tutan mərdanə keyfiyyətdir.

Cəsədin qaytarılmasına əvəz kimi fidyələr siyahısı da sadalanır.

Axilles cəsədi qaytarmağa söz verir. Lakin fidyə söhbəti gələndə əsəbləşir. Göstərir ki, fidyə məqsəd olsa, indi sən, – Priam əlimdəsən, səni əsir götürər və bütün sərvətinin yarısını almaq şərtini Troyaya təklif edərəm!

Qoca, məni hövsələdən çıxartma! Yoxsa Zevsin əmri xilafına hərəkət edərəm.

Deməli, cəsədin qaytarılma qərarına nə gətirilən fidyələr, nə də allahların qərarı əsas deyil. Buna Axillesi meyilləndirən öz mərdliyidir. Ona görə də deyir ki, təbiətim güzəştə sürükləyir, məni fidyə səviyyəsinə endirmə!..

Priam ağlayırdı – silsiləvi fəlakətlərə və son müsibətə görə...

Axilles ağlayırdı – dostu həlak olmuşdu və ömrü gödək olduğuna görə qoca vaxtı baxımsız qalacaq, varissiz dünyadan köçəcək atasına görə.

Əslində bu iki düşmənin üz-üzə gələrkən ağlaşmalarının zahiri səbəbləridir, – daxili, gizli, arxada dayanan, görünməyən, məntiqlə izah edilməyən, anlaşılmayan məna daha böyükdür. Bu da ondan ibarətdir ki, qanlı düşmənlər üz-üzə gələrkən bir-birlərində mənən özlərinə ən yaxın adamı, özlərinin əsil sifətlərini gördülər.

Ona görə də qoca müraciət edirdi, sən ey Allahsifət Axil...

Ona görə də Axillesin qocaya xitabı ah, ey bədbəxt!... nə bəlalar çəkib sənin dərdli qəlbin!... – oldu...

Bu ilahi üzləşmə riqqət doğurmuşdu. Burada ağlaşma da, inilti də, fəryad da vardı.

Lakin qəlbin lal hıçqırıqları daha çoxdu.

Bu, bəşərin elə bir düyün nöqtəsidir ki, istənilən qədər izahat işi aparарsan, patetika, həyəcan, nidalar baş alıb gedə bilər.

Əvvəlcə məna edildi ki, düşmən insandır. İndi isə biz görürük ki, o dostdur.

Biz Axilles-Aqamemnon münasibətlərində dostun yağılığını gördük. Burada isə Priam-Axilles qaynayıb-qarışmasında düşmənin əslində dost olduğunu müşahidə etdik.

Bəşərin qarmaqarışıqlığı adına yaraşmır və bu cəhət zəruri surətdə istibdadı yaratdığına, istilaya yol verdiyinə görə öz-özünü mündəricəsiz, həqarətli, qəddar bir şeyə ilişdirir...

Qoca və cavanın bir-birinə müraciətlərində həyatın gərdişi ilə bağlı hikmətli fikirləri, ibrətli hadisələrin xatırlanması da çoxdur. O cəhət o qədər aydındır ki, əlavə izahata ehtiyac qalmır. Xüsusən, Zevsin-allahın, yəni tarixin keçib gəldiyi yolla gündəlik işlərin birlikdə insanlar üçün tərtib etdiyi qismətin dolanbaclarının Axilles tərəfindən mənalandırılması təsirlidir.

Axilles cəsədi qaytarmaq qərarına gələndən sonra Hektorun nəşinə də ehtiramla yanaşır.

*"Orda yalnız iki zərif xiton, rida qoydular ki,*
*Mərd Hektorun cəsədini geyindirib yollasınlar,*
*Atasına göstərmədən, yaxşı yuyub yağlasınlar,*
*Qorxurdu ki, öz oğlunu görsə, qoca coşar-daşar,*
*Axilles də bərk hirslənib, birdən buna dözə bilməz,*
*Pozub Zevsin fərmanını, qətl eyləyər o qocanı,*
*Kənizlər də təmiz yuyub, yağlayaraq o cəsədi,*
*Təzə xiton geyindirib, ridasına bürüdülər.*
*Xərəyi də Axill özü öz əlilə, – dostlarının*
*Köməyilə qaldırdı o yaraşıqlı arabaya".*

*(Orada, səh. 528-529).*

Düşmənlə üzləşərkən Axillesə alicənablıq vəzifələrini yerinə yetirmək imkanı yaranıb. O, özünü göstərməyə çalışmır, burada bir məcburiyyət də yoxdur. Biz Axillesdə taleyindən qəribə bir razılıq müşahidə edirik ki, gedişat ona öz nəcibliyini təsdiq üçün fürsət vermiş.

Hörmət, qonaqsevərlik, qayğı, güzəşt, himayə, alicənablıq Axillesin qəlbindən doğan işlərdir. Ona görə də göstərdiyi qayğı, canfəşanlıq tamamilə səmimi hesab edilməlidir.

Diqqəti cəlb edən şeylərdən biri də odur ki, Axilles qaytarmamışdan əvvəl cəsədi qaydaya salmağı tapşırır. O, güman edir ki, ata oğlunun acınacaqlı vəziyyətini görərsə, asi olar və əhd pozular.

Deməli, təbiətin əqidəni və vəzifəni üstələmək ehtimalı var.

Bu böyük təbiəti nişan verən ehtimaldır.

Axilles bunu Priamdan gözləyir.

Bunu hər kəs müşahidə edə, anlaya bilməz. Gərək adamın öz ruhunda da belə bir keyfiyyət ola. Başqa sözlə, Axilles özü də bu təbiətdəndir.

Amma dastan söyləyir ki, Axilles Hektorun nəşini təhqir edərkən Allahlar onu qoruyurdu: Apollon qalxanı ilə, Afrodita isə nəşə ətirli yağlar sürtməklə.

*"Apollonsa, mərd Hektorun cəsədinə rəhm edərək,*
*Qoruyurdu... hər yanına qızıl qalxan tutmuşdu ki,*
*Axill onu sürüyəndə, heç bir zərər yetirməsin".*

*(Orada, səh.512).*

Amma bu ilahi söhbətin simvolik, – həyati önəmi yoxdur. Dastan burada romantika deyilən bir gedişdən istifadə etmiş...

"Düşmən – dostdur" ana xətti isə hələ davam edir. Cəsədin "Təhvil-təslim" gedişi o qədər yüksək səviyyədə keçməli ki, Priam Axillesin şam yeməyinə oturmaq təklifini də qəbul edir.

Axilles:

*"...Özü çıxdı, ağ bir qoyun tutub kəsdi,*
*Yoldaşları onu soyub, ətini də qayda ilə*
*Doğradılar, parça-parça, tikə-tikə çəkib şişə,*
*Bişirərək səliqəylə şişə çəkib gətirdilər...*
*Avtomedont çörək düzdü səbətlərdə o süfrəyə...*
*Axill isə, ət payladı süfrədəki adamlara.*
*Əl uzadıb başladılar hamı birgə şam etməyə.*

*Yeyib-içib doydu hamı... sonra isə, pir Priam*
*Xeyli müddət nəzər salıb heyran oldu Axillesə:*
*Çox heybətli, çox gözəldi, allahlara bənzəyirdi.*
*Axilles də Priamın gözəl-nəcib simasına*
*Çox mənalı, dərin, müdrik sözlərinə heyran qaldı.*
*Bir-birinə baxa-baxa, zövq alırdı hər ikisi.*
*İlk olaraq, nəcib qoca xitab etdi Axillesə:*
*"Ey Zevsin yetirməsi, icazə ver, gedim yatım.*
*Qoy bir şirin yuxudan da ləzzət alaq... çoxdandır ki, –*
*Oğlum sənin əlində həlak olan gündən bəri, –*
*Yuxu nədir – bilməmişəm, gözlərimi bircə an da*
*Yummamışam... dərd əlindən həyatimin ortasında*

*Toz-torpağa yıxılaraq daim fəryad eləmişəm.*
*Ancaq bu gün yemək yeyib, tünd şərabdan içdim bir az, –*
*Bu günədək dilimə də əsla bir şey dəyməmişdi".*

*Axilles cəld kənizlərə, dostlarına buyurdu ki,*
*Dəhlizdə tez gözəl-yumşaq balışlardan, döşəklərdən*
*İki yataq hazırlansın, – üstlərinə xalça-yorğan,*
*Salsınlar ki, yatanların yeri yumşaq, rahat olsun.*
*Kənizlər də, əldə məşəl cəld gedərək həmin yerdə,*
*Tez-tələsik iki gözəl rahat yataq düzəltsinlər.*
*Axilles də Priama belə dedi zarafatla:*
*"Ey pir, sən get bayır əldən yat ki, birdən gecə vaxtı,*
*Axeylilər gəlib məni oyadarlar, – adət olub!*
*Əgər biri səni görsə, Aqamemnon Atreidə*
*Həmin saat gedib xəbər verəcəkdir, – orda yəqin*
*Cəsədi də sənə vermək işi çətin olacaqdır.*
*Ancaq mənə bir şeyi sən açıq-aşkar söylə görüm:*
*Mərd Hektoru dəfn etməyə neçə gün sərf edəcəksən?*
*O müddətdə axeyləri hərb etməyə qoymayım mən".*

*Allahsifət Priam da belə dedi cavabında:*
*"Oğlumu dəfn eləməyə mənə fürsət vermək üçün,*
*Belə etmiş olsan əgər, səndən razı qalaram mən:*
*Bilirsən ki, mühasirə içindəyik, – odun gərək*
*Uzaqlardan gətirilsin, – troyanlar çox qorxurlar.*
*Doqquz gün mən öz evimdə qaydayla yas saxlayaraq,*
*Onuncu gün dəfn eləyib, ziyafət də verməliyəm.*
*Ertəsi də qəbr üstündə uca təpə qalanacaq.*
*On ikinci günsə, yenə lazımdırsa, hərb başlansın!"*
*Yeyinayaq Axilles də belə cavab verdi ona:*
*"Ey Priam, necə arzu edirsənsə, – elə olsun!*
*Söylədiyin müddətdə mən hərbə ara verəcəyəm".*

*Belə deyib, mərd Axilles o qocanı təskin üçün,*
*Sağ əlini öz əliylə tutub sıxdı sadəqətlə*
*Priamla qasidi də Axillesin dəhlizində*
*Fikirləşə-fikirləşə yataqlara uzandılar...*
*Axilles öz çadırında, gözəl-rahat yatağında,*
*Al yanaqlı, gül dodaqlı Briseida ilə yatdı..."*

*(Orada, səh. 530-531).*

Deyir, Priam Axillesə heyran qalmışdı – troyalının gözündə yunanlı allaha bənzəyirdi. Axillesin gözündə də Priam gözəl-nəcib simaya malikdi, dodaqlarını hikmətli sözlər bəzəyirdi. Eyni heyranlıq burada da müşahidə olundu. Di gəl ki, bu cür birgə yaşayıb həyatdan zövq alası insanlar filan, filan səbəbə görə bir-birilə düşmən, yağı kəsilmiş. Deyir ki, dəfn mərasimi üçün 12 gün möhlət ver. Sonra, lazımsa yenə vuruşarıq. Burada müharibə özünü bəşər həyatının qaçılmaz gedişi kimi göstərir.

Şəri asanlıqla həzm edən, məntiqi itirmiş bəşər üçün heyranlıqdan doğan təbəssüm, ahəngdar həyat yalnız müstəsna halda, özü də bir an üçün baş verə bilərdi. Bunun davamlılığına ümid bəsləmək, inanmaq aldanışdan başqa bir şey olmazdı.

Təsadüfi deyil ki, dərhal ahəng pozulur. Özü də allahların əli ilə. Həm də burada allaha isnad edilən gedişin həm simvolik, həm də həyati mənası var:

*“Həyatsevən Hermes əsla uymadı həmin gecə,*
*O, hökmdar Priamı keşikçilər hiss etmədən,*
*Darvazadan keçirməyə tədbir-çarə axtarırdı.*
*Gəlib onun başı üstə durub belə xitab etdi:*
*“Ey qoca, sən Axillesə sığınaraq, düşmənlərin*
*Arasında arxayınca, rahat-rahat nə yatıbsan!..*
*Öz oğlunun cəsədini almaqçün bol fidyə verdin.*
*Ancaq bil ki, Aqamemnon, ya da başqa axeylilər*
*Sənin burda olduğundan xəbər tutsa, – övladların*
*Səni diri qurtarmaqçün üç qat artıq verəcəklər”.*

*Belə dedi. Qoca qorxub, qasidi də cəld oyatdı,*
*Hermes isə tez atları, qatırları qoşub, özü,*
*Heç bir kəsə görünmədən çıxardı o ordugahdan.*
*Hamı gəlib ulu Zevsin yaratdığı büllur sulu,*
*Dərin coşğun Ksaif çayın sahilinə yetişəndə,*
*Onları tərk eləyərək, cəld qayıtdı pak Olimpə.*
*Zəfərani libasında Şəfəq göydən nur saçanda,*
*Onlar ah-zar edə-edə, gedirdilər şəhrə sarı,*
*Gözəllikdə Afrodita bərabəri Kassandradan*
*Başqa hər kəs, – kişilərdən, zər kəmərli qadınlardan*
*Bir nəfər də görmədi bu gələnləri ondan əvvəl.*
*Sübh ertədən Kassandra Perqamaya çıxıb, ordan*

*Gərdunədə atasıyla qasidini gələn gördü.*
*Qatırların qoşulduğu arabada mərd Hektorun*
*Cəsədini görcək, bütün şəhər duydu fəryadını;*
*"Ah, aman!... Ey Troyanlar, qarşılayın mərd Hektoru!*
*Siz ki, onu hər döyüşdən qayıdanda təmtəraqla*
*Qarşılardız...o, fəxriydi bu şəhərin, bu ellərin!"*
*Belə dedi. Troyada birdən-birə, arvad-kişi,*
*Hamının dərin bir qəm-kədər çökdü ürəyinə.*
*Darvazanın qarşısında qarşıladı hamı onu.*
*Öndə cavan arvadıyla, qoca ana saçlarını*
*Yola-yola, mərd Hektorun cəsədini qucaqlayır,*
*Bütün xalq da hönkür-hönkür ağlayırdı qəhrəmana.*
*Bütün günü darvazanın ağzından əl çəkməyərək,*
*Yəqin hamı axşamadək ah-vay edib ağlayardı,*
*Ancaq birdən mərd Priam gərdunədən bərk çığırdı:*
*"Yol verin biz keçib-gedək, sonra evə toplaşaraq,*
*Matəm qurub ölümüzə, oxşayarıq-ağlaşarıq!.."*
*Belə dedi. Xalq ayrılıb yol verdi o arabaya,*
*Priamın sarayında şəbəkəli çarpayıda*
*Uzatdılar o cəsədi. Ağıçılar çağırıldı.*
*Oturaraq dövrəsində acı-acı oxşayaraq,*
*Onlar ağı söylədikcə, arvadlar da vay tutdular.*
*Andromaxa mərd Hektorun başına əl çəkə-çəkə,*
*Yanıqlı fəryadlarla oxşayırdı öz ərini:*
*"cavan getdin bu dünyadan, ey həmdəmim, mehribanım!*
*Mən bədbəxt dul, yazıq balan – bircə oğlun yetim qaldıq...*
*O ağ bir gün görməyəcək... yəqin bizim İlionu*
*Darmadağın edəcəklər... səndən ancaq bu şəhəri*
*Arvadları-uşaqları düşmənlərdən hifz eləyən!*
*İndi daha hamınızı yeyin gedən gəmilərə*
*Yığıb əsir edəcəklər... Ah, balacan, mənlə birgə,*
*Sən də əsir gedəcəksən... yad ellərdə sərt-amansız,*
*Ağalara qul olaraq, ağır işlər görəcəksən...*
*Yaxud da ki, bir axeyli yapışaraq qollarından*
*Düz qüllədən tullayacaq səni yerə... – ah, nə dəhşət!*
*Mərd atanın döyüşlərdə öldürdüyü qardaşının,*
*Ya oğlunun əvəzini, oğul, səndən çıxacaqlar...*
*Çünki onun nizəsilə həlak olan axeylərdən*
*Çoxları öz dişlərilə sərt torpağı gəmirmişdir.*

*Atan sərtdi döyüşlərdə... yas saxlayır ona hamı*
*Ey mərd Hektor, ölümünlə öz atanı, öz ananı –*
*Hamımızı tükənməz qəm dəryasına qərq elədin!..*
*Sən öz ölüm yatağından mənə bir əl uzatmadın,*
*Vəsiyyət də edib bir söz demədin ki, barı onu,*
*Yad eləyib, ağlayım mən, ömrüm boyu gecə-gündüz!..”*

*Belə deyib hönkürürdü, arvadlar da vay tuturdu,*
*Ondan sora Hekuba da oxşayaraq fəryad etdi:*
*“Oğlanlarım arasında ən əzizim səndin, Hektor!*
*Sağlığında pak allahlar səni əziz tutardılar,*
*Öləndə də, yandı sənə ölməzlərin ürəkləri*
*Yeyinayaq Axill mənim çox oğlumu əsir edib,*
*Diri-diri satıb qultək uzaq-uzaq dənizlərdə:*
*Samos, İmbros, çox dumanlı Lemnos kimi adalara,*
*Ancaq səni öldürüb o, – hərbdə həlak elədiyin,*
*Dirildə də bilmədiyi o Patroklun məzarının*
*Dövrəsində cəsədini hər nə qədər sürüdüsə, –*
*Sən yenə də şeh yuyantək tərtəmizsən, saf, ləkəsiz,*
*Sanki səni gümüş oxlu Feb-Apollon incə-zərif*
*Oxu ilə birdən-birə vurub həlak eləmişdir!”*

*Belə dedi hönkürərək, hamı bərkdən ağlaşdılar,*
*Ondan sonra Yelena da oxşayaraq fəryad etdi:*
*“Ey qayınlar arasında ən əzizim, igid Hektor!*
*Çünki ərim Paris sənin əziz doğma qardaşındır.*
*Ah, mən bədbəxt axı niyə çoxdan həlak olmadım, ah!*
*Düz iyirmi ildir ki, mən öz yurdumu tərk eləyib,*
*Gəlib sizin ölkənizdə bu sarayda yaşayıram.*
*Bu vaxtadək səndən əsla acı bir söz eşitmədim!*
*Hətta evdə olanlardan: qayın, baldız, ya gəlinlər,*
*Ya qaynanam, – qaynatamsa çox mehriban olmuş mənə,*
*Biri məni danlayanda, sən həmişə şirin sözlə,*
*Xoş rəftarla onların da ürəyini yumşaldaraq,*
*Məni yersiz hücumlardan qoruyardın hər bir zaman*
*Həm sənə, həm öz bəxtimə yanaraq mən ağlayaram*
*Bu möhtəşəm İlionda mənə ürək dostu olan*
*Səndən başqa heç kəs yoxdur, – hamı məndən nifrət edir”.*
*Belə deyib hönkürdü o, arvadlar da vay tutdular”.*

*(Orada, səh. 531-534).*

Biz dedik ki, şəri asanlıqla həzm edən, ahəngini itimriş dünyada qəlbin daxili fərəhinin, sevincinin ifadəsi olan təbəssümün bəşər həyatında davamlılığı mümkün deyil.

Bütün gülüşlər fərəhdən, sevincdən xəbər vermir. Gülmək burada həyatın ümumi müvazinəti ilə bağlıdır. Həyat var – ağlamaq, gülmək və s. hamısı müşahidə edilmişdir. Dəhşətli, ağlasığmaz hadisələr baş verdikdən, bundan bir qədər ötdükdən, qəlb öz sevincini əbədi itirdikdən sonra belə. Dodaqlar gülür, ürəyin başında isə ağır bir kədər yükü əbədi oturmuş. Gülüş zamanı dodaqla könül öz əlaqəsini əbədi itirmiş...

Arzu olunan gülüş odur ki, o qəlbə hakim kəsilən bir sevincin ifadəsi olsun.

Elə son hadisəni – troyalıların Hektorun cəsədini götürüb geri qayıtmalarını götürək.

Priam risq eləmişdi. Axilles də bu risqin mərdanə mündəricəsini anladı. İndi isə onlar Hermesin təhriki ilə Axilles yuxuda ikən, son təşəkkürü etmədən, salamatlaşmadan, oğrular kimi çıxıb gedirlər. Bu bir az alıb-aldatmaya da oxşayır.

Hərçənd ki, troyalıların burda məcburiyyəti vardı. Onlar cəsədi yunanlar oyanana qədər gəmilərin arasından çıxarmalı idi. Bu yöndə əvvəlcədən xəbərdarlıq edilsəydi, Axilles buna imkan verərdi. Bir halda ki, Axilles onlara çöldə yataq təklif edəndə buna özü boy vermişdi. Lakin bu başqa söhbətdir.

İndi isə hadisələr tərsinə cərəyan etdi. Burada allahın da əli var.

Lakin Axilles bundan nəticə çıxarmağa çalışsa və ümumi durumu tuta bilməsə, öz alicənab təbiətinin gələcəyi üçün hansı yönü götürməlidir?!

“İliada” Hektorun cəsədinin geri alınması ilə başa çatır. O, Troyaya çatan kimi Hektorun qövmü arasında elə fəğan başlayır ki, bir adamın fəlakəti bütün bəşərin faciəsi şəklini alır.

Ata, – hələ qoca Priam Hektorun Axilleslə üzləşdiyini görəndə fəryad qoparmışdı. O, bilirdi ki, bu rastlaşmaq oğlunun həlakı ilə qurtaracaq. Taleyinin qarşılaşacağı acınacaqlı mənzərəni qat-qat təsvir edir və inildəyirdi. Orada deyilir ki, oğlanlarım həlak olur, qızlarım əsarətdə qalacaq, dil bilməyən körpələri amansızlıqla qıracaqlar (özünün meyvəsi, gələcəyi olan körpələrə qıyan bəşərin xislətinə diqqət yetirin), özümü də öldürüb qapımda sülənən itlərinə yem edəcəklər... Və s. və i.a.

Cəsədi görcək cavan arvadla qoca anası saçlarını yolur, cəsədi də qucaqlayırlar. Xalq da qəhər içərisində boğulur, hıçqırır, hönkür-hönkür ağlayır.

Ümumxalq fəlakəti, bəşərin faciəsi!

Andromaxa meyidi oxşayır; cavan getdin, mehribanım, mənim də səadətim parçalandı, dul qaldım.

Göstərir ki, şəhər fəth ediləcək, qıranı qıracaq, qalanını da əsir kimi sürəcəklər. Mən və balan yad ölkədə bir qul kimi ömür sürəcəyik. Ölüm bundan asandır.

Sonra yetim qalan balanın qul taleyi acınacaqlı təsvir edilir. Bir az əvvəl isə o şahzadə idi.

Yıxılmaq yıxılmaqdır. Amma kim hansı ucalıqdan yıxılır.

Hamı, saxta olsa da, göz dumanlandırıcı şahzadəlik pilləsində dayanmır. İşin saxtalığı orasındadır ki, şahzadə kürsüsünə yalnız bir yer var. Yıxılanda isə o, hamının yadına düşür və ucadan düşdüyünə görə daha çox ağlayır.

Deyirlər, həqiqəti buradan daha yaxşı görmək mümkündür. Lakin bu fikir xırdalar – mərtəbə deyilən solğun şey üçün yarananlardan ötrüdür. Ruhən böyüklərə isə bəşər həyatının bütün mərtəbələrində ancaq həqiqət var – buna qarşı duran hər şey puçdur.

Biz dastandakı fikirləri təkrarlamaq istəmirik. Bunu gətirdiyimiz nümunədən bir daha nəzərdən keçirmək mümkündür.

İş ondadır ki, qələbə zamanı Hektor da başçılarının başına bu oyunu açıbmış.

Hələlik insanlar kəlamı eşitmir, imkanı əlində ikən heç bir zaman işin dalını gözləmir. Belə halda insan gülməkdən daha çox ağlamağa layqidir. Xüsusən də yırtıcılıq yoluna qədəm qoyan xalqlara (xalq sözü nisbi mənada başa düşülsə də) ağlamaq çox yaraşır. Çünki bu zaman o, haqqın tərəfində olur.

Bəli, imkanla azğınlıq çox vaxt yanaşı dayanır və işin ardını gözləmir. Təsadüfi deyil ki, deyirlər "balanın başına gəlsin".

İndi Hektorun atasının, anasının, arvadının və balasının başına gəlmiş...

Hələ Hektor yaxşı adam hesab edilir. Bunu, heç olmasa, Yelenanın açıq söyləməsindən də görmək olar.

O deyir ki, iyirmi illik qırğına səbəb olan mən bu vaxtadək sənin ağzından acı bir söz eşitmədim. Hətta başqaları mənə tənə seli yağdıranda da sən ruh tək qanad gərər və məni himayənə götürərdin.

Başqalarını pənahına götürmək allaha layiq sifətdir.

Tarixi sərtlik də ondan ibarətdir ki, allahlar özü də şərdən yaxalarını qurtara bilmir. Bəşər həyatının kələ-kötürlüyü, faciəsi bundadır.

Əgər biz cəmiyyət həyatını götürsək, Patroklun, Hektorun həlakı və dəfni çox baha başa gəlir.

Əlbəttə, insanın məndəricəsi dəyərlə ölçülmür. İnsani düşüncə alınıb satılmır. O, mənalar daşıyıcısıdır, hər cür dəyərdən ucadır.

Söhbət burada ehtiyacların tüğyan etdiyi bir vaxtda şöhrət, fərqlənmək, dəbdəbə naminə çəkilən artıq xərclərdən gedir.

Döyüşdə ölənlərin hamısı eyni münasibətə layiqdir. Amma hamıya Patrokla, Hektora qoyulan xərci çəkmək mümkün deyil.

İmtiyazlar qəbristanlığa qədər gedib çıxır.

Biz bu dözülməyən şərin haqq-hesabına gedirik.

Daha bir nöqtəyə diqqət yetirmək fikri bütöv götürməyə köməklik göstərər. Priam-Axilles qəziyyəsi yaxşılıqla başa çatır. Hətta onlar təam edir, duz-çörək kəsirlər. (12 gündən sonra isə qanlı nahar yenə davam etməlidir. Bir şər dünyasındakı duz-çörəyin məndəricəsinə baxın!). Sonra tərəflər dincəlməyə çəkilir. Yataq başlayır. Priam öz müşaiyyətçisi, Axilles də, dastanın dediyi kimi, al yanaqlı, gül dodaqlı Briseida ilə!..

İnsanların öz könül munisi ilə, xüsusən də halal olanda, yatışmasının təhlilinə getməzdik. Lakin özü müsibət içində olan və bir qədər o tərəfdə insan cəsədi uzanan yerdə bu Axillesə yaraşmır. Bu vəziyyətə Briseidanın ilahi dünyası da bəraət qazandıra bilməz. Buna yaşayışın döyüş tərzi də haqq qazandırmır. Hamı üçün mümkündür. Amma Axillesdən ötrü yox.

Briseida Axillesin əlindən alınarkən, hələ o zaman qəti surətdə aydın olur ki, bu dünya onun deyil. Barışıq təklifi zamanı tikə əlavələri ilə Briseidanı da qaytardılar. Lakin bütün bunlar, həmin səbəbə görə, Axillesdə olmamalı idi. Çünki bütünlükdə bu dünya Axillesə aid deyil. Bu dünyada onun yeganə qisməti var, vəzifəsini yerinə yetirmək...

"İliada" ideyasını burada bitirmək mümkün idi. Lakin oradakı qəhrəmanlardan Odissey ayrılmış və ona ayrıca dastan həsr edilmiş bu isə əvəzsiz deyil. Həqqətən də "Odissey" dastanında və onun qəhrəmanının simasında "İliada" dastan ideyası, Aqamemnon-Axilles qarmaqarışıqlığı tamamlanır...

Ona görə də "Odisseya" dastanından bəzi nöqtələrə diqqət yetimrək məcburiyyətindəyik.

Troya ilə bağlı əfsanələrin, – mifologiyanın söylədiyi hadisələri ən çox "İliada" əhatə edir. "İliada" bir vaqeənin ürəyi, Axilles onun baş qəhrəmanıdır. Odissey isə orada iştirak edən Nestor, Aqamemnon, Ayaks, Diomed, Antilox və s. qəhrəmanlardan biridir. Bəs necə olmuş ki, bu qəhrəmanlardan seçilib heç birinə ayrıca hekayət həsr edilməyib, Odisseyə isə ayrıca dastan söylənilib. Hətta "İliada"nın canı olan Axilles belə orada yalnız hadisələrin iştirakçısıdır. Dastan da onun adı ilə deyil, sadəcə "İliada" adlanır.

Amma bütöv bir dastan "Odisseya" adlanır. Bu boş şey ola bilməz. Odissey qəhrəmanın simasında bəşərə məxsus bir sirr, hikmət gizlənməlidir.

Troya qəhrəmanları hərəsi bir sifəti ilə seçilir, bütün başqa cəhətlər həmin keyfiyyətin ətrafında fılanır. Məsələn, Axilles iti qaçması, Nestor müdrikliyi ilə və s. Başqa cəhətlər isə bu fərqlənən keyfiyyəti tamamlayır.

Odisseyə istinad verilən əsas cəhət biclik, hiylə ilə çıxış yolu tapmaq fərasətidir.

Deməli, əslində pis keyfiyyət olan biclik, hiyləgərlik Odisseydə müəyyən fəaliyyəti uğurla başa gətirmək işinə xidmət göstərir. Ona görə də Odisseydəki bicliyi, hiyləni bəşəriliklə uymayan pis keyfiyyət təkin götürməmək də mümkündür.

Odisseyi tam anlamaq üçün həm "İliada"da, həm də "Odisseya"da çoxlu fikirlər var. Həm də diqqəti cəlb edən odur ki, ona aid bu hadisələr, keyfiyyətlər ilk baxışda mənfi yöndədir. Amma bunlar dastanlarda Odisseyin müsbət tərəflərinin təsdiqi kimi məna edilir.

Bəzi faktlara diqqət yetirək.

Məsələn, hadisələri izləyən, gərəkliyi təhlil edib yekunlaşdıran bütün nəzəri mülahizələr, amala, ictimai işə üstünlük verməməyi, öz xeyrinə qapanıb qalmağı mənfi keyfiyyət kimi məna edir. Dastanlar-da isə bu cəhət Odisseyin üstünlüyü kimi dildə gəzir. Hətta "Odisseya"nın bir yerində də bu barədə ayrıca deyilir.

*"Fanilərdən heç birisi öz xeyrini düşünməkdə*
*Odisseylə müqayisə edilməyə layiq deyil".*

*("Odisseya", səh. 270).*

Əlbəttə, burada söylənilmir ki, Odissey nəfsin bataqlığına ilişib qalan adamlardandır. Lakin təkcə xeyrə xidmət edən, ülviyyət səviyyəsinə yüksələn cəhət ideal kimi təsdiq oluna bilər. Hər yerdə

öz xeyrini güdmək, bəlkə də gerçəkliyin tələbləridir. Lakin o, ideal səviyyəsinə qaldırıla bilməz. Ona qalsa idi, Axillesə söyləmişdilər ki, vətənin taleyini düşünsən, xalqın xeyrini güdsən, Troya hadisələrinin əsas müşkülünü açmaq işinə xidmət göstərsən, bu, sənin öz həyatının da başa çatması deyən sözdür. Lakin Axilles taleyin hökmü ilə hesablaşmadı, ömrünü qırmaqla olsa da, vətənin xilasına yol açmağa can atdı. Və məhz bu cəhətinə görə də Axilles idealın təsdiqi kimi diqqəti cəlb edir.

İndi isə ayrıca dastan həsr edilmiş Odissey haqqında söylənilir ki, öz xeyrini dərk etməkdə onun tayı-bərabəri tapılmaz.

Onda bu ikili vəziyyəti necə mənalandırmalı, qiymət verməli?! Bir halda ki, ikinciyə bütöv bir dastan da həsr edilib.

Daha sonra, bəllidir ki, dara düşənin taleyinə laqeyd qalmaq, bərkə düşənə əl uzatmamaq yaxşı cəhət deyil. Xüsusən də yoldaşını darda qoyub qaçmaq. Əksinə, bu, namərdlik hesab olunur.

Amma öz xeyrini dərk etməkdə və güdməkdə "tayı-bərabəri" olmayan Odissey, biz görürük ki, nəinki yoldaşını darda qoyub qaçır, hətta Nestor kimi valideyn yerində bir qocanı, Yunanıstanın iftixarı olan bir şəxsi cəbhədə canını güdərək zərbələr altında qoyub qaçır.

"İliada"da baş verən həmin hadisəyə diqqət yetirək:

*"İdanın dik zirvəsindən Zevs qorxunc bir zərbəylə,*
*Dəhşətli bir şimşək çaxdı axeylərin ordusuna.*
*Bunu görcək axeyləri dəhşət aldı, bərk qorxdular.*
*Adlı-sanlı İdomeiy, Aqamemnon, iki Ayaks, –*
*Bütün Ares xadimləri daha orda qalmadılar.*
*Axeylərin qorucusu bircə Nestor qaldı...*
*Qoca Nestor yəqin həlak olacaqdı.*
*Ancaq birdən qolu zorlu mərd Diomed gördü onu.*
*Qorxunc səslə çığırdı. Odisseyi harayladı:*
*"Sən ey allah yetirməsi, sən, ey müdrik mərd Odissey!*
*Düşmənlərə dal çevirib nə qaçırsan qorxaqlar tək?*
*Qorxmursanmı, daldan vurar düşmən səni nizəsilə?*
*Dayan! Qoca Nestoru biz xilas edək həlakətdən!"*
*Belə dedi. Ancaq cəsur Odissey heç dinmədi.*
*Gəmilərə üz tutaraq ötüb keçdi qaça-qaça.*
*Diomed tək qaldısa da, cumdu yenə düz irəli,*
*O qocanın atlarının qarşısında dayanaraq,*
*Neleyoğlu mərd Nestora üz tutaraq belə dedi:*

*“Yaman dara qısnayıblar gənc qoçaqlar səni, qoca!*
*Qocalıqdan əl-ayağın gücdən düşüb, yorulubsan,*
*Sürücün bir yaman əfəl, atların da ayaqdan ləng,*
*Gəl min mənim gərdunəmə, onda özün görərsən ki,*
*Tros atı necə atdır, enişdə də, yoxuşda da...”*

*(“Odisseya”, səh. 168).*

İlk baxışda öz mənafeini dolğun şəkildə dərk etmək və fəaliyyətdə bunu öndə saxlamaq təqdir olunmamalıdır. Necə ki, nəzəri mülahizələr də ümumə xidməti prinsipə çevirir, ideal səviyyəsinə qaldırır.

Lakin bütün bunlar söz-söhbətdir. Sözdə deyilənlərdən başqa iş də var, hadisələrin gerçək dünyadakı cərəyanı da göz önündə dayanmışdır.

İctimai işə xidmətdən əksəriyyət danışır. Lakin sadəlövh durumunda qalanlardan başqa böyük əksəriyyət sözdən işə keçəndə amalı unudur və bir yırtıcı təkin sökmək dalınca qoşur. Bu hər yerdə öz xeyrini güdməkdən daha pis vəziyyətdir. Lakin gerçəklikdir.

Dünya, onun sakinləri təkcə şüurları ilə deyil, bütün ruhları, instinktləri ilə mənafelərinə bağlı olduğu, nəfslərinin qulu kəsildiyi, hər yerdə mənafelərini güddüyü, heç bir şey verməyib, hər şeyi götürməyə cəhd göstərdiyi, üzdə bir, arxada başqa cür davrandığı, daim xeyirdən danışıb, şər naşiri olduğu və s. halda özünü unut və ümumun xeyrinə ardıcıl surətdə qoş görüm haraya gedib çıxacaqsan? İşlər isə elə nizamlanıb ki, xeyrini güdənlər üstünlük eldə edir, təmin olunur, həyatda öz yerini tutur, ictimai təqdir qazanır. İşin dalını-qabağını gözləmədən amal dalınca qoşanların isə qayğıdan, təminatdan əli çıxır, təqdir də edilmir! Faci vəziyyətdə qalır. Həm də facilik haqqı ödənilməyən şeyin yerini felən doldursa da, idraki olsa da, prinsip olmamalıdır. Çünki prinsip həm də ülvinin təsdiqi, həm də yaxşı, insancasına yaşamaqdır. Bir halda ki, insan təbii cəhətdən fəlakətin, ictimai durumuna görə isə faciəviliyin hədələri altında dayanmışdır.

İnsan gücsüz, çılpaq halda yerə düşür. Dərhal onu şaxta və ya qızmar haqlaya, o, qidasızlıqdan məhv ola bilər. Başlanğıc üçün valideyn qayğısı onu xilas edir. Sonrakı pillələrdə xəstəlik, uçurum, zərbənin gətirdiyi xəsarətlik, öz-özünə qulluq edə bilməmək və s. təsadüfləri onu həlakətə apara bilər. Fərd ətrafa təsir göstərir. O, ətrafın eyni təsirinə də uğrayır. Təsir əks təsirə bərabərsə də, kütlələr (çəkilər) müqayisəsiz dərəcədə müxtəlifdir. Qarşılıqlı təsirdə kütlələr

arasındakı bu fərq (təkin məhdudluğu və küllün hüdudsuzluğu) bir anda səni məhv edə, külünü göyə sovura bilər. Bu əsasın hər an gerçəkliyə çevrilmək imkanı var. Təsadüflərin qurbanı olanların hamısı bu qəbilə daxildir. Necə ki, zəlzələ, yanğın, sel, şaxta, isti vurma təsadüfi zərbə nəticəində həlak olanlar və ya çolaq qalanlar hər zaman müşahidə edilmiş.

Bu, insanın təbii vəziyyətidir.

O, ictimai cəhətcə daha mürəkkəb haldadır.

Onu daim fəaliyyətə sürükləyir, haqqını isə ardıcıl surətdə danırlar. Gözə görünməz şəbəkə yaranmış. Bu şəbəkədə yadlıq var. Yəni o, haqqı ödəmir, haqsızları isə bəhrələndirir. Cəmiyyətdə də müəyyən məsələlər tərtib etmiş. Haqqı fərdi yolla, həmin şəbəkədən qıraq bərpaya çalışan hər bir kəs dərhal tərtib edilmiş məcəllənin hədəsi qarşısında qalır. Öz xeyrini dərk etməkdə "əfəllik" göstərən, daim ictimai işə can atanlar asanlıqla iflas edə və həqarət yağışı altında qala bilərlər.

Beləliklə, biz görürük ki, təbiət bir anda səni udmağa, cəmiyyət, onun sakinləri isə talan etməyə hazırdır.

Bu vəziyyət ilk baxışda pis görünən Odisseyin öz xeyrini dərk etməkdə misli-bərabəri olmaması keyfiyyətinə haqq qazandırır.

Burada incə mətləblər də var. Odissey xeyrinə münasibəti şüurlu-dur. Bu işdə onun hərəkətlərində bir idrakilik, gündəlik həyatda sadəlövhlükdən təmizlənmə müşahidə edilir. Lakin o, nəfsinə ilişib qalanlardan deyil.

Təbiətlərin müxtəlifliyi, bundan irəli gələn, mühitlə qarşılıqlı münasibətdə püxtələşənlər və püxtələşə bilməyənlər müşahidə edilir. Burada instinkt mühüm rol oynayır.

Məsələn, Odissey qəhrəmani sifətlərlə yanaşı, xudpəsənd təbiətlər təkin öz hərəkətlərində mənafeni də nəzərə alır. Yəqin ki, buna onun instinktində yerləşən bir cəhət də imkan verir. Bu cəhət onun qəhrəmani sifətlərini sadəlövhlükdən təmizləyir və ya belə görünür. İlk baxışda vəziyyəti dərindən təhlil edəndən sonra, Axillesə də bunu arzu etmək mümkündür. Amma mühitlə qaynayıb-qarışa, idrakilik əsasında nə qədər çalışsa da, instinktində olmadığına görə, Axilles öz fəaliyyətində mənafeni də nəzərə alıb onu uğurla tətbiq edə bilməz. Çünki bu, onun təbiətinə yaddır. Axillesi ağlından əvvəl təbiəti, instinkti, ruhu daim cilovsuz bir ehtirasla qarşısıalınmaz şəkildə fədakarlığa sürükləyir.

Odisseyi xilas edən şey odur ki, mənafeni dərk etmək onda nəfs səviyyəsinə enmir.

Mühitin çürüməsi ilə yanaşı, hakim o zaman diktatordan çevrilib müstəbid olur ki, onun instinkti imkan vermir ki, şıltağından və nəfsin tələblərindən azad ola bilsin.

Bu cəhətdən, xüsusən ictimai cilovları əlində topladığına görə, Aqamemnon öz şıltağına və nəfsinə ilişib qalması darıxdırıcıdır.

Aqamemnon, yunan – Troya vaqeəsinin mühüm anında nəfsi ucundan Xriseida-Briseida bataqlığına ilişib qaldı, işləri də həlakətli müşkülə saldı.

Xriseidanı, Briseidanı Aqamemnona vermirdilər. O isə bunları bərk-bərk tutur, işləri də çıxılmaz küncə basır, hələ evdə öz əl, əyaləti, külfəti olduğunu da unudur. Həmin əl, əyalətin, külfətin yada salınmağa layiq olub-olmamasının bura dəxli yoxdur. Hər halda o zaman bu ailə bütöv məna edilirdi.

Amma çətinliklərin ifrata çatdığı dövrlərdə Odissey Oqiqiya adasında pəri Kalipsoya rast gəlmişdi. Burda gözəllik, təminat, nəvaziş, məhəbbət, nəşə, şəhvət, üstəlik əbədiyyət də var idi. Həm də Kalipso Atlantın qızı idi ki, kök də gedib Zevsin özünə bağlanırdı.

Odissey bu səsləmələri eşitmədi, dəvəti qəbul etmədi. Çünki o mənafeyi dərk etmişdi, nəfsə ilişib qalmamışdı. Onun üçün Penelopa, isti ocaq, doğma yurdun bir anı təmsil edən bəşəri mündəricəsi əbədiyyətdən üstün idi.

Aqamemnona vermirlər – yapışıbdır, qopmur, dünyanı da uçurum qarşısında qoyur.

Odisseyə verirlər – taleyini uçurum qarşısında qoyursa da, almır.

Nəticədəki müxtəliflikləri isə sonda görəcəyik.

Ona görə də Odisseyin mənafeyini dərk etməkdə "tayı-bərabəri" olmasında bir idrakilik var!

Gətirdiyimiz ikinci nümunədə deyilir ki, Odissey döyüşdə, həzin bir anda yoldaşı, daha artıq qoca döyüşçünü ağsaqqal, yurdun şərəfi olan Nestoru darda qoyub qaçır.

Bu həm namərdlik, həm də görünməmiş bir rüsvayçılıq hesab edilməli idi.

Axı ömrü boyu töhmət altında qalmaq, namərd hesab edilmək, gözükölgəlilik, rüsvay olmaqdansa, ölmək yaxşıdır. Təkcə qəhrəmanlar yox, az-çox şərəfi olan hər bir kəs belə halda ölüm-dirim döyüşünə atılardı.

Amma bu vəzifəni Odissey necə yerinə yetirir ki, gözükölgəli qalmır, bütövlükdə isə təqdir olunur.

Odisseyi sığortalayan nədir?

Odissey bütün meyilləri, davranışı ilə sanki deyir ki, idraki, mümkün, gerçək olan hər bir şeyə varam. Lakin nə qədər bəşəri görünsə də, ülviyyət tülünə bürünsə də, sadəlövhlüyə və yelbeyinliyə mən borclu deyiləm.

Məsələn, Axillesə xəbər verilmişdi ki, Troya müşkülünü açarsansa, yəni Hektoru həlak edərsənsə, sənin öz ömrün sona çatacaqdır. O, yolundan dönmədi, ölümü qəbul edib, müşkülü açmaq, Hektoru öldürmək yolu ilə xalqının səadətinin qaytarılmasına yol açdı.

Odisseyin baxışından bu sadəlövhlük sayılardı.

Odissey deyirdi ki, vətənə də varam, vətən uğrunda döyüşə də. Lakin hamının başının üstünü kəsdirən ölümə qabağa düşüb özümü verməRəm. Ümumi xidmət ölümlə nəticələnirsə, bunu mən etmərəm. Çıxış yolu varsa, ümum üçün ölümə getmək nə üçün? Ölümə yalnız o zaman getmək lazımdır ki, daha çıxış yolu qalmamışdı. Ölüm mütləqdirsə, qaçmaq yox, vuruşa-vuruşa ölmək lazımdır. Onsuz da dünya xidməti qiymətləndirməməyi bir yana qalsın, cəza da verir, tərbiyəsiz uşaq kimi əlindəkini çırpışdırdıqdan sonra arxasına baxmadan qaçır.

Onda bəs mən nə üçün sadəlövhlük edim? O, məni qoyub qaçanacan, qabaqlayım, mən də onu qoyub qaçım.

Elə vəziyyət yaranıb ki, yunan qəhrəmanları cəbhəni, döyüşü qoyub qaçırlar. Dastan müxtəlif səbəblərlə Nestorun döyüş yerində almağını əsaslandırsa da, hamının qaçdığı yerdə onun dayanması Odissey baxımından yelbeyinlikdir.

Yenə də Odissey sanki deyir: mərdliyə də varam, fədakarlığa da, mətinliyə də, dostluğa da. Lakin heç kəsin, sadəlövhlüyünə olduğu kimi, yelbeyinliyinə də borclu deyiləm.

Hamı qaçır və sən də bunu edə bilərsən. Lakin sən yelbeyinlik göstərir, özünü zibilə salır, hələ başqasını da buna sürükləyirsən. Nəinki səni xilasa cəhd göstərməməli, hətta töhmət altında qoymalı. Çünki bu, haradasa əsgəri intizamı pozmaqdır. Bu ona bənzər ki, hamı döyüşə şığıdığı halda, biri fərarilik edə. Belə halda həmin adam cəbhə qoşunlarının sərəncamına verilərdi. Nestorun (o nə qədər ağıllı və müdrik olsa da) başa gətirdiyi iş həmin vəziyyətin başqa üzüdür.

Odisseyi xilas edən işin bu cəhətidir.

Axı Odissey nə qorxaqdır, nə də namərd. O, ancaq fəhm edə bildiyi, ağlına batan işləri görür. Əgər bir işin gerçəkliyinə inam bəsləsə, idrakiliyini qəbul etsə və bu qərara gəlsə, axıra qədər gedər.

Məsələn, Odissey Troya müharibələrində iştiraka asanlıqla razılıq vermir. Bu iş uzun dilə tutmalardan sonra başa gəlir. Sonrakı hadisələrdə küsən, ruhdan düşənlər müşahidə edildi. Əsər bütövlükdə, sanki Aqamemnon – Axilles qəziyyəsi üstə qurulub. Axilles küsmüşdü.

Bir dəfə də allahlar tora salmaq üçün qızışdırıb qələbə vədi ilə Aqamemnonu onun üçün əlverişli olmayan döyüşə təhrik etmişdilər. Bu döyüşlər Aqamemnon üçün rüsvayçılıqla nəticələnirdi. Aqamemnon o qədər ruhdan düşmüşdü ki, fərariliyə meyil edirdi. Lakin Diomedin, Nestorun ardınca məhz Odissey mətanət göstərdi və Aqamemnona söylədi ki, biz döyüşü sona, qələbəyə qədər davam etdirməliyik.

Birtərəfli yox, bütöv götürsək, Odissey bu deyən kəsdir.

Bir cəhət Odisseyə aid həqiqəti bütöv qavramağa imkan vermir. Bu da ondan ibarətdir ki, ehtiyac və binəsiblik deyən ictimai hədədən Odissey azaddır. Əgər indiki fərasət ictimai hədənin binəsiblik gətirməzliyi ilə birlikdə baş versəydi, ideya bütöv görünərdi.

Axı Odissey hələ sayca hakimiyyət və sərvət, sərvət və hakimiyyətlə qoşa boya çatmış.

Nəzəri fikir çox vaxt sərvət və hakimiyyəti bir-biri ilə bağlı götürür. Burda həqiqət var. Lakin maddi cəhətcə o qədər də fərqlənmədiyi halda, bu və ya başqa səbəb üzündən hakimiyyətdə oturmaq mümkündür. Həmin hakim bu zaman müəyyən dairənin məqsədini ifa etsə də, daha burada hakimiyyət və sərvətin mütləq vəhdətindən, bir nəfərin simasındakı ifadəsindən söhbət gedə bilməz.

Göründüyü kimi, Odisseydə vəziyyət bütövdür.

Binəsiblik odur ki, bütün üstün cəhətləri ilə bərabər, aliliyi, müstəsnalığı üzündən insan təklənmiş duruma düşür. Bu da gerçəkliklə uzlaşa bilməmək üzündən başa gəlir.

Biz işin bu cəhətini Nizaminin Fərhadında görürük.

Fərhada allah hər şey verib. Üz-üzə dayanarkən hətta böyük hakimiyyəti də Xosrovu Fərhada bərabər edə bilmir. Şirin isə burada vəziyyət çalarlısa da, hər halda, Fərhadı yox, ardıcıl surətdə Xosrovu intixab edir. Şirin fərqlənsə də, Fərhad aliliyinə nisbətən Xosrov normativliyi daha anlaşıqlı idi.

Fərhad heyrət doğururdu. Xosrov isə kütləvi idi. O, anlaşılır və uzlaşılırdı.

Odisseyinki bu cəhətdən gətirirdi. Qəhrəman üçün yaxşı cəhət olmasa da, Odissey gerçəkliklə qaynayıb-qarışır və uzlaşırdı. Odisseyin geniş xarakteri, hər şeyə tuş gələn instinkti ona yol açırdı.

Beləliklə, sərvət yolu ilə ehtiyacın həmləsindən azad olma, hakimiyyət və Penelopa dünyasından ibarət səadət Odisseyin öz "odisseyliyində" əl-qolunu bağlamırdı.

Ona görə də biz vəziyyəti bütöv götürə bilmirik.

Ehtiyac elə bir ictimai əjdahadır ki, hər bir kəsin əl-qolunu bağlaya, bütün üstünlükləri heçə çevirməkdən başqa mənfi xarakterli bir şeyə də döndərə bilir.

Təkcə C.Cabbarlının Aydını, Oqtayı və s. bu qəbil qəhrəmanlarının taleyi sərf-nəzər edilərsə, dünya ədəbiyyatı işin bu cəhətinə bəs qədər diqqət yetirməmiş.

Biz öz tariximizdən Fərhadın bir cəhətinə diqqət yetirdik. Amma o, heç olmasa, əfkari-ümumiyyə tərəfindən və bundan daha geniş dairədə misilsiz sənətkar kimi təsdiq edilmiş. Bir çox ictimai hadisələrdən xilas üçün bu yetərlidir.

Ehtiyac əjdahası Koroğlunun qəhrəmanlığını və başqa sifətlərini bir anda onun əlindən qapa bilərdi. Amma gözlənilmədən cəzaya uğrasalar da, xana xidmət onları ifrat səfalətdən xilas edirdi. Cəza və hədə anında isə qüdrətlə xalq vəhdəti yarandı. Bu isə Koroğlunun epik fəaliyyətinə imkan verdi.

Qəhrəmani sifətlərini bu qədər müdafiə etdiyimiz Axillesin durumuna yaxından diqqətə ehtiyac yoxdur. Onu ehtiyac adlı ictimai əjdaha ağzına almayıb. Odissey kimi o da sərvətlidir, hakimdir və əlavə qəhrəmani hünəri də təsdiq edilmişdir. Fərqli cəhəti yalnız odur ki, o da Fərhad kimi alidir və gerçəkliklə tuş gələ bilmir. Bu tuş gəlməmək keyfiyyəti onu fərqləndirir, eyni zamanda fəlakətli yol keçməyə, ömrünü qırıb yarımçıq qoymağa aparıb çıxarır. Buna ehtiyac əjdahası da əlavə edilsəydi, onda nə olardı?!

Aliliyi, tuş gəlməməsi üzündən Hamlet fəryad qoparır. Dünyanın məntiqsizliyi, bəşərin antibəşəriliyi onu dərin təhlillər aparmağa məcbur edir.

Dünya ona cəhənnəm kimi buxarlı, boğucu, ağlını itirmiş, yolunu azmış, məhvərindən dönmüş, dəlixana təsiri bağışlayır.

Mühakimələrin gərginliyi, qəlbin gözəgörünməz iztirabları daha əzabvericidir.

Lakin bəlli nədənə görə ehtiyac əjdahası onun da başının üstə dayanmamış.

Ehtiyac isə bəşər həyatının, tarixin bu günə qədər müşahidə edilmiş ümumi mənzərəsidir. Odissey öz macəraçı yolunda bu cəhətdən azad olduğuna görə durumu bütöv almaq çətinləşir.

Cabbarlının Aydınını, Oqtayını götürək. Orada bir qədər vəziyyət hərtərəflidir.

Axı həm Aydın və  həm də Oqtay hünərli idilər. Onlar idraklı, alidirlər. Məqsədli, amallıdırlar. Böyük məqsədlər ardınca qoşurlar. Lakin bütün hünərlər, uğurlar ehtiyacın bağladığı qapılara qədərdir. Ehtiyacın insan, hünər, idrak üzərindəki hakimiyyəti nə qədər imiş?! Bunu nə cəllad əməliyyatı, nə istibdad, nə istila məşəqqəti, nə də inkivizisiya oyunbazlığı ilə müqayisə etmək olar.

Ehtiyac əzir, inildədir, uladır, fəryad qopartdırır, zəlil hala salır və rüsvay edir.

Həm Aydın ehtiyac pəncəsində çabalayaraq "altun dünyası" deyə hayqırır, sonra hıçqırır və fəryad qoparır. İdrak işıq saçmır. Aclıq üzün rəngini soldurmuş, qan yox, dəri sümüyə yapışmış, gözlər ayna kimi sönük bir işıq salır, qıçlar, qollar iy təkindir (sap əyirmək üçün), əllər, ayaqlar, barmaqlar çubulları, çör-çöpləri xatırladır... Və s. və i.a.

Di gəl hünər, Odissey fərasəti göstər görüm, necə göstərəcəksən?!

Halbuki işin başqa üzündə Odisseyi ehtiyac əjdahası da izləyə bilərdi.

Səni udmağa, talan etməyə hazır olan, eyni zamanda qəhrəman olduğuna görə daim ictimai xidmətə sürükləyən dünyada öz xeyrini də nəzərə alma, görüm işin hara gedib çıxacaqdır.

Hələ buna "xalq üzüdönüklüyü" deyilən şeyi də əlavə etmək gərəkdir. "Odisseya" sanki bu özül üzərində qurulmuşdur.

Dastanda söylənilir ki, Odissey xalqına hakim yox, daha çox qayğıkeş bir ata olmuş, həm də o cür fəndgir adam xalqa qarşı diqqətli, qılıqlı, mülayim imiş. İndi isə xalq və ya xalqın içindən çıxmış bir dəstə, bütün haqq-sayın əvəzində xalqın gözü qabağında Odisseyin ülviyyət, ismət dünyasına azğıncasına əl uzadır, mülkünü talan edir, övladının üstü isə qolaylanır.

Bu cəhət o qədər qabarıqdır ki, allahların özünün belə təəccübünə səbəb olur.

Ona görədir ki, Zevsin qızı ilahə Afina cildə girib xalqın və allahların özünün qabağında dəqiqliklə eyni sözlər, eyni fikirlərlə çıxış edir:

*"Ey İtaka camaatı, eşidin bu sözlərimi!*
*Bir halda ki, rəiyyətlə ata kimi rəftar edən,*
*Odisseyi bir nəfər də xatırlayıb yada salmır,*
*İndən belə hakimiyyət skipetri tutanlardan*
*Gərək heç kəs nəcibliyə, yumşaqlığa yol verməsin,*
*Ürəyindən qovub rəhmi, camaata zülm eləsin".*

*("Odisseya", səh.22-23).*

Sonra 65-ci səhifədə "Ey Zevs ata və ey başqa alicənab pak allahlar!" müraciətindən sonra Afina öz fikrini hərifiynən eyni sözlərlə təkrar eləyir.

Ən ibrətlisi odur ki, xalq dolanbacından nəticə çıxarıb Afina deyir ki, fürsəti olan hər bir kəs nəcibliyi, yumşaqlığı, rəhmi ürəyindən qovub, xalqa zülm eləsin. İnsan, xalq, bəşər özü şəri doğruldur.

Bu allahın hökmüdür.

Odissey müstəbidlik yolu tutmur. Afina hökmlərini məramnaməyə çevirmir. O, istibdad, istila maşınının "kamil" zərrələrindən deyil. Əksinə, fəaliyyətdə öz xeyrini nəzərə almasında müstəbid, istila yürüşündən yayınma da var. (İdela xidmətlə birlikdə).

Lakin bu durum bir daha Odisseyin "öz xeyrini dərk etməkdə tayı-bərabəri olmamasına" haqq qazandırır.

Ən betəri odur ki, xeyir özü ilə başqaları və xalq deyilən ümum arasında hədd qoymur. Bundan da səmimiyyətə qarşı səmimiyyət əvəzinə etinasızlıq alınır. Şər hədd qoyur, əndazəsiz şəkildə özünü dartır. Xalq tüpürmək, üz çevirmək əvəzinə özünü yığışdırır, yox yerində bunu hiss etməyə başlayır.

Halbuki xeyrin yeri möhkəmdir və adi halında xalq deyilən şeyin bunu hiss etmək qabiliyyəti kütdür.

Xeyrə nisbətən şər deyilən şey də xalqın hafizəsində daha nüfuzlu iz buraxır. Bundan da tarixdə ümumi mənzərə yaranır, əsil gözlərdəsə iyrənccəsinə...

Əlbəttə, dirənişə rast gəlmədikdə şər ifrata varan şeydir. Bu zaman xalqın bütün "hiss etmələri", "hafizələrində iz buraxmaları" idraka

çevrilir. Amma bunların hamısı primitiv, bəsit şəkildə baş verdiyindən təskinlik deyil.

Fakt odur ki, bütün məhrəmliyinə və bundan irəli gələn keyfiyyətlərə qarşı camaat Odisseyin ülviyyət dünyasını pozmağa, mülkünü talan etməyə cəhd göstərir. O qədər ki, allahlar özü bəşərdəki bu naqisliyə qarşı haray salır. Ona görə də xeyir xislətli Odisseyin mənfi xüsusiyyətli "öz xeyrini dərk etməkdə tayı-bərabəri olmaması" onu bəşər həyatının bu mürəkkəb qaynarında həm orijinal, həm də bütöv edir.

"Odisseylik", müəyyən mənada, ibrət məktəbinə çevrilə bilər.

Dedik ki, bu gedişdə Odisseyə instinkti kömək edir. Nəticə isə elə alınır, guya o da Axillesdir və mürəkkəb, ibrətli həyat yolu keçdiyindən şərin, gerçəkliyin tələblərini nəzərə alıb yağışdan quru çıxmaq üçün hərəkətlərinə idrak ünsürü hopdurmuşdur.

"Axilleslikdə" qarşıda müşkül var. O, həll olunmalıdır. Əks təqdirdə xalqın taleyini bir taun çulğalayır.

Amma həmin müşkülü həll etdikdə sən fəda gedirsən, ömrün qırılır. Bu qırılan şey sənə bir dəfə verilib.

Ömrə əvəz yoxdur, gedən qayıtmır.

Kimsə şübhə etmir ki, ölüm hamı üçündür. Hələ bu ölüm hünərlə tamamlanarsa, həlakın bütöv bir həyata çevrilmək imkanı da var.

Amma fakt odur ki, ömrə əvəz yoxdur və "ömrü bütöv, özün üçün yaşamaq kamiyadlıqdır" kəlamı qarşıdakı fəlakəti azaldır.

Lakin heç bir zaman daha təkrar olunmayan, geri qayıtmayan bir şeyi üzüdönük bir dünyaya qurban verəsən və etinasızlıqla qarşılanasan.

Bu halda Axilles fədakarlığına qarşı bəlkə də Odissey fərasəti daha idrakidir.

Biz az qala son sözü dedik. Bizim "kəlamlarımızı" Axilles yerindən durub eşitsə, onu həyatın gündəlik tələbləri, tarixin gedişi ilə tutuşdurub özünə yeni yön götürməyə çalışsa, bundan bir şey alınarmı?!

Biz dedik ki, "Odisseyliyə" Odisseyin instinktində olan bir keyfiyyət meydan verir.

Lakin Axilles hadisələri idrakı ilə fəhm eləyəndən sonra da ondan mükəmməl bir Odissey alınmaz, çünki onun instinktində bu yox, "axilleslik" bərqərardır.

O, hər halda, "odisseylik" məktəbini höccələyəndən sonra da bütün vurnuxmaların nəticəsiz qaldığını görər və iş anında

"axilleslik" ehtirasından özünü saxlaya bilməz, olsa-olsa buna idrak ünsürü qatar.

"Odisseylik"də şərin qanunlarını nəzərə almaq, gerçəkliklə tuş gəlmək, məntiqi pozulmuş həyatda nizamlama qabiliyyəti var.

"Axilleslik"də isə qəhrəmanın gözündə üfüqdəki işıq qamaşdırıcıdır. O, burada bir möcüzə görür.

"Axilleslik"də şərlə, gerçəkliklə barışmazlıq, qaynayıb-qarışmazlıq var. Ülviyyətin başı üstünü təhlükə aldıqda bu cəhət onu ehtirasla ölümə sürükləyir, fədakarlıq alınır.

Hünərin, qəhrəmani ölümün dəyəri də ondadır ki, o, əvəzi ödənilməyən bir şeyi verir və xilas edir.

Bu – "axilleslikdir".

Axilleslikdə "Odisseylik" yoxdur. O, öz təbiətindən, ülvi məqamından enə bilmir.

Odisseydə isə "axilleslik" də var. Bu cəhət gerçəkliklə qaynayıb-qarışan Odisseyi hamının biri olmaqdan ayırır, şər dünyasının sakini olmaq kimi rüsvayçılıqdan, cinayətkar həyat tərzindən xilas edir.

Tərkibində "axilleslik" olan Odisseyin həyatda nizam tapması bütöv bir ibrət məktəbi yaradır.

İndi biz vəziyyəti bütöv biçimdə izləyə bilərik.

"İliada", "Odisseya" dastanlarında "pak", "müdrik" epitetləri az qala hamının ünvanına söylənilir.

Lakin qəhrəmani sifət Axillesə, müdriklik isə Odisseyə xas əsas cəhətdir.

Bu ümumun rəyidir.

Halbuki qövmü darda qoyub qaçmaq kimi mənfi yönlü bir sifəti biz Odisseydə gördük.

Bütün kəlamlar, dini inamlar, nəzəriyyələr ictimai işə xidmətin əvəzsiz üstün keyfiyyət olduğunu söyləmişlər.

Odisseyin isə, ilk baxışda, xudpəsəndlik kimi gözə dəyən, xeyrini hamıdan yaxşı başa düşməsini dastan birbaşa müsbət bir keyfiyyət kimi söyləyir.

Biz də xeyrin və şərin tarixdə, gündəlik həyatda gerçək vəziyyətini nəzərə alıb Odisseydəki həmin keyfiyyətlərə "ədalətlə" haqq qazandırmağa çalışdıq.

Halbuki tale Odisseyə ayrıca dastan həsr etməsindən başqa, onun üstün sifətlərinin sadalanması "pak", "mərd" epitetləri çərçivəsinə sığmır. Odisseyə dastan və allahlar tərəfindən elə epitetlər seli yağdırılır ki, bunlar həm də onun şəxsiyyətini izah edir.

Ən çox nəzərə çarpanlarına buradaca diqqət yetirək:

*“Fəndgirlikdə alahsifət Odisseyə çatan yoxdur...*
*Kələk işlətməkdə o, hamıdan üstün idi...*
*çox bilmişdi”*

*(səh.32).*

*“Sınaqlardan mətin çıxmış Odiseytək bir adama heç bir zaman, heç bir yerdə rast gələn olmayıbdır”*

*(səh.49).*

*“Axı, onu doğan ana əzab çəkmək üçün doğub”*

*(səh. 81).*

*“Odissey ömrü boyu bir adamı incitməyib...”*

*(səh.59).*

*“Dözümü çox Odissey”*

*(səh.66).*

*“Odissey, – qalayıxan o qəhrəman”*

*(səh.99).*

*“Uca səslə Odisseyə bu hikmətli sözü dedi:*
*“Fəndgirlikdə sənin ilə bəhsə girə bilməz heç kim,*
*Nə baş oğru, nə kələkbaz, heç allah da girə bilməz,*
*Həmişəki kələkbazsan, həmişəki məkrlisən!”*

*(səh. 186).*

*“Elə həlim və xeyirxah bir ağaya rast gəlmərəm.*
*Düzdür, ata-anamı da istəyərdim görəm, ancaq,*
*Mən onlara sahibimə yandığımtək yanammaram.*
*Məni yalnız Odisseydir dərdə-qəmə qərq eləyən,*
*Canu-dildən sevib məni hər qayğıma qalardı o, –*
*O yoxsa da, adı ilə çağırmaqdan çəkinirəm,*
*Və “əzizim!” deyə ona müraciət eləyirəm!”*
*“çünki hər kəs xatırlatsa mənə əziz sahibimi,*
*Ürəyimi bir amansız qüssə-kədər, həsrət sarır”.*

*(səh.194-195).*

*“Səbr et, könül! Sən ki, bundan yaman gündə səbr etmisən,*
*Sənin qoçaq dostlarını zorlu, acgöz təpəgözün*
*Yediyi gün səbr elədin, ümid yoxkən ac qalmağa;*
*Səbr elədin fəndgirliyin sizi xilas edənədək”.*

*(səh.279-280).*

*"Sınaqlardan mətin çıxmış Odissey..." (səh.301).*
*"Allahsifət Odisseyi razı salıb*
*Gəmi ilə Troyaya döyüşlərə aparmaqçın*
*Tamam bir ay biz dənizi ölçdük. Axır çətinliklə*
*Qalayıxan Odisseyi bu səfərə razı saldıq".*
*(səh.332).*

Gətirdiyimizi birinci misalda deyilir ki, Odissey əzab üçün doğulub.

Dini təəssüblərdə əzab-müqəddəsliklə, ülviyyətlə, ən azı günahların təmizlənməsi ilə izah edilir. Dinin işarə verdiyi müqəddəslik isə böyüklük deyən sözdür. Çünki din yaranmışları böyüyə-kiçiyə yox, günahlıya-günahsıza bölə bilər. Allah yaradanların artığı-əskiyi yoxdur, dinsizi-dindarı, mömini-asisi, qüdsisi-batili və s. var.

Keçib gəldiyin macəralı yol kamilliyə aparırsa, əzab sıradan çıxartmaq əvəzinə gücünü artırırsa, nəzəriyyə bunu böyüklüklə izah edir.

Əzab şərtsiz-qeydsiz şəkildə bütövlüyə işarə deyil. Çətinliyin törətdiyi əzab, öldürücü şərait hamıya qarşıdır, nadir ictimai özül bir qədər qoruyarsa da. Amma bu milyondan bir təsadüfdür və bu özü də daim təhlükə hədəsi altındadır. Zəiflər, doğrudan da, burada məhv olub gedirlər. Amma təbii vəziyyət və ictimai şərtlər elədir ki, hətta ən güclü, böyük şəxsiyyətlər də məhv ola bilər. Əzab yalnız o zaman böyüklüyə bərabərdir ki, keçib gəldiyin yol kamilliyə aparsın və eyni dərəcədə gücü artırsın.

Biz görürük ki, burada vəziyyət Odisseyin xeyrinədir.

İkinci örnəkdə deyilir ki, Odissey ömrü boyu bir adamı incitməyib.

Bu lap da belə deyil.

Biz hələ "İliada"da gördük ki, Aqamemnon-Axilles müşkülünün başgicəlləndirici anında Fersidin təftişçi çıxışına qarşı Odissey onu incitdi, başına qapaz vurdu.

Burada adam incitməkdən ziyadə simasız şəkildə ictimai müvazinəti qorumaq cəhdi, günah iş görmək də var...

Biz yeri gəldikcə Odisseyə aid sifətlərə qayıdacağıq. Bizə ideyanın tam qavranılması lazımdır.

Odissey xeyir təki götürülmüşdür. Lakin orada kəlamların vərdiş etmədiyi cəhətlər var. Bizi də yenidən dərindən düşünməyə vadar edən budur.

Deməli, dastanın hökmünün əksinə olaraq, Odisseydə adam incitmək də var. Amma biz burada əyani vəziyyəti yox, dastanın

dediyini əsas götürəcəyik. Bu da ondan ibarətdir ki, Odissey gerçəkliklə, şər qanunları ilə üzləşdikdə axilleslər təki fınxırmasa da, özündən asılı anlarda kimsəni incitmir, özü şər törətmir.

Bu izi itmiş, məntiqi pozulmuş, şər dünyasında adam incitmədən ömür sürmək, nadir xoşbəxtlikdən başqa, böyük də hünərdir.

Sonrakı kəlamda Odisseyin dözümlülüyündən söhbət gedir.

Geniş, sarsıdıcı, müəyyən dərəcədə də həssas təbiətli şəxs, böyük ağıl böyük də əzab yaradır. Bunun təbii əsası odur ki, böyüklük təzyiq göstərir və eyni cavabı da alır. İctimai səbəbi isə odur ki, böyüklük əfkari-ümumiyyə deyilən dünyanın normativ məntiqinə sığmır. Bu isə daha əhatəli təzyiqdir. Əhatəli təzyiq əhatəli cavaba da uğramalıdır.

Biz həssaslığı böyüklüklə vəhdətdə götürdük. Həssaslıq isə anti-həyat qaynarında insanın zəif yeri hesab edilməlidir.

Yırtıcılar – çaqqal, canavar qana həris olur. Canavarlaşmış dünya da həssaslıqdan ibarət zəifliyə... biz hələ onu demirik ki, həssaslıq insanın ləyaqəti sayılmalı idi. Lakin canavarlıq bəşəriliyi üstələyəndə mənəvi aləm maliyə gedişi təki “devalivasiya” edir.

“Dözümü çox” Odisseyin böyüklüyüdür ki, canavarlaşmış dünyadan salamat çıxır. Odisseyə qalayıxanlıq işarə verilir.

Böyüklük mənfəətpərəstliyi inkar edir. Odisseyə isə həm böyüklük verilib, həm də açıqcasına deyilir ki, xeyrini başa düşməkdə onun tayı-bərabəri yox idi.

O, bu cür “bəxtəvər” yaranmışdı.

Biz “bəxtəvər” sözünü ona görə dırnağa aldıq, böyüklüyün önündəki səadət gətirən qüsur böyüklükdəki çatışmazlığa işarədir.

Təbiət böyük hadisədir. Ağıl möcüzəsi göstərən, ağılda hər şeyi asanlıqla həll edən, adam anlı dünyada aciz də qala bilər. Halbuki təbiəti imkan verdiyinə görə, ən adi adam gündəlik həyatın mahir icraçısı ola bilər.

Axilles Hektoru aradan götürməklə əsas müşkülü həll etdi. Dastan ardıcıl surətdə bunu Axillesin ən böyük hünəri hesab edir. Bizim üçün isə Axillesin ən böyük hünəri qəhrəmani-insani sifəti, ictimai cinayətə qarşı dayanması, naqisliklərlə uzlaşa bilməməsidir.

Biz burada dastanın işarə verdiyi zahiri əlamətə əsaslanırıq. Axillesə demişdilər ki, “Troya müşkülünü” həll etsən, bu sənin ömrünün sonu olacaq.

Axilles müşkülü həll etməkdən çəkinmədi. Onun həyatı fəda getdi. Nəticəni isə Odissey yığışdırdı. Müşkülü Axilles açdı, Troyanı isə Odissey fəth etdi.

Təbiət Odisseyə bu cür, hər yerdə faydalanmağı bacarmaq istedadı vermiş.

Mənfəətbazlığın, nəticəni yığışdırmağın qüsuru üzə çıxmır, yəni ilk baxışda görünmürsə, buna yalnız bəşərin naqisliyi boy verir.

Biz ona görə bu cəhətin üstündən keçmirik ki, kamil dünyada naqisliyin hünəri, əzəməti olmaz. Amma Odissey məhz naqis dünyanın mahiri, qalayıxanıdır, xoşbəxtdir. Təsadüfi deyil ki, aldığımız sonrakı nümunədə Odissey məharəti, fəndgirliyi oğruların, kələkbazların hünəri ilə müqayisə edilir.

Lakin Odissey kələkbazlar, oğrular məqamında uzun bir lövbər salmır. O, dərhal allahların məkanına adlayır. Dastan deyir ki, Odissey hətta allahlardan da mahirdir.

İlahilik naqisliklər seylabında Odisseyi təmizləyir. Adi halda pis cəhətlər onda üstünlük kimi məna edilir.

Odissey naqis dünyanın azmanıdır.

Təbiəti buna imkan verdiyindən Odissey hər yerdə gedişatlarla tuş gəlir, uzlaşır, nəticəyığışdıran olur.

Lakin qaydasınca mühitə düşən təki Odissey ülviləşir. Təsadüfi deyil ki, dastandan onun haqqında gətirdiyimiz sonrakı misalda deyilir ki, həlimlikdə, xeyirxahlıqda Odisseyin tayı-bərabəri yoxdur. Həm də bu sözləri ona tabe zümrənin adamının dilindən eşidirik. Bu isə onu sübut edir ki, özündən asılı olanlarda Odissey ikili yox, bir sifətlidir. Bu isə insana doğma münasibətdən ibarət bəşəri mündəricədədir.

Mülayimlik ifrat doğmalığın, özünlə qarşıdakı şəxs arasında yadlıq hiss etməməyin məhsuludur.

Əslində xeyrini hamıdan artıq dərk etməklə, sənə tabe zümrə ilə doğmalıq-mülayimlik bir-birilə daban-dabana münasibətlərdir.

Əgər işdə məqsədli bir hiylə iştirak etmirsə, mülayimlik xalis şəkildə baş verirsə, iddialılıq və mənsəbpərəstlik buna imkan yaratmır.

Mülayimlikdə səmimiyyət var. İddialılıq və mənsəbpərəstlik olan yerdə isə səmimiyyətdən, deməli, mülayimlikdən söhbət gedə bilməz.

Əgər xalis şəkildə meydana çıxdıqda, Odisseydə mənfəətpərəstlik, fəndgirlik, hiyləgərlik müşahidə edilməzdisə, bu cəhətlərin indi onda baş sifətə çevrilməsinə səbəb nədir?!

Odissey, sanki nə vaxtsa Axilles olmuş. Lakin o, öz qüdrətində və ülviyyətində bəşərin naqisliyi üzündən uduzmuş, özünü dərk etmənin zirvəsində Odisseyə çevrilmiş.

Haradasa dediyimiz kimi, sadəlövhlükdən təmizlənmiş Axillesdir.

Tarixin bu günə qədər keçib gəldiyi yolun şər mayası daha güclü nəzərə çarpır. Biz Axilles-Aqamemnon gedişində gördük ki, şər mayası daha güclü olan dünyanın cilovlarını insan Axillesə yox, Aqamemnona həvalə edir. Lakin tarixdə, bir an üçün olsa da, axillesəbənzərlər də cilovbazlıqda bulunmuşlar. Bunun, bəlkə də, prinsip önəmi var idi. Şər isə inad göstərirdi. Kromvel və ya Yakobinçilər gedişinin mütləq nəticəsini görmədik.

Şər tüğyan edirdi.

Şərin kökü stüartlarda, Kromveldə, Burbonlarda, Yakobunlərdə yox, daha dərində idi.

Əfkari-ümumiyyə ilkin baxışda Axillesdən daha çox Aqamemnona meyil edir.

Həmin əfkari-ümumiyyə ilkin baxışda Axillesdən daha çox Aqamemnona meyil edir.

Həmin əfkari-ümumiyyə Axillesə meyil göstədikdə arzulanan nəticə alınmır.

Tarix ləngər vurur və öz balansında sabitlik göstərir.

Bu vəziyyətdə “axilleslik” yolu tutmaq və mütləq fədakarlıqla ömrü fəda etməyinə dəyərmi?!

Lakin qarşıda dayanmış müşkül həll edilməlidir. Bunsuz dünya nəfəs ala bilməz. Bu isə qurban istəyir.

Amma həlli başa çatan müşkülün ardınca daha qatı müşküllər gəlir.

Birinci hal Axillesi, ikincisi isə Odisseyi reallaşdırır.

Biz dedik ki, Odissey, sanki sadəlövhlükdən təmizlənmiş Axillesdir.

Lakin bu, sanki belədir. Əslində isə Axilles elə təbiətdə yaranmış ki, həyat təcrübəsi və idraki yolla “Kamilləşmənin” lap zirvəsində də “odisseyləşə” bilməz. Böhranlı anda axilleslərin gözündə bəşər üçün mühüm məqamın hökmü dayanır. Bu zaman təbiətin tələbi, bəşəri mündəricə – tale baş girləmək arzusu ilə hesablanmır. O, mütləq qəhrəmani hünəri başa çatdıracaqdır.

“Axilleslik” – bəşəriliyin, ülviliyin, qüdrətin mütləq durumudur.

“Odisseylik” isə təkcə “kamillik” yolu deyil, bu işdə ona instinktində yerləşən bir keyfiyyətdə kömək edir.

Müşkül həll edilməlidir. Axilles qurban gedir və bunu mütləq şəkildə başa çatdırır.

Müşkül həll edilməlidir. Amma Odissey insana bir dəfə verilən və daha heç bir zaman geri qayıtmayan ömrü qorumaq yolu ilə müşkülün həllinə can atır.

Odissey belə hesblayır ki, ən böyük hünər ömrü saxlamaq yolu ilə müşkülü həll etməkdir. Bir halda ki, əfkari-ümumiyyə üzüdönük, tarixin şər vəziyyəti isə inadcıldır...

Odissey qurban getmir. O, güzəştlər yolu ilə hərəkətdədir, tədbirlər düşünür və müşkülün həllini nisbi çərçivədə başa çatdırır.

"Odisseylik" bəşəriliyin, ülviliyin, qüdrətin nisbi vəziyyətidir.

Odissey sanki dünyanı – özünü bütöv şəkildə dərk etmişdi. Təsadüfi deyil ki, götürdüyümüz sonrakı nümunədə uzun müsibətlərdən sonra o, yenə də nəfəs dərmək imkanı görmədikdə öz-özünə deyir ki, "səbr et, könül".

"Səbr" anlayışı heç yerdə Odisseydəki biçimdə sistemli deyil. Ona görə də səbrlilik "odisseyliy"in özülü və şah sütunudur. Həmin səbəbdən sınaqlardan mətin çıxmaq imkanı göydən düşmür.

"Odisseylik", eyni zamanda, sözün geniş mənasında çətinliklərlə dolu həyat yolu keçməkdir. Bu isə çoxlu təsadüflərlə üzləşməkdir. Təsadüflərsə Odissey dünyasında yetərincədir.

Lakin qeyri-idraki bircə addımı da atmadığına görə, heç bir şey Odissey üçün təsadüfi deyil.

Bunun ən bariz nümunəsi Odisseyin Troya hadisələrinə qoşulmasına aparan yoldur.

Menelay açıq-açığına deyir ki, biz Odisseyi bu işə çətinliklə razı saldıq.

Yunanların Troyaya yürüşü vətənə xidmət tülündə idi. Əgər Odissey axıra qədər bu işdən boyun qaçırsaydı, ya təhrikə boyun əyib yürüşə qoşulandan sonra könülsüzlük göstərsə idi, bir qənaətə gəlmək asan olardı. Göründüyü kimi, vəziyyət birinci haldan da, ikincisindən də qıraqdır.

Odissey uzun dilətutmalardan sonra yürüşə qoşulur. Lakin sonra o, ardıcıllıqla, sona qədər fəaliyyətdə bulunur.

Onda vəziyyəti necə izah etməli?

Axı Odissey adi adam deyil. Ona aid keyfiyyətləri bütöv götürdükdə "odisseylik" alınır.

Biz yunanların Troya yürüşünə xeyir iş kimi baxaq. Odisseysə buna kahallıq göstərir. Bununla da o, məntiqdə olmasa da, sövq-

təbiisi ilə işarə vurmaq istəyir ki, bəşərin hər bir hərəkətində, hətta “xeyrə xidmətində” də bir umacaq (təmənna) var. Mən heç bir yerdə umacaqsızlıq müşahidə etmirəm.

Menelay – Aqamemnon üçün işin mayasında bir umacaq var – Yelana vaqeəsi. Onlarda umacaq bu çərçivədə qalsaydı, biz durumu təhlil etməz, buna umacaqsızlıq kimi baxardıq. Lakin onlar başıaşağı vəziyyətlərinin də qayğısına qalmayıb özünü gözə soxmaq, faydalanmaq fürsətini də əldən vermirlər.

Başqaları da həmçinin.

Belə halda mən nə üçün iki əlimlə bir başımı saxlamaq qayğısını buraxıb arxasında umacaq dayanan gedişə xidmət göstərməliyəm?

Hərçənd ki, Odisseyin “iki əllə başını saxlamasında” da özünəməxsusluq var. Lakin hadisələri küll halında götürdükdə, Odisseyin “xeyrini qanmaqda tayı-bərabəri olmamaq” xasiyyəti bəraət qazanır.

Nəhayət, Odisseyin xoşbəxtliyinin bir cəhətini də izləməli olsaq və öz xeyrini ilahi şəkildə dərk etmənin idrakiliyini bütöv anlamağa çalışsaq, dastanlar çərçivəsindən qırağa çıxmaq, Troya əsatirinin özünə müraciət etmək lazım gələrdi.

Biz bilirik ki, “axilleslik” arzusu “doğmalardan” və “yadlardan” bir çoxunun ağzını sulandırır, təşəbbüsdə bulunanları da uğursuzluq seylabına salır.

Həm dastanlarda, həm də əsatirdə Telamonun oğlu Ayaks Axillesdən sonrakı qəhrəman sayılır.

Axillesə kim varis olacaq tapmacasını açmaq məcburiyyətində qalan cavab verərdi ki, Ayaks! Bu cavab məntiqlə əsaslanır.

Amma əsatirdə bütün “axilleslik” növbəsində dayananlar təkin Ayaks da iflasa uğrayır. Axillesə məxsus silahlar Odisseyə çatır. Ayaks havalanır, əvvəlcə ağlını itirir – dəli olur və sonra özünü öldürür.

Zəminəsiz arzularla yaşayanlar tam iflas etdikdə başına bu gələ bilər.

Necə olur ki, silahlar “Odisseyə çatır, axı o, “axilleslik” növbəsində dayanmamışdı?

Məsələ ondadır ki, Odissey birinci və sonrakılardan heç biri deyildi, o, özü idi.

Özü olmamaq, birinci, ikinci və s. sayılmaq nə böyük fəlakət imiş?! Hələ buna zəminəsiz arzuya düşməyi də əlavə etmək lazımdır.

Birinci olmaq yarışdır. Yarışda isə birincilik əbədi surətdə əldə qalan şey deyil. Zaman keçdikcə birinci olan mövqeyi itirir, yeni normativlər və onların yiyələri yaranır.

İkinci və s. yarananlar isə özləri deyillər, onlar ikinci və s.-dirlər.

Özü olmayan, ikinci sayılan Ayaksın Odisseyə uduzmasının sirri bundadır.

Axilles birinci sayılırdı. Amma bu ona əfkari-ümumiyyənin baxışı idi. Əslində özünəməxsusluq var idi ki, "axilleslik" yarandı.

Axilles ömrünün qırılmasının, yarımçıq qalmasının tarixi baxımdan mənzərəsi mürəkkəbdir. Bu mürəkkəbliyə bütünlükdə təhlil zamanı cavab verməyə çalışmışıq. Amma ilk baxışda Axillesin Odisseyə nisbətən binəsiblyinin səbəbi, bəlkə də, əfkari-ümumiyyənin ona işarə verdiyi birincilikdir...

Əslində Axilleslik öz aləminə çəkilən təki özünəməxsusluğu yerini tutur.

Dastanlarda bu qədər qəhrəman var. Onların əzəməti göz toranlaşdırır.

Amma Axillessiz dünyada hamı başını itirməli oldu. Təsadüfi deyil ki, Axilles Patrokla döyüşə getməyə razılıq verərkən yunan qəhrəmanlarından ölən ölmüş, qalanlar da hamısı yaralı, sınıq-sökük vəziyyətdə idi.

Çünki onların səviyyəsi qəhrəmanlıqdan o yana aşmırdı. Ayaksın, Diomedin hünərində döyüşçülük, əsgərlik var idi, xarakter genişliyi görünmürdü.

Döyüşçü, əsgər kimi Odissey də Ayaksdan, Diomeddən o yana gedə bilmir. Amma Odissey heç bir zaman döyüşçü, əsgər çərçivəsinə sığmadı, hər yerdə bir "odisseylik" görünürdü...

Üstün sifətləri ilə yanaşı "öz xeyrini hamıdan artıq dərk etməsinin Odisseyə ləkə gətirə bilməməsinin sirri bundadır.

Əksinə, bu cəhətləri onu bütöv edir.

Odisseyə aid geniş mənzərəni onun həyatının daha mühüm anını, Troyadan dönərkən yolda başına gələnləri izləyərkən və evdə qarşılaşdığı mənzərəni müşahidə edərkən görəcəyik.

"Odisseya" "Troya müşkülünün" ardınca Odisseyin başına gələn daha kələ-kötür müşküllərdən söhbət açır:

*"Muza, mənə dünya görmüş Odisseydən gəl söhbət aç,*
*O, müqəddəs Troyanı yerlə-yeksan edən gündən*
*Çox şəhərlər dolaşaraq, çox adətlər gördü gözü.*
*Dostlarını və özünü vətənə sağ-salamat*

*Çatdırmaqçın dənizlərdə çox üzdü, çox cəfa çəkdi.*
*Dostlarını xilas etmək cəhdi fəqət çıxdı boşa,*
*Onlar özü yoldan azıb məhv etdilər özlərini:*
*Heliosun mallarını yedikləri üçün, o da*
*Evlərinə qayıtmaqdan məhrum etdi nadanları.*
*Muza! Nədən başlayırsan başla, bizə bundan danış,*
*Başqaları həm döyüşdən, həm də dəniz tufanından*
*Xilas olub çoxdan gedib çatmışdılar evlərinə.*
*Yalnız onu – vətən, zövcə həsrətlisi Odisseyi*
*Kalipso – o ilahələr ilahəsi xeyli müddət*
*Mağarada saxladı ki, axır ərə getsin ona".*

*(Orada, səh.5).*

Adamlar üçün Odisseyin Troya hadisələrini "qələbə" ilə başa çatdırıb evə dönərkən başına gələnlər "itkin düşmə" idi, qəhrəmanın özünə isə taleyin məchullarla çulğalaşması, ənginliyin, ümidsizliyin qoynunda atılıb tutulmasıdır.

Hər iki halda bunu belə məna etmək mümkündür ki, Odisseyin yolda azması, itkin düşməsi, müharibə yolunu azmış bəşərin meyvəsidir. Ona görə də biz qələbə sözünü dırnaq içərisində verdik.

Qələbə insan yox, naqisliklər üzərində çalınmalıdır. İnsan üzərində qələbə əslində öz-özünü məhv etməkdir!

Odissey "macəralarına" səbəb o olur ki, onun əməkdaşları müharibədən yaxa qurtarsa da, ehtiyac əjdahasından xilas ola bilmirlər.

Deyirlər, gözütoxluq, nəfsi üstündə olmaq böyük sifətdir. Onu ağlın nəzarəti altına almaq daha artıq hünərdir.

Lakin təbiətin və ağlın naqislikləri ilə yanaşı, nəfsi törədən ehtiyacın amansızlığıdır. Zira, "helios əhvalatı" sübut edir ki, ehtiyac nə qədər amansız olsa da, qadağan şeylərə əl uzatmaq, ictimai ədəbi pozmaq, özgə malına göz dikmək, nəfsin ardınca qoşmaq fəlakətdir.

Əgər işlər düz gətirsəydi, gözütoxluğa, nəfsə hüdud qoyan ağlın qüdrətinə ehtiyac qalmazdı ki?

Helios əhvalatı onu da göstərir ki, müharibə dəhşətlərinə qarşı güzəran daha böyük problemdir.

"Odisseylik" də ondan ibarətdir ki, hər iki çətinliklər burulğanına düşür, həm taleyin, həm "xoşbəxt təbiətin", həm də ağlın, fərasətin köməyi ilə o, hər şeydən salamat qurtarır.

Müəyyən mənada söyləmək mümkündür ki, "Odisseylik" həyata "qalib gəlmək" fənnidir.

Deyirlər, çətinliklərin, əzabın bolluğu ağlın böyüklüyünə, ülviyyətin dərəcəsinə uyğun gəlir.

Hamı üçün ümumi çətinlik var: ehtiyac əjdahası.

Biz ehtiyac müşkülünə əvvəldə bir qədər işarə vurduq. Söylədik ki, C.Cabbarlı sərf-nəzər edilərsə, kimsə bu məsələdə tarixi gerçəkliyə lazımi diqqət yetirə bilməmiş.

Ehtiyac probleminə toxunanlar çox olmuş, V.Hüqonun "Səfilləri" bilavasitə bu müşkülə həsr olunub.

Burada ehtiyac əjdahasının yaratdığı səfalət ümumi haldır. Bizdə istehza yaradan odur ki, dünyanın cilovunu "əlində tutanlardan" elələri var ki, ləyaqət, əzəmət, böyüklük iddiasındadırlar.

İnkar etmirik: səfalətin baisi heç də onlar deyil. Lakin müşkülü buraxıb iddiaya düşmək, dünyanın acınacaqlı vəziyyətinə qarşı unutqanlıq sərsəmlikdir.

Halbuki V.Hüqo elə böyüklüyü də "cilov tutanlarda" yox, həmin səfalətin içərisində, məsələn, Eponina və Qavroşun simasında daha artıq görür. Onlar isə körpədirlər və bizonların həyatının elə dövrünü müşahidə edə bilərik ki, bu zaman onlar nəinki dünya "yarada" bilməzlər, əksinə, özlərinin qayğıya ehtiyacları var.

Söhbəti tamamlamaq üçün hadisələrin çalarında Jan Valjanın da olduğunu nəzərə almalı və dünyanın cilovlarını əllərində tutanlara sual verməli: əsil azman kimdir?

Cabbarlıda diqqəti cəlb edən odur ki, güclü olduğun halda (Aydın, Oqtay və s.) hamıdan binəsib və səfil görünürsən. Orada ehtiyac əjdahasından müəyyən dərəcədə yan keçmək, heç olmasa, müəyyən vaxtlarda, firavan görünmək üçün bəlkə də zəiflik (antibəşərilik mənasında) daha əlverişlidir. Çünki ehtiyacın ayaq tutub gəzdiyi şəraitdə minüzlülük, hiylə, aldatma, sırtıqlıq, insafsızlıq, qoparma, simasızlıq və s. daha əlverişlidir.

Ehtiyac baxımsızlığa da yol verir.

İnsan bir anda ehtiyacın və baxımsızlığın "qoynuna" düşə bilər. O, dünyaya çılpaq və gücsüz gəlir. Qayğısız qalan körpə elə oradaca ən pis şəkildə "gəbərə" bilər.

Amma bu cəhətdən bəşəriyyət dünyaya gələn üçün mühit hazırlamış.

Zira, həyat elə tərtib edilmiş ki, insan bir an gücsüz ola, baxımsız qala bilər. İnsan şiddətli xəstəlik, ağır yaralanma, it tutma, ilan vurma, canavar, çaqqqal və s. yırtıcı tərəfindən gəmirilmə, yıxılıb çolaq

olma, qocalıb əldən düşmə, qadınlar hamilə və zahı olma nəticəsində elə gücsüzlənərlər ki, özünə əli çatmaz, özünə xidmət edə bilməz.

Ehtiyac əjdahası laqeydliyə, unutqanlığa qayğısızlığa – baxımsızlığa yol açır.

Siz öz-özünə xidmət imkanını itirmiş xəstə qocanın, zahının baxımsız durumunu gözünüzün qabağına gətirin. Bu zaman insanın vəziyyəti həlakə məhkum körpənin "gəbərmə" halından fərqlənməz...

Bu, bütün bəşəriyyətin tarixdə və gündəlik həyatda üzləşdiyi və üzləşə biləcəyi ümumi haldır.

Qüdrət, başın böyüklüyü həyatı asanlaşdırmalıdır. Amma biz söylənənlərə əsaslanıb dedik ki, böyüklük əzab, çətinliklər ilə mütənasib hərəkət edir. Bu o deyən sözdür ki, böyüklük ümumi haldan savayı əlavə çətinliklər də törədir. Bütünlükdə "Odisseya" təbiətin, başın böyüklüyünün törətdiyi çətinliklərə, əzaba həsr edilib.

Cəbhədə ölmək mümkün idi. Sağ qalmaq, evə, yurda qayıtmaq da adi haldır. İtkin düşmək də bu qəbildən.

Odissey itkin düşmüş. Amma itkinlik zamanı o hadisələr ki, onun başına gəlir, gərək mütləq həlak olaydı. Odisseyə xilas da yoxdur, həlakət də görünmür. Sonda qaydasınca həyata gəlib çıxırsa da, sonsuz çətinlik və əzablar bahasına.

"Odisseylik" də elə bu deyən sözdür. O, həm sağ qalır, həyatını fəda etməyə ehtiyac duyulmur, həm də müşküllər açılır.

Zira, indi Odisseyi əhatə edən çətinliklər o səviyyədədir, əzab o qədərdir ki, bu, allahların özlərini də narahat etməyə başlayır.

Allahlar Odisseyin üzləşdiyi kimi gözdən qaçırmırlar. Qəhrəman bir tərəfdən ucsuz-bucaqsız, sahili görünməz dənizlərdə, amansız dalğalar qoynunda qalmış. Çünki Odisseyin əməkdaşları nəfslərinin öhdəsindən gələ bilmədilər – Heliosun mallarını yedilər. Allahların qadağan etdiyi həddi keçmək cəzasız ötüşə bilməzdi. Başqa tərəfdən Odissey Poseydonun oğlu Polifemlə, – Təpəgözlə üz-üzə gəldi. Bu ölüm-dirim vəziyyəti idi. Burada söhbət onda deyil ki, allahlar təpəgözlər də törədir. Bu bəşərin təpəgözləşməsinə və beləliklə, barmağını soxub iki gözünü çıxarmağa aparır. İş ondadır ki, ölüm-dirim durumunda Odissey allahın oğlunun gözünü çıxarmışdı. Poseydon da onu izləyirdi.

Həyat allahlarla çarpışma yolunun üstündən keçir. İnsanın həlakətli durumu və ya məhvi təəccüblüdürmü?

Amma Odisseyə ölüm yoxdur. Çünki onu Zevsin arvadı Hera və xüsusən qızı Afina qoruyurlar. Yəni dünyanın çətinliyinə qarşı Odisseyin zireh yaradan böyüklüyü var.

Zevs qardaşı Poseydon və arvadı, qızı arasında müvazinət yaradır.

Heranın, Afinanın arzusu yerinə yetirilməlidir – Odissey evinə gəlib çıxmalıdır.

Poseydonu da narazı salmaq olmaz. Ona görə də Odissey bu gedişdə məşəqqətlər seylabından keçməli olur.

Heliosu rəncidə salan Odissey dünyası izi itirir və gəlib dənizlər pərisi Atlantın qızı Kalipsonun əlinə düşür.

Kalipsonun yanında lövbər salmaq onu vətənə, doğma ocağa həsrət qoyurdu. Yurda üz tutarkən isə dilsiz, əhatəsiz dəryada, axınlar, dalğalar qoynunda məchullarla üzləşməli olurdu.

Odisseyə urcah olan ikinci çətinlik daha eybəcərdir.

Odissey öz dünyasını, həyatını fəda yolu ilə vətən, onun taleyi, şərəfi naminə uzaq ellərdə qalıb, öz yurdunda isə yurddaşları onun şərəfinə toxunmağa, ismətinə əl uzatmağa cəsarət göstərir, malını da talan edirlər.

Bəli, cəbhə qəhrəmanları təqdir edilməli, onların həyatı qorunmalıdır.

Amma həqiqət, gerçəklik başqa şeyləri pıçıldayır. Çünki bu ağırlama (“təqdir”), “qoruma” hər dəfə kompaniya şəklində aparılır. Bu isə dəllal bazarına yol açır. Əsil xidmətlər gözdən yayınır.

Özlüyündə şərəfə toxunmaq, ismətə əl uzatmaq, başqasının malını talan etmək eybəcərlikdir. Bunu söyləməyinə belə dəyməz ki... amma fədakara, vətənə, amala xidmət göstərən adama qarşı bu münsibət amalı, ülviyyəti, xidməti hədələyir.

Fədakarlıq “devalivasiya” eləyir.

Bu isə allahın özünün ölümü deyən sözdür.

Xeyri olduğu kimi, şəri də allah törədir. Lakin allahın son məqsədi xeyirdir. Şər isə çətin yol ilə xeyri kamala çatdırmaq, yerini möhkəmlətmək üçündür.

Allahlar şər yox, xeyir vasitəsiylə özlərini təsdiq edirlər.

Odisseyə münasibət elə həddə çatır ki, bir anda ilahi olan hər şey uçub tökülə bilərdi.

Beləliklə, allahlar Odisseyi xilas eləmək haqqında razılığa gəlirlər. Amma yenidən, daha böyük, daha çox, daha bol, daha amansız çətinliklərdən sonra. Bunlar əsil həyatın öz qiymətidir.

Əfkari-ümumiyyə müəyyənləşdirməliydi ki, Odissey sağdır, evinə dönəcəkmi, ya məsələ bitib, o, artıq o dünyadadır.

Vəziyyəti allahlar özləri bilirdi. Bu başqa cür də mümkünmü?

Amma həqiqəti bilmək, vəziyyəti müəyyənləşdirmək əfkari-ümumiyyə üçün lazım idi. Çünki Odissey vəziyyətinin qeyri-müəyyənliyi ilə bağlı Penelopa müşkülü ortaya çıxırdı.

Dastanın etiqadından belə çıxır ki, hər bir "penelopavari" qadının əri olmalıdır. Bu sətirlərin müəllifinin mənsub olduğu xalqın həyatında (xüsusən keçmişində) vəziyyət mürəkkəbdir. Üç gün evlilik edib ömürlük dul yaşayanlar olmuş. Həm də ora-bura boylanmadan, harınlaşmadan, heyifsilənmədən.

Bu təbiətə uyğun deyil.

Zira, ilahi bir keyfiyyət, görünür, təbiətin tələbini, inadını üstələyə, əvəz edə bilmiş.

Penelopanın isə yetişməkdə olan oğlu var. İndi Odissey taleyinin qeyri-müəyyənliyi gənclərdə belə bir tələb yaratmışdır ki, qadın bunlardan birini seçib ərə getsin. Əks təqdirdə gənclərin həyatı pozulur, yaşayış tərzinin ümumi ahəngi itir. Çünki yetişməkdə olan gənclərdən hər kəs Penelopaya sahiblənməyə ümid bəsləyir və ondan açılıb, bir başqasına baxmaq, öz həyatlarını tərtib etmək imkanı yoxdur.

Burada biz məntiq görmürük. Kişilər qəhrəmanlıqda, idrakda, qadınlar gözəllikdə, lətiflikdə seçilir. Bir nəfər fərqləndirilir və hamıya qarşı qoyulur. Xüsusən evlənmək işində. Bu, bəşərin gədalığıdır.

Halbuki kamallı, sahibə olması ilə bərabər, Penelopa duldur...

Deyirlər gözəlsiz kənd olmaz.

Həm də bu cəhətə görə, həm də hər kəsin öz tayına rast gəlmə ənənəsinə əsasən bir nəfər dula qarşı bu qədər qızlar diqqətdən yayınmamalı idi.

Nəzərdən qaçırılan cəhət gənclərin – oğlanların və qızların ömrünü boşluğa sürükləyir.

Lakin burada həqiqət var. Təkcə "İliada", "Odisseya" həqiqətində yox, bizim mənsub olduğumuz xalq da daxil olmaqla, "fərqlənən" bir nəfərin ardınca düşmək, bir nəfərə yer olduğu halda, dəstə-dəstə ora soxulmaq halları bəşər həyatında nə qədər desən müşahidə edilmiş!

Bir nəfərə bütöv dəstə ilişir. Arzuda olur, iddiaya düşür. Həm də başqa tərəfin intixabını və ya real vəziyyətlə hesablaşılmır. Çünki bir çox halda cütlər müəyyənləşdikdən sonra belə, "dəstə gedişi" yenə

də baqi qalmış. İddia, tələblər, qısqanclıq, təkəbbür, öcalma, bəzən bundan irəli gələn başqa xoşagəlməz hallar...

S.Vurğunun "Aslan qayası" adlı əfsanəsi var. Burada əfsanə tarixi faktla da müəyyən dərəcədə qaynayıb-qarışmış.

Bütövlükdə S.Vurğunun "əfsanəsi" ilə işimiz yoxdur. Orada xanın qızına sahiblənmək üçün yarış gedir.

Hərçənd bu bütövlükdə (orada, S.Vurğunun əfsanəsində) xalqın taleyi ilə bağlıdır. Penelopada olduğu kimi xanın qızının ətrafında da gənclər "qövr" edir. Bu zaman ricətə gedib S.Vurğun bəşəri durumu daha məntiqlə mənalandırır:

*"daha dilbər, daha xoş...*
*Qızlarımız da varmış*
*Qocalıb qarıyarmış".*

Amma burada bizə işlərin bu cür saf-çürük edilməsi yox, "Odissey" faktının izlənilməsi lazımdır. Bu da ondan ibarətdir ki, Troyada vətən üçün müstəsna xidmət göstərən Odissey ağlasığmaz məşəqqətlərə müsəllət olmuş. Bu da ona gətirib çıxarmış ki, allahlar Odisseyin taleyinə acımağa başlamışlar, qərar vermişlər onu öz evinə qaytarsınlar.

Onun öz evində, elində, ocağındakı vəziyyət isə daha acınacaqlıdır. Ölkənin müxtəlif yerlərindən adamlar axışıb gəlib Penelopanın ətəyi altında özünə yer tapmaq istəyir.

Biz burada fövqəladə tərzdə müdriklik, ləyaqətli, tədbirli olan Penelopanın özü ilə qarşılaşırıq.

Hər şeydən əvvəl Penelopanın təmizliyi, abrına qısılması, müsibətini dərk etməsi, ər evinə sədaqəti bizi heyran edir.

Qısa söz, Odisseyə layiq bir aləm, ona aid keyfiyyətlərin qadınlıq xətti, hətta bir az da artıq. Çünki Odisseydə olan mürəkkəblik Penelopada yoxdur. O, düzxətli və təmizdir.

Hər şeydən əvvəl, Penelopaya bu gənclər sürüsündən xilas olmaq, onların qarşısını almaq lazım idi.

Ancaq o, gəncləri birbaşa rədd edə bilmir. Bir tərəfdən, ənənə belə idi. Mülkü olan, gənc, yetişmiş oğlun anası nə qədər gəncdirsə, qadın ərə getməli, düşkünlər sürüsünü "müşküldən" çıxarmalıdır. Başqa tərəfdən, oğlunun taleyi. Çünki Penelopa "dəliqanlıları" rədd etsə də, azğınlaşmış dəliqanlılar intiqam fikrinə düşə, Telemaxı həlak edə bilərdilər.

Vəziyyət özü Penelopanı ehtiyatlı olmağa, tədbirli tərpənməyə vadar edir.

O, onun düşkünlərinin qarşısında “ağlabatan” şərtlər qoyur. Söyləyir ki, Odissey kimi oğlun atası, Layert kimi ərən qoca vaxtı oğulsuz qalmış. Biz hamımız ölüm-dirim dünyasında yaşayırıq. Mən layiqli gəlin, Yunan övladı kimi oğlunun əvəzinə qaynatamın aqibəti üçün tədbir görməliyəm.

Bunlardan biri də dəfn üçün lazım olan kəfənin toxunmasıdır.

Əslində isə Penelopa vaxt qazanırdı. O, səhərlər toxuma ilə məşğul olur, axşamlar sökürdü. Beləliklə, vaxt uzanırdı. Buna qədər bəlkə də Odissey də gəlib çıxdı.

Lakin səbri tükənən düşkünlər Penelopanı izləməyə başladı, məsələnin də üstü açıldı. Ona görə də düşkünlər indi daha hökmlə tələblər irəli sürür, ittihamlar yağdırmağa başlayırlar. Onlardan biri kinayə ilə Penelopanın hiyləsini belə izah eləyir. O, əvvəlcə Penelopanın çıxışını təkrarlayır, sonra ”nəticəni özü vurur”.

*Siz ey cavan aşiqlərim, Odissey məhv olubsa da,*
*Bir az dözün, məni vadar etməyin tez toy etməyə.*
*Bu kəfənlik toxunmalı, qoyun başa çatdırım mən!*
*Adlı-sanlı qoca Layert bəlkə öldü bu yaxında;*
*İnsanları qırıb tökən ölüm onu yaxalarsa,*
*İstəmirəm məni axey arvadları sözə qoyub*
*Desin: belə varlı adam kəfənə də sarınmadı! –*
*Belə deyib bizim bu mərd qəlbimizi yumşaltdı o.*
*Bəs sonrası? Bütün günü toxumaqla məşğul olub,*
*Gecə məşəl işığında sökürmüş o kəfənliyi.*
*Bu qaydayla üç il keçdi, inandıq biz axeylilər.*
*Elə ki, vaxt ötüb keçdi, dördüncü il yaxınlaşdı,*
*Bu kələyi bilən qadın bizi bundan hali etdi.*
*Toxumanı sökən zaman biz üstünü aldıq onun,*
*İstəmədən öz işini qurtarmalı oldu xanım*
*Bax, anana elçi düşən bu adamlar gör nə deyir,*
*Sən və bütün axeylilər qoy yaxşıca bilsin bunu:*
*Ananı öz atasının ocağına göndər getsin.*
*Orda özü və atası bəyəndiyi şəxsə getsin.*
*Anan axey gənclərini ələ salmaq adətindən*
*Qoy əl çəksin belə. Bilirik ki, pak Afina*
*Ona bol-bol verib ağlı, incə, zərif əl işini;*
*O bildiyi kələkləri qədimlərdə ömür sürmüş,*
*Axeyanın qalın saçlı, gül camallı qızlarından*
*Nə Migena, nə Alkmena, nə də Tiro bilməzdilər.*
*Penelopa fəndgirlikdə üstündür o gözəllərdən.*

*Ancaq onun fəndgirliyi çatmaz daha köməyinə.*
*Nə qədər ki, allahların ona təlqin elədiyi*
*Niyyətində möhkəm durub, talanacaq var-yoxunuz.*
*Penelopa bu minvalla böyük ad-san qazansa da,*
*Sənin varın talanaraq tamam əldən gedəcəkdir.*
*Anan bizdən birimizi seçməyincə bir axeyli*
*Nə başqa bir qız axtarıb, nə də burdan gedəcəkdir!"*

*("Odisseya", səh.19-20).*

Bu yöndə, o qədər söhbət getmiş ki, Odisseyin ağıllılığı dərhal göz önündə dayanır. Yunan inamında fəndgirlik müsbət mündəricə daşıyırsa, bir çox halda, ağıllılıqla yanaşı işlədilir. İndi də qarşımızda Penelopa dayanmış, elə keyfiyyətlərlə təqdim olunur ki, biz Odisseyə layiq dünya ilə qarşılaşırıq.

Əlbəttə, burada tuş gəlmənin önəmi yox deyil. Aşağı səviyyəli, onu qanmayan adamın əlinə düşsəydi (tarixi meylə yataraq biz qadın-insan haqqında "əlinə düşmə" ifadəsi işlətdik"), hansı mənzərə ilə rastlaşacağımızı indi söyləyə bilməzdik... özündən yuxarı, müstəsna idraklı şəxslə rastlaşsaydı da həmçinin.

Hamlet Ofeliyanı çox sevirdi. Özü söylədi ki, qırx min qardaşın məhəbbəti bu eşqə bərabər olmazdı. Hərçənd qardaş sevgisində qırılmaz bir prinsip də var...

Amma həmin Hamlet Ofeliyaya söylədi ki, get monastra.

Odisseyə rast gəlməsi Penelopanın ağlını, ləyaqətini, keyfiyyətini bütöv şəkildə üzə çıxardı.

Ailə məhz bu mündəricədə məqbuldur və ilahidir. Məhz bu cür ailənin pozulması və ya uğursuz təsadüfdə əvəz edilməsi müşkülə çevrilməli, orada baş sındırılmalıdır.

İndi həmin Penelopa cütünü – özünün tayını itirmiş. Bundan həyatı isə ailə bütünü tamamlanmadan uğurlu sayılmaz. Penelopanın da ətrafında qövr edən düşkünlər sürüsü var.

Biz ona görə bu dəstə haqqında həqarətlə danışırıq ki, onlar vətəni müdafiə edən (bu "müdafiə" sözünün ziddiyyətlərinə dəfələrlə işarələr vurmuşuq) qəhrəmanın payına göz dikir, ləyaqəti üzərində izlər buraxır, malını talan edirlər. Əlavə bir yerə onlarla adamın soxulmasında bir sürülük keyfiyyəti də olmalıdır.

Hər halda, Penelopa, bu düşkünlər sürüsünü qətiyyətlə rədd etmir. Söyləyir ki, bəlkə ərim gəldi. O, itkin düşmüş və sağ olub-olmaması qəti müəyyənləşməmiş.

Bu hökmün başqa üzü də odur ki, Odisseyin artıq sağ olmaması ehtimalı təsdiq edilərsə, Penelopa birinə ərə getmək məqsədini nəzərdə tutur.

Zira, qeyri-müəyyən vəziyyətdə ümidini üzüb ərə gedər və sonra birdən Odissey qayıdarsa...

Doğrudan da bu vəziyyət üzərində bir qədər düşünək. Bütün namərd, üzüdönük vəziyyətdən başqa Penelopa qəlbində inildəyən bir eşq gəzdirir, onun sevdalı bir dünyası var.

Odissey də həmçinin. O, yad dünyada müxtəlif hadisələrlə üzləşir. Hətta ona əbədiyyət gözəllik, eşq, firavanlıq da vəd edilir. Odissey isə heç bir şeyə bağlanıb qalmır – daim isti ocağına can atır. O, heç bir zaman ağlına da gətirmir ki, Penelopa dünyasında ikinci gediş də baş verə bilər.

İndi budur, hər şey Odissey taleyinin dəqiqləşməsindən asılıdır. Burada da yanlış əsaslarla nəticəyə gəlindi ki, Odissey artıq dünyada yoxdur. Penelopa ərə getdi və sonra Odissey kimi Penelopanın sevdalı əri gəlib çıxdı.

Bəla, müharibənin insan həyatında törətdiyi qiymətlərdən, uğursuzluqlardan, məhşərlərdən biri də budur.

Deməli, can sulu halda dul qalanların yenidən ailə qurması məqbuldur. Lakin itkin düşənlərin, müharibə, döyüş, vətən, amal qəhrəmanlarının taleyi ətrafında daha dərindən başlar sındırılmalıdır.

Söhbət ləyaqətli ailələrdə baş verən çəlpəşiklikdən gedir. Ləyaqətsiz ailələrdə baş verən uğursuzluqlar ifrat çəlpəşikliklər, deməli, bir qiyamət-məhşər törətmir.

Allahların məsləhəti ilə Telemax səfərə çıxmalı, döyüşdən qayıtmış başqa Yunan qəhrəmanları ilə görüşməli, Elladanın əyalətlərini və mərkəzlərini gəzməli, atasının taleyi ilə bağlı soraqda olmalı, gənəşmələr aparmalıdır. Bu, Odissey taleyinin dəqqiləşməsi üçün gərəkdir – Odisseyin yaxın adamları və əfkari-ümumiyyə üçün; allahlar onsuz da hər şeyi bilirlər.

Lakin allahlar indi Odisseyi evinə qaytarırlar. Odissey evinə gəlib çatana qədər hər şey qaydasınca qalsın deyə həm əlavə vaxt qazanılır və həm də Telemaxın Odisseyə layiq oğul olub-olmadığı sınaqdan çıxarılır.

Telemaxı səfərə həvəsləndirən, hazırlayan və çağıran allahlardır, Afinanın özüdür. Ona görə də Telemaxın bu səfərdəki uğuruna şübhə yeri qalmamalıdır.

Lakin quruda miniklərlə, suda avarlarla, yelkənlərlə ölkələr, dənizlər aşmaq təhlükələrsiz ötüşə bilməz.

Telemax gedişi də həyəcan törədir...

Telemax əvvəlcə Yunan ağsaqqalı, Troya qəhrəmanı Nestorun iqamətgahı olan Pilosa qədəm qoyur.

Qocaman döyüşçülərin yenidən üzləşməsi və ya bunlardan birinin başqası ilə bağlı xatirələrlə rastlaşması hansı gedişləri yaradacağı, xatirələri oyadacağı aydındır...

Telemax Pilosa qədəm qoyur. Burada onu Nestorun o biri oğlu Pisistrat qarşılayır. Telemax özünü təqdim edir. O, Nestorun yanına aparılır. Nestor vəziyyətdən hali olur. O, bir az alınır, xəyala dalır, gözləri sonsuzluğa dikilir.

Həm kədərli, həm fərəhli idi. Məlum səbəbə görə.

Telemax Nestora məramını deyir. O, atası haqqında dəqiq məlumat almaq istəyirdi.

Nestor cavab verir:

*"Keçən günün dərdlərini sən yadıma saldın, ey dost!*
*Biz başəyməz axeylərin orda nələr çəkdi başı!*
*Bir hissəmiz sis-dumanlı dənizlərdə Axillesin*
*Dəstəsində qənimətçin hər tərəfə baş vuranda,*
*Bir hissəmiz Troyanın önündəki döyüşlərdə*
*Oldu zəlil. Qurban getdi ən say-seçmə ərlərimiz.*
*Orda yatır o qadir Ayaks, orda yatır mərd Axilles.*
*Məsləhətdə allahlara bənzər olan Patrokl da,*
*Mənim güclü, əziz oğlum Antilox da orda yatır, –*
*Antilox ad qazanmışdı həm döyüşdə, həm qaçışda.*
*Bundan başqa başımıza çox fəlakət gəldi orda, –*
*Oğul istər saya bilsin bütün olub-keçənləri!*
*Sən beş il də, altı il də qalsan bizim yanımızda,*
*Sual verib, xəbər alsan başımıza gələnləri,*
*Dözəmməyib axırda öz vətəninə qayıdardın.*
*Düşməni məhv etmək üçün kələk qurduq biz doqquz il,*
*Kronion güc-bəlayla xitam verdi vuruşlara.*
*Fəndgirlikdə allahsifət Odisseyə çatan yoxdur.*
*Bəli, kələk işlətməkdə o, hamıdan üstün idi,*
*Sənin atan çoxbilmişdi, atandırsa doğrudan o.*
*İndi sənə baxdıqca mən heyrət edib, mat qalıram*
*Nitqin də lap o özüdür; heç kəs güman etməzdi ki,*
*Yeniyetmə gənc nitqiylə onun nitqi oxşar ola.*

*Nə ümumxalq yığıncağı, nə də şura iclasında*
*Odisseylə mənim fikrim fərqlənməzdi bir-birindən*
*Məsləhətdə, gənəşikdə niyyətimiz birdi bizim:*
*Çalışırdıq hər bir işdə fayda verək axeylərə.*
*Biz elə ki, fəth elədik Priamın şəhərini,*
*(Mindiyimiz gəmiləri ayrı saldı qadir allah),*
*Bizə bəla göndərməyi qət elədi Kronion,*
*İçimizdə ağılsız və kəmfürsətlər vardı çünki.*
*Qadir at törəməsi pak Ellada Afinanı*
*Hirsləndirən adamlardan çoxu tapdı cəzasını,*
*Atridlərin arasına nifaq salıb dalaşdırdı:*
*Günəş göydə batabatda Menelayla Aqamemnon*
*Axeyləri fövqəladə yığıncağa topladılar.*
*Onlar da ki, bu iclasa sərxoş halda gəlmişdilər.*
*Hər qardaş öz niyyətini açıb dedi gələnlərə:*
*Çar Menelay istəyirdi tez doluşub gəmilərə,*
*Axeylər su yolu ilə qayıtsın öz yurdlarına.*
*Aqamemnon bu təklifi bəyənməyib deyirdi ki,*
*İncik düşmüş Afinanın soyutmaqçın qəzəbini*
*Hamı qalıb Hekatemba qurbanına başlasınlar.*
*Bilmirdi ki, Afinanı ovutmaq çox asan deyil:*
*Allahlar öz qərarını asanlıqla dəyişdirmir.*
*Bir-birini təhqir edib durdular üz-üzə onlar.*
*Yaraşıqlı dizlik taxan axeylilər dik qalxaraq,*
*Başladılar küyləşməyə, iki yerə bölündülər.*
*Səhərədək düşmən kimi bəhs etdik bir-birimizlə,*
*Artıq bizə Kronion zülm etməyə başlamışdı,*
*Ertəsi gün qənimət və qadınlara bənd vuraraq,*
*Gəmilərə yüklədilər, çıxdı yola bəziləri.*
*Qoşunların tən yarısı öz yerindən tərənmədi, –*
*Baş sərkərdə Aqamemnon ilə qaldı Troyada,*
*Yerdə qalan yarımızsa yeyin-yeyin üzüb getdik,*
*Allah coşğun dənizdəki dalğaları hamarladı,*
*Penedosa çatdıq. Evə tez yetişək deyə, orda*
*Qurban kəsdik. Lakin geri qayıtmağa qoymadı Zevs.*
*Aramıza o yenə də düşmənçilik saldı bizim.*
*Fəndgirlikdə və bilikdə bərabəri az tapılan*
*Odisseylə qoşaquyruq gəmilərə əyləşənlər*
*Aqamemnon razı qalsın deyə geri qayıtdılar,*

*Qabaqdakı fəlakəti əvvəlcədən duyaraq mən,*
*Gəmiləri var gücümlə irəliyə doğru sürdüm...*
*...Məsləhətim budur, gedib Menelayla görüşəsən.*
*Axeylərdən ən axırda qayıdanı yalnız odur;*
*Elə yerdən qayıdıb ki, ordan heç kəs qayıdammaz.*
*Tufan onu qova-qova uc-bucaqsız bir dənizdə*
*Elə yerə atmışdı ki, quş bir ilə gələ bilməz,*
*Aradakı dəniz çünki həm böyükdür, həm qorxulu.*
*İstəyirsən dostlarını götürərək dənizlə get,*
*İstəyirsən quruyla get, – gərdunəni mən verərəm,*
*Oğullarım yol yoldaşın olub, səni xurmayısaç*
*Menelayın çar olduğu Spartaya apararlar.*
*Gedib özün xahiş elə, hər nə bilir, açıb desin.*
*Bir sözü də yalan olmaz, çünki o çox ağıllıdır".*

(Orada, səh. 31-37).

Biz Nestorun hekayətində "Odisseya"da söylənilən əhvalatlar və s. hadisələrin bilavasitə "Odisseya"da cərəyan etməyən, yalnız xatırlanan "İliada"dan sonrakı davamı ilə tanış oluruq.

Doğrudan da "Odisseya" "İliada"nın bitdiyi yerdən başlanır. O, Hektoru həlak etdi və s. hadisələr oldu. Hektorun dəfn mərasimi naminə döyüşlərdə ongünlük fasilə üçün razılıq əldə edildi.

Sonra isə döyüş başlanacaq idi. Burada biz Axilles fəaliyyətinin qızğın dövrünü və həyatının kuliminasiya nöqtəsini görəcəkdik. Dastanda bu da vəd edilmişdi ki, bəlli səbəbə görə, onun həyatı qırılacaq.

"Odisseya"da biz birdən-birə görürük ki, Axilles daha dünyada yoxdur.

Bir halda ki, burada Nestor deyir, Axillesin dövrəsində qənimətçün hər tərəfə baş vururduq.

Bu isə Axillesin həyatı üçün "İliada"da vəd edilənlərdən daha çox şey söyləyir.

Əlbəttə, qeyrət döyüşləri müqabilində Axillesin "qənimət vurnuxmaları" təəssüf oyadır. Burada hətta intiqam şərtləri də vəziyyətə haqq qazandıra bilməz. Tarixi meylin axını Axillesi də öz qoynunda atıb-tutur.

Beləliklə, "İliada" ilə "Odisseya" arasında rəvayətdən daha bol və mühüm hadisələr var. Bəlkə də o barədə də bir dastan var imiş və tarixin qaranlıqlarında qeyb olmuş.

Bununla biz trilogiya prinsipini əsaslandırmırıq. Axı hadisələr "İliada" vaqeəsindən çox-çox qabaqlar başlayır. Nə vaxtsa Troya ilə Yunanıstan arasında xoş münasibətlər olmuş. Atridlərlə Priamların dostluğu, bir-birinə get-gəli varmış.

Paris Yelenanı çapqın zamanı qənimət təkin aparmamış, onlarda qonaq olarkən sədaqətsizlik baş vermiş və s.

Bütün bunlar da bir dastana yerləşən hekayətlərdir.

Beləliklə, əsərlərin sayı, hətta üç yox, ən azı dörd olur.

Deyə bilərlər ki, həm "İliada", həm "Odisseya" özündən əvvəlki hadisələri rəvayət edir. Əslində isə bu belə deyil. Bu, Homerə isnad verilən dastanlarda bir üslubdur. Orada hadisələr təsvir edilir və sonra lazım gəldikdə bu və ya başqa bir hadisə dönə-dönə xatırladılır.

Biz Nestorun rəvayətində ölənlərin, qalanların adlarını öyrənirik.

Burada Patrokl haqqında da söylənilir ki, o, məsləhət verməkdə allaha bənzəyirmiş. Amma "İliada"da biz onu bu yöndə izləyə edə bilməmişdik.

Hər halda Axilleslə dostluğa layiq olmaq müsbət bir zəmanətdir. Dastan da Patroklun biz müşahidə edə bildiyimiz fəaliyyətini müsbət cəhətdən mənalandırır. Yalnız biz "Axilleslik" iddiasından ibarət işin yelbeyin cəhətini gördük. Allahabənzər məsləhətçi təki görünən yelbeyinlər meydan sulayan dünya bu günə qalmalı idi...

Patrokl və s. qəhrəmanlar ona görə gözə dəyirlər ki, onların yanında Axilles var. Böyüklük iqlim yaradır. Koroğlunun nə qədər dəliləri var idi. Bu cür dəlilər də hər bir zaman müşahidə edilir. Lakin onlar yalnız Koroğluların dövründə seçilməyə, görünməyə başlayırlar. Təsadüfi deyil ki, Koroğludan əvvəl dəlilər dəstəsindən söhbət getmədiyi kimi, Koroğlu dünyadan gedəndə də hər bri söhbət bununla bitdi.

Bizim dövrümüzdə (Stalinin dövründə) bu vəziyyəti müşahidə edə bildik.

Stalinlə yanaşı, hər bir xadimin əzəməti göz qamaşdırırdı. Stalindən sonra bu "əzəmətlər" lətifə məndəricəsində nəzərə çarpırdı. Hətta rəsmi dairənin Stalin haqqında mənfi fikirlər becərməsi də vəziyyəti kölgələyə bilmədi.

Ata öz oğlunun, Antiloxun taleyini də xatırlayır, lap özgələr haqqında danışırmış kimi.

Deməli, Nestor başqalarını övaldından ayırmır, hamıya övlad münasibəti bəsləyirmiş. Bu onun, bir daha umacaqsız (təmənnasız) və qərəzsiz insan olduğunu göstərir.

Biz Antiloxdan həyat və fəaliyyətinin qızğınlığına təkan götürdüyü anda ayrıldı. Bu elə bir an idi ki, cüzi məntiqsizlik üçün, hətta, Axillesə meydan oxudu. Dedi ki, mənə qarşı nahaq iş baş verir. Görünür, mənə aşağı gözlə baxır, məni uşaq hesab edirsiniz.

Mən haqqımı müdafiə etməyə məcburam. Kim istəyir, çıxsın meydana, vuruşaq.

Hətta bu cəsarəti, Axillesin üzündə, dodaqlarında müəmmalı bir təbəssüm də oyatmışdı.

O zaman Antiloxda bu üsyankar, döyüşkən cəhətlərlə yanaşı, yerini bilmək, qanacaqlı, ədəbli, tədbirli cəhətlər müşahidə edilirdi.

Dastan da deyir ki, Antilox Patrokldan sonra Axillesə ən yaxın adamdı.

Qısa söz, Antilox Nestora layiq oğul, Axillesə timsal varis idi.

Təəssüf, həyəcan, kədər oyadan odur. İndi bəlli olur ki, savaş (müharibə) bu gənc həyata da qıymış. Başqa sözlə, insana məxsus şərin, insan məntiqsizliyinin, xırdalığının, qarmaqarışıqlığının zahiri ifadəsi olan savaş – gənc həyata qıyan dünya!

Beləliklə, biz "İliada"da gördüyümüz müsibətli, acınacaqlı, uğursuz savaşın davamını "Odisseya"da da aram-aram müşahidə edirik. Qanlı hadisələrin xatırlanmasında və ya ayrı-ayrı hallardakı ifadəsində, Odisseyin müsibətli, dorma-dolaşıq gəzintisinin hər bir nöqtəsi isə özlüyündə bir savaşdır. O, dənizlər, dalğalar qoynundamı ordan atılıb bura düşmədi, ilahə Kalipsomu onu toruna salmadı, Sirseyanın tilsimimi onun boğazına dolanmadı, təpəgözlərləmi (təpəgöz dünya, təpəgöz bəşəriyyət!..) üzləşmədi?! Və s.

Yad ölkələri (vətən, xalq uğrunda) dolaşarkən yurdunda, elində, ocağında qövmünün başına gələnləri, evinə dönərkən onu gözləyən hadisələri əsil savaş da deyil, nə adlandırmaq olar?!

Nestor söyləyir ki, Odisseylə mənim fikrim fərqlənməzdi.

Şərin kökləri çalarlı, rəngarəng, dərindir. Xeyrinki də belə olmalıdır – daha dərin.

Bəşər həyatında ən çətin şey ikinin bir olması, iki fərdin vahid bir fikrə gələ bilməsidir. Bu ülviyyətə qovuşmaq, fitrətən həqiqəti görə bilmə qabiliyyəti ilə bağlıdır. Bu ailə seçmədə də belədir, qardaşlıqda da, dostluqda da, xidmətdə də. Lakin az müşahidə ediləndir.

Nestor-Odissey dünyasının bu qədər bəşəri mündəricədə qaynayıb-qarışmasının şairanə üfiqi bundan ibarətdir.

Nestor deyir ki, sən nə qədər atana oxşayırsan! Filan-filan şeylərdə...

Hər halda bir irsiyyət var. Bəzən bu özünü çox qatı biçimdə göstərir. Lakin bir çox hallarda dərin mənəviyyatlı adamlarda bu çıxmır. Dahilikdə, ülviyyət səviyyəsinə yüksələn şəxslərdə çox vaxt cılız övladlar müşahidə olunur.

Böyüklüyün valideyni bəşəriyyət, övladı isə gələcəkdir.

Ona görə də Telemaxın atasına bu qədər çəkməsi Odisseyin xeyrinə deyil.

Burada diqqəti cəlb edən bir şey də var. Nestorun hekayətindən belə bəlli olur ki, Odisseyin bu dorma-dolaşıq məşəqqətli gəzintisinin də kökü Atridlər, Aqamemnon-Menelay telinə gedib çıxır.

Uzun illərdən sonra Troya-Yunan müşkülü yunanların xeyrinə başa çatmış, ölən ölmüş, qalanlar da qələbəylə-qənimətlə evə qayıda bilərlər.

Hadisələr bu cür də irəliləyir.

Amma indi də ixtilaf Atridlərin, qardaşlar – sərkərdə Aqamemnonla padşah Menelay arasında baş verir.

Aqamemnon evə dönməzdən əvvəl allahlara qurban mərasimi keçirməyi təklif edir. Menelay isə səadətini, özünəmıxsus həyatını geri qaytarmışdı, evə tələsirdi. Ona görə də ləngimədən evə dönməyi, mərasimi də yolüstü keçirməyi təklif edirdi.

Mömünlər Aqamemnon, tələsənlər Menelay tərəfdə qalır.

Beləliklə, ikitirəlik yaranır.

Dastan söyləyir ki, Odissey əvvəl Menelayın yanında evə tələsənlərin tərəfində idi. Amma sonra o, fikrini dəyişdi, Aqamemnona xoş gəlsin deyə, onun tərəfinə keçdi.

Biz həmişə söyləmişik ki, ancaq ictimai cinayətə qarşı duran hünər, ağıl, iradə, fəaliyyət bəşəri mündəricəli qəhrəmanlıq sayıla bilər. “Axilleslik”də təkbaşına ordular dağıtmaqdan, Hektoru həlakə yetirməkdən daha çox burada, murdarla uyuşmamaqda, istibdad azğınlığına direniş göstərməkdədir.

Məhz həmin nöqtədə Odissey Axilleslə ayaqlaşa bilmir. Yoxsa Odissey məşəqqətli gəzintisində elə qüvvələrlə üzləşir ki, bu cəhətdən o, Axillesi kölgədə də buraxa bilər.

Odissey, dediyimiz kimi, Komasonun torundan çıxır. Sirseyanın tilsimini qırır, Təpəgözlə üzləşir və ağılla, fərasətlə çətinliyi aradan götürür, Heraklvari o dünya adamları ilə görüşmək, məşvərət aparmaq fəaliyyətində bulunur.

Bu dəfə əfsanəvi Skamandr və Ksanf çayları birləşərək Axillesin üstə hücum çəkərkən Axilles başını itirdi. O, diz çöküb fəryad qoparmağa, yalvarmağa başladı və s.

Bu cəhətdən Odissey fərasəti Axilles gücünə və mərdliyinə üstün də gələ bilər.

Amma əsil işdə Axilles murdarla uyuşmur, ictimai cinayətə güzəştə getmir. Bütün yerdə qalanlartək Odissey də bu yöndə Axilleslə ölçülə bilməz.

Axilles istibdad azğınlığını onun başına çırpdı, onu darda qoymaqla bərkə də çəkdi. Ama Odissey Fersidin başına qapaz vurdu, döyüş dostunu, yoldaşını döyüş meydanında qoyub qaçdı, üstəlik sinəsinə döydü ki, xeyrini güdməkdə tayım-bərabərim yoxdur.

Biz Odisseyin insani sifətlərinə, qəhrəmani hünərlərinə, qüdrətli cəhətlərinə görə ondakı mənfəətpərəstliyə, diltapma xasiyyətinə güzəştə getdik. Dedik ki, dünya belədir, şər Odisseydən əvvəl var, sonra da davam edir. Qəhrəmani hünər, bir çox halda, ləyaqəti qoruyur, dünyanı isə dəyişmir. Başqa bir məkan da yoxdur. Belə halda dil tapmaq, bəlkə də daha ağlabatan yoldur.

Amma burada Odissey, güclü tərəfə hipnoz olunaraq ən simasız, minüzlü, rəzil şəkildə qüvvələr nisbətini hesablayır, iki qüvvə arasında tərəddüd eləyir, yer dəyişir. Halbuki şəxsi keyfiyyətcə Odissey o iki qüvvənin hər birindən üstün idi.

Zira, ictimai laqeydliyə düçar olmaq ehtimalı...

Odissey heç bir zaman buna getmir. Bununla da o təbii olaraq Axillesi qabağa buraxır...

Biz dastanlara əsaslanıb söylədik ki, Odisseydə vəziyyətdən baş çıxarmaq, dil tapmaq fərasəti var. “Odisseylik” də az qala, elə bu deyən sözdür.

Amma Odissey bu işə o qədər alışmalı ki, indicə müşahidə etdiyimiz qədər rəzalətə yol versin.

Dil tapmaq böyük məharətdir. Amma atalar da söyləyib ki, çox bilmiş quş dimdiyindən tora düşər.

Odissey də bu axırıncı çoxbilmişliyi ilə bağlı yurduna dönərkən tora düşdü.

Biz, həmin keyfiyyət aşırı olduğuna görə, Odisseyə rəzalət istinad verdik.

Dünyamız elə qurulmuş ki, mənafedə unutqanlıq, özünü bütövlükdə xeyirə xidmətə həsr etmək fəlakətli məşəqqətlərə aparıb çıxarır. Bu mövqedən mənafe güdmək ikrah doğurur.

“Odisseylik” isə mənafe güdməkdən başlayır.

“Odisseyliyin” banisi Odisseydir.

Lakin Odisseyi bu rüsvayçılıqdan xilas edən də odur ki, Odissey ardıcıl bir Odissey deyil – üzdə Odissey, altda isə daha böyük şeydir.

Bütün dastanlar üzrə sürünüb gələn və bizim diqqətimizi də cəlb edən budur.

Nestor daha doğru bilgi əldə etmək üçün Telemaxa Menelayın yanına getməyi məsləhət bilmişdi. Bu səfərdə yol yoldaşlığı üçün oğlu Pisistratı da əsirgəməmiş, yol üçün gərəkli hər şeyi təşkil etmişdi.

Onlar Menelay məkanına, malikanəsinə, sarayına o vaxt gəlib çıxırlar ki, toy məclisi tüğyan edirdi.

Biz tərəfdə, belə halda, bir “günahkarlar”, şənliyin səbəbkarları ifadəsi işlədirlər.

Növbəti nəğmənin lap başlanğıcında söhbət bundan gedir:

*“Şan-şöhrətli Menelayın toplanmışdı qohumları,*
*Həm oğluna, həm qızına toy edirdi öz evində.*
*Troyada söz vermişdi, halaypozan Axillesə,*
*İndi onun oğlu üçün göndərirdi öz qızını;*
*Allahlardı o gəncləri bir-birinə qovuşduran*
*Adaxlının hökm etdiyi mirmidonlar paytaxtına.*
*Gəlinlə bir yola düşən at da çoxdu, gərdunə də.*
*Spartalı Alektorun qızı idi gələn gəlin.*
*Evlənən gənc Meqapentsə bir kənizdən doğulmuşdu;*
*Çünki daha Yelenaya allah övlad verməyirdi.*
*Afrodita kimi gözəl Keremona adlı qızı*
*Doğan kimi Yelenanı qısır qoydu o tanrılar”.*

*(Orada, səh. 43).*

Bizim izlədiyimiz məqsəd Telemaxın Nestordan sonra atası haqqında, Menelay haqqında bir şey öyrənməsini izləməkdir. Amma bundan əvvəl, biz bu münasibətlə ötəri də olsa, Troya müşkülündən sonra haradasa başlanan qaydasınca həyatla üzləşirik.

Deyirlər ki, həyat çətindir. Burada çətinlik Troya müşkülü şəklində üzə çıxmışdı. Həyatın çətinliyi həyatın dəyəri olmasa da, qiyməti təkin səslənir. Həyat nə qədər çətin başa gəlirsə, onun qiyməti də bir o qədər artıq hesab edilməlidir.

Troya müşkülü Yelena ilə bağlıdır. İndi Yelenanın qayıtması həyatın məcrasına düşməsinə imkan yaratmış.

Amma diqqəti cəlb edən cəhət odur ki, çaqqıltı qoparan, toqquşmanın zərbindən göy üzü tutulan bu boyda ixtilaflardan sonra Pelidlərlə Atridlər qohumlaşmağa başlamışlar. Menelay öz qızını Axillesin oğluna verir.

Axilles Yelenanın xilası üçün halaylar pozur, cəbhələr yarır, ordular dağıdırdı. Amma bunun əvəzində Atridlər onun istəkli Briseidasını əlindən aldılar.

Aradakı uçurum üzə çıxdı.

Aradakı uçurumu doldurmaq üçün Aqamemnon bir çox başqa hədiyyələrlə yanaşı, qızını da Axillesə təklif etdi.

Amma Axillesə, əslində, nə Briseida, nə hədiyyələr, nə də İfigeniya lazım idi. O, istəyirdi ki, ona başqası verməsin, haqqı, ixtiyarı varsa, hər şey onun özünündür. O, bunu sübut etməyə və əlində saxlamağa çalışırdı.

Əgər verilirsə, deməli, onun özünün deyil.

Bu dərin məntiq dərin də uçuruma aparıb çıxarmışdı.

Bu, eyni zamanda, arada olan fərqin yaratdığı uçurum idi.

İndi bu boyda uçurumu yaradan fərqlər yeni nəslin qohumlaşması ilə sarmaşıq kimi bir-birinə dolaşır.

Bu dolaşıqlığın ifratı orasındadır ki, Aqamemnonun qızı Axillesə nişanlı idi, Menelay isə qızını Axillesin oğluna verir.

Xeyirlə şər bu cür haçalı dişlərlə bir-birinə geydirilir, bütöv bir bəşər həyatı başa gəlir.

Əlbəttə, xeyirlə şərin bir-birinə impulslar verməsi ancaq bəşər həyatının müəyyən pilləsi üçündür. Bunun çalarlı izahı mövzumuza indicə daxil deyil...

Axilles övladını yetişdirmədən dünyadan keçdi. Menelayla Yelena isə hələ heç nəfəslərini dərməmişlər ki, övladlarına həyat qurur, yeni nəsil, yeni həyat başlayır.

Sanki həyatın mənası törənmədir və törənmə ilə məhdudlaşır.

Tər tökə-tökə səni yetişdirir. Dərhal sən də törətməyə və tər tökə-tökə yetişdirməyə başlayırsan. Sonra həyat başa çatır, ölürsən. Həyatda macal vermədən biri o birini əvəz edir. Bir an nəfəs dərmək, fasilədə olmaq, aylanmaq, dünyaya baxmaq, başına vurmaq, həyatın bəşəri məzmununu almaq, böyük mənada özün üçün bir an yaşamaq imkanı yoxdur. Bu isə keçmişi və gələcəyi təsəvvürünə gətirə bilən insani əbədiyyəti, zamanın uzun məsafəsini görən ağlının böyüklüyü ilə ömrünün qısalığındakı uyğunsuzluqdur.

Zira, xeyrə nisbətən şəri daha asanlıqla həzm edən insan hər cür cəzaya layiqdir.

Bizim yönləndirdiyimiz səmtə girməyən ağıl başqa səmtdə həyatın mənasını axtarmağa başlayır. Ən əsas şey zahiri əlamətə uymaq, nəfsə ilişmək, ehtizaza gətirən cinsi tələblərin bataqlığına qərq olmaqdır.

Şəhvani pozğunluq həm cinayət, həm qəbahət olmaqdan başqa, məhdudluqdan irəli gələn bir bədbəxtlikdir. Amma cinsi gedişin yaratdığı hədənin hamısında bir məhdudluq aradan qalxmır. Zira, həyatda fasilə götürməyi bacarmayan, nəfəs dərməyə imkanı olmayan insan mənanı bunda görür və hər cür cinayətə, qəbahətə də gedir.

Yelena yaranmaq böyük səadət idi. Gözəlliklə ülviyyət ahəng tapsaydı, insanı təsdiq üçün bunun böyük mənası ola bilərdi.

Kamilliyin yarımçıqlığı, qeyri-insani səviyyəsi ruhani-bəşəri mündəricəni dərhal nəzərdən qaçırır, fiziologiyanın təhrik gücü üstün gəlir.

Qarşılıqlı anlaşma, mənəvi tamlıq başa gəlmədikdə seçmə yarışı, “tapışmadan” sonra qırağa boylanma başlayır. Burada ruhi rəvanlıqdan, əxlaqın təmizliyindən, mənəvi ucalıqdan danışmaq çətindir.

Gərək təbiət böyük olsun. Əlavə bütün şərtlər də ödənilsin. Ancaq bu zaman ruhi rəvanlıqdan söhbət gedə bilər. Elə rəvanlıq ki, burada nəinki şəhvani acgözlüyə, məhəbbətdə sədaqətsizliyə sürükləyən meyillər meydana çıxa bilməz, həm də həmin əsasa görə qeyri-insani, əxlaqdan qıraq şeylər ikrah doğurardı. Bu zaman bəşər həyatında Yelenanın peyda olması aləmi bir-birinə qatıb-qarışdırmaz, bəşər həyatında da ucu-bucağı görünməyən bir narahatlıq törətməzdi.

Yelena gözəldi. Onu qadınlıq cazibəsi də tamamlayır. Amma buna bəşəri mündəricənin təsdiqi də əlavə olunsaydı, səadət dünyasında gözqamaşdıran bir möcüzə baş verərdi.

Lakin göründüyü kimi, bütün bunların hamısı şərti vəziyyətdədir. Ona görə də bütöv gözəlliyi, yarım ədəb, yarım ləyaqət, gözüdağınıqlıq, yarım səadət, bütöv bədbəxtlik və s. müşaiyət edir. Çünki fiziologiyanın tələbləri bəşəri mündəricədə ödənilmir, tək-tük müşahidə edilən insani keyfiyyət də qarşılıqlı surətdə başa gəlmir. Ləyaqət həyatda öz yerini itirir. Təbiətdə israfçılığa, naqisliyə, sədaqətsizliyə təhrikedici qüvvələr yaranır. Belə halda Yelenadan bəşəri mündəricəni bütöv şəkildə qoruyub saxlamağı ədalətlə tələb etmək

olmur. Bir halda ki, onun ərinin xəlvətdə etdiklərindən başqa ayrı ənislərdən də övladı var.

Hələ Yelenanın tərəf-müqabil dünyasının ən yaxşısı və ümumiyyətlə uca olanı Axillesdir.

Axillesin oğlu var. Briseida üstündə ixtilaf hüdudları aşır, İfikfniya da vəd edilir.

Onda Yelena necə "Yelenalığa" çevrilə, bəşəri mündəricəni təsdiq edə bilər?!

Vəziyyət müəyyən sərbəstlik tələb edir. Lakin ilahi bir şərt də qeyri-bəşəri sərbəstliyi cəzasız buraxmır.

Dastan deyir ki, allah Yelenaya daha övlad vermirdi.

Bunun simvolik mənası olmalıdır. Yəni başa gəlməyən tələblər nəticəsində iradəni yelə verib təbiətin yırtıcılığına meydan versən, tale də səni qısırlıqla cəzalandırır.

Qısır qadınlıq –qısır qalan dünya!

Təbiət yırtıcılığa sürükləyir. Lakin bəşəri şərtlər də ona qarşı dayanıb. Axı sən insansan, təmizliyin, mənəvi ucalığın, əxlaqi bütövlüyün, ona nəzarət edən ağlın-iradən var.

Məhz əxlaqın, ədəbin qiyməti də onunla ölçülür ki, yırtıcılığı ağlın gücü ilə cilovlayırsan, hərəkətlərə müəyyən bir hədd qoya bilirsən.

Ancaq bu şərtlərlə natamam dünyada Yelena yaranmaq böyük səadətə çevrilə bilərdi.

Telemax, Psistirat belə bir dünyanın şənlik-toy məclisinin üstə gəlib çıxırlar.

Menelaya qapıya bu cür qonaqlar gəldiyini xəbər verirlər. Hökmdardan sərəncam gözləyirlər ki, qonaqları necə qarşılasınlar.

Menelay acıqlanır ki, necə yəni qonağı nə cür qarşılayaq. Tez onları içəri buraxın və rahatlıqlarını təmin edin. Bəs biz onillərlə dünyanı dolaşmış, hər yerdə qonaq olmuş, yad yerlərdə bizim çoxlu qayğımızı çəkmişlər.

Fərd bəşərin qoynunda dünyaya qədəm qoyur. O, ona aid cəhətlərə nəzəri əsaslarla hədd qoya bilməz. Bəşəriyyət təkcə haqqın ödənilməsi, yaxın adamlarla münasibətlərdə yaşamır. Onun fəaliyyət sahəsi geniş, taleyi isə təsadüflərlə doludur. Bu şəraitdə təkcə haqq və yaxın, doğma münasibətlərlə baş girləmək mümkün deyil. Onda bəşəriyyət köməyə gəlir, yadlarda bəşəri keyfiyyətlərin olması vəziyyətdən çıxarır.

Əslində insan bir ehtiyacdır. Bu ehtiyac qonaq vaqeəsini əziyyətdən çox, ən şirin nemətə çevirir. Buna qarşı duran yeganə şey maddi mülahizələrdir.

Bu şərtlər qəribin qonaq olması, pənaha götürülməsini başa gətirir.

Telemax və Psistirat Menelayın sarayına salınırlar. Bunların hər ikisi zadəgandırlar və özlərinə görə varlıq hesab edilirlər. Lakin onların Menelay sarayında qarşılaşdığı sərvət nə miqyasda olmalı ki, bu həm Telemaxın, həm də Psistiratın heyrətlənməsinə səbəb olur.

*"Nestor oğlu, sən ey mənim yaxın dostum, can sirdaşım,*
*Bu möhtəşəm evdə hər şey gör bir necə parıldayır?*
*Qızıl, gümüş, kəhraba. Fil sümüyü gör nə qədərdir!*
*Yəni Zevsin Olimpdəki salonu da lap belədir.*
*Bu qədər də dövlət olar! Baxdıqca mat qalır adam!"*

*(Orada, səh. 45).*

Biz bir az əvvəl söylədik ki, insanın görən gözünün, təhlil edən, fərqləndirən, qiymətləndirən ağlının müqabilində ömür üçün çox kiçik qismət, tələsik vəzifələr verilmişdir. Qarın, şəhvət, bir az ailə, övlad və dünya ilə vidalaşmaq – işin yaxşı təsadüfündə. Pisində isə cəhənnəm, məşəqqət, əzab, təhqir, göz yaşı, çarmıx, qırğın, qan, xəstəlik, çolaq qalmaq, kasıblıq, qocalıq, qayğıdan məhrum olmaq – çabalamaq.

Hər iki halda bir an aylanmaq, başını qaldırıb aləmə baxmaq, fasilə götürmək, tənəffüs etmək, ömrə bir qədər də başqa cür yaşayış tərzi əlavə etmək mümkün deyilmi? Bunun üçün ağılla ömür arasında bir az da uyğunluq – bunun müddətinin xeyli uzanması da lazım gəlir.

Antihəyat uzunömürlülüyü hədələyir. Məişətə pərçimlənib qalmamaq üçün isə amalla yanaşı maddi şərtlər də lazımdır.

İndi budur, Menelayda həmin şeyin maddi hissəsi görünür.

Lakin həyadan aylanma, fasilə götürmə, nəfəs dərmə, mən kiməm – bu dünya nədir, daha nə etməliyəm sualı görünmür.

Onda bu firavanlığın bəşəri yöndə tək qəpik də dəyəri yoxdur. Hələ buna həmin sərvətin qeyri-qanuni yollarla mənimsənilməsi də əlavə olunur. "Troya müsibəti" bunun ən zahiri əlamətidir.

Belə çıxır ki, yunanlar Troyaya şərəflərini qorumaq, əldən çıxan səadəti qaytarmaq üçün getmişlər. Lakin orada talan həmin məqsədi arxa plana çəkdi. Xüsusən Atridlərin simasında.

Zahirən nəzərə belə gəlirdi ki, Atridlər namus keşikçiləridir. “Troya çarpışmaları” buna şahidlik verə bilərdi. Necə ki, Menelayın indi gözə dəyən həyat tərzi də zabitəli görünür.

Amma o qədər müsibətin qarşılığında bu boyda firavanlığın da qayğısına qalmaq ən böyük qeyrətsizlikdən, arsızlıqdan, dəyyusluqdan xəbər verməlidir.

Menelay vaqeəsindən başqa gerçək həyat da var.

Gündəlik həyatda bu cür zabitəli firavanların çox dəyyus yollarla para gəzməsini müşahidə edə bilərik.

Onlar doğrudan da ləyaqət məcəllələri tərtib edir, bunu qoruyur, belə görünür. Amma məqsədə uyğundursa, müvazinət və mənafe naminə onların hər şeyə getmələri də var...

Daha heç bir şey demirik!

Bəli, nəinki firavanlığın, hətta iki əllə bir baş saxlamağın o biri üzündə, yuxarıda işarə verdiyimiz, acınacaqlı dünya yaranır.

Telemax – Psistrat Odissey haqqında bir şey öyrənmək, əhval tutmaq üçün Atridlər dünyasına belə bir məqamda gəlib çıxmışdılar.

Qonaqlar kimlikləri xəbər alınmadan qəbul olunurlar. Necə olursa, Menelay, dostu Odisseyi xatırlayır. Əlbəttə, bu dastanın, dastan müəllifinin böyük fəhmidir. Amma bizim diqqətimizi cəlb edən şey xatırlamanın səbəbi yox, gedişidir. Belə bəlli olur ki, Menelay Odisseyi özünün canbiri hesab edir. Mən Arqosda ona yer ayırar, saray tikdirərdim. O, bu sarayda yerləşər, İtaka camaatını da məskunlaşdırırdı. Bu biz iki dostun yaxın yaşayışını, get-gəlimizi asanlaşdırardı... Və s.

Xatırlamalardan, təəssüflərdən Telemax həyəcan keçirir.

Bundan sonra həm Yelena, həm də Menelay Telemaxın Odisseyin oğlu gümanına gedirlər. Burada bənzəyiş böyük idi, həm zahirən, həm də qabiliyyətcə... Bu fikri Telemaxın keçirdiyi həyəcanlar da təsdiq edir.

Bəlli olur ki, ər-arvadın etimalı düzgün imiş. Qayğılanmağın dərəcəsini rövnəqləndirməyə ehtiyac yoxdur.

Ər və arvad Odisseylə bağlı xatirələrindən mühümlərini danışırlar.

Əvvəlcə Yelena nəql edir:

*“Sınaqlardan mətin çıxmış Odisseyin hünərini*
*Nə danışa bilərəm mən, nə də saysam, saya billəm,*
*Öz-özünə kötək vurub yaman hala salmışdı o,*
*Kölə kimi çiyninə bir köhnə-köşkül cındır atıb,*
*Düşmənlərin gen küçəli şəhərinə gəlib çıxdı.*

*Elə bil bir dilənçidir; axeylərdən heç kəs onu*
*Gəmilərin ətrafında bu görkəmdə görməmişdi.*
*Bu görkəmdə İliona gəldi, şübhə oyatmadan,*
*Bircə onu mən tanıdım, yaxınlaşıb sual verdim,*
*Ustalıqla susub cavab vermədi o sualıma.*
*Elə ki, mən çimizdirib, canına yağ çəkdim onun,*
*Təmiz paltar geyindirib, and içdim ki, troyanlar*
*Odisseyin kimliyini yalnız o vaxt biləcəklər ki,*
*O, yanına dönmüş olsun itigedən gəmilərin.*
*Anddan sonra axeylərin kələyini açıb dedi*
*Uzuntiyə silahıyla o bir xeyli düşmən qırıb,*
*Xeyli hərbi məlumatla dönüb yenə getdi geri.*
*Troyanın qadınları uca səslə ağladılar,*
*Mən sevindim, çünki çoxdan can atırdım vətənimə.*
*Onsuz da mən yanırdım ki, Kipridanın sözlərinə*
*Kor-koranə uyub, ayrı düşdüm öz vətənimdən*
*Tərk etmişdim öz qızımı, öz gəlinlik yatağımı*
*Cismən, ruhən çoxlarından üstün olan öz ərimi".*

*(Orada, səh. 49).*

Sonra vaqeənin ardını Menelay davam etdirir:

*"Arvad, olmuş əhvalatı tamam doğru danışdın sən,*
*Çox yer gəzib, nəcib-nəcib insanlara rast gəlmişəm.*
*Öyrənmişəm onların niyyətini, adətini.*
*Sınaqlardan mətin çıxmış Odisseytək bir adama.*
*Heç bir zaman, heç bir yerdə rast gəldiyim olmayıbdır.*
*Seçmə igid axeylərin troyalı düşmənlərə*
*Qorxunc ölüm apardığı taxta atda Odisseyin*
*Göstərdiyi hünər kimi bir hünər də görməmişəm.*
*Həmin ata yanaşdın sən. Yəqin bizə düşmən allah*
*Səni ora çəkmişdi ki, troyanlar ad qazansın.*
*Allahsifət Denfob da, gördük, sənin yanındadır.*
*Taxta atı taqqıldadıb sən üç kərə dövrə vurdun,*
*Hər bir axey arvadının səsi kimi səs çıxarıb,*
*Öz adıyla çağırdın sən bizim məşhur igidləri.*
*Tisey oğlu Diomedlə mən, bir də ki, mərd Odissey*
*At bətnində əyləşərək eşidirdik çağırışı.*
*Diomedlə mən sevincdən dik sıçrayıb istədik ki,*
*Taxta atdan çıxaq, ya da çağırışına cavab verək*
*Odissey tez sıçrayaraq öz qüvvətli əllərilə*
*Cəld ağzını yumub, bizi xilas etdi məhv olmaqdan.*
*Bir az sonra Afinanın təlqinilə uzlaşdın sən".*

*(Orada, səh. 49-50).*

Elə ki, Hektorla üzləşərkən yunanların düşmənə üstün gəlməsi üçün hərbi taktika deyilən şey, fərasət bütöv şəkildə müşkülün öhdəsindən gələ bilmirdi, onda Axilles qüdrəti, mərdliyi, açıqlığı lazım idi. Hektorun aradan götürülməsi ilə əsas müşkül arxada qalmışdı. Lakin indi Axilles də meydanda yoxdur. Belə gümün etsək ki, üz-üzə dayanan cəbhələr arasında qüvvələr bərabərdir, burada fərasət, ağıl, hərbi taktika deyilən şeyin həlledici rolu artır.

Əgər qüdrət, güc, təmizlik, mərdlik dövrünün qəhrəmanı Axilles idisə, fərasətin qəhrəmanı Odissey olmalıdır.

Hektor aradan götürülmüşdüsə də, qalaya daxil olmalı, Troya fəth edilməli, Yelena geri qaytarılmalıdır.

Dastanlarda (əsatirin özündə də) Troya alınmaz qala anlayışında təqdim edilir. Bu işin birbaşa görünməsi az ehtimal olunandır. Üsul, yol tapılmalıdır.

Birdən taxta at söhbəti peyda olur.

Axı, bu lap primitiv söhbətdir.

Bu necə taxta atdır? Əgər taxtadırsa, o heç hərəkət edə bilməz.

Sonra hərəkət etsə belə, bu əcayib şey nə vasitə ilə Troyaya, bu alınmaz qalaya daxil olmalıdır.

Hər halda romantika deyilən şeyin, simvol səviyyəsinə yüksəlməsi üçün bir ölçüsü olmalıdır.

Məsələn, Nizamidə yetmiş alim sözü bir yerə qoyub Hörmüzün fikirlərini, həqiqəti rədd edirlər və daşa dönürlər. Bunu rəmzləşdirmə asan şeydir. Çünki həqiqətdən imtina edən dünya daşlaşmalıdır...

Amma taxta at özlüyündə heç bir ölçüyə uyğun gəlmir. Bunu qırağa boylanıb rəmzləşdirməyə ehtiyac var. Bu gələcəyin texnikası da deyil, ayrı heç bir şey ola bilməz.

Söhbəti bu səviyyədə saxlayaq.

İndi Odisseyə qayıdaq.

Mənа edilirdi ki, Odissey xeyrini başa düşməkdə hamıdan fərqlənir. Bu keyfiyyətə bəzi naqis cəhətləri də əlavə edirdik. Və ona axıra qədər güzəştə getməsək, daha yaxşı olar.

Amma taxta atın qarnına minib düşmən səflərinin arasına soxulmaqla, hərbi dünyanın qızğın yerinə atılmaqla, döyüşlərin cilovlarını əldə saxlayıb sadist rolu oynamaqla mənfəətbazlıq, nəfsbazlıq, şəxsi xeyrinə pərçimlənib qalmaq bir yerə sığmaz.

Burada Odissey Odissey deyil, daha böyük şeydir. Sanki o, əvvəlcə Axilles olmuş, bəlli səbəblərlə əlləri yanıb daima ağzına

təpdiyindən, yön götürməli, qəhrəmani hünəri ilə yanaşı, öz ictimai müvazinətini saxlamaq naminə “Odisseyləşməli” də olmuş.

Burada incə bir mətləb var.

Həqiqətdə Axilles heç bir zaman “Odisseyləşə” bilməz. Bunu “ağıllanmadan”, “ayılmadan” başqa, təbiətin də imkan yaratması lazımdır.

Axilles bütövdür.

Bəzən isə Odissey “Axillesləşməmiş” şəkildə qarşımıza çıxır. Lakin təbiətdəki incə bir qüsur onu Odissey etmişdir. Və indiki dövr üçün bu əl verir.

Biz bundan sonra nəfs tələblərindən, şəxsi xeyir dünyasından qırağa çıxmağı bacaran, həm ömrü qoruyan əsil Axilles-Odisseylə qarşılaşacağıq.

Odissey haqqında nümunə gətirdiyimiz hissədə “Yelenanın və Menelayın xatirələrində dayandıq.

Yelena Odissey haqqında heyrət doğuran çoxlu təriflər deyir. Əlavə o, söyləyir ki, Odissey Troya küçələrində cildini dəyişib bir dilənçi təkin dolaşırdı – hərbi məlumat toplamaq üçün!..

Dastandan o qədər də aydın alınmır. Odisseyin Troyada bu dolaşması taxta at vaqeəsindən əvvəlki sərgüzəştdir, yoxsa o, bu “heyvanın” qarnından çıxıb arabir şəhəri dolaşır. Amma Menelay öz xatirələrində Yelenanın fikrini davam etdirib söyləyir ki, taxta atı taqqıldatdın sən.

Deməli, Yelenanın bu xatirəsi də taxta at dövrünü əhatə edir.

Yelena Odissey üçün deyir ki, öz-özünə kötək vurub, o özünü yaman yola salmışdı.

Hamı üstünə qolaylanmaq üçün başqasını axtarır, özgəsini döyməyə çalışır. Döyməyi özündən başlamaq lazım gəldiyi isə heç kəsin yadına düşmür. Məhz ona görə də ictimai kötəkdən kimsə yaxa qurtara bilmir.

Həyat onsuz da adamı kötəkləyir. Gizlənməklə bundan yaxa qurtarmaq olmaz. Əksinə, gizlənmək müdafiəni zəiflədir, kötəyi isə amansız edir. Təsadüfi deyil ki, deyirlər həyat çətindir. Amma özünü döyənlər həyatın bu çətinliyinə hazır olur.

Əvvəlcə kor-koranə, sonra isə düşüncəli surətdə özünü kötəkləmək Odisseyə məxsus keyfiyyət olub bizim müşahidə dairəmizdə ənənənin bünövrəsidir – o buradan başlayır. Və çox təəssüf ki, sonralar kimsə tərəfindən bu ölçüdə davam etdirilmir.

Hələ həyatın – taleyin əlində aciz qalmayan adam müşahidə edilməyib. Özünü kötəkləməyin mənasını anlayan, bunu kamil biçimdə tətbiq etməyi bacaranlar isə həyatı əlində mumtək oynada bilər.

Özünü şaqqalamaq “odisseyliyi” “axillesliyə” gətirib çıxarır.

Axilles bu cür yaranmışdı. Və ona görə də Xriseida-Briseida ilə bağlı Aqamemnon-Axilles dolanbaclarında özünü şallaqlamaq öz-özünə alınırdı. Amma bu Odisseydə hələ bu hadisələrin gedişi başlanmadan hazırlanırdı. Odissey gözləmirdi şallağı bu başdan özü törədirdi. Sonra təbiətin udmaq ehtirasından, cəmiyyətin talan etmək kəmfürsətliyindən ibarət təbii və ictimai şallaqlar başlayarkən Odissey çətinlik çəkmədən rəqs edir və hər dəfə də qalib çıxırdı.

Yelena öz qövmünü tərk etmişdi. Lakin ilkin həvəslərin həyəcanları ötəndən sonra həsrət baş qaldırmalı ki, gözəl öz qövmünü aramaq üçün taxta ata yan alır, onu taqqıldatmağa başlayır. Menelay deyir ki, həyəcandan az qaldı ki, mənim ürəyim yerindən çıxsın. Biz hamımız sarsıldıq. Mən və hətta mənə qoşulub Diomed də taxta atın qarnından çıxacaqdıq. Yalnız Odissey təmkinli idi. O, bizi saxladı, ağzımızı da qapadı.

Bəli, şallaq azdır, ağıllı olmağı da bacarmaq lazımdır.

Deyirlər, səbr böyük hadisədir. Lakin səbr acizliyin yox, qüdrətin ifadəsi olmalıdır. Bu zaman onu böyük hadisə adlandırmaq mümkündür. Ağılla səbrin vəhdəti özünü hadisələrdən baş açmaqda və dözüb gözləməyi bacarmaqda göstərir. Biz indi bunu Odisseydə bütöv şəkildə müşahidə etdik.

Yoxsa at qarnında əyləşən yunanların ehtiyatsızlığı bütün tədbirlərin bəhrələrini çürüdəcəkdi.

Yelenanın hələ troyalıların ağuşundaykən yunanlara yanaşmağına, dilənçi Odisseyi qəbul etməsinə, onu çimizdirib bədənini də yağlamasına, sirrini saxlamasına, geyindirib küçəyə buraxmasına, troyalıları qırmasına, Troya qadınlarının göz yaşı tökməsinə boy verməsinə də diqqət yetirək.

Təkcə bu fakt göstərir ki, Yelena həyatın rəngarəngliyinin doğurduğu marağa uyub acınacaqlı sədaqətsizliyə yol vermişsə də, amma öz qövmü üçün daim ürəyinin başı sökülür.

Biz dedik ki, bir an qayğıdan məhrum olarsa, insan gözünü dünyaya açarkən təbiətin udmağa göstərdiyi ehtiras (verdiyi bol-bol nemətlərlə yanaşı), cəmiyyətin fəth etməkliyindən ibarət (onun bəşəri məndəricəsi ilə yanaşı) fəlakətlə, bir çox halda faciə ilə üz-üzə

dayanır. Amma bura insanın öz qüsurlarını, yüngülməcazlıqlarını, barmaqlarını salıb öz gözlərini çıxarmasını, iradəsini yelə verməsini də əlavə etmək lazımdır. Bunun nəticəsində həyatlarının əsas özülü ilə yanaşı ötəri şeylərdən özünü saxlaya bilmir, üzdə bir cür, batində başqa olmaqdan çəkinmir. Bu hələ işin ehtiyatla, pərdəli şəkildə başa gələnidir. Bəzi halda odla oynayır, cinayətə yol verir, öz həyatının özülünü ötəri bir həvəsin təhlükəsi altına da atır. Elə hallar da olur ki, ötəri həyatla özülü müqayisəyə yol verir, həya, abır pərdəsini götürməkdən çəkinmir, ictimai-ədəbi tapdalayıb da keçir.

Biz uğursuzluq, binəsiblik təsadüfünü izləmirik. Bu halda baş verən hadisə üçün ehtiyatla mühakimə yürüdərdik. Yelena ötəri həvəsə boy vermiş, həyatının özülü üçün isə daim ürəyi sökülür.

Hələ buna, özünün dediyi kimi, vətən həsrəti, qoyub qaçdığı qızına, balasına olan münasibət də əlavə edilməlidir.

Doğrudur, Yelena ora da, – Priamlar ailəsinə də ərim evi deyir, bura da – Atridlərə də. Hektor öləndə Yelena fəryad qoparırdı. Söylədi ki, qayınlarım içərisində o, alisi idi. Bu qərib ölkədə məni hücumlardan müdafiə edir, üzüqara işimin üstünü heç vaxt vurmazdı. Bu bir tərəfdən də deyir ki, öz gəlinlik yatağımı tərk etdim. Halbuki ərim, Atreyin oğlu Menelay cismən, ruhən üstün idi.

Bu söhbət tamamilə mülahizələrimizi təsdiq edir. Yelena çoxcəhətliyinə boy vermiş, həyatı hərcayi kişilər təki hərtərəfli dadmağa meyil göstərmiş, bununla da özül ötəriliyə fəda edilmiş.

Nəzəriyyə hüquq bərabərliyi baxımından vəziyyəti hərətrəfli işıqlandırmış. Söyləmiş ki, bioloji təhrikedici cəhət hər iki cinsdə eynidir. Yalnız ictimai mövqenin üstünlüyü kişiyə imkan yaradır ki, özü etdiklərinə qadına sərhəd qoysun. Bu da ki, az baş tutur, kişi hərəkətlərini alayarımçıq gizləyir, qadın isə bütövlükdə gizli saxlayır.

Lakin özünə qarşı həvəs oyunu oynayarkən məgər kişilər həyatı təhlükə altına almırmı və onun ahəngini pozmurmu? Bir halda ki, daha müdafiəsiz olan qadın bu işi başa gətirə...

Biz hadisələri bütöv izlədikdə, qətiyyətlə bu fikrə gəlirik ki, Yelena isti yuvasını qoyaraq Parisə qoşulub qaçması sarsıdıcı ehtirasın yox, ötəri həvəsin məhsulu idi. Ona görədi ki, ötən küləkdən də Yunanıstanın, elinin, obanın, ərinin, övladının havasını almağa çalışır. Onun Priamlara da ehtiramla yanaşması cinsi dünyasının tələblərindən yox, bəşəri mündəricəsindən irəli gəlir.

Bəli, ən yaxşı adamlar belə cinsi təhrik qüvvəsi ilə üz-üzə gələrkən çıxacaqdan yan keçə bilmirlər. Məhz bəşəri keyfiyyətlərə qarşı

dayandığına görə, cinsi rəqsetmələr uğursuzdur. Buna üstəlik o aləmə qurşananların fizioloji bədbəxtliyini də əlavə etməlidir.

Kef yaxşı şeydir?

Lakin kef nədir?

Ona görə də bəşəri mündəricədən uzaq bütün keflər bədbəxtlik gətirən nəticələr verir. Bu keflər heyvani sınırı aşa bilmir. Halbuki ən bəsit təbiətlər – adamcığazlar belə hüdudsuz bəşəri potensiala malikdir.

Binəsiblik, ictimai təzyiq oynadır bizi. Üstəlik zərrəcə eşqə dəryaca ağıl lazım olduğu halda, dəryaca eşqə qarşı zərrəcə iradə tapılmır bizdə... Yelena da deyir ki, Kipridanın sözlərinə kor-koranə uyub, ilahi bir ahəngi pozdum. Kiprida həmin ötəri həvəsi, iradənin yel qarşısındakı titrəyişini təmsil edir...

Yelenanın bu qədər qarmaqarışıq vəziyyətdə bir dilənçini – Odisseyi qonaq kimi qarşılaması da diqqəti cəlb edir.

Biz görürük ki, dünya talan, qırğın dünyasıdır. Bununla yanaşı, Antik aləmdə pənahda olan insanı himayəyə almaq, qonağa münasibət öz bəşəri mündəricəsini nə qədər də bütöv saxlamış, həm də bir adət təki yuyub çimdirmək, bədənə ətirli yağlarla sığal çəkmək qonaqpərvərliyin ilkin, mühüm şərtləri məna edilir.

Bizim tərəflərdə də evin qadını, ən çox gəlini qonağın ayağını yuması olub.

Bu bir adət, mərifət sayılardı.

Sonra qadına "yuxarı" münasibət başladı. Mühakimə mülahizələr irəli sürdü, nəzəriyyə fikri söylədi. Və hamısı orada bir həqarət tapdı.

Biz indi bu fikirlərin saf-çürüklüyünə getməyəcəyik.

Amma hər halda, qonaq çöldən gələn adamdır. Onun yuyunması, lap çimməsi təmizkarlığa da, mədəniliyə də, sağlamlığa da daxildi.

Elə şərait varsa ki, qonaq özü-özünə xidmət eləsin, bu daha artıq məqsədə uyğundur.

Amma qonaq əzizlənirsə, ona da ev yiyəsindən kiminsə xidmət göstərməsi lazımsa, tarixən bu işə ictimai hüquqdakı fərqlə yanaşı ailə daxilindəki əmək bölgüsü də təsir göstərmiş.

İctimai müsibətə qarşı qadın daha dözümsüzdür. Ona görə o daha artıq zərər çəkmiş. Lakin əməl bölgüsündə kişinin çiyninə daha ağır yüklər düşmüş. Buna tarixin naqislikdən hərbi vəzifələri də əlavə etmək gərəkdir. Bu qədər gərgin vəziyyətdə, imkan tapan kimi, qadın kişinin əlindən tuta bilirsə, ədalətli işdir. Zira, bir şeyi nəzərə almaq lazımdır: qadının ayaq yumasında və çimdirməsində xalis şəkildə

götürülərsə, ləyaqətsizlik də, bir qədər pərdəsizlik də tapmaq mümkündür.

Siz Yelenanın Odisseyə münasibətinə baxın!

Antik söhbətlərdə deyilir ki, qonağın yuyulmasını tapşırdılar, cariyələr, kənizlər bu işi gördülər. Amma padşah arvadı, məleykə olan Yelena söyləyir ki, Odisseyi özüm çimdirib, bədənini də ətirli yağlarla seyqəllədim.

Bu isə tamamilə Antik aləmin, Priamlar sarayının qonaqpərvərliyi ilə izah edilə bilər. Yəqin ki, bu işə Yelena özü can atarkən Priamlar buna etiraz etməmiş. Burada Yelenanın özü çimdirmək bəhanəsi ilə Odisseyə, yunan dünyasına can atması da varsa, bu başqa məsələdir.

Bu cəhət Yelenanın özünə aiddir, antik aləmin bu sahədəki nəcabəti isə, bu işdə bütöv şəkildə üzə çıxır. Həm də burada əsarətdə olanla dostluğun aqibəti məsələsi var.

İstilaçı daima yerlilərdən özünə adamlar hazırlamalıdır – məhv etmə gedişi başa çatana qədər.

Lakin məhv etmə heç bir zaman başa çatmır. Bu istilaçının daimi problemi, məqsədi olaraq qalır. Zahirən işlərin gedişi buna uyğun görünür. Lakin "arzu" başa çatmaq bilmir ki, bilmir. İşdə çətinliklər, ictimai xəstəliklər isə baş alıb gedir. Axı pozğun məntiq necə özünü doğruldacaqdır?!

Doğrudan da ölüm hadisəsi sonda baş verir – istilaçının özünün.

Bu "öz adamı" adlananları əsarətə məruz qalan tərəf satqın adlandırır.

Bu satqınlar əzəmətli görünür. Onlar səlahiyyətlə, imkanla, təltiflərlə rövnəqləndirilir. Baxımsızlıq, imkansız qalmağa qarşı bu nə qədər də gözqamaşdırıcıdır.

Satqın istilaçı üçün möhkəm bir sədaqətli donuna girir. Bu cəhət onda təbiətləşir.

Amma ən satqın adamda belə öz qövmü üçün ikinci duyğu yaşamalıdır. Və bu fürsət düşən təki öz işini görür.

Biz Yelenada bunu müşahidə etdik. Əsarətdə olanla dostluğun aqibəti belədir. Axı zorlu anında onun özünün də "dostluğu" bu cür saxtaydı. Onun içərisi məkrlə, hiylə ilə dolu idi.

Menelay Odisseyin əzəməti haqqında dastanlar danışandan sonra Layer oğlunun taleyi ilə bağlı bildiyini söyləyir. Tale belə gətirir ki, o qoca dəniz allahı Proteylə məşvərət apara bilir.

Yadınızdadır ki, Troyada vətənə dönərkən Menelay gözəgörünməzlərə lazımi qədər qurban kəsməmişdi.

Onların səfəri onsuz da çətin idi. Lakin allahları razı salan səviyyədə tutmadığına görə səfərdə Menelayın asan işi də çətin olur, yolda müşkülə düşür, ləngiyir, hey ləngiyirdi.

Vəziyyətə səbəb nə idi, çıxış üçün hansı yol var? Menelayın bu suallara aydın cavabı yox idi.

Aydın olur ki, müşküllərin açarı, sualların cavabı Proteydədir. Lakin onunla görüşmək, onu ələ keçirmək ondan bir sirr almaq özü müşküldür.

Bu işdə Menelaya Proteyin cavan qızı Eydofeya kömək edir. O, müəyyən yol öyrədir. Həmin vasitə ilə Proteyi ələ keçirir və yaxasından bərk-bərk tuturlar.

Bəlli olur ki, çox hiyləgər, daim cildini dəyişən, şəkildən şəklə düşən Proteyi də ələ keçirmək, təslim etmək mümkünmüş. Gərək inadcıl, ardıcıl olasan, tutduğunu buraxmayasan və güc tətbiq edəsən – təslimə qədər.

Qız atasının təslim üsulunu Menelaya söyləyərkən fikirlərini bu cür yekunlaşdırır:

*"Elə ki, öz itlərinin arasında yuxuladı,*
*Yubanmadan gücünüzü göstərməyə cəhd eləyin!*
*O nə qədər çırpınırsa, qoy çırpınsın, buraxmayın,*
*Yer üzündə gördüyünüz canlıların, cansızların*
*Görkəmində görünsə də, suya, oda çevrilsə də,*
*Siz qorxmayın, əlinizdən buraxmayın, bərk-bərk sıxın*
*Elə ki, o düşdü yenə öz əvvəlki görkəminə,*
*Elə ki, o özü sənə xitab edib dilə gəldi,*
*Əl çəkib zor işlətməkdən ixtiyarı sərbəst burax".*

*(Orada, səh. 53).*

Hadisələr bu cür də başa gəlir. Amma burada diqqəti cəlb edən bir şey var. Deməli, əsib-coşma, hökm vermə gücdə üstünlüyün ifadəsidir. Bunun həqiqi hünərə, xüsusən də idraka dəxli yoxdur. Bir halda ki, Protey-Allah özü belə, ondan daha üstün qüvvə ilə üz-üzə gəldikdə sakit olur və itaət göstərir.

Bu, görünür, bəşər həyatında ümumi üslubdur.

Yalnız idrak aləmi istisna təşkil edir. Çünki tarixin həqiqi mənzərəsində bəşəriliyi təmsil edən idrak həqiqətdən başqa heç bir şeyin qarşısında təslim olmur...

Protey təslim olandan sonra Troyadan qayıdan Yunan qəhrəmanlarının taleyi haqqında çox şey söyləyir. Odissey haqqında dedikləri isə aşağıdakılardır:

*“Bir adada mən gözündən yaşlar tökən gördüm onu:*
*Orda pəri Kalipsodur onu zorla dustaq edən,*
*Çox can atır, Odissey öz vətəninə dönə bilmir.*
*Nə avarlı gəmisi var, nə də ki, yol yoldaşları”.*

*(Orada, səh.56).*

Telemaxa bilmək lazım idi, hazırda atası işıqlı dünyada sağdı və ya artıq o torpağın üstə yoxdur. Bu onu qeyri-müəyyənlikdən qurtarırdı.

Çünki bu sonrakı qərarlara gəlmək üçün başlanğıc və əsas idi. Bir şey haqqında yəqinlik hasil olandan sonra bir qərara da gəlmək mümkündür.

Bİz “Odisseya”nın indiki səhifələrinə qədər müsibətzadə haqqında ancaq mülahizələr və xatirələr eşidirdik. Növbəti fəsildə isə artıq Odisseyin özü, onun müşküllərlə dolu vəziyyəti, allahların onun haqqında məşvərəti və qərarı ilə tanış oluruq.

Antik allah anlayışının ümumi mənzərəsi ilə bağlı fikrimizi demişik. Bu allahlar tarixi meylə uyğun gəlməsi və bütün əzəməti ilə yanaşı öz bəsitliyi ilə də bizi heyrətdə buraxırlar. Sanki bu sonsuz və əbədi dünyanın hökmdarı olan allahların yunan qəhrəmanlarının taleyindən başqa iş-gücləri yoxdur.

Lakin bu cürə təhlil bizi real vəziyyəti fəhm imkanından məhrum edərdi.

Fakt odur, Odisseyin vəziyyəti o qədər acınacaqlıdır, ürək üzən, tükənib bitməyən əzab-əziyyət o həddədir ki, bu allahları da narahat etməyə başlayır. Həmin çətin müşkülü bir yön üstə qoymaq üçün allahlar məşvərətə yığışıblar.

Həm Odisseyin, həm də Telemaxın taleyi haqqında Zevsə Afina müraciət edir.

Odisseyin taleyi tutqun olsa da, aydınlaşdı. Bu Telemaxın da vəziyyətini asanlaşdırmalıdır. Məsələ ondadır ki, “Penelopa düşkünləri” atasının taleyi ilə bağlı Telemaxın səfərə çıxdığını eşidəntək narahat olurlar. Onların arxasında, onlardan xəbərsiz işlər onları heyrətləndirir. Deməli, hadisələr onların nəzarətindən çıxmağa başlamış...

Lakin hələ gec deyil, sabahın təhlükəsinin qabağını bu gündən almaq olar. Onlar qayıdan başı dənizdə – boğazların birindəcə Telemaxı qarşılamaq və məhv etmək qərarı verirlər.

Bəli, öz talelərini özləri tərtib edənlər üçün həyat bu cür sıldırımlar üzərindən keçir.

Biz Odissey taleyini bütöv izləyərkən bunun necə bir mənzərə olduğunu təfərrüatı ilə görəcəyik.

İdeyanı daha aydın anlamaq üçün Axilles-Odissey dolanbacı ilə bağlı bir tezisimizi də indi deyə bilərik.

Axilles ömrün qəhrəmani anıdır. Daim belə bir yürüşdə olmaq nəinki mümkün deyil, heç buna ehtiyac da yoxdur.

Odissey isə talelərini tərtib edənlərin ömrünü və bəşəriyyətin bütövlükdə həyatını ehtiva edir.

Taleyini tərtib etməkdə qəhrəmani anın başa gəlməsi üçün Axillesin ikiqat artıqlaması ilə rolu olmuş, lakin həmin "qəhrəmani an" uzandıqda və tədricən əmrə çevrildikdə daha burada "axilleslik" duruş gətirə bilmir və o "odisseyliklə" əvəz olunmağa başlayır.

Afina İtakadakı işlərdən danışır, xalq qədirbilməməzliyi ilə bağlı fikirlərini təkrarlayır. Xalq deyilən aləmin haqq, ədalətdən çox zülmə layiq olduğu tezisini bir daha irəli sürür. Bu fikirlərin tarixi, bəşəri mündəricəsini biz yerindəcə izləmişik.

Sonra ilahi Odisseyin özünə qayıdaraq deyir ki:

*"O cəfakeş indi uzaq bir adada, gursaç pəri,*
*Kalipsonun yanındadır. Zorakılıq edir pəri,*
*Öz sevimli vətəninə dönə bilmir mərd Odissey!..*

*(Orada, səh.65).*

Əslində Odissey burada cənnətmisal bir diyarda, pərinin yanında böyük rahatlıq içində idi. Lakin işin sonrakı mahiyyəti ondadır ki, Odissey öz vətənini istəyir. Öz elinə, öz ocağına, öz əyalına, ailəsinə münasibət ona ikinci dünya ilə təskinliyə imkan vermir.

Dastanda deyilir ki:

*"...O yenə də bir qayaya əyləşərək ağlayırdı;*
*Ürəyini parçalayıb didirdi göz yaşı, ah-zar.*
*Nəzərləri dənizdəki ənginliyə dikilmişdi".*

*(Orada, səh. 67).*

Odisseyin taleyi allahlar, xüsusən Zevs tərəfindən çoxdan Afinaya tapşırılmışdı. Hökm də belə idi ki, iztirablar nə qədər çox, çətinliklər nə qədər uzanıb gedən olsa da sonra Odissey vətəninə, elinə-gününə,

öz evinə-ocağına sağ-salamat çatmalıdır. Lakin başqa bir allahın da haqqı ödənməli idi. Bu Zevsin qardaşı və dənizlər hökmdarı Poseydondur.

İş ondadır ki, Odisseyin üzləşdiyi çətinliklərdən biri də Təpəgöz əhvalatıdır. O, ya gərək bütün arkadaşları ilə məhv olaydı, ya da Təpəgözə bir ziyan gətirib xilas ediləydi.

Vəziyyət alternativ qoyulmuşdu. Odissey Təpəgözə – Poseydonun oğlu Polifemə ziyan vurub xilas olmuşdu.

Sən bir işə bax! Allahlar Afina da, Afrodita da, Apollon da, təpəgözlər də törədir. Və bəşər də özünə yol açmaq üçün təpəgözlərə (şər dünyasına) dirəniş göstərəndə Poseydonlar hikkə ilə haqlarının ödənməyi tələbini irəli sürürlər.

Poseydon həmkarlarının, allahların qərarına qarşı çıxmır. Lakin dənizlərdən ötüb keçərkən Odisseyə olmazın əzablar verməliyəm tələbini irəli sürür. Zevs də Odisseydən ötrü Poseydonla müxalifətə girmək istəmədi.

Bəli, işlər müşkülə düşəndə hər yerdən ümid üzülür.

Hələ Odisseyinki yaxşıdır. Onun Afinası var. Yalnız zülm simgəsəl (rəmzi mənada) ərşə dirənəndə Afina dilə gəldi, Zevsə müraciət etdi.

Zevs də elçi, qasid oğlu Hermesə belə bir tapşırıq verir:

*"Hermes, sən ey allahlar qasidi, gör nə deyirəm,*
*Get o qalınsaç pəriyə çatdır bizim bu qərarı,*
*Qoy buraxsın dözümü çox Odisseyi, bir şərtlə ki,*
*Nə insanlar yol yoldaşı olsun onun, nə allahlar.*
*Möhkəm salda çətinliklə keçsin dəniz yollarını,*
*Düz iyirmi gündən sonra çatsın barlı Sxeryayada, –*
*Allahların törəməsi feakların ölkəsinə.*
*Ona feak qəbiləsi hörmət edər allah kimi,*
*Gəmi verib apararlar doğma, əziz diyarına,*
*Yığın-yığın qızıl və mis, xeyli paltar bağışlarlar.*
*Troyadan öz evinə əlidolu qayıtsaydı*
*Qənimət feakların töhfəsindən az olardı*
*Bəli! Gedib vətəni də, uca damlı evini də,*
*Doğma qohum-qardaşı da görmək onun nəsibidir".*

*(Orada, səh. 66).*

Allahların Odisseyin evinə salamat dönməsi haqqında qərarı var idi. Yalnız bu şərtlə ki, o sonsuz çətinliklərlə üzləşsin, iztirablar, əzablar dəryasından keçib öz elinə-obasına çatsın. Lakin bu çətin-

liklərin, iztirab-əzabın müddəti, hüdudu göstərilmirdi. O isə uzanır, tükənib bitmir, Odisseyin də gününü qara edir, üzüb əldən salır.

O, vətən fədaisi, müharibə qəhrəmanı idi. Həm də adətən, fəda olanların iyini də sağ qalanlardan alırlar.

Ona görə də Odisseyə ikiqat rəğbət və qayğı göstərilməlidir. Allahların ona əzab verməsi simgəsəl (rəmzi) mənaya malikdir. Bu, dünyanın üzüdönüklüyünə işarədir. Axı öz elində xalq deyilən aləm də onun qövmünə və xatirəsinə nankor münasibətdədir.

Bəli, tapınmaq üçün xalqa göstərilən xidmətdən daha çox aldanış, yalan lazımdır.

İndi isə Odissey haqqında allahlar tərəfindən belə bir qərar verildi, evinə dönsün. Lakin yenidən böyük əzablar dəryasından keçməklə yanaşı.

Bu yöndə Odisseyə məlumat da verilir. Ona deyilir ki, bu sonsuz dənizlərdən, tufanlar, dalğalar arasından, sualtı, sukənarı sıldırımlara toxuna-toxuna köməksiz, yoldaşsız, gəmisiz tirlər üzərində, sal vasitəsiylə tənha surətdə üzüb keçməlisən.

Odisseyin qarşısında iki aləm dayanırdı: cənnətməkan adada, füsunkar təbiətin qoynunda, bolluq, nemətlərlə dolu dünyada əbədiyyət, ölümsüzlük, gursaçlı gözəl ilahə Kalipso ilə ömür sürmək, ya nəzərdə tutlan çətinliklə üzləşib yurduna, elinə-gününə, ailəsinə dönmək, bir fani kimi ömrü başa vurmaq.

Odissey ikinci yolu seçir.

Sən insan olmağın dəyərinə bir bax! Bu çətinliklər insan olmağın dəyəridir. Axı, o, elinə, ailəsinə nankor çıxsa, onları biz müşahidə etdiyimiz intizarda buraxmağı bacarsa, “Penelopa düşkünlərinin” sərəncamına versə (bu “Penelopa düşkünləri” ümumi namərdliyin, azğınlığın simgəsəl mənasıdır), çətinliklərdən uzaqlaşar, firavanlıq dəryasında üzərdi.

Bütün bunlar, eyni zamanda, insani bir səadətin dəyəridir. Görünür, firavanlıqlar, dünyanı nuş eləmək, yağ yeyib yaxada gəzmək, gözəlliklər aləmində süzmək, əbədi həyat belə, insani səadəti əvəz edə bilməz.

Biz Odisseyin ilişib qaldığı adada hələ təbiətin özünün ecazkar, füsunkar mənzərəsi ilə üzləşirik:

*“Gursaç pəri yaşadığı mağaraya çatanadək,*
*Getdi Hermes. Mağarada gördü gursaç Kalipsonu:*
*Ocağından qalxan alov asimana ucalırdı,*
*Bütün ada yanan sidrin xoş ətrinə qərq olmuşdu.*

*Əlində bir qızıl məkik pəri dəzgah ətrafında*
*Gəzib parça toxuyurdu, gözəl səslə oxuyurdu.*
*Qaraqovaq, qızılağac, bir də ki, sərv ağacının*
*Sıx meşəsi mağaranı hər tərəfdən bürümüşdü.*
*İri qanad bayquş, qırğı, açıq dimdik su qarğası,*
*Göy budaqlar arasında rahat yuva hörmüşdülər.*
*Onlar dəniz sahilində yem axtarıb yemlənirdi –*
*Mağaranın lap yanında çoxdu üzüm tənəkləri,*
*Budaqlardan ağır üzüm salxımları asılmışdı.*
*Bir-birindən az aralı dörd saf bulaq qaynayırdı,*
*Hər birinin büllur suyu bir tərəfə axmadaydı.*
*Kərəvizlə tər bənövşə süs verirdi göy çəmənə".*

*(Orada, səh.67).*

Biz yenə də yunan dastanlarına xas bəlli təsvir məharəti ilə üzləşirik. Təfərrüata getmirik. Yalnız təsvirə və məharətə o qiyməti verə bilərik ki, dastan dünyanı əvvəlcə ruhu ilə hiss edir, sonra sərəncamı qələmə tapşırır. Ona görə də təbiətin təsviri bu qədər canlı çıxmış.

Odissey öz pərisi ilə yanaşı bu cür məkanı götürmür. Halbuki pəri deyir ki:

*"Parçalanmış bir gəminin suda gəzən tiri üstdən,*
*Onu xilas edən mənəm. Zevsin bəyaz ildırımı*
*O gəmini ol sularda parça-parça eləmişdi,*
*Onun bütün yoldaşları dənizdə məhv olmuşdular,*
*Dalğa, külək qova-qova onu bura gətirmişdi.*
*Onu sevib yedirtdim mən. Möhkəm əmin olmuşdum ki,*
*Odisseyə ölümsüzlük, qocalmazlıq bəxş edərəm...*
*Madam ki, Zevs getsin deyir, qoy Odissey çıxıb getsin,*
*Lakin ona yol yoldaşı, gəmi verə bilmərəm mən.*
*Nə varlı gəmim, nə də onu sonsuz bir dənizin*
*Dalğaları üzərindən keçirəcək avarçım var.*
*Lakin ata diyarına sağ-salamat dönsün deyə*
*Nə məsləhət gərəkirsə, açıq qəlblə verərəm mən".*

*(Orada, səh.68).*

Odisseyin düşdüyü yer nəinki ilahi, füsunkar, firavan məkandı, həm də göründüyü kimi, bu diyarın sahibinin – Kalipsonun onun üzərində haqq-sayı da var. Kalipso deyir ki, mən onu sonsuz tufanlar qoynunda çapalayarkən, əziyyətlər içərisindən, əzab çəkərkən, müdafiəsiz qaldığı halda xilas etmişəm.

Kalipso demək istəyir ki, Odissey müəyyən dərəcədə mənim haqqımdır da...

Sonra Kalipso allahların bir-birinə göz olmasından da söhbət salır (Kalipso bəyanatının həmin yerini biz sitat gətirmədik). O deyir ki, bir faniyə ölümsüzlük verib onunla ömür sürərdim. Buna isə siz imkan vermədiniz. Sizin təbiətiniz belədir. Kimsənin güzarına imkan yeri qoymursunuz. Tək mən deyiləm. Siz Eosla Orionun da, Demetra ilə Yazonun da ittifaqını bu cür pozdunuz. Halbuki başqasının nuşicanlığının sizə bir maneçiliyi yox idi.

Bu, dünyanın xəbis xislətinə bir işarətdir.

Başqa tərəfdən, intim aləmə allah – Zevs özü göz qoyur. Bu işin simgəsəl cəhəti də odur ki, hər halda, intim dünya çərçivə arasına alınmalı, orada bir intizam, ictimai nəzarətin hökmü-fərması olmalıdır.

Yunan əsatirlərində ölməzlikdən, əbədi gənclikdən sıx-sıx danışılır. Çağdaş tərəqqi və qarşıda duran vəzifələr tələb edir ki, işin əsatiri məzmununda başqa müstəqim məna da axtaraq. O da ondan ibarətdir ki, insanın dərk etmə gücü ilə ömür müddəti, xüsusən gənclik üçün təyin edilən vaxt bir-birinə tay gəlmir.

Zaman etibarilə əbədiyyət var. Bunu insan nəinki qəbul edir, həm də nəzəri-elmi izahat işi də apara bilir. Onun keçmişdən və gələcəkdən müəyyən xəbəri var, indini görür və təhlili bağırır. Onun milyard işıq ili radiusda tədqiqatı qeydə alınıb. Kainatın bizə aid hissəsinin yaşı və genişlənmə sürəti ona məlumdur. Bu isə ona kainatın bizə aid hissəsinin hüdudlarını müəyənləşdirmək imkanı verir. Bu da 20 milyard işıq ili diametrindən çoxdur. Həm də insana məlumdur ki, aləm kainatlar məcmuundan ibarətdir.

İdrakın bu imkanı qarşılığında uzaq başı 40-50 il gümrahlıq, 80-100 il ömür uyğunsuzluqdur.

Lakin insan cismi onu amansızlıqla məhv edən daimi bir antihəyatla üzləşir. Bu xüsusda insanın hələ gəncliyi qorumaq, ömrü saxlamaq, bədəni gücləndirmək fənnindən lazımi dərəcədə xəbəri yoxdur.

Yunan əsatiri yəqin ki, buna sıx-sıx işarə vurur. Yunan əsatirinə tarixin gedişini öncədən dəqiq qavraması haqqında inam aşılamağa çalışmışdıq.

Yunan əsatiri əbədilər, fanilər söhbəti də salır.

Lakin bizim işarə vurduğumuz idrak daşıyıcılarının, füsunkar cisim tərtib edicilərinin qarşılığında xəbis, miskin, zavallı, xeyrə

nisbətən şəri daha asanlıqla həzm edən insan ölümə və fani adlanmağa layiqdir...

Allahlar Odisseyin vətənə dönməsi üçün hökm verdilər. Kalipso bu hökmə boyun əyməli idi. Allahlar Odisseyi açıq dənizə vəsaitsiz, köməksiz buraxmağı tapşırmışdı. Onların tapşırığı olmadan Kalipso belə, edəcəyini söyləyir. Görünür, Odisseyi əldən verməklə Pərinin dünyası alt-üst olurdu.

Lakin Kalipso məsləhət verməyi, ağıl köməyi edəcəyini söyləyir.

Bizcə, əqllə silahlandırmaq ən böyük köməkdir. Onu heç bir qol və cib əvəz edə bilməz. Əksinə, əql olduqda yol və cib də lazımlı səviyyədə köməyə gəlir. Əqlsiz qol və cibin düşər-düşməzi olar...

Qəribədir, insanlar kömək anlayışı üzərində dayananda məhz qola və cibə göz dikirlər. Ağıllı sözü eşitməksə ən çətin şeyə çevrilir.

Haqqında danışdığımız dolanbaclıq bizim söylədiyimizdən daha əhatəli, çalarlı və daha dərindir.

Odissey isə bütün şərtlərlə razıdır – təki o, evinə dönmək imkanı əldə etsin.

Kalipso Odisseylə rəftarı, ona umacaqsız, həyəcanlı münasibəti haqqında xeyli həzin sözlər söylədikdən sonra bu yöndəki fikrini belə yekunlaşdırır:

*“Ey allahın törəməsi, ey çoxbilmiş mərd Odissey!*
*Deməli, sən günü bu gün evə dönmək istəyirsən.*
*Nə deyirəm! Sevindirsin səni Olimp allahları!*
*Ancaq bilsən sən öz doğma vətəninə çatanadək!*
*Başına nə müsibətlər gətirəcək tale sənin,*
*Bu səfərə can atmazsan, yanımdaca qalıb mənim,*
*Ölməzliyə yetişərsən. Ancaq gedib arvadını*
*Görməyə çox can atırsan, onsuz yaman darıxırsan.*
*Halbuki mən nə görkəmdə geri qallam arvadından,*
*Nə də boyda. Bir də fani olan qadın gözəllikdə*
*Ölməz olan ilahəylə müqayisə olunarmı?”*
*O çoxbilmiş Odisseysə ilahəyə belə dedi:*
*“Bir söz deyim, ürəyinə toxunmasın, ey ilahə!*
*Özüm yaxşı bilirəm ki, ağıl kanı Penelopa –*
*Görkəmcə və boy-buxunca səndən çox-çox geri qalır.*
*O fanidir, sən ölümsüz və qocalmaz ilahəsən.*
*Lakin buna baxmayaraq gecə-gündüz fikrim budur.*
*Yenə də öz vətənimi, öz evimi gedim görüm.*
*Ölməzlərdən əgər biri tünd qırmızı dalğalarda*
*Mənə bəla göndərərsə, qəbulumdur o da mənim.*
*Döyüşlərdə və dənizdə mən az əzab çəkməmişəm;*
*Qoy çəkdiyim əzabların birisi də artıq olsun!”*

*(Orada, səh.70).*

Qarşıda duran çətinliklə bağlı söhbətə ehtiyac var. Lakin ondan öncə diqqəti cəlb edən budur ki, Kalipso Odisseyi əldə bərk-bərk tutub saxlamaq istəyir, yunanlı isə elinə, ailəsinə can atır.

Mərkəzdə Odissey dayanmışdır. Ona aid sifətlər də fərd – adi bir insan olmasından başlayır.

Dünya, onun yaratdığı sənət, nəzəri mülahizələr, gündəlik deyinmələr insani naqisliklərlə bağlı çox söhbətlər eləmişlər. Hətta sənətdə iblislər, şeytanlar, dedonlar və s.-lər yaratmışlar.

İnsanın xəbisliyi, dargözlüyü, yamanlığı ilə bağlı deyinmələrdə, ara söhbətlərində daha çox şey söyləmişlər.

Lakin bəşəri nemətlərdən insana insan qədər ehtiyac törədən ikinci bir amil tapılmaz. İnsan deyinir. Lakin tənhalığa, hətta seyrəkliyə düşən təki gözü axtarır. Birini gördükdə sevinir və dərhal gözü ikincisini, üçüncüsünü və s. axtarır.

Əlbəttə, çoxaldıqda yenə də cana doymalar, qarmaqarışıqlar və s. baş alıb gedir.

Lakin bu başqa məsələdir.

Şərt odur ki, insan insan üçün ehtiyacdır, lazımdır, əziz varlıqdır.

Hələ insanın insana can atması qırağa. Siz bir sıra heyvanlara diqqət yetirin. Anasız qalmış pişik balası, sahibinə öyrənmiş it, at insandan ayrıla bilmir.

Bu cəhət isə xeyrə nisbətən şəri daha asanlıqla həzm eləyən insanın böyük potensial bəşəri imkanıdır.

Kalipso ilahə olmasına baxmayaraq insanı, Odisseyi əldə saxlamaq üçün arsızlığını belə büruzə verməkdən çəkinmir.

Odissey isə elinə-gününə can atmaqla yanaşı Penelopaya çatmaq üçün həm əbədi gəncliyi, həm ölməzliyi, həm ilahi gözəl Kalipsonu, həm firavanlğı atıb, dənizlər, dalğalar qoynundan üzərək, çətinliklər dəryasından keçib getməyi üstün tutur.

Bunun simgəsəl mənası daha böyükdür. Bu da ondan ibarətdir ki, hər kəs öz xarabasında xoşbəxt ola bilər. Xüsusən xalqlar.

Əsarətə düşən xalqların hamısı istiladan gileylənmişlər. Lakin fürsət düşən təki özgə torpaqlarına göz dikməyən, başqalarının əlindəkini qapmağa çalışmayan, istilaya can atmayan xalq yoxdur.

İstila zahirən şişirdir, sərvətli, qüdrətli edir. Lakin istila, bu günə qədər hələ heç kəsi xoşbəxt etməmişdir. Bunun sonu ya dəhşətlə, ya da tam ölümlə nəticələnmiş. Çünki hər tərəfə göz dikən istilaçı öz daxili imkanları, yatar qüvvələri ilə məşğul olmaq imkanını itirir.

Bu gedişin təfərrüatını biz hələ lap başlanğıcda nizamlı və qarmaqarışıq hərəkətlərlə bağlı söhbətlərimizdə izaha çalışmışıq...

Bir diqqət yetirin, Odisseyə necə bir aləm təklif edilir. O isə öz səadətini elində-günündə, atasının, övladının arvadının – Penelopanın yanında axtarır.

Aqamemnon elinə məxsus səadəti, şərəfi qaytarmaq üçün ölkələr aşıb Troyaya gəlmişdi. Lakin o, burada nəfsinin, və azğınlığının qarşısını ala bilmədi. O, bütün səadətlərə göz dikərək acınacaqlı Xriseida, Briseida, Kassandra söhbətləri salır.

Bu, Odisseyin, bu da Aqamemnonun qanacağı.

İki qanacağı öz doğma yurdlarındakı iki nəticə ilə müqayisə edin.

Evinə dönərkən Odissey Penelopa sədaqəti, mərifəti, ülviyyəti, Aqamemnon isə Klitemnestra sədaqətsizliyi, məkri və azğınlığı ilə qarşılaşır.

Yox, Odissey haqlıdır – səadəti hər kəs öz xarabasında axtarmalıdır.

Ancaq məhəbbət, bağlılıq xarabanı vətənə, deməli, xoşbəxtlik gətirən bir yerə çevririr.

Beləliklə, Odissey Kalipsonu, onun yanındakı firavan, füsunkar, rahat həyatı atıb, nəqliyyatsız, əməkdaşsız surətdə dənizlər, dalğalar qoynunda evinə qayıtmalı olur.

Troya hadisələrindən sonra biz Odissey haqqında ondan-bundan eşidirik. Burada artıq Odisseyin özü ilə üzləşməkdəyik. Onun indi hansı çətinliklər dəryasından keçib gedəcəyini bilavasitə görəcəyik. Öncəki macəralarının təfərrüatı ilə isə Odissey feaklar arasında, oranın sakinlərinə öz güzarı haqqında “dastanlar” danışarkən eşidəcəyik.

Həyat yolunda hər bir adam, onun hər bir addımı ilə çətinliklərlə üzləşir ki, o tamamilə həlak olub sıradan çıxmırsa, sağ-salamat qalırsa, bu çətinliklər lap ölüm həddinə yaxınlaşır, onunla ölüm arasındakı məsafə sanki aradan götürülür.

O feaklar adasına da belə bir minvalla gəlib çıxır.

Odissey bu müşkül yola vəsaitsiz, əməkdaşsız çıxmalı idi, – allahların hökmü belə idi. Göz dikdiyi tikədən əli çıxdığına görə Kalipso məyusluğuna da bu uyğun gəlirdi. Lakin pəri ağıl köməyi göstərəcəyini vəd etmişdi.

Beləliklə, Odissey Kalipsonun nəzarəti altında bir adamlıq sal düzəldir və yola çıxır.

Bu 20 günlük səfər olmalı idi.

Lakin Odissey salın üstündə sahildən uzaqlaşan təki tufan qopur, ildırımlar çaxır və sal parça-tikə olur. Odissey öncə bir tirin üstə qalxır. Əgər quruda olsa idi, deyərdik ki, Odissey yıxıla-dura mənzil başına gəlib çıxır. Lakin sahilə yan alana qədər Odisseyin dənizlər, tufanlar qoynundakı vəziyyətini təsəvvürə gətirmək mümkündür. O, nə qədər ağır vəziyyətə düşməli ki, həm giley-güzar etməyə və həm də allaha yalvarmağa başlayır. Deyir ki, Troya divarları arasında, Axillesin yanında üzərimə saysız oxlar yağırdı. Bundansa orda ölsəydim daha yaxşı olardı. Heç olmasa məni bir əməllicə dəfn edərdilər...

Odissey sahilə bu minvalla yan alır.

Lakin sahil, nə sahil! Qayalıqların arası, quru isə sıldırım, divar təki dayanan sıldırımlarla əhatə olunmuş. Sahilə çarpan dalğalar isə onu atıb-tutur.

Deyir ki, Odissey bu dəfə sıldırımın çıxıntısından ikiəlli yapışdı. Lakin növbəti dalğa onu yerindən götürüb suya tulladı. Bu zaman daşdan bərk-bərk tutan Odisseyin iki əlinin dərisi də qopub qayada qaldı.

İndi özünüz təsəvvür edin, arxa su, tufan, dibsiz dəniz. Qarşı isə sıldırım – dərisi getmiş, qanı sızan, yaralı əllər. Bu qanı axan yaralı barmaqlar duzlu suda bərk-bərk ağrımalıdır. Lakin ölümdən qaçmaq məcburiyyəti səni həmin ağrılı, yaralı, təzəcə dərisi qopmuş, qan sızan barmaqlarla sərt, çıxıntılı daşlardan bərk-bərk yapışmağa məcbur edir...

Odissey məşəqqətlərinin məğzi bundadır.

Amma elə bu çətinlik də Odissey həyatının dəyəridir və onun zəngin təbiətinin, geniş xarakterinin daha da kamala çatması üçün keçib getdiyi yoldur. Biz bilirik ki, Zevs öz həmdəmi, məsləhətçisi, köməkçisi, hətta bir çox halda xilaskarı (bu xilaskarlığın məndəricəsi ilə tanış olacağıq), bundan daha artıq, doğma əmioğlusu (siyasətdə doğmalıq məkrin təsirinə asanlıqla düşsə də) Prometeyi insana qayğı göstərdiyinə, kömək etdiyinə görə çarmıxa çəkmişdi.

Zevs məhz allah olduğuna görə, insana köməyi qadağan etməməli idi. Amma Zevsin məntiqi başdır. O deyir, mən qəsdən insana daha çətin yol qoymuşam ki, o bu müşküllər dəryasından keçib daha qüdrətli olsun.

Zira, biz tarixin, insanın taleyinin acınacaqlı mənzərəsinə nəzər salarkən bir dəfə də demişik ki, insanın bundan da müşküllü,

acınacaqlı həyat yolu ola bilərdimi?! Bir halda ki, o yıxılıb-durub yox, lap ölüb-dirilib , yarımcandan da betər vəziyyətdə sürünüb gəlir.

Bir sıra əqidələr insanın müsibətlərini, başı üstünü kəsdirən məşəqqətləri nəzərə almadan, əsil həyat nemətlərinə çatmaq, sahiblənmək, öz bəşəri məndəricəsini qorumaq üçün kamillik yolu göstərirlər.

Onlar deyirlər ki, bu dünya həyatın heyvani mənzərəsidir.

Qidalanmaq, sığınmaq, başqa cinsə boylanmaq sənin heyvani vəziyyətini şiddətləndirir. Hələ buna mənsəbpərəstlik, dəbdəbə, varlanmaq, yekəxanalıq da əlavə olunur.

Lakin sən tək bu deyilsən. Allah sənə məhəbbət və idrak kimi əbədiyyət mündəricəli daha böyük nemət vermişdir.

Sən təbiətin səni sürükləyən şeylərini nəzarətin altına ala, nəfsinə hüdud qoya, heyvani nemətlərdən imtina edə bilsən belə bir rüsvayçı, insanı alçaldan məşəqqətlər dünyasından xilas olarsan.

Bir diqqətlə bax: o şeyi ki, sənin əlindən almaq olar, o heçdir.

Ən böyük mənsəb olan padşahlıq taxtından insanı salmaq mümkündür. Sərvət bir anda əldən çıxa bilər. Və s. və i.a.

Lakin dünyaya, onun ayrı-ayrı nemətlərinə, insana məhəbbəti, bundan daha artıq idrakı kimsə sənin əlindən ala bimaz.

Birinci aləm səni heyvan edir, ikinci insan; birinci ibtidaidir, ikinci ali.

Birincini əldən almaq mümkündür, ikincini yox! Və s.

Bu əqidə insani yolu görməyə, şəri, şərdən irəli gələn nemətləri, şərin üstün görünən pillələrini nüfuzdan salmağa kömək göstərir.

Lakin yolun mümkünsüzlüyü ondadır ki, əbədiyyətə qovuşmağa layiq, kamilliyin zirvəsinə çatmış adamın belə, gündəlik həmin keçici tələbləri var ki, onlar şər dünyası ilə qaynayıb-qarışmadan mümkün deyil.

Başqa tərəfdən, sən dünya ilə əhatə olunmusan. Şər bir seylab kimi hücum çəkir, səni öz irinli-zəhərli dalğaları arasına alır, sən dinc dayandıqda belə, üzərinə şığıyır – impulslar verir.

Kamillik işin bir tərəfidir və müəyyən mənada da sonrakı pilləsidir. (Ona görə müəyyən mənada ki, vəziyyət qarşılıqlı təsir münasibətində çox vaxt yanaşı gedir).

İnsanın başı üstünü çoxrəngli bir müsibət kəsdirmişdir.

Hər şeydən əvvəl gündəlik tələblər ödənilməlidir. Hələ sən müstəqil həyata başlayan təki buna ailə və daha geniş cəmiyyət vəzifələri əlavə olunur. Bu günə qədər isə həyat vasitələri məşəq-

qətlər hesabına başa gəlmiş. Bu nəinki ehtiyac içərisində qalanlar, hətta firavanlıq üçün də belədir. Çünki burada firavanlıqla əhatə olunanlar dərhal və həmin səbəbə görə, həyatın başqa hədələri ilə üzləşməli olurlar.

Çünki insan universal ehtiyacın törətdiyi universal çətinliyin qarşısındadır.

Sonra hazırsızlıqdan – zəiflikdən irəli gələn çətinlik nəzərə alınmalıdır.

Buraya fiziki güc və idraki qüvvət ilkin şərt kimi daxil ola bilər. Həm istehsal və həm də cəmiyyət vərdişləri isə daha böyük qüdrət kimi meydana çıxır. Həyat fənnindən baş açmaq üçün.

Bəsitlik kimi səmimiyyət də aldanışa yol qoyur. Ömür, xüsusən də həyat isə səhvi bağışlamır. Səhvdən doğan müsibətlər də hesablanmalıdır.

Nəhayət, məkrin, zorun, qərəzin başa gətirdiyi müsibətlər.

Sən təkcə kamillik əsasında zoru heç, fani hesab edib yaxa qurtara bilməzsən. O, daima ictimai qüvvə kimi üzərinə ləşgər çəkir.

Beləliklə, çətinlik həyatın dəyəri olmasa da, qiyməti kimi qarşıda dayanmışdır. Dəyər çətinliklər seylabından sonra mühafizə olunan həyat və ülviyyətin özüdür.

Gündəlik güzaran, idarəetmə sistemi həyat ideyalarsız keçinə bilməz. Bunlar çox vaxt əqidə şəklində ifadə olunur. İdeyalar isə elmlərlə aləm haqqında biliklərin məcmuu deməkdir.

Bu cəhətdən kamilliyi təbliğ edən təmayül vahid bir ideyanı təmsil edir.

Bunun diqqəti cəlb edən cəhəti odur ki, ucalığa çağırış var.

Lakin o da hər cür təriqət və hakim baxışlar kimi həqiqi yaradıcı adamlarla xalq arasında sədlər törədir. Bu cəhətdən həmin əqidələr hakim baxışlarla səsləşərək əsil yaradıcılığa və xalqın özünə qarşı dayanmış. Bu cəhətdən onlar, haradasa bir-biri ilə hətta müttəfiqdirlər də.

Lakin dairələr belə əqidələrə qarşı amansız rəftar etmiş. Xüsusən istibdadın bərqərar olduğu aləmlərdə. Çünki üzdə dayandıqlarına görə, bir-birinə qarşı da daha açıq rəqibdirlər.

Xalq da üzdə olanı – hakimi və ona qarşı dayanıb zərər çəkən tərəfi daha asan görmüş. Gündəlik və əbədi tələblər, dünyanın özü və ona məxsus daha yaradıcı adamlar, aləmi bütöv şəkildə, onun görünəni, görünməyəni, maddisi-mənəvisi, varlığı-yoxluğu, mövcudluğu-qeyri-mövcudluğu, keçiciliyi-əbədiliyi, dayanıqlılığı-axıcılığı

ilə birlikdə qəbul edən və əsil xidmət göstərən şəxslər isə nəzərdən yayınır.

Yalnız tarixin saf-çürüyü, ümumi yaddaşı sərf-nəzər edilməklə!...

Odisseyin xoşbəxtliyi ondadır ki, o, həm çalarlı, geniş xarakterli, bütövdür, həm də xalq tərəfindən anlaşılan. Buna da onun mütləq ülviyyətdən xeyli uzaq olması imkan verir.

Mütləq ülviyyət mütləq məşəqqət və xalqla əlaqəni itirmək yaradır.

Bu faciəvidir.

Ülviyyətdəki kölgəli cəhətlər Odisseyə uğur gətirir.

Lakin Odissey olasan – həyatında da kölgəli izlər buraxasan – bu da fəlakətdir.

İndi Odissey özü qarşımızda dayanmış və o dənizlər qoynundaləngərlər vura-vura elinə qayıtmaqdadır.

Odissey üçün ən çətini feaklar ölkəsinə çatana qədərdir. Ora çatandan sonra feaklar onu yaxşı qarşılayacaq, gəmi, köməkçi və bələdçilər verib də yola salacaqlar. Allahların qərarı və təlqini belədir.

İşlər də yaxşılıqla başa gəlirdi. Odissey salın üstündə. Tək-tənha Kalipsonun tövsiyyələri ilə göyün üzünə baxa-baxa bürclərdən yön götürə-götürə feaklar ölkəsinə yaxınlaşmaq üzrə idi.

Lakin taleyin oyunu min başlıdır. Burada tale rolunu Odisseylə öcəşməyə düşən Poseydon oynayır. Çünki Odissey çətinlikləri dəf etmək məcburiyyətində qalarkən Poseydonun təpəgöz oğlu Polifemə xətər toxundurmuşdu:

*“...Gəzib göydə o göz qoyur Oriona seçilmədən,*
*Okeanın sularında yuyunmayan bircə odur.*
*Kalipso mərd Odisseyə demişdi ki, elə getsin*
*Ki, həmin bürc olsun salın həmişə sol tərəfində.*
*On yeddi gün dənizdə yol qət elədi mərd Odissey.*
*Ertəsi gün üzüb gedən sala yaxın məsafədə*
*Feakların kölgəli dağ-təpələri çarpdı gözə.*
*Sis dumanlı dəniz üçün bir qalxandı sanki onlar.*
*Lakin həbəş ölkəsindən qayıdırdı yersarsıdan.*
*Odisseyin göy dənizi salla üzüb keçdiyini*
*Gördü Salim dağlarından. Poseydonu hirs çulğadı,*
*Və başını tərpədərək belə dedi öz-özünə:*
*“Bu nə işdir? Doğrudanmı mən həbəşlər diyarında*
*Olan zaman allahlar bir başqa qərar qəbul edib?*
*O feaklar adasına yaxınlaşır; ora çatsa:*
*Demək azad olmalıdır sonsuz əzab-işgəncədən”.*

*(Orada, səh. 71-72).*

Bəli, tale Odisseyi həmişə məqsədin lap yaxınlığından sürüşdürüb tufanların qoynuna salır. Bir qədər sonra feaklara öz güzaranını danışmağa başlayanda da görəcəyik ki, müəyyən səbəb üzündən Odissey Troyadan yurda qayıdanda, lap çataçatda tale döndü və o, ucsuz-bucaqsız dənizlər qoynunda dolaşa-dolaşa qaldı.

Burada da eyni vəziyyətin təkrarını görürük.

Biz Odisseyin feaklar torpağına necə məşəqqətlə yan almasını xatırlatmışdıq.

Bu Poseydonun tədbirləri idi.

Poseydon Odisseyi yaxşı durumda gördü və dərhal işə başladı. Həmin acınacaqlı durum bu "fəaliyyətin" nəticəsi idi.

Sonra o, özü də öz əməllərinə baxıb deyir:

*"Ey cəfakeş, bu tufanlı dənizdə üz, üz hələ sən,*
*Üz o Zevsin yetirməsi feaklara çatanadək.*
*Çəkdiyin bu müsibətlər, məncə, sənin cəzandır çək!"*

*(Orada, səh. 74).*

Müəyyən allahlar yunanların, başqaları troyalıların tərəfindədir. Baş allah Zevs daim müvazinətçi rolunda çıxış etsə də, əslində son qələbəni yunanlar üçün hazırlayır. Məntiq belə bir arxayınlıq yaradır ki, Odissey bir yunanlı kimi allahın özünün pənahındadır.

Axı indi Odisseyə işgəncələr verən Poseydon özü də dost, əməkdaş, silahdaş olan Axillesin ana babası idi. Bəs bu allah, Zevsin qardaşı, dənizlər hakiminə nə düşmüşdü ki, Odisseyin yaxasından əl çəkmir. Allahların onun haqqında çıxardığı güzəştli qərardan sonra belə.

Bunun səbəbini biz bilirik, təpəgöz – Polifem əhvalatı!..

Bəli, allahlar bənövşələr bitirir, sonsuz səmanın aydınlığını bizə işarə verir. Deyir, ora baxın, orada bir ülviyyət var. Sən bədənin tələblərinə, hərcayilikdən doğan xəbisliyə uyma. Sən insansan, idrak daşıyıcısısan, ürəyin-ruhun var. Sənin ruhun sezilməz bir möcüzəyə qovuşmaq üçündür. Daha artıq, arxasında bəşəri keyfiyyətlərin dayandığı ruh özü bir möcüzədir.

Başqa tərəfdən də, onlar təpəgözlər törədir, dünyanın cilovlarını da onların əlinə tapşırır və deyir də ki, əl vurma.

Amma özünü müdafiə etməyin, bir an fasilə götürüb nəfəs dərməyin də başqa yolu yoxdur.

Toqquşmaq üçün mütləq durumu bənövşələrlə təpəgözləri yanaşı qoyan fələklər özləri tərtib etmişlər.

Bir çox halda təpəgöz səlahiyyətli mütləqləşir. Onda dünya, bəşəriyyət özü təpəgöz timsalında üzə çıxır.

Təpəgözləşən dünya, bəşəriyyət!

Onda vay Fərhadların, Hamletlərin halına!

Biz haradasa "heraklitlik" anlayışı işarə vermişdik.

Sonra ona "koroğluluğu" əlavə etmişdik.

Lakin bəşər həyatında tarixin müəyyən mənzərəsində "təpəgözləşmə" mütləq vəziyyətə gələrsə Fərhadlar, Hamletlər özlərinə hansı yolu seçsinlər, "Heraklitliyi", yoxsa "Koroğluluğu".

Qarşıda duran müşkülün cavabı sistemli bir fikir tələb edir.

Dalğalar öz qoynunda Odisseyi atıb-tutur, acınacaqlı və ümidsiz durum yaranmış. Bəzən Odisseydə asilik əlamətləri də müşahidə edilir.

Lakin o, allahın pənahındadır. Onu Afina özü himayə edir. Bu dalğalar qoynunda Afinaya yaxın, ona köməkçi bir pəri də Odisseyə yanaşıb, ürək-dirək verərək bu yöndə deyir:

*"De, ay yazıq, neylədin ki, hirsləndirdin Poseydonu?*
*Niyə belə qəzəblənib, sənə belə divan tutur?*
*Amma bil ki, istəsə də məhv eləyə bilməz səni".*

*(Orada, səh.73).*

Deməli, Odissey sağ-salamat elinə-ailəsinə yetəcək. Amma çətinliklər, işgəncələr, əzablar dəryasından keçəndən sonra. Allahın hökmü belədir. Ona görə də Poseydonun bütün cəhdi bu çərçivədə ola bilər.

Məsələsi pis çıxsa da, allah-insan münasibətindəki bu dolanbaclıq xalq arasında yayılmış bir əhvalatı xatırladır.

Deyirlər, mehriban ər-arvad var imiş.

Mehribanlıq öz yerində.

Deyir mehribanlıqla yanaşı ər bir yerə gedəndə arvad evə yad da buraxarmış.

Bir, iki və s.

Ürəyi yananlardan biri əhvalatı kişiyə danışır.

Kişi inanmaq istəmir.

İşin əslini müəyyənləşdirmək üçün pusqu düzəldirlər.

Kişi səfərə çıxıram adı ilə bir tərəfdə gizlənir. Arvad arxayın halda yad adama əl eləyir. Görüşür və öz işlərində olurlar...

**Sabir Yanardağ**
**(İmamverdiyev Sabir Mustafa oğlu)**

# İstibdad və İstila, yaxud Xeyirlə Şər arasında – Bəşər Aqibəti

**(araşdırmalar)**

**(Türk dilində)**

***Kitab müəllifin öz yatırımı ilə basılmışdır.***

**Bağlantı: (012) 440-99-33**